AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

NABAT CƏFƏROVA

# İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI

***Dərslik***

***(I hissə)***

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 12.11.2015-ci il tarixli 1039 №-li əmri ilə təsdiq edilmişdir.*

**Bakı – 2016**

**Elmi redaktor:** **N.Q.Cəfərov**
*AMEA-nın müxbir üzvü, Atatürk Mərkəzinin direktoru, filologiya üzrə elmlər doktoru, professor*

**Rəyçilər:** **F.R.Xalıqov**
*Filologiya üzrə elmlər doktoru, professor*
**R.L.Hüseynzadə**
*Pedaqogika üzrə elmlər doktoru, professor*
**B. Həsənli**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
**A.Əliyeva**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**N.B.Cəfərova. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası.** I hissə. (Dərslik). Bakı-2016, ADPU-nəş. 403 s.

Dərslik ibtidai siniflərdə Azərbaycan dilinin tədrisinə, savad təliminin nəzəri və praktik problemlərinə həsr edilmişdir. Dərslikdə ibtidai siniflərdə savad təliminin mahiyyəti, əhəmiyyəti, məqsədi və vəzifələri açıqlanmış, problemin pedaqoji, psixoloji və linqvistik aspekti araşdırılmış, kurikulum tələbləri baxımından yeni yanaşmalar, savad təlimi dövrünə dair dərs nümunələri öz əksini tapmışdır. Fəal təlim prinsiplərinə istinad edən yeni metodların, interaktiv texnikaların tətbiqi ön plana çəkilmiş, həmçinin oxu və yazı təlimi məsələləri şərh edilmişdir.

Dərslikdə ibtidai siniflərdə savad təliminin məzmunu və metodik sistemi verilmiş, I siniflərdə "Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu)"nun (I-IV siniflər) məktəb təcrübəsindəki nəticələri izlənilmişdir. Dərslik ibtidai təlim üzrə bakalavr, magistr, ibtidai sinif müəllimləri və tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.

**Müəllif hüquqları qorunur. Müəllifin icazəsi olmadan bu kitabı çap etmək və surətini çıxarmaq qadağandır.**

***© N.Cəfərova, 2016***

# ÖN SÖZ

Hər bir dilin elmi cəhətdən tədqiq olunmasının və praktik şəkildə öyrənilməsinin böyük əhəmiyyəti vardır. Dil çox mürəkkəb xüsusiyyətlərə, dərin və gizli sirlərə malikdir. Dilə dair geniş məlumat və bilik əldə etmək sayəsində hər kəs ayrı-ayrı məsələləri daha dəqiq ifadə edə bilir.

Dil fikrin ifadə vasitəsi kimi təzahür etdiyinə görə beynin fəaliyyəti olan təfəkkürlə sıx əlaqədardır. Dil və təfəkkür eyni vaxtda, eyni mənbədən yarandıqları üçün vəhdət təşkil edir. Lakin bunların hər birinin özünəməxsus cəhətləri vardır. Belə ki, dil lüğət və qrammatik vahidlərdən istifadə edir. Təfəkkürün istifadə mənbəyi məfhumlar və hökmlərdir.

Dil ictimai hadisədir. Dil yarandığı zamandan etibarən cəmiyyətin bütün üzvləri üçün eyni dərəcədə ünsiyyət vasitəsi olur.

Dili yaradan xalqdır. Azərbaycan xalqı da hələ uzaq keçmişdə öz dilini yaratmışdır. Bu dilə hal-hazırda Azərbaycan dili deyilir. Azərbaycan dili Azərbaycan xalqının milli və rəsmi dövlət dilidir. Azərbaycan Respublikasının ərazisində yaşayan azsaylı xalqların nümayəndələri də (tat, kürd, talış, udin, xınalıq, buduq, qrız, saxur, avar və b.) Azərbaycan dilindən ikinci ana dili kimi istifadə edirlər.

Azərbaycan dili öz mahiyyətinə görə zəngin dillərdən biri sayılır. Bu dilin özünəməxsus gözəlliyi və ahəngi vardır. Azərbaycan dili, hər şeydən əvvəl, xoş avaz yaradan səslər sisteminə, zəngin və rəngarəng söz ehtiyatına, tam sabitləşmiş qrammatik quruluşa malikdir.

Azərbaycan dili əsrimizin əvvəlindən xüsusi tədqiqat obyekti olmuş, dərindən tədqiq edilməyə, geniş dairədə öyrənilməyə başlanmışdır.

Dərslikdə Azərbaycan dilinin təfəkkürlə dilin vəhdəti və fərqi əsasında mənimsədilməsi qanunu, bu qanundan doğan metodik prinsiplər; Azərbaycan dili dərslərində anlayışların uyğunlaşması, qarşılaşdırılması və qarışması, yaxud interferensiyası qanunu, bu qanundan doğan prinsip və tələblər

haqqında məlumat verilmişdir. Həmçinin dərslikdə Azərbaycan dili dərslərində ən çox istifadə edilən metod və priyomlar: ənənəvi və fəal/interaktiv təlim üsulları, onları səciyyələndirən və fərqləndirən əsas əlamətlərin şərhinə də yer verilmişdir. Azərbaycan dili dərslərində ən çox istifadə edilən üsul, iş növü, yol, vasitə, və s. texnikalar, həmçinin təlim metodlarını düzgün seçməyin əsas şərtləri haqqında məsələlərin izahı məqsədəuyğun sayılmışdır.

İbtidai siniflərdə Azərbaycan dili təliminin bir tədris fənni kimi mövqeyi, Azərbaycan dili tədrisinin məqsəd və vəzifələri, Azərbaycan dili dərslərinin quruluşu və təşkilinə verilən müasir tələblər dərslikdə bu və digər şəkildə öz həllini tapmışdır.

Dərslikdə Azərbaycan dilinin tədrisi tarixinə dair, Azərbaycan dilinin tədrisi metodikasının inkişaf yolu haqqında qısa xülasə, ilk proqram və dərsliklərin yaradılması şəraiti; müasir kurikulumlarin əsas xüsusiyyətləri haqqında məlumatlar verilmişdir. Azərbaycan dili dərslərinin planlaşdırılması və bunun Azərbaycan dili dərslərinin təşkilində rolu, məzmun standartlarına görə məqsədin müəyyənləşdirilməsi, illik, gündəlik planlar və icmal nümunələrinin verilməsi müəllimlərə kömək məqsədini daşıyır.

İbtidai siniflərdə Azərbaycan dili təliminin qarşısında duran ümumi və konkret didaktik vəzifələr şagirdlərin dünyagörüşünün və təfəkkürünün inkişafına və ən başlıcası nitq bacarıqlarının və nitq mədəniyyətinin inkişafına xidmət edir.

Müasir Azərbaycan ədəbi dil normalarının(fonetik, orfoqrafik, orfoepik, leksik, semantik, qrammatik, üslubi) ibtidai siniflərdə təcrübi(praktik) yolla mənimsənilməsi zəruri olmaqla, gələcəkdə şagirdlərin kamil nitqə yiyələnməsini təmin edir. Kamil nitqi xarakterizə edən əsas amillər: nitqin aydınlığı, obrazlılığı, yığcamlığı, təmizilyi, düzgünlüyü, zənginliyi, sadəliyi, münasibliyi, rabitəliliyi, ifadəliliyi, dəqiqliyi, məntiqiliyi, konkretliyi, səlisliyi və ahəngdarlığı, səmimiliyinə dair bacarıqların özülü ibtidai siniflərdə qoyulur.

Hazırda şagirdlər I sinfindən etibarən Azərbaycan dilinin zənginliyi ilə tanış olmağa başlayır, yuxarı siniflərdə Azərbaycan dilini nəzəri və praktik cəhətdən daha dərindən öyrənirlər.

I sinifdə savad təlimi dövründən şagirdlər nitq səslərini öyrənməklə, onların qrafik işarəsi olan hərfləri tanıyır, oxu və yazı texnikasına yiyələnirlər. Səs və hərfin fərqi fonunda onlar həm də ilkin fonetik biliklər əldə edirlər.

Savad təlimi dövründə aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılır:

- savad təlimi dövrünün məqsəd və vəzifələri;
- savad təlimi dövründə dərslərin təşkili və quruluşu;
- savad təlimi dövründə fəal (interaktiv) təlim metodlarından istifadə;
- savad təlimi dövründə istifadə olunan əyani və texniki vasitələr;
- savad təlimi dövründə nitq və təfəkkürün inkişafı.

Savad təlimi dövründə şagirdlər **ilkin oxu və yazı bacarıqlarına** yiyələnirlər. İlkin mərhələdən şagirdlərin ədəbi dil normalarına uyğun oxu və yazıya yiyələnməsi diqqət mərkəzində saxlanılır. Bu baxımdan srategiyalı oxu vərdişlərinin yaradılması istiqamətində işlərin təşkili qaydaları dərslikdə geniş şəkildə öz əksini tapmışdır.

Dərslikdə yazı təliminin müvəffəqiyyətlə başa çatması, şagirdlərin hüsnxətt tələblərinə uyğun yazı bacarıqlarına yiyələnməsi üçün müəllimin görəcəyi işlərdən, müxtəlif fəaliyyət növləri, tapşırıq və çalışmalardan istifadə yolları açıqlanmışdır.

Dərslikdə ibtidai siniflərdə savad təliminin (oxu, yazı) metodikası müasir tələblər baxımından işlənmişdir.

Kitabın hazırlanmasında prof. Y.Kərimov, prof. H.Balıyevin və b. əsərlərindən istifadə edilmişdir.

Dərslikdəki çatışmazlıqlar və problematik məsələlərlə bağlı fikirlərini və məsləhətlərini çatdıranlara əvvəlcədən minnətdarlığımı bildirirəm.

# I FƏSİL

# AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI ELM KİMİ

## Azərbaycan dilinin tədrisi metodikası elmi

**Əsas istiqamətlər:**

- **Azərbaycan dilinin tədrisi metodikası elminin obyekt, predmet, məqsəd və vəzifələri**
- **Azərbaycan dilinin təliminin inkişaf qanunauyğunluqları, prinsipləri, metod, priyom və vasitələri**
- **Azərbaycan dilinin tədrisi metodikası elminin tədqiqat metodları**
- **Azərbaycan dilinin tədrisi metodikası elminin nəzəri əsasları və başqa elmlərlə əlaqəsi**

### Azərbaycan dilinin tədrisi metodikası elminin obyekt, predmet, məqsəd və vəzifələri

Azərbaycan dilinin tədrisi metodikası pedaqoji elmlər sisteminə daxildir. Azərbaycan dilinin tədrisi metodikası elminin özünəməxsus tədqiqat obyekti, predmeti, məqsədi, ümumi və konkret didaktik vəzifələri vardır. Azərbaycan dilinin tədrisi metodikası elmi Azərbaycan dili tədrisinin keçdiyi inkişaf yolunu, Azərbaycan dili tədrisi metodikasının nəzəri əsaslarını, başqa elmlərlə əlaqəsini, tədqiqat metodlarını öyrənir. Azərbaycan dilinin tədrisi metodikası elminin inkişaf qanunauyğunluqları, Azərbaycan dili təliminin qanunları, məzmunu, prinsipləri, metodları, priyom və vasitələrinin geniş şəkildə öyrənilməsi də bu elm sahəsinə daxildir.

Azərbaycan dilinin tədrisi metodikası elminin tədqiqat sferasına ənənəvi, fəal təlim üsulları, şagirdlərin bilik, bacarıq və vərdişlər əldə etmələri üçün ən optimal şəraitin yaradılması, onların təlim müvəffəqiyyətlərinin hesaba alınması və qiymətləndirilməsi məsələləri daxildir.

Azərbaycan dilinin tədrisi metodikası fənni bir təcrübi elm kimi daim inkişaf edir. Azərbaycan dilinin tədrisinin müasir problemləri ilə əlaqədar aparılan yeni-yeni elmi tədqiqatlar, qabaqcıl təcrübə onun nəzəri-praktik müdəalarını daim təkmilləşdirilməsi məntiqi cəhətdən bir-biri ilə bağlı olub, ibtidai siniflərdə Azərbaycan dili tədrisinin ən mühim problemlərini əhatə edir.

Azərbaycan dilinin tədrisi metodikası elminin **obyektini** ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi təşkil edir.

Azərbaycan dilinin tədrisi metodikası elminin **predmetini** ibtidai siniflərdə Azərbaycan dilinin tədrisinin nəzəri və praktik problemlərinin işlənilməsi və bunun təlimin keyfiyyətinə təsirinin müəyyənləşdirilməsi təşkil edir.

Azərbaycan dilinin tədrisi metodikası elminin **məqsədi** ibtidai siniflərdə Azərbaycan dili təliminin məzmununu müəyyənləşdirmək, öyrənilən bilik, bacarıq və vərdişlərin formalaşdırılmasının metodik sistemini hazırlamaq, şagirdlərdə nitq bacarıqlarını, nitq mədəniyyətini inkişaf etdirməkdən ibarətdir. Azərbaycan dilinin tədrisi şagirdlərin elmi dünyagörüşünün formalaşmasına kömək göstərir.

Azərbaycan dilinin tədrisi metodikası elminin qarşısında aşağıdakı vəzifələr durur:

- ❖ Azərbaycan dilinin səs sisteminin öyrənilməsi.
- ❖ Azərbaycan dilinin lüğət tərkibinin, onun zənginliklərinin və xüsusiyyətlərinin öyrənilməsi.
- ❖ Azərbaycan dilinin qrammatik quruluşu haqqında biliklərin öyrənilməsi.
- ❖ Azərbaycan dilinin şifahi və yazılı nitq formaları üçün qəbul edilmiş normaların mənimsənilməsi.

Metodist alim A.V.Tekuçev yazırdı ki, dili sevmək şagirdlər üçün birinci növbədə onu yaxşı öyrənməkdir. Ana dilini yaxşı bilmək, onu anlamaq, onu yaratmış xalqı sevmək, bu isə özlüyündə xalqa, vətənə sədaqətlə qulluq etmək deməkdir.

Azərbaycan dili təliminin mahiyyətini açmaq, bu prosesin obyektiv qanunlarını aşkara çıxarmaq, habelə həmin qanunlardan əməli fəaliyyətdə istifadə etmək imkanlarını şərh edib əsaslandırmaq Azərbaycan dili tədrisi **metodikası elminin əsas vəzifəsidir.**

Azərbaycan dili təliminin qarşısında duran vəzifələri iki qrupa ayırmaq olar: ümumi vəzifələr; konkret didaktik vəzifələr.

Ümumi vəzifələr:

- şagirdlərin ümumi dünyagörüşünün yüksəlməsinə kömək etmək;
- şagirdlərin təfəkkürünü, müstəqilliyini inkişaf etdirmək;
- şagirdləri şəxsiyyət kimi yetişdirməyə kömək etmək;
- şagirləri həyata hazırlamağa kömək etmək.

Konkret didaktik vəzifələr:

- şagirdlərin nitqini və təfəkkürünü inkişaf etdirmək;
- şagirdlərə ana dili ilə bağlı müəyyən həcmdə bilik və bacarıqlar vermək;
- şagirdlərin düzgün tələffüz, ifadəli oxu vərdişlərini, rabitəli nitq vərdişlərini inkişaf etdirmək;
- şagirdlərdə orfoqrafiya və durğu işarələri ilə bağlı vərdişlər yaratmaq və s.

İbtidai siniflərdə Azərbaycan dili tədrisinin qarşısında aşağıdaki vəzifələr durur :

- şagirdlərə öz fikrini şifai və yazılı şəkildə məzmunlu, rabitəli, məntiqi, dəqiq, canlı, obrazlı ifadə etməyi öyrətmək;
- şagirdlərə düzgün, surətli, şüurlu, ifadəli oxumaq, kitablardan müstəqil istifadə etmək vəqdişləri aşılamaq;
- şagirdlərə dəqiq, aydın, səliqəli, rabitəli kalliqrafiya vərdişləri aşılamaq;
- şagirdlərə ilkin orfoqrafiya və punktuasiya vərdişləri aşılamaq;

- şagirdləri şifai xalq ədəbiyyatının gözəl inciləri, milli adət və ənənələrimizlə tanış etmək;
- şagirdlərə ətraf aləm, təbiətdə və cəmiyyətdə baş verən hadisələr haqqında məlumat vermək;
- şagirdlərin idrak fəaliyyətinin fəallığını təmin etmək;
- şagilərdə yüksək əxlaqi keyfiyyətlər(doğma dilə, xalqa, vətənə məhəbbət, mənəvi təmizlik, ədalətlilik, xeyirxahlıq, rəhimdillik) tərbiyə etmək;
- şagirdlərdə müstəqillik, təşəbbüskarlıq, yaradıcılıq tərbiyə etmək.

Azərbaycan dilinin tədrisində son məqsəd şagirdlərin şifahi və yazılı nitq bacarıqlarını inkişaf etdirməklə, onların nitq mədəniyyətinə yiyələnməsindən ibarətdir. Şagirdlər öz fikirlərini Azərbaycan dilində şifahi və yazılı şəkildə düzgün ifadə etməkdə çətinlik çəkmirlərsə, təlimin müvəffəqiyyətlə həyata keçdiyi qənaətinə gəlmək olar. İbtidai siniflərdə şagirdlərə Azərbaycan dilinin fonetikası, leksikası, söz yaradıcılığı, qrammatikası ilə bağlı müəyyən həcmdə bilik və bacarıqlar vermək, dilin ictimai həyatdakı rolu haqqında anlayış yaratmaq zəruridir.

Şagirdlərin düzgün tələffüz və oxu vərdişlərini, rabitəli nitqini inkişaf etdirmək, onlarda sözə, dilin ifadəlilik vasitələrinə, onun zənginliklərinə həssas münasibət və diqqətlə yanaşmaq meyli tərbiyə etmək daim müəllimin diqqət mərkəzində olmalıdır. Şagirdlərdə orfoqrafiya və durğu işarələri ilə bağlı möhkəm vərdişlər yaratmaq da vacib məsələlərdəndir. Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırır. Nəticədə Azərbaycan dili düşünmə, öyrənmə, danışma vasitəsinə çevrilir.

Azərbaycan dili ümumtəhsil məktəblərində tədris olunmaqla şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına xidmət edir. Şagirdlər bu fənnin vasitəsilə milli mədəniyyət nümunəsi kimi ana dilini öyrənir, onun səs sisteminə, lüğət ehtiyatına,

üslubi-qrammatik xüsusiyyətlərinə yaxından bələd olur, elmi, bədii, publisistik və digər üslublarda yaradılmış ədəbiyyat nümunələri ilə tanış olmaq imkanı qazanırlar. Eyni zamanda, bu dildən istifadə edərək öyrənəcəkləri digər fənlərin daha yaxşı mənimsənilmə potensialını genişləndirirlər.

Hər bir şəxs müxtəlif formalı və məzmunlu mətnləri səlis, şüurlu oxumağa, yazılı və şifahi şəkildə səmərəli və yaradıcı ünsiyyət qurmağa qadir olmalıdır. Bu baxımdan, Azərbaycan dilinin bir fənn kimi təlim əhəmiyyəti çox böyükdür.

## Ədəbiyyat


1.Abdullayev A.S. İbtidai məktəbdə Azərbaycan dilinin tədrisinin metodikası. Bakı: Maarif, 1962, 165 s.

2.Abdullayev A.S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Maarif, 1968, 262 s.

3.Abdullayev N.Ə. Ədəbi tələffüz təliminin metodikası. Bakı: Maarif, 1986, 162 s.

4.Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (təlim Azərbaycan dilində olan məktəblər üçün) fənni kurikulumu.Bakı, 2010

5.Balıyev H.B. Ana dilinin tədrisi metodikası. Bakı: 3 №li Sənaye Liseyi, 1997,102 s.

6.Balıyev H.B. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: ADPU-nun nəşri, 2003, 426 s.

7.Həsənov M.,Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Elm və təhsil, 2013, 404 s.

8.Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.

9.Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, 408 s.

10. Tağıyev B. Oxu təlimi. Bakı, 2006, 315s.

11. Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009, 5 sentyabr

## Azərbaycan dilinin tədrisi metodikasının inkişaf qanunauyğunlaqları

- **Azərbaycan dilinin tədrisi metodikasının inkişaf qanunauyğunlaqları**
- **Qabaqcıl məktəb və müəllimlərin iş təcrübələri**
- **Əvvəllər əldə edilmiş fikirlərə düzgün əsaslanmaq, köhnəliklə yeniliyi düzgün əlaqələndirmək**
- **Elmi-tənqid azadlığı**

Təhsildə aparılan islahatların əsas məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsidr.Təhsilin keyfiyyətinin yüksəldilməsi və idarə olunması Milli Kurikulum çərçivə sənədində öz əksini tapmışdır.Azərbaycan Respublikasında həyata keçirilən islahatlar təhsilin inkişafına, onun müasir Avropa təhsil məkanına inteqrasiya olunmasına yönəlmişdir. Hazırda məktəblərin qarşısında duran əsas məqsəd özü, vətəni, ailəsi üçün lazımlı olan, müstəqil düşünən, sağlam rəqabətə hazır olan şəxsiyyət yetişdirməkdir. Belə bir məsuliyyətli işin bünövrəsi ibtidai siniflərdən qoyulur.

Təhsilin müasir tələblərə cavab verməsi müəllimin elmi-pedaqoji səriştəsindən, gündəlik fəaliyyətindən çox asılıdır. Müəllim tədris etdiyi fənn üzrə qanunauyğunluqları, prinsip, tələb, yol, vasitə və fəal/interaktiv üsulları bilməli, dərsini innovativ metodika ilə qurmalıdır. İbtidai siniflərdə tədrisin keyfiyyətinin yüksəldilməsi, o cümlədən Azərbaycan dilinin səmərəli tədrisi bütövlükdə elə təhsilin inkişafına xidmət edir. İbtidai siniflərdə dərs deyən müəllimlər Azərbaycan dilinin tədrisinə dair qanunauyğunluqları, prinsip, tələb, yol, vasitə və fəal/interaktiv üsullarını bilməli, bu dil üzrə ən son yenilikləri izləməli, təlimin təşkilində onlardan yararlanmalıdırlar.

Azərbaycan dilinin tədrisi metodikası elminin özünəməxsus inkişaf qanunauyğunluqları vardır. Azərbaycan dilinin tədrisi metodikası elminin inkişaf qanunauyğunluqları ümumi pedaqoji, psixoloji, linqvistik, mətnşünaslıq və didak-

tik qanunauyğunluqlara istinad edir. Azərbaycan dilinin tədrisi qanunauyğunlaqlarını belə xarakterizə etmək olar:

1. Hər bir dərsdə məqsəd aydınlığının olması, məzmuna uyğun forma, vasitə və metodlardan, iş formalarından düzgün və dəqiq istifadə edilməsi.

2. Fənlərarası və fəndaxili əlaqələrin nəzərə alınması.

3. Nəzəri biliklərin təcrübəyə tətbiqi.

4. Təcrübədən nəzəri məlumatların, mülahizələrin çıxarılması və s.

Azərbaycan dilinin tədrisi metodikası elminin də inkişaf qanunauyğunlaqları mövcuddur:

1. Qabaqcıl məktəb və müəllimlərin iş təcrübələrinin ümumiləşdirilməsi.

2. Dil metodikası sahəsində əvvəllər əldə edilmiş fikirlərə düzgün əsaslanmaq, köhnəliklə yeniliyi düzgün əlaqələndirmək.

3. Elmi-tənqid azadlığı.

4. Dil tədrisi metodikası elminin daha qohum elmlərlə əlaqədə inkişaf etməsi.

Azərbaycan dilinin tədrisi metodikası şagirdlərin təlim materiallarını mənimsəmə şəraitini təhlil edərək daha əlverişli sistemi qurmaqla müəllimə kömək edir. Sistem dedikdə, Azərbaycan dili kursunun hər bir sinfə müvafiq məzmununu işləmək, oxu və yazı vərdişlərinin yaranması prosesini öyrənmək, çətinlikləri aşkara çıxarmaq, onların başvermə səbəblərini araşdırmaq, vəziyyəti təhlil etmək, nöqsanları aradan qaldırmağa xidmət edən şərait hazırlamaq, ana dilinin optimal tədrisini təmin etmək, qazanılmış bilikləri təcrübədə tətbiqetmə bacarığı vermək, şagirdlərin ümumi inkişafını təmin edən yollar və vasitələr müəyyənləşdirmək nəzərdə tutulur.




Təlim prosesinin biri-biri ilə sıx bağlı olan cəhətləri vardır: tədris fənninin məzmunu; müəllimin fəaliyyəti; şagirdlərin fəaliyyəti. Azərbaycan dilinin tədrisi metodikası elmi nəyi? kimə? nə üçün? necə? öyrətməyi müəyyənləşdirir.

Nəyi? sualının açıqlaması belədir: ibtidai siniflərdə şagirdlər Azərbaycan dilindən hansı məzmunda və hansı həcmdə biliklərə yiyələnməlidirlər(məzmun); kimə? sualına görə biliklər neçənci sinif şagirdləri üçün nəzərdə tutulmuşdur; nə üçün? sualı isə Azərbaycan dilinin tədrisi məqsədini açıqlayır. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisinin başlıca didaktik vəzifəsi şagirdlərin şifahi və yazılı nitq bacarıqlarını, nitq mədəniyyətini inkişaf etdirməkdir. Necə? sualı isə Azərbaycan dilinin tədrisi prosesində müəllimin istifadə edəcəyi metod, priyom, yol,vasitə və iş növlərini yaradıcılıqla seçmə, müəyyənləşdirmə bacarıqlarını əks etdirir.

Azərbaycan dilinin tədrisi metodikası elmi müvafiq bilik və bacarıqların zəruriliyi məqsədini önə çəkir:

- Azərbaycan dili proqramını(kurikulumunu) elmi və metodik cəhətdən təhlil etmək;
- I-IV siniflər üçün “Azərbaycan dili” dərsliklərini elmi və metodik cəhətdən təhlil etmək;
- proqram(kurikulum) və dərsliklərin təlim-tərbiyə imkanlarını açmaq və onlardan yaradıcılıqla istifadə etmək;
- şagirdlərin milli ruhda tərbiyə olunmasında Azərbaycan dili dərslərinin bütün imkanlarından istifadə etmək;
- öz oxusu və nitqi ilə I-IV sinif şagirdlərinə nümunə olmağı bacarmaq;
- hər bir mövzunun xüsusiyyətinə uyğun olaraq əyani və texniki vasitələr üçün materiallar hazırlamağı və bunlardan yaradıcılıqla istifadə etməyi bacarmaq;
- hər bir mövzunun tədrisi ilə əlaqədar iş vərəqləri, müxtəlif xarakterli çalışmalar, testlər hazırlamaq;
- bunları elmi-texniki cəhətdən düzgün təhlil etmək;
- Azərbaycan dili üzrə hər bir mövzunun tədrisini metodik tələblərə uyğun planlaşdırılmaq;
- sinifdənxaric və məktəbdənkənar tədbirlərin planını hazırlamaq;
- sinifdənxaric və məktəbdənkənar metodik işlərin təşkili xüsusiyyətlərini bilmək;
- şagirdlərin Azərbaycan dilinə aid bilik, bacarıq və vərdişlərini düzgün qiymətləndirmək;
- yazı işindəki səhvləri düzgün qruplaşdırıb təhlil etmək və şagirdləri bu səhvlər üzərində işlətmək yollarını müəyyənləşdirmək;
- təlim prosesində Azərbaycan dilinin digər fənlərlə inteqrasiyasından istifadə etmək;
- nitq mədəniyyəti, nitqin inkişaf etdirilməsi ilə əlaqədar aparılacaq işlər, bunların məzmun və formalarını bilmək və həyata keçirmək.

Bilik yalnız yadda saxlamaq üçün şagirdlərə ötürülmüş hazır informasiya deyildir. Müəllim təlim prosesi zamanı

şagirdlərə bələdçilik etməli, onların "tədqiqat" aparmaları, bilikləri dərk etmələri üçün şərait yaratmalıdır. Müəllim Azərbaycan dili tədrisini şagirdləri düşünməyə yönəltmə, düşünmə və dərketmə yolu ilə həyata keçirməli və ünsiyyət yaratmaq imkanı ilə təmin etməlidir. Bu məqsədə yalnız hər bir fənnin tədrisində fəal/interaktiv təlim metodlarından istifadə etməklə nail olmaq olar.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası. Bakı, 2013 24 oktyabr,
2. Balıyev H.B. Ana dilinin tədrisi metodikası. Bakı: 3 №li Sənaye Liseyi, 1997,102 s.
3. Balıyev H.B. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: ADPU-nun nəşri, 2003, 426 s.
4. Həsənov M.,Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Elm Nvə təhsil, 2013, 404 s.
5. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.
6. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, 408 s.
7. Текучев А.В. Методика русского язаыка в среднии школе. М.:1980
8. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)// Kurikulum, 2010, № 3, s.117-130


## Azərbaycan dilinin tədrisi metodikasının tədqiqat metodları

Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması, informasiya əsrinin tələbləri təhsilin müasir tələblərə cavab verməsini zəruri edir. Azərbaycan dilinin tədrisi metodikası daim inkişafda olan elm sahəsidir və onun təhsilin müasir tələblərinə cavab verməsi üçün tədqiqi hər zaman davam etdirilir.

Digər elmlərdə olduğu kimi, Azərbaycan dilinin tədrisi metodikası da elmi tədqiqatların nəticəsində inkişaf edir, zənginləşir. Azərbaycan dilinin tədrisi metodikasına dair tədqiqatlar Azərbaycan dili tədrisi prosesini təkmilləşdirmək, qanunauyğun əlaqələri üzə çıxarmaq məqsədini daşıyır.

Tədqiqatlar müxtəlif metodların köməyi ilə aparılır. Tədqiqatın metodları onun metodologiyası ilə sıx bağlıdır. Tədqiqatın müvəffəqiyyəti onun metodlarını düzgün seçməkdən asılıdır. Azərbaycan dilinin tədrisi metodikası elminin tədqiqat metodları dedikdə, müəyyən elmi problemi həll etmək üçün istifadə olunan yol və vasitələrin məcmusu başa düşülür. Bu metodları şərti olaraq qruplara bölmək olar: a) empirik tədqiqat metodları; b) nəzəri tədqiqat metodları; v) empirik-nəzəri tədqiqat metodları; q) pedaqoji tədqiqatda riyazi, statistik metodlar. Empirik tədqiqat metodları müəyyən faktlar toplamağa xidmət edir. Bu metodlara daxildir: müşahidə, müsahibə, anket sorğusu, pedaqoji konsilium, məktəb sənədlərinin və fəaliyyət məhsullarının öyrənilməsi metodları.

**Müşahidə metodu**-pedaqoji prosesi müəyyən məqsədlə və planlı şəkildə izləməkdir. Tədqiqatçı müşahidə prosesində müəllim və ya şagirdlərin, ya da hər ikisinin birlikdə fəaliyyətini diqqətlə müşahidə edir, müvafiq faktlar toplayır, qeydə alır, onları təhlil edir, qruplaşdırır və nəticə çıxarır. Tədqiqatçı müşahidə zamanı nəyi, nə məqsədlə izləyəcəyini müəyyən edir.

**Müsahibə metodu**-müəyyən pedaqoji hadisənin mahiyyətini, səbəblərini, başvermə şəraitini aşkara çıxarmaq məqsədi ilə aparılan sual-cavab metodudur. Müsahibə - müəllim, valideyn, məktəb işçiləri və şagirdlərlə təşkil olunur. Müsahibəyə hazırlıq zamanı onun nə məqsədlə, kimlərlə, hansı suallar əsasında aparılacağı müəyyənləşdirilir. Müsahibə prosesində alınan cavablar dəqiq qeyd olunur (və ya lentə yazılır), sonra isə ciddi təhlil olunur.

**Anket sorğusu** - bu və ya digər pedaqoji məsələ (problem) barədə müəllim, şagird və ya valideynlərin mövqeyini, rəyini öyrənmək, hər hansı pedaqoji hadisənin tipikliyini müəyyən et-

mək məqsədi ilə aparılan yazılı sorğudur. Anket sorğusu-müsahibənin daha etibarlı növüdür. Anket sorğusunda sualların düzgün seçilməsi və ifadə olunması mühüm şərtdir.

**"Pedaqoji konsilium" metodu** - bu və ya digər pedaqoji fakt, hadisə ilə bağlı müəllimlərin kollektiv müzakirəsi, fakt və ya hadisənin qiymətləndirilməsi, çətinliklərin araşdırılması və optimal tədbirlərin müəyyən edilməsi metodudur.

**Məktəb sənədlərinin öyrənilib təhlil edilməsi.** Pedaqoji sənədlərin və fəaliyyət məhsullarının öyrənilməsi - tədqiqatda bəzi zəruri faktları toplamağa xidmət edən metodlardır. Məktəb sənədləri (jurnallar, hesabatlar, iş planları, şəxsi işlər və s.), habelə şagirdin fəaliyyət məhsulları (yazı, rəsm, əmək işləri, yaradıcılıq məhsulları və s.) təlim-tərbiyə işlərinin vəziyyəti, təlim müvəffəqiyyəti haqda müəyyən məlumat əldə etməyə imkan verir. Hər bir sinifdə Azərbaycan dili tədrisinin nəticələri diqqətlə öyrənilir, təhlil edilir, təlim prosesində yol verilmiş nöqsanların xarakteri, onların başvermə səbəbləri aşkara çıxarılır.

**Nəzəri, tədris–metodik ədəbiyyatın öyrənilib təhlil edilməsi.** Nəzəri tədqiqat metodları nəzəri mənbələrin öyrənilməsi, təhlili və nəticə çıxarılması məqsədini daşıyır. Nəzəri tədqiqatlar praktik faktlar səviyyəsində yox, əsasən, pedaqoji anlayışlar səviyyəsində aparılır və Azərbaycan dili tədrisinin köklü problemlərinə həsr olunur. Nəzəri tədqiqat metodlarına daxildir: təhlil və tərkib, induksiya və deduksiya, modelləşdirmə, müqayisəli-tarixi təhlil metodları.

Nəzəri təhlil metodu pedaqoji hadisələri tərkib hissələrinə bölməyi, başlıca əlaməti, xüsusiyyəti ayırmağı nəzərdə tutur. Təhlil həmişə tərkiblə (analiz-sintez) ayrı-ayrı hissələrin, əlamətlərin əlaqələndirilməsi, ümumiləşdirilməsi ilə müşayiət olunur, onunla tamamlanır. Təhlil və tərkibin vəhdəti pedaqoji hadisələrin mahiyyətini dərk etməyə, ümumidən xüsusi, xüsusidən isə ümumi cəhəti tapmağa imkan verir. Elmi tədqiqatlarda çox vaxt induksiya (konkret faktlardan ümumi nəticələr çıxarmaq) və deduksiya (ümumi nəticəni konkret faktlara tətbiq

etmək) metodlarına da müraciət olunur. Modelləşdirmə - müəyyən pedaqoji sistemi xüsusi analoqlar (modellər) yaratmaq yolu ilə təsvir etmək metodudur. Bu metod əyani-obrazlı şəkildə (sxem, çertyoj, sözlə təsvir) öyrənilən pedaqoji prosesi xarakterizə etməyə imkan verir. Bu yolla, məsələn, Azərbaycan dili dərsinin mərhələlərinin, onun müxtəlif tiplərinin səmərəli modelini qurmaq olar.

Müqayisəli-tarixi təhlil metodu müxtəlif tarixi dövrlərdə Azərbaycan dilinin tədrisi vəziyyətini müqayisəli şəkildə öyrənməyə, bu əsasda müasir Azərbaycan dilinin tədrisi problemlərinin həlli yollarını müəyyənləşdirməyə imkan verir. Nəzəri, tədris–metodik ədəbiyyatın öyrənilib təhlil edilməsi pedaqoji ustalığın artmasına güclü təkan verir.

**Pedaqoji eksperiment**. Pedaqoji tədqiqatda bəzən empirik-nəzəri metodlar əlaqəli şəkildə tətbiq olunur. Belə metodlara eksperiment, təcrübi-eksperimental iş, sınaq metodları daxildir. Pedaqoji eksperiment müəyyən pedaqoji fərziyyəni yoxlamaq metodudur. Onun məqsədi pedaqoji prosesdə səbəb-nəticə əlaqələrini, kəmiyyətlər arasındakı asılılığı öyrənməkdən, yeni forma və metodların səmərəliliyini aşkara çıxarmaqdan və s. ibarət ola bilər. Məqsədinə görə pedaqoji eksperimentin bir neçə növü ayırd edilir: müəyyənedici, öyrədici və yoxlayıcı eksperiment. Təşkili formasına görə eksperiment üç cür olur: təbii (adi, təbii şəraitdə keçirilir), laborator (laboratoriya şəraitində keçirilir) və kompleks (həm təbii, həm də laborator şəraitdə keçirilir) eksperiment. Eksperimentin təşkili üçün iki paralel sinif (qrup) götürülür: bunlardan birində iş yeni qaydada təşkil edilir (eksperimental sinif və ya qrup), digərində isə ənənəvi qaydada aparılır (kontrol sinif və ya qrup). Müəyyən müddətdən (1 yarımil, 1 il) sonra hər iki sinifdə (qrupda) işin nəticəsi yoxlanılır və bir-biri ilə müqayisə edilir. Eksperiment yaxşı nəticə verərsə, onu bir qədər geniş miqyasda keçirmək lazımdır. Eksperimentin səmərəli nəticə verməsi üçün onu başqa metodlarla (müşahidə, müsahibə, anket sorğusu və s.) əlaqələndirmək mühüm şərtdir.

Tədqiqatlarda eksperiment metodu ilə yanaşı təcrübi-eksperimental iş, sınaq metodları da tətbiq olunur. Bu zaman müəyyən plan üzrə təcrübə işləri aparılır, onların səmərəliliyi öyrənilir. Pedaqoji tədqiqatlarda yeri gəldikcə riyazi-statistik və sosioloji metodlara da müraciət olunur. Riyazi-statistik metodlar tədqiqatın nəticələrini kəmiyyət baxımından təhlil etməyə imkan verir. Azərbaycan dilinin tədrisi metodikasının tədqiqində nəzərdən keçirilən metodların kompleks tətbiqi tədqiqatın uğurlu və obyektiv olmasını təmin edən əsas şərtdir.

## Azərbaycan dilinin tədrisi metodikasının başqa elmlərlə əlaqəsi

Hər bir fənnin optimal tədrisi müəllimdən onun nəzəri əsaslarını, əlaqədə olduğu elm sahələrini dərindən bilməyi tələb edir. Ana dili təlimi metodikası da öz xüsusi müddəalarını əlaqədə olduğu elmi mənbələrə əsaslanmaqla meydana çıxarır.

Azərbaycan dilinin tədrisi metodikası elmi bir sıra elmlərlə sıx bağlıdır. Onun istinad etdiyi elmi mənbələr aşağıdakılardır: dilçilik elmi və onun bütün şöbələri, pedaqogika, psixologiya, məntiq, ədəbiyyatşünaslıq, gigiyena, fəlsəfə, məntiq, uşaq ədəbiyyatı və s.

Dilçilik elmi və onun bütün şöbələri Azərbaycan dilinin tədrisi metodikası elminin nəzəri bazasını təşkil edir. Azərbaycan dili üzrə hər hansı anlayış, dil hadisəsi, qayda və tərif şagirdlərin şifahi və yazılı nitqinin inkişafına yönəlmişdir.

İbtidai siniflərdə dil üzrə keçirilən hər bir dərs mahiyyət etibarilə nitq inkişafına xidmət edir, çünki ibtidai siniflərdə ana dili tədrisinin başlıca prinsipi nitq inkişafıdır. Odur ki, hər bir dərsdə nitq inkişafı üzrə müvafiq vərdişlərin aşlanması nəzərdə tutulur. Azərbaycan dili üzrə dərslər şagirdlərin savadlı yazıya yiyələnmələrinə, onların nitqinin, təfəkkürünün inkişafına kömək edir.

Nitq inkişafı üzrə aparılan işlərin məzmununa birinci növbədə şagirdin lüğət ehtiyatının zənginləşdirilməsi üzrə işlər daxildir. Lüğətin zənginliyi bir növ dilin, nitqin zənginliyi deməkdir.

Professor Ə.Əfəndizadə, B.Əhmədov, Y.Kərimov, H.Balıyev, A.Rəhimov, N.Cəfərova və başqaları nitq inkişafı ilə bağlı yazdığı əsər və məqalələrdə şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi üçün səmərəli metodika işləyib hazırlamışlar.

Ədəbi tələffüz normalarına əməl olunması şifahi nitqin əsas göstəricisidir. Ədəbi tələffüz üzrə prof. N.Abdullayev, prof. Ə.Əfəndizadə, dos. N.Əhmədov və b. tədqiqat işi aparmışlar.

Təkcə lüğət ehtiyatının zənginliyi, müəyyən lüğət ehtiyatına malik olmaq, ədəbi tələffüz normalarına əməl etmək nitq üçün kifayət deyildir. Sözləri dilin qrammatik qaydalarına uyğun şəkildə birləşdirib cümlə düzəltdikdən sonra fikir ifadə olunur. Nitq inkişafının mühüm aspektlərindən biri olan cümlə üzrə iş xüsusi diqqət tələb edir.

Nitq inkişafı üzrə aparlan işlərin əsas istiqamətlərindən biri də nitq üslubu üzrə işlərdir. Prof.H.Balıyev, prof.B.Əhmədov, dos.Ə.Kəlbəliyev və b. öz əsərlərində üslubiyyatla bağlı faydalı fikirlər söyləmişlər.

Nitq inkişafı üzrə işlərin yekunu və nəticəsi rabitəli nitqdir. Şagirdlərin fəal nitq fəaliyyətinin təşkili, düzgün tələffüzün mənimsənilməsi, lüğətin zənginləşdirilməsi, nitqin qrammatik quruluşuna əməl edilməsi və fikirləri rabitəli ifadə etmək rabitəli nitqin formalaşması deməkdir.

Təlimlə pedaqogikanın didaktika bölməsi məşğul olur. Azərbaycan dilinin tədrisi metodikası pedaqogika ilə sıx bağlıdır. Azərbaycan dilinin tədrisi metodikası elmi pedaqogikanın bir sahəsi olan xüsusi didaktikadır. Azərbaycan dilinin tədrisində də didaktikanın prinsiplərinə əməl olunur. Təlim və tərbiyə dialektik vəhdətdədir. Burada təlimin ümumi müd-

dəaları, prinsipləri, tələbləri, vasitələri, metodları və s. şərh olunur.

Azərbaycan dilinin tədrisinin həyatla, şagirdlərin şəxsi təcrübələri ilə əlaqələndirilməsi mənimsəməni yüksəldir. Alınan biliklər, aşılanan bacarıq və vərdişlər şagirdlərin nitqinin inkişafına güclü təsir göstərir. Azərbaycan dilinin tədrisi metodikası məktəb təcrübəsilə əlaqədardır. Metodikanın keçmiş və bugünkü təcrübəsinin dərindən öyrənilməsi və ümumiləşdirilməsi inkişafın zəruri şərtidir və nəzəriyyə ilə təcrübənin dialektik əlaqəsini təmin edir.

Azərbaycan dilinin tədrisi metodikası elmi psixologiya ilə sıx bağlıdır. Psixologiya. 6-11 yaşlı uşaqların təlimə olan marağının psixoliji xüsusiyyətlərinin (duyğu, qavrayış, təfəkkür, təxəyyül, hafizə, diqqət, iradə və s.) nəzərə alınması, onların görmə-hərəki analizatorlarına əsaslanılması, təlim prosesində tez yorulmadan bir təlim formasından digərinə keçmə hallarının müəllimin diqqət mərkəzində olması zəruridir. Müasir psixologiyada Azərbaycan dili, savad təlimi, oxu və yazı təlimi və nitq inkişafı üzrə iş sahəsində böyük əhəmiyyəti olan fikirlər söylənilmişdir. Müəllim uşaqların yaş və psixoloji xüsusiyyətlərini dərindən öyrənməklə təlim prosesində psixologiya elminin son nailiyyətlərinə əsaslanmalıdır.

Azərbaycan dilinin tədrisi metodikası elmi uşaq ədəbiyyatı ilə sıx bağlıdır. Azərbaycan dili şagirdləri folklor nümunələri, xalqın poeziyası, poetik düşüncələri ilə, şifahi və yazılı abidələri ilə tanış edir. Onlara vətənimiz, onun tarixi, qəhrəmanlıq salnamələri haqqında məlumatlar verir. Ona görə də müəllim uşaq ədəbiyyatını dərindən öyrənməli, oxu materiallarının məzmununa uyğun optimal vasitə, priyom və metodları seçməyi bacarmalıdırlar.

Azərbaycan dilinin tədrisi metodikası elmi Azərbaycan dilinin tarixilə sıx bağlıdır. Müəllim Azərbaycan dilində sözlərin etimologiyasını onun fonetik, morfoloji tərkibini, söz

birləşmələri və cümlələrin sintaktik quruluşunu dərindən mənimsəməli; dilin leksika və üslubiyyatına bələd olmalıdır.

Azərbaycan dilinin tədrisi metodikası elmi məntiqlə sıx bağlıdır. Dilin müxtəlif hadisələri; oxu materiallarındakı faktlar, obrazların fəaliyyəti; yazıçının cərəyan edən hadisələrə münasibəti, onlardakı əlaqələr sistemi məntiqin kateqoriyalarına istinadən müəyyənləşir. Hadisələrin açılışı, dinamika, səbəb və nəticə əlaqələri sırf məntiqə əsaslanır.

Azərbaycan dilinin tədrisi metodikası fəlsəfə ilə sıx bağlıdır. Azərbaycan dilinin tədrisi metodikası özünün elmi əsaslarını dialektik qanunlar və qanunauyğunluqlar zəminində müəyyənləşdirir.

Azərbaycan dilinin tədrisi metodikası gigiyena ilə də sıx bağlıdır. Gigiyena mütəxəssislərinin apardıqları tədqiqatlara görə kiçikyaşlı məktəblilərin yazı və oxu prosesinin optimal davamlılığı müəyyənləşdirilməlidir.

**Ədəbiyyat**

1. Abdullayev A.S. İbtidai məktəbdə Azərbaycan dilinin tədrisinin metodikası. Bakı: Maarif, 1962, 165 s.

2. Аббасов A.H., Əlizadə Ə.Ə. Pedaqogika (dərs vəsaiti). Bakı: Renessans, 2000, 202 c.

3. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IV siniflər). Bakı, 2012

4. Balıyev H.B. Ana dilinin tədrisi metodikası. Bakı: 3 №li Sənaye Liseyi,1997,102 s.

5.Əhmədov B.A. Ana dili dərslərində şagirdlərin nitqini inkişaf etdirmək yolları. Bakı: Maarif, 1967, 110 s.

6.Əlizadə Ə.Ə., Sultanova İ.H. Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı, 2008, 173 s.

7.Həmzəyev M.Ə. Kiçik məktəbyaşlı uşaqların psixoloji xüsusiyyətləri. Bakı: Maarif, 1968, 67 s.

8. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2012

9.Kərimov Y.Ş. Təlim metodları. Bakı: RS Poliqraf MMC, 2007, 272 s.

10. Qasımova L, Mahmudova R. Pedaqogika. Bakı, 2003

11. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı, Nurlan, 2003, 408 s.

12. Sadıqov F.B. Pedaqogika. Bakı: BDU-nun nəşriyyatı, 2006

13. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953, 311 s.

14. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)// Kurikulum, 2010, №3, s. 116-130

15. http://www.tehsilproblemleri.com/?p=98məmməd həsənov

# II FƏSİL

# ANA DİLİNİN TƏDRİSİ TARİXİNƏ DAIR

## Azərbaycan dilinin tədrisi metodikası elminin keçdiyi inkişaf yolu

**Əsas istiqamətlər:**

- **Azərbaycan dilinin tədrisi metodikasının keçdiyi inkişaf yolu (XIX əsr)**
- **Görkəmli maarifçilərin Azərbaycan dilinin tədrisi metodikasının inkişafında rolu**
- **Proqram, dərslik və dərs vəsaitlərinin tərtibi haqqında**
- **XX əsrin I və II yarısında Azərbaycan dilinin tədrisi metodikasının inkişaf tarixi**
- **Azərbaycan dilinin tədrisi metodikası elminin müasir vəziyyəti. Milli Kurikulum**

Azərbaycan dilinin formalaşması çox uzun və mürəkkəb tarixi inkişaf yolu keçmişdir. Azərbaycan dilinin inkişafında söz sənətkarlarımız Həsənoğlu, Nəsimi, Füzuli, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Şah İsmayıl Xətai və b. əməyi danılmazdır. Onların yazıb-yaratdıqları əsərlər Azərbaycan dilinin incəliyini, şirinliyini, gözəlliyini əks etdirmiş və xalqın sevgisini qazanmışdır. Tarixi sənədlərdən məlumdur ki, XVI əsrdə Səfəvi dövləti zamanı ana dilində məktəblər açılmışdır. M. Füzulinin "Külliyatı", "Leyli və Məcnun" əsəri o dövrdə məktəblərdə (mollaxanalarda) Azərbaycan dili dərsliyi kimi istifadə olunmuşdur. Azərbaycan dilinin inkişafı üçün bu dildə yazıb-yaradan Füzuli, Xətai, Həbibi, Qövsi Təbrizi, Təbriz Əfşar və s. kimi sənətkarların əsərlərinə, aşıq sənətinə, xalq incilərinə (bayatı, qoşma, layla, tapmaca və s), o cümlədən klassik ədəbiyyata xüsusi yer verilmişdir. Bu dövrdə Azərbaycan dilində «Əsli və Kərəm», «Koroğlu» dastanları yaranmışdı. Ümumiyyətlə, XVI əsr Azərbaycanda dastanların yaradılması ili kimi yadda qalmışdır.

Şah İsmayıl Xətai Azərbaycan dilinin inkişafına xüsusi diqqət yetirmiş, "Dəhnamə", "Nəsihətnamə" əsərlərini, qəzəllərini sadə Azərbaycan dilində yazmışdır. Dövlət dili Azərbaycan dili olmuş, dövlət tərəfindən kitabxanalar yaradılmışdır.

Elmin müxtəlif sahələrində (tarix, ədəbiyyat, folklor nümunələri, coğrafiya və s.) olan kitablar və əlyazmalar bu kitabxanalarda cəmləşdirilmişdi. Ölkədə maarif ocaqlarının sayı artmış, yeni tipli məktəblər açılmışdı. Məktəblərdə özünəməxsus tədris proqramları tətbiq olunurdu. Tədris proqramlarında ana dilinə məhəbbət, vətəni sevmək və s. kimi tərbiyə işlərinə ayrıca yer verilirdi. Dövlət sənədləri, fərmanlar, eləcə də məktəb sənədləri, təlim-tərbiyə işləri Azərbaycan dilində aparılırdı.

XVII əsrdə Azərbaycanda elm, mədəniyyət və təhsil mütəşəkkil inkişaf dövrü keçirirdi. XVII əsrin ortalarında Azərbaycanda 700-dən artıq mollaxana, 200-dən çox müxtəlif tipli məktəblər fəaliyyət göstərirdi. Məktəblərdə şəriət dərsləri ərəb və fars dilində aparılırdı. Azərbaycan dili, o cümlədən dünyəvi elmlər: coğrafiya, tarix, hesab tədris olunurdu. Ziyalılar mollaxana və mədrəsə məktəblərində klassik ədəbiyyatın öyrədilməsini, keçmiş tarixə aid biliklərin verilməsini tələb edirdilər. Bu dövrdə dini məktəblər iki istiqamətdə fəaliyyət göstərirdilər.

1. Mollaxana- ibtidai siniflər
2. Mədrəsə - ali ruhani məktəbi

Uşaq mədrəsədə oxumaq üçün əvvəlcə mollaxanada hazırlıq mərhələsi keçməli idi. Mollaxanada oxuyan şagirdlər "Quran"ı oxumaq üçün "Çərəkə" dərsliyi vasitəsi ilə savad təlimini öyrənirdilər. "Çərəkə" fars sözüdür- "çəhar-yek" tərkibində işlənir. Kağızın dörd dəfə bükülməsi deməkdir. "Çərəkə"ni yaxşı xətti olan hər bir molla hazırlaya bilirdi.

Uşaqlara "Çərəkə" dərslərində ərəb əlifbasının hərfləri öyrədilirdi. Öyrədilən hərflərin sözlərdə oxunması üzrə iş aparılmırdı. Təlim əsasən "Höccələmə" (hərfi-heca üsulu) ilə

aparılırdı. “Çərəkə” təlimində uşaqlar əvvəlcə hərflərin adlarını öyrənir, sonra hərfi sait səslərə hərəkələrlə birləşdirib heca əmələ gətirir, hecaları birləşdirib sözlərdə bütöv oxumağı öyrənirdilər. Əlifba təlimi qurtardıqdan sonra dərslərdə uşaqlardan mətni üzündən oxumaq, onu şifahi danışmaq və ya mətni əzbərdən söyləmək tələb olunurdu.

Uşaqlar “Quran”ı oxuyub qurtardıqdan sonra “Büstan”, “Gülüstan”, “Tarix-Nadir”, “Dərbəndnamə”, “Qarabağnamə” və s. əsərləri oxuyurdular.

Uşaqlara məhəllə məktəblərində və ya ayrı-ayrı evlərdə də dərs keçirilirdi. Belə təhsil verən “məktəblər”in özünəməxsus tədris planı, proqramları və dərslikləri olmadığına görə nəticədə mollaxana ilə birləşirdilər.

XVIII, XIX əsrlərdə ziyalılar dini təhsildən cana doymuşdular. Onlar dünyəvi məktəblərin açımasına can atır, uşaqlara dünyəvi biliklərin verilməsini tələb edirdilər. Məktəblərdə milli ədəbiyyatın öyrədilməsinə meyllər çoxalırdı. Azərbaycan maarifçiləri, ziyalıları təhsilin yenidən qurulması üçün, xalqın maariflənməsini əsas məsələ kimi qarşıya qoyur, yeni tipli məktəblərin yranmasının xalqın maariflənməsində böyük rolu olduğuna inanırdılar.

XVIII və XIX əsrlərdə Azərbaycanın bir sıra yerlərində ana dilində məktəblər açılmağa başlamışdı. Daş Salahlıda Şəfi Əfəndi, Pənahabadda(Şuşada) Molla Pənah Vaqif, Gəncədə Mirzə Şəfi Vazeh, Şamaxıda Seyid Əzim Şirvani, Naxçıvanda Məmmədtağı Sidqi və başqalarının əzab-əziyyəti nəticəsində Azərbaycan dilində məktəblər açılmışdır.

Molla Pənah Vaqif ailəsi ilə birlikdə Qazax rayonundan Qarabağa (Tərtər-basar) köçmüş, orada məktəb açıb, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Sonra M.P. Vaqif Şuşa (Pənahabad) şəhərinə köçmüş və məktəb (1759) açmış, müəllimlik sənətini davam etdirmişdir.

Molla Pənah Vaqifin Şuşa şəhərində açdığı yeni tipli məktəbdə təlim-tərbiyə işləri Azərbaycan dilində aparıldığından, Azərbaycan dilində ilk məktəb hesab olunur.

Bu məktəbdə uşaqlara məktəbə gəldiyi gündən savad təlimi öyrədilirdi. Savad təlimi "Çərəkə" əsasında öyrədilir və iki mərhələdə həyata keçirilirdi.

**Birinci mərhələdə** - uşaqlara hərfin şəkil forması öyrədilirdi. Bu zaman hərfin, sözün əvvəlində, ortasında və axırında gəldiyi zaman üç cür yazıldığı öyrədilirdi.

**İkinci mərhələdə -** hərflərin sədası (tələffüzü) qaydaları öyrədilirdi. Savad təlimindən sonra "Quran"ın oxusuna başlanılırdı. Oxu fərdi şəkildə aparılırdı. Şagirdin oxu surətinə, oxuduğunu nağıletmə və s. bacarıqlara yiyələnməsi əsas götürülürdü, 6-7 ay, bəzən də bir ildən sonra uşaqlar "Gülüstan", "Büstan" əsərlərini, eləcə də qəhrəmanlığa dair bədii əsərlər, əxlaq tərbiyəsinə aid materiallar da oxuyurdular.

Mirzə Şəfi Vazeh təhsilini mədrəsədə almışdır. O, Gəncədə müəllimlik fəaliyyətinə məktəblərdə şəriət dərsləri aparmaqla başlamışdır.

Çar hökuməti Zaqafqaziyada qəza və gimnaziya məktəblərinin açılmasına icazə verdikdən sonra M.Ş.Vazeh Tiflis şəhərinə (1840) köçmüş, orada gimnaziya məktəbində Azərbaycan dili müəllimi işləmişdir.

M.Ş.Vazeh gimnaziya məktəbləri üçün "Kitabi-türk" (1852) adlı bir dərslik də yazmışdır.

Bu dərslik 230 səhifədən ibarət olmaqla, sadə, oxunaqlı dildə yazılmış, şagirdlərin bilik və yaş səviyyəsi nəzərə alınmışdı. Kitab üç fəsildən ibarət olmuşdur:

**Birinci fəslin** əvvəlində nəsihət və hikmətamiz sözlər, fəslin sonunda isə məzhəkə və hekayələr verilmişdir.

**İkinci fəsil** şagirdlərin lüğət ehtiyatını zənginləşdirən söz və cümlələrə, dilin üslubunun öyrədilməsinə xidmət etmişdir.

**Üçüncü fəsildə** "Qarabağnarnə", "Dərbəndnamə" əsərlərindən parçalar verilmiş, Füzulinin qəzəllərinin öyrədilməsi nəzərdə tutulmıışdur. Dərslik pedaqoji baxımdan keyfiyyətli işlənmişdi. Dərslik 1856-cı ildə "Tatarskiy bukvar" adı ilə 2-ci dəfə çap olunmuşdur.

Mirzə Şəfi Vazeh pedaqoji fəaliyyət dövrlərində Azər-

baycan dilində metodik vəsaitlərin hazırlanmasının ilk təşəbbüskarlarından biri olmuşdıır. O, “Azərbaycan-rus lüğəti” adlı dərslik yazmışdır. Görkəmli maarifçi kitablarında “Qarabağnamə”, “Dərbəndnamə”, “Leyli və Məcnun” əsərlərindən təlim-tərbiyə əhəmiyyətli parçalara geniş yer vermişdir.

Ümumiyyətlə, Azərbaycanda yeni tipli məktəblərin sayı çoxaldıqca təhsil ocaqları kənd əhalisinə də xidmət edirdi. Bu baxımdan məktəblərdə təhsil iki istiqamətdə aparılırdı.

**Birinci istiqamətdə -** olan məktəblərdə təlim-tərbiyə ərəb və fars dilində aparılırdı. Bu məktəblərə dövlət nəzarət etmirdi. Məktəblər ruhani, «mirzə» hazırlayırdı. Belə məktəblər Azərbaycanın Bakı, Şamaxı, Şəki, Quba və s. şəhərlərində və bəzi kəndlərində fəaliyyət göstərirdi.

**İkinci istiqamətdə -** fəaliyyət göstərən məktəblərə dövlət nəzarət edirdi. Bu tədris ocaqları dövlət idarələrində müəyyən vəzifələrdə işləmək üçün tərcüməçi və pedaqoji kadrlar hazırlayırdı. Məktəblərdə təlim-tərbiyə işləri özünəməxsus tədris planı, proqramlar, dərslik və dərs vəsaitləri əsasında təşkil olunurdu.

Bu məktəblərin tədris proqramlarında, əsasən, vətənə, xalqa sevgi, qəhrəmanlıq və eləcə də xalq ədəbiyyatının nümunələri (bayatı, atalar sözü, tapmaca, laylalar və s) öz əksini tapmışdır. XIX əsr məktəb sənədlərindən məlumdur ki, Azərbaycanın bir sıra şəhərlərində(Təbriz, Bakı, Gəncə, Naxçıvan, Şuşa, Quba) fəaliyyət göstərən məktəblərdə bacarıqlı və istedadlı müəllimlər ıışaqların təlim-tərbiyəsi ilə məşğul olurdular. Bu zaman şairlik və yazıçılıq qabiliyyəti olan müəllimlər öz şagirdləri üçün dərs vəsaiti hazırlayıb, tədris prosesində istifadə edirdilər. Bu kitabçalar dərsliyi əvəz edirdi.

Görkəmli maarifçi F.Köçərli yazrdı: “Molla Yusif Misgəri Seyid Yəhya Badkubəyin açdığı yeni tipli məktəbində (bu məktəb Bakının köhnə «Kömürxanalar» deyilən sahəsində fəaliyyət göstərmişdir) təhsil almış, yüksək istedada malik olduğuna görə müdərris adını almış, Qubaya qayıdıb orada

məktəb açmış və müəllimliyə başlamışdır. Molla Yusif Misgəri "Bəyanül-əsrar" adlı kitabın müəllifidir". Bıı məktəbdə uşaqlar ilk dəfə Azərbaycan dilində təhsil alırdılar.

Azərbaycanda maarifin inkişafında yeni bir dövr başlayırdı. Maarifçilər, elm xadimləri, şair və yazıçılar xalqın savadlanması qayğısına qalır, yeni tipli məktəblər "darül-təhsil"-elm evi, "məktəbi sibyan"-yeniyetmələr məktəbi, "üləma məktəbi"-elmlər məktəbi və s. açılmasını təklif edirdilər. Bu məktəblərdə dünya mədəniyyətinin nailiyyətlərindən istifadə edib, xalqın adət-ənənəsini inkişaf etdirmək istəyi var idi.

Məlumdur ki, XIX əsrdə Azərbaycan xanlıqlarında (Təbriz, Gəncə, Qarabağ, Şəki, Talış, Dərbənd, Quba və s.) feodal pərakəndəliyi dərinləşir, iqtisadi vəziyyətdə durğunluq yaranır, xalqın maddi vəziyyəti gündən-günə ağırlaşır, bazar və ticarət tənəzzülə uğrayırdı. Artıq xanlıqların müstəqil yaşamaq imkanları azalırdı. Xanlıqların belə ağır şəraitə düşmələrindən, çəkişmələrindən xalq əziyyət çəkirdi, xalqın olan-qalan var-dövləti talan olurdu, məktəblər bağlanırdı.

Azərbaycanın qabaqcıl dövlət xadimləri (Fətəli xan, Molla Pənah Vaqif və b.) xalqı müdafiə etmək üçün Rusiyanın tərkibinə daxil olmağı yeganə yol saydılar. 1801-ci ildə Bakı, Quba, Talış, 1804-cü ildə Gəncə, Qarabağ, 1805-ci ildə Şamaxı, 1806-cı ildə Dərbənd və s. xanlıqların səfirləri Rusiya hökumətilə birləşmək haqqında danışıqlar apardılar. Xanlıqların Rusiya hökumətinin əlinə keçməsindən narahat olan İran şahlığı, Rusiyaya hərb elan etdi və Qarabağın Gülüstan kəndində Rusiya və İran hökumətləri arasında "Gülüstan" (1813-cü ildə) müqaviləsi bağlandı. Bakı, Gəncə, Qarabağ, Şəki, Şirvan, Talış, Quba, Dağıstan xanlıqlarından İran hökuməti əl çəkdi. "Türkmənçay" (1828-ci ildə) sülh müqaviləsində Naxçıvan və İrəvan xanlıqlarının Rıısiya hökumətinin təsiri altında qalmağı təsdiq olundu. Türkmənçay sülh müqaviləsindən sonra Araz çayının axarı boyu Azərbaycanın torpağı iki yerə bölündü. Arazın cənub hissəsi

İranın, şimal hissəsi isə Rusiyanın tərkibinə birləşdirildi.

Bu dövrlərdə Azərbaycan məktəblərində hələ də islam dininin nüfuzu hökm sürürdü. "Quran" ayələrinin, "Çərəkə"nin öyrədilməsi təlim-tərbiyə işinin əsasını təşkil edirdi.

XIX əsrin birinci yarısında Azərbaycanın qabaqcıl ziyalıları, dövlət xadimləri xalq arasında savadsızlığın aradan qaldırılması üçün gərgin mübarizə aparırdılar. Azərbaycan ziyalıları A.Bakıxanov, Mirzə Abbas Abdullayev, Abdulla Tofiq Sur, Seyfəddin Şirvani, Zeynalabdin Abaszadə, Əlimirzə Nərimanov və b. 1827-ci ildə rus hökumətinə müraciət etdilər ki, respublikada yeni tipli (qəza, real, gimnaziya və s.) məktəblər açılsın. Bıı məktəblərdə rus dili, hesab və şəriət dərsləri ilə yanaşı Azərbaycan dili də bir fənn kimi öyrədilsin. Çar hökuməti Azərbaycan ziyalılarının müraciətini qəbul etdi. 1830-cu ildən başlayaraq yeni tipli qəza məktəblərinin açılmasına icazə verdi. Həmin ildən qəza məktəblərinin əsasnaməsi hazırlandı. Əsasnamə üzrə realnı və qəza məktəbləri fəaliyyətə başladı. Azərbaycanda qəza məktəbləri Şuşada (1830), Şəkidə (1831), Bakıda (1832), Gəncədə (1833), Şamaxı və Naxçıvanda (1837) və başqa şəhərlərdə açıldı. Məktəblərdə dörd sinif fəaliyyət göstərdi. Azərbaycan dili bir fənn kimi tədris edilməyə başlandı. Azərbaycan və rus xalqı arasında əlaqə yaradılması üçün yeni açılan məktəblərdə dilmanclar (tərcüməçi) hazırlandı. Bu məktəblərdə Azərbaycan və rus dilləri, coğrafiya, hesab fənləri öyrədilirdi. Məktəblərdə görkəmli maarif xadimləri (M.Ş.Vazeh, S.Ə.Şirvani, İsmayıl bəy Qutqaşınlı, Hacı Ağası, Mirzə Mehdi Hacı Cani oğlu Abdulla, Mirzə Baxış Nazim, Baba bəy Şakir və b.) dərs deməyə dəvət olunurdular. Bundan başqa, bu illərdə A.Bakıxanov Azərbaycanda pansion məktəbinin təsis olunması layihəsini hazırlayıb (1832-ci il, fevralın 20-də) Rusiya hökumətinə göndərdi. A.Bakıxanovun bu müraciəti qəbul edildi, Azərbaycanda pansion məktəbinin açılmasına icazə verildi.

Pansion məktəbinin birinci sinfində əlifba təlimi, hesab,

Azərbaycan dilində dərslər aparılırdı. 2-ci və 3-cü siniflərində rus dili, qrammatika, tarix, coğrafiya və fars dilinin qrammatikası öyrədilirdi.

1884-cü ilin aprel ayından rus məktəblərində Azərbaycan dilinin öyrədilməsinə başlandı. Bu dilin rus məktəblərində öyrədilməsində əsas məqsəd o idi ki, rus xalqı ilə Azərbaycan xalqı arasında möhkəm əlaqə yaransın. Bu münasibətlə "Tatarskoe vedomosti" qəzetində A.Bakıxanovun bu məktəblər haqqında fikirləri çap olundu. A.Bakıxanovun bu fikirlərinə Azərbaycan ziyalıları dəstək verdilər. Artıq mətbuat səhifələrində silsilə pedoqoji məqalələr çap olunurdu. Azərbaycan dilinin tədrisi üçün dərslik, lüğət və dərs vəsaitləri hazırlanırdı.

Demək olar ki, XIX yüzilliyin birinci yarısında Azərbaycanda fəaliyyət göstərən məktəblər vahid tədris planı və proqramlarla işlədi. Məktəblərdə şagird sıxlığı 15-25 nəfərə çatdırıldı. Bu illərdə Gəncə şəhərində 5600, Şamaxıda 4700, Qubada 3500 nəfər şagird təhsil alırdı. Ölkənin 37 şəhərində və 689 kəndində xalqın savadlanması üçün məktəblər fəaliyyət göstərirdi.

Bu dövrdə şöhrətli alim Mirzə Cəfər Topçubaşov tərəfindən dilçiliyə aid, İbrahim Gəncəvi "Tarixi-Gəncə", Mirzə Adıgözəl bəy Qarabaği "Qarabağnamə" və s. kimi əsərlər yazıldı. "Tifliskoe vedomosti" qəzetinə həftədə bir dəfə Azərbaycan dilində "Tatarskoe vedomosti" (1831-1837) adlı səhifə əlavə olundu. Bu səhifədə Azərbaycanda maarif və onun inkişafı haqqında rəsmi xəbərlər və elanlar çap olunurdu. Sonralar bu işlər "Zakavkazskoe vestnik" (1841) qəzetində iki vərəqdə yayımlanırdı.

Görkəmli maarif xadimləri və alimlər A.Budaqov, N.Vəzirov, M.Qasımbəy və başqa ziyalılar yazdıqları əsərlərinə görə xalq arasında yüksək şöhrət qazanmışdılar.

M.Ş.Vazeh və A.Bakıxanovun yazdıqları elmi əsərlər gənc nəslə dünyəvi elmləri öyrənmək üçün istiqamət verirdi.

Elm,maarif ölkədə güclǝndikcə yeni tipli məktəblərin sayı da çoxalırdı. Dərslik və dərs vəsaitlərinin nəşri getdikcə artırdı. Məktəblərin spesifik xüsusiyyətini nəzərə alaraq tədris planı və proqramlar hazırlanırdı. Proqramlarda savad təlimi, Azərbaycan dili, rus dili, hesabdan dörd əməliyyat və şəriət dərslərinin tədrisinə yer verilirdi.

Birinci sinifdə - əlifba təlimi, şifahi və yazılı nitq üzrə məşğələlər aparılırdı.

İkinci sinifdə - Azərbaycan dili, hesabdan dörd əməliyyat, coğrafiya və şəriət dərsləri keçirilirdi. Bu siniflərdə rus dili öyrədilirdi.

Üçüncü sinifdə - I-II siniflərin təhsili davam etdirilməklə, tarix dərsləri əlavə olunurdu.

Dördüncü sinifdə - bu fənlərin öyrədilməsi ilə bərabər fars dilinin qrammatikası, əməli yazılar, din, şəriət və başqa elmlər də öyrədilirdi.

XIX yüzilliyin ikinci yarısında Azərbaycanda qəza məktəblərinin sayı çoxaldı, 600-800-ə yaxın oldu. Bu məktəblərdə Qori seminariyasında təhsil almış azərbaycanlı mütəxəssislər dərs deyirdi.

Qəza məktəblərində tədris işi ana dilində aparıldığına görə xalq kütləsinin bu məktəblərə marağı çoxalırdı. Xalqın bu məktəblərə axınını nəzərə alan görkəmli şəxslər: Mirzə Sadıq, Mirzə Baqi, Molla Rəcəbli Vahid, Nəsirallah Xanxalı, Nəcəfli Badkubəy və b. burada pedaqoji fəaliyyət göstərmək arzularını reallaşdırdılar.

Azərbaycan maarifçiləri məktəblərin spesifik xüsusiyyətlərini nəzərə alaraq, köhnə dərsliklərdən əl çəkib, yeni ana dilində dərslik və dərs vəsaitləri yazmaq təşəbbüsü qaldırdılar. Yeni yazılan dərsliklərin, əvvəlki dərslik və kitablarından müəyyən dərəcədə fərqli olması nəzərdə tutulurdu. İlk növbədə yeni yazılan dərsliklərdə işlənən ərəb və fars sözlərinin məzmunun hamı üçün aydın olması diqqəti cəlb edirdi. Həmin sözləri Azərbaycan dilində işlətmək məqamları açıq-

lanırdı.

Bu çətin və məsuliyyətli işi öz üzərinə götürən görkəmli maarifçi Abbasqulu Ağa Bakıxanov "Qanuni-Qüdsi", "Təhzibül-əxlaq", "Kitabi nəsihət" və ya "Nəsihətnamə" əsərlərini yazdı. A.Bakıxanovun yazdığı bu üç əsər Azərbaycanda yeni çiçəklənən maarifin ilk dərsliyi kimi meydana çıxdı.

"Qanuni-Qüdisi"(1828) əsəri dərslik kimi yazılmışdır. Fars dilinin qrammatik qayda-qanununu öyrədən bu əsər üç fəsildən "Hərflər, Kəlmələr və Cümlələrdən" ibarət idi. Dərsliyin girişində dilin qayda-qanunları yığcam şəkildə verilmiş və dilin qanunları elmi təriflər əsasında izah edilmişdir. Müəllif bu əsəri yazarkən fars dilinin canlı danışıq dili kimi öyrədilməsini də nəzərdə tutmuşdur. Əsərin ikinci fəslində nitq hissələrinin bölgüsü, üçüncü fəslində isə cümlələrin şərhi verilmişdir.

Fars dilində işlənən ərəb sözlərinin izahlı lüğəti də kitaba daxil edilmişdir. Dərslik 1831-ci ildə fars dilində Təbrizdə, rus dilində tərcüməsi isə 1841-ci ildə Tiflisdə çap olunmuşdur. Əsər Qafqazda fəaliyyət göstərən rus gimnaziyalarında uzun müddət dərslik kimi istifadə edilmişdir.

Maarifçi alim 1836-cı ildə "Nəsihətnamə" adlı bir dərslik tərtib etdi. Dərslik 24 səhifədən ibarət olsa da burada tərbiyəyə aid 102 mətn verilmişdi. Bu dərslikdə nəsihətlərdən böyüklərə hörmət, dostluq, düzlük, doğru danışmağa adət etmək, mərdlik, qoçaqlıq, zəhtəmi sevmək, elm və təhsilə maraqlı olmaq, tənbəllərə qarşı nifrət və s. kimi əxlaqi məzmunda nəsihətlər öz əksini tapmışdı. "Təhzibül-əxlaq" əsəri pedaqoji və psixoloji elmin nəzəri məsələlərini əhatə edirdi. Əsər 12 fəsildən və nəticədən ibarət idi. Əsərin əsas məqsədi insanları pis əməllərdən çəkindirmək, gənc nəsli nəcib və gözəl əxlaqi normalarda tərbiyələndirmək idi. Kitabda mərdlik, ədalət, insanlarla yaxşı rəftar etmək, dünya malına tamah salmamaq , zəhməti, oxumağı və elmi sevmək, vətənə və xalqa məhəbbət və s. kimi əxlaqi məsələlər öz əksini tap-

mışdı.

A.Bakıxanovun yazdığı bu əsərlər mədrəsə məktəblərində Azərbaycan dilini öyrədən yeganə dərs vəsaiti idi. Bu əsərlər XX əsrin əvvəllərinə kimi məktəblərdə istifadə olunmuşdur.

A.Bakıxanov öz əsərlərində elmi, əqli mühakimələrini və vətənpərvərlik hisslərini əks etdirmişdir. O,"Gülüstani-İrəm" əsərində Azərbaycan torpaqlarını düşmənlərdən müdafiə edən igid, qoçaq oğlan və qızların qəhrəmanlığından bəhs etmişdir. A.Bakıxanov Babəkin üsyanı haqqında və Tutu Bikənin kişi paltarı geyinib döyüş meydanında göstərdiyi qəhrəmanlığına dair yazan ilk maarifçidir.

XIX əsrin Azərbaycanlı alim Mirzə Kazımbəy tarixə, dilçiliyə, şərqşünaslığa aid yüzdən artıq elmi əsər yazmış, dünya şöhrətli, istedadlı alim kimi tarixə düşmüşdür.

Mirzə Kazımbəy "Gülüstan" əsərini rus dilinə, "Dərbəndnamən" əsərini ingilis dilinə, "Azərbaycan dilinin qrammatikası" kitabını alman dilinə tərcümə etmişdir. Mirzə Kazımbəy 1835-ci ildə Peterburq Akademiyasının həqiqi üzvü və 1837-ci ildə London akademiyasının fəxri üzvü seçilmişdir.

M.Kazımbəyə "Türk tatar dilinini qrammatikası" əsərinə görə ona o dövrün ən yüksək Demidov mükafatı verilmişdir.

Professor M.Kazımbəy "Türk-tatar dilinin qrammatikası" əsərini Qazan şəhərində (1839) çap etdirmişdir. Əsər 556 səhifəlik dərslik idi. Dərslik üç bölməni əhatə edirdi:

Birinci bölmədə-fonetika (əlifba, sait, samit və onların tələffüz qaydaları) və nitq hissələri (isim, sifət, say, əvəzlik) verilmişdir.

İkinci bölmədə-fel, zərf, köməkçi nitq hissələri (qoşma, bağlayıcı, nida) öz əksini tapmışdır.

Üçüncü bölmədə-isə cümlə üzvləri, sözlərin uzlaşması və bağlanması ümumi sistemdə verilmişdir.

Dərslik rus dilində (“Qrammatika turetsko - tatarskoqo yazıka”) yazılmışdır. Həm də Azərbaycan dilini öyrənən qeyri-millətlər üçün gözəl, sanballı vəsait hesab olunur. Mirzə Kazımbəy Azərbaycan dili qrammatikasının ilk yaradıcısı olmuşdur.

## Görkəmli maarifçilərin Azərbaycan dilinin tədrisi metodikasının inkişafında rolu

XIX əsrin ortalarında Azərbaycanda yeni həyat canlanırdı. Ticarət, sənətkarlıq şəhərlərdə surətlə inkişaf edirdi. Təkcə Təbriz, Gəncə, Şamaxı şəhərlərində 6 minə yaxın sənətkar öz mövqelərini qoruyub saxlamışdı. Ölkədə iqtisadi və mədəni həyat canlandıqca çəkişmələrə son qoyur, dinc həyat başlayırdı. Bu dinclik elmə, mədəniyyətə, ədəbiyyata və təhsilin inkişafına öz təsirini göstərirdi. Qəza, ginmaziya, real adlı məktəblər təkcə şəhər yox, eləcə də kənd əhalisinin savadlanmasına da xidmət edirdi.

Azərbaycanda məktəblərin sayı çoxaldıqca, maarifpərvərlər (M.F.Axundov. L.Z.Budaqov, M.M.Əfşar, M.O.Şirvani, S.Vəlibəyov, S.Ə.Şirvani, M.Ə.Təbrizi) Rusiya hökuməti qarşısında xalqın savadlanması üçün Azərbaycan dilində açılmış məktəblərdə ana dilinin bir fənn kimi öyrədilməsinə daha çox saatın ayrılması məsələsini irəli sürdülər. Maarifpərvərlərin təşəbbüsü ilə Rusiya hökuməti tərəfindən Azərbaycan dilində fəaliyyət göstərən məktəblərdə ana dilinin bir fənn kimi tədrisinə icazə verildi, Azərbaycan dilinə həftədə 3-4 saat vaxtı ayrıldı. Bu vaxt ərzində əlifba öyrədilir, lüğət, qrammatika üzrə şifahi və yazılı məşğələlər aparılırdı. XIX əsrin ortalarında ölkədə yeni tipli “Üsuli-cədid” məktəbləri açıldı. Bu məktəblərdə Şamaxıda S.Ə.Şirvani, Şuşada Mir Möhsün Nəvvab, Lənkəranda Mirzə İsmayıl Qasir, İrəvanda Mirzə Kazım Ələsgərzadə kimi maarifpərvər ziyalılarımız fəaliyyət göstərirdilər. Bu məktəblərin üstün xüsusiyyəti o idi ki, burada dərslər ana dilində aparılırdı.

Ölkədə maarifçiliyin əsas ideyasını vətənpərvərlik təşkil edirdi. Mütəfəkkir ziyalı M.F.Axundov, H.Zərdabi, N.Vəzirov və başqaları ruhani tərbiysi verən məktəblərin fəaliyyətinə qarşı mübarizə aparırdılar. Azərbaycan maarifçilərinin və xalqın bu mübarizəsi təkcə ruhani tərbiyəsi verən məktəblərə qarşı deyildi, onlar məktəblərdə təhsilin səviyyəsinin yüksəldilməsinə, yeni dərsliklərin, yeni nəzəriyyənin yaradılmasına can atırdılar.

Şərqşünas professor L.Z.Budaqov 1840-cı ildə Qazan Universitetinin Şərq fakültəsini, Həsənbəy Zərdabi 1865-ci ildə Moskva Universitetinin təbiət-riyaziyyat fakültəsini, Nəcəfbəy Vəzirov Moskva Petrovski Akademiyasını bitirmişdilər.

1879-cu ildə Gürcüstanın Qori şəhərində Qori müəllimlər seminariyasında Azərbaycan bölməsi açılmışdı. Azərbaycan bölməsinə A.O.Çernyayevski müdir təyin olunmuşdu. Seminariyada Azərbaycanın gələcək maarif xadimləri, istedadlı metodistlər Rəşid bəy Əfəndiyev, Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov, Fərhad Ağazadə, Müslüm bəy Maqomayev, Həbib Mahmudbəyov, Mahmud bəy Mahmudbəyov, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov və başqaları təhsil alırdılar. Qori müəllimlər seminariyasının məzunları hesabına Azərbaycanda pedaqoji kadrların sayı artmış, təhsil və maarif uğurla inkişaf etmişdir.

Bu dövrdə Mirzə Fətəli Axundov yeni əlifba layihəsinin həyata keçirilməsi üçün ciddi-cəhdlə çalışırdı. M.F.Axundov 1836-1842-ci illərdə Tiflisdə yaşamış, şəhər qəza məktəbində Azərbaycan dili müəllimi işləmişdir. O, müəllim işlədiyi müddətdə ərəb əlifbasının törətdiyi çətinlikləri görmüş, həmin əlifbanı dəyişmək üçün uzun müddət mübarizə aparmışdır. M.F. Axundov ərəb əlifbasının türk xalqlarına münasib olmadığı haqqında ilk fikir söyləyənlərdən biri olmuşdur.

Mütəfəkkir ərəb əlifbasının öyrədilməsi üçün asan yollar düşünmüş, yeni əlifba tərtib etmişdir. M.F.Axundov 1857-ci ildə yazdığı əlifba layihəsində ərəb əlifbasının nöq-

sanlarını belə izah edirdi:

1) ərəb əlifbasında bir çox hərflərin bir şəkildə olması, nöqtələrin bəzən yerində qoyulmaması nəticəsində hərflər çətinliklə ayird edilməsi;

2) bu yazıda saitlərin çox zaman yazılmaması;

3) bir neçə samitlə, bir neçə sait səsi ifadə edən hərflərin olmaması və s.

M.F.Axundovun hazırladığı (1854) yeni əlifba layihəsi12 sait və 32 samit səsli hərfdən ibarət idi. O, hərflərin söz daxilində işlənməsi, onların yazılış qaydasına dair metodika hazırlamışdı.

M.F.Axundov ömrünün axırına kimi (20 ildən artıq) hazırladığı yeni əlifbanı xalq arasında təbliğ etmək üçün yorulmadan iş apardı. Qarşısına qoyduğı məqsədə nail olmaq üçün dünya əlifba xətlərinə diqqət yetirdi. Birinci xətti Çin əlifbası (heroqlifli xətt), ikinci xətt ərəb və fars əlifbası (sillabi xətt, sağdan sola), üçüncü xətt avropa əifbası (alfabet xətt, soldan sağa).

Mütəfəkkir bu əlifba xətlərinin içərisində Avropa əlifba xətlərinə üstünlük vermişdir. Ona görə ki, Avropa əlifbası soldan sağa yazılır. Hərf sıraları sait və samit səslərindən ibarətdir. Hərflərin yazılış formasında nöqtələrin qoyulmasına ehtiyac yoxdur. M.F.Axundov bu səbəblərə görə 1870-ci ildə Azərbaycanda ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsi məsələsini irəli sürmüş, "Yeni əlifba haqqında mənzumə" əsərini yazmışdır. O, əsərdə qeyd etdi ki, müsəlman uşaqlarına ərəb əlifbasını öyrənmək, riyaziyyatı öyrənməkdən çətindir. Onlar ərəb əlifbasının oxusu və yazısını öyrənməkdə yüksək səviyyəyə çatmırlar.

M.F.Axundov yeni tərtib etdiyi əlifba layihəsini məktəblərdə və xalq arasında təbliğ etmək üçün 1863-cü ildə Osmanlı və İran hökumətlərinin başçılarına və maarifpərvərlərinə müraciət etdi, lakin hökumət məmurları mütəfəkkirin arzu və istəyinə qarşı çıxdılar, müraciəti cavabsız qaldı. Mütəfəkkir Osmanlı və İran hökumətlərindən ümidini kə-

sdikdən sonra öz dost və tanışlarına müraciət edib, yeni hazırladığı əlifbanı xalq arasında təbliğ etməyə çağırmışdır. Azərbaycanın görkəmli maarifçiləri M.F.Axundovun bu təşəbbüsünü bəyənmiş, “Kavkaz” qəzetinin səhifələrində dönə-dönə sanballı məqalələr çap etdirmişlər.

Artıq 1880-1890-cı illərdə Azərbaycanda böyük müəllimlər kollektivi yaranmışdı. Məktəblərdə dərslər Azərbaycan və rus dillərində aparılırdı. Bu məktəblərə xalq kütlələrinin axını çoxaldığından rus-tatar məktəbləri tez bir zaman içərisində orta məktəb şəbəkəsi kimi genişləndi. 1887-ci ildə ilk dəfə Bakı şəhərində rus-tatar məktəbi açıldı. Məktəbin açılmasının təşəbbüskarları S.M.Qənizadə və M.Mahmudbəyov olmuşdur. Azərbaycanda 1913-cü ilə qədər rus-tatar məktəblərinin sayı 18-ə çatdı. Bu məktəblərdə 337-dən çox qız təhsil alırdı. Məktəblərdə Azərbaycan dilini tədris edən müəllimlər azərbaycanlılar idi. Eləcə də Bakıda N.Vəzirov realnı gimnaziya, Şamaxıda S.Ə.Şirvani “Məclisi-üns”, Ordubadda Məmmədtağı Sidqi “Əxtər” adlı məktəblər açdılar.

Azərbaycanda təhsil ocaqlarının sayı get-gedə çoxalır, təlim-tərbiyə işlərinin sferası genişlənirdi. Yeni dərsliklərin yazılması və bu dərsliklərə aid işləmələrin hazırlanması tələbatı güclənmişdi.

XIX əsrdə Azərbaycanda maarifçiliyin fəaliyyətini üç mərhələyə bölmək olar.

**Birinci mərhələdə** - ilk təşəkkül dövrü 1830-cu illəri əhatə edir ki, bu dövrdə M.Ş.Vazeh, A.Bakıxanov, M.Kazımbəy, M.C.Topçubaşov, Ş.Əfəndiyev və s. kimi maarifçilər meydana çıxdılar. Onlar Azərbaycanda maarifçiliyin ibtidai rüşeymini yaratdılar. Xalq arasında maarifçiliyi yaydılar. Maarifın müstəqil inkişafında əqli ideyalara istinad etdilər.

**İkinci mərhələ** - 1850-1870-ci illəri əhatə edir. Bu illər Azərbaycanda maarifçıliyin yetkin dövrü, pedaqoji və psixoloji aləmi təzahür edir. Azərbaycan maarifçiləri rus maarifçilərinə yaxınlaşır, məktəblərdə savad təlimində sövti üsuldan istifadə edilir, yeni tipli (qəza, üsuli-cədid, əxtər, rus-

tatar, realnı) məktəblər açılırdı. Dərslik və dərs vəsaitləri yazılır, pedaqoji fəaliyyətə gənclər cəlb olunurdu. Azərbaycanın folklor nümunələrinin toplanmasına, bədii ədəbiyyatın inkişafına, yazıb yaradan sənətkarların əsərlərinin mətbuat vasitəsi ilə yayımlanmasına diqqət artırılırdı. Bu illərin əsas simalarından biri M.F.Axundov idi. Mütəfəkkir ərəb əlifbasının çətinliyini görüb, onu başqa əlifba ilə əvəz etməyin ilk təşəbbüskarı olmuşdur.

**Üçüncü mərhələ** - 1870-1890-cı illərə təsadüf edir. Bu illərdə Azərbaycanda əsl maarifçilik zəmanəsi yarandı. İlk növbədə maarifçilər elmin inkişafına zidd olan dini məktəblərin fəaliyyətinin əleyhinə çıxış etdilər. Pedaqoji və uşaq ədəbiyyatının inkişafı mətbuat vasitəsi ilə yayımlandı. Maarifçilərin demokratik görüşləri gücləndi. Qori Müəllimlər Seminariyasının tatar (Azərbaycan) şöbəsində 1882-ci ildə ilk buraxılış oldu. Qabaqcıl maarifçilərin S.Ə.Şirvani, Həsənli Qaradaği, Məmmədtağı Sidqi, Mirzə İsmayıl Qasirin pedaqoji fəaliyyəti dövlət tərəfindən qiymətləndirildi. Məktəbi əla qiymətlərlə bitirən şagirdlərə qızıl medallar təsis olundu. Qəzet və jurnalların Azərbaycan dilində çap olunması və s. Azərbaycanda maarifin inkişafında tarixi hadisələrdəndir.

## Proqram, dərslik və dərs vəsaitlərinin tərtibi haqqında

Ana dilinin tədrisi vəziyyətini yaxşılaşdırmaq üçün maarifçi ziyalı və qabaqcıl müəllimlər səmərəli yollar seçdilər. İlk növbədə əlifba və orfoqrafiya məsələlərini irəli sürdülər. Bu məqsədlə Mirzə Şəfi Vazeh "Tatarsko-russkiy slovarı" kitabını yazdı. Kitab şagirdlərin lüğətini zənginləşdirmək üçün çox faydalı vəsait idi.

Romanov İoakim Konistantinoviç tərəfindən yazılmış "Tatarskiy bukvar" adlı dərslik pedaqoji cəhətdən çox ustalıqla hazırlanmış, şagirdlərin yaş və bilik səviyyəsi nəzərə alınmışdı. Dərslik Peterburq şəhərində 1854-cü ildə buraxılmışdı. Dərslik yeni düzəlişlərlə təkrar- təkrar (1856, 1859,

1860) nəşr olunmuşdur. Dərslikdə ərəb əlifbasının öyrədilməsi yolları haqqında üç bölmə verilmişdi.

I- hərfin şəkil formasının öyrədilməsi. II - hərfin yazılışında və yazı zamanı istifadə olunan nöqtələrin qoyulma qaydalarının öyrədilməsi. III - isə hərflərin sözlər daxilində işlənməsi, onların birləşdirilməsi və tələffüzü haqqında məlumatın verilməşi.

Kitabda verilən mətnlər şagirdlərin oxu vərdişlərinə və nitq inkişafına xidmət edirdi. Eləcə də Azərbaycan dilinin nitq hissələri haqqında (isim, sifət, say, əvəzlik, fel) yığcam formada məlumat verilirdi. Dərslik Azərbaycan dilini öyrənən rus dilli şagirdlər üçün nəzərdə tutulmuşdu.

Bu dövrdə dərslik hazırlayan digər müəllif Seyid Əzim Şirvani olmuşdur. S.Ə.Şirvani Suriyanın Şam şəhərində mədrəsədə oxumuş, təhsilini tamamladıqdan sonra o, Şamaxı şəhərinə qayıdıb, yeni tipli "Məclisi-üns" adlı bir məktəb açmışdır. Məktəbdə şagirdlərə fars, rus və Azərbaycan dilləri öyrədilirdi. Dərslərin fəal keçməsi üçün uşaqları maraqlandıran bədii parçalardan istifadə olunurdu.

S.Ə.Şirvani uzun müddət məktəbdə müəllim işlədikdən sonra "Məcmueyi-asari-Hacı Seyid Əzim Şirvani" adlı bir dərslik tərtib edir. Kitab 255 səhifədən, 170-dən artıq bədii əsərlərdən ibarət olmuşdur. Dərslikdəki mətnlər üç yerə bölünürdü:

**Birinci** bölmədə 70 hekayə, Sədinin "Gülüstan və Bustan" əsərindən tərbiyəvi parçalar verilmişdir.

**İkinci** bölmədə nəsihətamiz sözlər və fars, rus kitablarından tərcümə etdiyi əsərlər öz əksini tapmışdır.

**Üçüncü** bölmədə, öyüd-nəsihət, doğruçuluq, səxavət və əxlaq haqqında mövzulara yer verilmişdir. Müəllif dərslikdə öz əsərlərindən "Aslan və iki öküz", "Xan və dehqan", "Aslan və siçan" və s. istifadə etmişdir. Seyid Əzim tərtib etdiyi kitabı Zaqafqaziyada ibtidai məktəblərin müfəttişi işləyən A.O.Çernyayevskiyə təqdim etmiş, kitabın tərtibatı Çernyayevskinin xoşuna gəlmişdir. O, "Vətən dili" kitabını tərtib

etdiyi zaman S.Əzimin şeirlərindən də istifadə etmişdir. Seyid Əzim Şirvani M.F.Axundovun ölümündən sonra maarifpərvər Həsən bəy Məlikov- Zərdabi ilə əlaqə saxlamış, bu əlaqə "Əkinçi" qəzeti nəşr olunandan sonra daha da möhkəmlənmişdir.

S.Ə. Şirvani ikinci dəfə "Tacül-kütüb" (1859) adlı dərslik yazmışdır. Dərslikdəki materiallar uşaqlara Azərbaycan dilini öyrətmək məqsədi daşıyırdı. Kitabda fonetika bölməsində ərəb əlifbasının və alt, üst nöqtələrin qoyulması ilə 28 hərf şəkli öyrədilməsi nəzərdə tutulur. Sonra morfologiya və sintaksisdən bəhs edilir. Zaqafqaziya tədris idarəsi S.Ə.Şirvaninin bir maarifçi kimi işini nəzərə alaraq onu 1886-cı ildə gümüş medalla təltif etmişdir.

1857-ci ildə Mirzə Nəsrullah "Kitabül-nəsihət" dərsliyini yazmışdır. Dərslik 150 səhifədən ibarətdir. Dərsliyin birinci bölməsində insana xas olan insani sifətlər: səbir, sirr saxlamaq, səxavətli olmaq, əxlaq və həya, rəhimli olmaq; ikinci bölməsində - insanın pis sifətlərindən - xəsislik, lovğalıq, paxıllıq, xəbərçilik, söz gəzdirmək və s. əks olunan mətnlər verilmişdir.

XIX əsrin pedaqoji aləmində görkəmli simalardan olan **Aleksey Osipoviç Çernyayevskinin** əsas xidmətlərindən biri ilk dəfə "Vətən dili" dərsliyinin yazılması olmuşdur. Aleksey Osipoviç Çernyayevski 1840-cı ildə Şamaxı şəhərində kasıb bir ailədə anadan olmuşdur. O, ilk təhsilini Şamaxı şəhərində qəza məktəbində almışdır. O, Tiflis şəhərində Azərbaycan dili müəllimi və Azərbaycan şöbəsində müfəttiş vəzifəsində işləmişdir. O, bu müddətdə R.Əfəndiyevlə birlikdə Azərbaycanda fəaliyyət göstərən məktəblərin (mollaxana, məhəllə, mədrəsə, qəza,) dərslik və proqramları ilə tanış olmuş, dərslik və proqramlarda nöqsanların olduğunu bildikdə maarif xadimlərini Tiflis şəhərinə dəvət etmişdir. Görüş zamanı aşağıdakı məsələlər müzakirə olunmuşdur:

**Birinci məsələ -** dərslik və proqramlardakı mövcud olan nöqsanları aradan qaldırmaq, Azərbaycan məktəblərinə hə-

yatın tələbinə cavab verən dərslik və proqramlar hazırlamaq.

**İkinci məsələ -** Azərbaycan məktəblərində əlifba təlimini sövti üsulla (səsli üsul) öyrədilməsini müzakirə etmək, bu məsələni ən yaxın zamanda həyata keçirmək.

Azərbaycan məktəblərində əlifba təliminin səsli üsulla öyrədilməsinə 1881-ci ildən başlanmışdır. Həmin ildən də tədris planı proqram və dərsliklərin yazılması hökumət tərəfindən təsdiq olunmuşdur.

**Yeni** tədris planında hərfləri öyrədilməsinə 6-7 ay vaxt verildi. Məktəblərdə sövti üsulla işləyən müəllimlər üçün metodik işləmələr hazırlanmağa başlandı.

Rəşid bəy Əfəndiyevlə, A.O.Çernyayevskinin birlikdə hazırladıqları “Vətən dili” dərsliyi sövti üsulda yazılmışdı. Dərslik 1882-cü ildə daş basmasında çap olundu və ana dili dərslərini tədris edən müəllimlərin istifadəsinə verildi.

“Vətən dili” dərsliyinin birinci nəşri 48 səhifədən ibarətdir. Bu kitab Azərbaycan dilində ilk əlifba dərsliyidir. Dərslikdə ərəb əlifbasının 32 hərf xətti və hərflərin 128 şəkil forması göstərilmiş və bu hərflərin tədrisi yolları haqqında işləmələr verilmişdir.

“Vətən dili” kitabının ikinci nəşrini Aleksey Osipoviç Çernyayevski Səfərəli bəy Vəlibəyovla birlikdə hazırlamışdır. Dərslik 1888-ci ildə Tiflis şəhərində çap olunmuşdur. Kitabın 150-ci səhifəsinə qədər hərflərin öyrədilməsi nəzərdə tıtulmuş, 150 səhifədən sonra isə oxuya aid mətnlər verilmişdi. Mövzular hekayə və şeirlərdən, atalar sözləri, tapmacalar və tərbiyəvi mətnlərdən ibarətdir.

Onu da qeyd edək ki, dərslikdə ilk dəfə olaraq durğu işarələrindən nöqtə, qoşa nöqtə, sual işarəsi, nida istifadə edilməsi yolları haqqında məlumat verilirdi. “Vətən dili” dərsliyi Azərbaycan məktəblərində 1910-cu ilə kimi istifadə olunmuşdur. “Vətən dili” dərsliyinin ikinci nəşrinə Həsənli Qaradaği yaxından kömək etmişdir. Dərslik Azərbaycanın ilk əlifba kitabı kimi çapa hazırlanmışdır.

XIX əsrin tanınmış ziyalılarından biri də **Rəşid bəy**

**Əfəndiyev** olmuşdur. O, “Vətən dili” dərsliyinin tərtibatçısı, yazıçı, metodist-müəllim kimi xalq arasında hörmət qazanmışdır.

Rəşid bəy Əfəndiyev 1879-cu ildə Qori müəllimlər seminariyasına daxil olmuş, 1882-ci ildə isə seminariyanı bitirib, Qəbələ rayonunda müəllim və məktəb direktoru vəzifəsində işləmişdir.

O, öz bacarığına və pedaqoji təcrübəsinə əsaslanaraq 1889- cu ildə “Uşaq bağçası” adlı dərslik tərtib etmiş və onu həmin ildə çap etdirmişdir. Dərslik 72 səhifədən ibarət idi. Kitabda hərflərin tələffüz və oxunuşu haqqında metodik işləmələr verilmişdir. Müəllif kitaba əlifba təlimindən sonrakı dövr üçün bədii əsərlərdən parçalar, hekayələr, heyvanların həyat tərzinə aid mətnlər daxil etmişdir.

R.Əfəndiyev “Uşaq bağçası” kitabında Azərbaycan dilinə yaramayan səkkiz ərəb hərfini çıxarmışdır. Müəllifin fikrincə, bu hərflərin ifadə tərzi boğazda və dilin ucunda olduğuna görə danışıq üzvlərinin tələffüz qaydalarını çətinləşdirir.

Müəllif 32 hərfdən 24-nü saxlamışdı, hər bir hərfə aid bir dərs nümunəsi vermişdi. Dərslikdə ədəbiyyat nəzəriyyəsi haqqında da məlumat verilmişdir. Kitabda əməli yazı nümunələri də öz əksini tapmışdır.

1896-cı ildə Məmmədtağı Sidqi “Qiraət kitabı” adında bir dərslik hazırlamışdır. Bu dərslikdə təlim-tərbiyənin qarşıya qoyduğu vəzifələr 20 maddəyə ayrılmış və hər bir maddənin qarşıya qoyduğu vəzifələr ayrı-ayrılıqda izah edilmişdir. Kitabda 80-dən artıq nəsihətamiz söz işlənmişdir.

Məmmədtağı Sidqi (1854-1904) Ordubad şəhərində anadan olmuş, təhsilini mollaxanada almışdır. O, 1892-ci ildə Ordubad şəhərində Azərbaycan dilində “Əxtər” adlı məktəb açmışdır( “Əxtər” sözü fars dilində - ulduz deməkdir).

“Əxtər” adlı məktəbdə Azərbaycan dili, rus dili, ərəb və fars dillərindən başqa tarix, coğrafiya, hesab fənləri öyrə-

dilirdi. Bu məktəbdə uşaqlar ilk dəfə parta arxasında oturub təhsil alırdılar. “Əxtər” tez bir zamanda xalqın rəğbətini qazandı. Sonra məktəb dövlətin ixtiyarına keçdi, rus-tatar məktəbi oldu. Məmmədtağı Sidqi “Əxtər” məktəbi üçün əlyazma şəklində yeni üsulla ana dili, coğrafiya dərslikləri tərtib etmişdir. O, əlyazma şəklində tərtib etdiyi dərsliklərdə dilimizdə işlənən hərflərin öyrədilməsi yollarını göstərmişdir. Dünya əlifba xətlərinə öz münasibətini bildirmiş, latin əlifbasının tərəfdarı olmuşdur.

Məmmədtağı Sidqi əlyazma şəklində olan ikinci kitabında elmin əhəmiyyəti, böyüklərə hörmət, təvazökar olmaq kimi insani keyfiyyətlərdən söhbət açmışdır.

Mirzə Əbdülsəlamın “Sərməşq hüsnxət”(1894) adlı dərs vəsaitində müəllimlərin iş təcrübəsindən, şagirdlərin təhsilindən söhbət açılır.

Görkəmli maarif xadimləri gənc nəslin hərtərəfli dünyagörüşünün formalaşmasında dərslikdəki mətnlərin əhəmiyyətini dəyərləndirirdilər. Onlar şagirdlərin hərtərəfli inkişafı üçün pedaqoji jurnal və uşaq ədəbiyyatının vacibliyini düşünürdülər. S.M.Qənizadənin rəhbərliyi altında “Sovqat” (1896), “Çıraq”(1897) və Həbib bəy Mahmudbəyovla birlikdə “Nübar” (1896) adlı jurnal çap olunmuşdur. Uşaq ədəbiyyatı (təmsil, nağıl, atalar sözü, tapmacalar) nümunələri jurnalların səhifələrində seriya şəklində verilmişdir.

Mirzə Ələsgər Növrəsin “Uşaqlara nəsihət kitabı” (Kitabi-pəngi-ətfal) (1899) adlı oxu dərsliyində şagirdlərin dil üslubıı və oxu vərdişlərinin inkişafı nəzərdə tutulmuşdur.

## Azərbaycan məktəbləri üçün çap olunmuş dərslik və dərs işləmələrinin xronoloji cədvəli[1]

| № | Müəllifin adı və soyadı | Dərslik və dərs vəsaitlərinin adları |
|---|---|---|
| | Molla Yusif Misgər | Bəyanül-asrar (1812) |
| | Abbasqulu ağa Bakıxanov | Qanuni-Qüdsi (1828)<br>Təhsibül-əxlaq (1834)<br>Nəsihətnamə (1836) |
| | Mirzə Kazım bəy | Türk-tatar dilinin qrammatikası (1839) |
| | P.M.Budaqov | Türk-tatar əlifbası (1844) |
| | M.Ş.Vazeh | Kitabi-türki (1852) |
| | İoaki Romanov | Tatar əlifbası (1855-1856) |
| | Mirzə Nəsrullah | Kitabün-nəsayeh (1857) |
| | P.M.Budaqov | Türk-tatarskoqo-azer-baydjanskoqo nareçiye (1857) |
| | Mirzə Əbdülhəsən bəy Vəzirov | Uçebnik tatarskoqo azerbayd-janskoqo nareçiye (1858) |
| | L.M.Lazaryev | Türk dilinin müqayisəsi mün-təxəbatı (1866) |
| | Lazar Budaqov | Lüğəti-türki (1869) |
| | Mirzə Məhəmməd Əfşar | Fənni-şərfi-türki |
| | A.O.Çernyayevski, R.Əfəndiyev | Vətən dili (1882) |
| | A.O.Çernyayevski, S.Vəlibəyov | Vətən dili (1888) |
| | A.O.Çernyayevski | Üsul kitab (1883) |
| | A.Tahirov | Samouçitel tatarskoqo yazıka (1887) |
| | R.Əfəndiyev | Uşaq bağçası (1889) |
| | Şükrulla Məhərrəmzadə | Rusaleyi-haruf-və xütut (1890) |

[1]Bax.:B.Tağıyev.Oxu təlimi.Bakı,2006, s.45-47

| | | |
|---|---|---|
| | Səfərəli Vəlibəyov | Xəzineyi-əxbar (1891) |
| | Molla Nədulla Təbrizi | Kitabçeyi-Ədəbiyyə (1893) |
| | Mirzə Sadıq | Şahətli Kəlamlar (1893) |
| | Mirzə Əbdülsəlam | Xətti təliq və nəstəli sərməşq, (hüsnxət, 1894) |
| | Məmmədtağı Sidqi | Qiraət kitabı (1896) |
| | Nəriman Nərimanov | Türk-Azərbaycan dilinin müxtəsər-səhv-nəhvi (1899) |
| | Mirzə Ələsgər Növrəs | Kitabi-təndi-ətfal (1899) |
| | Mir Mehdi Nəvvab | Kitabi-kifayətül ətfal (1899) |
| | S.M. Qənizadə | Samouçitel tatarskoqo yazıka (1902) |
| | Məmınədağa | Soveti Şərq Əlifbası (1902) |
| | Məmmədağa | Məhəmmədağa xətt (1903) |
| | İslam bəy Qəbulov | Qəvaidi-lisani-türk (1902) |
| | Mirzə Balaqardaş | Şagirdlərə hədiyyə (1902) |
| | Həsən Rüşdiyyə | Vətən dili (1902) |
| | Nəcəfqulu Şirvani | Töhfətül-arifin lisani-türk (1902) |
| | M.Balaqardaş Hacıyev | Qafqaz istilah (1903) |
| | Həsən Səbri Eyvazov | Üsuli tədris vətənim-tərbiyyə (1906) |
| | Mahmud bəy Mahmudbəyov | Türk əlifbası və ilk qiraət (1907) |
| | M. Mahmudbəyov və b. | İkinci il (1907) |
| | Üzeyir Hacıbəyov | Türk-rus və rus türk lüğəti (1907) |
| | Abbas Mollazadə | Türkcə qiraət (1907) |
| | Hafiz Məmmədli | Nümunəyi-tədris və tərbiyyə (1907) |
| | H.Məmmədli | Fənni-inşavə üsuli-kitabət (1908) |
| | M. Mahmudbəyov | Üçüncü ilə məxsus qiraət kitabı (1909) |
| | Abdulla Şaiq | Uşaq gözlüyü, Gülüşəni ədəbiyyat (1910) |

| | | |
|---|---|---|
| | Rəhad Mirzəzadə və b. | Rəhbər-sərf (1910) |
| | M.Möhsünzadə | Hədiyyətül-ətfal (1911) |
| | Mirzə Qəmərlinski və b. | Ana dili (1911) |
| | Abdulla Talıbzadə | Gülzar (1912) |
| | Cəlal Yusifzadə | Ata-baba nəsihətləri (1912) |
| | Mirzə Hüseyn Həsənzadə | Tatam əlifba (1912) |
| | Firudin bəy Köçərli | Balalara hədiyyə (1912) |
| | Abdulla Talıbzadə | Uşaq gözlüyü (1910) |
| | Zeynalabdin İncizadə | Dil rəhbəri (1913) |
| | Abbas Abbaszadə | Mübtədilər üçün birinci əlifba (1913) |
| | A.Abbaszadə | Nəsihətül-ətfal (1913) |
| | Əlimirzə Nərimanov | Nəsihətül ətfal (1913) |
| | Sabit Manafzadə | Xatirat (1913) |
| | Qara bəy Qarabəyov | Türkcədən Ruscaya lüğət (1914) |
| | Abdulla bəy Əfəndizadə | Son Türk əlifbası (1919) |
| | Əhməd Rasim | Müxtəsər sərfi türki (1919) |

## XX əsrin I və II yarısında Azərbaycan dilinin tədrisi metodikasının inkişaf tarixi

1900-cıı ildən "Məktəb" adlı pedaqoji jurnal, M.Mahmudbəyovun redaktorluğu altında "Rəhbər" jurnalı (1906-cı il) nəşr olunmağa başlandı. Jurnalların nömrələrində məktəblərdə təlim-tərbiyənin demokratik əsasda qurulması, şəriət dərslərinin məktəblərdən ayrılması, icbari təhsilin həyata keçirilməsi və s. məsələlər irəli sürülmüşdür.

XX əsrin əvvəlində 1901-ci ildə R.Əfəndiyev "Bəsirətül-ətfral" adlı oxu kitabını tərtib etmiş, dərslik Bakı şəhərində çap olunmuşdur. 226 səhifədən ibarət kitabın 156-cı səhifəsinə qədər oxu mətnləri verilmiş, "İmlasızlıq" bölməsində isə dilin üslubi materialları, orfoqrafiya və qrammatikaya aid dəyərli fikirlər söylənmişdir. Müəllif kitabın 163-cü səhifəsindən uşaqlara məktub yazmaq nümunələri verir, sonra nəzm, nəsr, əruz vəzni, məsnəvi, rübai, ağı, təcibənd, tərkibbənd və s. poetik ünsürlər haqqında məlumat vermişdir.

XX əsrin əvvəllərində Mahmud bəy Mahmudbəyov "Türk əlifbası və İlk qiraət" dərsliyini tərtib etmişdir. Bu kitab 1907-ci ildə Bakıda çap olunmuşdur. Dərslik 1923-cü ilə qədər Azərbaycan məktəblərində istifadə edilmişdir. Mahmud bəy Mahmudbəyov sonralar "İkinci il", "Üçüncü il", "Yeni türk əlifbası" və s. kimi dərsliklərin də əsas müəllifi və tərtibçisi olmuşdur.

"İkinci il" dərsliyi əlifbadan sonrakı dövr üçün nəzərdə tutulmuşdur. Bu dərsliyin ikinci nəşrində S.Axundzadə, F.Ağazadə, A.Talıbzadə, A.Əfəndizadə və başqaları müəllif olmuşlar. Dərslik 114 səhifədən ibarət olmuş və 1908-ci ildə Bakı şəhərində çap edilmişdir. Dərslikdə yazı işlərinə aid çalışmalar, inşa və ifadə yazılara aid mövzular və qiraət bölməsinə aid mətnlər verilmişdir. Kitabın 96-cı səhifəsindən sonra "Yazı dərsləri" şagirdlərin orfoqrafik vərdişlərini inkişaf etdirməyə, tək və cəm isimlərə, əvəzliyə, sifətə aid məlumatlar verilmişdir.

M.Mahmudbəyov A.Səhhətlə birlikdə "Türk dilinin təlimi üçün üçüncü ilə məxsus qiraət kitabı"nı tərtib etmiş və onu 1909-cu ildə Bakı şəhərində çap etdirmişdir. Dərslik 162 səhifədən ibarət olmaqla, doqquz bölmədən ibarətdir. Bu bölmələr ayrı-ayrı başlıqlar altında verilmişdir. Kitab sadə dildə yazılmış, uşaqların yaş və bilik səviyyəsi nəzərə alınmışdır.

**Mahmud bəy Mahmudbəyov** 1911-ci ildə Bakı şəhərində "İmlamız"adlı o zaman üçün çox qiymətli və faydalı olan bir kitabça yazıb, çap etdirmişdir. Onun 24 səhifəlik "İmlamız"adlı bu əsərində orfoqrafiyamız haqqında çox qiymətli, o zamana qədər söylənilməmiş və tədqiq olunmamış məsələlər barədə orijinal fikirlər irəli sürmüşdür. Bu əsər zamanı üçün elmi-metodiki cəhətdən qiymətli bir vəsait idi. Vəsait 22 il məktəblərdə öz qüvvəsini saxlamışdır.

Gözəl müəllim, məşhur metodist **Mirzə Həsən Rüşdiyyə** (1850-1943) Cənubi Azərbaycanda ömrünün axırına kimi müəllimliklə məşğul olmuş, öz təcrübəsinə əsasən yeni tipli

məktəb açmışdır. Məktəb savad təliminə 60 saat vaxt vermiş, şagirdlərin ana dilində yazıb-oxumağı bacarmasını qarşısına məqsəd qoymuş, Cənubi Azərbaycanda "Vətən dili" dərsliyini yazmışdır. Həmin dərslik 1905-ci ildə Təbriz şəhərində nəşr olunmuşdur. Böyük pedaqoji təcrübəyə malik olan Mirzə Həsən Rüşdiyyə ərəb əlifbasının tədrisinin sövti üsulla öyrədilməsi fikrini irəli sürmüşdür. "Vətən dili" dərsliyində üslubi məsələlərə və elmi-metodik sahələrə xüsusi diqqət yetirmişdir. Kitabın qiraət bölməsində xalq ədəbiyyatına (atalar sözü, tapmacalar, məsələlər), o cümlədən tərbiyəvi xarakterli mətnlərə yer verilmişdir. Dərslik 110 səhifədən və iki bölmədən ibarət olmuşdur. M.H.Rüşdiyyə çalışqan uşaqlara qızıl medal təsis etmişdir.

**Məhəmməd ağa Şahtaxtinski** M.F.Axundovun davamçısı olmuş, ərəb əlifbasını islah etmək yox, onu əvəz etmək fikrində olmuşdur. Xalqı M.F.Axundovun tərtib etdiyi əlifbaya alışdırmaq və həvəsləndirmək məqsədilə mətbuat səhifələrində dəyərli məqalələrlə çıxış etmişdir.

Məhəmməd ağa Şahtaxtinski "Sövti Şərq Əlifbası" adlı dərsliyi 1902-ci ildə yazmış, 1903-cü ildə isə həmin dərslik Tiflisdə "Şərqi-rus" qəzetinin mətbəəsində nəşr olunmuşdur. Müəllif bu dərs kitabını M.F.Axundovun tərtib etdiyi əlifba əsasında yazmışdır. Kitabda hərflərin gözəl xətlə yazılması metodikası da verilmişdir.

Dərslik 18 səhifədən ibarət idi. Kitabda rus dilində mətnlərə də yer verilmişdir. Məqsəd odur ki, rus dilli xalq yeni əlifbadan istifadə edə bilsin. Kitabda yeni əlifba, sözlərin fonetik və qrammatik cəhətdə yazılşı, dilin tədrisinə aid metodik işləmələr verilmişdir.

XX əsrin pedaqoji aləmində yazıçı **Abdulla Şaiq Talıbzadənin** böyük fəaliyyəti olmuşdur. Abdulla Şaiq (1881) Tiflis şəhərində anadan olmuş, ilk təhsilini rus, fars dillərində almışdır. Tiflis şəhərindəki Aleksandrovski gimnaziyasında oxumuş, dil-ədəbiyyat müəllimi hüququnu qazanmışdır. O, Bakıya köçüb, S.S.Axundovun

məktəbində ana dili müəllimi işləmişdir.

"Dəbistan", "Məktəb", "Rəhbər" jurnalları üçün yazdığı uşaq əsərləri "Murad", "Yaxşı arxa", "Tıq- tıq xanım","Çoban Məmiş" və s. çap edilmişdir.

Abdulla Şaiq "Uşaq gözlüyü" adlı dərsliyini sövti üsul əsasında yazmışdır. Dərslik 1910-cu ildə Bakı şəhərində çap olunmuşdur. Kitab 58 səhifədən, üç bölmədən ibarət idi. Birinci və ikinci bölmələrdə ərəb əlifbasının öyrədilməsi və yazı qaydalarına aid nümunələr verilmişdir. Kitabın üçüncü bölməsində bədii əsərlər hekayə, şeir, quş, heyvan və təbiət hadisələrinə aid mətnlər öz əksini tapmışdır.

Abdulla Şaiq "Gülüzar", "Milli qiraət", "İkinci il" və s. dərsliklərini nəşr etmişdir.

Məktəb tarixindən məlumdur ki, ana dilinin bir fənn kimi tədrisi "Vətən dili" və "Uşaq bağçası" adlı dərsliklərdən sonra başlanmışdır. Bu dərsliklər Azərbaycan dilində dərs aparan müəllimlərə tədris üçün gözəl şərait yaratdı. Azərbaycan məktəblərində tədris planı, proqramlar, əlifbanın islahı bu dərslik vasitəsilə sahmana salınmış, bu sahədə müəllimlərin qabaqcıl pedaqoji təcrübəsi də xüsusi rol oynamışdır.

Mirzə Hüseyn Həsənzadə "Tamam əlifba" adlı dərslik hazırlamış və bu dərslik 1912-ci ildə Tiflis şəhərində çap olunmuşdur. Dərsliyin 22 səhifəsi əlifbanın öyrədilməsinə ayrılmış, qalan səhifələrində qiraətə aid mətnlər verilmişdir. Müəllif dərsliyin işləmə bölməsində qeyd edir ki, ərəb əlifbasındakı bəzi hərflərin tələffüzü qaydalarını Azərbaycan dilinə uyğunlaşdırmaq lazımdır. M.H.Həsənzadə kitabın tərtibində daha bir məsələni diqqət mərkəzində saxlamışdır. O, Azərbaycan dilinin zənginliyinə əsaslanaraq 9 sait səsin işlənmə təşəbbüsünü irəli sürmüşdür. Müəllifin fikrincə, dildə sait səslərin işlənməsi, dili zənginləşdirir, yeni sözlər düzəltmək üçün şəkilçilərdən istifadə etməyə imkan yaradır. Dərslikdə hərflərin hüsnxət qaydasına yazılışına da diqqət yetirilmişidir.

Xalqın xoşbəxtliyi və gələcəyi uğrunda ardıcıl mübarizə

aparmış maarifpərvər ziyalılarımızdan biri də **Firudin bəy Köçərli** olmuşdur. F.Köçərli 1863-cü ildə Azərbaycanın Şuşa şəhərində anadan olmuş, təhsilini rus dilində almışıdır. "Quran", "Gülüstan" və "Bustan" əsərlərini oxumuşdur. Firudin bəy Qori seminariyasını bitirdikdən sonra İrəvanda fəaliyyət göstərən gimnaziyada Azərbaycan dili müəllimi işləmişdir. 1918-ci ildə Qori Müəllimlər Seminariyası Qazaxa köçəndə Firudin bəy Köçərli Azərbaycan şöbəsinin direktoru işləmişdir. O, 35 il pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Firudin bəy "Qafqaz", "Kaspi", "İrşad", "Tərəqqi" və s. qəzetlərində Azərbaycan dilinin tədrisinə dair sanballı məqalələrlə çıxış etmişdir. O, folklor nümunələrini toplayıb, elmi-nəzəri cəhətdə ümumiləşdirmələr aparmışdır. F.Köçərli 1912-ci ildə uşaqlar üçün "Balalara hədiyyə" adlı dərslik hazırlamış, kitabda nağıl, bayatı, tapmaca, atalar sözü, məsələlər, sayaçı sözləri və s. folklor nümunələri verilmişdir ki, bu da həm uşaqların, həm də böyüklərin qəlbində keçmişinə sevgi və məhəbbət hissləri oyatmışdır. Müəllif kitabı Bakı şəhərində çap etdirmişdir. Dərslik 102 səhifədən və iki bölmədən ibarətdir. Dərslikdə 42 tərbiyəvi məqsədli mətn, 33 mənzum hekayə öz yerini tutmuşdur. Kitab uzun müddət Azərbaycan məktəblərində dərslik kimi istifadə olunmuşdur. Məktəb tarixində "Balalara hədiyyə" adlı dərslik qiymətli abidə kimi saxlanılır.

XX əsrin əvvələrində dərslik yazan müəlliflərdən biri də Abdulla bəy Əfəndizadə olmuşdur. O, "Son türk əlifbası" adlı dərsliyin müəllifidir. Kitab 1919-cu ildə Bakı şəhərində çap olunmuşdur. Dərslik 34 səhifədən ibarətdir. Dərslikdə hərflərin müqayisəli şəkildə öyrədilməsi üçün 32 məşğələ nəzərdə tutulmuşdur.

Dərslik sövti üsulla yazılsa da, diqqəti cəlb edən cəhət odur ki, vəsaitdə latın və ərəb əlifbası müqayisəli şəkildə verilmişdir. Müəllifin fikrincə, latın qrafikasını öyrənən hər bir şagird Avropa dillərini çox asanlıqla öyrənə bilər.

Mirzə Abbas Abbaszadə "Mübtədir üçün birinci il

əlifbası" adlı dərslik hazırlamış, həmin dərslik 1913-cü ildə Bakı şəhərində çap olunmuşdur. Dərslik 51 səhifədən ibarət idi. Dərsliyin birinci bölməsində hərflərin öyrədilməsi və hərflər işlənən şəkillər verilmişdir. İkinci bölməsində qiraətə aid 100-ə yaxın kiçik hekayə, nəsihətamiz sözlər və tərbiyəvi mətnlər verilmişdir. Dərslik sövti üsulla yazılmış və Gəncə şəhərində Azərbaycan dilində dərs aparan müəllimlər üçün nəzərdə tutulmuşdur.

Yuxarıda adları çəkilən dərsliklərdən başqa ana dilinin tədrisi vəziyyətini yaxşılaşdırmaq üçün bir neçə dərslik də çap olunmuşdur.

Mirzə Balaqardaş Hacıyev "Şagirdlərə hədiyyə" adlı dərslik yazmış, dərslik 1902-ci ildə Bakı şəhərində nəşr olunmuşdur. Dərslikdə əlifba təlimi bölməsi və şagirdlərin oxu vərdişləri üçün qiraət materialları verilmişdir.

Mirzə Abbas Mollazadənin "Türk qiraəti" (1907) dərsliyində təmsillər, atalar sözləri, təbiətə aid mətnlərin məzmunu ilə tanışlıq oxu vərdişlərinin inkişafı məqsədini güdürdü.

Hacı Mirağa Mirmöhsünzadənin "Hədiyyətül-ətfaf" adlı kitabı 1911-ci ildə Bakı şəhərində çap olunmuşdur. Dərslikdə əsasən qiraət məzmunlu mətnlər verilmişdir.

Mirzə Cəlal Yusifzadə "Ata-baba nəsihətləri» adlı dərslik hazırlamışdır. Dərslik 1912-ci ildə Bakıda çap olunmuşdur.

Bakı şəhərində "Rus-Azərbaycan" məktəbinin direktoru Məmmədhəsən Əfəndizadə həmin məktəbin müəllimi Əlisgəndər Cəfərzadə ilə birlikdə 1906-cı ildə "Dəbistan" adlı aylıq jurnal və ona əlavə olaraq "Valideynlər üçün" vərəqə çap etdirdi. Jurnalın səhifələrində Azərbaycan dilində olan məktəblərin dərslikləri haqqında metodiki, pedaqoji məqalələr, bədii əsərlər (şeir, hekayə), rus və dünya ədəbiyyatından tərcümə olunmuş materiallara xüsusi yer ayrılmışdır. Bunlardan başqa jurnalın səhifələrində məktəb sənədləri, maarif və mədəniyyətin inkişafı tarixinə aid məqalələr verilmişdir.

1906-cı ildə M.Mahmudbəyovun redaktorluğu ilə "Rəh-

bər” jurnalı nəşrə başlamışdır. Jurnal cəmi beş nömrə nəşr edilmişdir. Jurnalda əsasən təlim-tərbiyə məsələləri, məktəbin inkişafı ilə əlaqədar mətnlər verilmişdir.

Qafur Rəşad Mirzəzadə və Əbdülrəhman Əfəndizadənin rəhbərliyi altında “Məktəb” jurnalı 1911-ci ildə nəşr olundu. Jurnalın səhifələrində gənc nəslin təlim-tərbiyəsinə aid, məktəb və maarifə dair məqalələrə geniş yer verilirdi. Eləcə də, vətənpərvərlik, əmək və təbiətin gözəlliyinə həsr olunmuş M.Ə.Sabirin “Təbib və xəstə”, “Camış və şel”, A.Səhhətin “İlk bahar”, Əlisəfanın “Düzlük”, “Məktəbə gedəcəyəm”, C.Cabbarlının “Bahar” və s. kimi əsərləri jurnalda öz əksini tapmışdır. Jurnalın naşirləri çox yaxşı bilirdilər ki, körpə balalar folklor nümunələrindən “qidalanır” və bu da onları hər zaman firavan yaşadır, həmçinin xalq nümunələri onların əxlaqi və mənəvi inkişafında mühüm rol oynayır.

XX əsrin başlanğıc illərində Azərbaycan dilində məktəblərin genişlənməsi və bu məktəblərə dövlət tərəfindən nəzarət edilməsi, ana diliniin tədrisinə geniş hüququn verilməsi böyük əhəmiyyət kəsb etdi. Bu sahədə görkəmli maarif xadimlərindən H.Zərdabi, S.Axundov, M.Quluzadə, müəllimlərdən Şəfiqə Əfəndizadə, Əlimərdan Mustafayev, Hacı Səlim və  başqalarının adlnı çəkmək olar. Şübhəsiz ki, bu zaman klassiklərimizin şeir və hekayələrinə mətbuat səhifələrində çap olunmağa yer verilirdi. Pedaqoji mətbuat tədris işinin daha da səmərəli olması üçün silsilə məqalələr çap edirdi ki, bu da Azərbaycan dilində tədris işinin yaxşılaşdırılmasında mühüm əhəmiyyət kəsb edirdi.

Həsən Səbri Eyvazovun “Üsuli tədris və təlim-tərbiyə” adlı metodik əsəri 1906-cı ildə Bakı şəhərində çap olunmuşdur. Kitabda müəllimin nitqinin, dilinin tədris işinin yaxşılaşdırılmasında mühüm əhəmiyyətindən söz açılmış, əyanilikdən istifadə, şagirdlərə elmi əsasda dəqiq və aydın məlumat vermək, təlimi asandan mürəkkəbə doğru təşkil etmək, dərsdə müsahibə, sual-cavab üsullarına yer vermək,

məşğələləri şifahi və yazılı formada keçirmək və s. tövsiyələr verilmişdir.

Bu dövrdə Şeyxzadə Hafiz Məmmədəminin “Nümuneyi tədris və tərbiyə” adlı dərs vəsaiti də Bakıda çap olunmuşdur. Kitabda tədrisin səmərəli üsulundan, yazı işləri, söz və cümlələr üzərində qrammatik təhlilin aparılmasından və müəllimin dərsdə yaradıcılığından danışılır.

Məmmədəli Sadıqzadənin “Türk dilinin üsulu tədrisi” adlı dərs vəsaiti Azərbaycan dilində dərs aparan müəllimlər üçün metodik rəhbərlik kimi nəzərdə tutulmıuşdur.

XX yüzilliyin birinci yarısında maarifçi ziyalılar, qabaqcıl müəllimlər, xalq kütləsi, fəhlələrin kütləvi hərəkatları, hökumət qarşısında mədəniyyətin müxtəlif sahələri, inkişafı üçün tələblər qoyurdular. Bu tələblərdə ən ümdə məsələlərdən biri ana dili, söz və mətbuat azadlığı idi. Xalqın sədasını eşidən hökumət xalqla müəyyən dərəcədə mülayim rəftara keçdi. Azərbaycanda söz azadlığına və mətbuatın yaradılmasına imkan verdi. Əhali tam şəkildə ana dilində təhsil almaq hüququ qazandı. İctimai yerlərdə və dövlət idarələrində ana dilinin işlədilməsinə icazə verildi.

“Həyat”, “Şərqi-rus”, “Kaspi” qəzetlərində “Dəbistan, “Rəhbər” jurnallarının səhifələrində müxtəlif məzmunlu pedaqoji məqalələr çap olundu.

Məktəblərin yeni tipli dərslik, proqram və tədris planları ilə işləməsi üçün müəllim hazırlayan məktəblər (Gəncə, Ağdaş, Göyçay, Şəki) fəaliyyət göstərdi.

Nəriman Nərimanov və H.Zərdabinin təşəbbüsü ilə 1906-cı il avqustun 15-də Bakı şəhərində **I Müəllimlər Qurultayı** çağırıldı. Qurultayda fənnlər üzrə, o cümlədən Azərbaycan dili proqramları, Azərbaycan dilini tədris edən müəllimlər hazırlamaq və onların hüquqi məsələləri, Azərbaycan dilinə aid tədris planı, I-IV siniflərdə bədii əsərlər, folklor nümunələrinin dərslikdə verilməsi, inşa, təsvirli yazılar, hüsnxət və s. kimi işlərin tədris olunması haqqında yekun qərara gəldilər.

**II Müəllimlər qurultayı** 1907-ci il avqustun 25-də Bakı şəhərində çağırıldı. Qurultayda əsas məsələlər; tədris üsulları, dərsliklərin vəziyyəti, ərəb əlifbasındakı nöqsanlar, açıq dərslərin təşkili və s. işlər müzakirə olundu. Toplantıda "Nicat", "Səadət", "Səfa" cəmiyyətlərinin şəhər və kəndlərdə ana dilində məktəblər açması, əhalini savadlandırmaq işləri təqdirə layiq görüldü.

1914-cü ildə dövlət nəzarəti altında olan məktəblərin sayı 270-dən artıq olduğu halda, 1920-ci ildə bu məktəblərin sayı 369-a çatmışdır. Hətta bəzi məktəblər öz xüsusi adı ilə çağrılırdı. Məsələn: Ağsuda "Darülfün", Göyçayda "İqbal", Şəkidə "Darül-şəfa", Gəncədə "Məktəbi-ruhani", Bakıda "Qız məktəbi" və s.

1920-ci il aprelin 28-də Azərbaycanda Xalq Maarif Komissarlığı öz işinə başladı. Rayon və şəhərlərdə onun şöbələri təşkil olundu. Xalqın maariflənməsi və təhsil alması üçün ana dilində məktəblərin açılması ön plana çəkildi. Artıq 1920-ci mayın 21-də Azərbaycanda "Vahid əmək proqramı" Maarif Komissarlığı kollegiyasında təsdiq olundu və onun əsasnaməsi hazırlandı. Proqramda ana dilinin bir fənn kimi tədrisinə yer verildi. Azərbaycan dilinin tədrisində qrammatika, orfoqrafiya, yazılı və şifahi nitq inkişafı tövsiyə olundu.

1921-ci il dekabrın 30-da və 1922-ci il yanvarın 6-da Azərbaycan maarifçi ziyalılarının zirvə toplantısı keçirildi. Toplantıda əsasən ana dilinin inkişaf məsələləri və ərəb əlifbasındakı nəzərə çarpan çətinliklər müzakirə olundu.

Ərəb əlifbasının mövcudluğu üçün iki məsələ irəli sürüldü. **Birinci məsələdə** ərəb əlifbasını saxlamaq və ya islahat aparmaq. **İkinci məsələ** ərəb əlifbasını latın əlifbası ilə əvəz etmək. İrəli sürülən hər iki məsələ ətrafında geniş şəkildə müzakirələr aparıldı.

Natiqlərdən Səməd Ağamalıoğlu xalqın tez savadlanmasının xüsusi əhəmiyyətini vurğuladı. Natiqlər belə bir qəti qərar qəbul etdilər ki, 33 hərfdən və bir apostrofdan ibarət olan latın əlifbası qəbul olunsun. Latın əlifbasını xalq

kütlələrinə çatdırmaq üçün ilk dəfə “Yeni yol” qəzetində, sonralar “İşıq yolu”, “Qızıl əsgər”, “Kəndçi” qəzetlərində və “Dan ulduzu” jurnallarında latın əlifbası çap olundu. N.Nərimanov latın əlifbasını Azərbaycan xalqı üçün zəruri bir məsələ kimi qəbul etmişdir, bu məqsədlə “Bakinski raboçi” (1922) qəzetində çıxış etmişdir. Eyni zamanda xalq arasında savadsızlığı ləğv etmək məqsədi ilə kurslar açılmağa başlandı. F.Ağazadənin rəhbərliyi altında həmin kurslara kömək məqsədi ilə “Qiraət kitabı” çap olundu. 1927-28-ci tədris illərində məktəblərdə Respublikada yeni qəbul olunmuş latın əlifbası ilə dərs keçirilməyə başlandı.

S.Axundzadə, F.Ağazadə, Ə.Əfəndizadə “Yeni türk əlifbası” adlı dərs vəsaitini latın əlifbası əsasında yazıb və çap etdilər. Vəsaitin 44 səhifəsi əlifba təliminə ayrılmış, qalan səhifələri isə qiraət bölmələrinə aid olan mətnlərin tədrisi metodikasına yer verilmişdir.

**Prof. B.Çobanzadənin** “Türk dili və ədəbiyyat üsuli-tədris” (1926) kitabı Azərbaycan dilinin tədrisi üçün ən zəruri olan metodik əsərdir. Əsərdə ana dilinin tədrisi metodikasına dair geniş məlumatlar verilmişdir.

1927-ci ildə Hacı Kərim Sanılı, İsrail Əminbəyli “İkinci il” adlı dərs vəsaiti yazmış və bu vəsait 1931-ci ilə kimi məktəblərdə istifadə olunmuşdur.

1932-ci ildə B.Çobanzadə, C.Məmmədquluzadənin “Türk dili metodikası” kitabı çap olunmuşdur. Kitab yeni qəbul olunmuş “layihələr proqramı” əsasında hazırlanmışdır. Metodik vəsaitdə savad təliminin üsulları, imla və onun tədrisi üsulları, qiraətin tədrisi üsulları, sinifdənxaric oxunun aparılması haqqında və s. bölmələr verilmişdir.

F.Qasımzadə yazdığı “İbtidai məktəblərdə oxu dərsləri və onun metodikası” (1933) adlı vəsaitdə ibtidai məktəblərin metodikasını geniş və ardıcıl əhatə etmişdir.

Bu dövrdə Y.Zeynalov, Ə.Qafarlı “Yazı nümunələri” (1941), Ə.Qafarlı “Sistematik imla məcmuəsi” (1941-1946),

Y.Zeynalov M.Ələkbərli və başqaları “İbtidai məktəbdə Azərbaycan dilinin metodikası” (1942), Y.Zeynalov I-II siniflər üçün “Sərf və yazı qaydalarından çalışmalar” (1946), A.Abdullayev “Azərbaycan dili tədrisinin tarixinə dair” (1958) vəsait və əsərlərini yazıb, çap etdirmişlər.

XX əsrin II yarısından başlayaraq məktəbdə Azərbaycan dilinin tədrisinə dair çoxlu sayda dərs vəsaitləri və dərslik hazırlanıb çap olundu, məsələn, A.Abdullayev “Azərbaycan dili tədrisinin metodikası” (1962), M.Muradxanov və Y.Kərimov “İbtidai sinif müəllimlərinə kömək” (1963,1966), M.Məmmədov “I sinifdə qiraətlə əlaqədar lüğət işi”(1967), A.Abdullayev, Y.Kərimov “İbtidai siniflərdə ana dilinin tədrisi metodikası” (1968), Y.Kərimov “I-II siniflərdə şagirdlərin lüğət ehtiyatının xüsusiyyətləri”(1970), M.Primo-va “İbtidai siniflərdə sinifdənxaric qiraətin təşkili” (1975), M.Musayevin “Azərbaycan dili dərslərində şagirdlərin müs-təqil işləri” (1976), Ş.Quliyeva “İbtidai siniflərdə Azərbaycan dilinin ana dili ilə əlaqəli tədrisinə dair” (1976), Y.Kərimov “İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları” (1978), M.Məmmədov “İbtidai məktəblərdə ana dilinin tədrisi metodikasından plan və göstərişlər” (1982), M.Həsənov, S.Quliyeva“Ana dilindən pedaqoji təcrübənin təşkili və keçirilməsinə dair metodik göstərişlər” (1999) və s.

Azərbaycan dilinin dövlət dili kimi inkişafı və zəngin-ləşməsi Azərbaycan dilinin tədrisi məsələləri üzrə tədqiqatların aparılması ön plana keçdi. Azərbaycan dilində insanlara məhəbbət, mərdlik, vətənpərvərlik, əməksevərlik və s. dair sil-silə əsərlər yazıldı. Azərbaycan dilində yazılan əsərlər dünya mədəniyyət xəzinəsinə əvəzsiz incilər bəxş etdi. Həmin əsər-lərin bir qismi dərs kitablarında gənc nəslin təlim-tərbiyə-sində zəruri materiala çevrildi.

XX əsrdə ibtidai siniflər üçün yazılan dərsliklər zaman-zaman təkmilləşmə mərhələsi keçdi və yeni dərsliklər yazıldı. Məsələn:

**I sinif -** Veysəl Mustafazadə “Əlifba” dərsliyi (1933-

1936), Yusif Zeynalov "Birinci kitab" dərsliyi (1933-1937), Yusif Zeynalov, Əli Məsrur Qafarlı "Əlifba" dərsliyi (1937-1946),Yusif Zeynalov, Əli Məsrur Qafarlı "Birinci il" dərsliyi (1946-1962), Yusif Zeynalov "Əlifba" dərsliyi (1946-1962), Yusif Zeynalov, Yəhya Kərimov "Əlifba" dərsliyi(1962-1969), Yəhya Kərimov, Həmzə Muxtarov "Əlifba" dərsliyi (1970-1980), Yəhya Kərimov "Əlifba" dərsliyi (1981-1985, altı yaşlılar üçün sınaq dərsliyi), Yəhya Kərimov "Əlifba" dərsliyi (1985-1987, sınaq dərsliyi), Yəhya Kərimov "Əlifba" dərsliyi (1987-1991, dördillik siniflər üçün), Yəhya Kərimov "Əlifba" dərsliyi (1992-2002) buraxılmışdır.

**II sinif** - İ.Əminbəyli, H.Sanılı "İkinci il" (1927-1931), Y.Əlivev "İkinci il" (1931-1932), İ.Qaryağdı, M.Ələsgərli "İkinci il" (1933-1960), Y.Zeynalov "Ana dili" (1947), Ə. Qarabağlı "Ana dili" (1956-1961), Y. Kərimov və başqaları "Ana dili" dərsliyi (1970-1982), Y.Kərimov, M.Səfərov "Oxu" dərsliyi (1983-1989), Y.Kərimov, M.Həmzəyev "Oxu" (1990-1998), A.Abdullayev "Oxu" (1991-1998) və b.

**III sinif** - H.Sanılı, F.Nemanzadə, N.Axundov "Üçüncü il" (1927-1931), N.Səmədzadə və başqaları "Üçüncü il" 1931-1935), İ.Hacızadə, F.Qasımzadə "Oxu" (1936-1938), A.Abdullayev, F.Qasımzadə "Ana dili" (1939-1947), A.Abdullayev və başqaları "Ana dili" (1948-1950), Y.Şirvan və başqaları "Ana dili" (1951-1962), Y.Şirvan və başqaları "Ana dili" (l963-1965), Y.Kərimov, N.Kazımov "Ana dili" (1966-1970), Y.Şirvan və başqaları "Ana dili" (1971-1989), N.Abdullayev "Oxu" (1986-1990), Y.Kərimov "Oxu" (1986-1990), Y.Kərimov, M. Səfərov "Oxu" (1987-1988), Y.Kərimov "Oxu" (1989-2002, sınaq dərsliyi).

**IV sinif** - R.Şahvələd "Dördüncü il" (1933), Ş.Bünyatov və başqaları "Dördüncü il" (1937), M.A.Dadaşzadə "Oxu" (1939-1942), M.Rzaquluzadə, C.Əhmədov "Ana dili" (1947-1969), N.Kazımov "Ana dili" (1975), "Oxu" (1994-1997), N.Kazımov "Oxu" (1998-2002), N.Abdullayev "Oxu" (1997-2002) və b.

İbtidai siniflərdə Azərbaycan dili və onun tədrisi metodikası elminin inkişafında Yəhya Kərimovun böyük xidmətləri olmuşdur. Yəhya Şəfi oğlu Kərimov 1927 - ci ildə Qax rayonunun İlisu kəndində dünyaya göz açmış, ilk təhsilini Qax rayonunun Muğal kənd orta məktəbində almışdır.

Y.Kərimov V.İ.Lenin adına APİ-də ali təhsil almış, 1962-ci ildə isə ibtidai təlim üzrə Azərbaycan dilinin tədrisi metodikasından namizədlik dissertasiyası müdafiə etmişdir. O, ibtidai təhsilin problemlərinə dair davamlı, ardıcıl və sistemli şəkildə tədqiqat aparan məhsuldar alimdir.

Yəhya Kərimov ibtidai siniflərdə ana dilinin tədrisi metodikasını, ibtidai sinif şagirdlərinin lüğət işinin elmi əsaslarını, ibtidai sinif şagirdlərinin nitqinin leksik xüsusiyyətlərini, sözlərin seçilmə prinsiplərini və tanış olmayan sözlərin izahını işləmiş, uşaqların marağına səbəb olan müxtəlif didaktik materiallar hazırlamışdır. 1960-cı illərdən 2008-ci ilə kimi ibtidai siniflər üçün hazırlanan proqramlar, dərsliklər dərs vəsaitləri və digər təlim materialları onun müəllifliyi ilə hazırlanmış və redaktəsi altında istiqamətləndirilmişdir.

O, 1963-ci ildən "Əlifba" dərsliyi (Y.Zeynalov və Z.Sadıxova ilə birlikdə) tərtib etmişdir. Sonralar da 1964-1969, 1970-1980, 1981-1984, 1985-2008 illərdə "Əlifba" dərsliyini Yəhya Kərimov tərtib etmişdir. "Ana dili" (I sinif, 1969-1989), "Qönçə" (I sinif, 1986, 1989), "Oxu" (II sinif, 1983-2008), "Azərbaycan dili" (III sinif, 1983-2008) və s. dərsliklərini də professor Yəhya Kərimov tərtib etmişdir.

Azərbaycan dili və onun tədrisi metodikası elminin inkişafında professor Həsən Balıyevin də böyük xidmətləri olmuşdur. O, 200-dən çox elmi və publisistik məqalə, 50-yə yaxın kitab çap etdirmişdir. Həsən Balıyev 1962-ci ildə professor Ağamməd Abdullayevin rəhbərliyi ilə namizədlik dissertasiyası müdafiə etmişdir. H.Balıyevin yaradıcılığı əsasən iki: elmi və publisistik istiqamətdə olmuşdur. Professor Həsən Balıyevin elmi kitablarının mövzu dairəsi çox genişdir.

• Morfologiya tədrisinin üslubi itmkanları, sintaksis və onun tədrisi məsələləri, dil təliminin qanunları, üslubiyyat işləri, tələbənin fərdi işlərinə nəzarətin yoxlanması məsələlərini əhatə edən kitablar.

• Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, Ana dilinin tədrisi metodikası, savad təlimi, oxu təlimi və nitq inkişafı ilə bağlı məsələləri əhatə edən kitablar.

• Respublikamızın təhsil sistemində ilk dəfə tətbiq olunan test proqramları, öyrədici və yoxlayıcı proqramlar "fonetika", "morfologiya" və "sintaksis" bölmələri üçün ayrı-ayrılıqda hazırlanmış və ayrıca kitabçalar şəklində nəşr etdirmişdir.

• Təlimi rus dilində olan qruplarda Azərbaycan dilinin tədrisi məqsədilə yazılmış kitablar.

• Azərbaycan dili və ədəbiyyat dərslərində texniki vasitələrdən istifadə, pedaqoji təcrübənin keçirilməsinin təşkili və Azərbaycan dilindən yoxlama işlərinin təşkili ilə bağlı metodik göstərişlər və s.

• Professor H.Balıyevin 2008-ci ildə "Azərbaycan dilini müstəqil öyrənənlər üçün elektron dərslik" hazırlamışdır.

Beləliklə, XX əsrin II yarısı Azərbaycan dilini tədrisi metodikası elminin yüksək inkişaf mərhələsi olmuşdur. Bu mərhələdə Azərbaycan dilinin tədrisi metodikası üzrə güclü tədqiqatcılar ordusu meydana gəlmişdi, professorladan A.Abdullayev, Y.Kərimov, Ə.Əfəndizadə, Ə.Fərəcov, H.Balıyev, B.Əhmədov, İ.Bayramov, A.Rəhimov və b., dosentlərdən V.Qurbanov, N.Cəfərova, Ə.Əhmədov, Ə.Abbasov, N.Əhmədov, Ə.Kəlbəliyev, A.Abdullayev, M.Musayev, N.Əhmədov, T.Babayeva, S.Məmmədov, S.Quliyeva, A.Kazımov və başqalarının Azərbaycan dilinin tədrisi metodikasının bir elm kimi formalaşması, zənginləşməsi və inkişafında xidmətləri böyükdür.

## Azərbaycan dilinin tədrisi metodikası elminin müasir vəziyyəti. Milli Kurikulum, yeni kurikulum

Azərbaycan dili xalqımızın milli-mənəvi sərvəti, dünya azərbaycanlılarının sarsılmaz həmrəylik təməlidir. Hazırda Azərbaycanın rəsmi dövlət dili-Azərbaycan dili müstəqilliyin başlıca rəmzlərindən biri kimi öz inkişafının yüksək zirvəsinə çatmışdır. Bu dildə dünya ədəbiyyatı xəzinəsinə daxil olan misilsiz əsərlər yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli fərmanları ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olmuş və latın qrafikalı Azərbaycan əlifbasına keçidi bütövlükdə təmin etmişdir. Latın qrafikalı Azərbaycan əlifbası artıq həyatımızın bütün sahələrində tam yerini tutmuşdur.

"Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (2 yanvar 2003), "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (27 sentyabr 2003) Azərbaycan dilinin inkişafı strategiyasının uzun müddətli konsepsiyasıdır.

XXI əsr qloballaşma əsri kimi tarixə daxil oldu. Bu, özünü təhsil sahəsində daha qabarıq büruzə verdi. Təhsil sahəsində gedən islahatlar çərçivəsində yeni yanaşmalar meydana gəldi. Əsası 1999-cu ildə qoyulan və ardıcıl həyata keçirilən "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı"nın tələblərinə uyğun təhsil sahəsinə aid çoxsahəli islahatlar həyata keçirilməyə başlandı. Bu islahatlar çərçivəsində "Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu)"nun qəbul edilməsi(Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 30 oktyabr 233nömrəli qərarı ilə təsdiq

edilmişdir) təhsil sahəsində köklü dəyişikliklərin yaranmasına səbəb oldu.

Yeni kurikulum sənədinin qəbul edilməsi (Ümumtəhsil pilləsinin dövlət standartı və proqramları(kurikulumları. 3 iyun 2010) bu sahədə gedən işlərin geniş vüsət almasına səbəb oldu.

Ümummilli lider Heydər Əliyevin **"Cəmiyyətin gələcək tərəqqisi indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır"** fikrinə istinadən deyə bilərik ki, şagirdlərdə yeni keyfiyyətlərin formalaşmasında təhsilin rolu danılmazdır. Kurikulum təhsili şagirdlərdə əzbərçilik deyil, sərbəst düşünmə, öyrəndiklərini tətbiqetmə bacarığını, məntiqi təfəkkürü inkişaf etdirir.

Milli kurikulum **təhsilin məzmunu** (ümumtəlim nəticələri, məzmun xətləri, əsas və alt standartlar); **təlim strategiyaları** (fəal dərsin təşkili prinsipləri, fəal dərsin planlaşdırılması, fəal dərsin forma və üsulları); **qiymətləndirilməsi, qiymətləndirilmə mexanizmləri və standartları** ilə bağlı bütün fəaliyyət sahəsini özündə əks etdirən konseptual sənəddir.

Milli kurikulum konseptual sənədi özündə təhsilalanlar üçün zəruri kompetensiyaları, məzmun və qiymətləndirmə standartlarını, hazırkı tədris planı və proqramlarını, şagirdə və onun hazırlıq səviyyəsinə verilən tələbləri, hər bir dərsin konkret inkişafetdirici məqsədlərini, metodik təminatını, dəyərləndirmə modelini, texniki təchizatını və s. əks etdirir. Müəllim və məktəb qarşısında duran vəzifələri və onların həlli yollarını göstərir.

Milli Kurikulum bilavasitə aşağıdakı funksiyaların reallaşdırılmasına xidmət edir:

-ümumi təhsilin pillələri, bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi;

-fənlərin məzmununun cəmiyyətin tələbatına uyğun daim təkmilləşdirilməsi və yeniləşdirilməsi;

-təlim texnologiyalarının çevikliyi və interaktivliyinin təmin olunması;

-nəticəyönümlü fənn kurrikulumlarının hazırlanıb tətbiq olunması;

-təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təlimin inkişafetdirici və qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında müəyyənləşdirilməsinin təmin olunması;

-şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi və stimullaşdırılmasının təmin edilməsi.

Bununla belə, islahatlar çərçivəsində görülən işlər ilbəil dərinləşdikcə nəzərə alınası, yerinə yetiriləsi aktual məsələlərin miqyası da genişlənir, qarşıya qoyulan vəzifələr getdikcə mürəkkəbləşir. Həmin vəzifələri tələb olunan səviyyədə həyata keçirmək üçün təhsili idarə edən orqanların, təhsil prosesinin nəzərdə tutulan bütün iştirakçılarının zəruri metodik vəsaitlərlə sistemli şəkildə təmin olunması ən vacib şərtdir. Bu gün təhsil sahəsində reallaşdırılan islahatların hədəfi elə müəyyənləşdirilib ki, onların əsasını təşkil edən ideyaların əsl mahiyyəti proses iştirakçılarının hər birinə aydın olmazsa, uğurlu nəticələrdən, məktəblərdə islahat abhavasından, şagirdlər üçün inkişafyönümlü təlim mühitinin yaradılmasından danışmağa dəyməz.

## Kurikulum anlayışının məzmunu, xarakterik xüsusiyyətləri, məqsəd və vəzifələri

"Kurikulum" (curriculum) latın sözü olub, lügəvi mənası "kurs", "elm", "yol", "istiqamət" deməkdir. Bu söz ingiliscə-rusca lügətlərdə "təlim kursu", "tədris planı", "proqram" kimi izah olunur. "Curriculum" sözünə ilk dəfə Leyden (1582-ci il) və Qlazqo (1633-cü il) şəhərlərinin universitetlərinin sənədlərində rast gəlinir. Bəzi alimlərin qeyd etdikləri kimi, 1876-cı ildən etibarən ondan bir termin kimi istifadə olunmağa başlanmışdır. İlk fənn kurikulumları 1918-ci ildə ABŞ-da meydana gəlmişdir. Ötən əsrin 70-ci illərindən sonra kurikulum nəzə-

riyyəsi formalaşmışdır. Azərbaycanda bu termindən keçən əsrin 90-cı illərinin axırlarından başlayaraq istifadə olunur.

Kurikulum islahatları Azərbaycan hökuməti ilə Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyası arasında bağlanmış ilk Kredit Sazişi əsasında başlanıb. 15 iyun 1999-cu il tarixində "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı" təsdiq olunmuşdur. Kurikulum islahatı təhsil islahatının əsas istiqamətlərindən biridir.

**"Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu)"** 30 oktyabr 2006 –cı ildə Nazirlər Kabinetinin sərəncamı ilə qüvvəyə minmişdir və 2008- ci ildən tədrisə tətbiq olunmağa başlanmışdır.

Nazirlər Kabinetinin sərəncamı ilə 3 iyun 2010 –cu il tarixində **"Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"** adlı yeni kurikulum sənədi qəbul olundu və əvvəlki "Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu)" çərçivə sənədi quvvədən düşmüş elan edildi.

Milli kurikulum **təhsilin məzmunu** (ümumtəlim nəticələri, məzmun xətləri, əsas və alt standartlar), **təşkili** (fəal dərsin təşkili prinsipləri, fəal dərsin planlaşdırılması, fəal dərsin forma və üsulları) və **qiymətləndirilməsi** (qiymətləndirilmə mexanizmləri və standartları) ilə bağlı bütün sənədləri özündə əks etdirən **konseptual sənəddir.**

Təhsil kurikulumları xarakterinə görə iki yerə ayrılır. Onlardan birincisi **fənyönümlü**, ikincisi isə **şəxsiyyətyönümlü** kurikulum adlanır.

**Fənyönümlü** kurikulumlar məzmun etibarilə elm sahəsini, onun mükəmməl anlayışlar sistemini əhatə etməklə bilavasitə bu anlayışların mənimsənilməsinə istiqamətləndirilir.

**Şəxsiyyətyönümlü** kurikulumlar bilavasitə həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir.

Müasir kurikulum ənənəvi proqranlardan fərqli olaraq şəxsiyyətyönümlü, nəticəyönümlü, tələbyönümlü, inteqrativlik

əsas prinsip kimi qəbul olunmuş, qiymətləndirmə standartları və mexanizmləri müəyyən edilən bir proqramdır.

Bütövlükdə ayrı-ayrı fənlərin xüsusiyyətlərini əhatə edən kurikulumlar isə **fənn kurikulumları adlanır.**

Fənn kurikulumunun strukturuna daxildir: giriş, fənnin məqsəd və vəzifələri, fənnin xarakterik xüsusiyyətləri, məzmun, strategiya və qiymətləndirmə.

Məzmun hissəsinə aiddir: ümumi təlim nəticələri, məzmun xətləri, məzmun xətləri üzrə təlim nəticələri və məzmun standartları.

Təlim strategiyasına daxildir: fənn üzrə təlimin təşkilinə verilən əsas tələblərin təsviri, forma və üsulların təkmilləşdirilməsi barədə tövsiyələr və müəllimin təlim fəaliyyətinin planlaşdırılması.

Təlim qiymətləndirmə hissəsinə aiddir: əsas qiymətləndirmə növləri, qiymətləndirmə standartları və qiymətləndirmə vasitələri.

Azərbaycan təhsil sisteminə 90-cı illərdən başlayaraq yeni"Kurikulum" pedaqoji terminalogiya kimi daxil olmuşdur. Azərbaycan təhsil sistemində "kurikulum" yeni bir anlayışdır və o, təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin təşkilini və həyata keçirilməsini əks etdirən konseptual sənəd kimi başa düşülür. Kurikulum təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirir. Kurikulumun əsasını tərtib, tətbiq, qiymətləndirmə və təhlil təşkil edir.

Kurikulum termininin Azərbaycan və rus dillərində ekvivalenti yoxdur, lakin bu söz beynəlxalq təhsil ədəbiyyatında geniş istifadə olunur. Ona görə də Azərbaycanın təhsil işçiləri tərəfindən bu terminin Azərbaycan dilində qəbul edilməsi tövsiyə olunmuşdur.

Azərbaycanın təhsil sistemində kurikulum islahatını zəruri edən bir sıra səbəblər vardır:

- Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması.

• Dünya təhsil sisteminə inteqrasiya-informasiya əsrinin tələbləri.

• Təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması.

• Mövcud ümumi təhsil proqramlarının müasir tələblərə cavab verməməsi.

• Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid və s.

Müasir kurikulumun ənənəvi təhsil proqramından bir sıra üstünlükləri vardır. Ənənəvi və milli kurikulumun səciyyəvi cəhətlərinin müqayisəli təsvirinə nəzər salaq:

| Ənənəvi tədris proqramı | Milli kurikulum |
|---|---|
| **Ənənəvi təhsil proqramı *bilikyönümlüdür*** | **Müasir kurikulum *şəxsiyyətyönümlüdür*** |
| **Ənənəvi təhsil proqramı *müəllimyönümlüdür*** | **Müasir kurikulum isə *şagirdyönümlüdür*** |
| **Ənənəvi təhsil proqramı *fənyönümlüdür*** | **Müasir kurikulum isə *nəticəyönümlüdür*** |
| **Ənənəvi təhsil proqramında *fəndaxili və fənlərarası əlaqə məqsədyönlü və sistemli xarekter daşımır*** | **Müasir kurikulumunda isə *inteqrativlik* əsas prinsip kimi qəbul olunub** |
| **Ənənəvi təhsil proqramı *təklifyönümlüdür*** | **Müasir kurikulum isə *tələbyönümlüdür*** |
| **Bəzi fənlər üzrə *qiymət normaları* müəyyən edilib** | ***Qiymətləndirmə standartları* və mexanizmləri müəyyən edilib** |

**Kurikulumun aşağıdakı növləri vardır:**

**Rəsmi Kurikulum**

Bu, rəsmi məktəb sistemində biliklərin tədrisi ilə əlaqədar olan xüsusi bir kurikulum növüdür. O, aşağıdakılardan ibarətdir:

- Kurikulum üzrə gələcək perspektivlər
- Kurikulum siyasəti üzrə müddəalar
- Əsas prinsiplər
- Ümumi təlim nəticələri
- Məktəbdə tədris olunan hər bir fənn üzrə konkret təlim məqsədləri
- Hər bir fənnə ayrılan vaxt
- Mövzular və məzmun
- Hər bir fənn üzrə qiymətləndirmə və dəyərləndirmə
- Dərslər və dərs planları.

**Qeyri-rəsmi kurikulum**

Bu, rəsmi məktəb kurikulumunun tərkib hissəsi olmayan biliklərin tədrisi, yəni, şahmat klubları, dram klubları, astronomiya klubları və s. ilə bağlı olan kurikulumdur.

**İnteqrasiya olunmuş kurikulum**

Bu növ kurikulum fənn sahələri üzrə təlimin asanlaşdırılmasına xidmət edir. Bu, əksər hallarda əsas təlim məqsədləri ətrafında cəmləşir və ayrı-ayrı fənlərlə bağlı bilikləri əhatə edir. İnteqrasiya olunmuş kurikulumun əsasında belə bir epistemoloji dəlil vardır ki, bütün biliklər bir-birilə bağlıdır və müxtəlif məzmun və vəziyyətlər arasında nə qədər sıx əlaqə olarsa, şagirdlərin dərketmə qabiliyyəti bir o qədər güclü olar.

**Milli kurikulumun strukturu:**

**Ümumi təhsil pilləsi üzrə kurikulum**

**1.Ümumi təhsil səviyyələri üzrə ümumi təlim nəticələri**

1.1.İbtidai təhsil üzrə ümumi təlim nəticələri

1.2. Ümumi orta təhsil üzrə ümumi təlim nəticələri

1.3.Tam orta təhsil üzrə ümumi təlim nəticələri

**2.Ümumi təhsilin səviyyələri üzrə məzmun standartları**

2.1. İbtidai təhsil səviyyəsi üzrə məzmun standartları

2.2. Ümumi orta təhsil səviyyəsi üzrə məzmun standartları

2.3. Tam orta təhsil səviyyəsi üzrə məzmun standartları

**3. Ümumi təhsil pilləsində tədris edilən fənlər**

3.1. İbtidai təhsil səviyyəsində tədris edilən fənlər

3.2. Ümumi orta təhsil səviyyəsində tədris edilən fənlər

3.3. Tam orta təhsil səviyyəsində tədris edilən fənlər

4. **Ümumi təhsil səviyyələri üzrə həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının maksimum miqdarı**

**5. Ümumi təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri**

**6.Təlim nailiyyətlərinin (nəticələrinin) qiymətləndirilməsi və monitorinqi**

Kurikulum islahatı çərçivəsində Azərbaycan dilinin tədrisi yeni təhsil standartları ilə-yeni məzmunla həyata keçirilməyə başlandı. Bunun üçün yeni dərsliklərin hazırlanması, müəllimlər üçün metodik vəsaitlərin işlənməsi, yeni məzmuna uyğun iş dəftərlərinin tərtibi prosesi geniş vüsət aldı.

2008-2009-cu tədris ilindən ibtidai siniflərdə kurikulum tətbiq olunmağa başlandı. Azərbaycan dili üzrə dərslik komplektləri (dərslik+metodik vəsait+iş dəftəri) işlənib hazırlandı. I-IV siniflər üçün Azərbaycan dili dərslikləri müəlliflər heyəti tərəfindən tərtib edildi.

Professor N.Q.Cəfərovun ümumi redaktorluğu ilə 1-ci sinif "Ana dili" (Əlifba, Oxu) dərsliyi 2008-ci ildə; Rafiq İsmayılov, Solmaz Abdullayeva, Gülşən Orucova, Dilruba Cəfərovanın müəllifliyi ilə 1-ci sinif "Azərbaycan dili" dərsliyi 2012-ci ildə; Rafiq İsmayılov, Gülşən Orucova, Zahid Xəlilov, Dilruba Cəfərovanın müəllifliyi ilə 2-ci sinif "Azərbaycan dili" dərsliyi 2009-cu ildə; Rafiq İsmayılov, Gülşən Orucova, Zahid Xəlilov, Dilruba Cəfərovanın müəllifliyi ilə 3-ci sinif "Azərbaycan dili" dərsliyi 2010-cu ildə; Rafiq İsmayılov, Gülşən Orucova, Dilruba Cəfərova, Xanım Orucovanın müəllifliyi ilə 4-ci sinif "Azərbay-

can dili” dərsliyi 2015-ci ildə çap olunmuşdur.

2010-cu il tarixində yeni kurikulum “Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)”(Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmişdir) qəbul edilməklə, 2006-cı il “Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu)” qüvvədən düşmüşdür.

Hazırda qüvvədə olan“Azərbaycan Respublikasının ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)” (bundan sonra dövlət standartları) “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa(2009) əsasən hazırlanmışdır.

Təhsil sahəsində islahatlar çərçivəsində Azərbaycan dilinin tədrisi metodikası sahəsində də ciddi tədqiqatlar aparılmaqla, yeni-yeni əsərlər işlənmiş, çap olunmuşdur.

B.Tağıyev“Folklor nümunələrinin öyrədilməsi üzrə işin təşkili”(2001), Y.Ş. Kərimov “Ana dilinin tədrisi metodikası” (2005), A.Rəhimov “Ana dilinin tədrisi metodikası”( ibtidai siniflərdə)(2003), B.Tağıyev “Oxu təlimi”(2006) N.Cəfərova “İbtidai siniflərdə morfologiya tədrisinin problemləri”(2006), N.Cəfərova “İbtidai siniflərdə nitq hissələrinin tədrisi”(2010), A.Kazımov “Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası ”(2013), M.Həsənov, N.Cəfərova “İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası”(2013) və b. əsərlər Azərbaycan dilinin tədrisi metodikası sahəsində fundamental əhəmiyyət kəsb edən əsərlərdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” (23 may 2012) fərmanı, bu fərmandan irəli gələn vəzifələr Azərbaycan dilinin inkişafı və tədrisi məsələlərinin günün tələbləri səviyyəsində işlənməsini zəruri etmişdir.

## Ədəbiyyat

1.Abdullayev A.S. İbtidai məktəbdə Azərbaycan dilinin tədrisinin metodikası. Bakı: Maarif, 1962, 165 s.

2.Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri. Bakı: BDU nəşr., 1992, 332 s.

3.AbbasovƏ.Yeni kurikulumun səciyyəvi xüsusiyyətləri// Kurikulum, 2008, №1

4.Aslanov V.İ. Azərbaycan dilinin tarixinə dair tədqiqatlar. 2 cild., I c., Bakı: Elm, 2002, 155 s.

5.Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu). "Azərbaycan müəllimi" qəz., 2006, 1 dekabr

6.Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı. Bakı: Çaşıoğlu, 1999, 64 s.

7.Azərbaycan Respublikasının ümumi təhsilin milli kurikulum materialları. Bakı:Təhsil Nəşriyyat-Poliqrafiya MMC, 2006,54 s.

8.BalıyevH.B. Ana dilinin tədrisi metodikası. Bakı: Sənaye Liseyi №3,1997, 102 s.

9.Balıyev H.B. Azərbaycan dilinin tədrisi metodikasından mühazirələr. Bakı:APİ-nin nəşri, 1978, 86 s.

10. Həsənov M.,Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Elm Nvə təhsil, 2013, 404 s.

11. İnteqrativ kurikulum.Münhen, Niderland, Cito, 2006

12. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.

13. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, 408 s.

14. Tağıyev B. Oxu təlimi. Bakı,2006, 315s.

15. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008, 480 s.

16. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)// Kurikulum, 2010, № 3, s.117-130

# III FƏSİL

# AZƏRBAYCAN DİLİ İBTİDAİ SİNİFLƏRDƏ ƏSAS TƏLİM FƏNNİ KİMİ

**Azərbaycan dili məktəbdə əsas təlim fənnidir**

- **Azərbaycan dilinin tədrisi metodikasının ümumi məsələləri**
- **Azərbaycan dili ibtidai siniflərdə təlim fənlərinin əsasıdır**
- **Azərbaycan dilinin təlim və tərbiyəvi əhəmiyyəti**

Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dili Azərbaycan dilini, müasir Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik.

**Heydər Əliyev**

Tarixi mənbələrdən məlumdur ki, Azərbaycan dilinin dövlət dili kimi hüquqi aktlarda təsbit olunması məsələsi hələ XX əsrin əvvəllərində – Azərbaycan Xalq Cümhuriyyəti dövründə böyük aktuallıq kəsb etmişdir. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək Azərbaycanın müstəqil dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltsə də, davamlı olmamış, 1991-ci ildə Azərbaycan ikinci dəfə öz müstəqilliyini bərpa etmişdir. Müstəqil Azərbaycan Respublikasının dövlət dili kimi Azərbaycan dili Konstitusiyada təsbit olunmuşdur.

Dövlət dili milli dövlətin ayrılmaz hissəsidir. Həmin siyasət indi uğurla həyata keçirilir. Bu gün rəsmi yığıncaqlarda, məclislərdə ana dilimiz qüdrətlə, təntənə ilə səslənir. Azərbaycan dilinin hərtərəfli inkişafı, onun təkcə sözdə deyil, gündəlik təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, zənginləşərək nüfuz qazanması, dünyanın mötəbər kürsülə-

rindən eşidilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyəti və yürütdüyü dil siyasəti ilə bağlı olmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi, ulu öndər H.Əliyev ana dilini sevməyi, onu yaşatmağı vətənpərvərlik tərbiyəsinin ən əsas tərkib hissəsi olduğunu göstərmişdir. Çünki, özünün dili olmayan xalq millət ola biməz. Millətin yaranması dil birliyi və birgəyaşayış nəticəsində, müəyyən bir ərazidə daimi məskən salmaq, yaşamaq nəticəsində mümkün olmuşdur. Sonralar həmin ərazi millətin vətəninə, dövlətinə çevrilmişdir. Dil eyni zamanda hər bir xalqın tarixini, mənəviyyatını, kim olmağını özündə ehtiva edən qan yaddaşıdır.

Məhz ona görə də Azərbaycanın görkəmli ədəbiyyatşünası F.Köçərli "Ana dili millətin mənəvi diriliyidir, həyatının mayası, mənziləsindədir"-demişdir.

Digər tərəfdən hər bir insan tarixin müəyyən bir dövründə, vətənin kiçik bir guşəsində yaşadığı üçün yalnız vətənin keçdiyi tarixi yolu, onu gözəllikləri, görkəmli alimləri, sərkərdələri, dövlət başçıları, təbii sərvətləri haqqında yazılmış əsərlər vasitəsi ilə tanış ola, məlumat əldə edə bilər ki, bu da ona dilini bilmədən heç cür mümkün deyildir.

Yaxın tariximizdən məlumdur ki, müstəqilliyin ilk ilində, 1991-ci ildə latın qrafikalı Azərbaycan əlifbası qəbul olunsa da, o, bütün gücü ilə işləyə bilmirdi. Yalnız ümummilli liderimiz bu məsələnin birdəfəlik həllinə nail olmuşdur. Azərbaycan dili milli-mənəvi sərvətimizdir, xalqın varlığının təsdiqidir. Bizim eşitdiyimiz və öyrəndiyimiz dil misilsiz xəzinədir. O, özünəxas bir şəkildə xalqın tarixini, mənəvi sərvətini, dövlətçilik yolunu, coğrafi mənzərəsini hifz edib saxlayır. Millətin milliliyini saxlayan onun dilidir.

Xalqın ümummilli lideri Heydər Əliyevin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli 506 saylı fərman dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərdə həlledici rol oynamışdır. Həmin fərmanda Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyasının yaradılması da nəzərdə tutul-

muşdu. Dünyanın heç bir dövlətində analoqu olmayan belə bir qurumun yaradılması ana dilimizin tətbiqi işinin təkmilləşdirilməsinə daha səmərəli şəkildə nəzarət etmək və bu prosesi ümummilli maraqlar kontekstində tənzimləmək məqsədi daşıyır. Ulu öndər Heydər Əliyevin Azərbaycan dilinin inkişafı naminə imzaladığı "Azərbaycan Respublikasının Dövlət Dili Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" 4 iyul 2001-ci il tarixli 766 saylı sərəncam, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli 522 saylı sərəncam və 2 yanvar 2003-cü il tarixli "Azərbaycan Respublikasının Dövlət dili haqqında Azərbaycan Respublikası qanununun tətbiq edilməsi" barədə 835 saylı fərmanı ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır.

Bu tarixi sənədlər dilimizin tətbiqi işinin daha mükəmməl səviyyədə həyata keçirilməsinə stimul verdi, yaddaşımıza və milli-mənəvi dəyərlərimizə, eyni zamanda, əlifbamızın beynəlxalq aləmə daha yaxın olan bu qrafika ilə Azərbaycan əlifbasına keçidini sürətləndirdi.

Hazırda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasi ənənə cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamları da öz ictimai-tarixi əhəmiyyətinə görə kifayət qədər uğurlu bir sənəd kimi qiymətləndirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğyn istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncamı (23 may 2012-ci il) dövlətçiliyimizin başlıca rəmzlərindən olan Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, ölkəmizdə dilçılik elmi sahəsində vəziy-

yətin əsaslı surətdə yaxşılaşdırılmasını təmin etmək məqsədi daşıyır. Bütün bunlar cənab Prezidentin milli-mənəvi dəyərlərimizə, elmin və mədəniyyətin inkişafına böyük diqqət yetirdiyini göstərir.

Ümumiyyətlə, Azərbaycan Respublikası bu gün bütün sahələrdə sürətlə inkişaf edir. Bu inkişaf təhsil sahəsində də özünü göstərməkdədir. Təhsil haqqında Azərbaycan Respublikasının Qanununda göstərilir ki, Azərbaycan Respublikasında təhsil sahəsindəki inkişaf insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq gedir. Ölkəmizin təhsil sisteminin yenidən qurulması qabaqcıl dövlətlərin təhsil sistemlərinə inteqrasiya olunmasına geniş imkanlar açılmışdır.

İndi ən mühüm vəzifə Azərbaycan dilinin statusunun yüksəldilməsi, onun daha da inkişaf etdirilməsi, zənginləşdirilməsi, yad təsirlərdən qorunması, dövlətdə, cəmiyyətdə nüfuz dairəsinin genişlənməsinə diqqət və qayğı göstərilməsi ilə əlaqədardır.

Müasir dövrdə təhsil paradiqmalarının dəyişməsi, zəngin innovasiyalar, yeni təlim texnologiyalarının tətbiqi bir tərəfdən biliklər arasında əlaqənin, digər tərəfdən zəruri bacarıqların formalaşmasını ön plana çəkir.

Rəsmi dövlət dili, əsas təlim fənni olan Azərbaycan dilinin milli iftixar və qürur mənbəyi kimi daim inkişaf etdirilməsi, bu dilə məhəbbət hissi tərbiyə olunması məhz bu işin ibtidai mərhələdə aparılması səviyyəsi ilə sıx bağlıdır. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi qarşısında çox zəruri vəzifələr qoyulur. Bu da, hər şeydən əvvəl, onun təlim dili olması ilə əlaqədardır. Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir.

Milli Kurikulum sənədində qeyd edilir ki, Azərbaycan dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını forma-

laşdırmaqla, şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir. Buna görə də: nitq və dil bacarıqlarına yiyələnməklə ümumi nitq inkişafına nail olmaq; Azərbaycan dilinin düşünmə, öyrənmə və danışma vasitəsi olmasını dərk etmək; davamlı təhsil prosesində, praktik fəaliyyətdə istifadə üçün potensial bilik və bacarıqlara yiyələnmək vacib hesab edilir.

"Azərbaycan dili" fənni şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinə, ən zəruri qrammatik qaydaların, ədəbi tələffüz normalarının öyrənilib tətbiq olunmasına, nitq bacarıqlarının, nitq mədəniyyətinin formalaşdırılmasına daha geniş imkanlar yaradır. İbtidai siniflərdə Azərbaycan dilinin məqsədi şagirdlərə oxu və yazını öyrətməklə yanaşı, oxuduqları və dinlədiklərinə munasibət bildirmək, dilimiz, tariximiz, mədəniyyətimiz, adət-ənənələrimiz haqqında məlumat əldə etmək bacarığı vermək, onların nitqini inkişaf etdirməkdir.

Azərbaycan dili indi çox yüksək səviyyəli, yəni onun qrammatik quruluşu, başqa sahələri yüksək olan bir dildir. İbtidai siniflərdə savad təlimi-şagirdlərin oxuyub-yaza bilməsində, Azərbaycan dilindən oxu materialının, dil qaydalarının öyrənilməsində nitq bacarığı, nitq inkişafı, nitq mədəniyyəti amili əsas götürülür.

İbtidai siniflərdə ana dili ilə əlaqədar işlər iki istiqamətdə aparılır. Birinci və ikinci siniflərdə əsasən şagirdlər əlifbanı öyrənir, oxu və yazı texnikasına yiyələnirlər. Bu siniflərdə şagirdlərin düzgün, sürətli, süurlu və ifadəli oxuması xüsusi diqqət mərkəzində saxlanılır. III-IV siniflərdə isə müəllimlər oxu dərslərində şagirdlərə Azərbaycan dilinin dövlət dili olması, onun ahəngdarlığı, gözəlliyi, cazibədarlığı haqqında sadə, şagirdlərin anlaq səviyyəsinə uyğun məlumatlar verməklə olarda ana dilinə qarşı məhəbbət hissi yaratmağa başlayırlar.

Təcrübəli müəllimlər nəzm əsərlərinin tədrisidə bu sahəyə geniş yer verirlər. Çünki şeirlərdə Azərbaycan dilinin füsünkar gözəlliyi daha qabarıq nəzərə çarpır. Digər tərəfdən ibtidai sinif şagirdləri şeir əzbərləməyi, şeir söyləməyi çox sevirlər. Müəl-

limlər şagirdlərin bu istəyindən istifadə edərək tez-tez müxtəlif müsabiqələr, disputlar, səhərciklər, səhnəciklər və s. keçirirlər ki, bunlar da şagirdlərin ana dilini daha yaxşı mənimsəmələri və onu sevmələri üçün çox böyük şərait yaratmış olur.

İbtidai siniflərdə hər bir şagird müxtəlif formalı və məzmunlu mətnləri səlis, şüurlu oxumağı, yazılı və şifahi şəkildə səmərəli və yaradıcı ünsiyyət qurmağı bacarmalıdır. Bu baxımdan, Azərbaycan dilinin bir fənn kimi təlim əhəmiyyəti böyükdür. Şagirdlər Azərbaycan dili fənni vasitəsilə milli mədəniyyət nümunəsi kimi Azərbaycan dilini və onun vasitəsilə milli-mənəvi sərvətlərimizi öyrənir, əxlaqi dəyərlərə və yüksək insani keyfiyyətlərə yiyələnir, Azərbaycan dilindən istifadə etməklə digər fənləri daha yaxşı mənimsəyirlər.

**Ədəbiyyat**


1.A. Sadıqlı. Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili. Bakı: Mütərcim, 2011

2.Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu). "Azərbaycan müəllimi" qəz., 2006, 1 dekabr

3.Əliyev H. Müstəqilliyimiz əbədidir.C.1.Bakı, 1997, s.9

4.Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı: Ozan, 1999, 496 s.

5. Əliyev V. Heydər Əliyevin dil siyasəti / Elmi red.: N.Cəfərov. Bakı: Nurlan, 2003, 100 s.

6. F.Köçərli.Seçilmiş əsərləri. Bakı, 1988

7.Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili. Bakı: Elm, 1998, 196 s.

8. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı, 1997, 281 s.

9.Маркова А.К. Психология усвоения языка как средства общения, М., 1974

11.Yusifov M. Dahi şəxsiyyətin nitq fenomenliyi. Bakı, 1997, 144 s.

## Azərbaycan dili ibtidai siniflərdə təlim fənlərinin əsasıdır

Azərbaycan dili ibtidai siniflərdə təlim fənlərinin əsasıdır. Şagirdlər ana dilinə yiyələnmədən, onun incəliklərinə bələd olmadan digər fənlər üzrə proqram materiallarını müvəffəqiyyətlə mənimsəyə bilməzlər. Ana dili xarakteri etibarilə inteqrativ fəndir. Bu fənn lap başlanğıcından botanika, zoologiya, anatomiya, coğrafiya, fizika, kimya, tarix və digər fənlərin elementlərini özündə əks edir.

Hər bir tədris fənni praktik şəkildə startı ana dili fənnindən götürür. Şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılmasında Ana dili fənni aparıcı mövqe tutur. Ana dili fənninin məzmunu dinləyib - anlama və danışma, oxu, yazı, dil qaydaları məzmun xətlərindən ibarətdir. Hər bir məzmun xətti üçün ayrı-ayrı məzmun standartları müəyyən edilmişdir. Müasir dərslikdəki materiallar da bu məzmun xətlərini əhatə edir.

İndi ibtidai siniflər üçün fənn kurikulumu əsasında yazılan “Azərbaycan dili” dərsliyi mövcuddur. “Azərbaycan dili” dərsliyi birinci sinifdə savad təliminin başlanğıcı və əsasıdır. "Azərbaycan dili" termini altında savad təlimi xüsusi əhəmiyyət kəsb edir. Məhz təlimin bu mərhələsi uşağın gözünü həyata açır. Bu dövrdə uşaq ilkin oxu və yazı texnikasına yiyələnir, ilkin oxu və yazı vərdişləri qazanır.

Adətən, savad təlimi dilimizin əlifbasında olan 32 hərfi tanımaq, onların köməyi ilə oxumağı və yazmağı öyrənmək kimi başa düşülür. Bu dövrün başqa vəzifələri haqqında danışarkən, ana dilinin tədrisinin başlıca prinsipinin nitq inkişafı olması faktını unutmaq olmaz. Savad təlimi dövrünə kommunikativ - idrak əsasında baxılmalıdır. Savad təlimi dövründə ilkin oxu təlimi səs-heca-təhlil-tərkib metodu ilə aparılır. Səs ayrılıqda deyil, heca tərkibində təqdim olunduğundan bu metod səs-heca-təhlil-tərkib metodu adlandırılır. Həmin metodun tətbiqini asanlaşdırmaq, oxu təliminin əsasını möhkəm qoymaq məqsədilə əlifba təliminə hazırlıq

dövründə fonematik təhlilə geniş yer verilməlidir. Nitqdən cümlənin götürülüb sözlərə ayrılması, cümlədə sözlərin sayının və ardıcıllığının müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Şagirdlər həmin dövrdə sait və samit haqqında ilkin anlayışlara yiyələnirlər. Sözlərdə saitin asanlıqla uzanması, samitin isə uzanmamasını dərk edirlər.

Savad təliminin birinci günündən oxu təlimi yazı təlimi ilə paralel gedir. Bu dövrdə yazı ləvazimatı ilə tanışlıq, qaməti düzgün saxlamaq, partada düzgün əyləşmək, dəftəri düzgün qoymaq, yazarkən qələmi düzgün tutmaq, barmaq və bilək əzələlərini möhkəmləndirmək, yazının gigiyenasına aid tələblərə əməl etmək lazımdır. Savad təlimi yeni sistemdə şərti və real olmaqla müxtəlif ünsiyyət situasiyasından başlanır. Bu situasiya birinci sinif şagirdlərinin kommunikativ nitq qabiliyyətinin inkişafı üçün daha əlverişli şərait yaradır, dilin ən mühüm ünsiyyət vasitəsi olaraq insanların fikri və mənəvi fəaliyyətinin ən vacib aləti kimi dərk edilməsinə kömək göstərir. Məhz ünsiyyət situasiyasında birincilər ilk dəfə dil həqiqətlərini söz, cümlə və mətn vasitəsi ilə dərk etməyə başlayırlar.

Yeni kurikulumlarla iş prosesində ən zəruri amillərdən biri kimi bütün müəllimlərin fəal təlim metodlarından istifadə bacarıqlarına yiyiələnməsi mühüm vəzifələrdəndir.

Ənənəvi dərsdə şagirdlər məlumatları yadda saxlamağa çalışırlar, müəllim isə nəticələri özü çıxararaq bilikləri hazır şəkildə şagirdlərə çatdırır. Öyrədici fəaliyyət ilk növbədə müəllimin fəallığı əsasında həyata keçirilir.

Hamıya məlum olduğu kimi, hər hansı bir məlumat real həyatda tətbiq edilən zaman biliyə çevrilir. Şagirdin cavabına qoyulan tələblərin əsasını əslində biliklərin mənimsənilməsinin yoxlanılması yox, verilən məlumatların yadda saxlanılması təşkil edir. Eyni zamanda, ənənəvi təlim prosesində biliklərin praktik tətbiqini təsəvvür etmək üçün şagirdə müvafiq imkanlar yaradılmır. Dərsin məzmunu, adətən daha çox nəzəri öyrənilir və həyatın tələbatlarına uyğunlaşdırılmır.

Şagirdin şəxsi təcrübəsi, onun tələbatları, maraqları, qabiliyyətləri və fərdi xüsusiyyətləri nəzərə alınmır. Bu cür prosesin nəticəsində heç kim əmin ola bilməz ki, bütün şagirdlər bu bilikləri lazımı səviyyədə dərk edəcək. Şagirdin hazır bilikləri mənimsəməsi nəinki onun təfəkkürünün inkişafı üçün stimul yaratmır, eyni zamanda idrak prosesini kütləşdirir, uşağı yaradıcılıqdan, sərbəstlik, müstəqillik, təşəbbüskarlıq kimi keyfiyyətlərdən məhrum edir. Nəticədə təlimin səmərəliliyi azalır, çünki onun keyfiyyəti şagirdin əqli qabiliyyətlərinin və hafizəsinin inkişaf səviyyəsi, idrak motivasiyasının olub-olmaması kimi psixoloji amillərdən birbaşa asılı olur.

Ənənəvi təlim sisteminin ən mürəkkəb problemlərindən biri istifadə olunan pedaqoji texnologiyaların konservatizmi, qeyri-çevik olmasıdır. Müasir informasiya – kommunikasiya dövründə elmin müxtəlif sahələrində toplanmış bilik kütləsi elə sürətlə artır ki, təlimin ənənəvi sxem və prinsiplərinə əsaslanaraq onları həm öyrənənə çatdırmaq, həm də mənimsətmək, əslində qeyri-mümkün işə çevrilir. Əgər əvvəllər bilikləri əldə etmək üçün şagirdi iki əsas bilik mənbəyi (müəllim və dərslik) qane edirdisə, bu gün həmin mənbələr çoxsaylı məlumat mənbələri ilə müqayisədə uduzur. Bu səbəbdən müasir təlimin başlıca vəzifələrindən biri öyrənməyi oyrətməkdir, yəni şagirdləri bilikləri müstəqil əldə etməyə yiyələndirməkdir, biliklərədn çox biliklərin əldə edilməsi yollarını öyrətməkdir. Yalnız təlim metodlarının keyfiyyətcə dəyişdirilməsi, onların şəxsiyyətə, onun tələbatlarına yönəldilməsi, bilikləri mənimsəmə zamanı yaradıcı təfəkkürdən fəal istifadə edilməsi şəraitində təlim böyük səmərə verə bilər. Eyni zamanda, şəxsiyyətyönümlü tədris prosesi inkişaf proseslərinin keyfiyyətinə də təsir edəcək: idraki və sosial fəallığı artırmaqla şəxsiyyətin dəyərlərini və vərdişlərini formalaşdıracaqdır.

Kurikulum sadəcə tədris proqramı deyil, o, bütöv bir təhsil prosesidir. Bu tələblərin nəzərə alınması məhz məhsuldar, yaradıcı təfəkkürü və yeni biliklərə müstəqil yiyələnmə

üsullarını özündə birləşdirən fəal(interaktiv) təlim texnologiyalarına üstünlük verməyi tamamilə zəruri edir.

Fəal təlimin üstünlüklərinə baxmayaraq, müəllim ənənəvi metodların istifadəsindən tam imtina etməməlidir. Təlimin məqsədindən, məzmunundan, şagirdlərin hazırlığından asılı olaraq müəllim öz seçimini etməlidir. Məsələn, müəllim bacarıq və vərdişlərin formalaşması məqsədini qoyursa, o, daha çox təkrarlama metodunu üstün tuta bilər. Əgər təlimin məzmunu çox mürəkkəbdirsə, çoxlu sayda yeni anlayış və məlumatları bilməyi tələb edirsə, bu zaman ənənəvi metod (izahedici) daha çox səmərə verə bilər.

## Ədəbiyyat

1.Abdullayev A.S. İbtidai məktəbdə Azərbaycan dilinin tədrisinin metodikası. Bakı: Maarif, 1962, 165 s.

2.Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IV siniflər). Bakı, 2012

3.Balıyev H.B. Ana dilinin tədrisi metodikası. Bakı: 3 №li Sənaye Liseyi,1997, 102 s.

4.Əhmədov Ə. Ümumtəhsil sistemində kurikulum islahatları// Kurikulum, 2008, №1

5.Həsənov M.,Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Elm Nvə təhsil, 2013, 404 s.

6.Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.

7.Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, 408 s.

8.Люблинская А.А. Детская психология. М.: Просвещение, 1971

9.Николски V.А. Сочинени в средней школе. М.: Учпедгиз, 1954

## Azərbaycan dilinin təlim və tərbiyəvi əhəmiyyəti

Müasir dövrdə yeni nəslin vətəninə, torpağına, soy-kökünə bağlılığını, onun əsil vətəndaş kimi yetişməsini təmin etmək üçün məqsədyönlü iş aparılması, təhsilin ilkin pilləsindən başlayaraq bütün imkanlardan istifadə edilməsi ən mühüm vəzifələrdən biridir.

Azərbaycan dilinin tədrisi özünün məzmunu ilə uşaqlarda vətəninə və xalqına coşqun məhəbbət hissinin tərbiyyə edilməsinə, onların vətənpərvərlik ruhunda əsil vətəndaş kimi yetişməsinə xidmət edir. Azərbaycan dili qüdrətli tərbiyə vasitəsidir. Şagirdlər onun vasitəsilə milli-mənəvi sərvətlərimizi öyrənir, əxlaqi dəyərlərə və yüksək insani keyfiyyətlərə yiyələnirlər.

Şagird Azərbaycan dilini öyrənməklə öz zehnini yeni təsəvvürlər və surətlərlə, məfhum, fikir və ideyalarla zənginləşdirir.Mübariz, vətənpərvər, iradəli, milli mənlik şüuruna yiyələnən şəxsiyyət kimi formalaşmasının əsası qoyulur.

Müşahidə və təcrübələr göstərir ki, məktəbdə bütün təlim və tərbiyə işlərinin müvəffəqiyyəti uşağın ana dili sahəsindəki uğurlu fəaliyyətindən çox asılıdır.

Azərbaycan dili hər hansı bir məlumatı mənimsəmək üçün başlıca alətlərdən biridir. Uşaq hər şeyi öyrənməkdə və tərbiyə almaqda başlıca olaraq, sözdən istifadə etdiyi üçün dil bütün təlim və tərbiyə işlərinin mühüm vasitəsi kimi özünü göstərir

Ü.Hacıbəyov qeyd edirdi ki, xalqın milli varlığı və gələcəyi, mədəniyyətinin inkişafı ana dilinin inkişafı ilə sıx bağlıdır.

Maarifpərvər ziyalı F. Köçərli yazırdı: "Ananın südü bədənin mayası olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini sevir".

Uşaqların ana dilinə yiyələnməsi təlim-tərbiyə işinin mühüm vəzifələrindən biridir. Rus pedaqoqu K.D.Uşinski yazırdı ki, dil xalqın çox əsrlik mənəvi həyatının ən dolğun

tarixi olmaqla bərabər, hələ nə kitab, nə də məktəb olmadığı dövrlərdə belə xalqı öyrədən və onu tarixin sonuna qədər öyrətməkdə davam edən ən böyük tərbiyəçidir.

Azərbaycan dili şagirdlərin bədii tərbiyəsi üçün də yaxşı vasitədir. Məlumdur ki, ana laylaları və oxşamalarından başlamış xalqımızın folklor nümunələri, bədii ədəbiyyat kiçik məktəbyaşlı uşaqların bir şəxsiyyət kimi formalaşmasında çox qüvvətli vasitədir. Kiçik məktəb yaşlı uşaqların lüğət ehtiyatının zənginləşməsində bədii əsərin xüsusi əhəmiyyəti vardır. Uşaqlar xalq nağıllarına, maraqlı hekayələrə qulaq asmağı çox sevirlər. Bədii əsərlər uşaqlara hər şeydən əvvəl şadlıq gətirir, öz zəngin məzmunu ilə onları özünə cəlb edərək bədii obrazları, ifadəli dili və ahəngdarlığı ilə onların marağını oyadır. Kiçik məktəbyaşlı uşaqlar bədii söz vasitəsilə ədəbi dilə sahib olur və bədii danışma qabiliyyətini mənimsəyirlər. Buna görə də bədii sözün ana dilinin inkişafındakı rolu çox böyükdür, bədii söz vasitəsilə uşaq ana dilini, onun qrammatik quruluşunu öyrənir və öz lüğətini zənginləşdirir.

Söz kiçik məktəbyaşlı uşaqların nitq fəaliyyətinə eşidildiyi və tələffüz edildiyi şəkildə təsir edir, uşaq onu əhatə edən ictimai mühitdə eşitdiyi sözləri təhlil etmədən olduğu kimi qavrayır və ifadə edir. Təkrar nəticəsində həmin sözlər beyin qabığı üzərində iz buraxır və möhkəmlənir. Ona görə də uşağın düzgün nitqə yiyələnməsi işində onu əhatə edən yaşlıların düzgün və ədəbi dildə danışmaları böyük əhəmiyyətə malikdir.

Odur ki, uşağın böyüklər tərəfindən eşitdikləri sözlər, cümlələr qrammatik cəhətdən düzgün ifadəli, aydın və anlaşıqlı olmalıdır. Bu tələblər kiçik məktəbyaşlı uşaqların nitqini inkişaf etdirmək işində xüsusilə əhəmiyyətlidir, çünki bu dövrdə uşaq dilin qrammatik quruluşuna yenicə alışmağa başlayır. Bunun üçün həm valideyn, həm də müəllimlər öz nitqlərinin bədii, obrazlı və mənalı olması üzərində xüsusilə çalışmalıdır. Hər bir bədii nümunə xalqın öz sərvətinə dərin

məhəbbət tərbiyə edir. Uşaqlar hadisələri bədii obrazlarla daha səmərəli qavrayırlar.

Müəllimlər xalqımızın mənəvi sərvətlərinə yaxından bələd olmalı, kiçik məktəbyaşlı uşaqların həyata hazırlığının düzgün istiqamətləndirilməsində bədii ədəbiyyatdan, oradakı müsbət obrazlardan istifadə etməyi bacarmalıdır. Bunlar uşaqların tərbiyəsinə təsir edən qüvvətli amillərdəndir və onların mənəviyyatını zənginləşdirir, vətənin ləyaqətli övladları kimi böyüməlığərinə müsbət təsir göstərir. Bədii ədəbiyyatın böyük tərbiyəvi qiyməti kiçik məktəbyaşlı uşağın ətraf mühitdəki həqiqəti dərk etməsinə, qəlbində milli şüurun ilk əlamətlərinin yaranmasına təkan verir.

Azərbaycan dilinə yaxşı yiyələnmək uşaqların müvəffəqiyyətlə təhsil almalarına kömək edir. Azərbaycan dili təlimi uşaqların təfəkkür fəaliyyətinin formalaşmasına, müstəqilliyinin və yaradıcı təşəbbüsünün inkişafına kömək edir. Fəal/interaktiv təlimdən istifadə etməklə keçilən Azərbaycan dili dərsləri biliyin şüurlu şəkildə qazanılmasına imkan verir. Şagirdlər mövzunu tapır, onun içərisində nədən söhbət gedəcəyinə dair ilkin ehtimallarını söyləyir, sonra müəllim həmin ehtimalları əldə rəhbər tutmaqla şagirdlərə qrup tapşırıqları verir. Şagirdlər axtarışa çıxır, tapşırığın nəticələrini işçi vərəqlərində qeyd edirlər. Sonra həmin qeyd olunmuş məlumatlar sinfə təqdim olunur. Bu zaman şagirdlərin axtarışlarına qiymət verilir. Hər bir qrup layiq olduğu qiyməti aldıqdan sonra işçi vərəqindəki məlumatların nəzərdən keçirilməsinə başlanır. Müəllim sinfə təklif edir ki, gəlin indi həmin vərəqlərdəki məlumatları bir yerə cəmləşdirək. Beləliklə, vərəqlərdəki məlumatlar bir vərəqdə, ya da lövhədə ümumiləşdirilir. Bu, vacib məsələdir çünki sinif şagirdləri nəyi axtardıqlarını, nəyi tapdıqlarını umimiləşmiş şəkildə görəndə yeni öyrənilən mövzu bütün mahiyyəti ilə göz önündə canlanır. Sonra müəllim şagirdlərin diqqətini dərsin əvvəlində onların irəli sürdükləri ehtimallara yönəldir. Onlara təklif edir ki, indiki yekunlarla əvvəl irəli sürülən ehtimalları

qarşılaşdırsınlar, onların nə dərəcə təsdiq olunduğuna fikir versinlər. Bu mərhələ də olduqca vacibdir. Şagirdlər ehtimallarla, axtarışlarının üst-üstə düşdüyünü görəndə çox sevinirlər. Azərbaycan dili dərslərində fəal/interaktiv təlimin tətbiqi şadirdlərdə həmçinin müstəqillik, fəallıq, özünəinam, özünütənqid, yoldaşlarına hörmət, təmkinlilik, dözümlülük, tolerantlıq, yoldaşlıq, dostluq, əməkdaşlıq, dinləmə mədəniyyəti və s. tərbiyə olunmasına imkan yaradır.

**Azərbaycan dilinin tədrisi metodikasının qarşısında aşağıdakı ümumi və konkret didaktik vəzifələr durur:**

- şagirdlərin təfəkkürünü, müstəqilliyini inkişaf etdirmək;
- şagirdləri həyata, məişətə əməli cəhətdən hazırlamağa kömək etmək;
- şagirdlərin nitqini və təfəkkürünü inkişaf etdirmək, onları tam savadlı, ədəbi dilə mükəmməl yiyələnmiş şəxsiyyət kimi yetişdirmək;
- şagirdlərə Azərbaycan dilinin əsas bölmələrinə dair müəyyən həcmdə bilik və bacarıqlar vermək;
- şagirdlərin düzgün tələffüz, ifadəli oxu və rabitəli nitq vərdişlərini inkişaf etdirmək;
- şagirdlərdə orfoqrafiya və durğu işarələri ilə bağlı möhkəm vərdişlər yaratmaq və s.

## Ədəbiyyat


1.Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IV siniflər). Bakı, 2012

2.Balıyev H.B. Ana dilinin tədrisi metodikası. Bakı: 3 №li Sənaye Lis., 1997,102 s.

3.Bədiyev S.R. Yeni təlim texnologiyalarından mühazirə mətnləri. Bakı: Dərələyəz-M, 2009, 200 s.

4.Əlizadə Ə.Ə., Sultanova İ.H. Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı, 2008, 173 s.

5. Hüseynov H. Azərbaycan dili dərslərində rabitəli nitqin inkişafı üzrə çalışmalar. Bakı, APİ-nin nəşri, 1974

6.Həmzəyev M.Ə. Kiçik məktəbyaşlı uşaqların psixoloji xüsusiyyətləri. Bakı: Maarif, 1968, 67 s.

7. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 404s.

8.Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı: Nurlan, 2007

## Azərbaycan dili kurikulumu, əhəmiyyəti, məqsəd və vəzifələri

Ana dili kurrikulumu bu fənn üzrə məqsəd və vəzifələri müəyyənləşdirən və ona doğru istiqamətlənmiş standartların reallaşması üçün zəruri fəaliyyətləri əhatə edən konseptual sənəddir. Bu sənəd hazırlanarkən cəmiyyətimizin ehtiyac və tələbləri, şagirdlərin imkanları, meyil və maraqları nəzərə alınmışdır. Burada fənn üzrə ümumi təlim nəticələri, məzmun standartları, müəllim və şagird fəaliyyətinə aid texnologiyalar və qiymətləndirmə məsələləri əhatə edilmişdir. Bu, dərslik və dərs vəsaitiləri müəlliflərini, müəllimləri, qiymətləndirmə mütəxəssislərini və ana dili təlimi ilə məşğul olan digər təhsil işçilərini istiqamətləndirməyə xidmət edir.

Azərbaycan dili təliminin məzmunu nəticəyönümlü standartlar əsasında hazırlanmışdır. Nəticələrin əvvəlcədən müəyyən olunması onlara doğru yönəlmiş fəaliyyətlərin inkişafını izləmək və istiqamətləndirmək üçün ardıcıl qiymətləndirmə aparılmasına imkan yaradır.

Məzmun standartları hazırlanarkən şagirdlərin idraki, informativ- kommunikativ və qeyri-iradi fəaliyyətlərinin əhatə olunması, düşünmə, emosional və psixomotor bacarıqlarının inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bütün standartlar fəaliyyətlərə aid bacarıqlar şəklində ifadə olunmuş, şagirdlərin bilik

və bacarıqları ilə bağlı nailiyyətlərini müəyyənləşdirmək diqqət mərkəzində saxlanılmışdır.

**Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri.** Ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi milli maraqlar və dövlətçilik baxımından vacib məsələlərdən biri hesab edilir. Dünya ölkələrində ana dilinin öyrədilməsi milli təfəkkürün formalaşmasında mühüm vasitə kimi yüksək dəyərləndirilir. Milli Kurikulumlar bir qayda olaraq, ana dili ilə başlanır. Təhsilin ümumi inkişaf səviyyəsini müəyyənləşdirmək üçün keçirilən beynəlxalq və milli qiymətləndirmələrdə ana dili üzrə standartların mənimsənilməsinə xüsusi diqqət yetirilir. Bütün bunlar isə bir fənn kimi ana dilinin şəxsiyyətin formalaşmasındakı müstəsna rolu ilə bağlıdır. Firudin bəy Köçərlinin fikrincə, "ana dili millətin mənəvi diriliyidir... Ananın  südü bədənin mayəsi olduğu kimi, ana dili də ruhun qidasıdır".

Azərbaycan dilinə yiyələnmə ailədən başlayır. Uşaq məktəbə gələnədək ana dilinin köməyi ilə ətraf aləm haqqında müəyyən təsəvvürlər əldə edir. Bu onun lüğət ehtiyatını zənginləşdirir, dəqiqləşdirir, əşya və hadisələr haqqında  fikirlərini formalaşdırır, başqalarının dediklərini anlamağa imkan yaradır. Məktəbdə isə həmin iş sistemli, ardıcıl, mütəşəkkil davam etdirilir. Məhz buna görə də ana dilinin öyrənilməsi Milli Kurikulumda özünəməxsus yer tutur.

Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda nitq fəaliyyətinin növləri ilə yanaşı, ***düşünmə, öyrənmə*** **və** ***danışma*** bacarıqlarını formalaşdırır. Nəticədə bu dil düşünmə, öyrənmə, danışma vasitəsinə cevrilir.

Azərbaycan dili ümumtəhsil məktəblərində tədris olunmaqla şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına xidmət edir. Şagirdlər bu fənnin vasitəsilə milli mədəniyyət nümunəsi kimi ana dilini öyrənir, onun səs sisteminə, lüğət ehtiyatına, üslubi-qrammatik xüsusiyyətlərinə yaxından bələd olur, elmi, bədii, publisistik və digər üslublarda yaradılmış ədəbiyyat nümunələri ilə tanış olmaq imkanı qazanırlar. Eyni zamanda, bu

dildən istifadə edərək öyrənəcəkləri digər fənlərin daha yaxşı mənimsənilmə potensialını genişləndirirlər.

Orta məktəbi başa vuran gənclər təhsilini davam etdirmək, müxtəlif sahələrdə işləmək üçün müasir dövrün iqtisadi, hüquqi və texnoloji çətinliklərinə hazır olmalı, onların aradan qaldırılmasında təşəbbüskarlıq və fəallıq göstərməlidirlər. Bunun üçün təkcə elmi-nəzəri hazırlıq deyil, həm də yüksək əxlaqi-mənəvi keyfiyyətlər, o cümlədən dil və ünsiyyət bacarıqları əldə olunmalıdır. Hər bir şəxs müxtəlif formalı və məzmunlu mətnləri səlis, şüurlu oxumağa, yazılı və şifahi şəkildə səmərəli və yaradıcı ünsiyyət qurmağa qadir olmalıdır. Bu baxımdan, Ana dilinin bir fənn kimi təlim əhəmiyyəti böyükdür.

Azərbaycan dili qüdrətli tərbiyə vasitəsidir. Şagirdlər onun vasitəsilə milli-mənəvi sərvətlərimizi öyrənir, əxlaqi dəyərlərə və yüksək insani keyfiyyətlərə yiyələnirlər.

Azərbaycan dilinin öyrənilməsi "Ümumi təhsil pilləsinin dovlət standartları və proqramları (kurikulumları)"nda[1] xüsusi yer tutur.

Ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin <u>məqsədi</u> ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir. Buna görə də:

- nitq və dil bacarıqlarına yiyələnməklə ümumi nitq inkişafına nail olmaq;
- Azərbaycan dilinin düşünmə, öyrənmə və danışma vasitəsi olmasını dərk etmək;
- davamlı təhsil prosesində, praktik fəaliyyətdə istifadə üçün potensial bilik və bacarıqlara yiyələnmək vacib hesab edilir.

Azərbaycan Respublikasında "Ümumi təhsilin dövlət standartları və proqramları (kurikulumları)" sənədində

[1]Bax: Umumi təhsil pilləsinin dovlət standartları və proqramları (kurikulumları), s.4 (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nomrəli sərəncamı ilə təsdiq edilmişdir).

müəyyən edilmişdir ki, ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi vasitəsilə:

İbtidai təhsil səviyyəsində əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının tədricən zənginləşdirilməsi, ən zəruri qrammatik qaydaların və ədəbi tələffüz normalarının öyrənilib tətbiq olunması, ekspressiv nitq bacarıqlarının formalaşdırılması, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunur.

İbtidai təhsil pilləsi qarşısında qoyulan əsas məqsədlərdən biri də şagirdlərdə məntiqi və yaradıcı təfəkkür elementlərini formalaşdırmaq, istedadlı uşaqların erkən yaşdan üzə çıxarılmasını və inkişafını təmin etməkdir.

Şagirdlərdə doğma dilə məhəbbət oyadılması, onların bu dildə səlis, aydın, obrazlı danışa bilməsi, dilin geniş imkanlarından səmərəli istifadə etməsi, yazı və oxu mədəniyyətinə yiyələnməsi dil təliminin başlıca məqsədidir ki, bütün bunlar Azərbaycan dili fənn kurikulumunda nəzərə alınmışdır. Fənnin məzmununun şəxsiyyətyönümlülük prinsipi əsasında hazırlanması şagirdlərdə təhsilə marağı artırır, potensial imkanlarına inam yaradır. Kurikulumlardan irəli gələn tələblərə görə bugünün müəllimi sinifdə daha çox istiqamətverici(fasilitator) rol oynamalıdır, şagirdləri düşünməyə, araşdırmalar aparmağa, müstəqilliyə sövq etməlidir. Təhsil prosesi uşaqda özünüinkişaf qabiliyyəti formalaşdırmalıdır. Bu da öz növbəsində aşağıda göstərilən fəallığa, dərketmə tələbatına və qabiliyyətinə əsaslanır:

- məntiqi düşünmə;
- ətraf aləmin cisim və hadisələrinə tənqidi yanaşma;
- müstəqil olaraq qərar çıxarma;
- ətrafda olanları yaradıcı surətdə dəyişmə;
- bilikləri müstəqil əldə etmə;
- praktiki problemləri həll etmə ;

❖ şəxsiyyətin inkişafına dair yeni məqsədlər qarşıya qoyma.

**Təlimin məqsədləri. Öyrədici**–Tədqiqat aparılması imkanı. Müxtəlif iş formalarında istifadə imkanı. Təhliletmə və nəticə çıxarma bacarığı. Qısa müddətdə daha çox materialın öyrədilməsi imkanı.Vaxta qənaət.

**Tərbiyəedici** – Əməkdaşlıq, bir–birini dinləmə bacarığı, bir-birinin fikrinə hörmətlə yanaşmaq.

**İnkişafetdirci** – Fəallıq, yaradıcılıq. Müstəqil tədqiqat aparmaq, öz fikrini çatdırmaq imkanı. Təfəkkürün uç növünün(məntiqi, tənqidi, yaradıcı) inkişafı.

**İbtidai təhsil pilləsi (I-IV siniflər) üzrə ümumi təlim nəticələri. Şagird:**

- oxuduğu və dinlədiyi mətnlərə münasibət bildirir;
- dialoqa girir, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir;
- sərbəst, düzgün, sürətlə, şüurlu, ifadəli oxuyur və savadlı yazır;
- ayrı-ayrı mətnlərdən əsas faktları seçib qruplaşdırır, kiçik həcmli mətnlər qurur;
- Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, mədəniyyəti, incəsənəti, adət-ənənələri haqqında ilkin məlumatları sadə formada təqdim edir;
- lüğətlərdən, məlumat kitablarından, kataloqlardan istifadə edir.

## Məzmun xətləri

Məzmun xəttinin funksiyalarına daxildir:

- Məzmun xətti–fənn üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasını təmin etmək üçün müəyyən edilən məzmunun zəruri hesab edilən hissəsidir.
- Məzmun xətləri şagirdlərin öyrənəcəyi məzmunu daha aydın təsvir etmək üçün müəyyən olunur və onu sistemləşdirmək məqsədi daşıyır.

**Məzmun xətləri** ümumi təlim nəticələrinin reallaşdırılması üçün müəyyən olunan fənn kurrikulumunun zəruri hissəsi olub, şagirdlərin əldə edəcəyi bilik və bacarıqları daha aydın təsvir etmək  və onu sistemləşdirmək məqsədi daşıyır.

Azərbaycan dili təliminin məqsəd və vəzifələrinə uyğun olaraq, məzmun xətləri təhsilin bütün pillələri üzrə aşağıdakı kimi  təyin  edilmişdir:

- Dinləyib - anlama və danışma
- Oxu
- Yazı
- Dil qaydaları

**Fəaliyyət xətləri.** Ana dili üzrə məzmun standartları müəyyənləşdirilərkən aşağıdakı fəaliyyət istiqamətləri ilə əlaqəlilik nəzərə alınmışdır:

- Problemin həlli
- Mühakimə yürütmə və əsaslandırma
- Ünsiyyət
- Tədqiqetmə
- Tətbiqetmə

## İbtidai təhsil pilləsində məzmun xətləri  üzrə təlim nəticələri

**Dinləyib-anlama və danışma.** Bu məzmun xətti şagirdlərdə danışanın fikrini dinləyib-anlamaq və buna münasibət bildirmək bacarığını formalaşdırır. İnformasiya mənbələrindən alınan məlumatlara tənqidi yanaşmaq, əsas ideyanı ikinci dərəcəli ideyadan  fərqləndirmək və inandırıcı şəkildə təqdim etmək vərdişləri aşılayır.

**Şagird:**

- müxtəlif informasiyaları seçib təhlil edir, ümumiləşdirir və bunlara münasibət bildirir;
- müsahibinin fikrinə münasibət bildirir və öz mövqeyini əsaslandırır;

- müşahidə etdiyi şəkil, əşya, mənzərə və hadisə əsasında hekayə qurur;
- məktəb tədbirlərində müstəqil çıxış edir;
- dinləyəni inandırmaq üçün fikrini müxtəlif vasitələrlə əsaslandırır;
- danışarkən nitq etiketlərindən (salamlaşmaq, təbrik etmək, təşəkkür etmək, üzr istəmək) istifadə edir.

**Oxu**

Oxu ana dili fənninin əsas məzmun xətlərindən biri olub, şagirdlərin dil duyumunun inkişafını, əlifbanın öyrədiiməsini, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların formalaşdırılmasını, lüğət ehtiyatının zənginləşdirilməsini, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, incəsənəti, adət-ənənələri haqqında ilkin təsəvvürlərin yaradılmasını təmin edir.

**Şagird:**

- mətni düzgün, sürətli, ifadəli, şüurlu oxuyur;
- müxtəlif mətnləri bütöv sözlərlə səsli və səssiz oxuyur;
- oxuduğu mətnlərin məzmununa münasibət bildirir;
- mətnin hissələri arasında məna əlaqələrini müəyyənləşdirir;
- bədii və elmi - kütləvi mətnləri fərqləndirir.

**Yazı**

Bu məzmun xətti şagirdin sözləri və cümlələri aydın (oxuna bilən şəkildə) yazmasını, konkret şəraitə və məqsədə uyğun olaraq cümlələr qurmasını, fikirlərini abzaslarla ifadə etməsini, tədricən ilkin yazı üzrə bacarıqlar qazanmasını, təsviri və mühakimə xarakterli mətnlər qurmasını təmin edir.

**Şagird:**

- Şagird kiçik və böyük hərfləri, sözləri və cümlələri aydın yazır;
- Müşahidə etdiyi əşya və hadisələr haqqında təsviri xarakterli kiçik həcmli mətnlər yazır;

- Əməli yazılar (məktub, ərizə, elan, divar qəzetinə məqalə, tərcümeyi-hal) tərtib edə bilməsini nümayiş etdirir;
- Yazıda kalliqrafiya, orfoqrafiya və durğu işarələri qaydalarına əməl edir.

**Dil qaydaları**

Bu məzmun xətti dilimizin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı minimum bilik və bacarıqların yığcam, sadə qaydalar və aydın şərhlər şəklində şagirdlərə çatdırılmasını, orfoqrafiya, orfoepiya və durğu işarələri üzrə zəruri vərdişlərin aşılanmasını təmin edir. Şagirdlərin qazandıqları bu vərdişlər oxu və yazı qabiliyyətlərinin, rabitəli nitq inkişafının, kommunikativ mədəniyyətinin formalaşmasına imkan yaradır.

**Şagird:**

- yaş həddinə uyğun zəruri fonetik, leksik, qrammatik biliklərə yiyələndiyini nümayiş etdirir;
- seçdiyi dil faktlarını qruplaşdıraraq təqdim edir;
- dinlədiyi fikri anladığını nümayiş etdirir;
- şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir;
- qarşılaşdığı sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir;
- oxu texnikasına və vərdişlərinə yiyələndiyini nümayiş etdirir;
- yazı texnikasına və vərdişlərinə yiyələndiyini nümayiş etdirir;
- kalliqrafiya və orfoqrafiya qaydalarını gözləməklə müxtəlif növ yazılı çalışmaları (üzündənköçürmə yaddaşa əsasən yazı, imla, ifadə, inşa) yerinə yetirir;
- fonetik, leksik, morfoloji, sintaktik, orfoqrafik qaydaları mənimsədiyini nümayiş etdirir.

Göründüyü kimi, əldə ediləcək nəticələr əvvəlcədən müəyyənləşdirilmişdir. Yəni "Azərbaycan dili" fənni əvvəlcə-

dən müəyyənləşdirilmiş təlim nəticələrinin reallaşdırılması üçün mühüm bir vasitədir. Ümumi təlim nəticələri fənlərdə məzmun xətti üzrə sistemləşdirilir. Məzmun xətləri hər bir fənn üzrə şagirdlərin əldə edəcəyi təlim nəticələrini, bilik və bacarıqları daha aydın təsəvvür etmək və onları sistemləşdirmək məqsədi daşıyır. Standartların yaranması təhsilə lazım olan məzmunu gətirmiş, bilik və bacarıqların həcmi müəyyən olunmuş, təhsilin məzmununa lüzumsuz məsələlərin daxil edilməsinin qarşısı alınmışdır. Məzmun və fəaliyyətdən ibarət olan standartlar şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsinə real şərait yaratmışdır.

## Məzmun standartı və növləri

**Məzmun standartı -** təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbidir.

**Məzmun standartının iki növü vardır: Əsas standart; alt-standart.**

**Əsas standartın funksiyalarına aiddir:**

• Fənlər üzrə müəyyən olunan təlim nəticələrini məzmun xətləri üzrə ümumi şəkildə ifadə edir.

• Sinif və fənlər üzrə summativ qiymətləndirmənin aparılmasını təmin edir.

**Alt-standartların funksiyalarına daxildir:**

• Təlim məqsədlərinin dəqiq müəyyən olunması üçün etibarlı zəmin yaradır.

• Təlim strategiyalarının düzgün seçilməsində mühüm rol oynayır.

• Təlimdə inteqrativliyi təmin edir.

• Təlimin məzmununun davamlı inkişafını təmin edir.

Standartlar bilik və fəaliyyət hissələrindən ibarət olur.

Biliyin üç kateqoriyası var: **deklarativ, prosedural** və **kontekstual.**

Deklarativ - məlumat xarakterli biliklərdir. Bunların sırasına anlayışlar, təriflər, faktlar daxilldir.

Prosedural - fəaliyyətin icrasına dair prosedur qaydaları əhatə edən biliklərdir.

Kontekstual bilik - problemin həll edilməsi yolu ilə əldə olunan yeni biliklərdir.

Fəaliyyətin də üç növü var: **idraki,emosional** və **psixo-motor.**

## İbtidai siniflərdə fəndaxili və fənlərarası inteqrasiyanın məzmunu

Təlim özünün iki əsas komponenti olan öyrətmə və öyrənmə fəaliyyəti ilə bilik, bacarıq və vərdişlərin, fəaliyyət üsullarının verilməsi, təcrübənin qavranılması, dərk edilməsi və tətbiqi proseslərinə nail olmağa çalışır. Bu prosesin uğurlu alınması üçün öyrədən qarşıya məqsəd qoyur və bu məqsədinə uyğun vəzifə və məzmunu müəyyənləşdirir. Təbii ki, məzmuna uyğun metod və material seçməklə öyrənmə fəaliyyətini təşkil edir. Bu fəaliyyəti təşkil edərkən öyrədən nəticənin gözlənilən məqsədlərə çatması üçün təlimin səmərəliliyini artıran müxtəlif vasitələrə müraciət edir. Belə istinad edəcəyi vasitələrdən biri də inteqrasiyadır.

İnteqrasiya latın sözü (inteqer) olub, mənası tam deməkdir. Ümumiyyətlə, inteqrasiya elə bir əsas prinsipdir ki, o, fənlərin tədrisində mütləq və zəruri hesab edilir. Çünki tədris zamanı istifadə edilən inteqrasiya şagirdləri inkişafa istiqamətləndirmək məqsədi daşıyır, təlimi təkmilləşdirir, fənlər arasında və fənlər daxilində (mövzular arasında) əlaqə və asılılıqlar dərinləşir. Şagirdlərdə idraki qabiliyyətlər formalaşır. Bu isə çox əhəmiyyətlidir. Tədris prosesində istifadə edilən inteqrasiya bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsinə, dərslərin daha maraqlı, anlaşılan bir şəkildə qurulmasına səbəb olur. Dünya təcrübəsi göstərir ki, ümumiyyətlə, düzgün seçilən təlim metodu dərsin keyfiyyətini əsaslı şəkildə artırır. Təlimin keyfiyyətinin artırılmasına inteqrasiya kömək etsə də, inteq-

rasiyadan istifadə edilərkən təlim materialı dərindən dərk olunmalı, bu sahədə müəyyən bilik və bacarıqlar olmalıdır.

Müəllim dərsdə inteqrasiyadan nə zaman və necə istifadə etməni, dərsdə işi necə planlaşdırmanı bacarmalıdır. Bunun üçün müəllimdən nəzəri, pedaqoji, psixoloji, ümumi hazırlıq, təfəkkür itiliyi tələb olunur.

Bir fənnin tədrisi prosesində şagirdlər digər müxtəlif fənlər üzrə sadə şəkildə olsa da, biliklərə yiyələnirlər. Əldə olunan bu biliklər digər biliklərin yaxşı və mükəmməl mənimsənilməsi üçün münbit, əlverişli şərait hazırlayır.

İnteqrasiya biliklərin elə qarşılıqlı əlaqəsidir ki, bu zaman elmlərin yaxınlaşması baş verir, sanki sistemin ayrı-ayrı əlaqəli hissələri birləşir. İnteqrasiyadan istifadə olunduqda az vaxt ərzində çox bilik verilir, təlimdə nailiyyətlər əldə olunur.

Fənlərarası inteqrasiyanın əhəmiyyəti aşağıdakı mövqelərdən irəli gəlir:

- Tədris fənlərinin məzmunundakı müxtəlif əlaqələrlə gerçək aləmin prosesləri, hadisələri və obyektləri arasında real mövcud olan əlaqələrin əksini təşkil edir.
- Məktəbdə elmi-biliklərə yiyələnmə hal-hazırda hər bir tədris fənninin sonradan tədris mövzularına parçalanan tədrisin məzmununun predmet quruluşuna əsaslanır.
- Tədrisin məzmununun hər bir sistem vahidi özünün əsaslı mövqeyinə malikdir.

Respublikamızda aparılmış tədqiqatlara, pedaqoqlarımızın fikirlərinə əsaslansaq, əslində inteqrasiya bir prinsipdən daha çox elə bir metodiki vasitə, üsuldur ki, bu üsulla təlimin məzmunu zənginləşir. Bu üsuldan istifadə zamanı isə müəllim təbii ki, bəzi zəruri prinsiplərə (prinsip latınca prinsipium-başlanğıc, əsas mənasını verir) əsaslanır.

Tədris prosesində inteqrasiyadan istifadə zamanı daha çox aşağıdakı prinsiplərə istinad olunur:

1. Elmilik prinsipi-müəllimin inteqrasiyadan istifadəsi zamanı dərsin elmi səviyyəsinin təşkili, izah və fikirlərdə elmi dəqiqliyin mütləq özünü büruzə verməsi ilə əlaqədardır. Belə ki,

müəllim daima çalışmalıdır ki, hər hansı rast gəldiyi yazılı məsələlərə deyil, yalnız sübut olunmuş, elmi status almış məsələlərə istinad etsin. Dərs prosesində şagirdləri elmin yeni nailiyyətlərinin öyrənilməsinə istiqamətləndirmək lazımdır. Şagirdlərin elmi, məntiqi düşüncələrinin üzə çıxarılıb inkişaf etdirilməsi də nəzarətdə saxlanılmalıdır.

2. Həyatla, demokratik cəmiyyət quruculuğu praktikası ilə əlaqə prinsipi. Bu prinsip təlim prosesində inteqrasiyadan istifadə, inteqrasiyanın təşkili zamanı xüsusi əhəmiyyət verilən prinsiplərdən biridir. Belə ki, hazırkı təhsilin əsas məqsədi ayaqları üzərində möhkəm dayana biləcək, cəmiyyət üçün faydalı ola biləcək, öyrəndiklərini həyata tətbiq edə biləcək şəxsiyyətlər yetişdirməkdir. Təlim prosesində inteqrasiyadan istifadə də məhz bu məqsədin reallaşdırılmasına xidmət edir. Təbii ki, tədris olunan fənn digər tədris fənlərindən əlavə, həm də lazımı səviyyədə həyatla, mədəni-siyasi və sosial-iqtisadi hadisələrlə əlaqələndirildikdə şagirdlər informasiya bolluğu şəraitində özləri üçün lazım olanları seçib mənimsəyə bilərlər.

3. Münasib şəraitin yaradılması prinsipi. Bu prinsip həm pedaqoji, həm psixoloji, həm də gigiyenik şəraitin olması ilə xarakterizə olunur. Məsələn, sinifdə psixoloji şəraiti düzgün qura bilən müəllim şagirdi tam anlaya bilir və beləliklə də onun maraq və ehtiyaclarına uyğun inteqrativ dərs təşkil edir, çünki bu xüsusiyyətlər nəzərə alınmadan istifadə edilən inteqrasiya informasiya bolluğundan başqa bir şey olmur.

4. Əyanilik prinsipi. Bu prinsipə əsaslanan müəllim inteqrasiyanı quru sözlər üzərində deyil, şagirdlərin maraq və diqqətinə səbəb olacaq əşya və hadisələrə əsaslanaraq təşkil edir. Y.A.Komenski əyanilik prinsipini təlimdə "qızıl qayda" adlandırırdı. Duyğularda olmayan heç bir şey, şüurda da olmadığından duyğuya əsaslanmaq lazımdır... ağıl bütün düşüncələr üçün materialı yalnız duyğulardan alır. Məhz elə bu fikrə əsasən də qeyd edə bilərik ki, şagirdlərə iki fənn arasında inteqrasiya əsasında dərs keçərkən hər hansı birinə aid əyanilikdən istifadə olunsa, bu daha yaxşı nəticə əldə olunmasına imkan verər.

5. Yaş və fərdi xüsusiyyətlərin nəzərə alınması prinsipi. Fərdi xüsusiyyətlərin nəzərə alınması elə yaş xüsusiyyətlərinin öyrənilməsindən başlanır. Şagirdlərin psixoloji inkişaflarının necəliyi təlimin müvəffəqiyyətinə təsir edir. Fərdi xüsusiyyətlərin nəzərə alınması ilə təşkil edilən təlim prinsipi istedadlı uşaqların qabiliyyətlərini inkişaf etdirir, digər şagirdlərin isə psixoloji funksiyalarının normal inkişafına şərait yaradır.

6. Biliyin möhkəmləndirilməsi və şagirdlərin dərketmə səviyyəsinin inkişafı prinsipi. Belə ki, inteqrasiyadan istifadə bilavasitə bu prinsipə əsaslanır. Çünki müəllim fənlərarasında inteqrasiya yaradarkən müəyyən bir tədris fənninə aid bilik və bacarıqların möhkəmləndirilməsini, və ya fənlərarasında məntiqi əlaqə yaradaraq şagirdlərin dərketmə, nəticə çıxarma, müqayisəetmə və s. bu kimi bacarıqlarının inkişafını qarşıya məqsəd qoyur.

7. Şüurluluq və fəallıq prinsipi. Bu prinsip şagirdlərin öyrəndiklərini şüurlu şəkildə dərk edib tətbiq etməsinə əsaslanır. Belə ki, şagird özü də  inteqrasiya yarada bilməli, öz fikrini digər fənlərə müstəqil şəkildə əsaslanmaqla ifadə edə bilməlidir. Bundan əlavə dərs prosesində fəallıq nümayiş etdirən şagirdlərin sayı çox olduqda dərsin keyfiyyəti də əsaslı şəkildə artır. Müəllim çalışmalıdır ki, şagirdlərin maraq və ehtiyaclarını nəzərə almaqla onları dərsdə fəallaşdıra bilsin.

8. Tərbiyəedici prinsip. Ümumiyyətlə, təhsil sistemi tərbiyə edir. Belə ki, təlimin bütün cəhətləri, təşkili forması, müəllim –şagird münasibəti ümumilikdə tərbiyəvi xarakter daşımalıdır ki, təhsilin bugünkü vəzifəsi uğurla həyata keçirilsin. İnteqrativlik prinsipi onu tələb edir ki, müəllim tədris edəcəyi mövzuya aid elə nümunələrdən, faktlardan istifadə etsin ki, bu şagirdlərin psixikasında və əxlaqında müsbət dəyişikliklərə və inkişafa yol açsın.

9. İnkişafetdirici prinsip. Tədris prosesində inteqrasiyadan istifadə şagirdlərin istər psixi, istərsə də fiziki inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Belə ki, bu prinsipdən istifadə edən müəllimlər şagirdlərin qaçmaq, tullanmaq, əzələ-

lərinin inkişafı ilə yanaşı, həm də idraki qabiliyyətlərinin-təfəkkür, qavrayış, hafizə, diqqət, təxəyyül və s. inkişafına məharətlə nail olurlar.

10. Təhsilverici prinsip. Məlumdur ki, elə təlim təhsil almaqdır. Çünki real həyatda təlim və təhsil bir-birinə çevrilir.

Hər bir müəllim çalışmalıdır ki, tədris prosesində şagirdlərin idraki qabiliyyətlərini və müstəqilliklərini inkişaf etdirsin, şagirdlərin özlərini öyrənməyə sövq etsin. Bu münasibətdə professor B.Əhmədovun aşağıdakı sözləri daha dəqiq və təsirlidir. "Bu gün müəllimin təsirinə məruz qalan gənc sabah düşmən qüvvələrinin də təsirinə məruz qala bilər. Şagird təsir altına düşməyi yox, təsirə ağıllı müqavimət göstərməyi öyrənməlidir, müstəqil formalaşmalı, hər şeyə yaradıcı, tənqidi münasibət göstərməyi bacarmalıdır". Hazırkı kurikulum da şagirdlərin "nəyi bilməli və nəyi bacarmalı" olduğunu müəyyənləşdirmək üçün əsas təlim nəticələrini məzmun və fəaliyyətlərinin qarşılıqlı əlaqəsi vasitəsilə təqdim edir. Hər bir fənnə aid olan məzmun standartlarının təyin edilməsi, həyata keçirilməsi, bu və ya digər dərəcədə fənnin tədrisində müəyyən əhəmiyyət daşıyan fənlərarası inteqrasiyanın məzmunundan asılı olur.

İnteqrasiyaya fənlərin xüsusilə ümumtəhsil məktəblərinin fənlərinin məzmunu və strategiyalarının hazırlanmasında istinad olunur. Dərsdə istifadə edilən digər prinsip, metod və priyomlar kimi inteqrasiyadan da şagirdlərin maraq və ehtiyacları nəzərə alınmaqla istifadə olunur.

"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədində tələbyönümlük, nəticəyönümlük, şagirdyönümlük prinsipləri ilə yanaşı, inteqrativ təlimin əhəmiyyəti də xüsusi olaraq qeyd olunmuşdur. Ümumtəhsil məktəblərində fənlərin tədrisi vasitəsilə şagirdlərin hərtərəfli inkişafına nail olunması, onların şəxsiyyət kimi formalaşdırılması cəmiyyətdə və təbiətdə baş verən informasiya prosesləri fonunda özlərini dərindən dərk etmələri ilə bilavasitə bağlıdır. Yetişməkdə olan gənc nəslin informasiya cəmiyyətinin formalaşdırılması şəraitində müstəqil həyata hazırlanması çox aktual

məsələdir. Məhz bu vacib vəzifənin reallaşdırılması istiqamətində hər bir fənn üzrə tədrisin məqsədi, məzmunu və təşkili formaları daha da konkret olaraq müəyyənləşdirilmişdir.

Şagirdlərin elmi dünyagörüşünün formalaşmasında fənlərarası əlaqələrin təmin olunması mühüm əhəmiyyət kəsb edir. Bizi əhatə edən ətraf aləmdə, bütün sahələrdə və proseslərdə inteqrasiya mövcuddur. Ən müasir peşələr bir sıra qabiliyyətlərin inteqrasiyasını tələb edir.

Fənn kurikulumunun səmərəli təşkili prosesində həm fəndaxili, həm də fənlərarası əlaqələrin düzgün müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Fəndaxili inteqrasiya fənn daxilində əlaqələrin yaradılması, təlim nəticələrinin əldə edilməsi üçün bilik, bacarıq və vərdişlərin sistemləşdirilməsidir. Fənlərin tədrisində geniş şəkildə istifadə olunan fəndaxili inteqrasiyanın qurulması üçün əlaqəli modeldən istifadə edilməsi məqsədəuyğundur. Bu zaman bir-biri ilə daha sıx əlaqədə olan bir-birlərini tamamlayan mövqelərin seçilməsi və əlaqələndirilməsi vacibdir. Fənlər üzrə ibtidai təhsil pillələri üzrə ümumi təlim nəticələrinin inteqrasiyasını əks etdirən əlaqəli model standartlar şəklində verilmiş bacarıqların daxili mahiyyətindən irəli gəlir və təlim prosesində biri digərinə əsaslanmaqla onu məntiqi baxımdan tamamlayır. Müasir dünya təcrübəsində, adətən, inteqrasiyanın 3 səviyyəsini fərqləndirirlər: **Fəndaxili inteqrasiya; fənlərarası inteqrasiya, fənllərüstü inteqrasiya.**

**Fəndaxili inteqrasiya**–müəyyən bir fənnin aşıladığı anlayış, bilik və bacarıqların əlaqələndirilməsi, fənn daxilində səpələnmiş faktların sistemləşdirilməsidir. Belə səviyyədə inteqrasiyanı verilmiş materialın ayrı-ayrı tədris vahidlərində cəmləşdirilməsi də hesab etmək olar. Bu isə son nəticədə fənnin məzmununun strukturunun dəyişdirilməsinə gətirib çıxarır. Bu mənada, inteqrasiya olunmuş məzmun informativ cəhətdən daha tutumlu olur, şagirdlərin daha əhatəli kateqoriyalarla düşünmə bacarıqları formalaşdırmalarına kömək edir. İbtidai təhsil pilləsi fənlərinin tədrisində geniş şəkildə istifadə olunan fəndaxili inteqrasiya üçün konsentrik prinsipə əsaslanan spiralvari quruluş

daha xarakterikdir. Bu cür inteqrasiya prosesində dəyərlərin dərk olunması xüsusidən ümumiyə və yaxud ümumidən xüsusiyə doğru ola bilər. Beləliklə, məzmun get-gedə yeni məlumatlarla, bağlılıqlarla və asılılıqlarla zənginləşərək daha maraqlı hala gəlir. Bu formanın üstün xüsusiyyəti ondan ibarətdir ki, şagirdlər başlanğıc problemi diqqətdən qaçırmadan onunla bağlı olan bilgilərini daha da genişləndirir və dərinləşdirirlər.

**Fənlərarası inteqrasiya** – iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, prinsip və sairin sintezidir. Bu inteqrasiya bir fənnə aid olan qanun, nəzəriyyə və metodların başqa bir fənnin öyrədilməsində istifadəsini nəzərdə tutur.

Məzmunun bu modelə uyğun sistemləşdirilməsi şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazının yaradılması ilə yanaşı, həm də ümumelmi anlayışlar, kateqoriyalar və yanaşmalarla xarakterizə olunan yeni tip biliklərin formalaşdırılmasına təkan verir. Bununla yanaşı, müxtəlif fənlərə aid oxşar və bir-birini tamamlayan mövzular elə planlaşdırılır və tədris olunur ki, onlar üçün müəyyən bir çərçivə yaranır, yəni eyni vaxtda tədris olunur. "Həyat bilgisi" fənninin əsas təhsil pilləsində tədrisi zamanı müxtəlif fənn müəllimləri arasında birbaşa əməkdaşlıq və məsləhətləşmələr tələb olunduğu halda, ibtidai təhsil pilləsində bütün fənlərin, adətən, eyni müəllim tərəfindən tədrisi inteqrasiyanın bu səviyyəsinin təmin edilməsində başlıca amilə çevrilir. Bu amil ibtidai sinif müəlliminə təlim prosesində fənlər və mövzular arasındakı əlaqələri asanlıqla izləməyə, ümumi xətlər tapmağa imkan verir. O, ayrı-ayrı fənlərə aid ümumi təlim məsələlərini birlikdə nəzərdən keçirir, fənlərarası anlayış və bacarıqların formalaşdırılmasında bu əlaqələrdən yaradıcılıqla bəhrələnir.

**Fənlərüstü (transfənn) inteqrasiya**–bu, inteqrasiyanın ən yüksək səviyyəsi olmaqla, özündə təlimin əhatə etdiyi əsas və əlavə məzmun komponentlərinin sintezini ehtiva edir. Yəni bu inteqrasiya ilə şagirdlərin məktəbdə öyrəndikləri məzmunla (biliklə) məktəbdən kənarda aldıqları məzmun(bilik) sintez edilir. Günümüzdə təhsil paradiqmalarının dəyişməsi, məktəb-kom-

plekslərin artması inteqrasiyanı aktuallaşdırır. Belə məktəblərdə dərs gününün məzmunu şagird üçün vahid fəaliyyət sahəsi kimi qurulur. Yəni həmin gün çərçivəsində uşaqların məşğul olduqları müxtəlif fəaliyyətlər vahid bir iş kimi görünür. İnteqrasiyanın iki modeli daha çox istifadə edilir:1.Fəndaxili. 2.Fənlərarası. Fəndaxili əlaqə özü də iki formaya malik olur: 1) üfüqi; 2) şaquli.

Fəndaxili inteqrasiya hər hansı fənnin daxili imkanları hesabına yaradılır, yəni uyğun məzmun və fəaliyyətlər əlaqələndirilir.

Üfüqi inteqrasiya fənnin məzmun xətləri arasındakı əlaqələndirilmədir. Bunu mövzulararası inteqrasiya da adlandırmaq olar. Hər hansı bilik, bacarıq və vərdişlərin müxtəlif mövzular daxilində formalaşdırılması, təməlləşdirilməsi şaquli inteqrasiyadır. Bu siniflərarası inteqrasiya da adlanır. Yəni anlayışların, bacarıqların siniflər üzrə genişlənərək inkişaf etdirilməsini təmin edir. Fənlərarası inteqrasiya isə eyni anlayış və bacarığın müxtəlif fənlər daxilində daha da təkmilləşdirilməsini, ümumiləşdirilməsini təmin edir. İnteqrasiya anlayışı həm çox geniş, həm də dar mənada işlənir. Bizim təhsil sistemimizin Avropa təhsil sistemi ilə inteqrasiyası, asılı olmayan ölkələrin təhsil sistemləri ilə inteqrasiyası, müxtəlif ölkələrin dövlət təhsil sistemləri arasında inteqrasiyası haqqında ideyalarla rastlaşırıq.

Bu mənada inteqrasiya heç də tam birləşməyə, vahidliyə, eyniliyə aparmır. Dar mənada inteqrasiya dedikdə, tədris prosesində fənlərarası əlaqənin ən yüksək, yeni keyfiyyət qazanmış formasını nəzərdə tutulur. Bu baxımdan inteqrasiyanın ən real tələbi tədris planında qohum fənlərin daha da yaxınlaşdırılaraq şagirdlərə təbii əlaqələr şəraitində ümumiləşdirilmiş biliklərin verilməsidir.

İnteqrasiyanın məzmunundan danışarkən şagirdlərin maraq və ehtiyacları, cəmiyyətin tələbləri və sairə nəzərə alınmalıdır. Fənlərarası əlaqənin məzmununa əsasən aşağıdakılar daxildir. Onları əvvəlcə qruplara bölək, sonra isə hər birinə aid bəndləri qeyd edək. Hər bir sinif, fənn üzrə inteqrasiyanın məzmununda

müəyyən dəyişikliklər olur. Çünki inteqrasiya dərsə verilən müasir tələblərdən biri olsa da, fənlərarası inteqrasiya yaradarkən müəllim bilməlidir ki, yaxınlıq dərəcəsinə görə fənlər üç qrupa ayrılır.

- Daha yaxın və ya qohum fənlər
- Nisbətən yaxın fənlər
- Uzaq fənlər

Birinci qrupa daxil olan fənlər arasında təbii əlaqələr yaratmaq üçün imkanlar daha genişdir. Bu zaman inteqrasiyanın məzmunu daha rəngarəng və əhatəli olur. Yəni bu zaman :

1. Hər iki fənnə aid bir bacarıq müəyyən bir dərsdə formalaşdırılır (hər iki fənnə aid məlumatlardan istifadə etməklə), təkrara yol verilmir.

2. İnteqrasiya nəticəsində bir fənnə aid müəyyən bir dərsdə keçilən mövzu digər bir fənnə aid dərsdə daha da təkmilləşdirilir, dərinləşdirilir.

3. Qohum fənlərə aid məlumat və faktların müqayisəli öyrənilməsinə də müraciət olunur.

İkinci qrupa aid fənlərin inteqrasiyasından istifadə edərkən müəllim mövzuyla bağlı hər hansı genişləndirmələr apara bilər. Bu zaman:

1. Şagirdlər tədris edilən fəndən əlavə digər fənlərə aid məlumat və faktlar da əldə edir.

2. Şagirdlərin əvvəlki bilik və bacarıqları möhkəmlənir.

Uzaq fənlərin inteqrasiyası isə inteqrasiyanın aşağıdakı ümumi məzmuna malik olmasını göstərir:

1. Şagirdlər bəzi terminlərin mənasını tam anlayır.
2. Onların hazırda əldə etdikləri bilik və bacarıqların digər elm sahələrində də işə yaradığının şahidi olurlar.

Birinci sinifdə fənlərarası inteqrasiyanın məzmununa bəzi əlavələr edilir ki, bu da onların inkişafını stimullaşdırır. Ümumi nəticələr:

1. Şagirdlər öyrəndikləri yeni sözlər əsasında digər fənlər haqqında müəyyən ilkin və sadə biliklərə yiyələnirlər.

2. Müşahidə etdikləri hadisələr, əşyalar haqqında danışmaqla digər fənlərə aid sadə məlumatları ana dili fənninə daxil edirlər.

3. Şəkillər üzrə danışarkən digər fənlərə aid məlumatlara doğru istiqamətlənirlər.

4. Öyrəndikləri yeni sözlərin mənasını anlamağa çalışarkən müxtəlif fənlər haqqında məlumatlar əldə edirlər (məsələn, xarici dil, informatika ).

5. Yaxınmənalı və əksmənalı, alınma sözləri fəqləndirərkən digər fənlərə aid sadə termin və adlara müraciət etməli olurlar.

6. Müxtəlif bədii mətnləri oxuyarkən bədii ədəbiyyatla inteqrasiyaya müraciət edirlər.

7. Hərflərin element və konfiqurasiyasını öyrənərkən daha çox riyaziyyatın inteqrasiyasına müraciət edirlər.

8. Maraqlarına uyğun mətn və şeir nümunələri öyrənərkən müxtəlif fənlərin inteqrasiyası dərsin şagirdlər tərəfindən daha uzun müddət yadda saxlanılmasına səbəb olur.

9. Əməli yazılardan istifadə zamanı təsviri incəsənət, informatika fənlərinin inteqrasiyasına müraciət edirlər.

10. Ad, əlamət və hərəkət bildirən sözləri fərqləndirərkən təbiətdə, ətraf aləmdə gördüklərinə əsaslanmaqla şagirdlər daha çox həyat bilgisi fənninə müraciət edirlər.

Qeyd etdiklərimizdən belə qənaətə gəlirik ki, inteqrasiya ibtidai siniflərdə şagirdlərin təlim fəaliyyətinin yüksəldilməsində mühüm rol oynayır. Onu da deməliyik ki, digər təlim formaları kimi, inteqrasiyanın da görünən və bir də görünməyən, lakin böyük rol oynayan tərəfləri vardır. Bu tərəfləri məzmunda qeyd edə bilməsək də, onu söyləyə bilərik ki, inteqrasiya şagirdlərə yalnız biliklər və fənlər arasında olan əlaqələri aşkarlamağa imkan vermir, həm də onları gələcək həyata hazırlayır, onlarda bir sıra qiymətli xarakter xüsusiyyətlərinin meydana gəlməsinə səbəb olur. Məsələn, Yeni kurikulumlar əsasında yaradılan I sinif "Ana dili" dərsliyində hər hansı bir mövzunu götürək. Məsələn, Zahid Xəlilin "Mən rəngləri tanıyıram" şerini götürək:

Mən rəngləri tanıyıram deyir –Elman.
Səma-mavi, yumurta- ağ
Sapsarıdır günəbaxan,
Qırmızıdır-gülöyşə nar.
Yarpaq-yaşıl
Kömür-qara,
Dəniz-göydür.
Qızılıdır boranılar.

Bu şeirin tədrisi zamanı müəllim həm ana dili və təsviri incəsənət fənlərini, həm də Azərbaycan dili və fiziki tərbiyənin inteqrasiyasından istifadə edə bilər. Fikrimizi əsaslandırmazdan əvvəl qeyd edək ki, Ana dili fəninin tədrisi prosesində fənlərarası inteqrasiyadan istifadə imkanları çox güclüdür. Belə ki, yaradılan incəsənət nümunələri, tutaq ki, rəssamlıqda əgər rənglərin, tonların, çalarların dili ilə danışırsa, əgər musiqidə yaranmış əsərlər səslərin, notların, akkordların və sairənin dili ilə danışırsa, Azərbaycan dilində də yaradılmış əsərlər üçün də vasitə səslər, sözlər, söz birləşmələri və cümlələrdir. Bu şeir nümunəsini şagirdlərə tədris etməzdən əvvəl müəllim şagirdlərin rənglər haqqında olan marağı, onların rəng çalarları, rəsm əsərləri haqqında olan məlumat səviyyəsi ilə tanış olmalı, bu barədə onlarla söhbət aparmalı, rənglərin dilindən, yaratdığı möcüzəli nümunələrdən onlara söhbət açmalı, hətta bu haqda hər hansı rəsm əsəri nümayiş etdirməlidir. Sonra şagirdlərə evdə müstəqil işləmək üçün mövzuyla əlaqədar rəsm əsərləri də tapşırmaq olar. Təbii ki, bütün bunlar dərsə marağı daha da artırar, həm də dərsin daha yaxşı qavranılmasına, uzun müddət yadda qalmasına şərait yaradar.

Dərs prosesində inteqrasiyanı həm də elə təşkil etmək lazımdır ki, şagirdlər düşünməyə, tədqiqatçılıq aparmağa özləri də bilmədən sövq olunsunlar. Məsələn, elə I sinif həcmində olan bir tədqiqat sualı qarşıya qoymaq olar. Şeirdə məlumdur ki, əşyalar rənglərinə görə verilir. Şagirdlərə təbiətdə gördükləri daha hansı əşyaların rənglərinə görə fərqləndiyini tapmağı tapşırmaq olar və ya şeirdə təbiətdə olan əşya və hadisələrin rəngi verilib,

müəllim isə şeirdəki həmin rənglərin insan əlinin məhsulu olan hansı əşya və obyektlərdə əks olunduğunu tapmağı tapşıra bilər.

Əgər təlim vaxtı kifayət edərsə, eyni bir dərsdə bir neçə fənnin inteqrasiyasına müraciət etmək olar. Məsələn, elə əvvəldə qeyd etdiyimiz mövzunun tədrisində ana dili ilə fiziki tərbiyə fənlərinin inteqrasiyasını yarada bilərik. Elə həmin şeirin oxusundan və izahından sonra "Kim daha cəlddir?" adlı təfəkkür çevikliyini formalaşdıran, həm də dərsdə hərəkətsiz oturan şagirdlərin əzələlərinin hərəkət və inkişafına kömək edəcək bir oyun təşkil etmək olar. Bu zaman həm dərs maraqlı alınar, həm də dərsdə inteqrasiyanın və fəal təlim metodlarının əlaqəli şəkildə istifadəsi ilə dərsin səmərəliliyi artar.Bu faktor isə yenicə təlim fəaliyyətinə başlayan uşaq üçün vacibdir. İnteqrasiya ilk növbədə müəllim tərəfindən yaradılır. Müəllim də çalışmalıdır ki, dünyanın bütöv və bölünməz obrazını şagirdlərə hərtətəfli əlaqələr şəraitində, təbii vəhdətdə dərk etdirə bilsin.

## Ədəbiyyat


1. Axundova S. Fənlərarası əlaqənin yaradılması yolları// Məktəbəqədər və ibtidai təhsil, 2009 (2)

2. Balıyev H.B. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodkası. Bakı, 2007

3. Əlizadə Ə. İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər.Bakı, 20

4. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı, 2005

5.Kazımova A.Dərslik və müəllim//Kurikulum,Bakı,2010 (3)

6. Qaragözova N. Ekskursiya təlim metodu kimi //Kurikulum, 2009 (4)

7.Qurbanov V.T. Azərbaycan dili təlimində fəndaxili ələqələr. Bakı: Müəllim, 2008

8.Rəcəbova A.O. İbtidai siniflərdə riyaziyyatın incəsənət, ana dili və ədəbiyyat nümunələri ilə qarşılıqlı əlaqəsinin imkanları. Bakı, 2008

9. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)// Kurikulum, 2010, № 3, s.117-130

# IV FƏSİL

# FƏAL TƏLİMİN NƏZƏRİ MƏSƏLƏLƏRİ

## Fəal/interaktiv təlimin əsas xüsusiyyətləri

Dünyada gedən qloballaşma və Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası təhsil sahəsində köklü dəyişikliklərin olmasını zərurətə çevirmişdir. Təhsil sahəsində baş verən innovativ dəyişmələr durmadan genişlənir. Bu prosesdə yeni təlim texnologiyalarından-fəal/interaktiv metodlarından istifadə olunması ön plana keçmişdir. Fəal təlim şagirdlərdə dərketmə fəallığına, müstəqilliyə, yaradıcılığa və digər kompetensiyaların formalaşmasına əsaslı zəmin yaradır. Qeyd edək ki, ibtidai təhsilin məqsədi şagirdlərə ilkin oxu və yazı texnikası bacarıqları aşılamaq, ilkin biliklərin verilməsini təmin etmək, nitqini inkişaf etdirmək, onları məntiqi və yaradıcı təfəkkür elementləri ilə silahlandırmaq, müstəqil düşünməyə, nəticə əldə etməyə, fikirlərini aydın ifadə etməyə hazırlamaqdır.

Bunun üçün isə təlim prosesində düşündürücü mühit yaradılmalı, fəal və interaktiv təlim metodlarından səmərəli şəkildə istifadə olunmalıdır. Bəs fəal təlim hansı **prinsiplərə** əsaslanmışdır? Z.Veysova **prinsipləri** belə qruplaşdırmışdır:

- **Şəxsiyyətə yönəlmiş təlim prinsipi**
- **Fəal idrak prinsipi**
- **İnkişafetdirici təlim prinsipi**
- **“Qabaqlayıcı təlim” prinsip**
- **Təlim - tərbiyənin çevikliyi prinsipi**
- **Əməkdaşlıq prinsipi**
- **Dioloji təlim prinsipi**[1]

[1]Bax.: Z.Veysova fəal (interaktiv) təlim: Müəllimlər üçün vəsait. Bakı, 2007, s. 9 -10

Prof. V.Xəlilov isə "fəal təlim metodlarına şəraitin, mühitin yaradılması", "fəallığın və şüurlu mənimsəmənin təmin edilməsi", "problem xarakterli suallara cavab vermək əzminin inkişaf etdirilməsi", "şagirdlərin mühakimə yürütmək, təhliletmə və ümumləşdirmə aparmaq bacarığının formalaşdırılması", "şagirdlərin tədqiqatçılıq və yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsi", "bilikləri müstəqil tətbiqetmə bacarıqlarının formalaşdırılması", "milli və bəşəri dəyərlərin başa düşülməsi və qiymətləndirilməsi" kimi prinsiplərə əməl edilməsinin təlimin səmərəliliyinin təmin olmasında əsas rol oynadığını göstərmişdir.[1]

Fikrimizcə V.Xəlilovun prinsip kimi təqdim etdiyi idraki məsələlər fəal təlimin səciyyəvi xüsusiyyətləri, cəhətləridir.

N.M.Hacıyeva və b. yazdığı "Həyati bacarıqlara əsaslanan təhsil" kitabında fəal təlimin prinsipləri şagirdə yönəlmə, inkişafetdirici, qabaqlayıcı, əməkdaşlıq, qrup təlimi kimi beş yerə bölünmüşdür.[2]

Digər tədqiqatçıların əsərlərində də fəal təlimin prinsipləri bunlara oxşar şəkildə müəyyənləşdirilmişdir. Bu sahədə ilk nəzəri araşdırmalar aparmış, tədqiqatla məşğul olmuş A.Cahangirov və F.Qədirovun əməyini xüsusi qeyd etmək lazımdır. Məhz onların tədqiqatının nəticəsində sinif müəllimləri ilk dəfə, əqli hücum, rollu oyunlar, söz assosisayaları, debatlar, diskussiya, Venn diaqrammı və s. kimi fəal təlim metodları ilə nəzəri cəhətdən tanış olmuşlar.

**Fəal və interaktiv təlim** anlayışlarının bir çox cəhətləri bir-birilə çox yaxın və ümumidir. Belə ki, hər iki metodla keçilən dərs şagirdləri fəallışdırmağa yönəldilmiş, hər ikisində şagirdlərə hazır biliklər verilmir, onlar axtarıcılığa, tədqiqatçılağa sövq edilir, hər ikisində müəllim şagird münasibətləri, ünsiyyət və dialoqlar hökm sürür. Müəllim istiqamət verir və öyrədir.

---

[1]Bax.: Təhsilin aktual problemləri. Bakı: Mütərcim, 2007, s.13

[2] Bax.: H.Hacıyeva və b. Həyati bacarıqlara əsaslanan təhsil. Bakı: Mütərcim, 2006, s. 9-10

Şagird öyrənir və ondan öyrənilir. İnteraktiv təlim zamanı isə müəllimin başlıca vəzifəsi şagirdlərə yardımçı olmaqdan, təlim prosesində şagirdlərin fəaliyyətini əlaqələndirib, onlarda yaradıcı axtarışa həvəs yaratmaqdan, axtarıb araşdırmağı, nəyi harada öyrənməyi öyrətməkdən ibarətdir. İnteraktiv təlim metodları özü də fəal təlim prosesinə daxil olan metodlardandır. Burada biliyin əsasən qrup və cütlərlə iş formalarından müntəzəm şəkildə istifadə etməklə axtarılıb tapılması ön plana çəkilir. Bu cür təlim texnologiyası ilə təşkil olunan dərslərdə əvvəlcə, problemə istiqamət verəcək motivasiya yaradılır. Motivasiya problem yaradacaq məsələnin qoyulmasıdır. Motivasiyanın nəticəsi tədqiqat sualı olur. Həmin tədqiqat sualı problemin həlli yollarına dair ilkin fərziyyələrin irəli sürülməsinə şərait yaradır. Sonra həmin problemin araşdırılması üçün qruplarda işlər təşkil olunur. Hər qrup irəli sürülmüş fərziyyələrin doğruluğunu isbat etmək üçün mətn üzərində, bilik mənbələrinə nəzər salmaqla tədqiqat işlərinə cəlb olunurlar. Alınan nəticələr işçi vərəqlərində qeyd olunur. İşçi vərəqlərində işlər tamamlandıqdan sonra təqdimat mərhələsi gəlir. Hər qrup öz tədqiqatlarının yekunları ilə auditoriyanı tanış edir. Sonra təqdim olunan bütün işlər arasında rabitə, əlaqələr yaradılır. Məlumatlar sistemə salınaraq ümumiləşdirilir. Həmin ümumiləşdirmələr ilkin fərziyyələrlə müqayisə olunur və nəticələr çıxarılır. Bundan sonra biliyn tətbiqi mərhələsi gəlir. İşin gedişindən aydın olduğu kimi, fəal-interaktiv təlimdə şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafı qayğısına qalınır, təlim prosesinə tədqiqat xarakteri verilir. Təlim prosesində işgüzar iş mühiti, əməkdaşlıq şəraiti yaradıldığından iştirakçıların yüksək fəallığı təmin olunur. Şagirdlərin fəallığı dərsin hər bir mərhələsində qiymətləndirilə bilir.

Məhz müəllimin təlim prosesində hər bir şagirdi müstəqil bilik əldə etməyə yönəldən təkmilləşmiş metod və priyomlardan, fəal/interaktiv təlim üsullarından istifadə etməsi mühüm bir vəzifə kimi qarşıda durur. Şagirdlər yaradıcı fikirləşməyə, hadisələri tənqidi təfəkkür süzgəcindən keçir-

məyə, müstəqil təhliletmə və nəticəyəgəlmə bacarıqları əldə etməyə, həyata, praktik fəaliyyətə hazırlanmalıdılar. Təlim prosesində şagirdlərin yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi, onlarda həyati bacarıqların formalaşdırılması başlıca problemdir ki, bu da onların müstəqil idrak fəaliyyəti ilə qarşılıqlı vəhdət təşkil edir.Təcrübə göstərir ki, şagirdlərin təfəkkür müstəqilliyi mühüm didaktik əhəmiyyət kəsb etməklə yanaşı, həm də zəruri tərbiyəvi əhəmiyyət kəsb edir. Belə ki, şagird müstəqil bilik qazanmaqla (məntiqi, tənqidi və yaradıcı təfəkkür prosesində), həm də fəal həyat mövqeyinə malik olur, onda təşəbbüskarlıq, öz gücünə inam, çətinliklərdən qorxmamaq kimi müsbət iradi keyfiyyətlər formalaşır.

## Fəal təlimin mexanizmləri

- **Problemli vəziyyətin yaradılması**
- **Dialoqun və əməkdaşlığın zəruriliyi**
- **Şagird – tədqiqatçı, müəllim - fasilitator kimi**
- **Psixoloji dəstək, hörmət və etibar**

**Mexanizm – 1. Problemli vəziyyətin yaradılması** – Şagirdin qarşısında problem qoyulur və onların problemi həll etməyə yönəldilməsi nəticəsində idrak fəallığı yaranır.

**Mexanizm – 2. Dialoqun və əməkdaşlığın zərurirliyi** – Fəal təlim dialoji şəkildə, əməkdaşlıq şəraitində keçirilir.

**Mexanizm – 3. Şagird – tədqiqatçı, müəllim - fasilitator** - Fəal təlim zamanı şagird obyekt mövqeyini tutmamalıdır. Şagird tədqiqatçı, müəllim isə bələdçi rolunu həyata keçirməlidir. Şagirdlər bilikləri müstəqil şəkildə, tədqiqat zamanı əldə etməlidirlər.

**Mexanizm – 4. Psixoloji dəstək, hörmət və etibar** –Şagirdlərin idrak fəallıqlarını saxlamağın mühüm vasitəsi onların psixoloji dəstəklənməsidir. Müəllimin xeyirxah münasibəti, şagirdlərə hörmət və etibarı, onların bacarığına inamıdır.

## Fəal dərsin quruluşu. Fəal dərsin ənənəvi dərslə oxşar və fərqli cəhətləri

Fəal (interaktiv) və ənənəvi təlimin elə xüsusiyyətlər vardır ki, onlar yalnız fəal (interaktiv) təlimə məxsusdur. Fəal (interaktiv) təlimin üstünlükləri:

- ✓ müstəqil düşünmək və sərbəst nəticə çıxarmaq imkanı;
- ✓ şagirdlərin fəallığı;
- ✓ az vaxt ərzində daha çox məlumat mənimsəmək imkanı;
- ✓ tədqiqat vərdişlərinin formalaşması və inkişafı;
- ✓ əməkdaşlığın və qarşılıqlı hörmətin formalaşması.

Fəal interaktiv dərsin dəqiq strukturu var və qarşıya qoyulan məsələləri həll etməyə imkan verir, uşaqlar biliklərə yiyələnir, tədris proqramı yerinə yetirilir. İnteraktiv təlimin əsas üstünlüyü - real idrak motivasiyasının (biliklərə yiyələnmək həvəsinin) yaranmasıdır. Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Real ziddiyyətlərdən yaranan emosiyalar əqli ehtiyatların səfərbərliyini təmin edir, idrak fəaliyyətini şövqləndirir, diqqəti uzun müddət cəmləməyə imkan yaradır. Bilgilər hazır şəkildə deyil, onların müstəqil surətdə "kəşf"i prosesində mənimsənilir, yəni mənimsəmə prosesi passiv deyil, fəal xarakter daşıyır. Əgər şagird öz istəyinə və öz fəaliyyətinə əsasən yeni bilikləri "kəşf" edirsə, onda o, dərsə yaradıcı və maraqla yanaşır, əldə etdiyi bilikləri uzun müddətli və möhkəm mənimsəyir.

Bəs fəal dərsin quruluşu necədir? Bu sualı cavablandırmaq üçün cədvələ nəzər salmaq lazımdır.

Cədvəl1

| Fəal dərsin mərhələləri | Nəticə |
|---|---|
| **1.Motivasiya** (problemin qoyulması, fərziyyələrin irəli sürülməsi) | **Tədqiqat sualı və fərziyyələr** |
| **2.Tədqiqatın aparılması** (fərziyyələri yoxlamaq üçün | **Tədqiqat işləri, yeni faktlar** |

| | |
|---|---|
| faktların axtarılması) | |
| **3.Məlumat mübadiləsi** (əldə edilmiş məlumatların və öz tədqiqatlarının təqdimatı) | **Müzakirə üçün yeni məlumat** |
| **4.Məlumatın müzakirəsi və təşkili** (əldə edilmiş məlumatların müzakirəsi, müxtəlif faktların \ əlaqələndirilməsi, onların sistemləşdirilməsi) | **Sistemləşdirilmiş məlumat** |
| **5.Ümumiləşdirmə və nəticələrin çıxarılması** (ümumiləşdirmələr, nəticələrin fərziyyələrlə müqayisəsi və onların təsdiq və ya təkzib edilməsi haqqında nəticə, tədqiqat sualına cavab) | **Əldə edilmiş bilik (ümumiləşdirmə)** |
| **6.Produktiv (yaradıcı) tətbiqetmə** (yeni şəraitdə tətbiqetmə, praktik məsələlərin həlli) | **Biliyi tətbiq etmə yolları və təcrübəsi** |
| **7.Qiymətləndirmə və ya Refleksiya** (şəxsi fəaliyyətin inikası və qiymətləndirilməsi, istənilən mərhələdə aparıla bilər) | **Özünüqiymətləndirmə vərdişi, öyrənməyin qaydalarının mənimsənilməsi, müstəqil öyrənmək vərdişi** |

Fəal və ənənəvi dərsin hansı oxşar və fərqli cəhətləri var? Fəal/interaktiv metodlarla qurulan dərs ənənəvi dərsdən onunla fərqlənir ki, burada uşaqlar özləri biliyi əldə edir, müstəil çalışaraq, axtararaq bilik qazanır. Şagirdlər təlim prosesinə fəal cəlb olunurlar. Müəllim isə daha çox istiqamət, məsləhət verir, o bələdçi rolunu oynayır. Sinifdəki iqlim uşaqların sərbəstləşmə-sinə, müstəqilliyinə, fəallığına səbəb olur, uşaqlar öz fikirlərini

sərbəst söyləyə bilirlər. Fəal (interaktiv) və ənənəvi təlimin arasında həm oxşar, həm də fərqli cəhətlər vardır. Bu cəhətlər aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 2

| ***Ənənəvi təlim*** | ***Fəal (interaktiv) təlim*** |
|---|---|
| Hafizəyə (yaddaşa) əsaslanır | Təfəkkürə əsaslanır |
| Monoloji təlim | Dialoji təlim |
| Tədrisdə avtoritar üslub | Tədrisdə demokratik üslub |
| Müəllim – əsas bilik mənbəyi kimi | Bilik mənbələri müxtəlifdir |
| Şagirdlər passivdir | Şagirdlər fəaldır |
| Şagirdlər yeni bilikləri müəllimin məlumatları və izahlarını qavrama və yadda saxlama əsasında mənimsəyirlər | Şagirdlər yeni bilikləri tədqiqat zamanı dərk edirlər |
| Hazır halda əldə edilən biliklərin möhkəmləndirilməsi yolu ilə mənimsəmə | Məsələnin həlli prosesində biliklərin müstəqil əldə edilməsi, mənimsənilməsi |

Cədvəldə qeyd olunduğu kimi, fəal (interaktiv) və ənənəvi təlimin arasında həm oxşar, həm də fərqli cəhətlər vardır.

-Fəal dərsin quruluşu tədqiqat prosesinin mərhələlərini xatırladır (təlim prosesinin mərkəzi- tədqiqatdır), ənənvi dərs illüstrativ-izahedici xarakter daşıyır(təlim prosesinin mərkəzi-mühazirədir).

-Ənənvi dərsdə yeni məlumatlar dərsin əvvəlində müəllim tərəfindən şagirdə çatdırıldığı halda, fəal dərsdə bu məlumatlar dərsin axırında şagirdin özü vasitəsilə (tədqiqat nəticəsində) əldə edilir.

-Hər iki dərsdə tətbiqetmə mərhələsi axırda olur, lakin fəal dərsdə bu daha yaradıcı xarakter daşıyır.

-Fəal dərsin fərqli mərhələlərindən biri-refleksiya mərhələsidir. Refleksiyanın nəticəsində şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini dərk etmiş olur.

Refleksiya isə artıq başa çatmış prosesin şüurda inikasıdır. Təlim prosesinin refleksiyası biliklərin mənimsənilməsinin bütün mərhələlərini təhlil etməyə və dərindən başa düşməyə imkan verən başlıca mexanizmlərdən biridir.

Eyni zamanda, elə xüsusiyyətlər vardır ki, onlar yalnız fəal (interaktiv) təlimə məxsusdur. Onlar aşağıdakılardır:

- ❖ təlimin subyekt - subyekt xarakteri daşıması;
- ❖ iştirakçıların bütün dərs zamanı fəallığı;
- ❖ dərsin əvvəlində problem situasiyanın yaradılması və onun gedişinin problemin həllinə yönəldilməsi;
- ❖ dərsin tədqiqat şəklində keçirilməsi, təlimin tədqiqat üsulu vasitəsi ilə keçirilməsi;
- ❖ şagirdlərin düşündürücü və istiqamətləndirici suallar vasitəsi ilə yeni biliklərin müstəqil kəşf edilməsinə yönəldilməsi;
- ❖ dərsin dialoq şəklində aparılması;
- ❖ müəllim və şagirdlər arasında qarşılıqlı əməkdaşlığın, əks əlaqənin yaradılması;
- ❖ qrup işindən geniş istifadə olunması, şagirdlərin birgə fəaliyyəti;
- ❖ təlim vasitələrinin və tapşırıqların müxtəlifliyi və yeniliyi;
- ❖ iş vərəqlərinin istifadəsi;
- ❖ biliklərin yaradıcı tətbiqi və s.

Fəal təlim metodu elə təlim metodudur ki, dərs prosesində müəllimlə şagird arasında qarşılıqlı əlaqə, münasibət, ünsiyyət, müəllim-şagird əməkdaşlığı şəraitində qurulur. Fəal təlimdə qarşılıqlı dialoq, əməkdaşlıq hökm sürür.

## Fəal dərsdə interaktiv iş formalarından istifadə

**Fəal təlim zamanı** – fərdi iş, cütlərlə iş, kiçik qrupla iş və böyük qrupla-kollektivlə iş formalarından istifadə olunur.

**Təlim formaları:**

**Kollektivlə iş.** Kollektivdə işləmək, kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur, şagirdlərdə ünsiyyət-yaratma bacarığının təşəkkülü və inkişafı təmin edilir.

**Cütlərlə iş.** Şagirdlər təlim tapşırıqlarını birgə yerinə yetirirlər. Bu dərs forması şagirdlərə daha yaxından əməkdaşlıq etməyə və ünsiyyət qurmağa, məsuliyyəti bölüşməyə optimal imkan yaradır.

**Fərdi iş.** Şagirdin fəaliyyətini izləmək, potensial imkanlarını müəyyənləşdirmək və inkişaf etdirmək məqsədi daşıyır. Bu təlim forması şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaradır.

**Qruplarla iş.** Fəal təlimin tərkibinə daxildir. Qrup təlimi iş formasıdır.

**Qrup işi** – Bir neçə şagirdin hər hansı bir problemin həllinə yönəldilmiş birgə fəaliyyəti prosesidir. Şagirdlər müəyyən problemi həll etmək üçün qrupda birləşirlər. Bu prosesdə onların müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və birgə fəaliyyət bacarıqları inkişaf edir.

Müxtəlif bölünmə texnikalarından istifadə etməklə (şəkillərlə, həndəsi fiqurlar, rəngli kağızlar, şəhər adları, ilin fəsilləri, ad günləri, güllər və s.) kiçik qrupa bölünmə (hər qrupda 3–6 nəfər olmaqla) aparılır. Qrup işi zamanı şagirdlər birgə fəaliyyət göstərir, müxtəlif problemi birgə həll edirlər. Hər bir şagird öz fikrini sərbəst söyləyir, başqalarını maraqla dinləyir, yeri gəldikdə suallar verir və təkliflər irəli sürür.

## Qrupun qiymətləndirilməsi

Qrupun qiymətləndirilməsi 3 cür aparıla bilər: qrafik, meyar cədvəli və qrupdaxili qiymətləndirmə və ya özünüqiymətləndirmə.

**1.Qrafik** – lövhədə qrafik çəkilir. Şkalalar, qiymətlər və qrupların nömrələri əks etdirilir. Qrupun nailiyyətlərindən asılı olaraq qrafikdəki xətt qalxa, ya da enə bilər.

**2.Meyar cədvəli**–cədvəlin sətirlərində qrupların nömrələri və sütünlarında qiymətləndirmə meyarları qeyd edilir. Qiymətləndirmə zamanı müəllim hər qrupun qarşısında meyara müvafiq olaraq "+" və ya "-" işarələri ilə qrupun nailiyyətlərini qeyd edir.

**3.Qrupdaxili qiymətləndirmə və ya özünüqiymətləndirmə** – Qrupun hər bir nümayəndəsinə qrup iştirakçılarının adları və qiymətləndirmə meyarları qeyd edilmiş cədvəl paylanılır. Hər nümayəndə həm özünü həm də yoldaşlarını meyarlar əsasında ("+" və ya "-" işarələri ilə və ya rəqəmlərlə: - simvollarla, xoş sözlərlə, smayliklər və s. üsullarla) qiymətləndirir. Bu müəllim və şagirdlərin özləri tərəfindən, yaxud qruplar tərəfindən aparılır.

## Fəal dərsin planlaşdırılması

1. Dərsin gözlənilən nəticələrini müəyyən etmək.
2. Dərsin sonunda şagirdlərin hansı nəticələrə (ümumiləşdirmələrə) gələcəklərini müəyyənləşdirmək.
3. Dərsin motivasiyasını hazılamaq (problemli situasiyanın yaradılması, motivasiya növünün seçilməsi, tədqiqat sualının düzgün qoyulması).
4. Tədqiqat zamanı yeni biliyin əldə edilməsi üçün mənbələri müəyyənləşdirmək.
5. Müəyyən edilmiş gözlənilən nəticələrə gətirə biləcək tədqiqat tapşırıqlarını hazırlamaq.

6. Tədqiqat metodlarını müəyyənləşdirmək.

7. Lazımı materialları və iş vərəqlərini hazırlamaq, tədqiqatın təqdimat formasını müəyyənləşdirmək.

8. Müzakirə zamanı istifadə olunan yönəldici suallar tərtib etmək.

9. Məlumatın təşkiletmə formasını işləmək (sxem, düstur, qrafik, cədvəl, şəkil, siyahı, layihə və s.).

10. Güman edilən yeni nəticələri nəzərə alaraq, əlavə məlumat, tapşırıqlar hazırlamaq.

11. Dərsin hər mərhələsi üçün vaxtı müəyyən etmək.

12. Dərsin yaradıcı tətbiqetmə mərhələsi üçün tapşırıqlar hazırlamaq.

13. Qiymətləndirmə formasını (üsulunu) seçmək, meyarları müəyyənləşdirmək.

14. Dərsdə istifadə olunacaq texniki vasitələri müəyyənləşdirmək.

15. Dərsdə istifadə olunacaq dəftərxana ləvazimatlarını hazırlama

## Məktəbdaxili qiymətləndirmə

Məktəbdaxili qiymətləndirmənin üç növü var:

- **Diaqnostik qiymətləndirmə (ilkin səviyyənin qiymətləndirilməsi)**
- **Formativ qiymətləndirmə (inkişafın izlənilməsi)**
- **Summativ (yekun qiymətləndirmə)**

**Qiymətləndirmə formaları** - qiymətləndirmənin keçirilmə mexanizmini nəzərdə tutur. Məsələn,yekun qiymətləndirmənin mərhələsi olan buraxılış imtahanları mərkəzləşdirilmiş, kiçik summativ qiymətləndirmə sinifdaxili, böyük summativ qiymətləndirmə məktəbdaxili formada aparılır.

**Qiymətləndirmənin üsul və vasitələri.** Məlumatların toplanması üçün qiymətləndirmə üsulları və vasitələrindən istifadə olunur:

• Qiymətləndirmə üsulları sagirdlərin təlim fəaliyyəti haqqında məlumatları toplamaq üçün istifadə olunan prosedurlardır.

• Qiymətləndirmə vasitələri həmin üsulu həyata keçirmək üçün istifadə olunan alətlərdir.

• Qiymətləndirmənin növündən asılı olaraq üsul və vasitələr fərqli olur.

Məsələn, formativ qiymətləndirmə zamanı müəllimin məqsədi şagirdin riyazi məsələ həll etmək bacarığını yoxlamaqdırsa, onun istifadə edəcəyi üsul tapşırıqvermə, qiymətləndirmə vasitəsi isə riyazi çalışmalardır. Müəllimin məqsədi şagirdin şifahi nitq bacarıqlarını qiymətləndirməkdirsə, onun istifadə edəcəyi üsul nəqletmə, qiymətləndirmə vasitəsi isə şifahi nitq bacarıqları üzrə müəllimin tərtib etdiyi qeydiyyat vərəqi ola bilər.

**Diaqnostik qiymətləndirmə.** Fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsidir.

Diaqnostik qiymətləndirmə əsasən dərs ilinin, bəhs və ya bölmələrin əvvəlində, şagird başqa ümumi təhsil müəssisəsindən gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, fərdi yanaşmanı təmin etmək və təlim strategiyasını müəyyənləşdirmək məqsədilə müəllim tərəfindən aparılır. Diaqnostik qiymətləndirmənin üsul və vasitələri fənn müəllimi tərəfindən müəyyənləşdirilir.

■ Şəraitə görə təlim məqsədləri və strategiyalarında çevik dəyişikliklər aparılmasına imkan yaradır.

■ Şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumat almağa imkan verir.

**Formativ qiymtləndirmə: rubriklər qiymətləndirmə üsulu və vasitəsi kimi.**

Formativ qiymətləndirmənin məqsədi təhsilalanın təlim prosesində məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləməkdən, bu zaman qarşıya çıxan problemləri müəyyən etməkdən və onları

aradan qaldırmaqdan ibarətdir. Formativ qiymətləndirmə rəsmi qiymətləndirmə deyil. Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına görə aparılır. Müəllim qiymətləndirmə meyarlarına uyğun dörd səviyyəli rubriklər (I-IV səviyyə) hazırlayır. Zəruri hallarda rubriklər 3 və ya 5 səviyyədə tərtib oluna bilər. Müəllim təhsilalanın fəaliyyətinin nəticəsini "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə rubrikə uyğun olaraq rum rəqəmləri (I, II, III və IV) ilə, "Məktəbli kitabçası"nda isə sözlərlə yazır. "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə rubriklərin məzmunu və şagirdin formativ qiymətləndirilməsinə dair məlumatlar sərbəst formada aparılır.

**Rubriklər 2 növə ayrılır:**

• **Holistik rubrik -** şagirdin fəaliyyətinə verilən tələbləri meyarlar şəklində təsvir edir və onların nailiyyət səviyyələrini göstərir.

• **Analitik rubrik -** şagirdin fəaliyyətinə verilən tələblərdən irəli gələn meyarları bir neçə aspektə ayıraraq nailiyyət səviyyələrini müəyyən edir.

Müəllim yarımillərin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri" əsasında şagirdin yarımil ərzində fəaliyyətinin qısa təsvirini hazırlayır və portfolioda saxlayır.

• **Holistik qiymətləndirmə** şagird nailiyyətləri üzrə ümumi mənzərəni təsvir edir. Analitik qiymətləndirmə isə şagirdin ayrı-ayrı fəaliyyət sahələri üzrə qiymətlərini təyin edir, şagirdlərin fəaliyyəti ardıcıl qiymətləndirilməklə, onların nailiyyətləri haqqında daha ətraflı informasiya verir.

• Holistik qiymətləndirmə sürətlidir, analitik qiymətləndirmə üçün daha çox vaxt tələb olunur.

**Summativ qiymətləndirmə.** Summativ qiymətləndirmə kiçik və böyük olmaqla iki formada aparılır.

Summativ qiymətləndirmə rəsmi qiymətləndirmədir və nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur.

Kiçik summativ qiymətləndirmə vasitələri fənni tədris edən müəllim, böyük summativ qiymətləndirmə vasitələri isə

ümumi təhsil müəssisəsi rəhbərliyinin təşkil etdiyi komissiya tərəfindən hazırlanır. Kiçik summativ qiymətləndirmə hər tədris vahidinin sonunda, altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir.

Böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır.

Şagirdlərin kiçik və böyük summativ qiymətləndirmələrinin nəticələri illik qiymətlərinin hesablanmasında nəzərə alınır. Kiçik və böyük summativ qiymətləndirmələrin keçirilmə vaxtı illik planlaşdırmada nəzərdə tutulur. Kiçik və böyük summativ qiymətləndirmə vasitələri qiymətləndirmə standartlarının (qiymətləndirmə standartı təhsilin müəyyən mərhələsində şagirdlərin nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir) dörd mürəkkəblik səviyyəsinə uyğun olaraq 1-4-cü səviyyələrdə (20%-i 1-ci, 30%-i 2-ci, 30%-i 3-cü və 20%-i 4-cü səviyyəyə aid olmaqla) hazırlanır.

Kiçik summativ qiymətləndirmənin keçirildiyi gün kiçik summativ qiymətləndirmədə iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı xana diaqonalla 2 yerə ayrılır və onun surətində "q"(qaib) yazılır, məxrəci isə boş saxlanılır. Müəllim həmin şagirdlə növbəti kiçik summativ qiymətləndirmənin keçiriləcəyi tarixədək kiçik summativ qiymətləndirmə aparır və onun nəticəsi məxrəcdə qeyd edilir. 1-ci yarımildə böyük summativ qiymətləndirmədə üzrlü səbəbdən iştirak etməyən şagird dərsə qayıtdıqdan sonrakı bir ay ərzində böyük summativ qiymətləndirmədə iştirakı təmin edilir. 1-ci yarımildə böyük summativ qiymətləndirmədə üzrsüz səbəbdən iştirak etməyən və 2-ci yarımilin ilk bir ayı ərzində iştirakı təmin olunmayan şagirdin böyük summativ qiymətləndirmə üzrə qiyməti "0" qəbul olunur. Şagird 2-ci yarımildə üzrlü səbəbdən böyük summativ qiymətləndirmədə iştirak etmədikdə ümumtəhsil müəssisəsinin pedaqoji şurasının qərarı ilə həmin şagirdin 2-ci yarımil üzrə qiyməti onun bu yarımildə iştirak etdiyi kiçik

summativ qiymətləndirmələrin nəticələrinin ədədi ortası kimi müəyyənləşdirilir. Üzrsüz səbəbdən 2-ci böyük summativ qiymətləndirmədə iştirak etməyən şagirdin böyük summativ qiymətləndirmə üzrə qiyməti "0" qəbul edilir. Summativ qiymətləndirmədə iştirak etməyən şagirdlər üçün yeni, lakin sinif üçün istifadə olunan tapşırıqlarla eyni səviyyəli qiymətləndirmə vasitələri hazırlanır.

Şagirdin yarımillik qiyməti yarımil ərzində keçirilən kiçik summativ qiymətləndirmələrin yekun nəticələrinin 40%-i ilə, yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmənin nəticəsinin 60%-nin cəmi əsasında aşağıdakı düsturla çıxarılır.

Y(1)= ks(1)+ks(2)+ks(3) : n ×40:100+BS×60:100=

Y(2)= ks(1)+ks(2)+ks(3) : n ×40:100+BS×60:100=

Şagirdin illik qiyməti yarımillik qiymətləndirmələrin nəticələrinin yoplanıb ikiyə bölünməsi ilə hesablanır: İ=(Y(1)+Y(2))=

## Ədəbiyyat:


1.Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. 15 iyun 1999-cu il

2."Azərbaycan 2020: Gələcəyə Baxış" Inkişaf Konsepsiyasi. 29 dekabr 2012-ci il

3.Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 24 oktyabr 2013-cü il.

4.Azərbaycan Respublikasının umumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. 13 yanvar 2009- cu il

5.İbrahimov F., Hüseynzadə R. Pedaqogika. Bakı, 2013

6. Rüstəmov F., Paşayev Ə. Pedaqogika. Bakı, 2007

7.Təhsil haqqında Azərbaycan Respublikasının qanunu. 5 sentyabr 2005-ci il

8.Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). 3 iyul 2010-cu il

9.Veysova Z. Fəal/interaktiv təlim. Bakı, 2004

www.edu.gov.az www.kurikulum.az

## Dərslik komplektinin əhəmiyyəti

Hazırda təhsilimizdə aparılan dəyişikliklər yaddaş məktəbindən düşüncə və təfəkkür məktəbinə keçməyə istiqamətlənmişdir. Belə ki, bu gün təhsilin qarşısında duran məqsəd şagirdlərə nəzəri materialları, dərsliklərdə verilən fakt və qanunauyğunluqları əzbərlətməkdən ibarət deyil, əksinə şagirdlərdə yaradıcı düşünmə və fəaliyyət göstərmə, müstəqil öyrənmə və tətbiqetmə, habelə tədqiqatçılıq kimi bacarıqları formalaşdırmaqdan, onlarda öyrəndiklərini həyata tətbiqetmə kimi keyfiyyətləri reallaşdırmaqdan ibarətdir. Təhsilin qarşıya qoyulan bu məqsəd təbii ki onun məzmununda bir sıra dəyişikliklərin aparılmasını tələb edir. Təhsildə aparılan bu məzmun dəyişiklikləri isə ümumilikdə təlim və tədris prosesinin sistemli və ardıcıl planlaşdırılmasını özündə əks etdirən kurikulum islahatları adı altında aparıldığını yuxarıda qeyd etmişdik. Təhsilin bu məqsədindən irəli gələn vəzifə isə şəxsiyyətin maraq və ehtiyaclarını ödəyə biləcək bir təhsil sisteminin yaradılmasıdır. Təbii ki, bu məqsədlərin ödənilməsi, vəzifələrin həyata keçməsi üçün bir sıra resursların olması və köhnə vasitələrin yenilənməsi vacibdir.

Yeni mərhələdə yeni dərsliklər, müəllimlər üçün vəsait və şagirdlər üçün iş dəftərlərindən ibarət dəslik komplektinin tətbiqi ilə də əlamətdar olmuşdur. 2006-cı ildə qəbul olunan dərslik siyasəti bu sahədə görülən işlərin əvvəlində gəlir və qeyd olunur ki, "dərslik konkret fənn üzrə tədris planı və proqramı əsasında hazırlanmış nəzəri və praktik biliklərin əsaslarının sistemli və anlaşıqlı şəkildə izah olunduğu əsas vəsaitdir".

Aparılan bir sıra pedaqoji və psixoloji araşdırmalara söykənərək bunu qeyd edə bilərik ki, təlim fəaliyyətinin yüksəldilməsində, qarşıya qoyulmuş nəticələrin əldə olunmasında, habelə tədris prosesini səmərəli və keyfiyyətli təşkilində dərsliyin rolu danılmazdır. Hazırda alim və pedaqoqları belə bir vacib məsələ düşündürür ki, dərsliklər şəxsiyyətyönumlü və inteqrativ xarakter kəsb etməli, yeni təhsil islahatları kurikulum

məqsədləri ilə ayaqlaşmalıdır. Ən əsası isə bu sahədə görülən işlər elə təşkil edilir ki, bu da ildən-ilə dərslklərin təkmilləşməsinə şərait yaradır. Dərslik yaratma prosesinin mühüm pedaqoji problem kimi qoyulması bu prosesə bir neçə aspektdən yanaşılmsını zəruri edir:

- Dərsliyin yaradılmasıın mühüm pedaqoji problem olması
- Dərsliyin istiqamətləndirici məzmuna malik olması
- Dərsliyin inteqrativ xarakter daşıması

İndi hər üç yanaşmaya ayrıca diqqət yetirək:

**1. Dərsliyin yaradılmasına pedaqoji problem kimi yanaşılması.** Bu sahədə aparılan tədqiqatlar bir daha göstərdi ki, əvvəlki dərsliklər sanki elmi-nəzəri materialların sistemli ardıcılığıdır. Ənənəvi dərsliklər daha çox elmin nailiyyəti kimi xarakterizə olunmuş, onu yaradan müəlliflər isə sanki dərsliyi monoqrafik üslubda yazmışdır. Təbii ki, bütün dərsliklər ayrı-ayrı elmi anlayışlarla yüklənmiş, nəticədə dərsliyin istiqamətləndirici məzmuna malik olması, inteqrativ xarakter daşıması və s. xüsusiyyətlər arxa plana keçmişdir. Məlumdur ki, dərslik sadəcə kitab deyildir. Dərsliyi kitablardan fərqləndirən isə onun mahiyyəti, məzmunu və funksiyalarıdır. Çünki dərsliklərin tərkibi şagirdlərin bacarıq və vərdişlərini inkişaf etdirmək üçün lazım olan təlim materialları ilə zəngindir. Hazırda dərsliklərin strukturu bu baxımdan əhəmiyyətli dərəcədə fərqlidir. Ümumi təhsil sistemində dərslik siyasətinin aparılması dərsliklərin strukturunun şagirdlərin maraq və ehtiyacları, arzu və istəkləri, yaş və anlama səviyyələri nəzərə alınaraq qurulmasına güclü təkan vermişdir. Məlum olduğu kimi, nəticəyönümlü kurikulumlar diqqəti daha çox təlim nəticələrinə çəkir. Bu da təbii ki, qarşıya qoyulmuş məqsədlərə, gözlənilən nəticələrə çatmaq üçün müəllimdən sərbəst şəkildə özünün hər hansı strategiyanı seçməyini tələb edir. Bu vaxt həm də seçim imkanları artır. Çünki öyrənən və öyrədənlər məqsədlərinə çatmaq üçün istənilən uyğun vastə və priyomları seçməkdə sərbəst olurlar. Buradan da aydın olur ki, yeni dərslik komplektinin funksiysaında dəyişikliyin edilməsi labüddür. Dərslik komplekti: dərslik, mü-

vafiq iş dəftəri və müəllimlər üçün nəzərdə tutulan metodik vəsaitdən ibarətdir.

Əvvəlki dərsliklərdən hazırlanmasına görə fərqlənən dərsliklər paraqraflardan ibarət tədris vahidindən və hər belə vahiddən sonra isə inteqrasiya resurslarından, yekunlaşdırıcı qiymətləndirmə vasitələrindən, yəni test tapşırıqlarından ibarətdir. Ümumiyyətlə, yeni dərsliklərdəki materiallar şagirdlərin yaş və anlama səviyyələrinə, habelə arzu və istəklərinə uyğun seçilir.

**2. Dərsliyin istiqamətləndirici məzmuna malik olması.** İndi dərsliklər informasiya yığını olmaqdan çox istiqamətləndirici məzmuna malik olmalıdır. Yəni dərslikdə verilən materiallar öz ardıcıllığı, öz strukturu ilə hər şeydən əvvəl şagirdi fəaliyyətə təhrik etməli, idraki bacarıqlarını formalaşdırmalıdır. Şagirdlər dərslikdən istifadə nəticəsində axtarışa, tədqiqatçılığa sövq olunmalıdır. Ona görə ki, müasir təhsil konsepsiyası ənənəvi didaktik sistemdən fərqli olaraq koqnitiv strukturların inkişafı problemini sadəcə olaraq hafizə məkanında deyil, yeni psixoloji məkanda, təfəkkür və hiss məkanında həll edir. Kreativlik ön plana çəkilir. Dərsliyin məzmunu şagirdlərin tətbiqetmə, təhliletmə, anlama, nəticəçıxarma və s. bacarıqlarını inkişaf etdirməlidir.

**3. Dərsliyin inteqrativ xarakter daşıması.** Qeyd edildiyi kimi dərsliyin ən vacib xüsusiyyətlərindən biri şəxsiyyəti formalaşdırmaqdır. Cəmiyyətə yararlı, hərtərəfli şəxsiyyət formalaşdırmaq üçün isə yalnız nəzəri bilikləri bilmək və yaxud praktik çalışmaları həll etmək kifayət deyildir. Şagird həm də biliyi həyata tətbiq etməyi, araşdırmalar aparmağı, öyrəndiklərindən müstəqil həyatda istifadə etməyi də bacarmalıdır.

**Deməli, dərslik komplekti:**

- ✓ təhsil prosesində müəllim-şagird fəaliyyətinin tam təsəvvür olunmasını və üzvi şəkildə əlaqələndirilməsini təmin edir;
- ✓ müəllimin planlaşdırmadan qiymətləndirməyə qədər bütün fəaliyyətini istiqamətləndirir;

- ✓ Təlim prosesində şagirdlərin müstəqilliyinin və tətbiq bacarıqlarının genişlənməsinə imkan yaradır.

**Standartların dərsliklərlə reallaşdırılması.**




**Dərslik**-məzmun standartlarının reallaşdırılması üçün mühüm vasitə olub müəllim-şagird (tədris-təlim) fəaliyyətinin tənzimlənməsinə xidmət edir.

**Müəllim üçün vəsait**-təlimin səmərəli təşkilində müəllim üçün istiqamətverici rol oynayır.

**İş dəftəri**-şagirdlərin təlim prosesində əldə etdikləri biliklərin müstəqil şəkildə tətbiqinə imkan yaradan vasitədir.

**Müasir fənn kurikulumlarında təlim strategiyaları**

Təlim strategiyaları müasir fənn kurikulumunun tərkib hissələrindən biridir. Təlim strategiyalarına daxildir: 1)təlimin təşkilinə verilən tələblər; 2)təlimin forma və üsulları; 3) planlaşdırma.




**1.Təlimin təşkilinə verilən əsas tələblər bunlardır:**

❖ **pedaqoji prosesin tamlığı -** pedaqoji prosesdə təlim məqsədləri kompleks (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir;

❖ **təlimdə bərabər imkanların yaradılması-**bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;

❖ **şagirdyönümlülük-**şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir;

❖ **inkişafyönümlülük-**şagirdlərin idrak fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;

❖ **fəaliyyətin stimullaşdırılması-**pedaqoji prosesin səmərəli və effektiv qurulması, şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarı ilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur;

❖ **dəstəkləyici mühitin yaradılması-**pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

**Təlimin məqsədləri:**

- **Öyrədici**–Tədqiqat aparılması imkanı. Müxtəlif iş formalarından istifadə imkanı. Təhliletmə və nəticə çıxarma bacarığı. Qısa müddətdə daha çox materialın öyrənilməsi imkanı.Vaxta qənaət.
- **Tərbiyəedici**–Əməkdaşlıq, bir–birini dinləmə bacarığı, bir-birinin fikrinə hörmətlə yanaşmaq.
- **İnkişafetdirci** – Fəallıq, yaradıcılıq. Müstəqil tədqiqat aparmaq, öz fikrini çatdırmaq imkanı. Təfəkkürün üç növünün(məntiqi, tənqidi, yaradıcı) inkşafı.

**Təlim fəaliyyətinin planlaşdırılması**

**Fəal təlimdə planlaşdırmanın 2 növündən istifadə olunur:**

- **Perspektiv (illik) planlaşdırma.**
- **Cari (gündəlik) planlaşdırma.**

Hər bir müəllim məktəbin şəraitini, şagirdlərin inkişaf səviyyəsini, bilik səviyyəsini nəzərə almaqla növbəti dərs ilində dərs deyəcəyi sinifdə dərs deyəcəyi fənn üzrə perspektiv (illik və ya yarımillik) planlaşdırma tərtib etməlidir.

**Perspektiv (illik) planlaşdırma aparmaq məqsədilə müəllim üçün zəruri hesab edilən bacarıqlar aşağıdakılardır:**

**1.Məzmun standartlarına əsasən dərslikdəki (*dərslik olmayan fənlər üzrə müəllim vəsaitindəki*) tədris vahidi və mövzular üzrə dəqiqləşmələr aparmaq.**

**2. Tədris vahidlərinin və mövzuların ardıcıllığını müəyyənləşdirmək.**

**3. İnteqrasiya imkanlarını müəyyən etmək.**

**4. Əlavə resurslar seçmək.**

**5. Mövzulara görə məqsədyönlü vaxt bölgüsü aparmaq.**

**6. Mövzuya görə nailiyyətlərin qiymətləndirilməsinin növlərini müəyyənləşdirmək.**

**Planlaşdırma ilə əlaqədar tövsiyələr**

- **Standartlar qrupuna əlavə standartlar daxil edə bilər.**
- **Mövzuları dəyişə və ya artıra bilər.**
- **İnteqrasiya üçün əlavə imkanlar müəyyən edə bilər.**
- **Əlavə resurslar seçə bilər.**
- **Mövzular üzrə vaxt bölgüsündə dəyişikliklər edə bilər.**

**Cari (gündəlik) planlaşdırma müəllimin gündəlik fəaliyyətini əks etdirir.**

**Cari (gündəlik) planlaşdırma nümunəsi:**

- ➢ **Standart:**
- ➢ **Mövzu:**
- ➢ **Məqsəd: (reallaşdırılacaq standartlar göstərilməklə)**
- ➢ **İnteqrasiya:**
- ➢ **İş forması:**
- ➢ **Üsullar:**
- ➢ **Resurslar:**

**Fəal dərsin mərhələləri:**

- **Motivasiya,problemin qoyuluşu**
- **Tədqiqatın aparılması**
- **Məlumat mübadiləsi**
- **Məlumatın müzakirəsi**
- **Nəticələrin çıxarılması**
- **Tətbiqetmə (ev tapşırığı)**
- **Qiymətləndirmə.**

## Ədəbiyyat

1.Abdullayeva S., İsmayılov R., Cəfərova D., Orucova G. Azərbaycan dili, 1-ci sinif, Müəllim üçün metodik vəsait. Bakı, 2012

2.Bədiyev S.R. Yeni təlim texnologiyalarından mühazirə mətnləri. Bakı, 2009

3.Həsənov M.M., Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 404s.

4.Həsənov M., Cəfərova N., Bəhmənova C. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Bakı: Elm və təhsil, 2014, 72 s.
5.Həsənov M.M., Bəhmənova C.D. İbtidai siniflərdə fəal və interaktiv metodlardan istifadənin nəzəri-praktik məsələləri. Bakı: ADPU-nun nəşri, 2009
6.Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.
7. Kərimov Y.Ş. Fənn kurikulumu ilə iş şəraitində təlimin təşkilinə verilən tələblər. "Azərbaycan müəllimi" qəz., 2007, 26 yanvar
8.Qədimova X.H. İnteraktiv təlim metodları və onların tətbiqi yolları. Bakı, 2003
9.Orucova G., Qaragözova N., İsmayılov R., Xəlilov Z. Azərbancan dili (2-ci sinif). Müəllim üçün metodik vəsait. Bakı: Altun Kitab, 2009, 224 s.
10. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı, Nurlan, 2003, 408 s.
11. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)// Kurikulum, 2010, №3, s. 116-130
12. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumu. Bakı, Təhsil, 2008, 476 s.
13. Veysova Z.Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu. Bakı,2004, 196 s.

## Fəal/interaktiv təlimin üsul və texnikaları

Fəal-interaktiv təlimi həyata keçirən çoxlu sayda müxtəlif üsullar vardır. Hər bir üsulun öz texnikası mövcuddur. Dərsin səmərəsini artırmaq üçün bu üsullardan düzgün istifadə etmək çox vacibdir. Odur ki, biz ibtidai siniflərdə lazım olan üsul və texnikaların bəzilərinin izahını veririk. Ümüdvarıq ki, müəllimlər bu üsul və texnikalardan geniş istifadə edib, təlim – tədris prosesini daha da zənginləşdirəcəklər.

❖**Beyin həmləsi üsuluna aid texnikalar**

1. Beyin həmləsi (əqli hücum)
2. Anlayışın çıxarılması
3. BİBÖ **(Biz nəyi bilirik. Biz nəyi bilmək istəyirik. Biz nə öyrəndik və nə öyrənməliyik.)**
4. Auksion (cisim və hadisələrin xüsusiyyətlərini öyrənmək)
5. Klaster – (şaxalənidirmə)
6. Suallar
7. Söz assosiasiyaları

❖**Müzakirə üsuluna aid texnikalar**

1. Müzakirə
2. Diskusiya
3. Debatlar (çarpaz müzakirə)

❖**Rollu oyunlar üsuluna aid texnikalar**

1. Rollu dialoq
2. Modelləşdirmə

❖**Təqdimatın aparılması üsuluna aid texnikalar**

1. Problemin həlli
2. Venn diaqramı (cisim və ya hadisələri müqayisə etmək və onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək)

❖**Təşkilatı üsullara aid texnikalar**

1. Ziqzaq
2. Karusel–hər bir şagird bütün məsələlərin həllində iştirak edir.

**Fəal və interaktiv təlim metodlarının səciyyəsi**

Məlum olduğu kimi interaktiv təlim metodları ən yeni texnologiyalardan biri sayılır. Təlim texnologiyası deyəndə pedaqoji prosesdə təlimin ən yeni və ən səmərəli metodlarından, priyom, tərz və vasitələrindən istifadə etməklə yüksək elmi – intellektual səviyyəyə və nümunəvi mənəvi - əxlaqi normalara malik olan şəxsiyyətin yetişdirilməsi nəzərdə tutulur. “İnteraktiv” latın sözü olub, iki mənada təqdim olunur. Birincisi “intero” şəklində, yəni “daxili”, “içəri” mənasında, ikincisi isə “internaşin” şəklində yəni “ara”, “qarşılıqlı

əlaqə”, “dialoq” “beynəlxalq” mənasında işlədilir. “Aktiv” və ya “akt” sözü isə beynəlxalq status almış “aktivişhin” sözündən olub, “fəaliyyət”, ”fəal”, “fəallıq”, “fəallaşmaq” mənasında işlədilir. Deməк, “interaktiv” “qarşılıqlı əlaqə”, “anlaşma”, “əməkdaşlıq”, “dialoq” deməkdir. Bu prosesdə hər iki tərəfin fəallığı mühüm yer tutur. Bu fəallaşma adi və normal fəallaşma kimi deyil, çevik və dinamik fəallaşma kimi başa düşülür. Deməli, “interaktiv” sözü pedaqoji prosesin son dərəcə dinamik fəallaşdırılması kimi başa düşülməlidir. Bu prosesdə hər bir şagirdin öz müstəqil fikri, düşüncəsi və ideyası olur və hər bir zəif şagird də fəallaşır. Bütün bunlar da, heç şübhəsiz, təlim keyfiyyətinin yüksəlməsinə, təkmilləşməsinə bilavasitə təsir göstərir, şagirdlərin mənimsəmə keyfiyyətini artırır. İnteraktiv təlimə tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusu kimi baxmaq olar. İnteraktiv təlim üçün aşağıdakı cəhətlər səciyyəvi ola bilər:

- müəllim tərəfindən şüurlu surətdə (iradi olaraq) idraki problem situasiyasının yaradılması;
- problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;
- şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər. İnteraktiv

təlim prosesində şagirdin mövqeyi – “kəşf edən”, “tədqiqatçı”, “araşdırıcı” mövqeyidir; o, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən, bunları müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər təlim prosesində passiv dinləyici deyil, fəal düşünən, danışan, fikir söyləyən, münasibət bildirən, bir subyekt, təlim prosesinin tamhüquqlu iştirakçısı, tədqiqatçısı kimi çıxış edir və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər. Müəllimin mövqeyi – fasilitator (bələdçi, aparıcı) daha çox istiqamətverici mövqeyindədir. O, problemli vəziyyətləri planlı və istiqamətlənmiş surətdə təşkil edir, şagirdlər qarşısında tədqiqat məsələlərinin meydana çıxmasına şərait yaradır və onların həllinə metodiki kömək göstərir.

İnteraktiv təlim metodunun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Təlimin səmərəliliyi (daha qısa müddətdə daha çox informasiyanı mənimsəmək imkanı) xeyli artır. Bunun aşağıdakı səbəblərini göstərmək olar:

- şagirdlərin idrak fəaliyyəti və təlim motivasiyası hesabına;
- təfəkkürə əsaslanaraq biliklərin müstəqil, məhsuldar və yaradıcı şəkildə əldə edilməsi və mənimsənilməsi sayəsində.

Dünya təcrübəsi göstərir ki, interaktiv təlim metodu müəllim üçün dərsin keyfiyyətini artırmaq üçün vacib bir vasitədir. Bu metod şagirdlər üçün dərsi çox maraqlı və cəlbedici edir. Fəal interaktiv təlim həm təlimin məzmununun öyrənilməsini, həm də bu məzmunun tətbiqini daha səmərəli edir, şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır. Şagirdlərin öyrənməyə həvəsi və nailiyyətləri artdıqca, müəllimin də fəaliyyəti yüngülləşir. Lakin bu o demək deyil ki, müəllimin zəhməti azalır. İnteraktiv təlim əslində dərsin hazırlanması və idarə edilməsi üçün müəllimdən böyük zəhmət, işgüzarlıq və yaradıcılıq tələb edir.

Bunu da qeyd edək ki, interaktiv təlim metodlarından hər bir mövzunun tədrisində istifadə etmək məsləhət görülmür. Dərsdə qarşıya qoyulmuş məqsəd, şagirdlərə veriləcək bilik, bacarıq və vərdişlərin məzmunu, xarakteri, inteqrasiya imkanları, şagirdlərin hazırlığı, yerli şərait, məktəbin maddi bazası və s. nəzərə alınmaqla interaktiv priyomlara müraciət edilməlidir. İnteraktiv metodlar təlimin keyfiyyətini xeyli dərəcədə yüksəldir, şagirdlərdə yeni idraki və əxlaqi keyfiyyətlər formalaşdırır: müsahibini, hər hansı danışanı (danışığını), maqnitafon, radio, televiziya verilişlərini dinləməyi, söylənilən fikirlərə hörmət etməyi, yeri gəldikdə münasibət bildirməyi, müstəqil, tənqidi və yaradıcı düşünməyi, sərbəst fikir söyləməyi, irəli sürdüyü fikri müdafiə etməyi, sübuta yetirməyi, məntiqi təfəkkürünü inkişaf etdirməyi, təcrübəsini və ümumi hazırlığını təhlil etməyi, özünü obyektiv qiymətləndirməyi, kollektivdə öz yerini görməyi, əqli və fiziki əmək prosesində kollektivin üzvləri ilə əməkdaşlıq etməyi, birgə işləməyi, ümumi əməyin payına düşən hissəni ləyaqətlə yerinə yetirməyi, kollektivin fikrinin formalaşmasında fəallıq, işgüzarlıq göstərməyi, qrupun üzvləri, sinif kollektivi ilə birgə qərar verməyi, qarşıdurma yarandıqda müdafiə olunmağı, münaqişəni səbrlə, sülh yolu ilə həll etməyi, tolerant olmağı, risqə getməyi, emosional situasiyada özünü ələ almağı, özünü idarə etməyi, şəxsi sağlamlığına görə məsuliyyət daşımağı, insana, onun hüquqlarına hörmətlə, ədalətlə yanaşmağı bacarmaq və s. İnteraktiv metodlarla keçilən dərslərdə şagirdlərdə hər şeyi bilmək həvəsi, təşəbbüskarlıq yüksəlir, onların öyrənmə fəallığı, təlimin keyfiyyəti və səmərəliliyi artır, nəticədə mexaniki yaddaş deyil, yaradıcı təfəkkür inkişaf edir. İnteraktiv təlim bilik, bacarıq, təcrübə və vərdişlərə yiyələnməyə, cəmiyyətin vətəndaşları üçün zəruri sosial və intellektual təfəkkürün, müstəqil çalışma, müstəqil düşünmə bacarıqlarının inkişafına kömək edən demokratik üsullarla aparılan təlim prosesidir. İnteraktiv təlim prosesində dərsdə yaranan, meydana çıxan şagirdlərarası öyrənmə-öyrətmə ünsiyyəti və əməkdaşlığı, müəllim-şagird birliyi və əməkdaşlığı nəzərdə tutulur. İnteraktiv metodlar təlim prose-

sində öyrənmə və anlaşmaya, bacarıq və keyfiyyətlərə şagirdlərin yiyələnməsini həyata keçirən üsullar, tərzlər, işlər, yanaşmalar, vasitələrdir. Ən son tədqiqatların nəticəsi göstərir ki, interaktiv təlim metodları effektiv nəticəni konstruktivizm nəzəriyyəsinə istinad edərək təlimə İKT-nin yaxından tətbiqi ilə verir və öz işləkliliyini daha da səmərəli edir. Psixoloqlar qeyd edirlər ki, informasiya insanın eşitdiklərinin 10%-i, gördüklərinin 50%-i, özü etdiklərinin isə 90%-i həcmində yaddaşında qalır. İKT-nin bu sahədə böyük dəstəyi öyrənənin şəxsi araşdırması zamanı güclü informasiya bankı ilə təmin olunmasındadır (internet, elektron kitablar, test və tapşırıqlar və s.). İnteraktiv təlim prosesində ilk baxışdan elə görünə bilər ki, müəllim sinifdə fəal rol oynamır. Əslində isə müəllim şagirdi ruhlandıran, ona özünü tapmaqda kömək edən "yaradıcıya" çevrilir. İnteraktiv metodlar müəllimin təkcə başqalarını öyrətməsinə deyil, onun özünün də öyrənməsinə, daha yaradıcı və enerjili pedaqoq olmasına imkan verir.[1]

İnteraktiv təlim metodları həmçinin sinif otağının həmişəki tərtibatından, məşğələlərin təşkilinin adət etdiyimiz qaydasından imtina olunmasını tələb edir. Şagird masalarının sinif otağında yerləşdirilməsinin dörd əsas forması vardır:

1. "Sinif" forması – ənənəvi qayda .
2. "Kafe" forması ("diskussiya klubu").
3. "Ü" hərfi formasında sinif.
4. "Dairə" formasında sinif.

"Kafe" forması qruplarda iş üçün əlverişlidir. "U" hərfi forması rollu oyunlar zamanı, tanışlıq vaxtı, diskussiyaların gedişində daha səmərəlidir. "Dairə" forması müxtəlif diskussiyaların, dairəvi masaların keçirilməsi üçün daha rahatdır. İstifadə olunan bütün üsullar aşağıda verilmiş komponentlərdən ibarət olan təlim prosesinin qanunauyğunluqlarından irəli gəlir: a) təlimin məqsədi, b)təlimin məzmunu, c) şagirdlərin dərketmə

---

[1]Bax.: Bədiyev S.R. Yeni təlim texnologiyalarından mühazirə mətnləri. Bakı, 2009, s.

imkanları, ç) müəllimin öyrətmə fəaliyyəti və şagirdlərin öyrənmə işi, təlimin təşkilati forması və s., d) təlimin nəticəsi. Bütün bu komponentlər qarşılıqlı surətdə əlaqəlidir və təlim prosesində vəhdətdə çıxış edirlər. Onlar sabit və təkrarlanandır. Buradan belə bir vacib tələb ortaya çıxır-hər hansı təlim üsulları, vasitələri və formalarının müəyyənləşdirilməsi və tətbiqi zamanı bu komponentlərin qarşılıqlı əlaqəsini nəzərə almaq zəruridir. Müəllim bu əlaqələrin bütün dərs prosesi boyu mövcud olduğunu yaddan çıxarmamalıdır. Bunu nəzərə almadan istənilən nəticəni əldə etmək qeyri-mümkündür.

Kiçik qruplarda iş. Kiçik qruplarda iş təlim əməkdaşlığı kimi mühüm bir prinsipə əsaslanır. Kiçik qruplarda iş üsulu üzrə keçirilən dərs ənənəvi qaydada aparılan dərsdən nə ilə fərqlənir? Bu cür dərsdə şagirdlər fəal iştirak edir, birlikdə çalışırlar; qrupun üzvü kimi onlarda bir-birinin müddəa və rəylərini müzakirə etməyə motiv yaranır. Qruplarda iş tolerantlığa (dözümlülüyə) və nəzakətliliyə alışdırır. Qruplarda işin şagirdlər üçün faydası aşağıdakılardır:

❖ istedadlı şagirdlər bütün sinfin diqqətini cəlb etmədən öz qabiliyyətlərini göstərə bilərlər (yeniyetmələr çox vaxt öz qabiliyyətlərini nümayiş etdirməyə çəkinirlər, yaşıdlarının onları “müəllimin gülməşəkəri” adlandıracaqlarından ehtiyatlanırlar);

❖ passiv şagirdlər öz bacarıqlarını açıqlamağa məcbur olurlar (qrupda iş onlarda məsuliyyət hissi doğurur);

❖ şagirdlər az vaxt ərzində müəyyən ideyalar söyləməyi, bu və ya başqa mücərrəd ideyaya öz şəxsi təcrübəsi baxımından yanaşmağı öyrənirlər.

Qruplara necə bölməli?

- Hər birində 4-6 nəfərdən çox olmamaqla 4-6 qrup yaradıla bilər. Qrupların çoxluğu işin nəticələrinin təqdimatı üçün zəruri olan vaxtı uzadır, qrupda şagirdlərin sayının çoxluğu isə onlardan hər birinin qrupun işində fəal iştirakını məhdudlaşdırır.

- Qrupun tərkibi çox vaxt müəllim tərəfindən müəyyənləşdirilir. Şagirdlərin bölgüsünü əvvəlcədən planlaşdırmaq lazımdır.

- Qrupun tərkibi hər cəhətdən müxtəlif ola bilər. Dostları ayırmaq yaxşı olar. "Yaxşı" və "pis" qrupların yaranmasına yol vermək olmaz.

- Qrupun tərkibi tez-tez dəyişir. Şagirdlərin daim eyni tərkibdə işləməsi arzuolunmazdır.

- Qruplara bölgü üsulları maraqlı və cəlbedici olmalıdır. Kiçik qruplarda iş üsulu üzrə dərsi necə planlaşdırmalı? Dərsə hazırlaşarkən aşağıdakı sual-məsələlər üzərində fikirləşmək lazımdır:

- Məqsədlər nədən ibarətdir? Şagirdlər hansı biliklərə, bacarıq və dəyərlərə yiyələnməlidirlər?

- Uşaqların bunu öyrənməsi nə üçün vacibdir?

Planlaşdırma:

- Paylama materialının hazırlanması.
- Sinif otağının əvvəlcədən lazımi vəziyyətə gətirilməsi.
- Dəqiq tapşırığın (təlimatın) verilməsi.
- Diqqətin işləmək üçün ayrılmış vaxta cəlb edilməsi.
- Qrupun gördüyü işə dair hesabat formasının (təqdimatın) şərtləşdirilməsi.

Bir qayda olaraq, görülmüş iş qrupun iştirakçılarından biri tərəfindən təqdim edilir (ya şagirdlərdən birinin istəyi, ya da qrupun seçimi üzrə). İşin davam etdiyi müddətdə müəllim hər bir qrupun necə çalışmasını müşahidə edir: bütün qruplara bərabər diqqət yetirir; əgər qrup özü xahiş edərsə, müzakirə prosesinə müdaxilə edir. İş başa çatdıqdan sonra müəllim qrupların hər birinin əldə olunmuş nəticələri təqdim etməsini xahiş edir. Təqdimetmələr bitdikdən sonra müəllim görülmüş işlərə yekun vurur. Qrup davranış qaydaları aşağıdakı kimidir:

- Qrupu təşkil edən üzvlərin vəzifələrini düzgün müəyyənləşdirmək;

- Qrup liderini seçmək; - Qrupun hər bir üzvünün fikirlərinə hörmətlə yanaşmaq və dinləmək; - Hər kəsin öz şəxsi fikrini söyləməsi üçün imkan yaratmaq;

- Problemin həlli üçün birgə yollar axtarmaq;

- Qrup işində fəallıq göstərmək;

- Artıq hərəkətlərə yol vermədən müəllimin verdiyi mövzu ətrafında müzakirələrdə iştirak etmək;

- Söylənilən fərdi fikrin elmiliyinə diqqət yetirmək;

- Digər şagirdlərlə ünsiyyətdə yüksək mədəniyyət göstərmək.

## Azərbaycan dili dərslərində fəal/ interaktiv təlim metodlarından istifadə

Təlim prosesi uşaqda fəallığı, məntiqi düşünməyi, ətrafdakı şeylərə və hadisələrə tənqidi yanaşmağı, müstəqil bilik almağı və fərdi inkişaf etmək bacarığını tərbiyə etməlidir. Yəni şagirdin məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirilməlidir. Bu tələbləri nəzərə alaraq elə təlim metodlarından istifadə olunmalıdır ki, onlar özlərində aktiv, yaradıcı düşünmə qabiliyyətini və yeni biliklərə sərbəst yiyələnməyi aşılama yollarını birləşdirmiş olsun. Fəal/interaktiv təlim bu deyilənləri əhatə etmək imkanına malikdir. "Fəal", "aktiv" və "interaktiv" təlim metodları anlayışları eyni məna daşıyaraq, sinonim kimi işlədilə bilir. İnteraktiv təlim müəllim və şagirdin qarşılıqlı əlaqəsi, ünsiyyət prosesidir. Bu zaman müəllim tərəfindən problem qoyulur, problemin həll olunması prosesində şagirdlər aktiv, tədqiqatçı mövqeyi tuturlar.

Müəllim tərəfindən şagirdlər üçün yeni olan biliklərin müstəqil olaraq əldə olunması, mənimsənilməsi şəraiti yaradılır. Müəllimin əsas vəzifəsi şagirdlərə yol göstərmək, istiqamət vermək, müəyyən çətinlik meydana çıxarsa, onlara yardımçı olmaq, ən başlıcası isə "öyrənməyi öyrətməkdir". Bu zaman müəllim hər bir şagirdə hörmətlə yanaşmalı, bilik səviyyəsindən asılı olmayaraq inam göstərməlidir. Qoyulmuş problemin həlli üçün şagirdlərin hər bir cəhdinin qiymətləndiriləcəyinə, ciddi, obyek-

tiv və səmimi münasibətin olacağına inam nəticənin effektivliyinə zəmin yaradır. Bu proses zamanı şagirdlərdə öyrənməyə real maraq artır. Öyrənmə fəallığının artması, təfəkkürün inkişafına xidmət edən müstəqil, produktiv metodların istifadəsi nəticəsində təlimin səmərəliliyi xeyli dərəcədə yüksəlir. Bu cür yanaşma zamanı, təlim şagirdlərin yaddaşının yeni biliklərlə zənginləşməsinə deyil, düşünmə qabiliyyətinin və müstəqil olaraq bilik əldə etmək bacarığının inkişafına xidmət edir.

Fəal təlim metodlarından istifadə etməklə dərs prosesinə tədqiqat xarakteri verilir, şagird isə tədqiqatçıya, təlimin subyektinə çevrilir. Yeni təlim metodlarının ən üstün cəhətlərindən biri də onların mütəhərrik və konservatizmdən uzaq olmasıdır. Bu da ən zəif, sakit, utancaq, melanxolik tipli şagirdlərin aktivləşməsinə gətirib çıxarır.

İnteraktiv metodlar yaradıcı tədqiqata əsaslanan təlim prosesini ehtiva edir. Burada müəllim biliklərin əldə edilməsi yolunun bələdçisi, şagird isə tədqiqatçı, bilikləri "kəşf edən", təlimin obyektindən subyektinə çevrilən tərəf kimi çıxış edir. İnteraktiv təlim metodlarının tətbiq edildiyi dərs zamanı təlim iki tərəfin (müəllim və şagird) də eyni zamanda fəal olduğu xarakteri daşıyır. Buna görə də interaktiv metodların bir neçə başlıca xüsusiyyətləri vardır. Onlar əsasən aşağıdakılardan ibarətdir:

- Müəllim tərəfindən dərsin mahiyyətini açmağa atılan ilk addım olan problemli vəziyyətin yaradılması.
- Problemli vəziyyətin həlli zamanı şagirdlərin tədqiqatçılıq imkanlarının inkişafı üçün onların bu mövqeyinin təyini.
- Müəllim tərəfindən verilən yeni biliklərin şagirdlər tərəfindən müstəqil dərk olunması, onların mənasının açılması və mənimsənilməsi üçün şəraitin yaradılması.

Azərbaycan dili dərslərində fəal/interaktiv təlim metodları hər bir mövzunun xarakterinə uyğun tətbiq edilir və Azərbaycan dili dərslərinin maraqlı keçməsində müstəsna rol oynayır.. Fəal/interaktiv təlimin müxtəlif adlarla aşağıdakı üsulları


İnteraktiv təlimin üsulları
Anlayışın müəyyən edilməsi
Semantik əlamətlərin təhlili
Əlamətlər cədvəli
İşgüzar səs-küy
"Qar topası"
Söz assosiasiyaları
İdeyalar xalısı
Sənədlərlə iş
Qərarlar ağacı
Beyin həmləsi
Rollu oyun
Diskussiya
Debatlar
Akarium
Mühazirə
Təqdimat
Karusel
BİBÖ
Beşliklər
Auksion
Kublaşdırma
İNSERT
Konseptual cədvəl
Klaster
Ziqzaq
Venn diaqramı
T-sxemlər
Layihələrin hazırlanması
Metaforik düşünmə
İki hissəli gündəlik strategiyası
Söz zənciri
Vəziyyət üzrə praktikum
Problemli vəziyyət

İnteraktiv metodların mahiyyəti ondan ibarətdir ki, təlim təkcə şagirdlərin yaddaşının yeni elmi biliklərlə zənginləşdirilməsi deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsinə, ən mühüm bacarıq və vərdişlərin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlir. İnteraktiv təlim metodları şagirdləri yeniliyi öyrənməyə həvəsləndirir, onların dərsə marağını artırır, bu da bilavasitə təlimin səmərəliliyini təmin edir

Fəal/interaktiv təlim zamanı şagirdlər müəllimin rəhbərliyi altında xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər. Fəal/interaktiv təlimin aşağıdakılara əsaslanır:

- mexaniki yaddaşa yox, təfəkkürün inkişafına;
- şagirdlərin fəal dərketmə mövqeyinə;
- biliklərin müstəqil əldə edilməsi, "kəşfi" və dərkedilməsi üçün şəraitin yaradılmasına;
- təbii öyrənmə fəallığının yaranmasına imkan yaradan problemli şəraitin yaradılmasına;
- həyati məqsədlərə nail olmaq üçün biliklərin yaradıcı tətbiqinə;
- digər uşaq və böyüklərlə əmkdaşlıq etməklə problemin həll edilməsinə;
- təfəkkürün müstəqilliyi və sərbəstliyinə.

İndi isə bu üsulların Azərbaycan dili dərslərində necə istifadə olunduğunu nəzərdən keçirək.

**Beyin həmləsi (Əqli hücum).** Əqli hücum sürətli informasiya axını və şagirdlərin fəallığının artırılması üçün tətbiq olunur. Bu üsul hər hansı bir mövzu ilə bağlı çox sayda fikirlər irəli sürmək üçün istifadə olunan üsuldur. Əsas tələb çoxlu fikirlər yürütmək, fərqli fikirlər ortaya qoymaq və çox sayda fikirlər meydana çıxana qədər hər hansı bir şərh verməmək və qiymətləndirmə aparmamaqdan ibarətdir. Beyin həmləsi şagirdlərin "açıq fikirli"olmasına kömək edir və şa-

girdlər bunun sayəsində normal şərtlər altında ağıllarına gələ bilməyəcək müxtəlif fikirlər ortaya çıxara bilirlər. Meydana çıxan hər fikir eyni dərəcədə faydalı və məntiqli olmayacaqdır. Ancaq hər hansı süzgəcdən keçməyən istənilən fikrin ortaya çıxmasına yol vermək mühüm fikirlərin meydana çıxmasını təmin edir. Beyin həmləsini tətbiq edən şagirdlərin təfəkkürü şablondan azad, daha məhsuldar olacaqdır. Bütün fikirlər heç bir münasibət bildirilmədən yazıya alınır. Bundan sonra yazılmış fikirlərin müzakirəsi başlanılır. Bu da nəticədə tədqiqat sualının yaranmasına gətirib çıxarır.

**Müəllifdən soruşun (Müəllif kreslosu).** Şagirdlərə əvvəlcədən tapşırıq verilir ki, mətni oxuyarkən onun müəllifinə vermək istədikləri 2-3 sual fikirləşsinlər. Suallar mətn haqqında olub onu anlamaqda yardımçı olmalıdırlar. Sonra şagirdlərdən biri müəllif rolunu öz üzərinə götürür. Yerdə qalan şagirdlər öz suallarını ona verirlər. Müəllif rolunda bir neçə şagird suallara cavab verə bilər. Bu üsuldan istifadə şagirdlərdə daha diqqətli oxu vərdişləri formallaşdırır. Çünki diqqətli oxu bir tərəfdən şagirdlərdə müxtəlif suallar yaradır və digər tərəfdən şagirdləri verilmiş mətndə həmin suallara cavab axtarmağa təhrik edir.

**Rollu oyun.** Oxunan materiala aid rollu oyunlar şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirir, onlarda ünsiyyət vərdişləri yaradır. Şagirdlər bu üsulun tətbiqi ilə əlaqədar keçilən mətni kiçik bir səhnəciklə qura bilərlər. Burada şagirdlər öz fikirlərindən daha çox istifadə etməyə istiqamətləndirilməlidir.

**Diskussiya (Müzakirə).** Diskussiya həm müəllim, həm də şagirdlər üçün əhəmiyyətli üsuldur. Çünki bu onların mövzudakı faktlara və hadisələrə münasibətinin necə olduğunu öyrənməyə imkan verir. Diskussiya prosesində şagirdlər məsələyə münasibət bildirməyi, onları faktlara əsaslanmaqla təhlil etməyi öyrənirlər. Bu zaman onlarda dinləmək və növbə ilə danışmaq bacarığı, digər fikirlərə dözümlülük, diskussiya mədəniyyəti inkişaf etməyə başlayır.

**Debat.** Debatlar üçüncü tərəfin irəli sürdüyü dəlillərlə digər iki tərəfi inandırmaq prosesidir. Debatlar ideyaların, fikirlərin toqquşmasıdır və problemlərin yeganə həlli irəli sürülən dəlillərdir. Oxu materiallarının tədrisində debata hazırlıq prosesi 5-10 dəqiqə ərzində aparılır. Bu zaman mətnə dair məlumat toplanır və qrupdan bir nəfər bu məlumatları qeydə alır. Debatlar şifahi və yazılı olur. Yazılı debatlar şifahi debatlarda olduğu kimi aparılır. Lakin bu yazılı dialoq formasıdır.

**Söz assosiasiyası** – bu üsuldan həm mövzunun öyrənilməsinin əvvəlində, həm də sonunda istifadə etmək olar. Bunu aşağıdakı kimi tətbiq etmək olar:

- Öyrənilən mövzu ilə bağlı başlıca söz lövhəyə yazılır;
- Şagirdlərə tapşırılır ki, bu sözlə gördükləri və ya eşitdikləri zaman ağıllarına gələn ilk sözü yazsınlar. Bunun üçün onlara 1-2 dəqiqə vaxt verilir;
- Dərsin axırında tapşırılır ki, hər bir şagird mövzu ilə bağlı düşündüyünü və ya nə hiss etdiyini bir sözlə ifadə etsin. Sonra bu sözlərin siyahısı tərtib edilir. Məsələn:




**Anlayışın çıxarılması** – bu üsul tapmaca rolunu oynayan üsuldur. Müəllim hər hansı bir karta şagirdlərin tapacağı sözü yazır və onun üzünü lövhəyə çevirərək lövhədən asır. Sonra söz sadalayır. Şagirdlər həmin sözlərə uyğun gizlədilmiş sözü tapırlar. Əgər anlayışın müəyyən edilməsində irəli sürülən fikirlərlə şagirdlər sözü tapmasalar, onda əlamət bildirən sözlər artırıla bilər.

**Məsələn:**




**Problemli vəziyyət** – bu üsul tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir.

Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyət əks olunmuş işçi vərəqləri uşaqlara paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır.

**Mühazirə** -oxu dərslərində şagirdlər lazımı informasiyanı tapmağa çətinlik çəkdikləri zaman istifadə oluna bilər. Mühazirə zamanı müəllim yalnız dərslikdəki mətn ilə kifayətlənməməli, şagirdləri daha əlavə məlumatlarla tanış etməlidir. Bu zaman 10-15 dəqiqəlik fikir mübadiləsinə imkan verən mühazirədən istifadə etmək daha məqsədəuyğundur.

**İki hissəli gündəlik strategiyası-** bu üsulun tətbiqi zamanı sinif cütlərə ayrılır. Hər bir şagirdə tapşırırlar ki, təqdim olunan mövzu ilə bağlı, məsələn, “Azərbaycan necədir?” mövzusuna aid fikirlərini qısa şəkildə qeyd etsin. Hər iki yoldaş yazıb qurtardıqdan sonra fikirlərini bir-biri ilə bölüşürlər. Bütün siniflə müzakirə aparmaq üçün müəllim bir şagirdi qaldırır, fikirlərini soruşur və digər şagirdlər də deyilənlərə əlavələr edə bilərlər. Sonra şagirdlərə Səməd Vurğunun “Azərbaycan” şeirini oxumaq tapşırılır, şeir oxunduqca, onlar iki hissəli gündəliyə qeydlər edirlər. İki hissəli gündəliyi hazırlamaq üçün şagirdlər ağ vərəqi şaquli xətlə iki yerə ayırır və onun sağ və sol tərəflərində aşağıdakı kimi qeydlər aparırlar:




Şagirdlər şeiri oxuyub iki hissəli gündəlikdə qeyd edirlər. Sonra müzakirəni bütün siniflə aparmaq lazımdır. Müzakirədən sonra müəllim şagirdlərdən xahiş edir ki, 10 dəqiqə ərzində "Azərbaycan" şeirinə aid düşüncələrini yazsınlar (bu üsul 10 dəqiqəlik esse adlanır).

**İdeyalar xalısı** – bu üsul oxu dərslərində çətin problemlərin həll edilməsinə kömək göstərir və bir neçə mərhələdən ibarətdir:

I mərhələ - problem qoyulur (müəllim problemi bir gün əvvəl və ya dərsin əvvəlində elan edir).

II mərhələ - problemin səbəbləri müəyyən edilir (nəyə görə belə bir problem mövcuddur?).

III mərhələ - problemin həlli yolları müəyyən edilir (bu problemi həll etmək üçün nə etmək lazımdır?).

IV mərhələ - fərdi iş (şagirdlər göstərilən problemin həlli üçün nə etməyə hazır olduqlarını söyləyirlər).

Bu başqa variantlarda da keçirilə bilər. İdeyalar xalısı üsulu aşağıdakı kimi tətbiq edilir:

1. Müəllim şagirdləri 4-5 nəfərlik qruplara bölür.
2. Dərsin əvvəlində (ya da dərsdən bir gün əvvəl) müəllim oxu dərslərində həll ediləcək problemi elan edir.
3. Müəllim hər qrupa ağ kağız, eyni rəngdən olan 6 kağız zolağı, yapışqan və marker paylayır. Qruplara təklif olunur ki,

verilən problemin səbəblərini aşkara çıxarsınlar və bu səbəbləri kağız zolaqlarına yazsınlar.

4. Qruplar yazıb qurtarandan sonra müəllim onlara deyir ki, kağız zolaqlarını onlara verilən iri kağız üzərində yerləşdirsinlər.

5. Qruplar işini qurtardıqdan sonra müəllim onlara yazdıqlarını oxumağı söyləyir.

6. Növbəti mərhələdə müəllim şagirdlərə başqa rəngdə olan daha 6 kağız zolağı paylayır. Şagirdlər burada problemin həlli üçün nə etməli olduqlarını yazırlar. Bu zolaqlar da iri kağız üzərində yerləşdirilir.

7. Qrupların işini qrup liderləri təqdim edirlər.

8. Növbəti mərhələdə müəllim şagirdlərə yapışqanlı vərəq paylayır və onlardan xahiş edir ki, problemin həlli üçün nə etdiklərini və nə etməyə hazır olduqlarını həmin vərəqin üzərində yazsınlar. Şagirdlər vərəqlərini oxuyur və həmin vərəqləri öz qruplarının xalısı üzərinə yapışdırırlar.

9. İşin sonunda müəllim onlarla kiçik müzakirə keçirir və problemin həlli üçün ən səmərəli yolu seçməyi onlara təklif edir.

10. Bu üsulda qrupların işinin tərtibatı da çox əhəmiyyətlidir. Öz fantaziyalarından istifadə edərək şagirdlər sanki rəngarəng kağızlardan “ideyalar xalısı” yaradırlar.

**Qərarlar ağacı-** bu üsul o zaman tətbiq olunur ki, oxu materialında təqdim olunan problemin bir neçə həlli var və onların hamısı liderlik təşkil edir. Şagird bunun hamısını seçə bilmir. Bu üsul aşağıdakı kimi tətbiq olunur:

- Əvvəlcə, müəllim təhlil ediləcək problemi və onun həlli yollarının bir neçə variantını müəyyənləşdirir. Təklif olunan variantların hamısı eyni dərəcədə real və bərabər əhəmiyyətli olmalıdır ki, onların arasında “lider” variant olmasın.

- Təhlil olunacaq problem iri kağızda aşağıdakı formada təqdim olunur:

| PROBLEM | | | |
|---|---|---|---|
| Problemin həlli yolların “+” və “-“ tərəfləri | Problemin həlli yolu | | |
| | I yol | II yol | III yol |
| | + | + | _ |
| Qərar: | | | |

• Müəllim şagirdləri 4-6 nəfərlik qruplara bölür.

• Müəllim qruplara tapşırığı izah edir. Hər qrupa bu cədvəl çəkilmiş kağız və marker verilir, tapşırığın yerinə yetirilməsi üçün vaxt təyin olunur.

• Qruplar iş zamanı problemin həlli yollarını təhlil edir, hər variantın müsbət və mənfi cəhətlərini müəyyənləşdirir və müvafiq xanaları doldururlar. Bütün variantlar təhlil edildikdən sonra qərar qəbul olunur və variantlardan yalnız biri seçilir:

✓ qrup qərarı yazdıqdan sonra müəllim qərarın üzərini bağlayır;

✓ təqdimat zamanı qrup nümayəndələri yazıları oxuyur, lakin qərarı bildirmir. Müəllim digər qruplardan xahiş edir ki, qrupun qeyd etdiyi müsbət və mənfi cəhətləri nəzərə alaraq onun hansı variantı seçdiyini tapsınlar. Şagirdlərin fikirlərindən sonra qərar xanası açılır;

✓ bütün qruplar öz işlərini təqdim etdikdən sonra müəllim alınmış nəticələrin müqayisəsi və qəbul olunmuş qərarların əsaslı olması istiqamətində kiçik müzakirə aparır. Şagirdlərin diqqətini bu tapşırığın düşünülmüş qərarının qəbul olunmasında kömək etdiklərinə yönəltmək çox vacibdir.

**Təqdimat** (prezentasiya)- şagirdlərin tədqiqat fəaliyyətinin nəticələrinin təqdim edilməsidir. Təqdimat şifahi, yazılı, vizual, rollu və s. formalarda ola bilər. Şagirdlər təqdimatı fərdi və ya qrup şəklində edə bilərlər.

Oxu materiallarının tədrisində yaxşı təşkil olunmuş təqdimat onun növündən asılı olmayaraq şagirdlərin biliklərinin və əqli vərdişlərinin yüksək səviyyəsini göstərir.

**Vəziyyət (situasiya) üzrə praktikum.** Bu üsul hər hansı oxu materialını öyrəndikdən sonra tətbiq edilən üsuldur. Göstərilən üsul şagirdlərdə öyrənilən material üzrə müəyyən bilik və təcrübənin olmasını nəzərdə tutur. Üsulu aşağıdakı kimi tətbiq etmək olar:

➢ Müəllim dərsdə müzakirə olunacaq problem və sualları əvvəlcədən müəyyən edir və onları müxtəlif vəziyyətlər şəklində tərtib edir.

➢ Vəziyyətlər ayrı-ayrı iş vərəqlərində yazılır. Hər vəziyyətə dair suallar və tapşırıqlar qoyulur. Bunların sayı 2-dən 5-dək ola bilər.

➢ Şagirdlər cütlüklərə, qruplara bölünürlər. Hər qrupa bir və ya bir neçə vəziyyəti təsvir edən iş vərəqi verilir.

➢ Tapşırıqları yerinə yetirdikdən sonra qruplar öz işlərini təqdim edirlər.

➢ Qrupların təqdimatından sonra müzakirə keçirilir.

**Qar topası üsulu.** Bu üsul hər bir şagirdə ümumi işə öz töhvəsini vermək imkanı yaradır. Qar topası üsulu şagirdlərə öyrənilən mətn ilə bağlı öz baxışlarını formalaşdırmağı, onu söyləməyi və müdafiə etməyi, birgə qərar qəbul etməyi, güzəştə getməyi öyrədir. Üsul bir neçə mərhələdən ibarətdir:

I mərhələ. Şagirdlərin fərdi işi.

II mərhələ. Qruplarla iş.

III mərhələ. Ümumiləşdirmə və qərarın hazırlanmasında bütün sinfin iştirak etməsi.

Bu üsul aşağıdakı kimi tətbiq olunur:

- Müəllim şagirdlərin qarşısında Azərbaycan dili dərslərində problem və ya sual qoyur və hər bir şagirddən xahiş edir ki, qısa müddət ərzində suala cavab versin. Şagirdlər cavablarını kağız vərəqdə yazırlar.
- Sinif qruplara bölünür. Tədqiq ediləcək sual əvvəlki olaraq qalır. Hər bir qrup bütün üzvlərinin fərdi işlərindən istifadə etməklə öz qərarını hazırlayır və vatman kağıza yazır.
- Qruplar öz işlərini təqdim edirlər.

- Qrupların işləri müzakirə edilərək ən çox təkrar olunan müddəalar müəyyənləşdirilir və ayrıca kağızda yazılır.

**BİBÖ.** Bu hərflərin tam açılışı aşağıdakı mənanı verir: **B - bilirəm, İB - istəyirəm bilim, Ö - öyrəndim.** Bu üsul aşağıdakı mərhələlər üzrə aparılır:

a) problem müəllim tərəfindən elan edilir;

b) müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: - Bilirəm / İstəyirəm bilim / Öyrəndim.

c) şagirdlər oxu dərslərində tədris olunan mətndəki problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur;

d) həmin məsələ ilə bağlı bilmək istədikləri isə 2-ci sütuna yazılır;

e) dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mətnlə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.

Bu üsul şagirdlərin bildiklərini yada salmasında, bilmək istədiklərini araşdırmaqda və bu araşdırmalar əsasında gəlinən nəticələrin onların öyrənməsi kimi üzə çıxarılmasında əhəmiyyətli rol oynayır. Məsələn:

**“Hörümçəklər”( “Azərbaycan dili”, II sinif. 2009, s.110) mətninin oxusunda BİBÖ cədvəlindən istifadəyə dair nümunə:**

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| Hörümçəklər tor hörür. Hörümçək toruna kəpənək milçəklər və ağcaqanadlar düşür | Hörümçək toru necə hörür?Hörümçək necə çoxalır? Hörümçəyin təbiətə nə kimi xeyri var? | Hörümçək toru maye kimi olur, havada bərkiyir. O,yumurta ilə çoxalır,zərərli həşəratları məhv edir. |

**Söz zənciri-** bu üsul əsasən əlifba təlimi dövründə şagirdlərin heca anlayışını inkişaf etdirmək, onlara hecalardan sözlər düzəltmək vərdişi aşılamaq məqsədilə istifadə olunur. Söz zəncirində hər bir sözün ikinci hecası növbəti sözün birinci hecası olur. Məsələn, müəllim lövhəyə lalə sözünü hecalarla yazır: la-lə. Şagirdlərdən biri tire çəkib -çək, digəri –mə, üçüncüsü -na, başqa birisi -nə hecasını və s. yazır və aşağıdakı kimi söz zənciri yaranır: la-lə-çək-mə-na-nə-və-tən-beh

Söz zəncirində sözlərdən də istifadə olunur. Söylənilən hər bir sözün son səsilə başlanan söz söylənilir: Ulduz-zəng-gül-ləçək-kitab-baba-arzu-uşaq-qapı

Kim daha çox söz düzəldə bilir, söz söyləyirsə və bunu tez yerinə yetirirsə, o qalib hesab olunur.

**Klaster (Şaxələndirmə).** Klaster hər hansı bir məfhumun açılmasına, şagirdlərin bu ətrafda geniş, sərbəst düşünməsinə şərait yaradan üsuldur. Məsələn, aşağıdakı nümunədə olduğu kimi:




Bu üsulun tətbiqi zamanı fikirdən fikir yaranır. Üsul həm fərdi, həm də cütlərlə, həm də qrupla həyata keçirilə bilər. Klasteri həyata keçirmək üçün aşağıdakılar lazımdır:

- İri ağ kağız götürülür.
- Kağızın mərkəzində öyrənilən məfhuma aid söz yazılır.
- Həmin sözdən şaxələr ayrılır və yeni fikirlər yazılır.

**Akvarium-** diskussiya vərdişlərini inkişaf etdirmək üçün tətbiq edilən üsuldur. Burada vahid fikrə gəlmək vacib deyil. Əsas odur ki, diskussiya düzgün istiqamətdə aparılsın. Burada şagirdlər iki qrupa ayrılaraq bir-birinin daxilində olan iki dairə yaradırlar. Daxili dairə oxu dərslərində mətndə qoyulan problemi müzakirə edir, xarici dairə isə onların diskussiyanı düzgün aparmağını müşahidə edirlər. Sonra qruplar yerlərini dəyişir və problemin həlli üzrə aparılan işlər davam etdirilir.

**Auksion**. Müəllim oxu dərslərində öyrənilən materialı müəyyən edərək şagirdləri auksionun keçirilmə qaydaları haqqında təlimatlandırır. Öyrənilən oxu materialının xüsusiyyətləri ardıcıl şəkildə adlandırılır. Hamı növbə ilə oxunan material haqqında fikir söyləyir: hər bir fikirdən sonra müəllim sayır: "Bir, iki" bu zaman başqa iştirakçı tez təklif verə bilər, sonuncu təklif verən qalib sayılır. Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir- birini dinləyir. Oyunda axırıncı mümkün cavabı verən şagird "Auksionu" qazanır.

**Venn diaqramı (Mətnlərin müqayisəsi).** Bu üsulun qrafik təsviri bir-biri ilə kəsişən iki və bir neçə dairədən ibarətdir. Bunun mahiyyəti odur ki, dairələrin kəsişdiyi yerdə hər hansı iki anlayışın oxşar, dairələrin özlərində isə anlayışların hər birinə məxsus fərqli cəhətlər yazılır. Venn diaqramı oxu materiallarını müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün istifadə olunan üsuldur. Azərbaycan dili dərslərində oxu materialı təqdim olunur, şagirdlərə həmin mövzuda kiçik mətn yazmaq tapşırılır. Sonra şagirdin yazdığı və dərslikdə təqdim edilən mətnlərin hər ikisinin müqayisəli oxusuna yönəlmiş tapşırıq verilir: Mətnləri oxuyun, hər iki mətndə oxşar və fərqli cəhətləri seçin. Seçərkən aşağıdakı məsələlərə diqqət yetirin:

- sizin   mətninizdə verilmiş məsələlər;
- dərslikdəki mətndə olan məsələlər;
- hər iki mətndə təqdim edilən məsələlər;
- fikirlərinizi Venn  diaqramında verin;
- öyrəndiklərinizdən gəldiyiniz qənaət;
- bir də bu mövzuda mətn qursaydınız nələr əlavə edərdiniz?

Şagirdin tərtib etdiyi mətndə olan məsələlər | Hər iki mətndə olan məsələlər | Dərslikdəki mətndə olan məsələlər



Məsələn, Azərbaycan və Türkiyə bayrağının müqayisəsi savad təlimi dövründə belə verilə bilər:




**Sinkveyn.** “Sinkveyn” (fransızca “beş” deməkdir) beş sətirdən ibarət şeir mənasını verir. Sinkveyn xüsusi qaydalara əsasən yazılan qeyri-adi şeirdir. Qaydalar belədir:

1. Birinci sətir-şeirin həsr olunduğu məfhum, adətən, isimlə ifadə olunur.

2. İkinci sətir-həmin məfhumu təyin edən iki söz, adətən sifətlə ifadə olunur.

3. Üçüncü sətir-məfhumun nə etdiyini yaxud onunla nə baş verdiyini göstərən üç söz, adətən fellə ifadə olunur.

4. Dördüncü sətir-sizin məfhuma münasibətinizi göstərən dörd sözdən ibarət cümlə (cümlə sual və ya xitab formasında ola bilər).

5.Beşinci sətir-verilmiş məfhumla bağlı şagirdin əhvalını, hisslərini təsvir edən bir yaxud iki söz.

Məsələn: Alma
Şirin, dadlı,
Əkirik, becəririk, dəririk.
Hamının sevdiyi vitaminli meyvə
Sağlamlıq, gözəllik.

Sinkveyn oxunmuş kitab və ya tədqiq edilmiş problem haqqında qısa və bədii formada xülasədir. Şagirdlərdə ümumiləşdirmə və interpretasiya bacarıqları formalaşdırır.

**Layihələrin hazırlanması**. Bu üsul şagirdlərin tədqiqatçılıq bacarığının inkişaf etdirilməsi üçün vacibdir. Müəllim oxu materialına aid problemi müəyyən edir və şagirdə layihə hazırlamağı tapşırır. Bu zaman müəllim şagirdlərə layihə üzərində işin başlanma və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri, bunları əldə etmək yollarını, iş formalarını müəyyən edir. İş prosesində müəllim suallara cavab verir və yol göstərir.

Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

**Ziqzaq.** Ziqzaq üsulu mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır. Şagirdlər ilk növbədə dörd nəfərlik qruplara bölünür (əsas qrup). Qrupdakı şagirdlər yenidən 1-dən 4-ə qədər saymaqla eyni rəqəmdən olan şagirdlərdən digər qrup yaradırlar( ekspert qrupu). Öyrəniləcək oxu mətni qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir.

Ekspert qrupları onlara verilən hissəni oxumalı və məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni onlara danışmalıdır. Müəllim informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün suallar verə bilər.

**Karusel.** Dərsdən əvvəl müəllim iri kağızlarda mətnə aid qrupların sayına uyğun suallar yazır. Sonra müəllim hər qrupa müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazırlar. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməyilə qruplara ötürülür. Hər qrupun cavabı fərqli rənglərlə yazılır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir.

**Dəyirmi masa.** Müəllim şagirdləri qruplara bölür və hər qrupa bir vatman kağızı və qrup üzvlərinin sayı qədər rəngli flamaster verir. Hər şagird ona verilən rəngli flamaster ilə yazmalıdır. Müəllim kağıza hər hansı bir fikir yazır. Qrup üzvləri isə bu fikrin davamı olan digər bir fikri vərəqdə bir-birinə ötürərək öz rəngli flamasterləri ilə yazırlar. Bu üsul şagirdlərin hər birinin mövzunu necə mənimsədiyini başa düşmək üçün tətbiq olunan əhəmiyyətli üsuldur.

**T-sxemlər-** bu üsul müzakirə zamanı müsbət və mənfi cavablar üçün ( razıyam, etiraz edirəm), yaxud da müqayisəli fikirlərin qeyd edilməsi üçün istifadə olunur. Müəllim şagirdlərə mətn verir, onlar isə razıyam və ya etiraz edirəm prinsipi ilə oxuyurlar və aşağıdakı cədvəli tərtib edirlər:

| “+” səbəblər | “-”səbəblər |
|---|---|
| 1.<br>2.<br>3. | 1.<br>2.<br>3. |

Cədvəlin tərtibindən sonra iş cütlərlə gedir. 5 dəqiqə vaxt verilir ki, səbəblər yazılsın, birinci 5 dəqiqə ərzində cədvəlin sol tərəfində qoyulan suala cavablar yazılır, ikinci 5 dəqiqə ərzində isə cədvəlin sağ tərəfindəki sualla əlaqədar cavablar yazılır. Sonda isə müəllim bütün fikirləri ümumiləşdirir və ümumi

nəticə çıxarır. Bundan sonra şagirdlər mütaliə yolu ilə mətni öyrənməyə başlayırlar və müzakirə edirlər. Mətnlə tanış olduqdan sonra lazım gəlsə, öz sxemlərində düzəliş aparırlar. Sonda müəllim özünün hazırladığı sxem üzərində şagirdlərin köməyi ilə düzəliş edir və ya cavabları təsdiq edir.

**İşgüzar səs-küy.** Bu üsul müəllimin şifahi şərhindən sonra tətbiq edilir. Bu zaman şagirdlər 3-4 nəfərlik qruplara bölünürlər. Müəllimin təklif etdiyi mətnlər üzrə 4-5 dəqiqə ərzində qruplar üzrə işgüzar müzakirələr gedir. Sonra isə təkliflər, nəticələr əsasında bütün siniflə fikir mübadiləsi aparılır. Bu isə mətnin aydın, düzgün dərk edilməsinə kömək edir.

**Konseptual cədvəl.** Bu üsul üç və ya daha çox obyektin (nağıl, hekayə və dastanın) müqayisəsi zamanı istifadə olunur. Cədvəl qurmaq üçün vərəqin sol tərəfində şaquli qrafada müqayisə ediləcək obyektlər, üfüqi qrafalarda isə onların müqayisə olunacaq xüsusiyyətləri göstərilir.

**Metaforik düşünmə-** bu üsulun mahiyyəti hər hansı iki mətn(nağıl, hekayə, dastan, təmsil, şeir və s.) arasında oxşar cəhətlərin öyrənilməsidir. Məsələn:

Hər ikisi nağıldır
Hər ikisi sehirli nağıldır
Hər ikisi maraqlıdır

Ümumiyyətlə, fəal/interaktiv təlim üsullarının oxu dərsində tətbiqi onların hər birinin oxu materialının öyrənilməsində öz lazımı yerini tutmasından çox asılıdır.

**İNSERT (Nişanlama ilə oxu).** İnsert üsulu səmərəli mütaliə və təfəkkürün inkişafı üçün interaktiv qeydetmə sistemidir. Bu üsul vasitəsilə şagirdlər əvvəllər hansı mətnləri öyrəndiklərini, nələri bilmədiklərini, nəyi yeni bildiklərini, nəyi başa düşmədiklərini işarələr vasitəsilə cədvəldə qeyd edirlər. Bu üsul sanki işarələr üsuludur və işarələrdən istifadə qaydasını şagidlərə öyrədir. Şagirdlər bu üsuldan istifadə zamanı mətndəki informasiyanı saf-çürük edə-edə oxuyur, bir növ mətni "inventarizasiya" edirlər, təqdim olunan informasiyanı qrup-

laşdırırlar. Müəllim mətni nişanlayarkən informasiyanı aşağıdakı kimi bölməyi təklif edir:
**"+"** işarəsi ilə sizə məlum olan informasiyanı qeyd edin;
**"-"**işarəsi ilə sizin əvvəlki biliklərinizə əks olan informasiyanı qeyd edin;
**"!"** işarəsi ilə maraqlı və gözlənilməz olan fikirləri qeyd edin;
**"?"** işarəsi ilə sizin üçün qaranlıq qalan, daha çox öyrənmək istədiyiniz informasiyanı nişanlayın.

| + | - | ! | ? |
|---|---|---|---|
| Mən bunu bilirdim | Bu mənim bildiyimə ziddir | Bu mənim üçün yeni bir məlumatdır | Bu haqda bilmək istəyirəm |

Sonra müzakirələr başlayır və sonda müəllimin ümumiləşdirib nəticə çıxarması ilə başa çatır.

**Kublaşdırma** – bu üsul oxu dərsində öyrənilən mətnə müxtəlif yanaşmalar olduqda lazım gəlir. Belə ki, kartondan hazırlanmış kubun hər bir üzündə aşağıdakı sözlər yazılır.




Şagirdlər mətnlə bağlı kubun hər bir üzünə dair fikirlərini yazırlar. Kub atılır, hər dəfə kubun hansı tərəfi üzüyuxarı dayanırsa, onun ətrafında söhbət gedir. Sinfi qruplara ayırıb hər qrupa kubun bir üzü haqqında danışmaq tapşırığı vermək də olar.

**Əlamətlər cədvəli.** Hər hansı mövzunun tərkib hissələri arasında müəyyən əlamətlərə görə əlaqə yaratmaqda istifadə olunan üsuldur. Bu məqsədlə əlaqələndirici, təhliledici, müqayisəedici suallardan istifadə edilir. Cədvəldə (+) işarəsi fikirlərin doğru olduğunu, (-) işarəsi isə doğru olmadığını bildirir. Məsələn, oxu dərsində hər hansı bir nağıl, dastan və s. qəhrəmanın

müsbət və mənfi cəhətlərini qiymətləndirmək üçün aşağıdakı kimi cədvəl qurmaq olar:

| № | Əlamətlər / Koroğlu | Verilən qiymətə görə | | |
|---|---|---|---|---|
| | | 3 | 4 | 5 |
| 1. | Qəhrəman | — | + | + |
| 2. | Mərhəmətsiz | — | — | — |
| 3. | Cəsur | — | + | + |

**Nəzərdən keçir, oxu, yoxla, çalış (NOYÇ).** Bu oxudan əvvəl, oxu zamanı və oxudan sonrakı fəaliyyətləri əhatə edən üsuldur. Strategiya dörd fəaliyyətin vəhdətindən ibarətdir:

- **Nəzərdən keçir**
- **Oxu**
- **Yoxla**
- **Çalış**

1. **Nəzərdən keçir.** Mətn şagirdlərə təqdim edilir:
   - oxudan əvvəl mətnin başlığı, verilmiş şəkil, qrafik və s. üzərində düşünmək təklif olunur;
   - mətnin ölçüsündən və şagirdlərin hazırlıq səviyyəsindən asılı olaraq mətndəki birinci və sonuncu cümləni və ya abzası oxumaq tapşırılır;
   - şagirdlərə cavab tapmaq istədikləri sualları tərtib etmək tapşırılır;
   - müəllim əvvəlcədən nümunəvi suallar tərtib edir ki, lazım gəldikdə şagirdlərə istiqamət versin və ya onların nəticələrini doğru dəyərləndirə bilsin.
2. **Oxu.** Bu mərhələdə:

- şagirdlər qarşılaşdıqları yeni sözlərin mənalarını aydınlaşdırmaq üçün lüğətlərdən istifadəyə istiqamətləndirilirlər;
- şagirdlər mətnin mənasını dərk etmək üçün hər bir sözün mənasını aydınlaşdırırlar;
- şagirdlər mətni oxuyarkən əvvəlcədən hazırladıqları suallara cavab tapırlar;
- oxu zamanı yeni yaranmış suallar da cavablandırılır.

3. **Yoxla.** Bu zaman şagirdlər öz cavablarının nə qədər keyfiyyətli, anlaşıqlı və aydın olduğunu yoxlayırlar.

Müəllim şagirdlərin nə yazdıqlarını, cavabları haradan və necə əldə etdiklərini müəyyənləşdirmək üçün onlarla əks-əlaqə yaratmalıdır.

4. **Çalış.** "Çalış" son mərhələ olub şagirdlərə öyrənməyi başqa müstəvidə təqdim edir.

- Bu mərhələdə sözlərin iki və daha artıq məna daşıması və bunun da mətnin məzmunun dərk edilməsinə təsiri müzakirə edilir.
- Qruplarda müzakirənin təşkili məzmunun şagirdlər tərəfindən daha dərindən dərk edilməsinə şərait yaradır.
- Mətnin məzmununun dərk edilməsinə təsiri olan bir və ya bir neçə çoxmənalı və ya omonim sözün yazılıb, şərh edilməsi yerinə yetirilir.
- Bütün sinfə bir sual verib, cavabının hazırlanıb təqdim edilməsi tapşırılır.

**Sual vermək üsulu.** Şagirdlərə oxuduğu mətn üzrə sual tərtib etmək və onları asandan çətinə düzmək tapşırılır. Sualların xüsusiyyətləri şagirdin oxuduğu mətni nə qədər dərin dərk etdiyini müəyyən etməyə imkan verir.

**Sual tərtib etməyin üç mərhələsi mövcuddur:** 1.Sualların növlərini müəyyən etmək. 2.Sualları təsnif etmək. 3.Sualları yaratmaq.

**Sualların aşağıdakı növləri var:** Savad səviyyəsini yoxlayan suallar. Kim? Nə? Hara? Nə zaman? sual əvəzlikləri vasitəsi ilə tərtib edilir.

Şərhlərə istiqamətləndirən suallar. Nə nəticəyə gəldiniz? Hansı əlaqələri müəyyən etdiniz? Əvvəlcədən necə olacağını təxmin edə bilərsinizmi?

Əvvəlcə, yaddaşı yoxlayan suallar tərtib edilir, sonra suallar sadədən mürəkkəbə, asandan çətinə düzülür.

Dəyərləndirməyə istiqamətləndirən suallar: Nə düşünürsünüz? Nə kimi fərziyyələr irəli sürə bilərsiniz? Müəllifə hansı sualı verərdiniz?

Sualların səviyyələri aşağıdakı göstəricilərinə görə təsnif edilir:

- mətndə dəqiq cavabı olan;
- cavabı mətnaltı mənada yatan;
- mətnin ideyasına əsaslanan;
- oxucu mühakiməsindən irəli gələn;
- dəyərləndirməyə istiqamətləndirən;
- münasibət bildirən;
- şərhlərə istiqamətləndirən;
- məlumatların tətbiqinə şərait yaradan suallar.

**“Ucadan düşün” strategiyası**

Müəllim “Ucadan düşün” üsulundan istifadə edərkən öz “beyninin pəncərəsi”ni şagirdlər üçün açır və onlara oxu zamanı necə düşünməyin yollarını açıq nümayiş etdirir. Şagirddə yaxşı oxucu üçün mühüm bacarıqlar müəllim tərəfindən əlaqələndirmək, ümumiləşdirmək, nəticə çıxarmaq, dərk edib-etmədiyini yoxlamaq kimi fəaliyyətlərin yardımı ilə modelləşdirilir. “Ucadan düşün” strategiyasından istifadə edilən dərs iki hissəyə ayrılır:

I hissə- mətnin məzmunu üzərində düşünərək oxunun təşkili;

II hissə- mətn üzrə düşünərək oxumaq üçün istifadə edilən üsulların təlimi.

Hər "Ucadan düşün" strategiyası ilə həyata keçirilən oxudan sonra aparılan bu cür "necə oxuduq ki, başa düşdük" fəaliyyəti oxu strategiyalarının şagirdlər tərəfindən nümunələr üzərində mənimsənilməsinə və müstəqil, düşünən oxucunun formalaşmasına gətirib çıxarır.

"Ucadan düşün" strategiyası aşağıdakı fəaliyyətlərdən ibarətdir:

- ilkin bilikləri müəyyənləşdirmək;
- əlaqələndirmək;
- sual vermək;
- məqsədi müəyyənləşdirmək;
- dərk etməni yoxlamaq;
- təsəvvür etmək;
- uşaqların münasibətini öyrənmək və dəstəkləyici fikirlər əlavə etmək.

**Cütlükdə oxuma-cütlükdə ümumiləşdirmə**

Cütlükdə oxuma-cütlükdə ümumiləşdirmə şagirdlərin bir mətni başa düşmək üçün yoldaşı ilə birlikdə tədqiq edərək oxumasını təmin edən bir texnikadır. İş birliyinə əsaslanan bütün tapşırıqlarda olduğu kimi cütlükdə oxuma-cütlükdə ümumiləşdirmə də şagirdin həm özünün, həm də yoldaşının öyrənməsini təmin etmək üçün daha çox təşəbbüs göstərməsini nəzərdə tutur. Bu üsul təfəkkürün oxunulan mətnin daha dərindən başa düşülməsi üçün şərt olan müxtəlif növlərini inkişaf etdirir. Cütlükdə oxuma-cütlükdə ümumiləşdirmə zamanı mətni sadəcə ucadan oxumağa nisbətən 3-4 dəfə çox vaxt tələb olunur. Vaxta qənaət etmək üçün şagirdlərə təklif etmək olar ki, mətndə yalnız ilk 4-6 abzası cütlükdə oxuma-ümumiləşdirmə texnikasından istifadə etməklə oxusunlar, ardını müstəqil oxu ilə davam etdirsinlər. İşin gedişi aşağıdakı kimidir.

I addım: Orta həcmli informativ mətn seçilir. Abzasların qısa olmasına üstünlük verilir. Müəllim mətni işarələyərək daha qısa hissələrə ayıra bilər.

II addım: Əgər şagirdlər bu üsulla ilk dəfə rastlaşırsa, onda əvvəlcə bu üsulun necə tətbiq olunduğunu müəllim öz nümunəsi ilə göstərməlidir.

1.Bir abzas şagirdlərə oxuynur və onun məzmunu ümumiləşdirilir. Bu həmin tapşırığın yerinə yetirilməsi qaydalarından biridir. Ümumiləşdirmənin nə olduğunu izah edin: ümumiləşdirmə mətnin özündən qısa olmaqla onun bütün əsas ideyalarını özündə əks etdirir.

2.Mətnə aid iki sual verilir, şagirdlərdən həmin suallara cavab vermələri xahiş edilir. Bunu həmin tapşırığı icra etmənin ikinci qaydası olduğu şagirdlərin diqqətinə çatdıırılır.

III addım: Şagirdlər cütlərlə birləşdirilir. Şagirdlərdən biri ilk abzası (ya da işarələnmiş hissəni) oxuyur və ümumiləşdirir. Hər bir şagirdin bunu etməsi üçün onlara kifayət qədər vaxt verilir. Bundan sonra bəzi şagirdlərin öz ümumiləşdirmələrini siniflə paylaşması təşkil oluna bilər. Lazım gələrsə, müəllim şərh verir. Sonra digər cütə abzasla bağlı suallar verməsi təklif olunur. Şagirdlər bunu etdikdən sonra tapşırığın anlaşılıb-anlaşılmadığını yoxlamaq üçün şagirdlərdən bir neçəsinin suallarını siniflə paylaşması xahiş edilir.

IV addım: Şagirdlər bu üsulun tətbiqini anladıqdan sonra cütlərdən abzasları oxumağı, ümumiləşdirməyi və suallar verməyə davam etmələri xahiş edilir. Hər bir abzası bitirdikdən sonra onlara rollarını dəyişməli olduğu xatırlanır.

Cütlükdə oxuma-cütlükdə ümumiləşdirmə şagirdləri çətin mətnləri diqqətlə oxumağa sövq edir.

**Dəyər xətti.** Dəyər xətti iş birliyinə əsaslanan bir öyrənmə fəaliyyətidir. Şagirdlərin fərqli fikirlərə malik olması, oxşar fikirləri isə fərqli mənimsəmələri mövzuların öyrənilməsində istifadə olunur. Fikir ayrılıqlarının və ortaq fikirlərin olduğunu qəbul etmək və buna hörmətlə yanaşmaq mühüm insani keyfiyyət kimi dəyərləndirilir. Dəyər xətti şagirdin bir məsələ haqqında ətraflı düşünmək, bu məsələ ilə bağlı öz fikirlərini müəyyən etmək və ya formalaşdırmaq, hər kəsin fərqli fikirlərə sahib ola biləcəyini qəbul etmək və müəyyən

bir məsələdə sahib olduğu baxışları sübut etməsini təmin etmək məqsədi daşıyır. İşin gedişi:

Müəllim bütün sinfə bir sual verir. Bu elə bir sual olmalıdır ki, inamla "hə" cavabından, inamla "yox" cavabınadək müxtəlif rəylər söyləməyə imkan verir. Məsələn, sual belə ola bilər:-Ətraf mühitin qorunması mühümdür, yoxsa insanların zəruri ehtiyaclarını ödəmək?

II.Hər bir şagird bu sual üzərində müstəqil düşünüb cavabını yaza bilər.

III.Müəllim və şagirdlərdən biri sinfin diaqonal boyu künclərində dayanırlar. Mövzu haqqında bir-birinin tam əksi olan iki-üç fikir söyləyirlər.

IV.Şagirdlərdən bu əks fikirlərin əmələ gətirdiyi xəyali xətt üzərində öz fikirlərini əks etdirən bir nöqtədə durmaları xahiş edilir.

V addım: Müəllim şagirdlərin öz fikirlərini bölüşdükləri şəxslərlə bir yerdə durduqlarından əmin olmaları üçün onlara öz fikirlərini yaxınlıqdakı digər şagirdlərlə müzakirə etmələrini söyləyir. Əgər fikirlərini paylaşdıqları şəxslər arasında deyillərsə, onların fikirlərini əks etdirən tərəfə doğru yer dəyişmələrini xahiş edir.

VI addım: Şagirdlər (artıq yeni yerdə) öz cavablarını onlardan hər iki tərəfdə dayanan şagirdlərlə müzakirə etməkdə davam edə bilərlər.

VII addım: Müəllim hər qrupdan mövzu ilə bağlı həmin qrupun fikirlərini ifadə edəcək bir şagird seçir. Digər qrupların ortaya qoyduğu fikirləri dinlədikdən sonra fikrini dəyişən şagird yerini də dəyişməlidir.

Dəyər xətti şagirdlər üçün əyləncəli bir tapşırıqdır. Çünki fikirlərini paylaşarkən sinifdə gəzişmək xoşlarına gəlir. Problem sualla bağlı "mövqe tutmaq" və "öz mövqeyini dəyişmək" nə demək olduğunu fiziki olaraq nümayiş etdirmək onlar üçün maraqlıdır.

**Nə? Nə deməkdir? Nə etməliyik?** Bu, ədəbi-bədii və ya informativ mətnlərdən alınan fikirlərin işlənilməsi üsuludur.

Çox vaxt şagirdlər məktəbdə əldə etdikləri biliklərin real həyatdan çox uzaq olmasından şikayət edirlər. Nə? Nə deməkdir? Nə etməliyik? Metodunun məqsədi şagirdlərə məktəbdə öyrəndikləri ideyalarla real həyatdakı fəaliyyətləri arasında qarşılıqlı əlaqəni tapmağa kömək etməkdən ibarətdir. Bu metodun köməyi ilə şagirdlər mətndəki əsas ideyaları tapmağı, onların praktik nəticələri haqqında düşünməyi, eləcə də bu ideyalar əsasında hansı işlər görməyi öyrənirlər. Mövzu şagirdlərə təqdim olunur (oxu və ya mühazirə vasitəsilə) və müzakirə edilir. Deməli, şagirdlərdə mövzu ilə bağlı artıq ümumi təsəvvürlər vardır. Müəllim şagirdlərin əldə etdikləri fikirlərin (ideyaların) əsasında nələr edə biləcəklərinə sinfin qərar verəcəyini söyləyir.Müəllim lövhədə belə bir cədvəl çəkir:

| **Nə?** | **Nə deməkdir?** | **Nə etməliyik?** |
|---|---|---|
| | | |

Nə? Müəllim şagirdlərdən xahiş edir ki, təqdim olunan mövzu ilə bağlı ortaya çıxan fikirlər içərisində daha mühüm hesab etdiklərini Nə? başlıqlı sütuna yazsınlar. Müəllim şagirdlərdən həmin fikirlərin niyə mühüm olduğunu düşünmələrini istəyir: “Bu fikirlər niyə əsasdır? Bu faktlar və ya fikirlər insanların həyatında nə kimi əhəmiyyət daşıyır”? Müəyyən müzakirədən sonra müəllim mühüm məqamları Nə deməkdir? sütununa yazır.

Nə etməliyik? Müəllim şagirdlərdən müzakirə etdikləri mövzu və ya problemlə bağlı nələr edəcəklərini soruşur. Şagirdlərin bu problemi araşdırmaları üçün onların nə edə biləcəkləri istiqamətində əqli hücum etmələrini istəyir.

Məsələn, əgər ətraf mühitin çirklənməsi problemi müzakirə edilir:

**Ayrı-ayrı şagirdlər nə edə bilərlər?** (*Ş*agirdlər öz öhdələrinə götürdükləri küçələri zibilləməməklə bağlı razılaşma imzalaya bilərlər).

**Şagird qrupları nə edə bilərlər? (**Kiçik şagird qrupları məktəbdə və məhəllərində insanları küçələrə zibil atmamağa çağıran afişalar hazırlaya bilərlər***).***

**Bütün sinfin birlikdə yerinə yetirə biləcəyi işlər? (**Bütün sinif şənbə günləri bir parkda və ya başqa ictimai yerlərdə təmizlik işləri apara bilər).

Çox zaman optimal həll ayrı-ayrı şagirdlərin hansısa şəkildə öz davranışlarını dəyişmələri üçün qərar qəbul etmələrinə səbəb olur. Ancaq aşkara çıxan problemlə planlaşdırılan hərəkətlər arasında dəqiq əlaqə yaratmaq üçün vaxtaşırı sinifdə müzakirələr aparılmasını tələb edən qrup layihələrini həyata keçirmək lazımdır. Eyni zamanda bu fəaliyyəti tamamladıqdan sonra da Nə? Nə deməkdir? Nə etməliyik? cədvəlinin sinifdə asılı qalmasını təmin etmək, şagirdlərin cavablandırdıqları suallar və bu araşdırmada özlərinin bəyəndikləri davranış və hərəkətlər arasında əlaqələri onlara xatırlatmaq üçün faydalıdır.

## İnteraktiv metodların tətbiqində motivasiyanın yaradılması və iş formaları

İnteraktiv metodlarla keçirilən dərs bir neçə mərhələdən ibarətdir. Onlar aşağıdakılardır:

1.Sinfin fəallaşdırılması. (Bu zaman müəllim müxtəlif oyunlardan istifadə edərək sinfi fəallaşdırır).

2.**Motivasiya** (Problemin qoyuluşu, fərziyyələrin irəli sürülməsi, tədqiqat sualının verilməsi).

3.**Tədqiqatın aparılması** (Fərziyyələri və tədqiqat sualına cavabı yoxlamaq üçün faktorların axtarılması).

4.**İnformasıya mübadiləsi** (İnformasiyanın və şəxsi tədqiqatların təqdimatı).

5.**İnformasiyanın müzakirəsi** (İnformasiya müzakirəsi, müxtəlif faktlar arasında əlaqənin tapılması, onların təsnifatı).

6. **Ümumiləşdirmə və nəticə** (Ümumiləşdirmənin tərifi və onun fərziyyələrlə müqayisəsi, onların təsdiq və ya təkzib edilməsi haqqında nəticə, tədqiqat sualına cavab).

7. **Yaradıcı tətbiqetmə** (Faktiki vəzifələrin həlli üçün şəraitdə tətbiqetmə).

8. **Qiymətləndirmə və ya refleksiya** (Şəxsi fəaliyyətin inikası və qiymətləndirilməsi; istənilən mərhələdə keçirilə bilər).

Qeyd edilən dərs mərhələlərinin başlanğıcı olan motivasiya mərhələsi yeni dərsin qurulmasında çox mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi hər bir tədqiqatı başlayarkən problemi ortaya gətirmək lazımdır. Əsl problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün ilk növbədə tədqiqat sualı formalaşdırılmalıdır. Məhz tədqiqat sualı yeni bilgilərin kəşfinə aparan bələdçi, “yolgöstərən ulduz” rolunu oynayır. Fəal təlimin 1-ci mexanizminə əsasən məhz problemin olması idrak fəallığının yaranmasının başlıca addımı olur.

Bəs nə üçün biz dərsin bu mərhələsini məhz motivasiya adlandırırıq?

**Psixoloji amil kimi motivasiya hər hansı fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvədir.** Fəal dərsdə təfəkkür prosesini işləməyə sövq edən və şagirdlərin idrak fəallığını artıran motivasiya qismində ortaya gətirilmiş problem və onun həlli tələbatı çıxış edir. Bu prosesin ən mühüm nailiyyətlərindən biri düşünmə qabiliyyətinin sərbəstliyi və müstəqilliyidir: uşaq öz fikrini "Zənnimcə…" , "Mən belə gəlir ki,…", "Mən belə hesab edirəm ki,…" sözlərindən istifadə etməklə ifadə edir.

Dərsin yüksək səviyyədə qurulması motivasiyanın necə qoyulmasından asılıdır. Motivasiya mərhələsində müəllim tədqiqat sualına giriş etmək üçün müxtəlif yollardan istifadə edir. Ona görə də müəllim tədqiqata başlamazdan əvvəl şagirdlərin idraki fəallığını artırmaq, onların öz bilikləri əsasında özləri tərəfindən tədqiqat sualının tapılması üçün motivasiyadan istifadə edir. Motivasiya üçün istifadə olunan materiallar öz tərtibatı, qeyri-adiliyi, gözlənilməzliyi ilə şagirdlərin diqqətini cəlb etməli və onların təfəkkürünün inkişafına yönəlməlidir.

Ümumiyyətlə, motivasiya yaradılarkən nəzərə alınan amilləri aşağıdakı kimi sistemləşdirmək olar:

- Material qeyri-adiliyi ilə fərqlənməli, şagirdi düşünməyə məcbur etməli, müstəqil təfəkkürü inkişaf etdirməyə yönəlməlidir.
- Materialın təqdimetmə üsulları və formaları şagirdləri fəaliyyətə və tədqiqata həvəsləndirməlidir.
- Fərziyyələri yoxlamaq təqdimat aparmaq imkanı verilməlidir.
- Yaradıcılığa maksimum imkan yaradılmalıdır.
- Müəllim düzgün yönəldici suallar verməli, cavabları dəstəkləməli və istiqamətləndirməlidir.

Bu amillər nəzərə alınarsa, motivasiya dərsin yüksək səviyyədə qurulmasında əsas göstərici funksiyasını yerinə yetirmiş olar. Çünki motivasiyada problem axtarılır və tapılır ki, onun həlli üçün yollar əvvəlcədən qeyd edilə bilsin. Əgər problemin nə olduğu tapılmazsa, məsələ həll edilməmiş qala bilər.

Motivasiyanı müxtəlif yollarla yaratmaq olar. Onlar əsasən aşağıdakılardır:

1) Rəmzi materialın şərhi. Rəmzi material foto, plakat, simvol, bədii əsərdən bir parça, tapmaca, melodiya və s. ola bilər. Müəllim materialı nümayiş və təqdim edərkən sinfə " Bu nəyi bildirir?", " Bu material hansı mənanı ifadə edir?", " Bunu necə izah edə bilərsiniz?" və s. kimi suallarla müraciət edir. Məsələn, ümummilli liderimiz Heydər Əliyev haqqında keçirilən mövzuda motivasiyanı aşağıdakı kimi yaratmaq olar:

Burada dairənin üzəri örtülür, onun altında isə liderimizin fotosu gizlədilir. Uşaqların fərziyyələri öyrənildikdən sonra fərziyyələrin düzgünlüyünü yoxlamaq üçün dairənin üzəri açılır.

2) Sual verməyə həvəsləndirmə. Burada müəllim şagirdləri sual verməyə həvəsləndirərək müstəqil düşünməyə alışdırır. Belə suallar təfəkkür prosesini aktivləşdirməyə yönəlir və onların 3 növü var:

❖ "... haqqında biz nəyi bilirik və nəyi bilmirik? ... haqqında daha nələri bilmək istərdik?" Sual verdikdən sonra müəl-

lim şagirdlərin təfəkkürünü lazım olan istiqamətə yönəldir və onlara bələdçilik edir. Bunun üçün yardımçı suallar verilər, sualda qoyulmuş məsələnin açılmasına kömək edən terminlərdən istifadə oluna bilər.

❖ Əsasən iki və daha çox cavabı olan suallardan istifadə olunur. Çünki konkret cavabı olan suallardan istifadə tədqiqat aparmaq və axtarış üçün kifayət deyil.

❖ Suallar əsasən təməl sözlərin köməyi ilə verilir. Təməl sözlər mövzuda xassə, xüsusiyyət, funksiya, növ, tip, rol, əhəmiyyət, səbəb, əlaqə, qüsur və üstünlük, qayda və s. cəhətləri ifadə edir.

3) Məsələnin, problemin birmənalı olmayan həlli. Bu zaman işin təşkil edilməsi üçün müxtəlif yolların tapılması, məsələnin çox variantlı uğurlu həlli ön plana çəkilir, hər hansı hadisəni törədən bir neçə səbəbin olması onun həlli yolunda da problemlərin hamısının həll edilməsinin gərəkliliyini yaratdığından suallar da bu istiqamətdə qoyulmalıdır. Bu həm də şagirdləri tədqiqata cəlb edərək onların daha obyektiv çıxış yolları axtarmasına şərait yaradır.

Əyaniliyi "qızıl qayda" adlandıran Y.A.Komenskinin fikri ilə razılaşaraq qeyd edə bilərik ki, yuxarıda şərh etdiyimiz motivasiyanın yaradılması üsulları ilə nümunələr göstərərək tanış olsaq onun məzmununu daha yaxşı mənimsəyərik. Bütün bunlarla sübut olunmuş şəkildə yaxından tanış olmaq üçün oxu dərslərində interaktiv metodların tətbiqində motivasiyanın yaradılması ilə bağlı bir neçə nümunəyə baxaq.

**I s i n i f. Mövzu:** Meyvə və tərəvəz ( əşya dərsi)

**Motivasiya:** Müəllim sinfə müxtəlif meyvə və tərəvəzlər gətirir. Sonra onları uşaqlara bir-bir nümayiş etdirərək onların adlarını soruşur, lakin meyvə və tərəvəz qruplarına ayırmır. Daha sonra uşaqlara bunları hansı iki qrupa ayırmaq olar? sualını verir. Cavablar alındıqdan sonra müəllim şagirdlərin dediklərinə qüvvət verərək dərsi davam edir.

**II s i n i f. Mövzu:** Qaranquş

**Motivasiya: Motivasiya** klaster üsulu ilə qurulur. Şagirdlərin fikirləri dinlənilir. Motivasiya tədqiqat sualı ilə yekunlaşdırılır.




**II s i n i f . Mövzu:Heydər Əliyev**

**Motivasiya** anlayışın şıxarılması üsulu ilə qurulur. Bundan sonra Heydər Əliyevin öz səsi ilə "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" sitatı səslən-dirilir. Şagirdlər ulu öndər Heydər Əliyevə məxsus xüsusiy-yətləri söyləyirlər. Tədqiqat sualı müəyyənləşdirilir.




**III s i n i f . Mövzu:** Ə.Xəqaninin "Ana" şeiri

**Motivasiya**: Müəllim şagirdlərdən valideynləri haqqında soruşur. Ata və ananın övladının xoşbəxtliyi üçün çalışması diqqətə çatdırılır. Şagirdlərin fikirləri dinlənildikdən sonra ana məhəbbətindən söz açılır. Şagirdlər anaya məxsus ən gözəl xüsusiyyətləri saymağa başlayırlar. Motivasiya tədqiqat sualı ilə yekunlaşdırılır.

**IV s i n i f. Mövzu:** Üzeyir Hacıbəyovla bir görüş (Kazım Kazımzadə)

**Motivasiya:** Müəllim Ü.Hacıbəyovun "Koroğlu" operasının musiqisini şagirdlərə dinlədir. Sonra onlardan bu musiqini dinləyərkən hansı hissləri keçirdiklərini soruşur. Şagirdlərin fikirlərini öyrəndikdən sonra müəllim bu operanın yaradıcısı olan Ü.Hacıbəyovun da bu operanı yazarkən həmin hissləri keçirdi-

yini, öz vətənpərvərlik ruhunu bu operanın musiqisində əks etdirdiyini şagirdlərin nəzərinə çatdırır. Daha sonra isə mövzunu elan edərək bu şəxsiyyət haqqında daha ətraflı məlumat alacaqlarını şagirdlərə bildirir. Tədqiqat sualı müəyyənləşdirilir.

İnteraktiv metodların tətbiqi zamanı dərsdə müxtəlif iş formalarından istifadə olunur. İş formaları dedikdə, fərdi, cütlərlə, böyük və kiçik qruplarda iş nəzərdə tutulur. Bu iş formalarının hər biri oxu dərslərində şəraitə uyğun olaraq mühüm əhəmiyyət kəsb edir. Ona görə də onların hansı praktik əhəmiyyətə malik olduğunu bilmək üçün onlara ayrılıqda baxaq. Kiçik qruplarla və cütlərlə iş fəal təlim formaları hesab edilir.

Fərdi iş forması dedikdə, dərs zamanı müəllimin şagirdə fərdi yanaşması, onunla ayrılıqda məşğul olması başa düşülür. Bu zaman uşaq öz fikirlərini heç kimdən çəkinmədən müstəqil söyləyə bilir. Bu iş forması əsasən valideynin öz övladı ilə evdə fərdi məşğul olması üçün daha yararlıdır. Cütlərlə iş forması da interaktiv metodların tətbiqi zamanı mühüm əhəmiyyət kəsb edir. Bu iş forması şagirdlərin cüt-cüt, yəni iki-iki işləməsini təmin edir. Cütlərlə iş forması zamanı şagirdlər birgə fəaliyyətə qoşulur, bir-birinə kömək edirlər. Burada əsas məqsəd şagirdlərdə:

- hər hansı bir tapşırığın, qərarın, problemin yerinə yetirilməsində bir-birinə kömək etmələri;
- öz işlərinin (sinif və ya ev tapşırıqlarının nəticələri barədə fikir mübadiləsi aparmaları;
- qarşılıqlı qiymətləndirmə, qarşılıqlı yoxlama keçirmələrni formalaşdırmaqdır.

Bu iş formasının tətbiqi zamanı şagirdlər bir-birilərini dinləməyi, fikirlərini müqayisə etməyi, bir-biri ilə əlaqələndirməyi öyrənirlər. Bu onlara bir-birini daha yaxşı başa düşməyə, əməkdaşlıq etməyə, məsuliyyətlərini dərk etməyə imkan yaradır.

Cütlərlə iş zamanı müəllim cütlərə müxtəlif hekayə verə bilər və o hekayəni oxuyub oradakı əsas mənanı, açar sözləri tapmağı tapşıra bilər. Ya da həmin hekayənin sonunu tamamlamağı şagirdlərə tapşıra bilər.

Qruplarla iş də böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, fəal təlimin əsas iş forması elə qruplarla işdir. Qrup şəklində iş bir neçə şagirdin hansısa problemin həllinə yönəldilmiş birgə, uzlaşdırılmış fəaliyyətidir. Qruplarla işin iki növü var:

a) böyük qruplarla iş (8-10 nəfər)
b) kiçik qruplarla iş ( 4-5 nəfər)

Oxu dərslərində interaktiv metodların tətbiqi zamanı kiçik qruplarla iş formasından istifadə daha məqsədəuyğundur.

Qruplarla iş forması interaktiv metodlarla keçirilən dərslərin demək olar ki, hər bir hissəsinin uğurla keçməsinə şərait yaradan əsas amildir.

Qrup işində öyrədici, tərbiyəvi, inkişafetdirici mühit yaratmaq əsas şərtdir. Tədqiqat aparılmasına imkan yaratmaq, fəallıq, müxtəlif iş formalarından istifadə imkanı, bir-birini dinləmək bacarığı, adaptasiya qabiliyyəti, yaradıcılıq, qısa müddətdə daha çox materialın öyrənilməsi imkanı, təhliletmə və nəticə çıxarma bacarığı, müstəqil tədqiqat aparmaq, təfəkkürün inkişafı, öz fikrini çatdırmaq imkanı və s. kimi məqsədlər, vəzifələr, qabiliyyətlər şagirdlərin inkişafı üçün zəruri imkanlar yaradır.

Bütün bunlarla belə qrup işindən istifadə zamanı müəyyən problemlər də yarana bilər. Onlar əsasən aşağıdakılardır: müəllim qruplara bölmənin əsasını bilmir, təşkilati proseslər dərsin vaxtını alır, səs-küyün aradan qaldırılması alınmır, bütün sinfi idarə etmək üçün diqqətini paylaşdıra bilmir, qrup iştirakçıları arasında iş əməkdaşlıq əsasında qurulmur, şagirdlər işi düzgün istiqamətdə etmirlər, şagirdlər işi əyləncə kimi qavrayırlar, çoxlu sayda kağız istifadə olunur, qrup işi üçün materialların azlığı problemi ilə bağlı şagirdlər məqsədyönlü işləyə bilmir, fikirləri dağılır, işi qısa müddətdə həyata keçirə bilmirlər, ya passiv olmağa alışıb, ya da həddindən artıq fəaldır, bəzi şagirdləri qrupa qəbul etmirlər, və s.

Qeyd edilən problemlərin yaşanmaması, qrupda işin müvəffəqiyyətlə keçməsi üçün müəllim aşağıdakı prinsiplərə riayət etməlidir:

- ✓ işin təşkilini dəqiq fikirləşməli;

- ✓ qrup işinin qaydalarını uşaqlara başa salmalı;
- ✓ qrup işinin məqsədlərini tam təsəvvür etməli;
- ✓ iş üçün lazım olan materialları əvvəlcədən hazırlamalı;
- ✓ qrupda iş qaydalarına riayət edilməsinə nəzarət etməlidir.

Qruplarla iş müxtəlif variantlarda həyata keçirilə bilər:

1. Yaradılmış kiçik qruplar eyni mövzu üzərində müxtəlif materiallarla işləyirlər.
2. Material qruplar arasında bölüşdürülmək üçün böyük deyilsə, bütün qruplar eyni vaxtda eyni materialla işləyir.
3. Eyni material üzərində qruplar növbə ilə işləyirlər.

Yuxarıda qeyd etdiyimiz qrup işinin müxtəlif variantları müəyyən şəraitdən asılı olaraq uyğun variantın işlədilməsi ilə mövzunun şagirdlər tərəfindən daha dərindən başa düşülməsi, öyrənilməsinə zəmin yaradır. Bu mənada qrupda iş müstəqil öyrənmə qabiliyyətlərinin inkişaf etdirilməsinə, təlimin fərdiləşdirilməsinə imkan yaradır və tam mənada şagirdlərin özünü şəxsiyyət kimi hiss etməsinə imkan verir.

Qrupda işin müəyyən üstünlükləri də vardır və onlar əsasən aşağıdakılardır:

- İstedadlı şagirdlər öz qabiliyyətlərini ustalıqla göstərə bilirlər.
- Passiv şagirdlər öz bacarıqlarını açıqlamağa məcbur olunur, qrupda iş onlarda məsuliyyət hissi yaradır.
- Şagirdlər az vaxt ərzində müəyyən ideyalar söyləməyi, bu və ya başqa mücərrəd ideyaya öz şəxsi təcrübəsindən yanaşmağı öyrənirlər.

Qrup işinin üstünlükləri qrupda işin necə aparılmasından əsaslı surətdə asılıdır. Qrupda işi əsasən aşağıdakı kimi aparmaq olar:

1. Sinifdə şagirdləri 4-6 qrupa bölürük. (hər qrupda 4-6 nəfər olmaqla)
2. Sonra qruplar ayrı-ayrı masalar ətrafında əyləşirlər.

3. Qrupların tərkibi müxtəlif olmalıdır. Çalışmaq lazımdır ki, dostların eyni qrupa düşməsinə, "yaxşı" və "pis" qrupların yaradılmasına yol verilməsin.

4. Bütün dərs ili boyu eyni tərkibli qrupların yaranmasına imkan verilməməlidir. Bunun üçün qruplara bölmənin üsullarını hər dəfə dəyişmək lazımdır.

5. Müəllim müzakirə olunan mövzu ilə əlaqədar bir və ya iki sual qoyur, qrupun işinin nəticələrinin nümayişi üsullarını aydınlaşdırır, həmçinin işin görülməsi üçün vaxt müəyyən edir.

6. Şagirdlər işi təqdim etmək üçün öz aralarında bir nəfəri lider seçirlər, nəticə qeyd edilir və təqdim olunur.

7. Müəllim qrup işini müşahidə edir, özü üçün qeydlər aparır, suallara cavab verir, əlavə təlimatlar verir.

8. Verilmiş vaxt bitdikdən sonra müəllim qruplara işi dayandırmağı söyləyir və məruzəçilərdən öz işlərinin təqdimatını etməyi xahiş edir.

9. Müəllim ümumi müsahibəni idarə edir, qrupların işinin yekunlarını tutuşdurur və ümumiləşdirir, onları qiymətləndirir və s. Şagirdləri qruplara bölmək üçün müəllim müxtəlif üsullardan istifadə edə bilər. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Rəqəmləri saymaqla (qrupun sayından asılı olaraq şagirdlər rəqəmləri saya görə sayırlar və eyni rəqəmi söyləyən şagirdlər eyni qrupda olurlar).
- Meyvə adları saymaqla (burada da eyni meyvələri söyləyən şagirdlər eyni qrupda olurlar).
- Həndəsi fiqurları paylamaqla (üçbucaq, kvadrat, düzbucaqlı, dairə, kub və s.).
- Rəngli fiqurları paylamaqla (müxtəlif rənglərdə olan fiqurları seçən şagirdlər eyni qrupda olurlar – sarı, qırmızı, göy, yaşıl və s.).
- Fərqli konfetlər paylamaqla (əsasən ibtidai siniflərdə).
- Hər hansı bir şəklin hissələrinin yığılması ( hər iştirakçı eyni şəklə aid hissələri birləşdirir və eyni şəklin hissələrinin olduğu şagirdlər bir qrupda olurlar).

- Müxtəlif əşyaların paylanması (eyni əşyaları götürən şagirdlər bir qrupda formalaşır).
- Vərəqlərdə müxtəlif fənlərin adının yazılması ilə (oxu, riyaziyyat, Azərbaycan dili, təsviri incəsənər və s.).
- Heyvanların adlarını saymaqla (pişik, şir, dovşan və s.).
- Müxtəlif gülləri seçməklə (eyni gülü seçən şagirdlər bir qrupda olur) və s.

Qruplara bölmənin üsulları çox müxtəlifdir. Qeyd etdiyimiz üsullar əsasən sadə üsullardır və ibtidai siniflərdə istifadə olunur. Ümumiyyətlə, "Azərbaycan dili" dərslərində interaktiv metodların tətbiqində göstərilən iş formaları dərs zamanı mövzuya giriş rolunu oynayaraq interaktiv dərsin formalaşmasına şərait yaradır. İş formalarından sonra dərsdə interaktiv təlim üsullarının tətbiqinə əsaslı zəmin yaranır. Qrup şəklində təlim "müəllim-şagird" dialoqundan imtina edilməsini və "müəllim-qrup-şagird "üçlüyünün qarşılıqlı münasibətlərinə keçməyi nəzərdə tutur. Qrup işinin gedişində şagirdlərin birgə fəaliyyəti nəinki əməkdaşlıq və müxtəlif problemləri bir yerdə həll etməyi öyrədir, həm də:

- hər bir şagirdin idrak prosesini fəallaşdırır;
- hər bir uşağa öz fikrini söyləmək və başqalarını dinləmək imkanı verir;
- şagirdlər problemin həllində müxtəlif baxışların, yanaşma və üsulların mövcudluğunu qəbul edir;
- öz imkanlarını və qrupun digər üzvlərinin imkanlarını dərk edir və qiymətləndirmə üçün əlverişli şərait yaradır.

Bu da öz növbəsində, bütün sinfin təlim prosesində öz bacarıqlarını həyata keçirməsi və nümayiş etdirməsi, özünə inamın artması, özünü tam dəyərli şəxsiyyət kimi dərk etməsi, problemin həlli üçün vacib olan fərdin və qrupun qarşılıqlı surətdə bir-birini tamamlaması prinsipini mənimsəməsi hesabına hər bir uşağın müstəqil şəxsiyyət kimi inkişafını təmin edir. Qrupda iş eyni zamanda biliyi sərbəst əldə etmək bacarıqlarının inkişaf etməsi üçün şərait yaradır.

# IV FƏSİL

# SAVAD TƏLİMİNİN METODİKASI

## Savad təliminin məqsəd və_vəzifələri

**Əsas istiqamətlər:**

- **Savad təliminin məqsəd və_vəzifələri**
- **Savad təliminin üsulları**
- **Savad təliminə hazirliq dövrü**
- **Savad təlimi dövrü**
- **Savad təlimindən sonrakı dövr**
- **Savad təlimi dövründə nitq və təfəkkürün inkişafı**

Savad təlimi şagirdlərin təhsilinin, gələcək inkişafının bünövrəsi hesab edilir. Bu dövrdə başlıca **məqsəd** uşaqlara ilkin oxu və yazı bacarıqları aşılamaq, onların təlimə marağını, oxu və yazı texnikasını, nitqini, təfəkkürünü inkişaf etdirməkdir.

Bu məqsədə çatmaq üçün aşağıda qeyd olunan **vəzifələr** yerinə yetirilməlidir. Şagirdlərə:

1. Dilimizə məhəbbətlə yanaşmaq və onu öyrənmək həvəsi aşılanır.

2. Başqasının nitqini dinləmək bacarığı öyrədilir.

3. Artikulyasiya aparatı inkişaf etdirilir.

4. Ünsiyyət şəraitinə görə səsin gücünü tənzimləmək bacarığı öyrədilir.

5. Nitqin sürətini, intonasiyasını duymaq, nitq səslərini düzgün tələffüz etmək bacarığı öyrədilir.

6. Sözləri, cümlələri, kiçik həcmli mətnləri düzgün, bütöv sözlərlə oxumaq texnikası öyrədilir.

8. Hərfləri kalliqrafik cəhətdən düzgün, səliqəli, rabitəli, yazmaq, müxtəlif şəraitdə onları bir-birilə düzgün bitişdirmək bacarığı öyrədilir.

9. Sözləri və kiçik həcmli mətnləri üzündən köçürmək, imkan daxilində imla yazmaq öyrədilir.

10. Ətraf aləm haqqında təsəvvürləri genişləndirmək və lüğət ehtiyatını zənginləşdirmək.

11. Rabitəli və obrazlı nitqə yiyələnmələrinin əsasını qoymaq[1].

Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramında (kurikulumu)(I-IV sinif) I sinif üzrə təlim nəticələri və məzmun standartları aşağıdakı kimi müəyyənləşdirilmişdir:

**I sinfin sonunda şagird:**

•dinlədiyi sadə fikrə münasibət bildirir;

•müşahidələrə əsaslanan danışığında, dialoji nitqində sadə nitq etiketlərindən və mimikalardan istifadə edir;

•mətndəki yaxınmənalı sözləri izah edir və cümlədə işlədir;

•kiçikhəcmli mətni düzgün oxumaqla məzmununu nəql edir, əsas fikri müəyyənləşdirir;

•nəzm və nəsri fərqləndirir;

•hərfləri sözləri və kiçikhəcmli mətnləri hüsnxət qaydalarına uyğun yazır, müşahidə xarakterli mətn qurur, əməli yazılar yazır;

•səs və hərfi fərqləndirir, sözləri hecalara ayırır, böyük və kiçik hərfi fərqləndirir, ad, əlamət, hərəkət bildirən sözləri, məqsəd və intonasiyaya görə cümlələri tanıyır və fərqləndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Dinləyib-anlama və danışma**

**Şagird:**

*1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.*

1.1.1. Dinlədiyi sadə fikrin mahiyyətini şərh edir.

1.1.2. Dinlədiyi fikrə münasibətini bildirir.

*1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.*

1.2.1. Müşahidə etdiyi əşya, hadisələr haqqında və şəkillər üzrə danışır.

---

[1] Bax: Y.Kərimov. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, s.75

1.2.2. Dialoqlarda sadə nitq etiketlərindən istifadə edir.
1.2.3. Nitqini müvafiq mimika və jestlərlə müşayiət edir.

**2.Oxu**

**Şagird:**

*2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.*

2.1.1. Mətndə rast gəldiyi yeni əşya və hadisələri adlandırır.
2.1.2. Mətndəki müəyyən olunmuş sözləri yaxın¬mənalı sözlərin köməyi ilə izah edir.
2.1.3. Mətndə öyrəndiyi yaxınmənalı sözləri cümlədə işlədir.
2.1.4. Mətndən sadə bədii ifadələri seçir.

*2.2. Oxu texnikası və ilkin oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir.*

2.2.1. Kiçikhəcmli mətnləri düzgün tələffüz etməklə oxuyur.
2.2.2. Müxtəlif bədii mətnləri (nəzm, nəsr) fərqləndirir.
2.2.3. Mətnin şəkilli planını tutur.
2.2.4. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir.
2.2.5. Mətnin məzmununu nəql edir.

**3. Yazı**

**Şagird:**

*3.1. Yazı texnikasına və ilkin yazı bacarıqlarına yiyələndiyini nümayiş etdirir.*

3.1.1. Hərflərin elementlərini və konfiqurasiyasını müəyyən olunmuş xətt boyunca düzgün yazır və bitişdirir.
3.1.2. Əl yazısı şəklində olan sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür.
3.1.3. Şəklə uyğun cümlələr qurub yazır.
3.1.4. Bir neçə cümlədən ibarət müşahidə xarakterli rabitəli mətn yazır.
3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən sadə əməli yazılar (açıqca) yazır.

**4. Dil qaydaları**
**Şagird:**
*4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.*
4.1.1. Səs və hərfi fərqləndirir.
4.1.2. Sözləri hecalara ayırır.
4.1.3. Böyük və kiçik hərfləri fərqləndirir.
4.1.4. Hərfləri əlifba sırası ilə sadalayır.
4.1.5. Ad, əlamət və hərəkət bildirən sözləri tanıyır və fərqləndirir.
4.1.6. Cümləni tanıyır və əsas əlamətlərini sadalayır.
4.1.7. Məqsəd və intonasiyaya görə cümləni fərqləndirir.

Müəllim savad təliminin sonunda konkret şəkildə aşağıdakılara nail olmalıdır:

1. Şagird dəqiqədə 30-35 sözü sürətlə, bütöv sözlərlə (çətin sözləri hecalarla) oxumağı bacarmalıdır.

2. Şagird 20-25 sözdən ibarət cümlələri və mətni hərf buraxmadan, hərf əlavə etmədən üzündən köçürməyi bacarmalıdır.

3. 10-35 sözü, həmçinin həmin həcmdə mətni müəllimin diktəsi ilə yazmağı bacarmalıdır.

Bu vəzifələri yerinə yetirmək o qədər də asan məsələ deyildir. Ona görə də savad təlimi dövründə istifadə olunan metodlar həmişə qabaqcıl müəllimləri, metodistləri, tədqiqatçı alimləri düşündürməlidir.

## Savad təliminin üsulları

Tarixə nəzər saldıqda məlum olur ki, savad təlimi zamanı, əsasən, üç metoddan istifadə olunmuşdur:
1. Analitik üsul
2. Sintetik üsul
3. Sintetik - analitik üsul

**Analitik üsul** tamdan hissəyə istiqamətində aparılan təhlildir. Analitik üsul nitqdən cümlənin ayrılması, cümlədən sözün ayrılmas, sözdən hecanın ayrılması, hecadan səsin(hərfin)

ayrılması(təhlili) kimi nəzərdə tutulur. Təhlil ümumidən xüsusiyə doğru aparılır.

**Sintetik üsulla** aparılan dərslərdə təlim hərflərin və müvafiq səslərin öyrədilməsindən başlanır, sonra əvvəlcə səslərə ayrılmadan hecalar, nəhayət, sözlər oxudulur. Təlim xüsusidən ümumiyə, hissələrdən bütövə doğru gedir. Bütün hərflər səslə əlaqələndirilir və səslərin sayı ilə hərflərin sayı eyniləşdirilir.

**Analitik-sintetik** üsul savad təlimi üçün daha münasib üsuldur. İbtidai siniflərdə savad təlimi dövründə analitik-sintetik üsulun iki variantından istifadə edilir: **1)səs təhlil-tərkib üsulu;**

**2) səs-heca təhlil-tərkib üsulu.**

**Səs metodu** (üsulu), XVI əsrdə alman pedaqoqu İqelzamer tərəfindən irəli sürülmüş, sonra həmyerlisi H.Stefani tərəfindən (1804) təkmilləşdirilmişdir. Bu metoda görə şagirdlər səsləri öyrəndikdən sonra saitləri samitlərlə və əksinə samitləri saitlərlə birləşdirmək üzrə məşq edir, heca yaradırdılar. Şagirdlər səslərdən heca, hecalardan sözlər, sözlərdən cümlələr düzəldirdilər. Onlar oxumağı öyrəndikdən sonra yazı üzrə iş aparılırdı.

XIX əsrin 40-cı illərində Rusiyada səs metodu, yaxud sövti üsulla dərs keçmək geniş yayılmışdı. Rusiyada səs metodunun banisi K.D.Uşinski sayılırdı. Böyük rus pedaqoqu K.D.Uşinski səs metodunun daha təkmil variantını işləmiş, səs təhlilinin canlı nitq üzərində təşkilinin səmərəli olduğunu zəruri saymışdır. K.D.Uşinski savad təlimi dövründə eşitməyə əsasən sözlərdən səsləri ayırmağı, saitlərin tələffüz asanlığını nəzərə alaraq birinci növbədə saitlər üzərində iş aparmağı lazım bilirdi. O, sait səslərin öyrənilməsinin "oxunun açarı" olması qənaətinə gəlmişdir. K.D.Uşinski savad təlimi dövründə ilk növbədə açıq hecaların(samit-sait+samit-sait, smsa+smsa, məsələn, ma-ma) öyrədilməsini məsləhət bilirdi. K.D.Uşinski samitlərin öyrədilməsində diqqətli olmağa, sözdən samit səslərin ayrılması üçün düzgün metodlardan istifadə etməyə ciddi əhəmiyyət ve-

rirdi. Böyük rus pedaqoqunun səs təhlili və tərkibi ilə əlaqədar metodik priyomları savad təlimi dövrü üçün xüsusi əhəmiyyət kəsb edir. Məsələn:

- sözlərdən verilmiş səsin tapılması;
- verilmiş səslərə aid sözlərin seçilməsi;
- sözlərin hecalara və səslərə ayrılması;
- səslərdən hecaların və sözlərin düzəldilməsi;
- saitlərin yerdəyişməsi(tar, tor, şar, şor);
- samitlərin yerdəyişməsi(tar, şar, tor, top).

K.D.Uşinski səs təhlil-tərkib metodunu qarşılıdlı şəkildə eyni zamanda aparılmasını, səs təhlilinin sonunda hərflərin təqdimindən sonra oxuya başlamağı lazım bilirdi.

K.D.Uşinskinin səs metoduna dair fikirlərinin davamçısı İ.Paulson səs metodunun bir tərəfli təhlil kimi aparılmasının tam dəyərli olmadığı qənatinə gəlmişdir. O, səs metodunu daha da inkişaf etdirmiş, səs təhlilini onun əksi olan tərkib prosesi ilə vəhdətdə aparılmasını məqbul saymışdır. İ.Paulson bu metodu **səs təhlil-tərkib metodu** adlandırmışdır.

Azərbaycanda səs metodunun(sövti üsulun) tərəfdarı M.F.Axundov olmuşdur. Azərbaycanda bu üsulla təlimə Qori müəllimlər seminariyasının müəllimi A.O.Çernyayevski "Vətən dili" dərsliyini(1882) yazdıqdan sonra başlanmışdır. "Vətən dili" dərsliyi Azərbaycanda sövti üsulla yazılan ilk dərslikdir. A.O.Çernyayevskidən sonra R.Əfəndiyev sövti üsulla "Uşaq bağçası" adlı dərslik(1888) yazmışdır. Daha sonra Təbrizdə, Gəncədə sövti üsulla yazılmış dərsliklər çap olunmuşdur.

Sovet hakimiyyətinin ilk dövrlərində(1920-1934) savad təlimində bütöv söz metodundan istifadə edilmişdir. (Bu metod Amerikan metodu adlanırdı. Uşaqlar görmə qavrayışı ilə 150-200 söz öyrəndikdən sonra oxumağa başlayırdılar). 1934-cü ildə təlimdə həmin metoddan imtina olunmuş, **səs-heca təhlil-tərkib** metoduna yer verilmişdir.

**Müasir savad təliminin elmi əsasını dilimizin fonetik səs sistemi təşkil edir. Nitq səslərinin öyrənilməsi savad təliminə hazırlıq dövründən başlanır.** Savad təliminə hazırlıq

dövründə şagirdlərin fonematik eşitmə qabiliyyətləri inkişaf etdirilir. Bu da öz növbəsində şagirdlərin dilimizin səs sistemi ilə praktik tanışlığını təmin edir. Şagirdlər nitqimizi təşkil edən cümlələrin sözlərdən, sözlərin hecalardan, hecaların nitq səslərindən əmələ gəldiyini öyrənirlər. Onlar nitq səslərindən heca, hecalardan söz, sözdən cümlə, cümlədən nitq qurmaq kimi ilkin bacarıqlara yiyələnirlər.

Səs təhlil-tərkib metodunun xüsusiyyətləri aşağıdakılardır:

1. Oxu təliminin əsasını səslər üzərində iş təşkil edir. Bu zaman şagirdlər dilimizin əsas **səsləri** ilə tanış olurlar. Belə ki, sagird eşitdiyi sözün səs tərkibini və səslərin sözdə düzülmə ardıcıllığını müəyyənləşdirməyi bacarmalıdır. Sözdən ayrılmış səsin qrafik işarəsi olan hərfin təqdimi də bu mərhələdə yerinə yetirilir. Şagirdlər nitqdən sözləri, sözlərdən səsləri seçməyi və bu səsləri hərflərlə ifadə etməyi öyrənirlər.

2. Savad təlimi zamanı səslərin öyrədilməsi söz üzərində səs təhlil-tərkib prosesində baş verir. Burada səsin **təhlili tərkiblə** müşayiət edilir.

K.D.Uşinskinin səs təhlil-tərkib metodunu professor Y.Kərimov aşağıdakı sxemlə əyaniləşdirmişdir[1]:




Sxemi belə izah etmək lazımdır: nitqdən cümlə, cümlədən söz, sözdən heca, hecadan səsin(hərfin) ayrılması təhlil;

[1]Bax: Y.Kərimov. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, s.94-103

əks istiqamətdə isə yəni səs-hərfdən heca, hecadan söz, sözdən cümlə düzəltmək, cümlədən nitqdə istifadə etmək isə tərkib hesab edilir. Səs təhlil-tərkib metodu savad təliminin əsas metodudur. Savada yiyələnmə, ilkin oxu və yazı bacarıqlarını mənisəmə prosesində səs təhlil-tərkib metodundan istifadə edilir.

Metodistlər səsin ayrılıqda tələffüzünün çətin olduğunu başa düşdülər. S.P.Redozubov səs-hərf həlqəsinin kifayət qədər səmərəli olmadığı qənaətinə gəldi. O, səslə hərfin eyniləşdirilməsinə gətirib çıxaran bu metodun oxunu çətinləşdirdiyini qeyd edirdi. Hərflərlə oxuda isə sözün tərkibində olan hər bir samit səs sait səslə birgə tələffüz olunduğu üçün oxu prosesini ağırlaşdırırdı. Şagird kitab sözünü oxuyarkən beş səs əvəzinə səkkiz səs tələffüz etmək(kı-i-tı-a-bı) məcburiyyətində qalırdı. Oxunu hecalarla öyrənmə meyli də məhz buradan yarandı. Oxu vahidi heca götürüldüyü üçün **oxu metodu da səs-heca təhlil-tərkib metodu adlandırıldı.**

Səs təhlil-tərkib metodunda ən kiçik vahid səs idisə, səs-heca təhlil-tərkib metodunda ən kiçik vahid **samit + sait** tipli açıq heca, **sait+samit** tipli qapalı heca kompleksidir.

Metodik ədəbiyyatda açıq hecaya üstünlük verilir. Azərbaycan dilində əksər fellər qapalı hecalardan ibarət olduğundan açıq hecalarla iş aparmaq nisbətən çətindir.

Açıq heca hissələrə ayrılmayan tələffüz vahididir(na, nə, ta, tə və s). İlkin oxu prosesində hecalarla oxunun təşkili şagirdin oxuya asanlıqla qoşulmasına imkan verir. Belə ki, şagird sait səsi **oriyent** qəbul edərək samit sait (sm+sa) hecasını (ma, mə, sa, so və s.) birbaşa tələffüz edəcəkdir. Səs-heca təhlil-tərkib üsulunun üstünlüyü odur ki, məhz **mövqeli oxunu** təmin edir. Səslər müxtəlif mövqelərdə(yerlərdə) müxtəlif cür deyilir: Lalə, ləçək sözlərindəki l kimi, qız, qəşəng, qüvvə sözlərindəki q kimi və s.

Səs-heca təhlil -tərkib metodunun müxtəlif priyomları vardır.

**Səs təhlili(analiz) priyomları.** Səs təhlili sözlərdəki səslərin ayrılması ilə başlanır. Uzanan səsləri, əsasən saitləri və uzadıla bilən samitləri m,ş,r,l,s,x,v,f sözün əvvəlində və axırında uzatmaqla ayırmaq olur. Məsələn, mmmal, şşşar, daşşşş, balll, ovvv və s.

Cingiltili samitləri ancaq sözün əvvəlində ayırmaq lazımdır çünki onlar söz sonunda karlaşır. Məs: zzzəng, lllampa. Saitlər sözün əvvəlində sərbəst heca təşkil etdikdə yaxşı ayrılır: a-na, o-caq, u- şaq, ə-la.

Ani tələffüz edilən kar samitlər sözlərin axırında asanlıqla ayrılır: kö-k, sa-t, to-p və s. Sözün əvvəlində başqa samitlərlə yanaşı işlənən ani tələffüz edilən samitlər əvvəldə daha yaxşı ayrılır: q-ram, s-təkan və s.

Bu prosesdə şagirdlər bəzi fonetik məlumatlara yiyələnir, səslərin tələffüz məxrəci ilə tanış olur, sait səslərin maneəsiz, samit səslərin maneələrə rast gəlməklə tələffüz olunduğunu öyrənirlər. Şagirdlər bu prosesdə səs və hərf anlayışlarını da fərqləndirməyi öyrənirlər. Uşaqlar uzun və ani tələffüz edilən samitləri fərqləndirirlər.

Səslənməsinə görə bənzər səslərin fərqləndirilməsi üzrə işlərin də böyük əhəmiyyəti vardır. Bunun üçün bir səsə görə fərqlənən sözlər üzrə iş daha faydalıdır: xal-şal-nal-fal-çal-sal; qal-zal-bal; tar-tor-tur-tər; şad-şal-şan-şam-şar ilk dəstədəki sözlər birinci, ikincidəkilər ikinci, üçüncüdəkilər isə üçüncü səslərlə fərqlənirlər.

Hecaların müqayisəsi üzrə də iş aparıla bilər: birlik-briqada, pillə-plitə, qarpız-qrafin.

Sonralar tələffüzcə yaxın səslərin fərqləndirilməsi üzrə işlər aparılmalıdır: az-as, zal-sal, zər-sər, zaman-saman, dar-tar, od-ot, ad-at, dələ-tələ, dər-tər, qab-qap, bas-pas, qar-kar, qal-kal, nal-mal, şan-şam, dən-dəm və s.

**Səs tərkibi (sintez) priyomları.** Səs tərkibi priyomlarına yiyələnmək şagirdlərin sözləri, hecaları bitişik oxumasını, eyni zamanda mövqeli oxusunu təmin edir.

Tərkib priyomunda eyni saitlə əmələ gələn hecaların oxunması üzrə iş ən sadəsidir: na, ta, lə, ra, da, nu, tə, lu, ru, də, nə, to, lo, ro, do yaxud bu hecaların iştirak etdiyi sözlərin oxunması üzrə iş: tələ, dənə, Na-nə, Tə-ra-nə və s.

İkinci hal saiti dəyişməklə heca və ya söz yaradıb oxumaq, yəni, na, no, nu, nə, ni; ta, to, tu, tə, ti; la, lo, lu, lə, li; ra, ro, ru, rə, ri hecalarının və ya Nanə, Lalə kimi sözlərin oxunması üzrə işdir. Şagirdlər əlifba təliminin ilk mərhələsində açıq-qapalı hecaların oxunmasını mənimsədikdən sonra müxtəlif sait və samitlərdən yaranmış hecaları və sözləri də oxuya bilirlər.

Tərkib priyomlarından ən çox yayılanı sözü genişləndirməklə yeni söz yaratmaqdır. Bunun ən çox üç variantından istifadə edilir:

1.Sözün əvvəlinə səs artırmaqla: al-nal, əl-dəl, il-lil, ad-dad, ay-yay, at-yat, on-don, un-yun, oyun-qoyun, az-yaz, ayaz-dayaz.

2. Sözün axırına səs artırmaqla: əl-ələ, at-ata, dən-dənə, dar-dara, xal- xala-xalat, ox-oxu-oxut.

3. Sözün ortasına səs artırmaqla: tala-tarla, sol-stol, qaraquş-qaranquş, salam-sağlam və s.

Heca cədvəli və kəsmə əlifba ilə işin təşkili şagirdlərin heca ilə oxu texnikasına yiyələnməsini optimallaşdırır[1].

## I sinifdə Azərbaycan dili üzrə məzmun və planlaşdırma

"Azərbaycan dili" dərsliyi üzrə 1-ci sinifdə Azərbaycan dilinin tədrisinin yeddi mərhələdə keçirilməsi nəzərdə tutulur. Burada mərhələlər aşağıdakı bölmələr şəklində təqdim olunmuşdur[2].

---

[1] Bax: Y.Kərimov. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, s.105-110

[2] Bax: S.Abdullayeva, R.İsmayılov, D.Cəfərova, G.Orucova. Azərbaycan dili, 1-ci sinif, Müəllim üçün metodik vəsait. Bakı, 2012, s.4-10

**İllik planlaşdırma**

| Bölmə | Mövzu | Saatların miqdarı | Həftə sayı |
|---|---|---|---|
| I | Hərf təliminə hazırlıq(18 saat-2 həftə)<br>A, N, Ə, L, M, İ, T, B hərfləri (36 saat-4həftə) | 54 | 6 |
| II | R, İ, D, Y, O, S, U, K hərfləri | 36 | 4 |
| III | P, Ş, E, V, Z, Ü, Ö, G hərfləri | 36 | 4 |
| IV | Q, X, Ğ, C, Ç, H, F, J hərfləri | 36 | 4 |
| V | Ailə və məktəb | 36 | 4 |
| VI | Nağıllar aləmində | 46 | 5 |
| VII | Yaxşı nədir, pis nədir | 35 | 4 |
| Cəmi | | 279 | 31 |

Cədvəldən göründüyü kimi, Azərbaycan əlifbasına daxil olan 32 hərf dərslikdə səkkizliklərə bölünmüş, hər səkkiz hərfin tədrisi üçün 36 saat, yəni bir dərs ayı ayrılmışdır. Beləliklə, müəllimlər hər səkkiz hərfdən sonra kiçik summativ qiymətləndirmə aparmalıdırlar.

Hərflərin tanıdılması dövründə hər həftə 4 saat (2 qoşa saat) ayrıldığından şərti dərs həftəsi ərzində 2 hərfin tədrisi nəzərdə tutulur. 9-cu saat həftə ərzində öyrədilən 2 hərf üzrə təkrara həsr olunur.

1-ci sinifdə Azərbaycan dilinin həftədə 9 saat olmaqla 31 saat həftə, yəni 279 saat ərzində tədrisi nəzərdə tutulur. Məlumdur ki, kiçik summativ qiymətləndirmələr 4-6 həftədən bir aparılır və bu dövrü əhatə edən hər bir tədris mərhələsi dərslikdə əks olunmuş müəyyən bir bölməyə (mövzuya) uyğun gəlməlidir.

Planlaşdırmanın bu cür aparılması hər bir yeni hərfin tədrisinin həftənin birinci gündən başlanmasını nəzərdə tutur. Hərf təlimindən sonrakı bölmələrdə də planlaşdırma 9 saatdan (2+2+2+2+1) ibarət şərti dərs həftələri üzrə aparılır.

Lakin dərslik 4 il müddətində istifadə edildiyindən hər il üçün təqvim planının MMV-də(Müəllim üçün metodik vəsait) verilən ümumi planlaşdırmaya uyğunlaşdırılması müəllimlərin öhdəsinə buraxılır. Vəsaitdə verilmiş hər dərs müəyyən bir mövzunun tədrisinə həsr edilir və bir neçə saatı əhatə edə bilər. Burada şərh edilmiş fəaliyyətlərin saatlar üzrə bölgüsü də müəllimin ixtiyarına verilir. Sinfin səviyyəsindən asılı olaraq dərslər üzrə təqdim edilmiş materiallar bəzi müəllimlərə az, digərlərinə çox görünə bilər. Belə olduqda müəllimlər seçim edə və ya analoji tapşırıqlar hazırlaya bilərlər.

## 1.Dərslikdə mövzuların şərhində istifadə olunan dizayn elementləri

- Müəyyən mövzuya həsr olunmuş hər bir dərs bu dərsə aid məzmun standartları və təlim məqsədlərini əks etdirən cədvəllə başlanır.
- Motivasiya və qiymətləndirmə də daxil olmaqla dərsin hər bir mərhələsini bildirən başlıq altından xətt çəkilmiş göy rəngli şriftlə fərqləndirilir.
- Dinləmə üçün nəzərdə tutulmuş mətnlər goy rənglə verilir.
- Müəllimin sözləri və sualları kursivlə verilir.
- Tapşırıqların cavabları və şagirdlərin təxmin edilən cavabları qırmızı rəngli şriftlə verilir.
- Tövsiyə olunan təlim üsulları və fənlərarası inteqrasiya qara, qalın şriftlə fərqləndirilir.
- Hər bir dərsin şərhində müəyyən məzmun standartının hansı məqamda reallaşdığını bildirmək üçün müvafiq abzasın qarşısında göy şriftlə standartın nömrəsi verilir.

## 2.Məzmun standartlarının şərhi və reallaşma mexanizmləri

İbtidai siniflərin müəllim üçün metodik vəsaitində (MMV) verilən hər bir bölmənin əvvəlində cədvəldə mövzular üzrə reallaşdırılan məzmun standartları öz əksini tapır. Oxu, yazı və dil qaydaları üzrə elə məzmun standartları var ki, bütün hərflər tanıdılana qədər onların reallaşdırılması qeyri-mümkündür. Ona görə də ilk bölmələrdə bəzi məzmun standartlarına yer verilməməsini təbii qəbul etmək lazımdır.

Aşağıda hər bir məzmun standartının mahiyyəti şərh olunur və alt-standartların tədris prosesində reallaşdırılması yolları açıqlanır. Bu təlim məqsədləri (gözlənilən şagird nailiyyəti) məzmun standartlarına doğru aparan addımlardır. Onların əksəriyyəti dərs nümunələrində öz əksini tapır.

Vəsaitdə şərh olunan hər bir dərs bir neçə alt-standartın reallaşdırılmasına xidmət edir.

**Dinləmə.** Dinləmə şifahi nitqin qavranılması, beyində mənalandırılmasıdır. Məktəbə gələnə qədər şagirddə fiziki vərdiş şəklində mövcud olan bu bacarıq dərs şəraitində sistemli şəkildə inkişaf etdirilir. Hərflərin təliminə qədər və təlimi prosesində istənilən sözlü məlumat uşaqlara, əsasən, şifahi nitq yolu ilə çatdırılır, odur ki, 1-ci sinif şagirdində dinləmə bacarığının formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Buna vaxtaşırı dinləmə mətnləri üzrə iş aparmaqla nail olmaq mümkündür. Bu zaman müəllim bəzi məqamları nəzərə almalıdır:

- Mətni səsləndirən müəllim elə yerdə dayanmalıdır ki, bütün uşaqlar onu görə bilsinlər.
- Mətn aramla və intonasiya ilə oxunmalıdır. Natiqin səsi sinfin hər bir guşəsində eşidilməlidir.
- Mətn çox uzun olmamalı, ən çoxu 2 dəqiqədən bir fasilə verilməlidir.
- Fasilələrdə verilən suallar uşaqların diqqətini mətn üzərində cəmləməli, onları mətnin davamına daha diqqətlə qulaq asmağa stimullaşdırmalıdır.
- Şagirdlər hər an mətn üzrə sual verməyə həvəsləndirilməlidirlər.

• Müəllim mətndə səslənən hər hansı bir sözün uşaqlar üçün tanış olmadığını ehtimal edərsə, nitqə fasilə verməli və yeni sözün mənasını uşaqlarla birlikdə açıqlamalıdır.

İlk günlərdən şagirdlərə dinləmə qaydalarını başa salmaq və onlara əməl olunmasına nəzarət etmək lazımdır.

• Şagirdlər öz yerlərində rahat olmalı, partaların üstündə və ümumiyyətlə, sinifdə onların diqqətini yayındıracaq heç bir şey olmamalıdır.

• Müəllim danışarkən (oxuyarkən) şagirdlər onun jest və mimikalarını izləməlidirlər.

• Şagird bilməlidir ki, şifahi nitq bitdikdən sonra o, nitqi dinlədiyini sübut etməlidir.

**Danışma.** Dinləmə kimi, danışma da şifahi nitq bacarığıdır. Lakin dinləmədən fərqli olaraq, danışma qavrama, anlama deyil, bildiklərini və düşündüklərini şifahi nitq vasitəsilə ifadə etmək bacarığıdır. Danışma bacarığının inkişafında üç mərhələni qeyd etmək olar:

1.Gördüyünü (şəkil) sözlə təsvir etmək.

2.Dinlədiyini öz sözləri ilə təkrar etmək.

3.Düşündüyünü danışmaq.

İbtidai təhsil pilləsində danışma bacarığının inkişafına şəkillərin təsvirindən başlamaq məqsədəuyğundur. Bunun üçün dərslikdə müxtəlif kompozisiyalı şəkillər verilmişdir. İlkin mərhələdə bu şəkillər ətrafında iş konkret suallar ətrafında getməlidir(“Şəkildə nə görürsən?”, “Oğlan nə edir?”,”Top nə rəngdədir?” və s.). Daha sonra uşaqlar rabitəli nitq quraraq şəkli bütövlükdə təsvir edirlər. Sonrakı mərhələdə uşaqlar mətni dinləməklə yanaşı, həmin mətnə çəkilmiş illüstrasiyaları da izləyirlər.

Düşündüyünü danışmaq şifahi nitq bacarığının inkişafında daha ali mərhələdir. Bunun üçün şagirdin mənəvi dəyərlər haqqında təsəvvürləri, müəyyən bilik dairəsi və kifayət qədər söz ehtiyatı olmalıdır. Bununla belə, bu bacarıq da ilk günlərdən formalaşdırılmalı və inkişaf etdirilməlidir. Danışma bacarığını inkişaf etdirmək üçün sinifdə müzakirələr zamanı hər bir

şagirdin özünüifadəsi üçün dəstəkliyici şərait yaradılmalıdır. Bunun üçün aşağıdakılar tövsiyə olunur:

- Uşaqlara tez-tez “Sən olsaydın, nə edərdin?” sualı verilməlidir. Belə olduqda problem uşağın şəxsi müstəvisinə keçir və onda danışmaq həvəsi yaranır.
- Daha çox açıq tipli düşündürücü suallar verilməlidir. Bu suallar “Səncə...” sözü ilə başlasa, yaxşı olar. Hər bir uşaq hiss etməlidir ki, onun fikri ətrafdakılar üçün əhəmiyyətlidir.
- Hər bir şagirdin fikrinə, yanlış olsa belə, hörmətlə yanaşılmalıdır. Yanlış danışmaq yox, heç danışmamaq pislənməlidir.
- Verilən suallar müvafiq yaş qrupunun maraq dairəsinə yaxın olmalıdır.
- Suala cavab vermək üçün şagirdə fürsət, cəsarət və kifayət qədər vaxt verilməlidir. Nə qədər ki danışmaq istəyir, onun sözü kəsilməməlidir.

**Oxu.** Məktəbdə təhsil almağa başlayan şagirdlərin çoxu müəyyən qədər dinləmə və danışma bacarıqlarına malik olsa da, hərfləri tanımır və əlbəttə ki, oxuya və yaza bilmir. Cümlənin sözlərdən, sözün isə səslərdən ibarət olması haqqında uşağın təsəvvürü olmur.

1-ci sinifdə “Oxu” məzmun xəttinin inkişafını üç mərhələyə bölmək olar: 1) hərf təliminə hazırlıq, 2) hərf təlimi və oxu texnikasına yiyələnmə, 3) oxu texnikasının inkişafı və şüurlu oxu.

İlk gündən şagirdlərə kitabla davranış qaydaları aşılanmalıdır. Şagird:

- Kitab oxuyarkən partada düzgün oturmalı, belini əyməməlidir.
- Kitabı tutarkən, onu açarkən və səhifələyərkən ehtiyatlı davranmalıdır.
- Kitabla göz arasındakı məsafə 25-30 sm olmalıdır.

Hərf təliminə hazırlıq mərhələsində şagirdlər səs və hecalarla sxemlər vasitəsilə tanış olurlar. Azərbaycan dilində hər hərf bir səsi işarə edir. (Yalnız “k” hərfi iki səsi ifadə edir). Bu,

eşidilən səslə onun yazıda işarəsinin-hərfin eyniləşdirilməsi prosesini asanlaşdırır. Ona görə də hərflərin tanıdılmasına səslərin tanıdılmasından başlamaq daha məqsədəuyğundur. Bu prosesi bir neçə mərhələyə bölmək olar:

1. Söz şəkil vasitəsilə tanıdılır.
2. Sözdəki səslər ayrılıqda tələffüz edilir. Səslər yazıda kvadratla işarə olunur.
3. Şagirdlər sözlərdə səslərin sayını, təkrarlanan eyni səsləri ayırd edirlər.
4. Söz hecalara bölünərək tələffüz olunur. Hecalar yazıda düzbucaqla işarə olunur.
5. Şagirdlər sözlərdə hecaların sayını, müxtəlif sözlərdə eyni hecaları tapırlar.

"Bir hərf-bir səs" fonetik sistemi bu metodikanın tətbiqinə imkan yaradır. Bu sxemlərdən hərf təlimi mərhələsində də istifadə olunur.

Beləliklə, ilkin mərhələlərdə oxumaq üçün sözlər seçərkən şəkillə təsvir oluna bilən konkret isimlərə üstünlük verilir. Lakin çalışmaq lazımdır ki, 1) şəkildə təsvir olunan varlıq şagirdə tanış olan müəyyən bir sözlə ifadə olunsun (adı sinonim sözlərlə ifadə olunan şəkillərdən istifadə olunmasın), 2) şəkilləri ifadə edən sözlərin səs və hərf tərkibi eyni olsun.

Şüurlu oxu mərhələsində verilən mətnlər vasitəsilə şagirdin oxu texnikası təkmilləşdirilir və oxuyub-anlama bacarığı formalaşdırılır. 1-ci sinifdə oxu zamanı orfoepik normalara əməl etməyi tələb kimi qoymaq hələ tezdir. Bu, oxu texnikasına və şüurlu oxu bacarığına yiyələnmənin sürətinə mənfi təsir göstərə bilər.

Şagirdlərdə birinci sinifdən etibarən mütaliə vərdişi yaradılmalı, bunun üçün "Oxu" məzmun xətti, sadəcə olaraq, oxu texnikasının inkişafı ilə məhdudlaşmamalıdır. Şagirdləri oxuduqları mətnlərlə bağlı araşdırmalar aparmağa, mövzu üzrə daha çox məlumat toplamağa, bildiklərini başqaları ilə bölüşməyə, ətrafdakıların bu haqda fikirlərini başqaları ilə bölüşməyə, ətrafdakıların bu haqda fikirlərini öyrənməyə sövq etmək lazım-

dır. Mütaliə edən sinif üçün daim diskussiya mühiti yaratmaq, şagirdlərə düşündüklərini müzakirəyə çıxarmaq imkanı vermək lazımdır. Oxu məzmun xətti Kurikulumda iki **əsas** məzmun standartına ayrılır: 1) Söz ehtiyatı (2.1), 2) Oxu texnikası və oxuyub-anlama (2.2)

**Yazı.** Müşahidələr göstərir ki, əlinə yeni qələm alan uşaqlar, adətən, bir qədər sağa əyilmiş cizgilər çəkirlər. Pedaqoqlar uşaqların bu təbii (fizioloji) vərdişlərinə əks getməmək üçün 1-ci sinif üçün dərsliklərdə əl yazısı şəklində olan hərfləri soldan sağa əyilmiş şəkildə verməyi məsləhət görürlər. İbtidai siniflər üçün yazı dəftərlərində də düz üfüqi xətləri müəyyən bucaq altında kəsən maili xətlər verilir ki, bu, yazı vərdişlərinə yeni alışan uşaqların işini asanlaşdırmaq məqsədi güdür.

Hərf təliminə qədərki dövrdə şagirdlər sadədən mürəkkəbə doğru müxtəlif cizgi çalışmaları icra edirlər ki, bu da onların əlini qələmə alışdırmaq və yazı vərdişi yaratmaq məqsədi daşıyır. Dərslikdə bu cür cizgilərin nümunələri verilir. Müəllim yazı taxtasında cizgi çalışmalarını icra etməklə əlin yuxarı və aşağı, sağa və sola hərəkətini nümayiş etdirməlidir.

İlk məşğələlərdən şagirdlərə partada oturmaq, dəftəri qoymaq, qələmi tutmaq qaydaları öyrədilməlidir. Şagird yazarkən bədəni çox qabağa əyməməli, döşü partaya dirəməməlidir. Əllər partanın üstündə olmalı, sağ qolun dirsəyi partadan azca kənara çıxmalı, baş azca aşağı əyilməli, dəftərlə göz arasında təxminən 25-30 sm məsafə saxlanmalıdır. Qələm bərk sıxılmamalı, qələmin ucu ilə barmaq arasında 3 sm məsafə saxlanmalıdır. Bütün bu qaydalar ilk günlərdən başlayaraq hərf təlimi dövründə hər yazı yazarkən təkrar edilməlidir.

1-ci sinif şagirdlərində bilək əzələlərinin möhkəmləndirilməsini təmin etmək məqsədilə aşağıdakı təmrinlərə dərs prosesində 1-2 dəqiqə ayırmaq məqsədəuyğundur:

- barmaqları ovucun içində yumub-açmaq;
- barmaqları növbə ilə yumub, bir neçə dəfə yumruq düzəltmək;

❖ əllərin barmaqlarını çarpazlaşdırıb, birlikdə yumruq düzəltmək;

❖ əlləri qabağa uzadıb gah sağ, gah sol əl ilə bir neçə dəfə yumruq düzəltmək;

❖ əvvəl sağ, sonra sol əli ilə qabağa uzadıb barmaqları qeyri-ahəngdar şəkildə oynatmaq;

❖ əlləri açıb partanın üstünə qoymaq, barmaqları növbə ilə partaya vurmaq;

❖ dirsəyi partaya qoyub, qolu dik tutmaq, yumulmuş əli biləkdən gah sağa, gah da sola fırlatmaq.

Dərslikdə əl yazısı nümunəsində verilmiş hərfin başlanğıc nöqtəsi və qələmin hərəkət istiqaməti oxlarla göstərilir. Şagirdlər bu təsvirə baxaraq əvvəlcə barmaqları ilə havada hərfi çəkirlər. Sonra dəftərdə həmin hərfin elementlərini və hərfin özünü yazırlar. Daha sonra dərslikdə əl yazısı ilə verilmiş sözlər, cümlələr üzündən köçürülür. Hərf təlimi mərhələsindən başlayaraq şagird yalnız gördüyünü deyil, dinlədiyini və düşündüyünü də yazmağa alışdırılır. Oxu texnikasının inkişafı mərhələsində onlar artıq şəklə uyğun cümlələr qurub yazmaq, rabitəli mətn yazmaq bacarıqlarını nümayiş etdirməlidirlər.

**Dil qaydaları.** Linqvistik qaydalar nitq vərdişlərinin inkişafına kömək edən vasitədir. Bununla yanaşı, dilçilik özü də inkişafda olan bir elmdir və digər elmlər kimi, onun da əsasları orta məktəbdə tədris olunmalıdır. Dilçilik qaydaları real nitqdən təcrid olunmuş şəkildə əzbərlənməməli, şifahi və yazılı nitqdə müvafiq situasiyalarda tətbiq olunmaq üçün öyrənilməlidir.

### 3.Səs və hərfin tanıdılması

Dərslikdə və vəsaitdə hər bir hərfin tanıdılmasına 2 səhifə (1 qoşa səhifə) ayrılmışdır. Hər hərf 4 saat ərzində tədris olunduğuna görə 2 qoşasaat bir dərs kimi qəbul olunur. Bu müddət ərzində bir neçə məzmun standartı əhatə edildiyindən dərsə 5-6 təlim məqsədi qoyulur.

Səs və hərfin tanıdılması ilə bağlı qoşasəhifənin ikinci səhifəsində dinləmə və danışma üçün illüstrativ material və ya oxu üçün nəzərdə tutulmuş mətn, mənimsəməni və ya məntiqi

təfəkkürü inkişaf etdirən çalışma, yazı (üzündənköçürmə) bacarıqlarının inkişafı üçün nəzərdə tutulmuş örnəklər verilir.

**Dərs strukturunun idrak taksonomiyasının mərhələlərinə uyğunluğu**

Azərbaycan dili üzrə məzmun standartlarının mahiyyətində idrak taksonomiyasının mərhələli prinsipi öz əksini tapır. Belə ki, "Oxu" və "Dinləmə" məzmun standartları anlamağa, mənimsəməyə, dərk etməyə yönəlmişdirsə, "Danışma" və "Yazı" məzmun xətləri özünüifadəni, tətbiqetməni nəzərdə tutur. Odur ki, dərslikdə və müəllim üçün vəsaitdə bu ardıcıllığa riayət olunmuşdur: **oxu, sonra danışma, yazı və ya dil qaydaları, yaxud dinləmə, sonra danışma, yazı və ya dil qaydaları.**

**Dərslərin şərhində materialların məzmun xətləri üzrə qruplaşdırılması**

Yuxarıda deyildiyi kimi, dərslərdə müvafiq fənn kurikulumunda nəzərdə tutulan məzmun standartları **anlama→dərketmə→tətbiqetmə** prinsipi üzrə inteqrasiya olunur. Hər bir dərsin şərhi motivasiya ilə başlanıb qiymətləndirmə ilə bitir. Bununla yanaşı, əsas hissə də mərhələlərə bölünür ki, hər bir mərhələ müəyyən məzmun xətti üzrə fəaliyyəti nəzərdə tutur. Bir mərhələ daxilində müvafiq məzmun xəttinə aid olan bir və ya bir neçə məzmun standartı reallaşdırıla bilər və ya əsas məzmun standartı digər məzmun xətlərinə aid standartlarla inteqrasiya oluna bilər.

Hərf təlimi dövründəki dərslərin bir çoxunda "Oxu" məzmun xətti iki dəfə təkrar olunur. Birinci mərhələdə müvafiq hərfin tanıdılması və oxu texnikasının inkişafı (st. 2.2.1), 2-ci mərhələdə isə oxuyub-anlama və oxu bacarıqlarının inkişafı (st.2.2.2-st.2.2.5) nəzərdə tutulur. Bu mərhələlərdən hər biri özündən sonra tətbiqetməni (danışma və ya yazını) nəzərdə tutduğundan onları bir mərhələ daxilində birləşdirmək qeyri-mümkündür.

Hər bir hərfin təliminə ayrılmış 4 saatı bir dərs kimi nəzərdən keçirmək lazımdır. Müəllimlər həmin dərslə bağlı təqdim olunan materialları öz tələblərinə uyğun saatlar üzrə bölə bilər-

lər. 2-ci qoşa saat üçün motivasiya materialını müəyyən etmək də müəllimin öhdəsinə buraxılır.

**Tədris materiallarının sadədən mürəkkəbə doğru ardıcıllığı**

Dərslikdə "sadədən mürəkkəbə" prinsipi iki istiqamətdə həyata keçirilir:

1.Eyni çalışma modeli əvvəlcə sadə, sonra isə daha mürəkkəb formada verilir:

**4.1.2. Sözləri hecalara ayırır**-standartını reallaşdırmaq üçün əvvəlcə ikihecalı sözlər verilir. Sonradan eyni tapşırıq üçhecalı sözlər əsasında yerinə yetirilir.

2. Eyni məzmun standartını reallaşdırmaq üçün əvvəlcə sadə, sonradan daha mürəkkəb çalışma modelindən istifadə olunur. Məsələn:

**2.2.3 Mətnin şəkilli planını tutur**-standartı aşağıdakı mərhələlərdə reallaşdırılır:

**1. Mətnlə şəkil arasındakı uyğunsuzluğu müəyyən edir.**

Mətnə çəkilmiş illüstrasiyada müəyyən bir detal yanlış təsvir olunur. Şagird mətni diqqətlə oxumaqla bu uyğunsuzluğu müəyyən edir.

**2.Mətni mənaca bitkin hissələrə ayırır.**

Mətnin müəyyən bitkin hissəsini əhatə edən başlıq (ifadə, cümlə) seçilir. Şagird həmin başlığın aid olduğu hissəni müəyyən edir.

**3.İllüstrasiyanın mətnin hansı hissəsinə aid olduğunu müəyyən edir.**

Mətnə çəkilmiş illüstrasiya konkret bir epizodla bağlı olur. Şagird mətndən həmin hissəni tapıb oxumalıdır.

**4.Mətnin sujet xəttinə əsasən illüstrasiyaların ardıcıllığını müəyyən edir.**

Mətndəki hadisələri əks etdirən illüstrasiyalar qeyri-ardıcıl verilir. Şagirdlər şəkillərin mətnə uyğun ardıcıllığını müəyyən edirlər.

**5.Oxuduğu mətndəki hadisələrin ardıcıllığını şəkillərin köməyi ilə müəyyən edir.**

Mətnin hissələri qeyri-ardıcıl, həmin hissələri əks etdirən illüstrasiyalar isə süjet xəttinə uyğun ardıcıllıqla verilir. Şagird şəkillərin köməyi ilə mətnin ardıcıllığını müəyyən etməlidir.

## 4.Fəndaxili və fənlərarası inteqrasiya

Dərslikdə və müəllim üçün metodik vəsaitdə verilmiş istənilən tapşırığın məqsədi "Azərbaycan dili" üzrə müəyyən məzmun standartını reallaşdırmaqdır. Lakin bu məqsədi həyata keçirmək üçün bəzən başqa fənnin məzmun standartı vasitə kimi çıxış edir və bu zaman **fənlərarası inteqrasiya** baş verir. Məsələn, 44-cü dərsdə toplama və çıxma əməllərini yerinə yetirməklə sözü tapmaq tələb olunur: **mağara-ra+za=?** Bu tapşırıq **4.1.2. Sözləri hecalara ayırır**-alt-standartını reallaşdırmaq üçün qoyulur. Lakin onu yerinə yetirmək üçün şagird riyaziyyat fənnində qazandığı biliklərdən istifadə etməlidir.

Yuxarıda deyildiyi kimi, Azərbaycan dili üzrə məzmun standartlarından bəzilərinin dərketmə, digərlərinin tətbiqetmə mərhələsinə aid olması bir çox hallarda **fəndaxili inteqrasiyaya** yol açır. Məsələn, verilmiş mətndə bir neçə əlamət bildirən söz buraxılır və onları yerində işlətməklə mətni oxumaq tələb olunur. Bu tapşırığı yerinə yetirməklə şagird həm oxuyub-anlama bacarığını nümayiş etdirir, həm də əlamət bildirən sözün hansı varlığa aid olduğunu müəyyən edir (st.4.1.5).

Dərs nümunələrində fəndaxili inteqrasiya zamanı inteqrasiya olunan alt-standartlar bəzən epizodik xarakter daşıdığından təlim məqsədi səviyyəsinə çıxarılmır.

## 5.Çalışma modellərinin müxtəlifliyi

Kurikulumda təsbit olunmuş məzmun standartlarını reallaşdırmaq üçün dərslikdə və müəllim üçün vəsaitdə onlarla müxtəlif çalışma modelindən istifadə olunur. Dərslikdəki tapşırıqlar şagirdlərdə oxu bacarığının, məntiqi, analitik və tənqidi təfəkkürün inkişafına xidmət edir.

• **Uyğunluğu müəyyən et (**İki sütunda sözlər verilir, müəyyən uyğunluğa görə sözləri cütləşdirmək tələb olunur).

• **Doğru, yoxsa yanlış?** (Mətn oxunduqdan sonra cümlələr verilir, şagirdlər mətnin məzmunundan çıxış edərək doğru və yanlış fikirləri fərqləndirməlidirlər).

• **Biri fərqlidir** (Daha çox dil qaydalarının mənimsənilməsi üçün istifadə olunmaqla yanaşı, şagirdlərdə məntiqi təfəkkürü inkişaf etdirir).

• **Ardıcıllığı müəyyən et** (Şagirdlər şəkillərə əsasən mətnin və ya mətnə əsasən şəkillərin ardıcıllığını müəyyən etməlidirlər).

• **Açar sözləri seç** (Şagirdlər mətnin məzmununun açılmasına daha çox xidmət edən sözləri seçməlidirlər).

• **Əsas fikri atalar sözü ilə ifadə et** (Verilmiş atalar sözlərindən mətnin ideyasına uyğun gələnlər seçilməlidir).

• **Mətni davam etdir** (Mətnin oxunmasına fasilə verilir və şagirdlər təxəyyüllərinə uyğun hadisələrin davamını təxmin edirlər).

• **Mətni adlandır** (Şagirdlər məzmundan çıxış edərək mətnə fərqli başlıq seçirlər) və s.

## 6.Ətraf mühitə qayğı, milli-mənəvi dəyərlər, həssaslıq və inklüzivlik

Hələ hərf təlimi dövründə bir sıra hərflərin tanıdılması ilə bağlı verilən sözlər arasında işğal olunmuş bölgələrimizin adları, vəsaitdə isə həmin bölgələrlə bağlı məlumatlar verilir.

"Nurlan" (dərs 25), "Etibar inam deməkdir" (dərs33), "Göy göldə" (dərs 40), "Qayğı" (dərs 44), "Çörək bərəkətdir" (dərs 47), "Himnimiz" (dərs 92), "Anam işdən gələcək" (dərs 98), "Ana yurdum" (dərs 104), "Qarabağ" (dərs 105), "Novruz" (dərs 106) və digər bu kimi mətnlər vasitəsilə uşaqlara böyüklərə hörmət, anaya, ana vətənə məhəbbət, dövlət atributlarımızla bağlı qürur hissi aşılanır.

"Yardım" (dərs 25), "Baba və nəvə" (dərs 34), "Dənizdə" (dərs36), "Quşların dostları" (dərs 41), "Cabir babanın bağında" (dərs 45) və bir sıra başqa mətnlərin əsas qayəsini ətraf mühitə qayğı, ana təbiətə məhəbbət təşkil edir. Vəsaitdə bu dərslərin şərhi zamanı sözügedən mövzu dəfələrlə vurğulanır və onun vacibliyi müəllimlərin diqqətinə çatdırılır.

İnklüzivliyi təmin etmək məqsədi ilə bəzi mətnlərdə və şəkillərdə fiziki qüsuru olan uşaq obrazlarına yer verilmişdir. Məsələn, "Quşların dostları" mətninə çəkilmiş illüstrasiyada quşlar üçün dənlik düzəldən uşaqlar arasında əlil arabasında uşaq təsvir olunmuş və bu cür insanların cəmiyyətimizə inteqrasiyası, onlara qarşı həssas münasibətə diqqət verilmişdir.

Dərsliyin sonuncu bölməsində verilmiş "Yoldaşlıq köməyi" hekayəsinin baş qəhrəmanı isə Xocalıdan qaçqın düşmüş bir uşaqdır. Keçirdiyi stres nəticəsində onun nitqində qüsur yaranmış, kəkələməyə başlamışdır. Lakin dostlarının həssas münasibəti nəticəsində onun bu qüsuru zaman keçdikcə aradan qalxır.

## 7.İnnovativ metodların tətbiqi və interaktiv təlim üçün zəmin yaradılması

Dərsin məqsədinə uyğun olaraq metodun seçilməsi ən vacib məsələlərdən biridir.Bu, standartların daha səmərəli şəkildə reallaşdırılmasına imkan yaradır. Kurikulumda da qeyd olunduğu kimi, interaktiv təlimə zəmin yaradan innovativ metodlar təlim məqsədlərinə daha effektli şəkildə çatmağa kömək edir.

İlk dərslərdən etibarən ən sadə tapşırıqlar yolu ilə şagirdlər qruplarla və cütlərlə işləməyə alışdırılırlar. Sonradan "Auksion","Karusel","Şaxələndirmə", "Anlayışın çıxarılması", "BİBÖ, Venn diaqramı, "Beyin həmləsi" kimi metod və üsullarla şagirdlərdə əməkdaşlıq, rəqabət, cəld düşünmək, sərbəstlik kimi keyfiyyətlər inkişaf etdirilir. Şagirdlərdən yüksək səviyyədə mühakimə yürütmək bacarığı tələb edən bir sıra metodlar (debat, akvarium) da var ki, onlardan ən sadə şəkildə yalnız dərs ilinin sonuna yaxın istifadə olunur.

## Savad təliminin sistemi. Savad təliminə hazırlıq dövrü

**Savad təliminin sistemi dedikdə, bura savad təliminə hazırlıq dövrü, savad təlimi dövrü, savad təlimindən sonrakı dövr aid edilir.** Deməli, savad təlimi üç dövrə ayrılır: 1) savad təliminə hazırlıq dövrü; 2) savad təlimi dövrü; 3) savad təlimindən sonrakı dövr.

**Savad təliminə hazırlıq dövrü.** Savad təliminə sentyabrın 15-dən başlanır, fevralın 4-də başa çatır. Bu dövrdə uşaqlar ilkin oxu və yazı texnikasına yiyələnirlər. Düzgün, sürətli, ifadəli və şüurlu oxunun bünövrəsi yaradılır, lüğət üzrə iş davam etdirilir.

Savad təliminə hazırlıq dövrü üçün planlaşdırmada iki həftə vaxt ayrılır. Bu dövrdə adından məlum olduğu kimi, uşaqları savad təliminə hazırlamaq nəzərdə tutulur. Savad təliminə hazırlıq uşağın fiziki, psixoloji, sosial-iradi cəhətdən təlimə hazır olması, onun ümumi inkişafı, nitqinin normal inkişaf etməsindən asılı olaraq təşkil olunur. Uşaq fiziki, psixoloji, sosial-iradi cəhətdən təlimə hazır olarsa, onun ümuminkişafı, nitqi normal inkişaf edərsə, savad təliminə hazırlıq dövrü səmərəli keçəcəkdir. Belə ki, savad təliminə hazırlıq dövrü şagirdlərin fonematik eşitmə qabiliyyətlərinin formalaşdırılmasına həsr olunur. Uşaqlara dinləməyi və eşitməyi, baxmağı və görməyi öyrətmək son dərəcə vacibdir. Şagirdlər savad təliminə hazırlıq dövründə uşaqlarda düzgün qulaq asmaq, müəllimin və yoldaşlarının dediklərini düzgün eşitmək, müəllimin dediklərinə əməl etmək, eşitdiklərini yadda saxlayıb, yerinə yetirmək bacarığı tərbiyə edilməlidir. Savad təliminə hazırlıq dövründə fonematik təhlil çox mühüm əhəmiyyət kəsb edir. Fonematik təhlil prosesində şagirdlər nitq səslərinin düzgün tələffüzü üzrə bacarıqlara, səs təhlili və tərkibi üzrə iş zamanı isə savad təliminə hazırlığa yiyələnirlər. Nitq səslərinin düzgün tələffüzü uşaqları oxu texnikasına hazırlayır.

Müəllim I sinfə gələn şagirdlərin təlimə hazırlıq səviyyələrini, fərdi xüsusiyyətlərini hərtərəfli öyrənməlidir. Uşaqların hazırlığı və fərdi xüsusiyyətləri ilə yanaşı, uşağın valideynləri və

ailə tərkibi, uşaq bağçasında olub-olmaması, hansı şeir və nağılları bilməsi, hərfləri tanıması, oxuyub yaza bilməsi, yoldaş və dostları, məşğuliyyəti, məktəbə psixoloji cəhətdən hazır olub-olmaması, oxumaq istəyib-istəməməsi, məktəb qayda-qanunlarına bələd olub-olmaması öyrənilir. Bu zaman şagirdlərin dinləmək, eşitmək, sual vermək, cavab vermək, diqqətlilik və s. psixoloji xüsusiyyətlərinin öyrənilməsi üçün diaqnostik müsahibə, müşahidə təşkil olunmalıdır. Şagirdlərin savad təliminə hazırlığının diaqnostik qiymətləndirilməsi müəllimin təlim işini necə qurmasını istiqamətləndirir. Müəllim şagirdlərin hazırlığını tam üzə çıxarmaq məqsədilə onların neçə hərfi tanımaları, oxu-yazı bacarıqları üzrə qeydlər aparmalıdır. Şagirdlərin necə oxumaları, seir söyləmələri, nəqletmələri, lüğət ehtiyatları, fəal lüğətləri, nitq nöqsanları üzrə şifahi sorğunun təşkili savad təliminə hazırlıq səviyyələrinin göstəriciləri kimi diqqətdən kənarda qalmamalıdır. Unutmaq olmaz ki, savad təliminə hazır səviyyəsi aşağı olan şagirdlər və hazırlıqlı şagirdlərlə eyni səviyyədə iş aparmaq düzgün deyildir. Belə olan halda müəllim işini fərqli qurmalı, fərdi yanaşmaya üstünlük verməlidir. Əgər sinifdə oxu və yazı texnikasına tam yiyələnənlər varsa, müəllim onlarla başqa vəsait üzrə əlavə iş aparmalıdır.

Savad təliminə hazırlıq dövründə nitqin cümlələrə, cümlələrin sözlərə, sözlərin hecalara, hecaların səslərə ayrılması üzrə ilkin praktik işlər aparılır. Savad təliminə hazırlıq dövründə şagirdlər **nitq, cümlə, söz, heca, hərf, sait, samit** anlayışları ilə tanış olurlar.

Şagirdlər praktik yolla heca haqqında anlayışa yiyələnir, sözləri asanlıqla hissələrə ayırmağı bacarırlar. Müəllimin tələbi ilə şagirdlər sözü deyərkən neçə dəfə fasilə etmələri, nəfəs almaları üzərində müşahidə aparır, sözün neçə hissədən ibarət olduğunu müəyyənləşdirirlər.

Sözləri hecalara ayırarkən bir neçə priyomdan istifadə etmək olar:

1) biləyi çənənin altına qoyub, alt çənənin neçə dəfə aşağı düşüb-qalxması ilə hecanın sayını müəyyənləşdirmək;

2) sözdəki hər hecanı tələffüz edərkən bir barmağı qatlamaq;

3) hər hecanı tələffüz etdikdə əl çalmaq;

4) nazik zolaqlar şəklində kəsilmiş kağızı ağızın qarşısında tutub,sözü tələffüz edərkən zolaqların neçə dəfə yellənməsinə fikir verməк;

5) hər hecanı tələffüz etdikdə əli yavaşca partaya vurmaq.

Təcrübə göstərir ki, şagirdlər sözü hecaya, hecanı səslərə ayırmağı, səsləri hecada, hecaları sözdə birləşdirməyi, onların sayını və ardıcıllığını müəyyənləşdirməyi öyrənən kimi səslərin hər birini müvafiq hərflə ifadə etmək, sözü yazmaq və qrafik işarələr üzrə müvafiq səsləri yenidən hasil etmək (oxumaq) bacarığına yiyələnirlər.

Savad təliminə hazırlıq dövründə şagirdləri oxu təliminin köməkçi vasitələri ilə də tanış etmək lazımdır. Bu vasitələr heca, söz və cümlənin sxemindən ibarətdir. Cümlənin başlanması sol tərəfdə kiçik şaquli çıxıntısı olan düz xətlə, cümlədəki sözlər düz xətlərlə, cümlənin bitməsi isə nöqtə ilə işarə olunur. Oxu və yazıya hazırlıq baxımından uşaqların hecaların sxemləri ilə tanış olmaları da çox vacibdir.

Savad təlimi dövrünün müvəffəqiyyəti müəllimin şagirdlərə nə dərəcədə bələd olmasından asılıdır. Savad təliminə hazırlıq dövründə əsası qoyulan bir çox bacarıq və vərdişlər savad təlimi boyu kara gəlir və gündən-günə təkmilləşir.

Bu dövrdə şagirdlər oxuya hazırlıq, həmçinin əlin yazıya hazırlanması üzrə ilkin məşqlər edirlər. Uşaqların çoxu məktəbə gələrkən dəftərin sətirlərini ayırmağı bacarmır, ən sadə hərfləri, hətta elementləri yaza bilmirlər. Ona görə də müəllim onları partada əyləşmək, dəftəri qoymaq, gözlə dəftər arasında məsafəni gözləmək, qələmi tutmaq və s. qaydalarla tanış edir. Hazırlıq dövründə tədris prosesinin təşkili də xüsusi diqqət tələb edir. Uşaqların diqqətinin xüsusiyyəti elədir ki, onlar bir işlə uzun müddət məşğul ola bilmir, tez yorulurlar.. Ona görə də hər 10-15 dəqiqədən sonra fəaliyyətinin növünü dəyişmək, nağılı, müsahibəni uşaqların fərdi fəaliyyəti ilə əvəz etmək tələb

olunur. Heç olmasa hər 10 dəqiqədən bir gimnastika dəqiqəsi təşkil etmək lazımdır. İşin belə təşkili yorulmanın qarşısını alır.

Savad təliminə hazırlıq dövrünün **məqsədi** uşaqları savad təliminə hazırlamaqdan ibarətdir.

İlk tanışlıq dövründə şagirdlər müəllimlə, məktəblə, məktəbyanı sahə ilə və ilk dərslik olan "Azərbaycan dili", iş dəftərləri ilə tanış olurlar. I sinif "Azərbaycan dili" dərsliyi yeddi bölmədən ibarətdir. Savad təliminə hazırlıq mərhələsini əhatə edən səhifələr "Mən məktəbə gedirəm" tematikasına daxildir. Savad təliminə hazırlıq dövründə "Azərbaycan dili" dərsliyində "Mən məktəbə gedirəm"(s.10-11), "Ailə"(s.12-13), "Zooparkda"(s.14-15), "Turp"(s.16-17), "Dərslərimiz"(s.18), "Hərflərlə tanışlıq"(s.19) başlıqları altında verilmiş şəkillər üzrə iş ciddi və düşünülmüş şəkildə aparılmaqla, savad təliminin uğurla həyata keçirilməsini təmin edir.

"Azərbaycan dili" dərsliyinin ilk səhifələrindəki şəkillər vasitəsilə uşaqlar ətraf aləm haqqında məlumatlar əldə edirlər. Hər gün bir səhifə üzrə müsahibələr təşkil olunur. Şagirdlər Ulu öndər H.Əliyev, Müstəqil Azərbaycan Respublikası haqqında, bilgilərə yiyələnirlər. Dəslikdə verilmiş məktəb, sinif, məktəbli çantasına yığılacaq əşyalar, ailə, ailə üzvləri, ailənin qayğı və istirahəti, vəhşi heyvanlar, nağıllar aləmi, dərslər, hərflərlə tanışlıq və s. şəkillər şagirdlərin ümuminkişafını təmin edir.

"Azərbaycan dili" dərsliyində verilmiş "Məktəbli çantasına hansı əşyalar yığılmalıdır?"(s.11), "Şəkillərə uyğun nitq etiketləri seç"(s.13), "Dördündən biri fərqlidir"(s.15), "Hansı heyvanların adları eyni səslə başlayır?"(s.15), "Şəkil adlarını hecalara bölərək tələffüz et"(s.17), "Hansı şəklin adında hecaların sayı daha çoxdur?"(s.17) və s. tapşırıqlar şagirdlərin savad təliminə hazırlığına xidmət edir. Səhifələrin (s.11; 13; 15; 17; 19) sonunda verilmiş yazıya hazırlıq çalışmaları da şagirdlərin əl və bilək əzələlərinin inkişafına, barmaqların qələmi tuta bilmək, sətir xəttində işləyə bilmək bacarıqlarının formalaşmasına yönəlmişdir.

“Azərbaycan dili” dərsliyində səh.10-19- da verilmiş şəkillərin “oxunması”, yəni şəkillər üzrə nəqletmə şagirdləri oxu təliminə hazırlayır. Səs təhlili vasitəsilə rabitəli mətndən cümlə götürülür, bu cümlədə neçə söz olduğu, hər bir sözün neçənci sırada yerləşdiyi müəyyənləşdirilir, hər hecada səslərin sayı və yeri, nəhayət, hər bir səsin tələffüzü üzrə hər gün iş gedir. Sözlərdə neçə sait varsa, o qədər də heca olur anlayışı xatırlanır. Məsələn, cümlədə neçə sözün, sözdə neçə hecanın, hecada neçə səsin olduğunun sxemlə göstərilməsi:

Baba turp əkdi ( |____ ____ ____ .)



Ba-ba



Ba-ba



Savad təliminə hazırlıq dövründə şagirdlərin nitqinin inkişaf etdirilməsi üzrə mütəmadi iş gedir. Əvvəlcə şagirdlərin nitqi fərdi öyrənilir, sonra tələskənlik və lənglik aradan qaldırılır, yerli şivə xüsusiyyətlərinə qarşı işlər aparılır, lüğət ehtiyatının zənginləşdirilməsi, nitqin səs mədəniyyətinin formalaşdırılması qayğısına qalınır. Nitqi qüsurlu olanlarla loqopedik iş təşkil olunur. Savad təliminə hazırlıq dövründə əyanilikdən, oyunlardan geniş şəkildə istifadə edilir.

**Savad təliminə hazırlıq dövrünə dair dərs nümunəsi:**

**Mövzu:** “Turp”nağılı

**Standart:** 1.1.1.Müşahidə etdiyi əşya, hadisələr haqqında və şəkillər üzrə danışır.

2.1.2.Nitq səslərini heca daxilində və ayrıca tələffüz edir.

4.1.7.Ad, əlamət və hərəkət bildirən sozləri tanıyır və fərqləndirir.

3.1.1.Hərflərin elementlərini və konfiqurasiyasını müəyyən olunmuş xətt boyunca düzgün yazır və bitişdirir.

**İnteqrasiya:** Riy.1.1.10; T-i.2.2.4.
**İş üsulu:** beyin həmləsi, klaster, müzakirə, rollu oyun
**İş forması:** böyük və kiçik qruplarla iş
**Resurslar:** plakat, şəkillər, rəngli flamasterlər, iş vərəqləri, yapışqan, qayçı və s.

**Dərsin gedişi**

**Motivasiya:** Lövhədən bostan bitkilərinin şəkli olan plakat asılır.
Müəllim suallarla şagirdlərə müraciət edir:
-Şəkildə nə görürsünüz?(pomidor, xiyar, kök, kələm, turp, badımcan və s.).
-Pomidor nə rəngdədir?(qırmızı).
-Xiyarın rəngi necədir?(yaşıl).
-Kök, kələm, turp və badımcanın rəngi necədir?(narıncı, ağ, qırmızı, bənovşəyi). (Qeyd: ola bilər ki, şagirdlər bu rəngləri deyə bimәsin, belə olduqda müəllim onlara kömək edir).
-Turp daha hansı rəngdə ola bilər?(ağ).
-Görək, turp haqqında daha nə deyə dilərik? (Müəllim lövhədə turp şəkli çəkir və şaxələndirir).




- Uşaqlar, dərsliklərinizi açın. Turp olan səhifəyə baxın(müəllim "Turp" nağılını şagirdlərə danışır).

**Tədqiqat sualı:** "Güc birlikdədir" fikrini necə başa düşürsünüz?

**Tədqiqatın aparılması:** sagirdlər rəngli lentlərlə kiçik qruplara bölünür. Hər qrupa  tapşırıq və iş vərəqi verilir.

**I qrup.** Dərslikdə verilmiş şəkillər üzrə danışın.

**II qrup.**Nağılda iştirak edənləri adlandırın.

**III qrup.**Nağılda işlənən sözlərdən bir necəsini hecaya ayırın.

**IV qrup.** Turp şəkli çəkin və nağılı danışın.

**Məlumat mübadiləsi:** Hər bir qrup öz işi haqqında məlumat verir.

**Məlumat müzakirəsi:** Qruplar bir-birinin işinə münasibət bildirirlər.

**Nəticələrin çıxarılması:** "Güc birlikdədir", "Tək əldən səs çıxmaz" ifadələri izah olunur. Ad(baba, nənə, nəvə, it, pişik, siçan, turp və s.), əlamət(qırmızı, yaşıl, sarı və s.) və hərəkət (dartmaq, çıxarmaq) bildirən sozlər bir daha təkrarlanır və fərqləndirilir. Baba, nənə, nəvə, it, pişik, siçan, turp sözləri hecaya ayrılır. Heca haqqında məlumat verilir(Heca- sözlərin asanlıqla hissələrə ayrılmasıdır).

Tətbiqetmə: Dərsliyin 17-ci səhifəsinin sonunda verilmiş cizgi nümunələrini dəftərə köçürün.

**Qiymətləndirmə.** Hər bir qrupun işi müəllim tərəfindən alqışlanır və stimullaşdirilir.

## Savad təlimi dövründə səslərin öyrədilməsi prinsipləri

Savad təlimi dövründə səslərin öyrənilməsi bir sıra prinsiplərə əsaslanır. Professor Y.Kərimov savad təlimi dövründə səslərin öyrənilməsi prinsiplərini şərh etmişdir. O, çoxişləklik prinsipini başlıca prinsip kimi qeyd edir. Bizim dilimizdə a,ə,n, x,r,l,d,m,ı,y ən çox işlənən səslərdir. Digər prinsip tələffüz asanlığına görə müəyyənəşdirilir.

Savad təlimi dövründə bölüşdürmək prinsipi də əhəmiyyətli yer tutur. Bu prinsipə görə səslər bir-birindən asılı olaraq sözlərdə yerləşdirilir. Məsələn, a,ə,i,u saitləri bütün samitlərdən əvvəl işləndiyi halda ı, ğ səsləri sözün əvvəlində

işlənmir, a, u, ü, i saitləri bütün samitlərdən sonra işlənə bildiyi halda e saitinin ğ samitindən sonra işlənməsi mümkün deyildir.

Səsin sözdüzəltmə qabiliyyəti də prinsip kimi nəzərə alınır. Bütün bu cəhətləri nəzərə almaqla savad təlimi dövrü dörd mərhələyə bölünür. Mərhələdən mərhələyə səslərin xarakteri, hecaların, sözlərin quruluşu və mənası, cümlələrin həcmi və quruluşu, həmçinin metodik vəzifələr çətinləşir. Səs və hərfin öyrədilməsi müəyyən sistem üzrə gedir.

Savad təliminin birinci mərhələsində - çoxişləkliyinə, sözdüzəltmə qabiliyyətinə və asan tələffüz olunmasına görə fərqlənən( a, n, ə, l, m, i, t, b)səs və hərflər öyrənilir. Hecaların asanlığı da nəzərə alınır və əsasən ilk dərslərdə bir sait və bir samitdən ibarət olan açıq hecalar öyrədilir.

Savad təliminin ikinci mərhələsində - vəzifələr nisbətən çoxcəhətli və çətin olur. Bu mərhələdə r, i, d, y, o, s, u, k səs və hərfləri öyrədilir. Bu mərhələdə kar və cingiltili samitlərin fərqləndirilməsinə xüsusi fikir verilir.

Savad təliminin üçüncü mərhələsində p, ş, e, v, z, ü, ö, g səs və hərfləri öyrənilir. Savad təliminin üçüncü mərhələsində vəzifələr ikinci mərhələyə nisbətən daha çoxcəhətli və çətin olur. E saitinin tələffüzünü ona yaxın ə-dən fərqləndirmək üzrə müqayisə aparılır. Açıq hecalı sözlərlə iş apardıqdan sonra bir açıq bir qapalı hecalı sözlərlə iş gedir. Bu mərhələdə qapalı hecalı sözlərlə daha çox iş aparılır. Sonra iki qapalı hecalı sözlərin, iki samitin yanaşı işləndiyi sözlərin oxuması üzrə iş gedir. Bu mərhələdə şagirdlər ayrı-ayrı sözləri yazmaqla bərabər, cümlələri yazmaq üzrə də məşq edirlər.

Savad təliminin dördüncü mərhələsində q, x, ğ, c, ç, h, f, j səs və hərfləri öyrənilir, tələffüzünə görə daha çətin səslər və tərkiblər üzrə iş gedir. Bu mərhələdə hər iki hecası qapalı olan sözlər, dörd hərfdən ibarət olan qapalı hecalı sözlər, hecalarından birində iki samitin yanaşı gəldiyi sözlər (qənd, Xocavənd nadinc, Cırtdan, Hüseyn, fişəng, tüfəng, rejim və s.) üzrə iş aparılır.

## Savad təlimi dövrü

Hərflərin dərslikdə düzülüşünün ardıcıllığından asılı olaraq savad təlimi dövrü dörd mərhələyə ayrılır. Azərbaycan əlifbasına daxil olan 32 hərf dərslikdə səkkizliklərə bölünmüş, hər səkkiz hərfin tədrisi üçün 36 saat, dörd həftə, yəni bir dərs ayı ayrılmışdır. Hərflərin tanıdılması dövründə hər həftə 4 saat (2 qoşa saat, yəni 2+2) ayrıldığından şərti dərs həftəsi ərzində 2 hərfin tədrisi nəzərdə tutulur. 9-cu saat həftə ərzində öyrədilən 2 hərf üzrə təkrara həsr olunur.

Birinci mərhələdə **A, N, Ə, L, M, İ, T, B** səsləri üzərində iş aparılır. Səslər, hecaların quruluşu, sözlərin quruluşu və mənası, cümlələrin quruluşu və həcmi, həmçinin metodik vəzifələr tədricən çətinləşir. Şagirdlər sözlərin səs quruluşu haqqında təsəvvür əldə edir, sözdə öyrənilən səsləri tanıyır, ayırır, sözün səs tərkibində onların yerini tapır, ardıcıllığını müəyyənləşdirirlər. Şagirdlər öyrənilən səsin sözün əvvəlində, ortasında və sonunda gəldiyini tapmaqla yanaşı, həmin səsin işləndiyi sözlər deyir və onları cümlələrdə işlədirlər. Məsələn: “Ay görundu”, “Anar alma dərir”, “Sara yarpaq yığır”.

Şagirdlər sözlərin heca tərkibini və sözdə neçə saitin olduğunu müəyyən etməklə, sözdəki hecaların sayının saitlərin sayından asılı olduğunu öyrənirlər. Psixoloq L.M.Şvarsın fikrincə, sözləri hecalara ayırmağı bacarmayan şagird heç vaxt düzgün oxuya bilməyəcəkdir, onun yazmağı bacarması haqqında isə danışmağa dəyməz. Odur ki, öyrənilən səsin sözdə yeri və sözdəki hecaların sayı müəyyən edildikdən sonra səsin hərflə ifadə forması təqdim edilir.

Savad təliminin əsas mərhələsi ilk səslərin öyrənilməsi və onların hərflərlə ifadə edilməsi hesab olunur. Savad təlimi dövründə şagirdlər oxu və yazı üzrə ilkin vərdişlər qazanırlar. Öyrənilən səslərin çap hərfi göstərilir, uşaqlar söz tərtib edir və sözü çap hərflərlə düzürlər. Sonra həmin söz hecalara ayrılaraq düzülür və hecalarla oxunur. Hecalarla oxu vərdişinə

yiyələnməyən şagirdlər yazı prosesində də ciddi çətinliklərlə qarşılaşırlar.

Savad təliminin ikinci mərhələsində **R, İ, D, Y, O, S, U, K** səsləri üzərində iş aparılır. Dərsliyin bu hərflərin olduğu səhifələrində sözlərin sayı nisbətən çox olur. Şagirdlər həmin sözləri hecalarla oxuyurlar(tə-mir, i-rə-li, a-ra-ba, mər-tə-bə, Rə-na, İm-ran, Tə-ra-nə, Ra-min). Göründüyü kimi, həm açıq, həm qapalı hecalardan, həm bir səsdən, həm iki səsdən, həm də üç səsdən ibarət hecalardan istifadə olunmuşdur. Ad bildirən sözlərin daha sadə şəkildə təqdimi, qız və oğlan adlarının verilməsi şagirdlərin maraq dairəsinə uyğundur. Şagirdlərin oxusunun şüurluluğunu təmin etmək üçün oxunmuş materialı necə başa düşdüklərini xəbər almaq lazımdır. Müəllim şagirdlərin gümana əsasən oxumasına yol verməməlidir. Şüurluluğu artırmaq üçün dərslikdə olmayan sözlərin yazıldığı cədvəl üzrə oxunun keçirilməsi də məsləhət görülür. Bu məqsədlə hər bir sözə, cümləyə sual verilməlidir. Məsələn, “Hecaları birləşdir” tapşırığına diqqət yetirək.

bə     bər<br>
ma     la<br>
bi     ral<br>
tar     bir

Şagirdlərə suallar verilir. “Bəbir necə heyvandır?”, “Maral necə heyvandır?”, “Bibər necə bitkidir?”, “Tarlada nə əkirlər?” və s.

Savad təliminin ikinci mərhələsində şəkillər üzrə işə geniş yer verilməlidir. Ayrı-ayrı əşya şəkillərinin altındakı rəqəmlər onların adlarında neçə səsin olduğunu deməyə imkan verir. Müəllim əşyanın özü, əlamətləri, nəyə lazımlı olması və s. haqqında söhbət etməlidir. Dərslikdə lüğət - məntiqi işlərin aparılmasına xidmət edən şəkillər də vardır. Məsələn, səhifə 39-da verilmiş çalışmaya diqqət yetirin.

Çalışma 2. Sual işarələrinin yerinə hansı şəkillər uyğun gəlir?

balıq şəkli                                   ayaq şəkli
?(balıqqulağı şəkli)                    ?(ayaqqabı şəkli)
qulaq şəkli                                  boşqab şəkli

Müəllim "Arılar" başlıqı ilə verilmiş oxu mətnində(s.39) təsvir olunan oğlan və qızın adını, paltarlarının rəngini, əl-qol hərəkətlərini, arılar onlara tərəf uçarkən necə hərəkət etmələrini, arının harada yaşamasını, insanlara xeyrini, onların birlikdə necə yaşadıqlarını və s. şagirdlərdən xəbər alır. Beləliklə, şagirdlər arı, onun insanlara xeyri haqqında xeyli məlumat almış olurlar. Belə söhbətlər şagirdlərin ətraf aləm haqqında təsəvvürlərini genişləndirir, lüğətini zənginləşdirir, təfəkkürünün və nitqinin vəhdətdə inkişafına güclü təsir göstərir, oxunun şüurluluğunu təmin edir.

Savad təliminin üçüncü mərhələsində **P, Ş, E, V, Z, Ü, Ö, G** səsləri üzərində iş aparılır. Savad təliminin üçüncü mərhələsinin vəzifələri çoxcəhətli və əvvəlki mərhələlərə nisbətən çətindir. Bu dövrdə müxtəlif quruluşlu hecalardan ibarət sözlərin oxunması üzrə iş gedir. **e, ü, ö** saiti, **z, v, g, ş** kimi cingiltili və uzanan samitlər, ani tələffüz olunan kar **p** samiti öyrədilir. Bu dövrdə şagirdlərin kar və cingiltili samitləri fərqləndirə bilmələri üzrə işə xüsusi diqqət yetirilməlidir. Çalışmaq lazımdır ki, onlar z samitinin ikinci mərhələdə öyrəndikləri s samitindən, v samitinin dördücü mərhələdə öyrənəcəkləri f samitindən fərqini anlasınlar. Bu dövrdə başlıca çətinlik *ze, ve, ge, pe* kimi hecaların mənimsənilməsidir. Ona görə də yeni saiti sonorlarla (el, em, en, er) birləşmədə işlətmək lazımdır. Sonra həmin hecaları əks hecalar şəklində tələffüz etdirmək, nəhayət, e, ü, ö saitlərinn tələffüzcə ona yaxın olan ə, u, o saitlərindən fərqləndirmək üzrə iş aparmaq faydalıdır. Bu mərhələdə sözdə mürəkkəbliyi tədricən artımaq lazımdır. Əvvəllər iki açıq hecadan, sonra bir açıq və bir qapalı hecadan, sonra da əksinə bir qapalı hecadan, daha sonra iki qapalı hecadan, nəhayət, tərkibində iki qapalı hecanın olduğu sözlərin oxunması üzrə məşq getməlidir.

Samitlərin yanaşı işləndiyi sözlərin oxnmasına diqqət yetirilməlidir. Bu mərhələdə üç hecalı sözlərin öxunması üzrə iş daha ciddi aparılır. Hecaların birləşdirilməsi üzrə məşqlər şagirdlərin daha maraqla yerinə yetirdiyi iş növlərindən sayılır.Məsələn:

| | | |
|---|---|---|
| pil | ya | kən |
| po | lə | dor |
| pi | ti | lə |
| plas | mi | lin |

Kəsmə əlifbanın köməyi ilə qapalı hecalı sözlərə bir samit artırmaqla yeni sözlər yaratmaq oxu prosesini xeyli asanlaşdırır: tor-tort, dar-dart, sür-sürt və s. Bu mərhələdə əvvəldən öyrənilmiş hərflərin təkrarına da geniş yer verilir. Şagirdlər yeni səslə tanış olduqları gün həmin səsin yazılı ifadəsi ilə - hərflə də tanış olur, onun müxtəlif birləşmələrdə işlədilməsi üzrə məşq edirlər.

Savad təliminin dördüncü mərhələsində **Q, X, Ğ, C, Ç, H, F, J** səsləri (hərfləri) üzərində iş aparılır. Bu mərhələdə tələffüzünə görə çətin səslər və tərkibinə görə daha mürəkkəb hecalar üzərində iş gedir. Dördüncü mərhələdə şagirdlər qapalı hecalara daha çox rast gəlirlər. Bir çox sözlərdə hecaların hər ikisi qapalı olur: qay-maq, qar-maq, xoş-bəxt, hə-şə-rat və s. Heca çətinliyi getdikcə mürəkkəbləşir(por-to-ğal, yor-ğan, qış-laq, qur-ba-ğa, cey-ran, çən-gəl, çov-ğun və s.). Şagirdlər dörd hərfdən ibarət birhecalı sözləri (qənd, gənc, fənd və s.) və hecalardan birində iki samitin yanaşı işləndiyi sözləri oxuyurlar. Belə sözlərin tələffüzü və yazılışı üzərində xüsusi işin aparılması zəruridir. Yazılışı ilə tələffüzü arasında fərq olan sözlərin öyrənilməsi (şaxta, bəxtəvər, çörək, çiçək, çovğun, həşərat, tüfəng, fişəng və s.) daim diqqət mərkəzində olmalıdır.

**Savad təlimi dövrünə aid dərs nümunəsi:**

**Mövzu: “N” səsi və hərfi**

**Standart:** 1.1. 2. Dinlədiyi fikrə münasibətini bildirir.
**2.2.2.** Səsləri hecalarda birləşdirir və oxuyr.
2.2.3. Sözləri hecalarla oxuyur.
3.1.3. Əl yazısı şəklində olan sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür.
4.1.4. Böyük və kiçik hərfləri fərqləndirir.
**Təlim nəticələri:** 1.Müəllimin söylədiyi fikrə münasibətini bildirir.

2. "N" səsini hecalarda birləşdirir və oxuyr.
3. Tərkibində "n" səsi olan sözləri hecalarla oxuyur.
4. Əl yazısı şəklində olan sözləri üzündən köçürür.
5. Böyük N və kiçik n hərflərini fərqləndirir.

**İnteqrasiya:** Riy. 1.1.1; H-b.2.1.3; Tex.4.1.2.
**İş forması:** böyük qruplarla iş, kiçik qruplarla iş
**İş üsulu**: beyin həmləsi, klaster , müzakirə, rollu oyun
**Resurslar**: şəkillər, iş vərəqi, rəngli flamasterlər, qayçı, yapışqan və s.

**Dərsin gedişi**

**Motivasiya**: **problemin qoyuluşu.** Müəllim S.Vurğunun "Azərbaycan"şeirindən bir bənd söyləyir:

El bilir ki, sən mənimsən ,
Yurdum, yuvam məskənimsən ,
Anam, doğma vətənimsən.
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Müəllim şagirdlərdən "Azərbaycan" deyərkən sonda hansı səsin eşidildiyini soruşur(n səsi). Sonra şeirin həmin bəndi şagirdlərlə birgə (xorla) oxunur. Müəllim "N"səsinin düzgün tələffüz məxrəcini göstərir, şagirdlərin xorla və fərdi tələffüzünü təşkil edir. Sonra müəllim"N"səsinin çap şəklini təqdim edir, səslə hərfin fərqini nəzərə çatdırır. Həmçinin "N"səsinin samit səs olduğu xatırlanır.

Tərkibində "n" səsi olan əşya şəkilləri nümayiş etdirilir (nərd, nal, nərdivan, divan, nimçə, fincan, fanar ). "N" səsinin

sözün hansı hissəsində işyəndiyinin müəyyən edilməsi üzrə iş gedir(sözün əvvəlində, ortasında, axırında).

Tədqiqat sualı: "N" səsinin və hərfinin hansı xüsusiyyətləri var?

**Tədqiqatın aparılması.** Şagirdlər 1, 2, 3, 4 saymaqla qruplara bölünür. Hər qrupa iş vərəqi və vaxt verilir(10 dəq.).

**İş vərəqi 1.** "N" səsinə aid hecalar düzəldin.

**a** → **an** ← **n**

**n** → **na** ← **a**

**İş vərəqi 2.** Hecadan sözlər düzəldin və söyləyin .

na → a-na

na → dur-na

**İş vərəqi 3.** Verilmiş cümlənin sxemini qurun. Cümlədəki sözləri hecalara bölün. Ana banan aldı.

|____ ____ ____ .

**İş vərəqi 4.** Hər şəklə aid bi cümlə qurun (nar, gilənar, fındıq şəklləri).

**Məlumat mübadiləsi.** Qrup üzvləri işlərini təqdim edir. İş vərəqləri lövhədən asılır.

**Məlumatın müzakirəsi.** Müzakirə prosesində müəllim şagirdlərə suallar verir.

**Müzakirə sualları:**

1. "N" səsindən heca necə əmələ gəlir?
2. Sözlər necə əmələ gəlir?
3. Sözlər birləşib nə əmələ gətirir?
4. Böyük hərf nə zaman işlənir?
5. Cümlənun əsas əlamətləri hansılardır?

**Nəticə və ümumiləşdirmə**. Şagirdlərin diqqəti tədqiqat sualına yönəldilir. Müəllim, deyilən fikirlərə əsaslanaraq şagirdlərin cavablarını şaxələndirir.




**Tətbiqetmə.** 23-cü səhifənin axırında verilmiş heca və sözləri dəftərinizə yazın.

**Qiymətləndirmə:** Müəllim hər qrup üçün meyar cədvəli hazırlayır. Dərsin bütün mərhələlərində qiymətləndirmə aparır. Qiymətləndirmə "+", "-" işarələri ilə göstərilir.

| № | Meyar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|---|
| 1. | Dinlədiyi fikrə münasibət bildirir | + | + | + | + |
| 2. | Səsləri hecalarda birləşdirir və oxuyr | _ | + | + | + |
| 3. | Əl yazısı şəklində olan sözləri üzündən köçürür. | _ | _ | + | + |
| 4. | Böyük və kiçik hərfləri fərqləndirir | _ | _ | _ | + |

**Mövzu: "D" səsi və hərfi**
**Standart:** 1.1.2. Müşahidə etdiyi əşya, hadisələr haqqında və şəkillər üzrə danışır.
2.2.1. Nitq səslərini heca daxilində və ayrıca tələffüz edir.
2.2.3. Sözləri hecalarla oxuyur.
3.1.3. Əl yazısı şəklində olan sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür.
4.1.1. Səs və hərfi adlandırır və onları fərqləndirir.
**Təlim nəticələri:** 1. Şəkillər üzrə danışır.
2. "D" səsini heca daxilində və ayrıca tələffüz edir.
3. Tərkibində "d" səsi olan sözləri hecalarla oxuyur.
4. Əl yazısı şəklində olan sözləri üzündən köçürür.
5. "D" səsini və hərfini adlandırır və onları fərqləndirir.
**İnteqrasiya:** Mus. 3.1.1; H-b. 1.1.3;Tex.4.1.2.
**İş forması:** böyük qruplarla iş, kiçik qruplarla iş
**İş üsulu**: beyin həmləsi, klaster , müzakirə, debat
**Resurslar**: şəkillər, iş vərəqi, rəngli flamasterlər, qayçı, yapışqan və s.

**Dərsin gedişi**

**Motivasiya**, p**roblemin qoyuluşu.** Müəllim "Dovşan" şeirini söyləyir:
Dovşan, dovşan, a dovşan,
Qaçma dayan a dovşan! ...
**Yardımçı suallar**: Şeirdə hansı hevandan bəhs olunur?(dovşandan). Dovşan sözündə birinci hansı səsi eşidirsiniz?(d). "D" səsi ilə işlənən daha hansı sözləri söyləyə bilərsiniz?(dəniz, dalğa, dəf, dəri, dələ, dənə və s.). Bu sözlərdə hansı səs daha çox səsləndi?(d). (Cavablar alınandan sonra müəllim "D" səsinin tələffüzü və "D" hərfinin yazılışı haqqında məlumat verir).
**Tədqiqat sualı:** "D" səsinin daha hansı xüsusiyyətləri var?
**Tədqiqatın aparılması.** Şagirdlər meyvə şəkilləri ilə ( alma, armud, nar, heyva ) 4 qrupa bölünür. Qruplara iş vərəqləri paylanır.

**I qrup**

Şaxələndirmədən istifadə edərək hecalar düzəldin və onların tələffüzünə fikir verin.




**II qrup**

Zərfdə olan hecalardan sözlər düzəldin.
Dad, də, da, də, ri, rə, lı, na, lə.

**III qrup**

Verilmiş şəkilləri (dana, dələ, dovşan, dəftər, odun, vedrə, ördək, rəndə, fındıq, qənd, od, bulud, kənd) "d" səsinin sözlərdə işlənmə yerinə görə üç qrupa ayırın.

| Sözün əvvəlində | Sözün ortasında | Sözün axırında |
|---|---|---|
| | | |

**IV qrup**

Verilmiş şəklə aid sxem üzrə cümlələr qurun.
Kök yeyən dovşan şəkli.

____ ____.
____ ____ ____.
____ ____ ____ ____.

**Məlumat mübadiləsi.** Qrup üzvləri işlərini təqdim edirlər.
**Məlumatın müzakirəsi.** Şagirdlərin təqdimatından sonra müəllim cavabları sistemləşdirilir və sinfə suallar verilir:
1. "D" necə səsdir?(samit səsdir).
2."D" nə zaman səs, nə zaman hərf olur?(danışanda səsdir, yazanda hərfdir).
3."D" səsindən necə heca düzəltmək olar?(- da, -də, -dı, -di).
4.Sözlər necə əmələ gəlir?(səslərdən heca, hecalardan sözlər yaranır).

**Ümumiləşdirmə və nəticələrin çıxarılması.** Şagirdlərin mümkün cavabları ümumiləşdirilir. Şagirdlərin diqqəti tədqiqat sualına yönəldilir. Müəllim nəticələri bütün siniflə ümumiləşdirir. O, “D” hərfinin xüsusiyyətləri barədə alınan cavabları lövhədə yazır:




“D” samit səsdir, sait səslərə qoşulduqda heca yaradır. “D”- eşidiləndə və tələffüz ediləndə səs, yazanda və görünəndə hərfdir. “D” sözün əvvəlində, ortasında və axırında işlənə bilir.
**Tətbiqetmə.** Verilmiş heca və sözləri dəftərinizə yazın(s.41).
**Qiymətləndirmə:** Müəllim hər qrup üçün meyar cədvəli hazırlayır. Dərsin istənilən mərhələsində qiymətləndirmə aparmaq olar. Qiymətləndirmə “+”, “-” işarələri ilə göstərilir.

| № | Meyarlar/Qruplar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|---|
| 1. | şəkillər üzrə danışır | | | | |
| 2. | D səsini heca daxilində, ayrıca tələffüz edir | | | | |
| 3. | Sözləri hecalarla oxuyur | | | | |
| 4. | Əməkdaşlıq edir | | | | |

## Savad təlimindən sonrakı dövr

Savad təlimindən sonrakı dövrdə şagirdlərin oxu və və yazı texnikası təkmilləşdirilir. Belə ki, şagirdlərin oxu və yazı üzrə qazandıqları vərdişlər nəzərdən keçirilir və bu sahədə qazanılmış bacarıqlar inkişaf etdirilir. Şagirdlər kiçikhəcmli bədii parçaları oxumağı öyrənirlər. Onlar kiçikhəcmli mətnləri müəyyən olunmuş tələblərə uyğun düzgün, sürətli, şüurlu, ifadəli oxumaq üzrə məşq edirlər. Oxu prosesində hərfburaxma, hecaburaxma, hərf əlavə etmə, heca əlavə etmə, hərflərin, hecaların yerini dəyişmə, oxu prosesində tələsmə, yersiz təkrarlara yol vermə və s. halların aradan qaldırılmasına xüsusi diqqət yetirilir. Şagirdlərin oxu sürətinin artırılması da diqqət mərkəzində saxlanılır. Oxunun rəvanlığı  düzgün, şüurlu, ifadəli oxunun komponenti kimi nəzərdə tutulmalıdır. Bu dövrdə rollar üzrə oxu, şüurlu oxu üzrə də geniş iş aparılır.  Şagirdlərin oxularında olan fərdi fərqlər nəzərə alınmalı, hər birinin oxunun tələbləri səviyyəsində oxumaları qayğısına qalınmalıdır, çünki, şagirdlər kiçikhəcmli bədii parçaların oxusu üzrə məşq etməklə daha irihəcmli və mürəkkəb mətnləri oxumağa hazırlanırlar. Oxunun sürətini artırmaq məqsədilə bir qədər irihəcmli hekayə və nağılların oxunması lazım bilinir. Savad təlimindən sonrakı dövrdə şagirdlərin oxu sürəti  dəqiqədə 30-35 sözü  oxumağa imkan verməlidir.

Oxunmuş mətnin şüurlu mənimsənilməsi üçün uşaqların nitqinin inkişaf etdirilməsi zəruridir. Onların nitqi nə qədər çox inkişaf edərsə, oxu texnikası da o qədər təkmilləşər.

Savad təlimindən sonrakı dövrdə şagirdlərin ilkin orfoepik və orfoqrafik anlayışları formalaşır.

Birinci sinif “Azərbaycan dili”dərsliyində savad təlimindən sonrakı dövrdə oxunacaq mətnlər “Ailə və məktəb”, “Nağıllar aləmində”, “Yaxşı nədir, pis nədir” tematik başlıqları altında toplanmışdır. Hər bir tematika üzrə verilən mətnlər janr etibarı ilə rəngarəngdir. Mətnlər müxtəlif xarakterli taşırıqlar, testlər, calışmalar, məntiqi suallar və s. müşayiət olunur. Mətndə

müəyyən sözun buraxılması, bir neçə sözün qırmızı rənglə örtülməsi, bəzi sözlərin, cümlələrin qırmızı, mavi rənglə verilməsi, bəzi sözlərin altından xətt çəkilməsi şagirdlərin diqqətini cəlb etməklə, təfəkkürlərini inkişaf etdirir, bilik dairələrinin genişlənməsinə səbəb olur. Məsələn, nümunə üçün "Çovğun" mətninə dair verilmiş suallara diqqət yetirmək kifayətdir: "Hansı rənglə verilmiş cümlə sual cümləsidir?" (qırmızı), "Altından xətt çəkilmiş sözləri hansı sözlərlə əvəz etmək olar?" (üzünə-sifətinə, fikirləşdi-düşündü) və s.

Dərslikdə savad təlimindən sonrakı dövr üçün verilən mətnlər, şeirlər və digər tapşırıqlar şagirdlərin biliklərinin möhkəmləndirilməsinə, təkrarlanmasına, nitqinin inkişafına imkan yaradır. Məsələn,1. "Eynək" sözünü əvəz edə bilən sözü tap(s.90). 2.Hansı söz hecalara düzgün ayrılmayıb?

A) səs-lə-nən

B) müq-əd-dəs

C)ə-zə-mət-li.

3. Tapşırığı düzgün yerinə yetirsən, Azərbaycanın Milli Qəhrəmanının adı alınar. Həmin qəhrəman haqqında kiçik mətn hazırlayıb dəftərində yaz.

(çinar-ar)+(gizli-li)=?(s.90).

"Final" sözünü cümlədə işlət(s.91).

Ad və hərəkət bildirən sözləri birləşdir və dəftərində yaz.

| | |
|---|---|
| gülləri | süpürdü |
| tozu | suladı |
| həyəti | sildi(s.99). |

"Şərikli" sözünün mənasını izah et.

Hansı cümlədə "kök" sözü əlamət bildirir?

Dovşan kök yeməyi sevir.

Kök uşaq qaça bilmirdi(s.120).

Savad təlimindən sonrakı dövrdə yazı dərsləri də təşkil edilir. Məqsəd şagirdlərin kalliqrafik cəhətdən düzgün yazı bacarıqlarının inkişaf etdirilməsi, səhvlərinin düzəldilməsidir. Bu dövrdə yazının formalaşması, kalliqrafiyanın qaydaya salınması mühüm əhəmiyyət kəsb edir.

Savad təlimindən sonrakı dövrə aid bir dərs nümunəsinə diqqət yetirək:

**Standart:** 2.2.6. Müxtəlif bədii mətnləri(nəzm, nəsr) fərqləndirir.

2.2.5. Kiçikhəcmli mətnlərin müəyyən olunmuş tələblərə uyğun düzgün, sürətli, şüurlu, ifadəli oxuyur.

2.1.3. Yaxınmənalı və əksmənalı sözləri fərqləndirir.

2.2.8. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir.

**Mövzu:** Abdulla Şaiqin "Ana yurdum" şeiri

**Təlim nəticələri:**1. Şagird seiri("Ana yurdum") mətndən fərqləndirir.

2. "Ana yurdum" şeirini düzgün, sürətli (şüurlu, ifadəli) oxuyur.

3. "Ana yurdum" şeirində yaxınmənalı və əksmənalı sözləri fərqləndirir

4. "Ana yurdum" şeirində əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir.

**Иnteqrasiya:** H-b. 1.2.1; Tex. 4.1.2; A-d. 2.1.2.

**Иш üsulu:** беyin hямлясi, anlayışın çıxarılması, oxu, müzakirə

**Иш formasы:** фярdi vя qruplarla iш

**Resurslar:** мювzuya aid şəkillər, musiqi diski, иш vяrяqlяri, rəngli flamasterlər, qayçı, yapışqan və s.

**Dяrsin gediшi**

**Motivasiya, problemin qoyuluşu.**

"Kəndimiz" musiqisi səsləndirilir.

Yardımçı suallar: -Uşaqlar musiqi xoşunuza gəldi?(bəli).

-Kənd haqqında kim danışmaq istəyir?(Kənd gözəldir. Babam kənddə yaşayır. Mən dincəlməyə kəndə gedəcəyəm və s.).

-Biz niyə kəndi sevirik?(Vətənimizdir. Yurdumuzdur. Torpağımızdır və s.).

-Bəs şəhər necə?(Şəhər də bizim vətənimizdir).

Sonra lövhədə anlayışın çıxarılması üsulundan istifadə olunmaqla şagirdlərin əsas anlayışı tapmaları təşkil olunur.
−Söhbət nədən gedir?




Fяrziyyяlяr dinlənilir, fikirlяr dяqiqlяшdirilir, sual iшarяsi "Doğma yurd-vətən" sюzц ilя яvяz olunur.

Müəllim dərslikdən Abdulla Şaiqin "Ana yurdum" şeirindən bir bənd oxuyur:

Çöllərindir şən,
Hər yerin gülşən,
Sən nə gözəlsən,
Ey ana Vətən!

Şagirdlər dərslikdən Abdulla Şaiqin "Ana yurdum" şeirini bənd-bənd oxuyurlar.

**Tяdqiqat sualы:** Vətən haqqında daha nə deyə bilərsiniz?

**Tədqiqatın aparılması.** Şagirdlər şəhər adları ilə ( Bakı, Quba, Şamaxı, Şəki) 4 qrupa bölünür. Qruplara iş vərəqləri paylanır.

**I qrup**

A.Şaiqin "Ana yurdum" seirindən birinci bəndi oxuyun. Vətən sözünə yaxınmənalı söz tapın.

**II qrup**

A.Şaiqin "Ana yurdum" seirindən ikinci bəndi oxuyun. İkinci bəndə uyğun şəkil çəkin.

**III qrup**

A.Şaiqin "Ana yurdum" seirindən üçüncü bəndi oxuyun. Üçüncü bənddən əksmənalı sözləri tapın.

**IV qrup**

A.Şaiqin "Ana yurdum" seirindən dördüncü bəndi oxuyun. Şeirdəki "isti qoynunda" ifadəsini izah edin.

**Məlumat mübadiləsi.** Qruplar işlərini təqdim edirlər.

**Məlumatın müzakirəsi.** Qruplar bir-birinin işinə münasibət bildirirlər.

Şagirdlərin təqdimatından sonra müəllim cavabları sistemləşdirir və sinfə suallar verir:

1. Abdulla Şaiq kimdir?
2. A.Şaiqin "Ana yurdum" seirində vətən (yurd) necə təsvir olunub?
3. Siz vətəni necə təsvir edərdiniz?
4. Vətənə aid atalar sözü söyləyin.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması.** Şagirdlərin mümkün cavabları ümumiləşdirilir. Şagirdlərin diqqəti tədqiqat sualına yönəldilir. Müəllim nəticələri bütün siniflə ümumiləşdirir.

**Vətən** –elə bir yerdir ki, ana qucağı kimi istidir. Vətən sadəcə sərhədləri olan yer deyildir. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Biz vətənin suyunu içir, çörəyini yeyir, havasını uduruq. Evimiz, kəndimiz, obamız bu torpaqlardadır. Ulu babalarımız bu torpaqlarda uyuyur, ata-anamız bu torpaqlarda addımlayırlar.Vətən müqəddəsdir. İgid oğullarımız bu torpaqlarda yaşamış, onu qorumuş, onun uğrunda vuruşmuşlar. Onlar bu torpaqlar uğrunda canlarından keçib, şəhid olmuşlar.

**Tətbiqetmə.**Vətən haqqında bir neçə cümlədən ibarət esse yazın.

**Qiymətləndirmə:** Müəllim qruplar üçün meyar cədvəli hazırlayır. Dərsin bütün mərhələlərində qiymətləndirmə aparır. Qiymətləndirmə "+", "-" işarələri ilə göstərilir.

| № | Meyar/Qruplar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|---|
| 1. | Bədiimətnləri(nəzm, nəsr) fərqləndirir | _ | + | + | - |
| 2. | Şeirin müəyyən olunmuş tələblərə uyğun düzgün oxuyur | + | _ | + | + |
| 3. | Şeirdə yaxınmənalı və əksmənalı sözləri fərqləndirir | + | + | + | + |
| 4. | Şeirdə əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir | _ | + | + | + |
| 5. | Əməkdaşlıq edir | + | + | + | + |

## Savad təlimi dövründə nitq inkişafı

Şagird şəxsiyyətinin inkişafı üçün nitq bacarıqlarının, kommunikativ bacarıqların, sosial mühitdə ünsiyyətin rolu böyükdür. Nitq bacarıqlarına nail olmaq şagirdin sosial davranışını yaxşılaşdırır: digərini başa düşüb qəbul etməyə, məlumat verməyə, hisslərini ifadə etməyə, bütövlükdə nitq inkişafına imkan yaradır. Nitqin inkişafı ilə yanaşı, şagirddə dinləmə və başadüşmə vərdişləri inkişaf edir, şagird sözləri düzgün tələffüzetmə və danışma bacarığına yiyələnir, şagirdin söz ehtiyatı zənginləşir, o, öz fikirlərini ardıcıl, sərbəst, rabitəli şəkildə ifadə etməyi bacarır, danışılanı anlayır. Yəni nit-

qə yiyələnmək, nitq inkişafı, öz fikir və hisslərini sözlərlə verə bilməyi bacarmaq ibtidai siniflərdə əsas yerlərdən birini tutur. Nitqə o zaman düzgün demək olar ki, o bütün dil normalarına uyğun olsun. Belə ki, nitqdə fonetik, orfoepik, leksik, orfoqrafik, semantik, qrammatik, sintaktik və s. ədəbi dil normaları gözlənilməlidir. Nitq fərdi dil fəaliyyətidir. Nitqlə fikrin və şüurun kommunikativ reallaşması, fikirdə gerçəkliyin əks olunması ilə özünü büruzə verir. Nitq dilin əməli fəaliyyət formasıdır. Nitqin spesifikliyi fikrin birbaşa gerçəkliyi kimi başa düşülür. Nitqə bir sıra tələblər verilir: nitqin kamilliyi, nitqin aydınlığı, nitqin obrazlılığı, nitqin yığcamlığı, nitqin təmizilyi, nitqin düzgünlüyü, nitqin zənginliyi, nitqin sadəliyi, nitqin münasibliyi, nitqin rabitəliliyi, nitqin ifadəliliyi, bədiiliyi və obrazlılığı, nitqin dəqiqliyi, nitqin məntiqiliyi, nitqin səlisliyi və ahəngdarlığı, nitqin səmimiliyi və s.

Mədəni nitq şagird şəxsiyyətin göstəricisidir. İlkin qazanılan bacarıq və vərdişlər, milli-mənəvi keyfiyyətlər şəxsiyyətin həyat mövqeyini müəyyənləşdirir.

Nitq inkişafı üzrə işlər birinci sinifdə aparılan məşğələlərin mühüm, üzvi və ayrılmaz bir hissəsi olmaqla Azərbaycan dilinin tədrisinin mərkəzi həlqəsini təşkil edir. Nitq inkişafı üzrə işlər savad təliminə hazırlıq dövründə, savad təlimi dövründə, savad təlimindən sonrakı dövrdə aparılan dərslərin bütün mərhələlərində (motivasiya, tədqiqatın aparılması, məlumat mübadiləsi, məlumatın müzakirəsi, nəticələrin çıxarılması, tətbiqetmə, qiymətləndirmə) həyata keçirilir.

I sinif "Azərbaycan dili "dərsliyinin 10-19-cu səhifələrindəki şəkillər üzrə iş savad təliminə hazırlıqla yanaşı, nitq bacarıqlarının inkişaf etdirilməsi məqsədini güdür. Savad təlimi dövründə (s.20-84) öyrənilən hər bir səs üzrə iş aparılarkən səslərin təqdimi, öyrənilən səsin işləndiyi heca və sözlərin öyrənilməsi ilə yanaşı, süjetli şəkillər üzrə nitq bacarıqlarının inkişaf etdirilməsi qayğısına qalınır. Məsələn, ə səsi və hərfinin öyrənilməsi prosesində(s.24-25) şagirdlər –nə, -ən hecaları, nə-nə, Na-nə (əncir, kəmər, tələ) sözləri üzrə iş apardıqdan sonra süjetli

şəkillər əsasında “Əsmərin gəlinciyi” mətnini qururlar. Bu zaman mətndə həm öyrənilən səsin işləndiyi sözlərin işlədilməsi, həm də şagirdlərin nitq bacarıqlarının inkişaf etdirilməsi nəzərdə tutulur. Savad təlimindən sonrakı dövrdə aparılan bütün dərslər(s.86-159) şagirdlərin oxu, yazı və nitq bacarıqlarının inkişaf etdirilməsini təmin edir.

Nitq inkişafı üzrə işlər yalnız bununla məhdudlaşmır. Bu dövrdə təşkil olunan ekskursiyalar, təbiət üzərində müşahidələr, sinifdənxaric oxu, müxtəlif əyləncə və viktorinalar, müsahibələr, şagirdlərin təsəvvürünün, zənginləşməsinə, genişlənməsinə və nitq bacarıqlarının inkişafına səbəb olur.

Savad təlimi dövründə şagirdlərin nitqini inkişaf etdirmək məqsədilə rəngarəng çalışma və müxtəlif iş növlərindən də istifadə olunmalıdır.

## Ədəbi tələffüz qaydalarının öyrənilməsi üzrə aparılan işlər

I sinfə gedən uşaqların böyük əksəriyyəti təhsil almaq üçün kifayət qədər söz ehtiyatına malik olsalar da, onların nitqi qüsurlu olur: danışarkən sözləri axıradək tələffüz etmir, səs buraxma, bir səsi digəri ilə əvəz etmə (as-aş, yarpaq-yapraq), səslərin yerini dəyişmə (ağac-acaq) kimi səhvlərə, yerli şivə xüsusiyyətlərinə (ver-vər, baba-boba) yol verirlər. Bəzi uşaqların nitqində kəkələmə, pəltəklik kimi hallara da təsadüf olunur. Belə nöqsanlar uşaqların savada yiyələnmə və fikrini ifadə etməsi işinə mane olur. Buna görə də belə nöqsanları vaxtında aşkara çıxarmaq vacibdir.

## Lüğət ehtiyatının zənginləşdirilməsi üzrə aparılan işlər

I sinfə gələn uşaqların nitqindəki nöqsanlardan biri də onların sözlərin mənasını dəqiq bilməmələri və nitqlərinin kasıblığı ilə bağlıdır. Bəzən uşaqlar öz fikirlərini ifadə etmək üçün söz tapa bilmir, bəzən də sözü işlədir, lakin onun arxasında duran əşyanı, hadisəni tanımırlar. Bu nöqsanı aradan

qaldırmaq üçün müəllim şagirdlərin təbiət hadisələri, insanların həyatı, əməyi və əşyaların müşahidəsi üzrə işlərə geniş yer verməlidir. K.D.Uşinski müşahidələri nitq inkişafının ən mühüm mənbəyi hesab edirdi.

Şagirdlərin lüğət ehtiyatının dəqiqləşdirilməsi və zənginləşdirilməsində "Azərbaycan dili "dərsliyinin mühüm rolu vardır. Savad təliminə hazırlıq dövründə dərsliyin ilk səhifələrindən verilmiş tək şəkillər və süjetli şəkillər əsasında şagirdlərin lüğət ehtiyatına xeyli söz daxil edilir, nitqdəki qeyri-dəqiqlik aradan qaldırılır, şagirdlərin şəkildə gördüklərini danışmaqla kifayətlənilmir, yaradıcı təfəkkür və nitq inkişafı məqsədilə şəkillərin müqayisəsi üzrə iş aparılır.

Savad təlimi dövründə lüğət ehtiyatının zənginləşdirilməsində öyrənilən səs və hərfə dair verilmiş söz və həmin səslərin işləndiyi sözləri əks etdirən şəkillərin (nal, banan, ananas, durna, meymun, tələ, kəmər, zənbil, lələk, ilbiz, çəyirtkə, cırcırama, fincan, stul, zəng, tava, göbələk, bəbir, yaba, bel, çətir, raket və s. ) mühüm əhəmiyyəti vardır. Dərslikdəki şəkillər sözün mənasının asanlıqla anlaşılmasına şərait yaradır. Bu sözlərin hamısını az müddətdə şagirdlərin fəal lüğətinə daxil etmək mümkün olmasa da, yeri gəldikcə onların bu sözlərdən istifadə etmələrinə nail olmaq lazımdır.

Savad təlimi dövründə aparılan leksik çalışmalar da nitq bacarıqlarının inkişaf etdirilməsi baxımından çox səmərəlidir. Məsələn: "Çovğun" mətnində altından xətt çəkilmiş sözləri (**üzünə, fikirləşdi**) hansı sözlərlə əvəz emək olar? "Nənənin eynəyi" mətnində **eynək** sözünü əvəz edən sözü tap.

"Ana yurdum" seirində hansı rəngdə verilmiş sözlər: **vətən, yurdum**(qırmızı rəngdə), **şən, qəm**(goy rəngdə), **bucağın, torpağın**(yaşıl rəngdə) yaxınmənalıdır? "Nə üşün pişik yeməkdən sonra yuyunur" mətnində altından xətt çəkilmiş sözü (**gözlənilmədən**) yaxınmənalı sözlə əvəz et və s.

Bu cəhətdən omonimlər üzrə iş də əhəmiyyətlidir. Məsələn, "Hara gedirsən axşam" şeirindən sonra verilmiş çalışmada şagirdlərin diqqəti **"şam"** sözünə (omonim) cəlb edilir:

A) Külək əsib **şamı** söndürdü.
B) Güclü külək meşədəki **şamı** yıxdı
C) Uşaqlar **şam** yeməyinə oturdular.

Savad təlimi dövründə şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsində “Azərbaycan dili ”dərsliyinin müxtəlif səhifələrindəki şəkillərin, didaktik və məntiqi çalışmaların imkanlarından bacarıqla istifadə edilməsi müəllmdən səy və əmək tələb edir. Müəllim hər bir şagirdin diqqətini cəlb etməli, öyrənilən sözlərin mənasının dəqiqləşdirilməsi, həmin sözlərin nitqdə fəallaşdırılması, lüğətin təmizliyinin qorunması qayğısına qalmalıdır.

### Məntiqi çalışmalar üzrə aparılan işlər

Şagirdlərin mücərrəd təfəkkürünün inkişafında məntiqi çalışmaların rolu böyükdür. Savad təlimi dövründə məntiqi çalışmalardan istifadə şagirdlərin maraq dairəsinə uyğun olub, çox həvəslə yerinə yetirilir. Məntiqi çalışmaların qarşısında duran əsas vəzifə bu və ya digər əşya və ya hadisələrlə tanışlıq zamanı əşya və hadisələrdəki başlıca ümumi cəhətləri dəqiq müəyyənləşdirməyi, sözlərlə ifadə etməyi öyrətməkdən ibarətdir. Şagirdlər çox vaxt əşyaların adlarını səhvsiz dedikləri halda, ümumiləşdirmə aparıb onu bir sözlə ifadə edə bilmirlər. Məsələn, şagird alma, armud, heyva, nar, gavalı, göyəm və s. meyvə adlarını bilir, lakin bunların hamısına birlikdə “meyvə” deyildiyini bilmir. Yaxud da əksinə şagird nitqdə ümumiləşdirici sözlər (meyvə, ağac, quş və s.) işlədir, lakin onların məzmununu dəqiq başa düşmür.

Mövcud birinci sinif “Azərbaycan dili” dərsliyinə xeyli məntiqi çalışma daxil edilmişdir.[1]Məsələn, “Məktəbli çantasına hansı əşyalar yığılmalıdır?”(s.11) çalışmasında televizor pultu, flamaster, dəftər, qələm, xətkeş, gəlincik şəkilləri verilmişdir. Şagirdər çalışmanın tələbinə əməl edir, məntiqi səkildə

[1]Bax: R.İsmayılov,S.Abdullayeva, G.Orucova,D.Cəfərova. Azərbaycan dili, 1-ci sinif üçün dərslik. Bakı, 2012, s.11-157

seçim edirlər (flamaster, dəftər, qələm, xətkeş). “Dördündən birini fərqləndir”(s.15) çalışmasında fil, dəvəquşu, pələng, kenquru şəkilləri verilmişdir. Şagird düşünərək məntiqi seçim edir, dəvəquşunu fərqləndirirlər. “Göbələk” nağılı qarışıq şəkillərlə verilmiş, nağıla əsasən şəkillərin düzgün ardıcıllığını müəyyənləşdirmək şagirdlərə həvalə olunmuşdur(s.27). I sinif “Azərbaycan dili ”dərsliyində verilmiş əşyanı tanıyıb adını demək, əlamətlərini sadalamaq, əşyaları mühüm əlamətlərinə görə qruplaşdırmaq və fərqləndirmək, uyğun olanını seçmək, uyğun olmayanı müəyyənləşdirmək və s. xarakterli məntiqi çalışmalar (s.29, 30, 32, 33, 35, 36, 39, 40, 41, 48, 53...) kiçik məktəblilərin nitq və təfəkkürünün inkişafına imkan yaradır.

**Məntiqi çalışmaların aşağıdakı növlərindən istifadə etmək olar:**

1) çatışmayan hecaları tap;
2) şəkillərdən eyni qrupa aid olanlarını müəyyən et;
3) əşyanı müəyyən əlamətinə görə müəyyənləşdir;
4) əşyanı müəyyən hərəkətinə görə qruplaşdır;
5) sütunlarda verilmiş sözləri düzgün birləşdir;
6) şəkilləri müqayisə etməklə fərqi tap;
7) əşyaları əlamətinə görə fərqləndir;
8) əşyaları hərəkətinə görə fərqləndir;
9) ümumiləşdirmə apar;
10) sadalanan sözlər içərisindən eyni qrupa aid olanları seç;
11) sadalanan sözlər içərisindən eyni qrupa aid olmayanı tap;
12)şəkillərin düzgün ardıcıllığını müəyyən et;
13) məzmuna uyğunsuzluğu müəyyən et;
14) məzmuna uyğunluğu müəyyən et və s.

## Cümlə qurmaq üzrə aparılan işlər

Cümlə qurmaq üzrə iş savad təliminin ilk günündən başlanır. Bu cəhətdən “Azərbaycan dili” dərsliyindəki şəkillər çox əhəmiyyətlidir. Dərsliyin üz qabığından başlayaraq savad

təliminin sonuna qədər dərsliyə daxil edilmiş şəkillər əsasında cümlə qurmaq üzrə iş aparıla bilər. Bu zaman ad, əlamət, hərəkət bildirən sözlərə sualların qoyulması, suallara cavab verərkən şagirdlərin cümlə qurması vacibdir. (Bu qızın adı Aytacdır. Aytac sarı paltar geyinib. Aytac kitab oxuyur).

Bir şəklə bir neçə sual verməklə cümlə üzrə işdən tədricən rabitəli nitq üzrə işə də keçmək olar. Məsələn, dərslikdəki "Meşədə" şəkli üzrə (s.23) suallar və cavablar əsasında mətn tərtibini nəzərdən keçirək. –Şəkildə hara təsvir olunub? Meşədə hansı heyvanlar var? Meymun ağacda nə edir? Dovşan nə edir? Kirpi nəyə baxır? İlan nə edir? Ağacdələn nə edir? (Bura meşədir. Meşədə meymun, dovşan, kirpi, ilan, ağacdələn var. Meymun ağacda banan yeyir. Dovşan qorxur. Kirpi ilana baxır. İlan qəzəblidir. Ağacdələn ağaca qonub və s.).

Cümlə qurmaq, rabitəli nitqi inkişaf etdirmək üçün "Azərbaycan dili" dərsliyində kifayət qədər şəkillər vardır ki, müəllim bunlardan istifadə etməklə şagirdlərin şifahi nitqini inkişaf etdirə bilər.

## Savad təlimi dövrü üçün didaktik oyunlar

1.Səsləri nöqtələrin yerində işlədib söz düzəltmək.
2.Səslərə, hecalara və sözlərə müxtəlif hecalar artırmaqla sözlər düzəltmək.
3.Verilmiş sait və samitlərdən sözlər düzəltmək.
4.Xanələrə uyğun hecalar əlavə etməklə sözlər düzəltmək.
5.Şəkli adını uyğun damada yerləşdirmək.
6.Hərfləri rəqəmlər əsasında sıralayıb sözü oxumaq.
7.Hərfləri düzgün sıralamaqla söz düzəltmək.
8.Şəkillərin adına heca artırmaqla söz düzəltmək.
9. Verilmiş şəkillərin baş hərflərini birləşdirib yeni söz düzəltmək.
10. Savad lotosu.

**I didaktik oyunlara aid nümunə:**

to .. qa

to .. uq
qu .. u
qu ..u
q .. ş
o .. ul
A .. ıl
.. ağ
ba..a

**? QYZYL**

**? IĞDSB**

b .. lıq
B .. kı
b .. lka
b .. laq
b .. ran
b .. yun

**? AUO**

lə .. ə
t .. pə
ya.. paq
pa.. bıq

**? PƏRM**

## Oxu və yazı prosesinin psixoloji çətinlikləri

Elmi-pedaqoji araşdırmalar göstərir ki, insan ömür boyu öyrəndiyinin böyük bir hissəsini altı yaşına qədər mənimsəyir. Məhz bu dövrdə uşağın idraki və fiziki inkişafının təməli qoyulur. Bu təməlin nə qədər möhkəm və düşünülmüş olması şəxsiyyətin gələcək inkişafını təmin edir və onun həyat fəlsəfəsini, cəmiyyətə baxışlarını müəyyənləşdirir.

Müasir təhsil modelində ümumi təhsilin birinci pilləsində, ibtidai siniflərdə savad təlimi dövründə şagirdlərin müvəffəqiyyəti oxu və yazı prosesinin psixoloji çətinlikləri dəf etmə bacarığı ilə bağlıdır.

Şagirdlərin fonematik eşitmə bacarıqlarına yiyələnməsindən başlamış, ilk səs və hərfləri öyrənməyə qədər keçdiyi yol

böyük psixoloji gərginliklərlə müşayiət olunur. Müəllim sagirdlərin yorulmasının qarşısını almaq üçün ciddi səy göstərir, müxtəlif metodikalardan, idman dəqiqələrindən istifadə edir. Bütün bunlar oxumağa və yazmağa yenicə başlamış sagirdlərin psixoloji gərginliklərini azaltmağa yönəlmişdir.

Psixoloji tədqiqatlar göstərir ki, sagirdlərin savada – oxu və yazı texnikasına yiyələnməsinin müvəffəqiyyətlə keçməsi üçün aşağıdakı bacarıqlara yiyələnməsi zəruridir:

- sözün səs tərkibinin müəyyənləşdirilməsi(fonematik eşitmə);
- səslərin bir-birindən fərqləndirilməsi(fonematik duyum);
- sözləri hissələrə(hecalara) ayıra bilməsi;
- hecaları səslərə ayıra bilməsi;
- səslərə uyğun hecaların yaradılması(-na,-an,- nə,- ən,- la, -lə, -al);
- səsin qrafik təsvirini tanıya bilməsi;
- təqdim edilən səsin qrafik işarəsini yazması(hərf);
- hecaları oxuya bilməsi;
- hecaları birləşdirib bütöv səs kompleksi kimi (söz) tələffüz etməsi;
- oxunan və yazılan sözün mənasını anlaması.

Oxu texnikasına yiyələnmə dəqiq eşitməyə, görəmyə, tələffüzetməyə, təhlil-tərkib prosesinə, sözün səs formasının onun mənası ilə birləşməsinə əsaslanan bir prosesdir. Sözün oxunması onun səs-hərf tərkibinin təhlilindən başlanır. Bu təhlil nitq səsləri və onların hərflərlə ifadəsinin dərk olunmasıdır. Oxuya yeni başlamış şagirdin oxu dairəsi çox məhdud olur, yəni o, bir hərfi nəzərində saxladıqda onunla yanaşı işlənmiş digər hərfi "görməkdə" çətinlik çəkir. Oxunun hərflə aparılması isə düzgün deyildir. Heca oxunun "açarı" olduğu üçün savad təlimi dövründə hecalarla oxunun öyrədilməsi mühüm şərtdir. Bunun üçün ilk növbədə açıq hecaların oxusu üzrə işin təşkili və açıq hecaların əksi olan qapalı hecaların eyni zamanda təqdimi (-na, -an, -nə, -ən -la, -al, -lə, -əl, -nal, -ləl və s.) diqqət mərkəzində saxlanılmalıdır.

Şagird oxuduğu zaman həmin sözün mənasını başa düşməyə imkan tapmır, çünki bütün fikrini sözün oxunmasına yönəldir. Mənanın anlaşılması oxudan ayrı düşür.O, La-lə, mil-li, ə-la-mət və s. sözlərini oxuyur, lakin hansı sözü oxuduğunu deyə bilmir. Oxu sürətinin aşağı olması sözün mənasını tutmağa, şüurluluğa imkan vermir. Şagird sözü ya ilk hecasına, ya şəklə, ya da kontekstə görə mənalandırmağa çalışır. Bu da güman edilməklə oxuya səbəb olur, şagird səklə baxıb "oxuyur". Bunun qarşısı alınmazsa, yəni müəllim vaxtında tədbir görməzsə, işlədiyi sinif şagirdləri həmişə bu noqsandan əziyyət çəkəcəkdir. Oxu prosesində oxunacaq sözün mənasının başa düşülməsi şüurluluğu təmin edir, şagirdin daha inamlı oxusuna səbəb olur. Oxu texnikasının yaradılması üçün məşq etdirici çalışmaların da aparılması vacibdir.

Savad təlimi dövründə ilkin oxuya yiyələnən şagird hecanı, sözü təkrarlayır, şagirdin gözü bəzən sətri itirir, yenidən ona qayıtmalı, oxumalı olur. Yenicə oxumağa başlayan şagirdlərin oxu prosesinin bu xüsusiyyətləri savad təliminin metodikası qarşısında müəyyən tələblər qoyur. Oxu prosesində reqressiyanı (geriyə qayıtma) azaltmaq məqsədilə savad təlimi dövründə şagirdlərə mənası aydın olan, bir, iki hecalı sözlər təqdim edilməlidir. Bu, oxu vahidi olan hecanı cəld mənimsəməyə imkan verir. Reqressiyanın azaldılması oxunun şüurluluğunu təmin edir, sürətini artırır.

Professor Y.Ş.Kərimov yazır:"Oxu texnikasına yiyələnmə prosesində uşaqların eşitmə qavrayışının inkişafına daha çox diqqət yetirmək lazımdır, çünki nitq səslərini yaxşı fərqləndirə bilməyən uşağın görmə qavrayışı mükəmməl inkişaf etmiş olsa da, o, ən sadə sözləri belə oxumaqda çətinlik çəkir. Fonetik eşitməyə, səs təhlili vərdişlərinə lazımınca yiyələnməmiş uşaqların oxusu nöqsanlı olur. Oxu texnikasına yiyələnməmiş uşaq müstəqil işləyə, tədris fəaliyyətini səmərəli təşkil edə bilmir. Ona görə də fonematik təhlilə geniş yer verilməlidir. Uşaqlar hələ hərflərlə tanış olanadək onlarda nitqi cümlələrə, cümlələri sözlərə ayırmaq, cümlədə sözlərin, sözlərdə

hecaların sayı və sırası üzrə əməliyyat aparmaq bacarığı formalaşır” ( Y.Kərimov. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, s.87).

İbtidai sinif müəllimi oxu və yazının şagird üçün olduqca mürəkkəb bir proses olduğunu bilməli və buradakı çətinlikləri nəzərə almalıdır. Oxudakı başlıca çətinliklər aşağıdakılardır:

1. Uşağın oxu dairəsi bir hərfdən ibarətdir. Oxumaq üçün isə eyni anda bir neçə hərfi birləşdirmək tələb olunur. Uşaq bir hərfi yadda saxlamaqla sonrakını oxumalı olduğundan böyük çətinliklə qarşılaşmalı olur.

2. Oxumağa başlayan uşağın görmə dairəsi də geniş deyildir. Ona görə də o sətri tez-tez itirir. Uşağın diqqətinin paylanma dərəcəsi artana qədər bu çətinlik qalır. Ona görə də müəllim bunu da nəzərə almalıdır.

3. Şagird çox vaxt oxuduğunun mənasını başa düşmür. Bu işdə şəkillər, suallar, əyani vasitələrlə şagirdə kömək etmək lazımdır.

4. Zəif, təcrübəsiz oxucu üçün ya birinci hecaya, ya şəklə və ya mətnə əsasən oxu xarakterikdir. Yəni uşaq bunlara əsasən uydurma aparır.

Yazı prosesi şagird üçün daha çətin prosesdir. Hələ onda heç bir avtomatlaşma olmadığından o eyni zamanda bir neçə sahəyə diqqət yetirməli olur, bu iş onda ağır bir zəhmətə çevrildiyindən yorulub bəzən dayanmaq məcburiyyətində qalır.

Partada yazı zamanı düzgün oturmaq, qələmi əlində düzgün saxlamaq, yazı ilə gözün məsafəsini gözləmək, hərfləri qrafik cəhətdən, sözləri orfoqrafik cəhətdən düzgün yazmaq və s. bütün bu kimi işlər uşaq üçün ayrı-ayrı zəhmət tələb edən işə çevrilir. İbtidai sinif müəllimi şagirdlərin bu çətinliklərini diqqətlə izləməli, fərdi, cütlərlə, qrupla işləməklə, təlimi maraqlı təşkil etməklə, oyun xarakterli calışmalardan, fəal təlim metodlarından istifadə etməklə bu gərginliyin maksimum azaldılmasına nail olmalıdır.

## Savad təlimi dövründə istifadə olunan vəsaitlər

**Kəsmə əlifba.** Kəsmə əlifba iki cür olur: 1) sinifdə bütün şagirdlərin hamısı ilə birlikdə işləmək üçün (sinif kəsmə əlifası); 2) şagirdlərin sərbəst işləmələri üçün (şagird kəsmə əlifbası).

Sinif kəsmə əlifbası böyük (şagirdlərin hamısının görə biləcəyi tərzdə), şagird kəsmə əlifbası isə kiçik olur. Belə kəsmə əlifba ya hazır şəkildə olmalıdır, ya da dərs ilinin əvvəlində müəllim valideynlərin köməyi ilə şagird kəsmə əlifbasını və hecaları kəsdirib cibciklərə yığdırmalıdır.

**Əlifba kassası.** Əlifba kassası kəsmə əlifba üçün tərtib olunur. Sinif üçün əlifba kassası olmadıqda müəllim onu özü də hazırlaya bilər. Bunun üçün uzunu 1 m, eni 70 sm olan ağ parça götürülməli, həmin parçanın üzərinə 32 hərf, durğu işarələri və rəqəmlər üçün eyni ölçüdə 40 cibcik tikilməlidir (parçanın bir hissəsi kassanın alt tərəfinə, bir hissəsi də cibciklərə sərf olunmalıdır). Eyni hərflər bir cibcikdə yerləşir və hərfləri asan çıxarmaq üçün cibciklərin boyu hərfə nisbətən azca qısa olur.

**Düzüm taxtası.** Sinif kəsmə əlifbası ilə işləmək üçün düzüm taxtasının böyük əhəmiyyəti vardır. Düzüm taxtasını düzəltmək üçün uzunu 60 sm, eni 45 sm faner taxtası və kartonun üstünə 3-4 sm enində zolaqlar (3-4 zolaq) vurulur. Düzüm taxtası əlifba kassasının yanında asılır. Düzüm taxtasında heca, söz, cümlə düzdürmək olar.

**Proyektor.** Əlifba təlimi dövründə kompyuterdə hərflərin böyük və kiçik çap yazılışının hazırlanıb proyektor vasitəsilə göstərilməsi şagirdlər üçün daha cəlbedicidir. Müvafiq hərfə aid müxtəlif şəkillərin, həmin şəkil adlarında hərf sxeminin çəkilib proyektor vasitəsilə nümayiş etdirilməsi təlim məqsədinin daha effektli şəkildə reallaşdırılmasına kömək edir. Sözdəki hərfləri

həmin sözün hərf sxemindəki xanalara düzmək də şagirdlərə kompyuter bacarıqlarına yiyələnməkdə maraq oyadır.

Hərflərin böyük və kiçik çap yazılışı müəllimin özü tərəfindən həm Power Point, həm də Makromedia Flash8 proqramında hazırlanıb nümayiş etdirilə bilər. Makromedia Flash8 proqramında hərflərin animasiyalı yazılışının CD diskləri də var ki, bu disklərdə hərflərin elementləri və konfiqurasiyası, müəyyən olunmuş xətt boyunca düzgün yazılışı əks olunub.

**İnteraktiv lövhə.** Bəzən "Ağıllı lövhə" və ya "Mimio qurğusu" da adlanan interaktiv lövhədən fəal təlim metodlarına əsaslanan dərsin təşkili üçün istifadə olunur. Mimio-Studio proqramı ilə təchiz olunmuş interaktiv lövhə müəllimin özü tərəfindən hazırlanmış materiallarla yanaşı, əlavə mənbələrdən, o cümlədən internet resurslarından istifadə etməyə imkan verir. Proyektor işə salınıb, dərs elektron lövhə vasitəsilə başladığı andan müəllim müşahidəçi mövqeyi seçib yalnız zəruri hallarda şagirdlərin sərbəst işinə müdaxilə edə bilər.

**Əlifba lotosu.** Bu oyunu cütlərlə və ya qruplarla təşkil etmək olar. Əlifba lotosu üzərində 8 şəkil (hər şəklin adı fərqli hərflə başlanmaq şərti ilə) təsvir olunmuş karton lövhələrdən və plastik şəkil-lövhəciklərdən ibarətdir. Oyun təqribən adi lotoda olduğu kimi keçirilir. Şagirdlərə karton lövhələr paylanır. Daha sonra loto torbasının içindən bir-bir şəkil-lövhəciklər çıxarılır. Müəllim, yaxud şagirdlərdən biri həmin şəklin adını deyir. Lövhəsində həmin şəklin təsviri olan şagird plastik lövhəciyi alaraq onunla müvafiq şəklin üstünü örtür. Lövhəsindəki şəkillərin hamısı ilk olaraq örtülən şagird qalib sayılır.

**Doqquzdaş.** Bu oyunu yalnız məktəbdə deyil, evdə, valideynlərin iştirakı ilə də oynamaq olar. "Doqquzdaş" sinif şəraitində oynanılarkən şagirdlər iki və daha artıq qrupa bölünürlər.

Oyunda tərəflərinə hərflər yazılmış kiçik kublardan-zərlərdən istifadə olunur. Zərin altı tərəfi olduğundan burada 54 (9*6) hərf iştirak edir. Azərbaycan dilində 32 hərf olduğundan dilimizdə daha çox işlənən hərflər (əsasən saitlər) bir neçə zərdə təkrarlanır. Müəllim və ya şagirdlərdən biri zərləri müəllim

masasının üstünə atır. Üstə düşən hərflər yazı taxtasına yazılır. Bu hərflərin köməyi ilə daha çox söz düzəldən qrup oyunda qalib gəlir.

Bu zərləri şagirdlər özləri müəllimin köməyi ilə karton və ya qalın kağızdan düzəldə bilərlər. Hərflərin zərlər üzrə aşağıdakı şəkildə paylanması tövsiyə olunur:

1. **B,Ş,D,T,K,F**
2. **A,O,E,U,Ə,İ**
3. **Ü,H,S,A,K,T**
4. **U,E,Ə,I,O,A**
5. **S,P,L,M,N,R**
6. **Z,J,G,O,Y,V**
7. **A,Ə,E,O,I,İ**
8. **D,C,Ğ,Q,X,B**
9. **S,M,L,N,P,R**

**Smayliklər.** Asan seçilməsi üçün yaşıl və qırmızı rəngdə hazırlanmış smayliklərdən "Doğru, yoxsa yanlış?" və test tipli tapşırıqların şifahi şəkildə yerinə yetirilməsi zamanı istifadə olunur. Müəllim tapşırığın şərtini səsləndirir, sonra bir-bir cavab variantlarını deyir. Düzgün cavab səsləndikdə şagirdlər yaşıl rəngli "gülən" smayliki, yanlış cavab səsləndikdə isə qırmızı rəngli "küsən" smayliki qaldırırlar.

**Şəkilli kartlar.** Belə kartlardan daha çox hərf təlimi dövründə istifadə olunur. Şəkilli kartlardan müxtəlif məqsədlər üçün yararlanmaq olar.

- Kartlar maqnit lövhəyə bərkidilir, şagirdlər adı müvafiq səslə başlanan, ya bitən (içərisində işlənən) şəkil kartlarını seçirlər.
- Şagirdlər şəkilləri maqnit lövhədə aşağıdakı şəkildə qruplaşdırırlar:

1) adı müvafiq səslə başlanan,
2) adı müvafiq səslə bitən,
3) müvafiq səsin ortada işləndiyi şəkil adları.

Təcrübə göstərir ki, bu yaşda bir çox uşaqlar nitqdə bəzi səs və hərfləri "q" və "ğ", "k" və "ç", "h" və "x") səhv salırlar.

Müəllim maqnit lövhəyə adının tərkibində həmin hərflər olan şəkilləri üzü arxaya bərkidir. Şagirdlər bir-bir lövhəyə yaxınlaşıb şəkli götürür, sinfə göstərir, adını deyir və bu sözdə hansı səsin və hərfin olduğunu müəyyən etdikdən sonra şəkli üzü sinfə sarı bərkidirlər.

**Abak.** Abak hərflərdən və hecalardan sözlər düzəltmək üçün didaktik vasitədir. Şəkildə göründüyü kimi, iki karton vərəq müəyyən hissələrdə şaquli istiqamətdə tikilməklə bir-birinə elə bərkidilir ki, tikişlər arasında üç arakəsmə alınır. Hər arakəsmədə üstdəki karton kəsilməklə kiçik ekran yaradılır. Kartonlar elə tikilməlidirlər ki, arakəsmələrin içi ilə şaquli istiqamətdə qalın kağız və ya karton lent (zolaq) asanlıqla hərəkət edə bilsin.

Abakda ekranlardan biri statik, ikisi isə dinamik olur. Statik ekranda hərf və ya heca görünür. Dinamik arakəsmələr boyu üstündə hərflər və ya hecalar yazılmış lent hərəkət etdirilir. Əvvəlcə 1-ci dinamik ekrana lentdəki hərflərdən biri gətirilir. Sonra ikinci dinamik arakəsmədəki lent hərəkət etdirilir. Digər iki hərflə söz yaradan hərf ekrana gəldikdə həmin söz oxunur. Sonra 1-ci dinamik ekrandakı hərf dəyişdirilir və lent yenidən aşağı-yuxarı hərəkət etdirilir. Beləliklə, tapşırıqdakı sözlər oxunur.

Abak üçhərfli və ya üçhecalı sözlərlə işləmək üçündür, lakin daha mürəkkəb və sadə abaklar da düzəltmək olar.

**Didaktik oyunlar:** Altıyaşlıların təliminin müvəffəqiyyətli və cəlbedici olması üçün düşündürücü və işkişafetdirici oyunlardan istifadə olunmalıdır. Uşaqlar oyun zamanı sərbəst olur, yeniliyi asanlıqla qavraya bilirlər. Belə oyunlar zamanı uşaqlar hiss olunmadan, əziyyət çəkmədən bir sıra vərdişlərə yiyələnirlər. Oyun zamanı uşağın təfəkkürü, yaddaşı, müşahidəçilik qabiliyyəti, diqqəti daha asanlıqla inkişaf edir. Mövcud "Azərbaycan dili"dərsliyinə xeyli maraqlı didaktik oyunlar (material) daxil edilmişdir. Bunlardan əlavə müəllim özü də belə didaktik materialı hazırlaya bilər.

## Müəllimin savad təlimi məşğələlərinə hazırlaşması

Müəllimin savad təlimi məşğələlərinə vaxtında hazırlaşmasının çox böyük əhəmiyyəti vardır. Hazırlıq işlərini yalnız dərslikləri, dəftər, qələm, kəsmə əlifba, xətkeş, tabaşir və bəzi əyani vasitələri əldə etməklə məhdudlaşdırmaq olmaz. Hazırlıq aşağıdakılardan ibarət olmalıdır:

1. Müəllim hər şeydən əvvəl "Azərbaycan dili" dərsliyinə və müəllim üçün metodik vəsaitə bələd olmalı, onunla necə işləyəcəyini dəqiq müəyyənləşdirməli, dərsliyə daxil edilmiş ayrı-ayrı şəkillərin, illüstrasiyaların, süjetli şəkillərin və didaktik materialların nə məqsədlə verildiyini bilməlidir.

2. Müəllim özü əlavə didaktik material, əyani vəsait, vasitə və şəkilli əlifba (hazırını əldə edə bilsə, düzəltməyə ehtiyac yoxdur) hazırlamalıdır.

3. Əlavə oxu materialı və uşaq ədəbiyyatına dair kartoçkalar əldə etməlidir.

4. Lazımı miqdarda kəsmə əlifba almalı, əlifba kassası, hecalar, heca kassası və düzüm lövhəsi düzəltməlidir.

5. Sözlərin orfoqrafik cəhətdən düzgün yazılmasına xidmət edən şəkilli kartoçkalar (belə şəkillərin altında asan hecanı yazıb, çətin hecanın əvəzinə nöqtələr qoymaq) tərtib etməlidir.

6. Sözlərin heca tərkibini müəyyənləşdirmək üçün kartoçkalar hazırlamalı (kartoçkaların sayı 3-4 olmalı). I kartoçkada bir zolaq, II-də iki zolaq, III-də üç zolaq və s. olmalı; bu zolaqlardan sözdəki hecaların sayını müəyyənləşdirmək üçün istifadə olunur. Müəllim bir, iki, üç, dörd hecalı söz deyir, şagirdlər isə qarşılarında olan kartoçkalar içərisindən müvafiqini tapıb qaldırırlar. Bu iş sözləri hecaya ayırmaqda çətinlik çəkən şagirdi müəyyənləşdirmək işində müəllimə kömək edir.

7. Ehtiyat üçün dəftər, qələm, marker, tabaşir, karandaş çərtən, pozan, rəngli karandaşlar, rəngli flamasterlər,

qayçı, yapışqan, knopka, xətkeş, iynə, sap, rəngli kağız, göstərici, smayliklər və s. hazırlanmalıdır.

8. Sinif kiçikyaşlılara uyğun hazırlanmalı: a) parta və ya stollar uşaqların boyuna uyğun olmalı; b) yazı taxtası ikiüzlüdürsə, bir üzü dama-dama (riyaziyyat üçün), o biri üzü isə birmil xətlə cızılmalı, bir üzlüdürsə, yazı taxtası tən ortadan yarı bölünməli, bir tərəfi dama-dama, o biri tərəfi isə bir mil olmalı və qara rənglə yaxşı rənglənməli; v) dəftər və kitab sərgisi üçün guşə ayrılmalı; q) əyani və texniki vasitələr üçün yer müəyyənləşdirilməli; ğ) divarda yazıçı və şairlərin şəkilləri olmalı; d) pəncərəyə güldanlar və s. qoyulmalıdır.

9. Sinif otağında proyektor, kompyuter olmalı, imkan daxilində interaktiv lövhə yerləşdirilməlidir.

**Ədəbiyyat**


1. Abdullayev A., Kərimov Y. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası, 1968
2. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 1984, 392 s.
3. Balıyev H.B. Ana dilinin tədrisi metodikası. Bakı, 1997, 102 s.
4. Balıyev H.B. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2003,425 s.
5. Cəfərova L. "Uşaq bağçalarında savad təlimi. Bakı: Nərgiz, 2004, 136s.
6. Əhmədov B.A. Ana dili dərslərində şagirdlərin nitqini inkişaf etdirmək yolları. Bakı: Maarif, 1967, 110 s.
7. Элконин Д.Б. Как учить детей читать. М.: Знание, 1976
8. Həsənov M.M., Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 404s.
9. Həsənov M., Cəfərova N., Bəhmənova C. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Bakı: Elm və təhsil, 2014, 72 s.

10. Kazımov A.S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2013,186 s.

11. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, 520 s.

12. Kərimov Y.Ş. Savad təlimi. Bakı: Maarif, 1972

13. Kərimov Y.Ş. "Əlifba" dərsliyinə metodik rəhbərlik. Bakı, 1992

14. Kərimov Y.Ş. Savad təliminin metodikası. Bakı, 1996

15. Quliyeva S., Balıyev H., Məmmədov M. Ana dili tədrisi metodikası. Bakı, 1990

16. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, 402 s.

17. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)// Kurikulum, 2010, №3, s. 116-130

# V FƏSİL

# YAZI TƏLİMİ

## Yazı təliminin metodikası. Yazı məzmun xətti

Məzmun xətləri ümumi təlim nəticələrinin reallaşdırılması üçün müəyyən olunan fənn kurikulumunun zəruri hissəsi olub, şagirdlərin əldə edəcəyi bilik və bacarıqları daha aydın təsvir etmək və onu sistemləşdirmək məqsədi daşıyır.

Azərbaycan dili təliminin məqsəd və vəzifələrinə uyğun olaraq, məzmun xətləri təhsilin bütün pillələri üzrə aşağıdakı kimi təyin edilmişdir:

- Dinləyib – anlama və danışma
- Oxu
- Yazı
- Dil qaydaları

**Yazı**

Yazı şagirdlərin duyğu və düşüncələrinin dil normalarına uyğun qaydada nəqli, təsviri və mühakimə xarakterli rabitəli mətnlər formasında ifadəsini təmin edir. Oxu prosesində qazanılan bacarıqlar yazı ünsiyyəti vasitəsilə genişləndirilərək qarşılıqlı əlaqəyə çevrilir. Yazı qoyulmuş hər hansı problem, yaxud mövzu ilə bağlı fikir və mülahizələrin müvafiq formada verilməsini, görülmüş işin hesabatının hazırlanmasını təmin edir. Ədəbi dilin normaları gözlənilməklə şagirdlərin tədqiqatçılıq və təşkilatçılıq bacarıqlarını nümayiş etdirməyə imkan yaradır.

**Ümumi nəticələr**

**Şagird:**

- irəli sürülən problemlə bağlı əsaslandırılmış rabitəli mətnlər qurur;
- münasib tədqiqat vasitələrindən istifadə etməklə verilmiş mövzuya uyğun sitat, fakt və dəlilləri seçib mətn daxilində məntiqi cəhətdən əlaqələndirir və bu zaman özünəməxsus fərdi yazı üslubu nümayiş etdirir;

• ilkin əlyazma (qaralama) üzərində işləməklə onu redaktə edir, artıq fikir və mülahizələri seçib məqsədəuyğun cümlələrlə əvəz edir;

• müxtəlif əməli yazı nümunələrindən istifadə etməklə fikri dəqiq və aydın ifadə edən məqsədyönlü məlumat hazırlayır;

• layihələr, kütləvi tədbirlər üçün ssenarilər hazırlayır.

**Dil qaydaları**

Bu məzmun xətti dilin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı ən zəruri biliklərin yığcam, sadə, aydın qayda və şərhlər formasında şagirdlərə catdırılmasını, orfoqrafiya qaydalarına riayət edilməsini, durğu işarələrindən yerli-yerində düzgün istifadə olunmasını təmin edir. Şagirdlərin həm oxu, həm də yazı qabiliyyətlərinin inkişafı üçün zəmin yaradır. Şagirdlərin şifahi və yazılı nitq bacarıqlarının formalaşmasında mühüm rol oynayan ən zəruri linqvistik biliklərin öyrənilməsini, mədəni nitq üçün vacib sayılan mühüm tələblərin qavranılmasını, ədəbi dilin funksional və fərdi üslublarının səciyyəvi xüsusiyyətlərinin dərk olunaraq fərqləndirilməsini və təcrübədə tətbiqini təmin edir.

**Ümumi nəticələr**

**Şagird:**

- dil anlayışlarını bölmələr üzrə qruplaşdırır;
- türk dilləri ailəsinə daxil olan bir dil kimi ana dilinin xüsusiyyətlərini şərh edir;
- düzgün nitqi düzgün olmayan nitqdən fərqləndirir;
- ədəbi dilin üslub və normalarına yiyələndiyini nümayiş etdirir.

## İbtidai təhsil pilləsində yazı məzmun xətti üzrə təlim nəticələri

İbtidai təhsil səviyyəsində əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının ... öyrənilib tətbiq olunması təmin olunur.

**Yazı.** Bu məzmun xətti şagirdin sözləri və cümlələri aydın (oxuna bilən şəkildə) yazmasını, konkret şəraitə və məqsədə uyğun olaraq cümlələr qurmasını, fikirlərini abzaslarla ifadə etməsini, tədricən ilkin yazı üzrə bacarıqlar qazanmasını, təsviri və mühakimə xarakterli mətnlər qurmasını təmin edir.

**Şagird:**

- Şagird kiçik və böyük hərfləri, sözləri və cümlələri aydın yazır;
- Müşahidə etdiyi əşya və hadisələr haqqında təsviri xarakterli kiçikhəcmli mətnlər yazır;
- Əməli yazılar (məktub, ərizə, elan, divar qəzetinə məqalə, tərcümeyi-hal) tərtib edə bilməsini nümayiş etdirir;
- Yazıda kalliqrafiya, orfoqrafiya və durğu işarələri qaydalarına əməl edir.

İbtidai təhsil pilləsində yazı məzmun xətti üzrə təlim nəticələrinə görə I sinfin sonunda şagird hərfləri, sözləri və kiçikhəcmli mətnləri hüsnxət qaydalarına uyğun yazmalı, müşahidə xarakterli mətn qurmalı, əməli yazılar yazmağı bacarmalıdır.

Azərbaycan dilinin təlimi prosesində yazı məzmun xətti üzrə ilboyu aşağıdakı əsas və alt standartlar reallaşdırılmalıdır.

**Şagird:**

***3.1. Yazı texnikasına və ilkin yazı bacarıqlarına yiyələndiyini nümayiş etdirir.***

3.1.1. Hərflərin elementlərini və konfiqurasiyasını müəyyən olunmuş xətt boyunca düzgün yazır və bitişdirir.

3.1.2. Əl yazısı şəklində olan sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür.

3.1.3. Şəklə uyğun cümlələr qurub yazır.

3.1.4. Bir neçə cümlədən ibarət müşahidə xarakterli rabitəli mətn yazır.

3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən sadə əməli yazılar (açıqca) yazır.

Yazı təliminə yiyələnməkdə şagirdlərin çətinlikləri çox olduğu üçün müəllim yazı bacarıqlarının yaradılmasına xüsusi diqqət yetirməlidir. Bu cəhətdən də müəllim yazıya hazırlıq

üzrə ilkin məşğələlərin düzgün təşkilinə və yazı ləvazimatından düzgün istifadəyə ciddi fikir verməlidir. İlkin məşğələlərdə görülən işlərin məzmunu, təxminən aşağıdakılardan ibarət olmalıdır:

1. Barmaqları bir neçə dəfə ovucun içində yumub-açmaq.

2. Barmaqları növbə ilə yumub yumruq düzəltmək (bunu bir neçə dəfə təkrarlamaq).

3. Barmaqları ovucun içində növbə ilə birləşdirmək və növbə ilə açmaq.

4. Bir əlin barmaqlarını digəri ilə çarpazlaşdırmaq və birlikdə bir neçə dəfə yumruq düzəltmək.

5. Əlləri qabağa uzadıb gah sağ, gah sol əli ilə bir neçə dəfə yumruq düzəltmək.

6. Əvvəl sağ, sonra sol əli qabağa uzadıb barmaqları qeyri-ahəngdar şəkildə ayırmaq.

7. Əlləri açıb partanın üstünə qoymaq, növbə ilə əli partaya vurmaq.

8. Dirsəyi partaya qoyub qolu dik tutmaq, yumulmuş əli biləkdən gah sağa, gah sola fırlatmaq[1].

9. Əvvəlcə sağdan sola, sonra soldan sağa xətt çəkmək üzrə məşqlər.

Bu təmrinlərə hər dəfə bir-iki dəqiqə vaxt ayrılır.

Düzgün, səliqəli, gözəl yazmaq bacarığının yaradılması qayğısına qalmaq, baş verə biləcək nöqsanların qarşısını almaq, qüsurları vaxtında islah etmək istiqamətində işlərin aparılması müəllimin diqqət mərkəzində olan məsələlərdəndir. Yazının keyfiyyətinin yaxşı olmasında yazı ləvazimatını düzgün seçməyin də böyük əhəmiyyəti vardır. Dəftər, qələm, karandaş əsas yazı ləvazimatı sayılır.

Yazı prosesində aşağıdakı gigiyenik tələblərin gözlənilməsi də vacibdir:

---

[1] Bax.:Y.Ş.Kərimov. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, s.132

l. Uşağın əyləşdiyi parta onun boyuna uyğun olmalıdır.

2. Yazarkən  düz əyləşmək, çiyinləri bərabər səviyyədə saxlamaq, sinəni partanın kənarına söykəməmək, sağ əllə yazarkən başı azca aşağı və sola, sol əllə yazdıqda isə sağa əymək, yazı ilə göz arasında 25-30 sm məsafə saxlamaq lazımdır.

3. Üzərində iş gedən dəftərin, səhifənin sol küncü döşün ortasına tuşlanmalı, 25 dərəcəli bucaq yaranmalıdır.

4. Otaq yaxşı işıqlanmalı, işıq sol tərəfdən düşməlidir.

5.Qələm üç barmaqla tutulmalı, şəhadət barmaq qələmdən asanlıqla ayrılmalıdır. Barmaqlar qələmin ucundan 1-1,5 sm. aralı tutulmalıdır.

6. Hər iki qol partanın üstünə qoyulmalıdır, dirsəklər bir qədər kənara çıxmalıdır, sağ əl yazdıqca sol əl yavaş-yavaş dəftəri qabağa itələməlidir.

7. Ayaqlar düzbucaq şəklində az bükülməli, pəncələr partanın ayaqaltısına və ya döşəməyə qoyulmalıdır. Ayaqları sallamağa və ya bir-birinin üstünə qoymağa icazə verilməməlidir.

8. Yazı işi uzun müddət davam etməməli, uşaqlar yorulmamalıdırlar.

I sinifdə yazıya 5-7 dəqiqə vaxt ayrılmalı və tədricən artırılmalıdır. Fasiləsiz yazı IV sinifdə 18-20 dəqiqəyə çatdırılmalıdır. Solaxaylığı müəllim təbii hal kimi qəbul etməlidir.[1]

Yazıya qədər şagirdləri çoxlu təmrin və çalışmalar üzərində işlətmək lazımdır. Bu qaydalar tez-tez təkrarlanmalı və nümunələr göstərilməlidir. Müəllim savad təlimi dövründə yazının düzgünlüyünü təmin edə biləcək ümumi tələbləri bilməli və gözləməlidir:

1) hərfin düzgün yazılması;

2) sətir xəttinin gözlənilməsi və hərf elementlərinin eyni səviyyədə olması;

---

[1] Bax.:Y.Ş.Kərimov. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, s.136

3) yazıda mailliyin gözlənilməsi;
4) hərflər, sözlər arasında məsafənin normal olması, hərflərin düzgün birləşdirilməsi;
5) yazı zamanı gigiyenik tələblərin təmin olunması.

Yazı üzrə iş savad təliminə hazırlıq dövründən başlanır. Bu dövrdə yazı zamanı bilək, barmaqlar və əli düzgün hərəkət etdirmək üçün şagirdlərlə müəyyən təmrinlər aparılır.

Savad təlimi dövründə müəyyən səs və onun çap hərfi öyrənildikdən sonra uşaqlar hərfin əl yazısı ilə tanış olur və onu əvvəlcə "havada" sonra iş dəftərində yazırlar. Müəllim keçilmiş səsin nümunəvi əl yazısını şəkilli kartoçka vasitəsilə nümayiş etdirir, sonra isə hərfin əl yazısını izah edə-edə yazı taxtasında yazır. Savad təlimi dövründə hərflərin yazılışı üzrə iş birbaşa, yəni elementlərinə ayrılmadan getməli, hərf tam halında təqdim edilməlidir. Belə ki, i, ö, ü, x, j, k, ğ hərfləri müstəsna olmaqla yerdə qalan hərfləri birbaşa yazmaq mümkündür.

Yeni hərfin yazılışına dair müəllim nümunə verdikdən sonra 2-3 şagirdi yazı lövhəsinə çağırmalı, onlar da hərfi izahla yazmalıdırlar. Bütün bu əməliyyatdan sonra yeni hərfin iş dəftərində yazılmasına keçmək olar. Savad təlimi dövründə yazı işi iş dəftərlərində aparılır. Şagirdlər dəftərdə verilmiş nümunəyə əsasən hərf, heca və söz yazırlar. Müəllim şagirdlərə müntəzəm nəzarət etməli, lazım gələrsə, şagirdin dəftərində yenə də nümunə verməli və ehtiyac olduqda şagirdin əlindən tutub hərfi düzgün yazmağa kömək etməlidir.

Savad təlimi dövründə şagirdlərin hərfləri tanıması, onların qrafik işarəsini yaza bilməsi, həmin hərflərlə bağlı heca, söz yaza bilmələri hələ şagirdin yazıya tam yiyələnməsi demək deyildir. Bu olsa-olsa şagirdin yazı texnikasına yiyələndiyini göstərir. Yazı təlimi geniş məfhumdur. Yazı təlimində aşağıdakı vərdişlərin aşılanması vacibdir:

1) kalliqrafiya qaydalarının öyrənilməsi(hərflərin düzgün yazılması, söz daxilində düzgün birləşdirilməsi, hərflər, sözlər arasındakı məsafənin düzgün saxlanılması və s.);

2) yazının gigiyenik cəhəti, yəni onun təmiz və səliqəli olması;

3) sürətli və savadlı yazmaq bacarığının yaradılması (orfoqrafik səhvlərə yol verməmək);

4) rabitəli yazmaq vərdişlərinə yiyələnilməsi (öz istək və arzularını, eşitdiklərini yaza bilmək və s.).

Kalliqrafiya qaydalarına əməl olunması təlimin ilk günündən diqqət mərkəzində saxlanmalıdır. Hər bir qrafik işarəni yazarkən sətir xəttinin gözlənilməsinə, hərflərin bir ölçüdə, bir endə olmasına, hərf, heca və sözlər arasındakı məsafənin saxlanmasına, nöqtə və digər işarələrin sözlərə nə çox yaxın, nə də uzaq qoyulmasına fikir verilməlidir. Hərflərin bir-biri ilə birləşdirilməsi məsələsinə ciddi nəzər yetirilməli, k, ş, ğ tipli hərflərin yazılışında başa salmaq lazımdır ki, yuxarı sətir xəttindən başlayıb k-nı yazmaq, birləşdirici ünsürü ortada saxlamayıb yuxarı qaldırmaqla ş və ya ğ hərflərini yazmalı və yaxud t, f tipli hərflərin yazılışında əvvəlcə düz xətti yuxarıdan (sətir xətti) aşağıya doğru aparıb (qələmi dəftərdən ayırmadan) həmin xəttin üstü ilə bir daha yuxarı çəkib əlavə ünsürləri yazmaq lazımdır. Bu zaman birhecalı sözlərin birbaşa (qələmi dəftərdən ayırmadan) yazılmasına nail olmaq lazımdır.

İlk gündən yazının səliqəli və aydın olmasına da fikir verilməlidir. Aydın və səliqəli yazı onun asan oxunmasını və başa düşülməsini təmin edir. Xəttin gözəl olması üçün şagirdlərə təzyiqlə və gözəl yazmaq öyrədilməlidir. Şagirdlər yazı zamanı kalliqrafiya qaydalarına lazımınca riayət etmədikdə yazı səliqəsiz alınır. Bu nöqsanı aradan qaldırmaq üçün I-II siniflərdə (savad təlimindən sonra) həftədə bir saat şagirdlərin xəttinin yaxşılaşdırılması üzrə iş aparmaq üçün vaxt ayırmaq lazımdır. Yazının səliqə və təmizliyi ilə yanaşı, onun sürəti və düzgün yazılması qayğısına da qalınmalıdır. Yazının sürətli getməsi üçün hərflərin yazılışında aşağıdakı dəyişikliklər edilmişdir:

1. Hərflərin qrafik forması, xüsusilə böyük hərflər xeyli sadələşdirilmiş, yazı hər cür bər-bəzəkdən azad edilmişdir.

2. Savad təlimi dövründə hərflərin öyrədilməsi işi sadələşdirilmişdir. Belə ki, şagirdlərə hərfləri elementlərinə ayrmadan bütöv yazmaq öyrədilir. Hərflərin elementlərinin öyrədilməsi üzrə iş savad təliminə hazırlıq dövründə aparılır.

3. Savad təlimi dövründə şagirdlər yazını iş dəftərində, diyircəkli qələmlə yazırlar.

4. Yazı nümunəsi olduğu üçün müəllim şagird dəftərində nümunə vermir.

Savad təlimi dövründə yazı üzrə ilk çalışmalar kəsmə əlifba ilə işdən başlayır, yazı üzrə əl hərəkəti fəaliyyəti isə bilavasitə yazı yazarkən gedir.

Savad təlimi dövründə yazının orfoqrafik cəhətdən düzgünlüyü, şagirdlərin yazılı nitqinin inkişafı məsələsinə də xüsusi diqqət yetirilir. Müəllimlər bu məqsədlə ən çox üzündənköçürmə yazılardan istifadə edirlər. Şagird heca, söz və cümləni üzündən köçürərkən hərflərin formasına, bitişdirilmə qaydasına, hərf və sözlər arasındakı məsafənin saxlanılmasına fikir verirlər. Bu işin gedişində müəyyən dəyişiklik etməklə üzündənköçürmə aparmaq şagirdlərin yorulmasının qarşısını almaqda faydalıdır. Buraxılmış hərfi sözə əlavə etməklə (..ar, ..iş, ..rı, ..or, ..ta, ..na və s.), bir hərfi başqası ilə əvəz etməklə (daş-diş, şar-şir, dən-don, yay-çay, sarı-darı, qara-qala, dərin-sərin və s.) aparmaq olar. Belə iş apararkən bir hərfin dəyişilməsi ilə sözün mənasında əmələ gələn dəyişiklik üzərində dayanmaq, izahını vermək lazımdır.

Savad təlimi dövründə yaddaşa əsasən yazılardan və imlalardan da istifadə olunmağa başlanır.

Yaddaşa əsasən yazı aparmaq üçün söz yazı taxtasında (manat, ləçək, Bilal, Suşa, vətən və s.) yazılır, sözün hecaya ayrılması, I, II hecaların sorğusu üzrə iş gedir. Sonra sözün üstü örtülür. Sözü yazdıqdan sonra örtük açılır və şagirdlər yazılarını yoxlayırlar. Belə yazılarda şagirdin diqqəti sözün səs-hərf tərkibinə cəlb olunduğundan yazıda hərfburaxma,

birini digəri ilə əvəz etmə halına yol verilmir. Sözlərdə hərf-buraxma, hərflərin yerinin dəyişmə kimi nöqsanların qarşısını almaq üçün şagirdlərin sözləri yazarkən dodaqaltı tələffüzünü təşkil etmək lazımdır. Sözün dodaqaltı tələffüzlə deyilib yazılması sözün tələffüz vahidlərinə-hecalara ayırmadan bütöv yazılmasına səbəb olur, yazıda söz öz bütövlüyünü saxlayır. Bu iş vərdiş halına düşənədək şagird sözü dodaqaltı deyib yazmalı, vərdiş halına keçdikdən sonra söz səssiz yazılmalıdır.

Müəllim sözlərin düzgün yazılış qaydasına dair xüsusi iş aparmalı və bunu şagirdlərə vərdiş halına keçirməyə çalışmalıdır. Bu işdə yeni səsin uzadıla-uzadıla oxunması çox faydalıdır. Şagirdlər bu işi həm kəsmə əlifba ilə düzüm taxtasında sözlər düzərkən, həm də imla yazarkən təkrar etməlidirlər. Belə bir vərdişə yiyələnməyən uşaq sözü hərf-hərf deyib yazmağa adət edir, yazıda hərfartırma, hərfburaxma kimi səhvlərə yol verir ki, bunu sonradan uzun müddət aradan qaldırmaq olmur. Sözlərin hərf-hərf yazılmasının qarşısını almağa kömək edən mühüm priyomlardan biri də əşya şəkillərinin altında onun adındakı hecaların sayı qədər damalar verib yazmağı tələb etməkdir. Savad təlimi dövrü üçün sözləri və mətni ehtiyatla seçmək lazımdır. Şagirdlər savad təliminin I mərhələsində tələffüzü ilə yazılışı arasında fərq olmayan sözlər (ana, ata, lalə, nal, nənə, alma, əmi, manat, baba, bina və s.), II mərhələsində tələffüzü yazılışından fərqlənən, lakin uşaqların yaxşı bələd olduqları (dairə, limonad, saat, dəstə, usta, bulud, Nurəddin, komanda, kənd, kabab və s.), III mərhələdə isə yazılış və tələffüz fərqinə görə daha çətin (piyalə, piano, polis, kreslo, dekabr, dovşan, samovar, püstə, müəllim,Abşeron, lövbər, böyürtkən, guşə və s.), IV mərhələdə də yazılış və tələffüz fərqinə görə daha çətin (qaranlıq, Qobustan, Qubadlı, taxta, bəxtəvər, xoşbəxt, portağal, qarğıdalı, corab, çovğun, çəyirtkə, ətirli, həmrəylik, müjdə, münsif, jüri, səkkiz, qüdrətli, məftil, Füzuli, tüfəng, modelyer və s.) sözləri müəllimin diktəsi ilə yazmağı bacarmalıdırlar.

Müəllim imla yazdırarkən ədəbi dilin tələffüz normalarını gözləməli, sözləri deyildiyi-tələffüz olunduğu kimi oxumalıdır. Şagirdlər bu qəbildən olan sözləri əvvəl düzgün üzündən köçürmək bacarığına yiyələndikdən və belə sözlərin yazılışını yadda saxladıqdan sonra imla yazdırmaq olar. Şagirdlər sözləri müəllimin diktəsi altında dodaqaltı deyə-deyə yaza bilərlər.

Bu prosesdə müəllim cümlənin ilk sözünün və xüsusi adların böyük hərflə yazılması, cümlənin sonunda nöqtə qoyulması kimi məlumatı yenidən onlara xatırlatmalıdır.

## Yazılı çalışmaların növləri və aparılması metodikası

Yazı mürəkkəb bir prosesdir. Yazının hər bir mərhələsi şüurlu fəaliyyət kimi formalaşmalıdır. Uşağın həm üzündən köçürməsi, həm də imla yazması, həm də inşa üzərində işləməsi yazı adlanır.

Birinci halda fəaliyyətin şüurlu məqsədi hərflərin qrafik konfiqurasiyasını verməkdir. Ikinci halda məqsəd sözləri orfoqrafik cəhətdən düzgün yazmaqdır, üçüncü halda isə öz fikrini düzgün ifadə etməkdir.

Yazı prosesində hərflərin formalarının gözlənilməsi onların sürətlə və rabitəli birləşdirilməsi kimi qrafik vərdişlər mühüm hərəkət fəaliyyəti tələb edir.

Yazıya yenicə başlayan uşaq isə diqqətini partada əyləşmək, yazı ləvazimatından istifadə etmək, əllərin vəziyyətini və hərəkətini idarə etmək, səsi tələffüz etmək müvafiq hərfi yazarkən formanı, ölçünü gözləmək, yazdığını nümunə ilə tutuşdurmaq, sözlərdə orfoqrafik səhvə yol verməmək və s. sahələrə yönəltməlidir.

Yazılı çalışmalar Azərbaycan dili dərsinin bir hissəsində, bəzən bütöv dərs ərzində yerinə yetirilir. Yazılı çalışmaların bir neçə növünü nəzərdən keçirək.

## Üzündənköçürmə yazılar

Üzündənköçürmə yazının ən sadə növüdür. Hərfləri yazmağı və bitişdirməyi bacaran hər bir uşaq artıq üzündənköçürməyə hazır olur. Üzündənköçürməni şüurluluq tələb etməyən mexaniki fəaliyyət kimi başa düşmək olmaz. Üzündənköçürmə yazıların aparılmasında görmə və hərəki orqanların birgə fəaliyyəti nəticəsində orfoqramların daha yaxşı yadda qalmasına səbəb olur. Şagirdlər həmçinin üzündənköçürmə zamanı sözlərin səs-hərf tərkibinə diqqət yetirirlər. Bu zaman onlar mexaniki şəkildə olsa da, sözlərin düzgün yazılışını mənimsəyir, o sözləri daxili nitq ilə tələffüz edir, həmin sözlərdən şifahi və yazılı nitqlərində istifadə edirlər.

Yazı yazarkən yorucu olmasın deyə, şagirdlərin maraqlarını nəzərə almaq, üzündənköçürməyə yaradıcı xarakter vermək məqsədəuyğundur. Bu da üzündənköçürməyə şüurlu yanaşmanı təmin edir. Müəllim çalışmalıdır ki, sözlər və mətnlər dərslikdən seçilsin, belə olduqda fəaliyyət daha maraqlı olur. Şagird həm savadlı yazmaq, həm düzgün oxumaq imkanı qazanır. Üzündənköçürməyə yaradıcılıqla yanaşmaq şagirdlərin daha səmərəli çalışmasına səbəb olur. Məsələn:

- Sözü (sözləri) köçürüb, saitlərin altından xətt çəkmək;
- Sözü (sözləri) köçürüb, samitlərin altından xətt çəkmək;
- sözləri hecalara ayırıb köçürmək;
- sözləri kök və şəkilçiyə ayırıb köçürmək;
- sözləri köçürüb, şəkilçilərin altından xətt çəkmək;
- cümləni (cümlələri) köçürüb, ad bildirən sözlərin altından xətt çəkmək;
- cümləni (cümlələri) köçürüb, əlamət bildirən sözlərin altından xətt çəkmək;
- cümləni (cümlələri) köçürüb, hərəkət bildirən sözlərin altından xətt çəkmək;

- mətnin üzünü köçürüb, lazımı orfoqramların altından xətt çəkmək;
- mətndən lazımı orfoqramı tire və ya mötərizə ilə ayırmaq;
- mətndən lazımı orfoqramı seçib yazmaq;
- sözləri qruplaşdırmaqla(ad, əlamət, hərəkət) üzündən-köçürmə;
- dağınıq verilmiş sözlərdən cümlə düzəldib yazmaq;
- sözləri mənaya görə qruplaşdırıb yazmaq və s.

Üzündənköçürmə yazılar I-II siniflərdə şagirdlərin **kalliqrafiya vərdişlərinin** inkişafına kömək göstərir. Həmçinin bu yazı növü şagirdlərə **orfoqramları səhvsiz yazmağı** öyrədir. Üzündənköçürmə yazıların aparılmasına I sinifdən başlansa da, növbəti illərdə (II-IV siniflər) də bu yazı növündən istifadə çox faydalıdır. Üzündənköçürmə yazıların aparılması üçün hecalar, sözlər, cümlələr, mətn, şeir və digər bədii nümunələrdən müəyyən hissələri götürmək olar. Savad təlimi dövründən müəllim şagirdləri üzündənköçürməyə alışdırmalıdır.

## İmlalar

İmlalar şifahi nitqlə yazılı nitqi əlaqələndirən inteqrativ yazı növüdür. İmla yazılardan iki məqsədlə istifadə olunur: öyrətmək və yoxlamaq.

İmlalar orfoqrafik çalışmaların ən məhsuldar növüdür. Orfoqrafiya və orfoepiyanın sintezi olan imlalar Azərbaycan dili dərslərinin tərkib hissəsidir. İmlalar üzrə işin düzgün təşkili şagirdlərin savadlılığını artırır. Onların müvafiq bilik və bacarıqlara yiyələnməsini sürətləndirir. Azərbaycan dili dərslərində mütəmadi olaraq öyrədici imlalardan istifadə olunmalıdır. Yalnız bu halda şagirdlər öyrəndikləri orfoqrafik qaydaları dəfələrlə işlətməklə yadda saxlayır, vərdişə çevirirlər.

Müəllimlər kiçik və böyük summativ qiymətləndirmənin vasitəsi (aləti) kimi həm öyrədici, həm də yoxlayıcı imlalardan istifadə edə bilərlər.

İmlaların öyrədici və yoxlayıcı olmaqla iki qrupa ayrılması şərtidir, cünki öyrədici imlalar zamanı şagirdlərin bilmədikləri aşkara çıxarılır və islah edilir, belə bir məqamda müəllim onların bilik səviyyəsini yoxlamaq imkanına malik olur. Yoxlama imlalar da öyrədici xarakterə malikdir. Belə ki, yoxlama imla zamanı şagird bütün diqqətini orfoqrafik qaydalara əməl etməyə yönəldir və yoxlama imla orfoqrafik bacarıqları möhkəmləndirmək baxımından öyrədici xarakter daşıyır.

Metodik ədəbiyyatda imlaların növləri aşağıdakı kimi təsnif edilir:

- diktə olunan mətni dəyişmədən yazdırılan imlalar **(xəbərdarlıqlı, izahlı, görmə, lüğət üzrə imla, kommentarilı yazı)**;
- diktə olunan mətni dəyişməklə yazdırılan imlalar **(seçmə, yaradıcı, sərbəst imla).**

Birinci və ikinci qrupa daxil olanlar öyrədici imlalardır. Bundan başqa yoxlama və əzbər yazı kimi imla növləri vardır. Bu imlaların bir qismi müəyyən orfoqrafik qaydaların öyrənilməsinə xidmət edir: xəbərdarlıqlı, izahlı, görmə, lüğət üzrə imla, kommentarilı yazı və əzbər yazının məqsədi budur. Seçmə, yaradıcı, sərbəst imlalar isə həm orfoqrafik qaydaların öyrənilməsinə, həm də nitq bacarıqlarının inkişafına təkan verir.

Savad təlimi dövründə müəllim mütəmadi olaraq imlalardan istifadə etməlidir. Bu zaman şagirdlərin eşitmə qavrayışı hərəki proseslə-yazı ilə əlaqələnir, onlar əvvəlcə, hecaları, sonra sözləri, daha sonra cümlələri müəllimin diqtəsi ilə yazmağa alışırlar. Beləliklə, imlaların öyrədici fünksiyasının həyata keçirilməsi üçün ilkin zəmin yaranmış olur. Həmçinin şagirdlərin əzbər yazılardan sonra onu ilkin mənbəə ilə tutuşdurması həm orfoqrafik savadlılığın artmasına, həm də

durğu işarələrinin düzgün işlədilməsi üzrə vərdişlərə yiyələnməsinə şərait yaradır.

**Əzbər yazı.** Əzbər yazı şagirdin öz-özünü yoxlama, öz qüvvəsinə inam yaratmaq vasitəsi hesab olunur. Görmə qavrayışına əsasən mənimsənilən orfoqramların yazılışının öyrədilməsində əzbər yazı mühüm rol oynayır.

Əzbər yazı üçün ya seir, ya da hər hansı mətndən bir hissənin əzbərlənməsi nəzərdə tutulur. Növbəti dərslərin birində həmin əzbərlənmiş hissə şagirdin daxili nitqi və ya dodaqaltı pıçıltısı ilə yazılır. Əzbər yazını həm ibtidai siniflərdə, həm də yuxarı siniflərdə aparmaq məqsədəuyğundur.

Ümumiyyətlə, imlaların hamısı diktə olunaraq yazılır, əzbər yazı isə öz-özünə diktə şəklində yazılır, yəni o biri imlalar müəllimin diktəsi ilə yazıldığı halda, əzbər yazıda şagird əzbərlədiyi mətni (şeiri və s.) öz-özünə, səssiz, daxili nitqlə, bəzən pıçıltı ilə diktə edərək yazır.

Azərbaycan dili dərslərində 10-20 dəqiqə vaxtın imlalar üçün ayrılması müəllimin uğurlu işini təmin edir.

**Ədəbiyyat**

1.Əfəndizadə Ə.R. Düzgün yazı təliminin elmi əsasları. Bakı: Maarif, 1975, 176 s.

2.Əfəndizadə Ə.R. Azərbaycan dili orfoqrafiyasının elmi əsasları. Bakı: Maarif, 1968, 16 s.

3.Əfəndizadə Ə.R. Azərbaycan dili təliminin metodları və onların təkmilləşdirilməsi haqqında//Azərbaycan dili və ədəbiyyatın tədrisi, 1978, №1, s. 10-24

4. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası Bakı: Elm və təhsil, 2015, 410 s.

5. Kərimov Y.Ş. Savad təlimi. Bakı: Maarif,1972

6. Kərimov Y.Ş., Sadıqov F.B. Hüsnxət təliminin metodikası. Bakı: Maarif,1996

7. Рождественски Н.С. и др. Методика грамматики и орфографии начальных классах / Под.ред. Н.С.Рождественского. М.: Просвещение, 1975, 239 с.

# VI FƏSİL

# OXU TƏLİMİNİN METODİKASI

## Oxu təliminin ümumi məsələləri

**Əsas istiqamətlər:**

- **Oxu təliminin əhəmiyyəti, məqsəd və vəzifələri**
- **Oxuya verilən başlıca tələblər**
- **Oxunun düzgünlüyünə verilən tələblər**
- **Oxunun rəvanlığına (sürətinə) verilən tələblər**
- **Oxunun şüurluluğu prinsipi**
- **İfadəli oxu və onun vasitələri**
- **Oxunun növləri**
- **Səsli və səssiz oxu üzrə işlər**

İbtidai siniflərdə “Azərbaycan dili” dərsliyi özündə oxu, yazı və qrammatik qaydaları birləşdirir. Bu bölmələr tədris prosesində bir-biri ilə sıx şəkildə bağlıdır.

Azərbaycan dili fənni şagirdlərə sözlərin fonetik, orfoqrafik, orfoepik, leksik normaları və qrammatik quruluşu haqqında ilkin anlayış verir. Eyni zamanda şagirdlərin rabitəli nitq vərdişlərinə yiyələnmələrinə zəmin yaradır. Oxu təlimi ibtidai siniflərdə ədəbiyyat kursunu sadə şəkildə öyrədir, şagirdlərin oxu vərdişinə və nitq inkişafına zəmin yaradır. İbtidai siniflərdə oxu vərdişlərinin: düzgün, rəvan, şüurlu, və ifadəli oxunun tələbləri şərti olaraq qarşıya qoyulur. Bu oxu vərdişlərinin tələbi şagirdləri ucadan, rəvan, aydın, ahəngdar oxumağa hazırlayır, şifahi nitqin zənginləşməsinə şərait yaradır. Mövzunun ideya - istiqamətini düzgün anlamağı öyrədir, söz ehtiyatını zənginləşdirir və şagird təfəkkürünü inkişaf etdirmək məqsədini güdür.

Əlavə olaraq mətni oxumaq, onun məzmunu üzrə müsahibə aparmaq, suallara cavab vermək, məzmuna aid illüstrativ şəkillər çəkmək, mətni nəql etmək və s. işlərlə yanaşı, sözlərin təhlilinə, obrazlı nitqinə yiyələnmək kimi işlər nəzərdə tutulur.

İbtidai siniflərdə “Azərbaycan dili” fənni şagirdlərə bilik, bacarıq və vərdişlərin yollarını açır, onların bir şəxsiyyət kimi

formalaşmasına, hərtərəfli inkişafına zəmin yaradır. Həmçinin burada tərbiyəvi və inkişafetdirici işlərin də aparılması nəzərdə tutulur.

Bu məsələlər baxımından Azərbaycan dili üzrə məzmun xətləri içərisində oxu ikinci yerdə durur.

- Dinləyib-anlama və danışma
- Oxu
- Yazı
- Dil qaydaları.

## Oxu təliminin məqsəd və vəzifələri

**Oxu nədir?** D.B.Elkonin oxunu sözün səs formalarının onların qrafik(hərf) modeli üzrə yenidən hasil olması prosesi kimi dəyərləndirir[1].

Oxu təlimi ana dilinin tədrisinin mühüm funksiyalarından biridir. Oxu şagirdlərin nitqini inkisaf etdirir, onların lüğət ehtiyatını zənginləşdirir, dəqiqləşdirir. Oxu şagirdlərin nitq bacarıqlarını inkişaf etdirir. Nitqi dinləmək, ayrı-ayrı nitq səslərini düzgün tələffüz etmək, oxu prosesində səs, heca və sözlərin deyilişində səhvə yol verməmək oxu texnikasının müvəffəqiyyətlə həyata keçməsini təmin edir. Hərflərdən hecalar, hecalardan sözlər tərtib edərək ilk oxunun təşkili, ilkin olaraq birhecalı, ikihecalı sözlərin oxunması şifahi və yazılı nitq bacarıqlarını artırır. Oxu prosesində şagirdin fikrini sadə şəkildə ifadə edə bilmək, oxunmuş materialin məzmununu nəql etmək, təhlil etmək, öz münasibətini bildirmək, həyatla əlaqələndirmək və digər bacarıqları formalaşır.

Şagirdlər ilk oxu texnikasına savad təlimi dövründə yiyələnirlər. Bu zaman onlar səslərlə(hərflərlə) tanış olur, səs-heca tərkibi nisbətən asan sözlərin oxunması üzrə məşq edirlər. Savad təlimi dövründə asandan çətinə, sadədən mürəkkəbə prinsipi gözlənilməklə oxu vərdişlərinin yaradılması istiqamətində

[1] Вах.: Элконин Д.Б. Как учить детей читать. М.: Изд. Знане, 1976, с.17

ciddi iş aparılır. Səs təhlil-tərkib metodunun tətbiqi, sözlərdə səslərin ardıcıllığını izləmək, fonoloji təhlil, tələffüz normalarını gözləmək şagirdlərin məktəbə qədəm basdığı gündən düzgün oxu texnikasına yiyəlnəməsi üçün zəruri şərait yaradır. Savad təlimi dövründə fonematik eşitmə qavrayışının formalaşdırılması çox mühüm əhəmiyyət kəsb edir. Fonematik eşitmə qavrayışına yiyələnmiş şagird nitq səslərini düzgün eşidir və düzgün tələffüz edir.

Sözlərdə səslərin birləşmə ardıcıllığını dərk edən şagird ayrı- ayrı səsləri hecada, hecaları sözlərdə birləşdirib oxumaqda çətinlik çəkmir. Belə demək olar ki, şagird sözü səslərə ayırmağı və səsləri sözlərdə birləşdirməyi öyrənən kimi xüsusi çətinlik çəkmədən oxumaq "incəsənətinə" yiyələnəcəkdir. Psixoloq D.B.Elkoninin təbirincə, fonematik eşitmə sözdə ayrı- ayrı səslərin eşidilməsi və daxili tələffüz prosesində sözlərin səs formasının təhlilinin aparılması bacarığıdır. Səslərin hərflərlə işarə olunduğu andan görmə qavrayışının müstəsna rolu üzə çıxır. Səslərin eşitmə və hərflərin görmə qavrayışı arasında assosiasiya yaranır. Bu da sözlərin oxunmasında, dərk olunasında, düzgün yazılmasında mühüm rol oynayır.

Oxu vərdişlərinin psixologiyası məsələləri üzərində işləyən L.M.Şvarts yazırdı ki, sözləri hecalara ayırmağı bacarmayan adam heç vaxt düzgün oxuya bilməyəcəkdir, onun yazmağı bacarması haqqında isə danışmağa dəyməz.

Sözlərin hecalarla oxunması oxu texnikasını mənimsəməkdə mühüm rol oynayır. Sözərin hərf-hərf oxunması oxuya yiyələnməni ləngidir. Çünki hərflərlə oxu sözün səs tərkibinin "artmasına" gətirib çıxarır. Məsələn, **nənə** sözü hərflə oxunduqda **n-ı-ə-n-ı-ə** kimi altı səslə oxunur, halbuki **nənə** sözünü heca ilə **nə-nə** kmi oxunması həm asan, həm də elmidir.

Oxunun ən mühüm komponenti hecadır. Oxu təlimi **səs-heca təhlil-tərkib metodu** ilə aparılır. Yəni nitq vahidi olan sözün hecalara, hecaların səslərə ayrılması(təhlil), səslərin hecalarda, hecaların sözlərdə, sözlərin cümlələrdə birləşdirilməsi (tərkib) oxu texnikasına yiyələnməyin ən səmərəli yoludur. Oxu

təliminin **səs-heca təhlil-tərkib metodu** ilə həyata keçirilməsi hecalarla oxu prinsipinin tələblərinə təmamilə uyğundur. Metodist alim A.Abdullayev qeyd edir ki, sözün səs-heca quruluşu və nitqimizdə sözlərin birləşdirilməsi haqqında anlayış verməyin ən məhsuldar növlərindən biri sözlərin hecalara və səslərə ayrılması və ayrılmış səsərin hecada, hecaların isə sözlərdə birləşdirilməsidir. Şagirdlər həmin yolun köməyi ilə oxu zamanı bütöv sözü, hecanı, yaxud onun hissəsi olan səsi "görməyi", dərk etməyi öyrənirlər.

Onlar başa düşürlər ki, səslər sözün və hecanın elementləridir, lakin bir qayda olaraq ayrılıqda tələffüz edilmir.

Savad təlimi dövründə oxu üzrə iş apararkən aşağıdakı cəhətlər nəzərə alınmalıdır:

- oxu təlimi dilin səs sisteminə uyğunlaşdırılmalıdır;
- səs və hərflər arasındakı münasibətlər nəzərə alınmalıdır;
- oxu prosesində dilin ədəbi tələffüz qaydaları gözlənilməlidir;
- oxu təlimində düzgünlüyə, sürətə, ifadəliliyə və şüurluluğa diqqət yetirilməlidir[1].

"Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IV siniflər)"da Azərbaycan dili fənni üzrə ümumi təlim nəticələri və standartlar ibtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə aşağıdakı kimi verilmişdir: (şagird:)

- mətni düzgün, sürətli, ifadəli, şüurlu oxuyur;
- müxtəlif mətnləri bütöv sözlərlə səsli və səssiz oxuyur;
- oxuduğu mətnlərin məzmununa münasibət bildirir;
- mətnin hissələri arasında məna əlaqələrini müəyyənləşdirir;
- bədii və elmi–kütləvi mətnləri fərqləndirir.

---

[1] Bax.: Savad təlimi məşğələlərinin təşkili. Bakı, 1988, s.6

**I sinif. 2.Oxu. Şagird:**

*2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.*

2.1.1. Mətndə rast gəldiyi yeni əşya və hadisələri adlandırır.

2.1.2. Mətndəki müəyyən olunmuş sözləri yaxın¬mənalı sözlərin köməyi ilə izah edir.

2.1.3. Mətndə öyrəndiyi yaxınmənalı sözləri cümlədə işlədir.

2.1.4. Mətndən sadə bədii ifadələri seçir.

*2.2. Oxu texnikası və ilkin oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir.*

2.2.1. Kiçikhəcmli mətnləri düzgün tələffüz etməklə oxuyur.

2.2.2. Müxtəlif bədii mətnləri (nəzm, nəsr) fərqləndirir.

2.2.3. Mətnin şəkilli planını tutur.

2.2.4. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir.

2.2.5. Mətnnin məzmununu nəql edir.

**II sinif. 2. Oxu. Şagird:**

*2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.*

2.1.1. Mətndə rast gəldiyi yeni əşya və hadisələrin adlarını müvafiq məna qrupuna aid edir.

2.1.2. Mətndə verilmiş yaxınmənalı və əksmənalı sözləri fərqləndirir.

2.1.3. Mətndə frazeoloji ifadələrin mənasını izah edir.

*2. 2. Oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir.*

2.2.1. Müafiq mətnləri tələffüz normalarına uyğun düzgün və sürətli oxuyur.

2.2.2. Kiçikhəcmli bədii mətnləri janrlara görə fərqləndirir.

2.2.3. Mətnin hissələrinə başlıqlar verməklə məzmununa aid sadə plan tutur.

2.2.4. Mətnin məzmununu tərtib etdiyi plana uyğun nəql edir.

2.2.5. Mətndəki əsas fikri həyatla əlaqələndirir.

**III suinif. 2. Oxu. Şagird:**

*2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.*

2.1.1. Mətndə rast gəldiyi yeni əşya və hadisələrin xarakterik əlamətlərini adlandırır.
2.1.2.Mətndəki çoxmənalı sözləri fərqləndirir.
2.1.3. Sözlərin həqiqi və məcazi mənasını fərqləndirir
*2.2. Oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir.*
2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (cümlə növlərinə görə) oxuyur.
2.2.2. Bədii və elmi-kütləvi mətnləri fərqləndirir.
2.2.3. Mətnin geniş planını tutur.
2.2.4. Mətndəki əsas fikrə münasibətini bildirir.
2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir.
**IV sinif. 2. Oxu**
**Şagird:**
*2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.*
2.1.1. Mətndəki hadisələri həyat hadisələri ilə müqayisə edir.
2.1.2. Mətndəki terminləri fərqləndirir.
2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir.
*2.2. Oxu vərdişlərinə yiyələndiyini nümayiş etdirir.*
2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur.
2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir.
2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur.
2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir.
2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir.

Ümumiyyətlə, təlim prosesini oxudan kənarda təsəvvür etmək mümkün deyildir. Odur ki, şagirdlərin təlim nəticələrinin yüksəldilməsinə nail olmaq üçün müvafiq strategiyalar, metod və üsullardan istifadə etmək, mətnin oxusunun düzgün təşkilinə nail olmaq lazımdır.

## Oxu təliminin əhəmiyyəti və başlıca istiqamətləri

İbtidai siniflərdə ana dili tədrisinin mühüm vəzifələrindən biri oxu təlimidir. K.D.Uşinskinin ardıcıllarından biri olan V.A.Flerov oxu dərslərinin təşkilinin başlıca prinsiplərini belə formalaşdırmışdır. "Bizim vəzifəmiz uşaqlara oxuyub düşünməyi, oxuyub hiss etməyi, oxuyub yaşamağı öyrətməkdir".

Oxu prosesində birinci dərəcəli məsələ uşaqlarda ətraf aləm haqqında düzgün obrazlı təsəvvürlər əsasında biliklərin formalaşdırılmasıdır. Oxu dərslərinin keyfiyyətinin yüksəldilməsi hər şeydən əvvəl, oxu təliminin tərbiyəedici vəzifələrinin gücləndirilməsindən asılıdır. Oxu dərslərində şagirdlərdə vətənə məhəbbət və sədaqət tərbiyə olunur, onlara xeyirxahlıq, ədalətlilik, mərdlik, fədakarlıq, düzlük və doğruçuluq kimi sosial-əxlaqi keyfiyyətlər aşılanır, onların dünyagörüşünün formalaşması üçün ilkin bünövrə qoyulur.

Oxu dərsləri doğma vətənimizin gələcək qurucularının tərbiyə olunmasını təmin edir. Oxu şagirdlərin nitqini inkişaf etdirir, onlarda formalaşmış konkret təsəvvür və anlayışlar əsasında lüğət ehtiyatını zənginləşdirir, dəqiqləşdirir və fəallaşdırır, fikirlərini şifahi yazılı şəkildə ifadə etmək bacarığını artırır. Oxu şagirdlərdə şüurlu, düzgün sürətli və ifadəli oxumaq, oxunmuş materialın məzmununu yaxşı nağıletmə bacarığı yaradır. Oxu təlimini yüksək səviyyədə təşkil etmək üçün müəllim yalnız Azərbaycan dili dərslərində deyil, digər fənnlərin tədrisində həmçinin şagirdlərin sinifdənxaric fəaliyyətində də ona xüsusi əhəmiyyət verməlidir.

Oxu dərsində şagirdlər tədricən oxunun ən mühüm keyfiyyətlərinə yiyələnirlər. Onlarda kitaba maraq və məhəbbət güclənir. Oxunun idrakı əhəmiyyətini dərk edirlər. Oxu dərsləri uşaqlarda oxuya, mütaliəyə meyli gücləndirir.

Təlim müəllimlə şagird arasında qarşılıqlı təsirə malik məqsədyönlü prosesdir. Bu prosesdə müəllim və şagirdlərin əməkdaşlığı ilə bilik, bacarıq və vərdişlər əldə edilir. Fəal/in-

teraktiv təlim metodları təcrübəni nəsildən-nəslə ötürməyə xidmət edir.

Oxu vərdişlərinin inkişaf etdirilməsi üzrə işlər həm savad təlimi, həm də savad təlimi başa çatdıqdan sonarkı dövrdə müəllimin diqqətində olan mühüm məsələlərdən biridir. İbtidai siniflərdə oxu bacarıqlarının inkişaf etdirilməsi üzrə işlər sadə süjetli bədii əsərlər, folklor nümunələri üzrə və məlumat xarakterli mətnlər üzrə aparılır. "Azərbaycan dili" dərsliyində verilən mətnlər şagirdlərin təxəyyülünün, təfəkkür və nitqinin inkişaf etdirilməsində, onların mənəvi aləminin formalaşmasında və həmçinin oxu vərdişlərinin inkişaf etdirilməsində mühüm rol oynayır.

Savad təlimi dövründə oxu texnikasına yiyələnmiş şagirdlər kiçik mətnlərin oxusu ilə ilk oxu bacarıqlarına yiyələnirlər. Mütəmadi davam etdirilən oxu nəticəsində müəyyən müddət keçdikdən sonra oxu bacarıqları oxu vərdişinə çevrilir. Mətnlərdə əks olunan hadisələr, obrazlar öyrənildikcə şagirdlər mənəvi cəhətdən zənginləşir, mətnlərdəki məsələlər onları düşündürür və onların oxuya maraqı artır. Mətnlərin məzmunu və həcmi dəyişdikcə şagirdlərin oxu vərdişlərinin keyfiyyəti də dəyişir.

Azərbaycan dili (I-IV siniflər) kurikulumunda şagirdlərin oxu bacarıq və vərdişlərinə yiyələnməsi ilə bağlı standartların reallaşdırılması oxu dərslərindən məqsədyönlü istifadəni zəruri edir.

M.A.Rıbnikova oxunun sistemli aparılması tələbini irəli sürərək qeyd edirdi ki, metodik sistem materialın bütövlükdə və onun ayrı-ayrı hissələrinin başa düşülməsi, şagirdlərin qavrama və inkişaf qanunauyğunluqlarının nəzərə alınması, sinifdən-sinfə keçdikcə ifadəli oxu vərdişlərinin mürəkkəbləşdirilməsi əsasında yaradılmalıdır.

I-IV siniflərdə bir neçə variantlı oxu vərdişlərindən istifadə olunur. Ucadan oxu, rəvan oxu, sərbəst oxu, müstəqil oxu, şüurlu oxu, səssiz oxu, dialoqlu oxu, nəqli, sual, nida, əmr, müxtəsər və geniş cümlələr üzrə oxu, ton, ritmli oxu, məntiqi vurğu üzrə oxu, təbiət təsviri və təbiət hadisələri üzrə oxu, epizodlar üzrə

oxu, rollar üzrə oxu, müşahidə məqsədli nəzarətli oxu, suallar üzrə oxu, şəkil əsasında oxu, qəhrəmanın həyat səciyyəsi üzrə oxu, xorla oxu, maraqlandığın hissə üzrə oxu, arzu və istəyə görə oxu, bədii təsvir və yaradıcılıq üzrə oxu, leksik oxu, orfoqrafik, fonetik, qrammatik oxu və s.

**Ədəbiyyat:**


1. Abdullayev A., Kərimov Y. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası, 1968
2. Balıyev H.B. Ana dilinin tədrisi metodikası. Bakı, 1997, 102 s.
3. Əhmədov B.A. Ana dili dərslərində şagirdlərin nitqini inkişaf etdirmək yolları. Bakı: Maarif, 1967, 110 s.
4. Элконин Д.Б. Как учить детей читать. М.: Знание, 1976
5. Həsənov M.M., Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 404s.
6. Həsənov M., Cəfərova N., Bəhmənova C. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Bakı: Elm və təhsil, 2014, 72 s.
7. Həsənli B, Hüseynoğlu S., Səfərova Ə., Quliyev Ə. Ədəbiyyat, 5-ci sinif, Müəllim üçün metodik vəsait. Bakı, 2012
8. İsmayılov, S. Abdullayeva, X. Qasımova. Azərbaycan dili, 4-cü sinif, Müəllim üçün metodik vəsait.Bakı, 2011
9. Kazımov A.S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2013,186 s.
10. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, 2003
11. Mikayılov Ş.İfadəli oxu əsas şərtdir//Azərbaycan müəllimi qəz., 12 dekabr, 1969
12. Özen. M. Metinleri ekrandan okumanin anlam kurma üzerine etkisi. 2009
13. Rəhimov A.N.İbtidai siniflərdə ifadəli oxunun təşkili. Bakı, 1982, 125 s.
14. Rəhimov A.N. İbtidai siniflərdə oxu təlimi. Bakı, 2006, 315 s.

15. Roxanne F. Hudson, Paige C. Pullen, Holly B. Lane, Joseph K. Torgesen. Complex Nature of Reading Fluency: A Multidimensional View. 2015

16. Рыбникова М.А.Очерки по методике литературного чтения. М.: Просвещение, 1963

17. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)// Kurikulum, 2010, №3, s. 116-130

## Oxu təliminin digər elmlərlə əlaqəsi

"Azərbaycan dili" ibtidai siniflərdə "baş" fəndir. "Azərbaycan dili" fənni daxilində oxu materialları vasitəsilə ədəbiyyat elminə dair ilkin biliklər bu siniflərdə öyrədilir. Oxu mətnləri vasitəsi ilə bədii ədəbiyyatı dərk etməyə və ədəbi biliklərin formalaşmasına zəmin yaradılır. Bu baxımdan ibtidai siniflərdə oxu mətnləri üzrə iş iki istiqamətdə həyata keçirilir.

**Birinci istiqamətdə** - şagirdlərdə düzgün, rəvan, şüurlu və ifadəli oxu vərdişi formalaşır. Şagirdlər bədii mətnlər vasitəsi ilə söz anlayışının qüdrətini dərk edir. Hekayə söyləməyi, şeir əzbərləməyi, şəkilli kitablara baxmağı, nitqi inkişaf etdirməyi, eləcə də emosiya və marağı formalaşır.

**Düzgün oxu** - sözlərin sərbəst oxunması, sözlərin cümlələrdə rabitəliliyi, ədəbi tələffüz qaydalarının gözlənilməsi və s. işlərlə yanaşı, şagirdi əsərin məzmununu mənimsəməyə və müşahidə etməyə yönəldir.

**Şüurlu oxuda** - əsərin məzmununu dərk etmək, hadisənin gedişini anlamaq, sözlərin həqiqi və məcazi mənası, cümlələrdəki fikirlər aydınlaşır. Hər şeydən əvvəl izahlı oxu aparılır. Şagirdlər əsərin bədii təsvir və ifadə vasitələrini mənimsəyir və orazlı nitq bacarıqlarına yiyələnirlər.

**İfadəli oxu** bədii əsərlərin qavranılmasında mühüm vasitə hesab edilir. Elə təsəvvür etmək olmaz ki, Oxu dərsləri ifadəli oxusuz aparılsın. İfadəli oxunun vasitəsi ilə şagird əsərdəki obrazların təsir gücünü duyur və hadisələrin gedişini diqqətlə izləyirlər.

Oxu zamanı şagirdlərdə müxtəlif hisslər (şadlıq, kədər, sevinc, rəğbət, kin və s.) yaranır ki, bu hisslər əsərin ideya məzmununu mənimsəməyə və obrazların daxili aləmini üzə çıxarmağa xidmət edir. Məsələn: Şeirin ifadəli oxusu şagirdlərdə gözəl, aydın, ifadəli, rəvan və nəhayət məntiqi vurğunun normalarını gözləməyi öyrədirsə, sözün ifadə tərzi onlarda bədii zövq, həyəcan, sevinc, kədər hissi oyadır.

**İkinci istiqamətdə -** ədəbiyyat kursunun əsası qoyulur. Ədəbiyyatın nəzəri və elmi məsələləri haqqında ilkin anlayışlar yaradılır. Şagird bədii əsərin ideya-məzmununu şüurlu dərk edir, estetik cəhətdən faydalanır və sadə biliklərə yiyələnir. Bu fərqli cəhətləri nəzərə alaraq dərslikdə verilən mövzulara aşağıdakı bölgülər üzrə diqqət yetirilir:

- bədii əsərlər (hekayə, şeir, təmsillər) folklor nümunələri (nağıl, atalar sözü, tapmaca, bayatı, yanıltmac və s.);
- təbiətə həsr olunmuş mövzular;
- əməli (elmi-kütləvi), müşahidə və əşya dərsləri, ekskursiyalar, gəzintilər;
- xalqın tarixinə aid materiallar, xatirələr, ictimai-siyasi əsərlər, azadlıq uğrunda, torpaqlarımızın qəddar düşmənlərdən təmizlənməsi uğrunda mübarizəyə həsr olunmuş hekayələr.

Hər bir istiqamətdə oxu təlimi vasitəsi ilə şagirdlər bilik, bacarıq və vərdişlərə sahib olurlar. Onlar müxtəlif mətnlər və kitab üzərində işləyir, müstəqil kitab oxumağı və oxuduqlarını mütaliə etməyi bacarır, əsərin sadə bədii təhlil yollarını öyrənir, mövzuya aid müstəqil fikir söyləyir, əsərdə iştirak edən şəxslərin hərəkətlərini qiymətləndirir, təbiət və cəmiyyətdə baş vermiş hadisələri izləyirlər. Əsərin ideya-siyasi və estetik tərbiyəsi şagirddə konkret anlayış və təsəvvür yaradır, lüğət ehtiyatını zənginləşdirir, rabitəli nitqinin inkişafına zəmin yaradır.

Oxu təlimi aşağıdakı elm sahələri ilə bağlıdır.

**I. Pedaqogika** - sözün mənasından məlumdur ki, pedaqogika elm sahəsi kimi, əsasən, təlim, təhsil və tərbiyədən bəhs

edir. Bu üç məfhumun pedaqoji elmdə özünəməxsus prinsipləri vardır.

**Təlim sözü ərəbcə -** qanun və ya üsulların tətbiqinə dair göstəriş deməkdir. Təlim sözü Azərbaycan dilində - öyrətmə, dərs vermə, oxumaq, tədris termini kimi işlənir.

Təlim - şagirdləri bilik, bacarıq və vərdişlərlə "silahlandırır". Mətnin hansı metod, priyom və vasitələrlə öyrədiləsini aydınlaşdırır, alınmış biliyi dərinləşdirir. Fakt və hadisələrin müqayisə edilməsinə, ümumiləşdirilməsinə şərait yaradır, şagirdlərin öyrənmə qabiliyyətini təzahür etdirir.

**Təhsil sözü ərəbcə** hasil etmə, qazanma, oxuyub öyrənmə və ya oxumağın nəticəsində əldə edilmiş biliklərin məcmusudur.

**Azərbaycan dilində təhsil sözü -** oxuyub öyrənmək, oxumaqla elm, bilik əldə etmək mənalarında işlənir.

Təhsil - şagirdlərin qazandıqları bilik, bacarıq və vərdişləri sistemə salır. Həm də şagirdin öyrənmə qabiliyyətini inkişaf etdirir. Təhsilin məqsədi dərs zamanı şagirdlərə müəyyən bilik verməkdir. Bilik, bacarıq dərsin gedişində əldə edilir. Məsələn:

Ardıcıl verilən biliklər (müntəzəm biliklər), şüurlu verilən biliklər (aydın biliklər), inandırıcı surətdə verilən biliklər (bacarıq biliklər), mənimsəmə vasitəsi ilə verilən biliklər (möhkəm biliklər), kurikulum və dərs kitabları tələbi əsasında verilən biliklər (dolğun biliklər) adlanır. Ümumiyyətlə, çalışma və təkrar yolu ilə verilən biliklər vərdiş halına çevrilir.

**Tərbiyəedici təlim** -şagirdlərin aldıqları biliklərin nəticələrindən yaranır. Tərbiyə cəmiyyətdə geniş məfhumdur. Tərbiyə dərsliklərdəki hər bir oxu mətnində özünü göstərir, Məsələn:

Təbiətə aid olan mövzular vasitəsi ilə şagirdlərdə vətənə məhəbbət; elmi-kütləvi (əməli) mətnlərdə insan əməyinə hörmət, bədii parçalarda ictimai-siyasi həyata münasibət və əxlaqi keyfiyyətlər, nəhayət, tarixi mövzularda vətənpərvərlik hissləri tərbiyə edilir. Bu baxımdan, şagirdlərin dünyagörüşünün formalaşması, əsasən, mövzunun tədrisindən irəli gəlir. Təbiət hadisələrini təsvir edən mövzular isə heyvanların həyat tərzi, fəsillərə görə iqlim dəyişməsini, bitkilərin xarakteri, insan əməyinə

hörmət və s. tərbiyə məqsədlərini yeyrinə yetirir.

**Əmək tərbiyəsi** - şagirdlərdə məktəbə getməmişdən əvvəl başlanır. Məktəb şəraitində əmək tərbiyəsi müəyyən plan əsasında həyata keçirilir.

**Estetik tərbiyə** - tərbiyənin ayrılmaz bir hissəsi olmaqla, şagirdlərin emosiyasına və təxəyyülünə təsir edir. Həyatı hadisələrə münasibət bildirməyi öyrədir və incəsənəti dərk etməyə zəmin yaradır.

Şagirdin mədəniyyəti və mədəni olması, müəllimin keyfiyyətindən və rəftarından asılıdır, lakin tərbiyənin həlledici siması məktəbdir.

**II. Psixologiya**. Şagirdlərin təlim əməyinə marağı artdıqca, onların faəliyyət növləri də dəyişir, idrakı inkişaf edir. Şagirdlərin marağı təlim prosesində mənimsəmə ilə nəticələnir. Bilikləri mənimsəmə nəticəsində şagirdin düşünmə, dərketmə imkanları güclənir. idrak prosesləri inkişaf edir. Şagirdin təlim marağının təmin olunması onun fəaliyyət sferasını genişləndirir, daha diqqətli, daha müstəqil olmasına, müxtəlif təfəkkür əməliyyatlarının inkişafına səbəb olur.

İbtidai sinif şagirdlərinin idrak prosesləri tam inkişaf etmədiyi üçün onlar hər hansı bir məlumatı yadda saxlamaqda çətinlik çəkir və bu nöqsanlar təlim müddətində özünü göstərir. Məsələn: I-II sinif şagirdləri müşahidə etdikləri cism və hadisələri tez qavra yır. Lakin müşahidə etdikləri əşyaların oxşar əlamətlərini bir-birindən ayıra bilmirlər. III-IV siniflər isə müşahidə etdikləri əşyanın əlamətlərini kifayət qədər qavrayır, onların oxşar və müqayisəli əlamətlərini sözün gücü ilə az da olsa rabitəli danışa bilirlər.

Müəllimlər bu nöqsanları aradan qaldırmaq üçün dərsdə müxtəlif priyomlardan, o cümlədən əyani vasitələrdən istifadə edir, ilk növbədə şagirdlərdə oxuya maraq oyadırlar.

I-II sinif şagirdlərinə bədii parçalar, folklor nümunələri və əməli hekayələr adi şəkildə öyrədildikdə onların təlim səmərəsi çox az olur. Fəal/interaktiv təlim üsullarından istifadə isə şagird fəaliyyətinin daha çevik, operativ, məhsuldar təşkil olunmasına

səbəb olur.

Şagirdin təfəkkürünün inkişafı onun nitq fəaliyyətinin inkişafına təkan verir. Şagirdin oxunan mətni nağıl etmək arzusu artır. O, həyatda rast gəldiyi hadisələrdən danışmağı xoşlayır, qarşı tərəflə asanlıqla dialoqa girməyi bacarır. Təfəkkürün inkişafı sistemli biliklərin qazanılmasında mühüm rol oynayır. Eyni zamanda şagird iş fəaliyyətini nitqlə əlaqələndirməyə çalışır. Bu əlaqələr isə sözlər vasitəsi ilə formalaşır, təfəkkürlə nitq arasında vəhdət yaranır. Bu zaman fikir aydınlığı və dəqiqliyi sözlərin ifadə vasitəsi ilə aydınlaşır.

Bəzi hallarda şagird sözü təhrif edir, onları düzgün tələffüz etmir, tələsik və ləng ifadələr fikirdə dolaşıqlıq yaradır. Məsələn:

İbtidai siniflərdə şagirdlər imkan daxilində oxu materiallarındakı əşya və hadisələri canlı şəkildə müşahidə edirlər, lakin şagird müşahidə zamanı gördüklərindən danışarkən cümlələrdə işlətdiyi sözlərin sırasını pozur, fikrini ifadə etmək arzusunda olsa da, hələ bunu istənilən səviyyədə bacarmır.

Şagirdlərin fikirlərinin ifadəsinin təhlili büruzə verir ki, onların fakt və hadisələri sözlə, cümlələrlə düzgün ifadə etməsi üçün Azərbaycan dilində nəzəri biliklərə yiyələnməsinə ehtiyac vardır. Müəllim hər bir oxu dərsində, hər zaman şagirdlərin təfəkkür və nitqinin inkişaf etdirilməsinə səy göstərməlidir. Bunun üçün fəal/interaktiv təlim metodlarının imkanlarından istifadə edilməlidir. Fakt, əşya və hadisələrin müqayisəli və oxşar cəhətlərinə üstünlük verməlidir.

**III. Azərbaycan dili** geniş anlayışdır. Azərbaycan dili cəmiyyətin quruluşunda baş vermiş hər cür dəyişkənliyi özündə əks etdirmiş, ümumxalq ünsiyyət dili kimi formalaşmış və milli dil kimi inkişaf etmişdir.

Azərbaycan dili türk dilləri ailəsinə mənsub olmaqla yanaşı, Azərbaycan xalqının vahid ünsiyyət vasitəsi kimi təşəkkül tapmış, rəsmi dövlət dili kimi təsbit olunmuşdur.

Dilin rolu onun danışıq funksiyasıdır, şifahi və yazılı formada özünü göstərir. Danışıq dili geniş anlayış kimi formalaşır,

dilçilik elmində "xalq dili", "canlı danışıq dili", "şifahi nitq" və s. ifadələr kimi işlənir.

Azərbaycan dili min illərdən bəri öz inkişaf yollarını keçmiş, fonetik sistemə, lüğət tərkibinə, qrammatik quruluşa malik olmuş, Azərbaycan dilinin yüksək forması olan ədəbi dilin tarixini yaratmışdır. Dialekt və şivələr də xalq arasında ünsiyyət vasitəsi kimi inkişaf etmişdir.

Hazırda Azərbaycan dilində işlənən sözlərin qohum dillər (türk, tatar, qazax, qumuq, qaqauz və s.), coğrafi yaşayış qonşuları (türkmən, rus, dağıstan, gürcü), tarixi dövr (ərəb, fars, rus) baxımından öyrənilməsi dilçi alimlərin diqqət mərkəzindədir. Azərbaycan dilinin təşəkkülündə folklor (nağıl, dastan, bayatı, atalar sözü, tapmacalar və s.) və yazılı mənbələrin bir fakt kimi böyük rol oynadığını unutmaq olmaz.

Azərbaycan dilinin özünəməxsus funksional üslubları vardır ki, bu üslublardan - bədii üslub, elmi üslub, rəsmi üslub, pubilisistik üslubu, məişət üslubu, epistolyar üslub və s. göstərmək olar. Bu üslubların hər biri hal-hazırda ənənəvi şəkildə dildə geniş istifadə olunur. Üslubların dili ilə canlı danışıqlar asan başa düşülür, onları adi şəkildə anlamaq mümkündür.

Azərbaycan dili və onun öyrədilməsi haqqında bir variantlı fikirlər irəli sürmək mümkün deyildir. Azərbaycan dilində fonetik, orfoepik, orfoqrafik, leksik, morfoloji, sintaktik, semantik və s. bölmələrlə yanaşı, cümlədə sözlərin sırası, vurğu və intonasiyanın geniş çalarları müxtəlif variantlılıq meydana çıxır. Oxu təlimi prosesində dildəki sadə formalar hər zaman öz yerini dəyişir, bu dəyişmələrin nəticəsində mürəkkəb formaların meydana çıxması aydın şəkildə hiss olunur, hər bir formada Azərbaycan dili xalqa, ünsiyyətə xidmət edir və dilə bədiilik gətirir. Bu bədiilik monoloji və dialoji nitqdə öz təşəkkülünü tapır.

Azərbaycan dili bu gün rəsmi dövlət dili kimi ən yüksək tribunalardan səslənir, təlim dili kimi ümumtəhsil(ibtidai, ümumi orta, tam orta) və ali məktəblərdə, mətbuat, radio və televiziyada, zirvə toplantılarında, o cümlədən bədii, elmi, fəlsəfi və texniki kitablarda ləyaqətlə təmsil olunur.

**IV. Ədəbiyyatın** təsir gücü ondadır ki, şagirdlərin dünyagörüşünü genişləndirir, onların mədəni səviyyəsini yüksəldir. Şagirdlər əxlaqi keyfiyyətlərə yiyələnir, şəxsiyyət kimi formalaşırlar.

İbtidai siniflərdə bədii mətnlər vasitəsi ilə ədəbiyyatın tədrisi nəzərdə tutulur. Şagirdlər mətnin məzmununu başa düşür, həyatı dərk edir və ona öz münasibətlərini bildirirlər.

Azərbaycan dili (I-IV siniflər) kurikulumunun nəticəyönümlü xarakterinə uyğun olaraq şagird:

- mətni düzgün, sürətli, ifadəli, şüurlu oxuyur;
- müxtəlif mətnləri bütöv sözlərlə səsli və səssiz oxuyur;
- oxuduğu mətnlərin məzmununa münasibət bildirir;
- mətnin hissələri arasında məna əlaqələrini müəyyənləşdirir;
- bədii və elmi – kütləvi mətnləri fərqləndirir.

Oxu mətnləri vasitəsi ilə şagirdlərdə əməksevərlik, insanlara hörmət, vətənpərvərlik, təbiət gözəlliyinə məhəbbət və s. kimi xüsusiyyətlər tərbiyə edilir. İbtidai sinif müəllimləri əsərin məzmunu, hadisələrin inkişafı, qəhrəmanların xarakteri və sənətkar yaradıcılığı ilə faydalanaraq, onun dərindən öyrədilməsini, kurikulum tələblərini yerinə yetirməkdə vacib bir məsələ hesab edirlər.

Müəllimlər ibtidai siniflərdə ədəbiyyatla bağlı məsələləri hər bir mətnin tədrisi ilə əlaqədar olaraq həyata keçirməlidirlər. Onlar qarşıya qoyulan məsələləri öyrətmək üçün müxtəlif növlü çalışmalardan istifadə etməlidirlər. Məsələn, suallara cavab tapmaq; bilikləri ətraf aləmlə əlaqələndirmək; sənətkar yaradıcılığına münasibət bildirmək; təbiətə təsvirlərinə sevgi, təbiətə, vətənə məhəbbət hisslərini şərh etmək və s.

Bədii mətnlər şagirdlərin nitqini poetik, obrazlı ifadələrə zənginləşdirir. Bu cür zənginləşmə əsərin ideya-məzmunu, emosional-estetik təhlili və sözlər üzərində aparılan işlərdən irəli gəlir. Məsələn, S.Vurğunun "Azərbaycan" şeirinin ideya-məzmunu üzrə iş prosesində şagirdlər ədəbi-nəzəri biliklər əldə edir, onların nitqi bədii-obrazlı ifadələrlə zənginləşir. Ədəbi-

bədii mətnlər şagirdlərin dünyagörüşünün formalaşmasında və söz sənətinə sahib olmasında mühüm rol oynayır. Uşaq ədəbiyyatı - bədii ədəbiyyatın mühüm bir sahəsidir ki, uşaqların inkişafına, maraq və mütaliə dairəsinə güclü təsir göstərir, onların bədii yaradıcılığına və bədii zövqün inkişafına zəmin yaradır.

**Bədii yaradıcılıq** - ədəbiyyatda geniş anlayış olsa da uşaq ədəbiyyatında özünəməxsus səciyyə daşıyır. Bədii yaradıcılığın uşaq ədəbiyyatında rəngarəng janrları və üslubları vardır. Hər şeydən əvvəl, yazıçı öz əsərində həyatı hadisələri, əxlaqi keyfiyyətləri, mübarizliyi, təbii və inandırıcı təsvir edir. Şagird hər şeyi olduğu kimi dərk edir, onlarda həyata emosional-obrazlı baxış yaranır.

Müəllim bədii mətnlərin tədrisində pedaqoji innovasiyalardan (yeniliklərdən) düzgün və səmərəli istifadə edərsə, şagirdlərin bədii-estetik zövqünü formalaşdırmaqla yanaşı, təlim nəticələrinin reallaşmasına nail olur. Qeyd olunanları həyata keçirmək üçün, şagirdləri ilk növbədə müstəqilliyə, öz fikrini söyləməyə, sərbəst düşünməyə alışdırmalı, qarşıya çıxan hər bir çətinliyə qarşı mübariz olmağa yönəltməli, şagirddə yaranan nəcib hərəkətlər cəmiyyətin tərbiyəsi kimi düşünülməlidir.

Bədii zövq, əsasən, estetik tərbiyənin təsirindən yaranır. Bədii zövq şagirdlərin kamilləşməsini yüksəldir. Onlarda yaradıcı əməyə, mütaliəyə maraq oyadır, incəsənəti, mədəniyyəti dərk etməyə yönəldir.

Uşaq ədəbiyyatı şagirdlərin bədii yaradıcılıq və zövqünü təmin edirsə, deməli, onları bir şəxsiyyət kimi formalaşdırır, təbiət və cəmiyyət hadisələri haqqında məlumat almağa yönəldir, onların mənəvi inkişafına yardım göstərır.

## Oxu təliminin metodikası

Oxu təlimi gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynayan vasitələrdən biridir. Bu vasitənin özünəməxsus məzmunu, fəal təlim metodları, priyom və vasitələri vardır. Bu fəal təlim metod, priyom və vasitələri şagirdləri bilik, bacarıq və vər-

dişlərlə sılahlandırır. Belə ki, şagirdlərdə düzgün, sürətli, şüurlu, ifadəli oxu vərdişləri yaranır, onlarda ana dilinə, kitab oxumağa məhəbbət hissi tərbiyə olunur.

Bu məqsədlə oxıı təliminin qarşısında inkişafedici vəzifələr qoyulur ki, bu vəzifələrin ən ümdəsi şagirdlərin kitab oxumaq bacarığını inkişaf etdirir. Oxuduqları əsərin məzmunu haqqında sərbəst fikir söyləyir, əsərdə iştirak edən şəxslərin hərəkətini, davranışını qiymətləndirirlər. Bu da şagirdlərdə vətənə məhəbbət, təbiətin gözəlliyini sevmək, lüğət ehtiyatını zənginləşdirmək rabitəli nitqini inkişaf etdirmək, həyatda öz vəzifələrini başa düşmək və s. təlim-tərbiyəvi keyfiyyətlər formalaşdırır. Daha sonra şagirdlərə dünya xalqlarının ədəbiyyat nümunələrindən istifadə etməyi öyrədir. Bu sistem ibtidai kursda şagirdlərin fəaliyyətini formalaşdırır və onların yeni biliklərə yiyələnməsinə şərait yaradır. Yeni metodik sistem müəllim və şagirdin birgə işləməsini istiqamətləndirir. Metod həqiqətə gedən yol anlayışı kəsb etməklə, elm sahəsində biliklərin öyrədilməsi və öyrənilməsinə xidmət edir.

Təlimdə üç mühüm anlayış bir-birini tamamlayır:

1. **Metod**
2. **Metodika**
3. **Metodologiya**

**Metod** - pedaqogika və psixologiyanın ümumi qanunları əsasında mövzunun tədrisində didaklik prinsiplər baxımında meydana çıxır. Metod - təlim işinin səmərəli yollarını tətbiq edən, müəllim və şagird arasında ünsiyyət yaradan bir vasitədir. Bu ünsiyyət isə sinifdə şagird fəaliyyətini gücləndirir, onları dərindən düşünməyə, mütaliə etməyə cəlb edir.

Metod didaktik prinsiplər əsasında müəyyən edilmiş bilik, bacarıq və vərdişləri öyrədən iş üsuludur. Müəllim dərsdə şagirdə bilik verir və şagird bu bilikləri praktik işdə və ya müstəqil olaraq müəyyən çalışmalarda, həyatda istifadə edir.

**Metodika** - dərs zamanı mətnin öyrədilməsində (öyrənilməsində) (üsul, priyom, vasitə) mövcudluğunun yollarını aydınlaşdırır. Məlumdur ki, məktəblərdə tədris olunan hər bir fənnin

(oxu, riyaziyyat, əmək tərbiyəsi və s.) özünəməxsus metodikası vardır. Bu metodika vasitəsi ilə fənn didaktik qayda-qanun əsasında tədris edilir. Şagirdlər isə lazımı bilik, bacarıq və vərdişlərə sahib olurlar.

**Metodologiya**-isə şagird dünyagörüşünün formalaşması, idrak təlimi kimi fəaliyyət göstərir.

Məsələn:

■ şagird mətndəki obrazı seçir, bu epizodun, obrazın ünsiyyətini real həyatla müqayisə edir;

■ şagird mətndəki epizodları seçir, başqa əsərdə uyğun gələn epizodla oxşar cəhətlərini təhlil edir;

■ əsərdəki obrazın xarakterinə uyğun səs çıxarır və s.;

■ əsərdə ədəbi dildə və canlı dildə işlənən sözləri seçir, onların tələffüz qaydalarına nəzər yetirir;

■ əsərdəki obrazların əlamətini göstərən cümlələri, ifadələri, sözləri seçir;

■ əsərdəki obrazları bir-birindən fərqləndirən söz və ifadələri seçir;

■ mətndə yazıçının dil funksiyasını seçir, ədəbi dildə işlədir və s.

Bunlardan başqa metodikaya cədvəl və sxemlər, şəkillər, xəritə, əşya dərsləri, ekskursiya zamanı toplanan materiallardan istifadə, müşahidə dərsləri, texniki təlim vasitələri və s. daxil edilir.

Oxu təliminin metodikası və onun predmeti üç vasitə əsasında həyata keçirilir: l) təlim; 2) təhsil; 3) tərbiyə.

**1. Təlim**-bilik, bacarıq və vərdişləri müəyyən plan üzrə həyata keçirən bir üsuldur. Təlim dərsdə verilən və ya öyrədilən biliklərə xidmət edir.

**2. Təhsil**-əldə edilmiş bilik, bacarıq və vərdişləri sistemli mənimsədir və ya biliklərin məcmusudur. Şagirdlərin qabilyyətini interaktiv inkişaf etdirir, onların dünyagörüşünü formalaşdırır.

**3. Tərbiyə**-isə təlim və təhsilin nəticəsində əldə edilən davranış və əxlaq qaydaları, adət və ənənələrin vərdişidir.

**Bilik** - faktları ümumiləşdirib onu dərk etmək deməkdir. Bilik didaktik prinsip olmaqla yanaşı, təlim vasitəsilə əldə edilir və bir neçə variantda işlənir. “Bilik vermək”, “bilik qazanmaq”, “biliyə yiyələnmək”, “yeni bilik əldə etmək” və s. Şagird nə qədər bilik əldə edərsə, onların bir o qədər elmi dünyagörunüşünə zəmin yaradılır və öyrənmə qabiliyyəti inkişaf edir.

**Bacarıq**-əldə edilmiş biliklərin tətbiqi deməkdir. Məsələn: şagird durğu işarələrini işlətmək qaydasını bilirsə, onu ifadə və inşa yazılarında tətbiq edir. Digər halda ədəbi dildə işlənən sözü, canlı danışıqda ifadə edir. Şagird əldə etdiyi biliyi dərindən dərk edib, hər hansı bir yerdə tətbiq edirsə, bu bilik bacarığa çevrilir.

**Vərdiş**-bilik və bacarığın avtomatik surətdə hər hansı bir yerdə istifadə edilməsinə deyilir. Məsələn: şagird “ki” ədatını cümlədə bağlayıcı kimi yox, ədat kimi işlədir, bu onun bacarığıdır. Bacarıq isə vərdiş halına çevrilir. Bacarıqla vərdiş six surətdə bir-biri ilə əlaqəlidir.

Qabaqcıl müəllimər şagirdin bilik, bacarıq və vərdişlərini, həmçinin idrak fəaliyyətini inkişaf etdirməyi zəruri sayırlar. Bunun üçün mövzudakı faktları izah etməyi, fikrin doğruluğunu sübuta yetirməyi, dərs zamanı şagirdləri axtarışa qoşmağı və s. kimi problemərin həlli vəzifəsini qarşıya qoyurlar. Məlumdur ki, problemin həllinə təlim marağı yaratmaq uğurlu motivasiyanın işidir. Bundan sonra şagirdlər problemin həllinə qoşulur, tədqiqat aparır, axtarışa başlayırlar. Şagird bu axtarışda dərketmə imkanlarından tam şəkildə istifadə edir, dərs boyu təfəkkürü gərgin işləyir. Nəticədə müəllim şagirdlərə nələri bildiyini, nələri yeni öyrəndiyini yekunlaşdırır. Şagirdlərin maraq sferası təmin olunduqda tədqiqata qoşulma yüksək səviyyədə həyata keçir. Odur ki, müəllim şagirdlərə fənni sevdirməli və onlarda fənnə qarşı maraq hissi oyatmalıdır.

Məsələn: şagird hekayəni oxuyur, hekayədə xoşa gələn və ya xoşa gəlməyən hissələrlə qarşılaşır. Xoşa gələn hissələr şagirdlərə sevinc, şadlıq, məhəbbət, xoşagəlməyən emosiya kədər, qüssə, nifrət hissləri yaradır.

Emosional hisslər şagird fəaliyyətində dəyişkənliklə müşa-

hidə olunur, yəni göz, dodaq, təbəssüm, səs çıxarma, tələffüz tərzi, intonasiya və s.

**İctimai emosiya**-mətnin tədrisində yaranır. Şagirdlərdə xalqa məhəbbət, vətəni sevmək, düşmənə nifrət kimi hisslər yaradır.

**Estetik hisslər**-təkcə incəsənət baxımından təmas yaratmır, bu hisslər əsərdə təsvir olunan hadisələrin məzmunu ilə bağlı olan (mərdlik, ucalıq, qorxaqlıq, yumor, komik və s.) müxtəlif hissləri, duyğuları canlandırır.

**İntellektual hisslər-**şagirdə verilən biliklərlə bağlıdır. Belə ki, mətndəki hadisələrə elmi cəhətdən fikir söyləmək, düşünmək, faktlara qarşı maraq hissi və s. nəzərdə tutulur.

Müasir dövrdə şagird zehninin inkişafını təmin etmək məktəblərdə bir ümdə vəzifə kimi qarşıya qoyulmuşdur. Şagirdə nəyi öyrətmək və necə öyrətmək yolları müəyyənləşir. Hal-hazırkı dövrdə oxu təliminin səmərəli təşkili üçün aşağıdakı metodlar nəzərdə tutulur.

1.İdarəetmə metodu. 2.Doqmatik metod. 3.İnkişafetdirici metod. 4.İntensivləşdirmə metodu.

**İdarəetmə metodu** - şagirdlərə hərtərəfli bilik və bacarığın verilməsini, məsuliyyət hissini duymasını, dünyagörüşünün formalaşmasını, adət-ənənənin öyrənilməsini, mədəniyyət və s. kimi dəyərləri bilməsini qarşıya qoyur. Daha doğrusu xalqa məhəbbət, vətən sevgisi, müstəqil və yaradıcı düşünmə şəxsiyyət kimi formalaşmağa zəmin yaradır. Müasir təhsil sistemində idarəetmə metoduna sosial pedaqoji sistem kimi baxılır. Bu metodun vasitəsiilə təlim-tərbiyə təhlil olunur və bu proses zamanı şagirdin münasibəti şüurlu sürətdə öyrənməyi tənzimləyir.

İdarəetmə metodu il boyu tədrisdə nəzərdə tutulur və müəllim tədris zamanı aşağıdakı məsələlərə diqqət yetirir.

-poqramın(kurikulumun)qarşıya qoyduğu təlim nəticələrini müəyyənləşdirir;

- mövzunun ideya-məzmunu təhlil edilir;

-tədris zamanı qarşıya çıxan çətinliyin dəf olunmasında şagirdlərlə qarşılıqlı fəaliyyət göstərir;

-şagirdlərin bilik və bacarıq səviyyələrini dəyərləndirir və s.

Müəllim hər zaman sinfi idarə edir, şagirdlərin fəallığının təşkili üçün lazımı mühit yaradır. Müəllim idarəetmə metoduna tədris prosesində pillə-pillə nail olur. Məsələn, hər bir mətn üzrə müxtəlif variantlı hazırlıq işi aparır. Müəllim hər bir mətnin tədrisində fakt və hadisəyə maraqlı motivasiya qurur. Bunun üçün mümkün olan bütün **əyani** vasitələrdən istifadə edir, lazım olduqda **müşahidələr** təşkil edilir. Başqa bir mövzunun tədrisində **şəkillərdən**(tək, sujetli, seriya) yararlanır, daha sonra mövzunun tələbinə əsasən **sxem, cədvəl, iş vərəqləri**ndən istifadə edir, mövzunun məzmununa uyğun plan tərtib edir. Daha sonra mətnin **oxusu,** çətin söz və ifadələr üzrə lüğət işi gedir, obrazların xarakteri açılır, monoloji və dialoji niqin inkişafına diqqət verilir, şagirdlərin nağıletmələrinə şərait yaradılır və s. Müəllim şagirdə verilən bilik və bacarığın praktikaya, həyata tətbiqini istiqamətləndirir.

**II. Doqmatik metodda** - dərs ənənvi olaraq müəllimin nağıletməsi və izahı ilə başlanır. Nağıletmə yeni bilik verən üsuldur. Bu məqsədlə müəllim əsərdə hadisələrin baş vermə səbəbini, tarixi məlumatları, təbiət təsvirini, yazıçının yaradıcılığını, əsərin kompozisiyasını təhlil edir. Şagird də onun məzmununu dərk edir, rabitəli danışır. İbtidai siniflərdə nağıletmə bir neçə variantda(müşahidə, şəkillər, oxunmuş mətn, ekran əsərləri və s. üzrə) aparılır. Həmçinin nağıletmə hər mövzunun məzmununa uyğun aparılır.

Ədəbi dildə mətni kitabda olduğu kimi nağıletmə, mətni şagirdin öz cümlələri ilə nağıletmə, seçmə, qısa və yığcam nağıletmə, nəzm əsərini nəsrə çevirərək nağıletmə, yaradıcı nağıletmə və s. nağıletmə növlərindən istifadə olunur. Müəllim bədii əsərlər üzrə nağıletməni təşkil edəndə tez-tez izahetmə üsulundan istifadə edir. O, mövzunu başqa fənlərlə (riyaziyyat, əmək təlimi, müsiqi, informatika, fiziki tərbiyə və s.) əlaqələndirir (inteqrasiya edir). İzahetmə üsulu əsərin ideya-məzmununun, obrazların xarakterinin təhlilini asanlaşdırır, estetik və bədii tərbiyənin formalaşmasına zəmin yaradır.

Tarixi materiallar üzrə nağıletmə hadisənin başlanma səbəbini, yaranma tarixi və dövrü, şəxsiyyətlər haqqında məlumatları, yazıçının ideyasını, əsərin dövr üçün əhəmiyyətni və s. izahını nəzərdə tutur.

Folklor nümunələri üzrə nağıletmə xalqın mədəniyyəti, adət-ənənələri, tarixi keçmişini öyrənmək, uşaq fantaziyasını tərbiyə etmək üçün təşkil olunur.

**III. İnkişafedici metod**-ibtidai siniflərdə sadədən-mürəkkəbə, asandan-çətinə prinsipini qarşıya qoyur. İbtidai siniflərdə oxu təlimində bu prinsip aşağıdakı kimi həyata keçirilir:

- oxu şagird və ya müəllim tərəfindən aparıla bilər. Oxu zamanı oxunun tələbləri nəzərə alınır;
- lüğət üzrə iş aparılır;
- mövzuya plan tərtib edilir;
- plan bir neçə variantda nəzərdə tutulur: planın müstəqil tərtibi, müəllim tərəfindən plan tərtibi, kollektivin iştirakı ilə plan tərtibi, mövzunu hissələrə bölməklə plan tərtibi, sadə və mürəkkəb məzmunda plan tərtibi və s.;
- mətnin məzunu nagıl edilir;
- əsər təhlil edilir .

İnkişafedici metod zamanı aparılan oxıu dərslərinin əsas vəzifəsi odur ki, şagirdlər oxu texnikasına sahib olsunlar, qazandıqları bilik və bacarıqları möhkəmləndirə bilsin, əşya və hadisələr üzərində müşahidə aparsınlar. İnkişafedici metod zamanı oxu üzrə iş aşağıdakı kimi ola bilər:

- müəllimin nümunəvi oxusu;
- müəllimin rəhbərliyi altında gedən oxu.
- şagirdlərin oxu qaydalarına rayət etməsi;
- oxu təlimi bir neçə variantda təşkil edilə bilər(söz və cümlələrin intonasiya üzrə oxusu, düzgün oxu şərtlərinin gözlənməsi, mətndəki hadisələr üzrə cümlələrin seçilməsi, bədii təsvir və ifadələr üzrə seçmə oxu, təbiət hadisələri üzrə oxu, mətnin xoşa gələn hissələri üzrə oxu, mətndə ən çox işlənən sözlər üzrə oxu, suallara cavab tapmaq üzrə seçmə oxu və s.).

İbtidai siniflərdə lüğət üzrə işin təşkilində əsas məqsəd

odur ki, şagirdlər yeni sözün mənasını dərk etsin, həmin sözü fəal lüğətdə işlədə bilsin, və ya lüğət ehtiyatına daxil etsin, sözü leksik mənalarda işlətməyi bacarsınlar. Bu baxımdan lüğət üzrə iş dərsliklər, dərs vəsaitləri, ətraf aləmlə tanışlıq, təbiətə ekskursiya və ya təbiət üzrə müşahidələr və s. kimi vasitələrin üzərində aparılır. Müəllim sözün arxasında duran əşya və hadisənin izahında da söz anlayışından istifadə edir. Bu prinsip əsasında yeni sözü izah edir, şagird həmin sözü lüğət ehtiyatına daxil edir və sözü leksik mənada işlədir. Sözün üzərində aparılan bu cür təhlil şagird təfəkküründə öz ifadə tərzini tapır.

**IV. İntensivləşdirmə metodu.** İntensivləşdirmə metodunun təlim-tərbiyə işində müsbət cəhətləri çoxdur. İlk növbədə müəllim şagirdin diqqətini mövzuya yönəltmək üçün motivasiya qurur, mövzuya dair dolayı, qısa informasiya verir. Belə informasiya mövzunu mənimsəməyə şərait yaradır. Bu şərait şagirdə imkan verir ki, əsərdəki hadisə və faktları dərk etsin**,** eləcə də diqqəti mövzııdakı müsbət və mənfi cəhətləri müəyyənləşdirməyə yönəltsin.

Məktəb təcrübəsi göstərir ki, dərs müddətində intensivləşdirmə metodundan istifadə etməklə, mövzunun pedaqoji tələbləri tam şəkildə əhatə olunur, dərsdə vaxta qənaət edilir.

Məlum oldu ki, hər bir metod özünəməxsus didaktik xarakter daşıyır. Şagird təfəkküründə və onların intellektual inkişafında xüsusi əhəmiyyətə malik olur.

Şagird mövzunun məzmununa aid müstəqil olaraq yeni fikir söyləyir, mövzudakı yeniliyi dərk edir, məlum olmayan əlamətlər aşkara çıxarır, hiss etdiyi idrak vasitələri haqqında dolğun məzmunlu fikir söyləməyə şərait yaranır. Deməli, şagirddə yaranan şüur və təfəkkürün inkişafı, onlarda bilik məhsuluna çevrilir.

Şagirdin intellektual inkişafı onu əhatə edən təbiət, varlıq və cəmiyyət, elm və texnikanın müxtəlif sahələri ilə bağlıdır. Bu baxımdan birinci sinfə gələn uşaq ədəbi dilə və yazılı dilə məktəb şəraitinə düşdükdən sonra sahib olur. Zaman geçdikcə, şagird yazılı və ədəbi dili, lüğət tərkibi, dilin qrammatik quru-

luşu, eləcə də dilin üslubu cəhətlərini öyrənir.

Şagirdlər ədəbi dili məktəb şəraitində öyrənirsə, onlar həyatda dialekt və şivələrlə qarşılaşırlar. Məlumdur ki, dialekt dillərin özünəməxsus qrammatikası və lüğət fondu var, bu fərqli cəhətlər əbədi dilə öz fərqli təsirini göstərir.

Pedaqoji-metodik tələblər əsasında təşkil olunan dərslər müəllimin şagirdlə birgə işləməsinə, əməkdaşlığa əsaslanır. Odur ki, müəllimlər dərsin keyfiyyətini yüksəltmək üçün elmin son nailiyyətlərini izləyir, onu gündəlik dərslərdə tətbiq etməyə səy göstərirlər. Dərslərin səmərəli təşkili şagirdlərin fəallığını yüksəldir. Bu fəallıq isə məzmun standartlarında əks olunan təlim nəticələrinin reallaşmasını təmin edir. Kurikuluma dair pedaqoji anlayışlarda məzmun standartı "təhsil alanın bilik və bacarıq səviyyəsinə qoyulan, dövlət tələbi" kimi səciyyələndirilmişdir. Deməli, müəllimin gərgin əməyi məhz təhsil sahəsində dövlət tələbinin həyata keçirilməsinə yönəlmişdir.

## Strategiyalı oxu

Oxunun düzgün təşkili dedikdə **strategiyalı oxu** nəzərdə tutulur. **Strategiyalı oxu nədir?** Strategiyalı oxu şagirdlərin öz oxu fəaliyyətini təşkil və idarə etməsidir. Strategiyalı oxu düşünərək oxudur. Strategiyalı oxu zamanı şagird çevik düşünmək, sual vermək, keçmiş biliklərə əsaslanan yeni biliklər əldə etmək, fikir mübadiləsinə nail olmaq, nəticədə fikri dəqiq müəyyənləşdirmək və ondan həyati problemlərin həllində bəhrələnmək kimi bacarıqlara yiyələnir. Strategiyalı oxu prosesində şagird təqdim edilən mətnin mənasını dərk etməyi, problemı müəyyənləşdirməyi, mətnin oxusunu isə problemi həll etmə forması kimi dəyərləndirərək məqsədə nail olmaq üçün fəaliyyətini düşünülmüş şəkildə təşkil etməyi bacarır. Şagird gözlənilən nəticəni mətnin oxusuna baslamazdan əvvəl aydın təsəvvür edir və bilir:

- suallar cavablandırılmalıdır;
- plana əsasən oxu təşkil edilməlidir;

- uğurlu nəticə üçün daha nələr edilməlidir...

Strategiyalı oxu zamanı əsas məsələnin aşkar edilməsi, onların oxudan əvvəlki mövcud biliklərlə əlaqələndirilməsi, digər mətnlə müqayisə edilməsi, mətnin ssenarisinin qurulması və s. şagirdlərin idraki bacarıqlarını inkişaf etdirir Belə ki, şagirdlər yalnız mətndəki mənanı dərk etmir, həm də mənanın dərk edilməsi prosesini şüurlu təşkil edirlər. Bu, təfəkkürün inkişafından təxəyyülə doğru atılan ilk addım kimi dəyərləndirilə bilər. Məsələn:

- yaxşı oxumaq vərdişi aşılanır;
- təbiət və cəmiyyət hadisələri, eləcə də insanların əməyi haqqında anlayışlar verilir;
- uşaqların şüuru aydın və bədii obrazlarla zənginləşdirilir;
- onlarda yüksək əxlaqi keyfiyyətlər tərbiyə edilir;
- ana dilinə, kitaba məhəbbət və müstəqil kitab oxumağa həvəs oyadılır;
- uşaqlarda vətənpərvərlik, milli iftixar anlayışı yaradılır; - uşaqların estetik zövqü inkişaf etdirilir;
- uşaq ədəbiyyatının ən gözəl nümunələri ilə tanış edilirlər;
- uşaqlarda ədəbiyyata dair ilkin təsəvvürlər yaradılır;
- müxtəlif janrda yazılmış əsərlərlə tanış olurlar;
- klassik və müasir dövr yazıçı və şairləri ilə tanış olurlar;
- Azərbaycan dilinin zənginlikləri ilə tanış olur, onun tükənməz imkanlara malik olduğunu hiss edirlər.
- şagirdlərin lüğət ehtiyatı zənginləşir, nitq bacarıqları, nitq mədəniyyəti inkişaf edir.

## Oxuya verilən başlıca tələblər. Oxu vərdişlərinin inkişafı

Şagirdlərin oxu vərdişlərinin normal inkişafını təmin etmək üçün təlimin hər bir mərhələsində bunu fərdi şəkildə öyrənmək zəruridir. Hər şagirdin oxusunun düzgünlüyü, sürəti, şüur-

luluğu və ifadəliliyinin səviyyəsini öyrənmədən, onların keyfiyyətinə təsir göstərən səbəbləri aşkara çıxarmadan təlimin keyfiyyətini yüksəltmək çətindir. Oxunun keyfiyyəti şagirdlərin oxu vərdişinə necə yiyələnmələrindən asılıdır. İstər səsli, istərsə də səssiz oxu aşağıdakı tələblərə cavab verməlidir:

| | |
|---|---|
| 1.Düzgünlük | 2.Optimal sürət |
| 3.Şüurluluq | 4.İfadəlilik |

Şagirdlərin oxu texnikası bu tələblər baxımından təkmilləşdirilməsə, oxu dərsləri uşaqlara oxumağı və düşünməyi, oxumağı və hiss etməyi, oxumağı və müstəqil biliklər əldə etməyi öyrədə bilməz. Oxunun bu dörd (düzgünlük; optimal sürət; şüurluluq; ifadəlilik) keyfiyyəti bir-biri ilə sıx əlaqədardır, lakin onlardan başlıcası oxunun düzgünlüyüdür.

**Oxunun düzgünlüyü.** Oxunun düzgünlüyü mətnin məzmunun şüurlu oxunmasına xidmət edən bir mərhələdir.

2.Oxunun sürətliliyi onun şüurluğu ilə tənzim olunmursa, öz özlüyündə o qədər də əhəmiyyət kəsb etmir.

3.Oxunun ifadəliliyi də əsərin ideyasının ondakı başlıca fikrin obrazlı, canlı nəticə etibarı ilə şüurlu mənimsənilməsinə xidmət edir. Düzgünlük, şüurluluq həmçinin sürətlilik ifadəli oxu üçün əsas hesab olunur.

Oxunun düzgünlüyünə verilən başlıca tələblər aşağıdakılardır:

- Sözlərin aydın, səlis tələffüzü, yəni təhrif etmədən, heca və səsləri buraxmadan, əlavə etmədən, onların yerini dəyişmədən oxumaq.
- Sözlərdə vurğunu düzgün işlətmək və vurğuya görə sözün mənasının dəyişməsinə yol verməmək.
- Sözün qrammatik formasını digəri ilə, bir sözü başqası ilə əvəz etməmək.
- Ədəbi tələffüz qaydalarını gözləmək.
- Cümlədə söz buraxmamaq və əlavə etməmək.
- Cümlədə sözləri və mətndə cümlələri təkrarlamamaq.
- Rabitəli mətni ayrı-ayrı sözlərlə deyil, cümlələrlə yalnız cümlələrin sonunda fasilə verməklə oxumaq.

- Fasiləyə, intonasiyaya düzgün əməl etmək.
- Durğu işarələrinin tələblərinə əməl etmək.
- Kəkələmə, tıntınlıq, pəltəklik kimi nitq qüsurlarına yol verməmək.

Oxunun düzgünlüyünə mane olan başlıca cəhətlər aşağıdakılardır:

- ✓ Savad təlimi dövründə oxunun düzgün aparılmaması, heca oxusu əvəzinə hərfi oxuya yol verməsi.
- ✓ Yerli şivə tələffüzünün qarşısının alınmaması.
- ✓ Sözlərin yazılışı ilə tələffüzü arasında fərqin başa düşülməməsi.
- ✓ Uşaqların nitqində bəzi fizioloji nöqsanların mövcudluğu.
- ✓ Şagirdlərin sözlərin mənalarını başa düşməmələri.
- ✓ Dərsliklərdə şagirdlərin dilinə yatmayan çətin sözlərin və terminlərin verilməsi.

Bütün bu qüsurları aradan qaldırmaq və düzgün oxu vərdişi yaratmaq üçün aşağıdakı metod və priyomlardan istifadə faydalıdır:

1) müəllimin düzgün oxu nümunəsi verməsi və ya səsləndirməsi;

2) izahlı oxuya üstünlük verilməsi;

3) düzgün oxuyan yoldaşlarının oxusunun izlənilməsi;

4) düzgün oxunmayan sözlərin nümunəyə görə təkrar oxunması;

5) çətin sözlərin lövhədə yazılıb, oxudulması;

6) oxuya nəzarətin bütün sinif şagirdləri tərəfindən aparılması;

7) səhvlərin düzəldilməsinə bütün şagirdlərin cəlb olunması.

Oxunun düzgünlüyü I-II siniflərdə daha çox pozulur. Oxu texnikasına mükəmməl yiyələnməmiş şagirdlər oxuda tez-tez səhvə yol verirlər. Oxu vərdişinə yiyələnmiş şagirdlər də yorulduqda səhvlərə yol verirlər. Oxuda səhvlər obyektiv və sub-

yektiv səbəblərdən baş verir. Belə ki, oxu mətnində şagirdlərin yaş xüsusiyyətinə uyğun olmayan sözlərin olması, çətin orfoqramlı sözlərin işlədilməsi, sözlərin mənasının izah olunmaması və ya lüğət işinin aparılmaması obyektiv səbəb kimi göstərilə bilər.

Subyektiv səbəb kimi şagirdlərin sözlərin səs-heca tərkibini düzgün dərk etməməsi, oxunan sözlərin obrazlılığının düzgün qavranılmamasıdır. Belə hallarda şagird ya həmin sözün daxil olduğu cümlənin mənasına əsaslanır, ya da sözü mətndən, cümlədən kənarda dərk edir. Yenicə oxumağa başlayan uşaqlar ən çox sözü daxil olduğu mətndən, cümlədən kənarda dərk edirlər. Şagirdlər sözdəki hecaların və ya hərflərin sayını azaltmaqla, bəzən də savad təlimi dövründəki kimi hecalarla oxuyurlar.

Mətndəki **çətin sözlərin əvvəlcədən yazı taxtasına yazılıb təhlil edilməsi** uşaqları düzgün oxuya hazırlayır. **Çətin sözlərin xorla hecalarla oxunması** şagirdlərin oxu texnikasına yiyələnmələrini gücləndirir. Oxunmuş mətni şagirdlərə **təkrar oxutmaq** "oxu sahəsini" genişləndirir. Təkrar oxu zamanı şagirdlərin marağını aşağı salmamaq üçün **hər dəfə yeni tapşırıq verilməli**dir. Şagirdlərdə oxunun düzgünlüyünü təmin etmək üçün əsas şərtlərdən biri də **oxunun sürətinin tənzim edilməsi**dir.

Oxunun düzgünlüyünü artıran vasitələrdən biri də çətin **ifadələrin, yanıltmacların oxunması**dır.

Müəllim daim **şagirdlərin oxusuna nəzarət** etməlidir. Müəllim səhvə yol verən **şagirdlərin səhvlərinə vaxtında düzəliş** verməlidir. Oxunun düzgünlüyünə nəzarət şagirdlərin özlərinə də həvalə olunmalıdır.

Oxunun düzgünlüyü **artikulyasiyanın dəqiqliyindən** asılıdır. Müəllim oxu zamanı şagirdlərin yazıldığı kimi oxumalarına yol verməməlidir. Bunun üçün müəllim **şagirdləri orfoepik qaydalarla dərindən tanış etməli**dir.

Oxunun düzgünlüyünün pozulması orqanların nöqsanlarından da irəli gəlir. Məsələn, "r", "z", "s", "ş" səslərin düzgün tələffüz edə bilməmək və s.

Oxunun düzgünlüyünə nail olmaq üçün şagirdlərin oxusuna müəllim tərəfindən gündəlik nəzarət lazımdır. Oxu dərsində nitqi nöqsanlı şagirdlər daim müəllimin diqqətində olmalıdır. Müəllim hər bir şagirdin buraxdığı səhvin xarakterini nəzərə almaqla dərhal düzəliş verməlidir. Şagirdlərə fərdi yanaşmaq **loqoped köməyinə müraciət etmək** və **evdə müstəqil işləmələrin**ə nail olmaq lazımdır.

Oxunun düzgünlüyünə nəzarət etməyə uşaqların özlərini də cəlb etmək lazımdır. Şagirdlər öz yoldaşlarının oxularına nəzarət etmək üçün aşağıdakı cəhətlərə fikir verməlidirlər:

1.sözdə heca və ya hərfin buraxılmaması;
2.sözün təhrif olunmaması;
3.sözdə vurğunun düzgün işlənməsi;
4.sözlərin aydın tələffüz olunması;
5.oxu zamanı tələskənliyin olmaması;
6.durğu işarələrində fasiləyə əməl olunması;
7.intonasiyanın gözlənilməsi.

**Oxunun optimal sürəti.** Savad təliminin ilk mərhələsində şagirdlərin hələ oxu texnikasına yenicə yiyələndikləri dövrdə oxunun aşağı sürətlə, aramla aparılması vacibdir. Sonralar tədricən sürət artırılmalıdır. Oxu prosesində normal oxu sürətinə nail olmaq zəruridir. Nə ləng, nə də hədsiz sürətli oxu məqbul sayılmır və qarşısı alınmalıdır. Normal sürətli oxu fəal yaradıcı idrak prosesidir, bu proses zamanı şagird faktları, hökmləri təhlil edir, nəticədə yeni biliyin təməli qoyulur. Oxunun normal sürəti məzmunun şüurlu başa düşülməsini və ifadəliliyi təmin edir. Həddən artıq ləng oxu sözlər və cümlələr arasında əlaqənin pozulmasına səbəb olur, bu da məzmunun qavranmasını çətinləşdirir, ifadəliliyi azaldır və oxu prosesinin mexaniki şəkil olmasına səbəb olur.

Oxunun sürəti(rəvanlığı) oxunan materialın tam və keyfiyyətli mənimsənilməsini təmin edən oxu prosesidir.

Psixoloq L.S.Vıqotski hələ 1931-ci ildə yazırdı ki, adətən, hesab edirlər ki, ləng oxu zamanı anlama daha yüksək olur, əslində isə sürətli oxu zamanı anlama daha yaxşı olur, çünki müxtəlif proseslər müxtəlif sürətlə baş verir və anlama sürəti oxunun daha sürətli tempinə cavab verir. Sürətli oxu nitqi eşitmənin, görmənin idarə edilməsini tələb edir. Sürətli oxu oxunmuş mətnin keyfiyyətli mənimsənilməsini ləng oxudan daha yaxşı təmin edir. I-IV siniflərdə ən çox sürətli oxuya müəyyən dərəcədə norma qoyulur. Bu normalar əsasında şagirdin oxu fəaliyyəti qiymətləndirilir. Bu baxımdan şagirdlərin danışıq nitqi nəzərə alınmaqla sürətli oxu üç yerə bölünür:

1. Sürətli oxu
2. Orta oxu
3. Aramla oxu

| **Siniflər** | **Sürətli oxu** | **Orta oxu** | **Aram-aram oxu** |
|---|---|---|---|
| **Savad təlim dövrü** | **25-30** | **20-25** | **15-20** |
| **Savad təlimindən sonrakı dövr (I sinif)** | **30-35** | **25-30** | **20-25** |
| **II sinif** | **50-60** | **50-40** | **30-40** |
| **III sinif** | **60-80** | **50-70** | **40-50** |
| **IV sinif** | **80-100** | **70-90** | **60-70** |
| | | | |

III-IV siniflərdə oxu adi danışıq sürətinə bərabər olmalıdır. Buna nail olmaq üçün aşağıdakı vasitələrdən istifadə məqsədəuyğundur:

1) müəllimin oxu nümunəsi verməsi;

2) tələsən və ya ləng oxuyan uşaqların oxusunun normalla müqayisə edilməsi;

3) təkcə yaxşı oxuyanın deyil, bütün şagirdlərin eyni səviyyədə oxuya cəlb edilməsi;

4) I sinifdə xorla oxuya çox aludə olunmaması;

5) fərdi oxuya geniş yer verilməsi;
6) sinifdənxaric oxuya diqqətin artırılması.

Sürətli oxu texnikasının mənimsənilməsində vərdiş məfhumu olduqca mühüm əhəmiyyət kəsb edir. Hər dəfə mətnin növündən və oxunun məqsədindən asılı olaraq oxunun sürəti tənzimlənməlidir.

Oxunu hansı halda sürətli, hansı halda isə ləng hesab ediləcəyini müəyyənləşdirmək üçün cədvəl 1-də göstərilmiş sürət şkalasına əsaslanmaq lazımdır.

**Oxunun şüurluluğu.** Oxu təliminin ən mühüm keyfiyyətlərindən biri oxunun şüurluluğudur. Savad təlimi dövründən oxunun şüurluluğu təmin olunmazsa, şagird sonralar oxuduğunun mahiyyətini dərk etməkdə çətinlik çəkəcəkdir. Oxunun şüurluluğu oxunmuş mətnin məzmununun şagirdlər tərəfindən mənimsənilməsini tələb edir. Oxunun şüurluluğunun təmin edilməsi ibtidai siniflərdə çox zəruridir. Oxu prosesində bir çox sözlərin mənasının dərk olunmaması və ya yanlış dərk olunması mətnin məzmununun başa düşülməməsinə gətirib çıxarır. Əsərin məzmununu anlaşılmaması həmçinin oxu sürətinin, ifadəli oxu bacarıqlarının ləngiməsinə səbəb olur. Şagirdlərin şüurlu oxu bacarıqlarına daha fəal yiyələnmələri üçün qavrayışın dərinləşdirilməsinə yönəlmiş məşğələlərin təşkili məsləhətdir. Məsələn:

- şagirdlərin mətnin məzmununu qavramağa hazırlaşması;
- əsər oxunandan sonra iki-üç sualla məzmunun necə qavrandığının yoxlanması;
- lüğət üzrə işlərin aparılması;
- əsərə planının tərtib edilməsi;
- seçmə oxunun təşkili;
- mətnin məzmunun nağıl edilməsi;
- idraki və tərbiyəvi nəticənin çıxarılması;
- mətnin məzmununun uşaqların həyatı ilə əlaqələndirilməsi.

Şagirdlərin ifadəli oxu bacarıqlarına yiyələnməsi üçün şüurlu oxu mühüm şərtdir. Ona görə də ibtidai siniflərdə izahlı oxu dərsləri təşkil edilməlidir. Oxu zamanı lüğət üzrə aparılan işlər məhz oxu prosesinin şüurluluğunun təmin olunması məqsədini güdür. İzahlı oxu və lüğət üzrə işlərin aparılması şagirdlərin fəallığı və sözlərin izahına dair bacarıqlara yiyələnməsi ilə müşayiət edilir.Şüurluluq:

- mətndə hər bir sözün;
- söz birləşməsinin;
- cümlənin mənasının dərk olunmasında;
- bütövlükdə mətnin məzmununun başa düşülməsində;
- şagirdlərin mətndəki hadisə və surətlərə öz münasibətini bildirməsində özünü göstərir.

Şüurlu oxu zamanı şagird:

- mətnin məzmununu başa düşür;
- hekayədəki əsas fikri izah edir;
- əsərdəki faktları təsvir edir;
- əsərdəki şəxsin davranış motivlərini, münasibətini, niyyətini müəyyənləşdirir;
- müəllifin fikrini, əsərin ideyasını başa düşür;
- əsərə öz münasibətini bildirir;
- yazılı nitqdə durğu işarələrinin funksiyasını başa düşür;
- əsərdə qəhrəmanın fikirlərini başa düşür və ona münasibət bildirir;
- oxuduğu əsasında həyat həqiqətlərini başa düşür.

Oxu prosesində vəziyyətdən asılı olaraq müxtəlif çətinliklər meydana çıxır. Şifahi nitq uşağa tanış olan situasiyada baş verir və aydın başa düşülür. Mətndə isə yazılı nitqdən istifadə olunur. Oxunun şüurluluğuna nail olmaq üçün aşağıdakı vasitələrdən istifadə olunması məqsədəuyğundur:

1. Əyaniləşdirmək(mövzunun dərk olunmasında şəkillərdən istifadə mühüm əhəmiyyət kəsb edir).

2. Mətnin məzmununun şagirdlərin həyat müşahidələri ilə əlaqələndirilməsi.

3. Mətndəki söz, ifadə və cümlələrin məntiqi mənası və emosional çalarlığının açılması.

4. Mətndəki obrazların konkretləşdirilməsi.

5. Mənası çətin sözlərin dəqiq izah edilməsi.

Oxunun şüurluluğunun təmin edilməsi üçün məllim əvvəlcədən mətni oxuyub, təhlilini aparmalıdır. Mətndə olan yeni söz və ifadələrin izahı yollarını müəyyənləşdirməlidir. Məsələn:

- mətn üzrə təqribi olsa da real varlığı yaratmaq: mətnin, ondakı faktların, hadisələrin məzmununu izah etmək;
- mətnin məzmunu əsasında emosional mühit yaratmaq, hekayənin əsas fikrini izah etmək;
- hadisə və faktların təsvirində iştirak edən şəxsin davranış motivlərini və məzmununun arxasında hadisələrin mənasını görmək;
- müəllifin məqsədini, əsərin ideyasını başa düşmək;
- əsərin məzmununu başa düşmək onu qiymətləndirmək və öz münasibətini bildirməyi bacarmaq;
- yazılı nitqin ifadəliliyini (durğu işarələri, sözlərin sırası, nida, digər ifadə vasitələri) başa düşməyi öyrətmək;
- müəllifin ustalığını, əsərin ideyasını, başlıca mənasını, qəhrəmanın fikirlərini, həyəcanını ifadə etmək üçün işlətdiyi ifadələri başa düşmək və dəyərləndirmək;
- oxuduğu əsasında müasir həyatımızın həqiqətlərini başa düşmək və qiymətləndirmək .

**Oxunun ifadəliliyi.** İbtidai siniflərdə oxunun mühüm keyfiyyətlərindən biri də onun ifadəliliyidir. Oxunun ifadəliliyi həm anlamanın dərinləşdirilməsi, həm də emosiyanın, təxəyyülün inkişafı, estetik zövqün tərbiyəsi üçün son dərəcə mühüm əhəmiyyətə malikdir. İfadəli oxu şagirdin sözün qüdrətini dərk etməsinə, estetik zövqünün inkişaf etməsinə, oxu vərdişinə yiyələnməsinə güclü təsir göstərir. Belə oxu şagirdin oxuya marağını daha da artırır, əsərin məzmununu anlamasına imkan yaradır. Bədii əsərin, mətnin, oxu materialının dərk olunmasında

ifadəli oxunun əhəmiyyəti böyükdür.İfadəli oxu vərdişinə yiyələnmək üçün şagird ilk növbədə düzgün, rəvan, şüurlu oxu vərdişinə yiyələnməlidir. Şagird mətni o zaman ifadəli oxuya bilir ki, şüurlu oxu üzrə iş düzgün aparılmış olsun. Ancaq məzmuna uyğun ifadəli oxu daha təsirli olur. Böyük rus yazıçısı N.V. Qoqol yazır ki, ancaq gözəl oxu, ifadəli qiraət şeir haqqında düzgün təsəvvür oyada bilər... Yaxşı oxumaq üçün isə əsəri diqqətlə öyrənmək, şairin qəlbini dolduran böyük hissləri duymaq, onun hər bir sözünün ruhunu tapmaq lazımdır.

İbtidai siniflərdə şagirdlərin ifadəli oxu üzrə ilkin vərdişlərə yiyələnmələri müəllimin özünün bu vərdişə nə dərəcədə yiyələnməsindən, şagirdlərə necə nümunə olmasından asılıdır. Müəllim oxuyacağı əsərin ideya məzmunu üzərində düşünməli, yazıçının nə demək istədiyini bilməli, oxuyarkən hadisənin iştirakçısı kimi hərəkət etməlidir. Müəllim yaradıcı təsəvvürün köməyi ilə oxuduğunu "görməli" və şagirdlərə də "göstərməyə" çalışmalıdır. O, məzmuna və formaya uyğun olaraq oxumağı bacarmalıdır. Parlaq, ifadəli oxu uşaqların diqqətini qavramalı olduqları başlıca fikrə cəlb edir, məzmunu tam, aydın, obrazlı şəkildə çatdırır. İfadəli oxu prosesində oxucu əsərin ideya məzmununa daxil olmaqla obrazların, lövhələrin xarakter xüsusiyyətlərini açmalı, hadisələrə, qəhrəmanların hərəkətlərinə, daxili aləminə, müəllifin münasibətini, hisslərini dəqiq göstərməlidir. Yalnız bu zaman oxucu dinləyicini öz arxasınca apara, bədii söz vasitəsi ilə dinləyiciyə təsir göstərə, onda səmimi hisslər oyada bilər. Oxunun ifadəliliyinin təmin edilməsi üçün ilkin şərt mətnin məzmununun şüurlu mənimsənilməsidir. İfadəlilik isə öz növbəsində şüurluluğu artırır.

İfadəlilik üzərində iş apararkən müəllimin şagirdlərin oxusuna eyni tələbləri verməsi düzgün olmaz. İfadəli oxu vərdişlərinin yaradılması müəllimdən səbirli, qətiyyətli olmağı, müntəzəm və sistemli iş aparmağı tələb edir. Şagirdlərin emosional, ifadəli nitqə yiyələnmələri üçün ilk növbədə nitq texnikası üzrə iş aparılmalıdır. "Nitq texnikası" anlayışına oxu və danışıq pro-

sesində tənəffüs, səs, diksiya və s. daxildir. İfadəli oxunun aşağıdakı vasitələri vardır:

**İntonasiya.** İfadəli oxuyan şəxsin mətndəki obrazlara, hadisəyə münasibəti dinləyiciyə intonasiya vasitəsilə aydın olur. İfadəli oxuyan şəxs ayrı-ayrı sözlərə, fikrə təsirli hissi bildirmək üçün intonasiyadan istifadə edir.

İntonasiyaya aşağıdakılar daxildir:

1. **Melodiklik.** Oxu prosesində məqamında səsin yüksəlməsi, alçalması oxuya musiqililik, incəlik, yumşaqlıq gətirir.

2. **Sürət.** Məzmuna uyğun olaraq oxunu tezləşdirmə və ya ləngimə.

3. **Ritm.** Hecaların ahəngdar şəkildə əvəzlənməsi, uzun, qısa heca və s.

4. **Diksiya.** Səsləri düzgün və aydın tələffüz etmək, yerində nəfəs almaq və s. Danışıq üzvlərinə sahib olmaq ciddi, təkrar tələffüzdə diksiyanı təmin edir.

5. **Səs.** Səsin qüvvəsi ucalığı, uzunluğu, sürəti, tembri və başqa keyfiyyətləri var. Nitqə ifadəlilik verən də elə budur. Söz tələffüz edilərkən ciyərlərdən hava buraxılır, hava nəfəs yolları ilə xirtdəyə gəlir, orada səs tellərinin yığılıb açılması nəticəsində zəif səs əmələ gətirir. Səsin həcmi, gücü, məlahətli olması da emosional rəngarəngliyi çatdırmaqda böyük rol oynayır. Bunun üçün həm səs özü gözəl olmalıdır, həm də onu idarə etməyi bacarmaq lazımdır. Səsin qüvvəsi və ucalığını eyniləşdirmək olmaz. Qüvvə obyektiv, real böyüklüyü bildirir. Ucalıq isə nitq situasiyasından, oxunan mətndən asılıdır. Səsin müəyyən qüvvəsinə malik olan adam həm bərkdən, həm də zəif səslə danışa bilər. Bəzən səsin ucalığı bir cümlənin içərisində dəyişir. Səs imkan daxilində kifayət qədər gur və xoş avazlı olmalıdır. O, bu keyfiyyətlərə ağız boşluğunda yiyələnir.

İfadəli oxu bacarığının yaradılması müəllimin peşə hazırlığından çox asılıdır. Bununla belə aşağıdakı şərtlər mütləq nəzərə alınmalıdır:

- Müəllim ifadəli oxunun nəzəri əsaslarını bilməlidir.

- İfadəli oxu üzrə iş sistemli aparılmalıdır.
- İfadəli oxudan əvvəl izahlı oxu aparılmalıdır.

6. **Nəfəsalma.** Düzgün tənəffüs, düzgün nəfəsalma və havanı qənaətlə, bərabər ölçüdə xərcləməkdən ibarətdir. Səsin təmizliyi, düzgünlüyü, gözəlliyi və dəyişməsi (tonal çalarlığı) düzgün nəfəsalmdan asılıdır. Düzgün nəfəsalmanın danışığın eşidənə xoş təsir bağışlamasında xüsusi rolu vardır. Nəfəs sürətlə alınmalı, lakin qənaətlə verilməlidir. Çalışmaq lazımdır ki, şagirdlər buna nail ola bilsinlər. Buna nail olmaq üçün döş qəfəsinin bütün əzələ aparatından istifadə olunur. Sözlər və ya ifadələr arasındakı qısa fasilələr zamanı hiss olunmadan ciyərlərə hava daxil olur. Dərindən nəfəs alanda xüsusilə ciyərlərin daha tutumlu olan aşağı hissəsi hava ilə dolur, döş qəfəsi genişlənir, oxu zamanı hava məntiqi cəhətdən bitmiş hissələrə uyğun olaraq az-az xərclənir. Bu vaxt qabırğalar və diafraqma fəal hərəkət edir. Şağird nəfəsi elə alıb verməlidir ki, oxu prosesinə mane olmasın. Kitabın üzərinə çox əyilmək, sinəni partanın kənarına söykəmək nəfəsalmanı çətinləşdirir, şagird tez-tez dayanıb, dərindən nəfəs almalı olur.

7. **Vurğu.** Fikrin emosional və dəqiq çatmasında vurğunun da rolu böyükdür. Heca vurğusu, məntiqi vurğu və həyəcanlı vurğunun hər birinin özünəməxsus yeri vardır.

8. **Fasilə.** Həm durğu işarələri ilə, həm də durğu işarəsiz fasilələr üzrə iş aparılmalıdır. Ritmik bölgülər fikri dəqiq və emosional anlamağa xüsusi kömək edir.

## Oxunun növləri (modelləri)

İbtidai siniflərdə məqsəddən asılı olaraq oxunun müxtəlif növlərindən istifadə edilir. Məsələn: səsli oxu; səssiz oxu; səhnələşdirimiş oxu; seçmə oxu; xorla oxu və s.

**Səsli oxu.** Səsli oxu oxunun düzgünlüyü ilə əlaqədar mühüm əhəmiyyət kəsb edir. Səsli oxu düzgün oxu və düzgün tələffüz vərdişlərinin aşılanması üçün məqsədəuyğundur. Şagirdlərin oxunan mətndəki sözlərin necə tələffüz edildiyini

və hansı mənada işləndiyini anlamaları üçün səsli oxudan istiafdə zəruridir. Səsli oxu şagirdlərin oxu səviyyəsini müəyyənləşdirməklə bərabər, dinləyənlərin zehni fəaliyyətlərinin inkişafına da kömək edir. Şagirdlərin düzgün danışmaq bacarıqlarını artırır. Səsli oxu şagirdlərin mövzuya marağını artırır, onları oxumağa həvəsləndirir. Səsli oxu dərslərində ənənəvi və müxtəlif fəal/interaktiv təlim üsullarından istifadə edilir.

**I üsul:** müəllim aydın və anlaşıqlı formada, hamının eşidəcəyi səslə mətni oxuduqdan sonra şagirdlərin onun məzmununu qavrayıb-qavramadıqlarını öyrənmək üçün suallar verir və sinfi izləyir.

**II üsul:** müəllim şagirdləri qruplara ayırır, hər qrupdan bir şagirdin mətnin müəyyən hissəsini səsli oxumasını təşkil edir.

**III üsul: s**inifdə bütün şagirdlər növbə ilə mətni səsli oxuyur və suallara cavab verirlər.

Səsli oxumanın ən vacib şərti sözlərin düzgün tələffüzü, oxumağa həvəs oyatmaq və ya şagirdin kiminləsə danışırmış kimi oxumasıdır. Səsli oxuda sürətlə oxumaqdan çox, lazım olan yerlərdə fasilə etmək vacibdir. İntonasiya, mətndə ifadə olunan hiss və həyəcan müəyyən edilməlidir. Oxunan mətn diqqətlə dinlənilməli, oxu prosesində tələskənliyə yol verilməməli, düzəliş və qeydlər oxu bitəndən sonra olmalıdır. Ehtiyac olarsa, mətni təkrar oxumaq olar.

**Səssiz oxu.** Səssiz oxuda əsas məqsəd şagirdlərin oxü üzrə müstəqil işlərini təşkil etmək, şagirdlərin səlis və sürətlə oxumasına nail olmaqdır. Səssiz oxu şagirdin mətnin məzmununu nağıl etməsində, şeiri əzbərləməsində, ifadəli oxuya hazırlaşmasında, mətnə plan tərtib etməsində, müvafiq suallara cavab verməsində və ya yazmasında, seçmə oxuya hazırlaşmasında, çətin söz və ifadələri seçməsində səmərəlidir. Müəllim çalışmalıdır ki, səssiz oxu zamanı şagirdin dodaqları tərpənməsin və oxu ancaq gözlə idarə olunsun. Səssiz oxu göz hərəkətləri və beyində yaranan oxu prosesinə əsaslanır. Səssiz oxu sinifdə hər gün

yaxud həftədə bir dəfə keçirilə bilər. Şagirdlər sinifdə oxunacaq olan hər hansı bir mətni və ya öz istədikləri bir əsəri müəllimin verdiyi müddət ərzində oxuyurlar. Bütün sinif səssiz oxu prosesində iştirak etdiyi vaxt müəllim özü də səssiz oxumaqla şagirdlərə nümunə olur. Bu proses zamanı şagirdlərin başqalarına mane olmamasına, diqqətini yayındırmamasına fikir verilir. Səssiz oxu prosesinin sonunda sinifdaxili, yaxud da qruplar halında oxunulan mətnlə bağlı müzakirə keçirilir. ”Nə üçün bu əsəri seçdiniz?”, ”Əsərdə sizi maraqlandıran cəhətlər hansılardır?”, ”Niyə görə bu əsəri yoldaşlarınıza məsləhət görürsünüz?” və s. formada suallar verilərək şagirdlərin kitabla, mətnlə bağlı fikirləri ortaya çıxarılır. Şagirdlər mətndə onları maraqlandıran, yaxud başa düşmədikləri, mətni oxuyarkən nə hiss etdiklərini yazılı, ya da şifahi şəkildə ifadə edirlər. Səssiz oxu prosesində sürətli oxuya yiyələnmə baş verir.

**Sürətli oxu.** Sürətli oxu zamanı qısa vaxt ərzində daha çox məlumat əldə edilir. **Sürətli oxuma göz gimnastikası üçün zəruridir.** Bunun üçün dar çərçivədə yerləşdirilmiş kiçikhəcmli bir yazı müəyyənləşdirilir. Həmin mətnin ilk cümləsinin baş hərfi ilə son cümləsinin axırıncı hərfi müəyyən edilir. Sonra qeyd edilmiş ilk və son hərfə baxılır. Sürət getdikcə artırılır, davamlı və ardıcıl baxış oxu sürətini artırır. Sürətli oxu mükəmməlləşdikcə dərinləşdirilmiş oxuya keçilir.

**Dərinləşdirilmiş oxu.** Dərinləşdirilmiş oxu zamanı bütün təfərrüatlara diqqət yetirilir, oxunun təhlili və qiymətləndirilməsi həyata keçirilir. Dərinləşdirilmiş oxu analitik, tənqidi və yaradıcı oxu adlandırılır. Bu üsul tədris fənlərinin öyrənilməsində ən yaxşısı hesab olunur. Dərinləşdirilmiş oxu materialı asanlıqla yadda saxlamağa imkan verir, məşğələlərdə fəallığı yüksəldir. Bu yolla tanış olmayan, həmçinin çətin mövzuda olan mətnlər oxunur.

**Seçmə oxu**. Seçmə oxu mətnin məqsədli şəkildə cəld nəzərdən keçirilməsidir. Seçmə oxu mətnin olduğu səhifəyə

bir anlıq nəzər yetirmək və lazımı məlumatları görə bilmək bacarığıdır. Sürətlə oxu zamanı mətndən ad, soyad, söz, fakt və s. axtarmaq ənənəvi qaydada oxuyandan iki-üç dəfə daha tez icra edilir. Görmə aparatının, xüsusilə periferik görmənin inkişafı seçmə oxunun səmərəliliyini artırır. Mətnin şəxslərə görə oxusunun isə surətlərin xarakterini açmaqda mühüm rolu vardır.

**Qeyri-ardıcıl (ordan-burdan) oxu** sürətli oxunun elə bir növüdür ki, bu zaman mətnin ayrı-ayrı hissələri ordan-burdan oxunur. Belə oxu prosesində şagird diqqətini yalnız mətnin ona lazım olan tərəflərinin üzərində cəmləşdirir. Qeyri-ardıcıl oxu metodundan çox vaxt mətn (kitab) bir dəfə nəzərdən keçirildikdən sonra onun ikinci dəfə oxunması zamanı istifadə olunur. Təbii ki, bu cür oxunun sürəti əhəmiyyətli dərəcədə yüksəkdir, çünki mətnin(kitabın səhifələri) lazım olan hissəsi axtarılıb tapılana kimi izlənilir və həmin hissə dərinləşdirilmiş şəkildə oxunur.

**Nəzərdən keçirməklə oxu**. Nəzərdən keçirməklə oxu mətnlə ilkin tanışlıq üçün istifadə edilən oxunun son dərəcə mühüm üsuludur. Bu üsul sadədir çoxları ona yiyələnib. Məsələn, məşhur rus kitab həvəskarı N.A.Rubakinin mükəmməl yiyələndiyi oxu texnikası təsvir olunur: "O, heyrətamiz şəkildə sürətlə oxuyurdu, daha doğrusu, kitabı, onun dəyərini müəyyənləşdirirdi. Onu əlinə götürürdü, ön sözə göz gəzdirirdi, mündəricatda müəllifin onun baxışları haqqında fikir yürütmək imkanı verən nisbətən mühüm fikirlərini axtarırdı, nəticəni nəzərdən keçirirdi, beləliklə, kitabın və onun məzmununun diaqnozu qoyulurdu".

Çətin və maraqlı mətnləri bir neçə dəfə oxumaq təklifi ilə razılaşmaq olar. Dərsliklərin, çətin və mürəkkəb mətnlərin oxunması zamanı təkrar və dəfələrlə oxu təbiidir. Təəssüf ki, çox vaxt adi və asan mətnlərin oxunması zamanı gözlərin qayıdış hərəkətlərini müşahidə etməli oluruq. Əgər bu, mətnin hər sətrində baş verirsə, aydındır ki, belə mətn iki dəfə oxunur. Bu cür qayıdışlar, reqressiyalar ənənəvi ləng oxunun

əsas nöqsanlarından biridir. Bəzən elə qayıdışlar da vardır ki, onları əsaslandırılmış hesab etmək olar. Belə ki, onlar yeni fikirlərin əmələ gəlməsi zamanı ortaya çıxır.

**Qeydlər aparmaqla oxu.** Bu cür oxu prosesində məqsəd şagirdlərin fəallığını artırmaq, onlar üçün vacib olan məlumat, fikir və hadisələri yadda saxlaya bilmələrinə imkan yaratmaqdır. Səsli və səssiz oxu zamanı şagirdlərdən oxunun məqsədi ilə bağlı qeydlər aparmaq tələb olunur. Şagirdlərə qeyd apardıqları zaman diqqət etməli olduqları məqamlar (mətnin növü, mövzusu və s.) haqqında məlumat verilir. Oxu bitdikdən sonra şagirdlərin qeydləri dəyərləndirilir. Səssiz oxu zamanı şagirdlər iş vərəqlərinə onlara əhəmiyyətli görünən məsələləri qeyd edirlər.

**İşarələyərək oxu.** Şagirdlər mətndə onlara vacib görünən yerləri işarələyir, qeyd edirlər. Şagirdlər altından xətt çəkdikləri, yaxud da müxtəlif işarələrlə müəyyənləşdirdikləri hissələri öz cümlələri ilə ifadə edərək mənalı bir mətn düzəldirlər. Belə oxuda məqsəd **açar sözlər** və məfhumlarla vacib olan yerlərin müəyyənləşdirilməsidir ki, bu da mövzunu anlamağa kömək edir. Bu yolla oxu materialı əsas ideya xətləri üzrə qavranılmış olur.

**Təxmin edərək ( proqnozlaşdırılmış ) oxu.** Belə oxu şagirdlərin fəallıqlarını artırmaq, mətndə olan hiss, düşüncə və hadisələrlə bağlı onlarda maraq oyatmaq məqsədi daşıyır. Mətni davam etdirməyə imkan verəcək söz və ifadələr şagirdlərə izah edilir. Təxmini oxu bir neçə yolla həyata keçirilir.

✓ Mətnin təqdim olunan hissəsini şagirdlər oxuyur. Müəllim şagirdlərdən "Mətndə inkişaf edən və inkişaf edə biləcək olan hadisələri" iki ayrı-ayrı sütunda yazmalarını tələb edir.

✓ Mətnin qalan hissəsini müəllim oxuyur, sonra mətndəki hadisələrin necə nəticələnə biləcəyi başqa bir sütunda yazılır. Buna görə şagirdlərə hər hissə ilə bağlı düşüncələrini yazmaları üçün üç sütundan ibarət tapşırıq vərəqləri paylanılır.

✓ Mətnin bir hissəsi səsli oxunur. Şagirdlərdə maraq oyandıran ifadələrlə bağlı suallar yazı taxtasına yazılır. Mətnin davamında cavablar tapıldıqca sualların üstündən xətt çəkilir.

✓ Şagirdlərdən mətni oxumağa başlamazdan əvvəl mətnin başlığı və əyani vasitələrdən istifadə etməklə mətnin məzmunu ilə bağlı fərziyələr irəli sürmələri tələb edilir.

✓ Səsli oxu prosesində "Sizin fikrinizcə, bundan sonra nə ola bilər?", "Hadisələrin təxmin etdiyiniz kimi inkişaf etməsinin səbəbi nədir?" və s. suallar verməklə şagirdlərin diqqətinin mətn ətrafında daha çox cəmlənməsinə nail olunur.

**Sual verərək oxu.** Oxudan əvvəl və oxu prosesində şagirdlərə suallar hazırlamaq tapşırılır. Məqsəd şagirdlərin mətn üzərində düşünmələrinə nail olmaqdır. Bu metodun tətbiqi iki formada həyata keçirilir:

1) mətn səsli və ya səssiz oxunduqdan sonra şagirdlər oxu prosesində zehinlərində yaranan sualları yazırlar. Qruplara ayrılaraq həmin suallara cavab axtarırlar. Hər qrupdan, yaxud sinifdən bir şagird yoldaşına sual verir.

2) şagirdlər mətni oxumazdan əvvəl və oxuyarkən mətnin başlığını və beyinlərində yaranmış sualları yazı taxtasına yazırlar. Cavablar tapıldıqca sualların üstündən xətt çəkilir.

**Tənqidi oxu.** Tənqidi oxu şagirdlərə oxuduqları haqqında sual vermək vərdişləri qazandırmaqla mövzu haqqında düşünmələrinə imkan yaratmaq, mövzunu müsbət və mənfi tərəflərini dəyərləndirərək şəxsi fikirlərini bildirmək məqsədi daşıyır. Mətn oxunarkən şagirdlər iştirak edib-etmədikləri yerləri müəyyənləşdirir və beyinlərində yaranan suallara cavab axtarırlar. Hiss, düşüncə və hadisələr arasında səbəb-nəticə əlaqəsi qurmağa çalışırlar. Fərdi təcrübələrindən istifadə etməklə oxuduqlarına məna verirlər.

**Xorla oxu**. Xorla oxunun da özünəməxsus yeri vardır. Bu, şagirdlərin oxu prosesində birlikdə fəaliyyət göstərmə bacarıqlarının inkişaf etdirilməsidir. Bir şeir və ya nəsr hissələrə ayrılaraq bir qrup şagird tərəfindən birlikdə oxunur.

Mətn müəllim tərəfindən oxunub, izah olunur. Xorla oxu üç formada olur:

1. Hamının birlikdə oxuması: mətn bütünlüklə sinif və ya qrup tərəfindən oxunur.
2. Qrup halında oxuma: mətn hissələrə ayrılaraq hər qrup bir hissəni oxuyur.
3. Qarşılıqlı şəkildə oxuma: şagirdlər iki qrupa ayrılaraq mətnin müəyyən edilmiş hissələrindən birini bir qrup, digər hissəsini ikinci qrup oxuyur.

**Müzakirə edərək oxu.** Müzakirə edilməklə oxu zamanı şagirdlər mətnin mövzusu ilə bağlı bilik, hiss və düşüncələrini başqaları ilə bölüşdürür və onların bilik və düşüncələrindən istifadə etməklə fərqli baxışlar qazanırlar. Bu metod mətn hissələrə ayrılaraq tətbiq oluna bildiyi kimi, həm də bütünlüklə tətbiq edilə bilər. Müzakirə bütün sinif, yaxud qruplarla keçirilə bilər. Müzakirənin sonunda əldə olunan müştərək düşüncələr qeyd olunaraq mətn kimi təqdim olunur. Bütün şagirdlərin müzakirədə iştirakı vacibdir. Bu zaman onlar bir-birinin fikrinə hörmət edirlər.

**Rollu oxu.** Rollu oxu prosesində şagirdlər mətnin quruluşunu, dilini və mətndə iştirak edən obraz və personajların xarakterlərini anlayırlar. Mətn oxunduqdan sonra "teatr ssenarisi" düzəldilir. Mətnin məzmununda heç bir dəyişiklik edilmir, adi danışıq cümlələri və hadisələr nəzərə alınmaqla dialoqlar düzəldilir. Hər bir şagird oxuyacağı hissəni hazırlayır. Eyni zamanda mətnin qavranılmasına da nail olmaq lazımdır. Şagirdlər oxuduqları hissədə nəzərə çatdıracaqları məsələləri mətnin məzmunundan asılı olaraq izah etməyi öyrənirlər.

**Əzbərləmə**. Əzbər öyrənmə şagirdlərin hafizələrini gücləndirmək, mətnlərdəki cümlə quruluşlarını, lüğət tərkibini mənimsəyərək ana dilindən düzgün, səlis və gözəl şəkildə istifadə etmələrinə nail olmaqdır. Şagirdləri maraqlandıran seir və mətn hissələri əzbərlənir. Əzbərlənən seir və mətnlər sinifdaxili və ya sinifdənxaric fəaliyyətlərdə təqdim olunur.

Əzbər öyrənmə şagirdlərin söz ehtiyatlarını zənginləşdirir, ədəbi tələffüz normalarına yiyələnmələrini, ana dilinin qayda-qanunlarına uyğun cümlə qurmaq bacarıqlarını inkişaf etdirir.

**Müqayisəli oxu.** Şagirdlər oxuduqları mətnlə digər mətnlər arasında müqayisə aparmaqla düşüncə tərzlərini və bacarıqlarını inkişaf etdirirlər. Verilmiş mətn oxunduqdan sonra şagirdlərdən bu mətnin əvvəl oxuduqları digər mətnlərlə hansı oxşar və fərqli cəhətlərinin olduğu soruşulur. Şagirdlərə mətnlər arasında yer, zaman, obraz, personajlar, mövzu, fikir və hadisə baxımından əlaqə yaratmaları tapşırılır. "Bu əsərin mövzusu ilə əvvəllər oxuduğunuz...?", "... adlı kitabın mövzusu arasında nə cür əlaqə görürsünüz?", "Bu iki mətn arasında obraz və personaj baxımından hansı oxşarlıq mövcuddur?" və s. suallarla şagirdlərə istiqamət verilir.

**İSOAT-"İzlə",Soruş","Oxu","Anlat","Təkrarla".**

1960-cı ildə psixoloq Robinson tədris prosesində apardığı araşdırmalarda oxu sürətinin artırılması, məlumatı qavrama, yaddasaxlama, oxuyub anlamanın keyfiyyətini artırmaq üçün oxu prosesini 5 mərhələdə aparmağı təklif etmişdir. "İSOAT"ın açılışı belədir: "İzlə", "Soruş", "Oxu", "Anlat", Təkrarla".

❖ İzlə-mətnin əvvəldən sona qədərə gözdən keçirilməsi, ilkin baxış mərhələsidir. Bu zaman mövzunun adı, hər bir abzasın ilk və son cümləsi, mətndaxilində xüsusi işarə və forma ilə fərqləndirilən sözlərə, ifadələrə diqqət yetirilir. Burada verilmiş mətnin bütövlükdə oxunması vacib deyil.

❖ Soruş-bu addımda "izlə" mərhələsində oxunanlara dair suallar formalaşdırmaq vacib şərtdir. Əgər oxunanlardan beynimizdə suallar yaranmayıbsa, deməli, mövzu yetərincə anlaşılmayıb. Mövzu başlıqları, oxşarlıq və fərqliliklərdən yaranan suallar, sanki imtahan suallarıdır, onları bir vərəqdə qeyd etmək faydalıdır. Suallara 5-10 dəqiqə vaxtın ayrılması kifayətdir.

❖ Oxu-burada soruş mərhələsində yazılan suallara cavab tapılmalı və lazım gələrsə, onlar qeyd edilməlidir. Oxunan mətndəki əsas fikirlərin, xüsusi işarəli söz və ifadələrin diqqəti daim cəlb etməsi üçün həmin hissənin altından xətt çəkilməli, yaxud xüsusi işarələrlə fərqləndirilməlidir.

❖ Anlat(İzah et)-mətnə baxmadan "Soruş" mərhələsindəki suallara "Oxu" mərhələsində mətndən tapıb qeyd edilən müvafiq cavablar sanki qarşıda sizi dinləyən biri varmış kimi uca səslə nəql edilməlidir.

❖ Təkrarla-öyrənilən istənilən növ biliklərin çoxunun ilk bir saatda 70%-ə qədərinin unudulduğunu nəzərə alarsaq, onda "Anlat" mərhələsində məlumatın yenidən təkrar olunmasının zəruriliyi üzə çıxır. Öyrənilməmiş məlumatları nəql etmək mümkün deyil, buna görə də təkrar oxu çatışmayan cəhətləri görmək və tamamlamaq baxımından çox faydalıdır.

## Oxu təlimində iki yanaşma

Qeyd etmək lazımdır ki, oxu təlimi iki fərqli yanaşma əsasında qurulur. Oxu prosesində tətbiq olunan hər iki yanaşmanın xarakterik xüsusiyyətləri aşağıda verilmişdir:

| **Ənənəvi oxu (oxudan əvvəl)** | **Strategiya ilə oxu (oxudan əvvəl)** |
|---|---|
| Oxu tapşırığı verilir | Başlıqla tanışlıq, fərziyyələr irəli sürmə, düşünmə və məqsədi müəyyənləşdirmə: Burada söhbət nədən gedə bilər? Mən bu haqda nə bilirəm? Bu mətni oxumaqda məqsədim nədir? |
| **Ənənəvi oxu (oxu zamanı )** | **Strategiya ilə oxu (oxu zamanı)** |
| Müstəqil oxu | İdarə edilən, fəal, sakit oxu |
| **Ənənəvi oxu (oxudan sonra)** | **Strategiya ilə oxu (oxudan sonra)** |
| Oxu materialının mənimsənildiyini yoxlamaq üçün müzakirələrin aparılması və tapşırıqların yerinə yetirilməsi | Oxuduğu mətn üzərində düşünmək: Özünüqiymətləndirmək; İdeyadan nəticə çıxarmaq |

## Strategiyalı oxunun təşkili:

| Oxudan əvvəl |
|---|
| Mətnin başlığını oxumaq.<br>Fikirləşmək: "Bu barədə indiyə qədər nə oxumuşam, nə eşitmişəm, hansı televiziya verilişinə tamaşa etmişəm? yəni, "mən bu barədə nə bilirəm?"<br>"Bu mətni nə üçün oxuyuram? Bildiklərimdən əlavə daha nələri öyrənmək maraqlı olardi?"- deyə oxu məqsədini müəyyən etmək.<br>Başlıq və yarımbaşlıqlara, şəkillərə, həmçinin digər diqqət cəlb edən məqamlara ötəri nəzər salmaq.<br>Əldə olunan ilkin məlumatlara əsasən mətndə nədən bəhs olundugu barədə əvvəlcədən fərziyyələr irəli sürmək. Həmin fərziyyələri qeyd etmək. |
| **Oxu zamanı** |
| Müəllifin fikrini tam şəkildə anlaya bilmək üçün oxu prosesində tanış olmayan sözlərin mənasını aydınlaşdırmaq.<br>Əsərdə yazıçının nə demək istədiyini(əsərin əsas ideyasını) müəyyən etmək.<br>Əsərdə nəyisə anlamadan və ya səhv oxuduğunu hiss etdikdə, dayanmaq. Yenidən oxumaq.<br>Mətndəki fikirlərin qrafikini və ya cədvəlini dəftərə çəkmək. |
| **Oxudan sonra**<br>Dəqiqləşdirilməsinə və ya genişləndirilməsinə ehtiyac hiss olunan məsələləri müəyyənləşdirmək.<br>Yazıçının haqqında danışılan məsələyə münasibəti barədə nəticələr çıxarmaq.<br>Dəqiqləşdirmək: "Yazıçı bu əsərdə nə demək istəyirdi?"<br>O, nəzərdə tutduğu fikri ifadə edə bilibmi?<br>Oxunun təşkili uğurlu oldumu? Özünü qiymətləndirmək (yüksək, yaxşı, orta, zəif). |

Mətn üzərində iş təşkil edərkən müəllim əvvəlcədən işi planlaşdırmalı və hansı fəaliyyətlərin hansı məqamda yerinə yetiriləcəyini bilməlidir.

Mətnlər 3 hissədən ibarət olur: **giriş, əsas hissə, sonluq (nəticə).** Mətnin giriş hissəsində əsas iştirakçılar, hadisələrin baş verdiyi yer və vaxt haqqında məlumat verilir. Əsas hissədə qəhrəmanın başına gələn hadisələr təsvir olunur. Sonluqda hadisələrin necə bitdiyi bildirilir və ya məzmunla bağlı nəticə çıxarılır.

**Giriş.** Təsvir ediləcək əşya və ya hadisə ilə tanışlıq; əsas fikirlə əlaqə yaradan məqamların təqdim edilməsi. Nəzərə alınmalı məsələlər:

- Oxuya hazırlıq.Təsvir edilən əşya və hadisə haqqında maraq doğuran cümlələrin müəyyənləşdirilməsi.
- Əsas fikrin təqdim edilməsi. Əvvəlcədən əsas fikrə zəmin yaradılıbmı? Mətndə əsas fikirlə əlaqəsi olmayan məsələlərə yer verilibmi? Təsvir ediləcək məsələlər barədə oxucuda təsəvvür yaradılıbmı?

**Əsas hissə.** Əşya, hadisə, insan və məkanla bağlı təsvirlərin ardıcıllıq(uzaqdan yaxına və ya əksinə; ümumidən xüsusiyə və ya əksinə; insan təsvirində başdan-ayağa və ya əksinə), yaxud əhəmiyyətlilik baxımından müəyyənləşdirilməsi.

- Təsvir ediləcək məsələlərin müəyyən edilməsi və sıra ilə düzülməsi. Yalnız bədii və təsvir vasitələrinə deyil, həm də hisslərin və faktların təsvirinə yer verilibmi? Məsələlər haqqında danışılıb, yoxsa onların necə olduğu sözlə göstərilib?
- Düşüncə və hisslərin təqdim edilməsi.
- Şagirdin irəliyə doğru istiqamətləndirilməsi

**Nəticə.** Təsvirləri yekunlaşdırmaqla yazının başa çatdırılması. Gözəl bir sonluğun verilməsi.

## Oxu prosesində baş verən nöqsanlar

**Ötürmə-**oxu zamanı səslərin, hecaların ya da sözlərin bir hissəsinin, söz birləşmələrinin ya da bütün bir sətrin oxunmadan keçilməsidir. Ötürmənin iki növü məlumdur: birincisi, şagirdin tanımadığı və ya anlamadığı sözləri bilərəkdən oxumaması; ikincisi, səs, heca ya da sözlərin fərqində olmadan edilən ötürmədir. Bəzi ötürmələr diqqətsizliklə bağlı olsa da, tez-tez söz, heca, hərf buraxılaraq oxuma səhifə üzərində göz izləməsinin düzgün aparılmadığına işarədir. Bu səhvə tez-tez yol verən uşaqların oxuyacağı mətni barmaqla izləyərək oxuması faydalıdır.

**Əlavəetmə-**mövcud mətndə olmayan səsin, hecanın, sözün oxuma prosesində yazılı materiala daxil edilməsidir. Əlavələr oxunan cümləyə başqa məna verə biləcəyindən və cümlənin mənasını dəyişdirəcəyindən oxu səhvi kimi qiymətləndirilir. Əlavələr çox az sayda olarsa, narahatlığa əsas yoxdur, lakin çox tez-tez rast gəlinirsə, burada şagirdin diqqətsizliyi, diqqət dağınıqlığı problemi olduğuna işarədir.

**Təkraretmə -**təkraretmə bir sözün və ya cümlənin geriyə dönərək yenidən oxunmasıdır. Söz şagirdə tanış olduğu halda özünə inamsızlıq səbəbi ilə yenidən təkrar oxuyur. Bu hal **reqressiya** adlanır və oxu sürətini aşağı salmaqla bərabər oxuyub anlamanın keyfiyyətini də aşağı salır. Şagirdin özünə inamı artdıqca oxu tərəddüdlərində, təkrarlamalarında azalma müşahidə edilir.

Yenicə oxumağa başlayanların oxu texnikasının xüssusiyyətlərindən biri də tez-tez baş verən reqressiya (geriyə qayıtmadır). Uşaqlar sözdə eyni hecanı, cümlədə eyni sözü bir neçə dəfə təkrarlamalı olurlar. Bu ondan irəli gəlir ki, uşaqlar sözləri hecalarla, fasilələrlə oxuduqlarından axırına çatanda əvvəli yaddan çıxır. Ona görə də geriyə qayıdırlar ki, həmin hissələri əlaqələndirsinlər. Sözlər nə qədər böyük, çoxhecalı və mənaca çətin olarsa, geriyə qayıtma, təkrarlama o qədər çox olur. Şagirdlər təkrarlamağa ona görə meyillidirlər ki, sözlərin təkrarı onları cümlədə birləşdirməyə və mənanı başa düşməyə kömək

edir. Ona görə də ilk dövrlər belə geriyə qayıtmanı nöqsan hesab etmək düz deyil.

**Tərsinə çevirmə-**hərflərin, hecaların və ya sözlərin yer dəyişdirərək ya da geriyə çevrilməsidir. Daha çox birinci sinif şagirdlərində rast gəlinən problemdir. Tərsinə çevirərək oxumanın 4 növü vardır: 1)bütöv sözü; 2)sözün bir hərfini; 3)hərflərin sırasını; 4)sözlərin sırasını tərs çevirərək oxuma.

Kökləri bir-birinə bənzər, eyni hərf tərkibinə malik sözlər xüsusən, kiçikyaşlılar tərəfindən səhv oxunur. Bu cür səhvlərə yol verən şagirdlərə yanıltmaclar oxutmaq faydalıdır. Bir-birinə simmetrik olan b-d, m-n, u-n kimi hərflər, bundan başqa f-t, c-e, a-o, c-ç, s-ş və s. bu kimi bir qrup hərflərin oxunuşu zamanı hərflər verilmiş qarşılığı ilə əvəzlənərək səhv oxunur.

**Tələffüz xətaları-**burada əsas amil düzgün tələffüz qaydasına-orfoepik normalara əməl edilməməsidir. Bəzən şivə və dialektlərdə danışma da öz mənfi təsirini göstərir. Məktəblərdə düzgün yazı qaydaları öyrədildiyi kimi düzgün tələffüz qaydaları da öyrədilməli, bununla bağlı ardıcıl iş aparılmalıdır.

**Yanlış oxuma-**oxu zamanı intonasiyaya, durğu işarələrinin tələblərinə əməl etməmək yanlış oxuya gətirib çıxarır. İbtidai siniflərdə müəllim çox diqqətli olmalı hər bir şagirdin oxu bacarıqlarının düzgün istiqamətdə formalaşması qayğısına qalmalıdır.

**Reqressiya-** reqressiyalar oxunmuş hissəni təkrar oxumaq məqsədilə gözlərin geri hərəkətidir. Bu nöqsanların ən geniş yayılmışıdır. Bəzi şagirdlər özləri də hiss etmədən həm çətin, həm də asan mətni iki dəfə oxuyurlar. Ləng oxu zamanı həcmi 100 söz olan mətn üçün reqressiyaların sayı 10-15-ə çatır. Aydındır ki, gözlərin bu qədər tez-tez geri hərəkətləri oxunun sürətini azaldır. Əksər şagirdlər həm çətin, həm də asan mətnləri eyni dərəcədə ləng oxuyurlar. Lakin müəllim bu cür oxunun islahına calışmalıdır.

**Reqressiyalarsız oxu necə olur?** Qaydanın məzmunu: İstənilən çətinlik dərəcəsində olan mətni yalnız bir dəfə oxumaq, gözlərin qayıdış hərəkətləri (reqressiyalar) yolverilməzdir. Yal-

nız oxu başa çatdıqdan və oxunmuşların mənası başa düşüldükdən sonra zəruri olarsa, mətni bir daha oxumaq olar. Bu qayda oxunun qanunu olmalıdır. Mətn hansı çətinlik dərəcəsində olursa-olsun, gözlər yalnız irəli getməlidir. Heç bir qayıdış hərəkətinə yol vermək olmaz. Məqsəd düzgün oxumağı öyrənməkdir. Bu yolda ilk addım reqressiyaların tamamilə ixtisar edilməsidir. Belə ki, dəfələrlə oxunması lazım olan çoxlu çətin və mürəkkəb kitablar vardır. Buna baxmayaraq hətta bu cür mətnləri belə birinci dəfə oxuyarkən **“reqressiyalarsız oxu qaydası**”na sözsüz riayət edilməlidir. Çətin mətnlərin təkrar oxunması mümkündür, bəzən mütləqdir, lakin bütün hallarda təkrar oxu faktından əvvəl oxunan hissənin mənasının başa düşülməsi lazımdır. Əksər hallarda şagirdlər oxuduqları mətn üzərində düşünmür, oxu zamanı başqa bir şey haqqında fikirləşdiyinə görə heç bir şey anlamırlar. Ona görə də dəfələrlə oxuduqları mətnə qayıdırlar. Belə oxunun effektivliyindən söz açmağa dəyməz. Ona görə ki, oxu ləng olmaqla (təkrar oxuya 2-3 dəfə çox vaxt sərf olunur), mətnin mənasının başa düşülməsi və yadda saxlanılması keyfiyyəti də çox aşağı səviyədə olur. Belə halların, yəni reqressiyalı oxunun qarşısının alınması ibtidai sinif müəllimlərinin şagirdlərin oxusuna daha diqqətlə və məsuliyyətlə yanaşmasını tələb edir.

**Dəyişkən oxu proqramı.** Dəyişkən oxu proqramının olmaması çoxlarına ziyan vurur. Çox sadə bir üsuldan-inteqral alqoritmdən istifadə etməklə oxu sürətini iki dəfə artırmaq və oxunmuşların mənimsənilməsini təxminən iki dəfə yaxşılaşdırmaq mümkün olur.

**Artikulyasiya.** Oxu zamanı dodaqların, dilin və digər tələffüz orqanlarının hərəkəti özlüyündə oxunun sürətini yalnız zahirən azaldır. Əslində isə onlar daim gizli hərəkətdə olurlar. Artikulyasiya aparıtının mikrohərəkətlərinin intensivliyi hər şeydən əvvəl oxunun inkişaf səviyyəsindən və mətnin çətinliyindən asılıdır. Müəyyən olunduğu kimi sözləri tələffüz etmək vərdişi şagirdlərin əksəriyyətinə xasdır. O, şagirddə oxumağı öyrənərkən formalaşır. Şagird sözləri hərf-hərf, sonra heca-heca,

nəhayət, bütövlükdə səsləndirir. Nəticədə görünən və tələffüz olunan söz arasında möhkəm reflektor əlaqə yaranır və mətni əvvəlcə ucadan, sonra pıçıltı ilə, sonra isə daxildə söyləmək vərdişi formalaşır və hər bir vərdiş kimi o da çox davamlıdır.

**Dar görüş sahəsi.** Görüş sahəsi dedikdə, gözlərin mətnə bircə dəfə nəzər yetirməklə dəqiq qavradığı hissəsi başa düşülür. Ənənəvi oxu zamanı hərf, söz, ən yaxşı halda isə iki-üç söz qavranıldıqda görüş sahəsi çox dardır. Bunun nəticəsində gözlər çox sıçrayış edir və nəzəri saxlayır. Bu üsulu nəzərin parçalanması ilə oxu üsulu adlandırmaq olar. Görüş sahəsi nə qədər geniş olarsa, göz hər dayandıqda bir o qədər çox informasiya qavranılır, bu dayanmaların da sayı bir o qədər az olur, nəticədə isə effektiv oxu alınır. Sürətlə oxuyan şagird nəzərini bir dəfə saxlayaraq iki-üç sözü deyil, bütöv bir sətri, bütöv cümləni, bəzən isə bütöv bir abzası qavraya bilir.

**Diqqətin təşkil olunma səviyyəsi.** Diqqət oxu prosesinin katalizatorudur. Ləng oxuyan adamın diqqəti kənar düşüncələrə, əşyaya yayınır və mətnə maraq azalır. Buna görə də mətnin hissələri mexaniki olaraq oxunur və oxunmuş hissənin mənası dərk olunmur. Belə şagird kənar şeylər haqqında düşündüyünü hiss edən kimi çox vaxt həmin parçanı yenidən oxumağa məcbur olur.

## Ədəbiyyat


1. Abdullayev A.S. İbtidai məktəbdə Azərbaycan dilinin tədrisinin metodikası. Bakı: Maarif, 1962, 165 s.
2. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IV siniflər). Bakı, 2012
3. Artar Y.U. Etkili ve hızlı okuma teknikleri. T., 2011
4. Balıyev H.B. Ana dilinin tədrisi metodikası. Bakı: 3 №li Sənaye Liseyi, 1997, 102 s.
5. Борисова Л.Г. Обучение школьников культуре чтения.М., 2004

6.Əlizadə Ə.Ə., Sultanova İ.H. Taksonomiya nəzəriyyəsi və

təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı, 2008, 173 s.
7. Həsənli B, Abdullazadə N. İfadəli oxu. Bakı: Müəllim, 304 s.
8. Həsənli B, Hüseynoğlu S, Səfərova Ə, Quliyev Ə. Ədəbiyyat. 5-ci sinif, müəllim üçün metodik vəsait. Bakı, 2012
9. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 404 s.
10. Həsənov M., Cəfərova N., Bəhmənova C. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Bakı:Elm və təhsil, 2014, 70 s.
11. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.
12. Orucova G., Qaragözova N., İsmayılov R., Xəlilov Z. Azərbancan dili (2-ci sinif). Müəllim üçün metodik vəsait. Bakı: Altun Kitab, 2009, 224 s.
13. Özen M. Metinleri ekrandan okumanin anlam kurma üzerine etkisi. Türkiye, 2009
14. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı, Nurlan, 2003, 408 s.
15. Roxanne F. Hudson, Paige C. Pullen, Polly B. Lane, Joseph K. Torgesen. Complex Nature of Reading Fluency: A Multidimensional View. 2015
16. Tağıyev B. Oxu təlimi. Bakı:ADPU, 315 s.
17. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)// Kurikulum, 2010, №3, s. 116-130
18. Yusifov F. İfadəli oxu.Bakı: ADPU, 2006,111s.
19. http://seadetazerb.com/?p=720

# VII FƏSİL

# MÜXTƏLİF JANRDAN OLAN ƏSƏRLƏRİN TƏDRİSİ METODİKASI

## Müxtəlif janrdan olan əsərlərin oxusunun xüsusiyyətləri

**Əsas istiqamətlər:**

- **Bədii əsərlərin oxusunun xüsusiyyətləri**
- **Elmi (məlumatlandırıcı) mətnlərin oxusunun xüsusiyyətləri**
- **İbtidai siniflərdə mövzu üzrə nağıletmə**

Bədii əsərlər janr etibarı ilə müxtəlifdir. Hər bir ədəbi janrın öz quruluşu, üslubu, priyomları olduğundan onların şagirdlərə təsiri də fərqlidir. Bədii əsərlər üç növdə olur: lirik, epik, dramatik. I sinifdən başlayaraq oxu dərsliklərində hər üç növdən nümunələr verilir. Hər növə aid mətn üzrə iş apararkən onun xüsusiyyəti nəzərə alınmalıdır. Sinif müəllimi epik, lirik və dramatik əsərləri, onun növlərinin xüsusiyyətlərini, bu xüsusiyyətlərin təlimdə nəzərə alınmalı olduğunu bilməlidir. Bədii mətnlər şagirdlərin fikrinə, hisslərinə və iradəsinə güclü təsir etməklə böyük tərbiyəvi əhəmiyyət daşıyır. Uşaqlar bədii əsərlərdəki müsbət qəhrəmanı sevir, onunla birlikdə həyəcan keçirir. Həqiqi həyatda təqlid edir, özü üçün ideal seçir.

Ədəbi əsərlərin ifadəli oxusunda janr xüsusiyyətlərinə diqqət yetirilməlidir. Əsərin janrından asılı olaraq müəllim müvafiq metod və priyomlardan istifadə edir. Müxtəlif növ bədii əsərlərin oxusunu düzgün təşkil etmək üçün onların özünəməxsus xüsusiyyətlərini bilmək son dərəcə vacibdir. İbtidai siniflərdə şagirdlər müxtəlif janrlı əsərlərlə tanış olurlar. Burada epik və lirik növə dair kifayət qədər əsərlər verilmişdir. Məlumdur ki, hər bir əsərin də öz quruluşu, bədii xüsusiyyətləri vardır. Oxu prosesində bunları bilmək vacibdir. Nağıl və təmsil eyni olmadığı kimi, onların oxu qaydaları da fərqlidir. Eləcə də atalar sözləri, tapmaca, bayatı, əfsanə, hekayə və b. nümunələrinin hər

birinin öz quruluşu olduğu kimi, müvafiq oxu qaydaları, təhkiyə xüsusiyyətləri də vardır.

Bədii ədəbiyyatın özünəməxsus xüsusi cəhətlərindən biri də şagirdlərin nitqini lazımı söz və ifadələrlə zənginləşdirməsidir. Bədii əsəri sadəcə oxumaq deyil, onu başa düşmək, hiss etmək əsas şərtdir.

İbtidai siniflərdə bədii materialların oxusu yuxarı siniflərdə keçilən "Ədəbiyyat" fənnini yaxşı mənimsəməyin təməlidir. Ona görə də bu siniflərdə şagirdlər bədii əsəri təhlil etməyi, qəhrəmanın xarakterini müəyyənləşdirməyi, hadisələrin zaman və məkan şəraitini təyin etməyi bacarmalı, ilk poetik anlayışlara-şer, qafiyə, ahəng, ölçü, hekayə, təmsil, nağıl və s. dəqiq yiyələnməlidirlər.

İbtidai siniflərdə oxu təlimi prosesində müxtəlif ədəbi janrlardan istifadə edilir.

1. **Bədii mətnlər (hekayə, təmsil, nağıl, şeir)**
2. **Elmi (məlumatlandırıcı) mətnlər (müxtəlif sahələr haqqında məlumat verən mətnlər)**

İbtidai siniflərdə oxu materiallarının seçilməsində şagirdlərin yaş və bilik səviyyəsi nəzərə alınır. Yığcam formada onların əsas cəhətlərinə diqqət yetirək.

İbtidai siniflərdə **lirik əsərlərin** tədrisi şagirdlərin oxu vərdişlərini təkmilləşdirir, lüğət ehtiyatını zənginləşdirir və nəhayət, şagirdlərin rabitəli nitqə yiyələnmələrinə şərait yaradır ki, bu da xüsusi əhəmiyyət kəsb edir.

Lirik obrazlı bədii ifadələr şagirdlərin ətraf aləmi dərk etməsinə güclü təsir göstərir, varlığı dərk etmək hisslərini artırır, yaradıcılıq fəaliyyətini, təfəkkür və nitq mədəniyyətini inkişaf etdirir. Şagirdlər sözlərin məna çalarlığını aydın və konkret olaraq dərk edir, onlarla bədii dilə və obrazlı təfəkkürə sahib olur. Oxu dərsliklərinin tərtibində lirik əsərlərin aşağıdakı bölgüləri nəzərə alınmalıdır.

Təbiəti təsvir edən lirik əsərlərə oxu dərsliklərində çox yer verilir. Bu məzmunda olan əsərlər iki yerə bölünür:

- təbiətin gözəlliyini olduğu kimi tərənnüm edən lirik

əsərlər;

➢ təbiətin təsvirinə aid olan lirik əsərlər(şairin yaradıcılığı əsasında).

Belə əsərlər şagirdlərdə təbiət gözəlliyinə vurğun olmaq, vətəni sevmək, həm də onlarda sevinc, şadlıq və s. hissləri tərbiyə edir.

Heyvanlar haqqında olan lirik əsərlərin dili şagirdlər başa düşəcək səviyyədə təsvir olunur. Hadisələrin gedişi incə, sadə, konkret fikir, asan, başa düşülən söz və ifadələrə incə, əzizlənmə təsviri yaradır ki, şagird təsəvvürünü obyektə canlı surətdə yaxınlaşdırır. Həm də şagirdin obrazlı təsvirə meylini çoxaldır və obyekt haqqında müstəqil fikir söyləməyi fəallaşdıır.

Vətənpərvərlik təsvirinə aid olan lirik əsərlər oxu dərsliklərində əsas yerlərdən birini tutur. Bu baxımdan vətənpərvərliyə aid olan mövzuları aşağıdakı kimi qruplaşdırmaq olar.

➢ vətənin təbii gözəlliyini, sərvətini və fəsillərini təsvir edən mövzular;

➢ insanların həyat mübarizəsi, uşaqların xoşbəxt həyatını təsvir edən mövzular;

➢ vətənin oğul və qızlarının qəhrəmanlığını təsvir edən mövzular;

➢ vətən uğrunda canlarını qurban verən və xain düşmənlərdən vətəni qoruyan igidlərə aid mövzular və s.

Əməksevərlik mövzusunda olan lirik əsərlər şagirdləri əmək, sənət, peşə tərbiyəsinə istiqamətləndirir.

Təsvir xarakterli lirik əsərlər şagirdlərə yaxın və doğma olduğuna görə onlar bu məzmunda olan şeriləri sevir, tez də qavrayırlar.

Müşahidə əsasında yazılan lirik əsərlər şagirdlərə nə qədər doğmadırsa, bir o qədər də onların nitq inkişafına təsir göstərir.

**İbtidai siniflərin "Azərbaycan dili"** dərsliklərində folklor nümunələrindən də geniş istifadə olunur:

**-nağılların tədrisi** zamanı şagirdlər həm xalqın adət-ənənəsi ilə tanış olur, həm də bu növlü nağıllar onlarda qara qüv-

vələrə, acgözlərə, düşmənə qarşı mübariz olmağı tərbiyə edir;

- **dastanlardan verilmiş** parçalar şagirdlərə vətənə sadiq olmaq, dostluq, yoldaşlıq, mərdlik, qəhrəmanlıq, xalqını sevmək kimi keyfiyyətlər aşılayır;
- **atalar sözü** qısa və lakonik ifadələrlə dərin mənalı fikir söyləməyə, şirin, duzlu danışmağa xidmət edir;
- **tapmacalar** isə şagirdlərdə əşya üzərində düşünmək və onları yaddaşda bərpa etmək hisslərini aşılayır.

Folklor nümunələrinin siniflər üzrə öyrədilməsini aşağıdakı qaydada həyata keçirmək məqsədəuyğun hesab edilir. Dərsliyin tərtibində aşağıdakı məsləhəti nəzərə almaq lazımdır.

Nağıllar-I-II siniflərdə tarix və heyvanlar aləmindən bəhs edən nağıllar;

III sinifdə I-II siniflərdə öyrədilən nağıllara əlavə olaraq, sehirli nağıllar.

IV sinifdə I-III siniflərdə öyrədilən nağıllara əlavə olaraq məişət nağılları tədris olunur.

Dastanlar-I-II siniflərdə dastan motivləri əsasında yazılmış hekayələr, III-IV siniflərdə isə qəhrəmanlıq və ailə, əxlaqi dastanlarından parçaların verilməsi nəzərdə tutulur.

Atalar sözü-I-IV siniflərdə bu janr üzərində yazılı və şifahi iş aparılmalı, belə ki, I-III siniflərdə-ata, ana, böyüklərə hörmət, dostluq, yoldaşlıq, yaxşılıq, birlik, mərdlik, əməksevərlik, vətən, xalq, ailə və s.

IV-sinifdə isə bunlara əlavə olaraq sənət, peşə, təsərrüfat mövzularında atalar sözü seçilib öyrədilir.

Tapmacalar-I sinifdə heyvanlar, təbiət hadisələri, məktəb əşyaları, meyvə, tərəvəz, quşlar;

II sinifdə-I-sinifdə öyrədilənləri nəzərə alınmaqla ağaclar, bəzək və geyim şeyləri həşəratlar, heyvanlardan alınan məhsullar, xörək adları, ev əşyaları və avadanlığı, insanlara aid tapmacalar öyrədilməlidir.

III-IV siniflərdə I-II siniflərdə öyrədilən tapmacalar nəzərə alınaraq;

- musiqi adları, silah adları, texnika, alətlər, qeyri-maddi

aləm haqqında və mücərrəd anlayışları bildirən tapmacaların öyrədilməsi nəzərdə tıtulur.

**Bayatılar, laylalar.** I siniflərdə ailə, vətənə məhəbbət, dostluq və mərdlik bayatıları;

II-III siniflərdə I sinifdə öyrədilən bayatıları nəzərə alaraq, vəsf hallar, zəmanədən narazılıq və şikayət, qəribçilik, ailə bayatıları;

IV sinifdə öyüd-nəsihət, ağılar, oxşamalar, məişətlə bağlı bayatılar və s. öyrədilməsi məsləhətdir.

**Saymacalar**–şagirdlərin nitq bacarıqlarının inkişafı üçün məqsədəuyğundur. Qeyd etmək lazımdır ki, dünya xalqlarının və ayrı-ayrı yazıçılar tərəfindən yazılmış nağılların və ya digər folklor nümunələrinin dərsliklərdə öz əksini tapması şagirdlərin dünyagörüşünün formalaşması üçün tövsiyə olunur.

## Hekayələrin tədrisi metodikası

Hekayədə hadisə müəyyən xətt üzrə, ardıcılıqla inkişaf edir və onun gedişi canlı dillə nağıl edilir. Belə hadisələri şagirdlər asanlıqla izləyə və yadda saxlaya bilirlər. Hekayələrin oxunması düzgün oxu texnikasının inkişafı baxımından da faydalıdır. Bu məqsədlə I-II siniflərdə hekayənin müəllim tərəfindən oxusu çox vacibdir. III-IV siniflərdə buna o qədər də ehtiyac qalmır. Dramatik hadisələrlə zəngin, emosional hekayələri şagirdlər müəllimin ifadəli oxusu nümunəsində daha yaxşı mənimsəyirlər.

Hekayənin məzmunundan, həcmindən və şagirdlərin yaşından asılı olaraq onun öyrənilməsinə həsr olunmuş məşğələlər müxtəlif cür qurulur. Şagirdlər hekayədə hadisələri müəyyən xətt üzrə ardıcıllıqla izləyə və yadda saxlaya bilərlər. Hekayədəki bədii obrazların şagirdlərə dərin təsir bağışlaması üçün müəllim çalışmalıdır ki, şagirdlər hekayədəki hadisənin baş verdiyi şəraiti, qəhrəmanları aydın təsəvvür etsinlər. Şagirdlər hekayədə iştirak edən şəxslərin, xüsusilə qəhrəmanların xarakterik əlamətlərini, xarici görünüşünü müəyyənləşdirməyi bacarmalıdırlar. Hekayə oxunduqdan sonra müəllim hekayədən qəh-

rəmana aid xüsusiyyətləri(sifətləri) bildirən sözləri seçməyi, ona xasiyyətnamə tərtib etməyi tələb edə bilər, lakin əvvəlcə müəllim şagirdlərə hekayəyə sadə xasiyyətnamə tərtib etməyi öyrətməlidir. Xasiyyətnamə çox sadə şəkildə tərtib olunmalıdır.

Məsələn, şagirdlər III sinifdə "Yaxşılığa yaxşılıq" hekayəsini oxuyarkən Tural və Vüsal surətlərini tutuşdururlar. Şagirdlər bildirirlər ki, Tural diqqətli, qayğıkeş, saf ürəkli, mərhəmətli, təbiəti və onun bir parçası olan heyvanları sevən, onları qoruyan, yardım edən oğlandır. Vüsal isə laqeyd, diqqətsiz heyvanları sevməyən(təbiəti sevməyən) və dostuna kömək etməyən oğlandır. Tural yoldaşına nümunə olmağa və onu yaxşı yola dəvət etməyə çalışandır və s. IV siniflərdə bu sahədə iş bir qədər də mürəkkəbləşir. Şagirdlər iştirak edənləri müqayisə etmək, qəhrəmanların hərəkətlərini qiymətləndirməklə yanaşı, onlara münasibət bildirməyə, həm də bunun səbəbini izah etməyə çalışırlar. Bir çox hallarda hekayədəki dialoqa qəhrəmana xasiyyətnamənin verilməsi vasitəsi kimi baxmaq lazımdır.

Hekayənin ifadəli oxuşu–şagirdlərdə əsərdəki obrazlara emosional yanaşmağı, intonasiyaya əməl etməyi, cümlələrdəki sözlərin məna əlaqəsini başa düşməyi, əsərdə təsvir olunanlara səmimiyyət hissini oyadır.

Hekayələrin tədrisi optimal qurulduqda, şagirdlərin bədii oxu və nitq vərdişlərinin inkişafında mühüm rol oynayır; onlarda bədii hiss və duyğunun səviyyəsini yüksəldir.
II sinif "Azərbaycan dili" dərsliyində verilmiş bir neçə hekayənin tədrisinə nəzər salaq.

**"Ağa və nökər"(1 saat)**

| Gözlənilən şagird nailiyyətləri | Məzmun standartı |
|---|---|
| Danışıq prosesində müvafiq jest və mimikalardan istifadə edir. | 1.2.4 |
| Mətndə qarşılaşdığı yeni sözlərdən nitqində istifadə edir. | 2.1.3 |

| İş forması | Üsullar | Resurslar | İnteqrasiya |
|---|---|---|---|
| böyük qrup | əqli hücum, rollu oyun, müzakirə | Maqnitofon, qələm, pozan, marker,yapışqan, qayçı və s. | Mus.:2.1.4 |

**Motivasiya.** Xalq mahnısından bir parça səsləndirilir. Müəllim:

- "Mən arifəm, işarədən qanaram"- ifadəsini necə başa düşürsünüz?

Oyun aparılır. Uşaqlar bir-birinə verəcəkləri hədiyyənin adını him-cimlə izah edirlər. Hədiyyənin adını tapan öz növbəsində başqa birisinə vermək istədiyi hədiyyəni jest və mimika ilə təsvir edir.

**Tədqiqat sualı.** Hansı hallarda işarə etmək, jestlə danışmaq lazım ola bilər?

Mətn oxunur. Təhlil olunur. "Dilarə", "Ağa və nökər" əsərləri müqayisə edilir.

**Nəticə**: Hər hansı bir iradı hamının yanında demək etik qaydalara ziddir.

**Ev tapşırığı:** Dərslik, səh.65, tap.2.

**Qiymətləndirmə**: Oyun və müzakirə əsasında aparılır.

## "İki dost" (2 saat)-1-ci saat

| Gözlənilən şagird nailiyyətləri | Məzmun standartı |
|---|---|
| Mətnlə illüstrasiya arasındakı uyğunsuzluğu aşkarlamaqla mətni diqqətlə oxuduğunu nümayiş etdirir. | 2.2.1 |
| Mətndə rast gəldiyi ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır. | 4.1.5 |

| **İş formaları** | **Üsullar** | **Resurslar** | **F-a inteqrasiya** |
|---|---|---|---|
| böyük qrup | əqli hücum, müzakirə, müşahidə, rollu oyun | iş vərəqləri, qələm, pozan, marker, yapışqan və s. | T.i.:3.1.2 |

**Motivasiya.** Evdə tək olanda qonağı necə qəbul edirsiniz? Fərziyələr dinlənilir.

**Tədqiqat sualı:** Qonaq gedəndə özünüzü necə aparırsınız?

İş dəftərindən mətn oxunur. Hər bənd ayrılıqda təhlil olunur, müzakirə aparılır. İş dəftəri, səh.47, tap.7-8. Şeirlə illüstrasiya arasındakı uyğunsuzluq aşkarlanır.

**Nəticə:** Başqa yerə qonaq gedəndə də, qonaq qəbul edəndə də uşaqlar özlərini yaxşı aparmalıdırlar.

**Ev tapşırığı:** İş dəftəri, səh.47, tap.1-6.

**Qiymətləndirmə:** Müşahidə əsasında aparılır.

### "İki gombul və dovşan"(2 saat) – 1-ci saat

| **Gözlənilən şagird nailiyyətləri** | **Məzmun standartı** |
|---|---|
| Mətni oxuyub əsas fikri anlayır. | 2.2.1 |
| Mətndəki obraz və hadisələr haqqında mühakimə yürüdür. | 1.2.1 |

| **İş forması** | **Üsullar** | **Resurslar** | **F-a inteqrasiya** |
|---|---|---|---|
| böyük qrup | əqli hücum, müzakirə | Şəkil, rəngli flamasterlər, qələm, pozan və s. | H-b.: 2.3.4 |

**Motivasiya.** Qarışqa zəhmət çəkir, zülmlə özündən on dəfə ağır yükü yuvasına daşıyır. Yuvasına az qalmış bir sərçə onun dənini aparır. Sərçə pırıltı ilə uçanda bir budağa dəyib zədələnir.

Köməkçi sual: Bu hekayədə kimə yazığınız gəlir?

**Tədqiqat sualı:** "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş" misalı nə zaman söylənilir?

**Tədqiqatın aparılması:** Dərsliklə iş. İş dəftəri, səh. 140-141

**Nəticə:** Başqasının əməyini mənimsəmək istəyən müftə-xorlara heç kimin yazığı gəlmir.

**Ev tapşırığı:** Zəhmət və müftəxorluq haqqında atalar sözü tapıb yazın.

**Qiymətləndirmə:** Müzakirəyə əsasən aparılır.

**"Dostlar səfərdə" ( 1 saat)**

| **Gözlənilən şagird nailiyyətləri** | **Məzmun standartı** |
|---|---|
| Verilmiş atalar sözlərindən mətnin məzmununa uyğun olanı seçməklə əsas fikri anladığını nümayiş etdirir. | 2.2.4 |
| Mətndəki obraz və hadisələr haqqında mühakimə yürüdür. | 1.2.1 |

| **İş forması** | **Üsullar** | **Resurslar** | **F-a inteqrasiya** |
|---|---|---|---|
| Böyük və kiçik qruplar | əqli hücum, diskussiya, müzakirə | iş vərəqləri, qələm, pozan, marker, yapışqan və s. | H-b.:2.1.2 |

Motivasiya. Atalar sözü var: Dostunu tanımaq üçün yola çıxmaq lazımdır.

Bu atalar sözünü necə başa düşürsünüz?

**Tədqiqat sualı:** Dost necə olmalıdır?

Fərziyələr dinlənilir.

**Dərsliklə iş:** Mətn dörd hissəyə bölünür. Hər qrup bir hissəni oxuyub təhlil edir. Həmin hissəyə şəkil də çəkilir.

Qruplar mətnin ardıcıllığına uyğun tədqiqat aparırlar. Mətnin sonundakı suallar cavablandırılır.

**Nəticə:** Dost etibarlı, sadiq olmalı, həm yaxşı, həm də dar gündə dəstək olmalıdır.

**Ev tapşırığı:** Dostluq haqqında atalar sözləri tapıb yazın.

**Qiymətləndirmə:** Təqdimatlara əsasən aparılır.

## Nağılların tədrisi metodikası

Nağıllar quruluşuna görə hekayələrə yaxındır. Hekayədə olduğu kimi nağıllarda da ideya, iştirak edən şəxslər vardır. Hər xalqın tarixi nağıllarda öz obrazlı əksini tapıb. Nağıllar hər bir xalqın dünya görüşünü, həyata münasibətini, zülmə qarşı mübarizəsini, gələcək üçün arzularını və inamını əks etdirən şifahi xalq ədəbiyyatının çox qədim və geniş yayılmış növlərindəndir, lakin nağıllarda reallıqdan uzaq həyata uyğun olmayan gəlməyən, fantastik hadisələr, əşyalar vardır.

Nağıllar uşağın sirli-sehrli qəlbinə yol tapa bilən yaxın dostu, onun fərəhli hisslərinin mənbəyidir. Nağıllardan istifadə uşaqların dünyagörüşünü genişləndirir, təfəkkürünü inkişaf etdirir, yaddaşını gücləndirir. Nağılların oxusu şagirdlərin təxəyyülünü inkişaf etdirir. Çünki, nağıllarda hadisələr əyləncəli şəkildə kompozisiya, parlaq obrazlarla verilir. Nağılların dili sadə, zəngin və obrazlı ifadələrlə verilir ki, bu da şagirdlərin nitqini inkişaf etdirir. Nağılda başlanğıc və sonluq təkrar olunur. Nağıllarda hadisələr dramatik, personajlar canlı verilir. Nağıllarda hadisələrin bu cür verilməsi uşaqları xarici aləmi obrazlı görməyə alışdırır, onların yaradıcı marağını inkişaf etdirir.

Şagirdlərə xalq dilinin nüfuzedici gücü vasitəsilə təqdim edilən, söylənilən nağıl onların nitqinin zəngin, səlis və obrazlı olmasına imkan yaratmaqla, təfəkkürünü inkişaf etdirir.

Kiçik yaşlı məktəblilərlə aparılan tərbiyə işlərində nağıllardan-bu böyük sərvətdən səmərəli istifadə etmək olduqca faydalıdır. Biz nağıllar vasitəsi ilə babalarımızın məişəti, adət və ənənəsi, istifadə etdikləri əmək alətləri, geyimləri, qab-qacaqı, oyuncaqları və oyunları ilə tanış oluruq.

Nağıllar şagirdlərin təfəkkürünü, təxəyyülünü, dünyagörüşünü, yaddaşını genişləndirir, əməksevərlik, düzlük, doğruçuluq, yoldaşlıq, dostluq, doğmalara məhəbbət, xeyirxah insanlara hörmət hissini artırır, lüğət ehtiyatını zənginləşdirir, nitqini inkişaf etdirir.

Eyni zamanda nağıllar rabitəli nitqi inkişaf etdirir, bədii təxəyyülün, fantaziyanın genişlənməsinə əhəmiyyətli dərəcədə kömək edir.

Kiçikyaşlı məktəblilərin nitqinin inkişaf etdirilməsində nağılların geniş imkanları vardır. Nağılların bu cəhətinə görə ibtidai siniflərdə ondan geniş istifadə edilir. Nağıllar uşaqların təfəkkürünün və nitqinin inkişafına güclü təsir göstərərək, onları düşünməyə, fakt və hadisələri tutuşdurmağa, fərqli və oxşar cəhətlərini müəyyənləşdirməyə istiqamətləndirir.

Kiçikyaşlı uşaqların nitq inkişafı, düzgün danışıq və tələffüz vərdişlərinə yiyələnmələri, söz ehtiyatının artması vacib məsələ kimi hər bir müəllimi və valideyni düşündürür. Böyüklərin uşaqlar üçün yaratdıqları nağıllar böyük təbiyəvi əhəmiyyəti ilə seçilərək, uşaqlarda ədəbiyyata həvəs oyadır, onların bədii zövqünü oxşayır.

Belə ki, uşaq psixologiyasını, onun daxili aləmini, gələcək tərbiyə yollarını xalq qədər doğru, dürüst müəyyənləşdirməyi bacaran ikinci bir təsirli qüvvə tapmaq çətindir. Nağıllar uşaqların təfəkkürünün inkişafına təsir göstərməklə, yaradıcı fantaziyanı inkişaf etdirir. Uşaqlar özlərini nağıl qəhrəmanına bənzədir, yaranan “çətinliklərin” aradan qaldırılması yollarını fikir-

ləşir və öz planlarını söyləməklə yaradıcılıqlarını inkişaf etdirmiş olurlar.

Eyni zamanda nağıllardakı oyun-nəğmələr də uşaqların məntiqi təfəkkürünü, bədii zövqünü və rabitəli nitqini inkişaf etdirir, onları kitab oxumağa həvəsləndirir. Kiçikyaşlı məktəblilərin mütaliəsində nağıllar mühüm yer tutur. İbtidai siniflərdə xalq nağılları ilə yanaşı, yazıçılar tərəfindən yazılmış nağıllara da geniş yer verilir. İbtidai sinif "Azərbaycan dili" dərsliyində bu janra kifayət qədər yer ayrılmışdır. Nağılı maraqlı edən cəhətlərdən ən mühümü onun təhkiyə formasında qurulmasıdır. Nağılın əhəmiyyətini, uşaqların tərbiyəsində oynadığı rolu heç nə ilə əvəz etmək olmaz. Nağıllar vasitəsi ilə şagirdlər müsbət əxlaqi-mənəvi keyfiyyətlərə yiyələnirlər. Savad təlimindən sonrakı dövrdə oxu vərdişlərinin inkişaf etdirilməsi baxımından nağılların oxusu vacib sayılır.

Nağılların oxusunda diqqətdə olan məsələlər:

- nağıllar şifahi nitqə əsaslanır;
- nağıl nağıletmə üçün nəzərdə tutulmuşdur;
- nağılların özünəməxsus dil xüsusiyyətləri vardır;
- nağılların oxusunda səhnələşdirmə elementlərindən istifadə maraq doğurur;
- nağıllarda oxunun necə aparılması vacib şərtdir;
- nağılın ifadəli oxusu keyfiyyətli oxunun açarıdır;
- nağıletmə və oxu zamanı dinləyici ilə sıx ünsiyyət zəruridir.

Nağıllar oxunarkən müəllim aşağıdakıları nəzərə almalıdır:

- Nağıllar üzərində iş real hadisələrin təsvir olunduğu hekayələrlə iş kimi aparılmalıdır. Nağıllarda əfsanələrin, insanların arzu və istəklərinin öz əksini əfsanə, fantastika şəklində tapması şagirdlərə çatdırılmalıdır. Heyvanların, quşların insanla danışa bilməsi, divin, əjdahanın olması nağılın maraqlı cəhətlərindən biri kimi təqdim olunmalıdır.

- Nağıllarda bir çox əfsanələrin indi həqiqətə çevrilməşi, sehirli güzgünün televizor, uçan xalçanın təyyarə və s. olması şagirdlərin nəzərinə çatdırılır.
- Nağıllardakı qəhrəmanların xarakter əlamətlərini müəyyənləşdirmək məqsədi ilə açıq suallardan istifadə edilməlidir. Məsələn, "Nə üçün ögey ana göyçək Fatmaya zülm edir?" Bu suala cavab verərkən şagirdlər müxtəlif fərziyyələr söyləyirlər. "Ögey anadır". "Paxıldır". "Ayrı seçkilik edir". "Öz qızının xoşbəxt olmasına, Fatmanın isə bədbəxtliyinə çalışır". Şagirdlər ögey ananı mənfi obraz kimi qiymətləndirirlər.
- Nağılların didaktik təsiri çox güclüdür. Nağıllardakı insan xarakterləri, qarşılıqlı münasibətlər o qədər aydın təsvir olunur ki, onları açmağa ehtiyac yoxdur, şagirdlərin özləri nəticə çıxara bilirlər.
- Nağıllar nağıl etmək üçün yaranmışdır. Bu, onların xarakter cəhətidir. Nağılların həm kompozisiyası, həm də dili mətnə yaxın şəkildə nağıletməni təmin edir. Müəllim və ya aktyorun ifasında nəql edilmiş mətnin fonoxrestomatiyası şagirdlərə güclü təsir göstərir. Seriya şəkillər üzrə nağıletmə, nağıla sözlərlə şəkil çəkmə, rollar üzrə nağıletmə məzmunun yaxşı mənimsənilməsini təmin etməklə yanaşı, şagirdlərin nitqini və yaradıcı qabiliyyətini də inkişaf etdirir.
- Planın tərtib edilməsi də nağıletmənin gedişindən asılı olur. Əgər şagirdlər mətnin şəkilli planını tuturlarsa, bu, o qədər də çətinlik törətmir.
- Bəzən nağıllardakı personajlar (simurq quşu, div, əjdaha, uçan at və s.) haqqında şagirdlərin təsəvvürlərini canlandırmaq üçün müvafiq müqəvva, maska, model və s. göstərmək, gördükləri canlılarla müqayisə etmək lazım gəlir.

Nağılların ifadəli oxuşu-şagirdin canlı danışığı üçün zəruri vasitədir. Nağılın məzmunundakı hadisənin müxtəlifliyi şagird oxusunda özünü göstərir. Məsələn, heyvan eposunda olan nağıl-

lar şagirdin avazla oxusunu, sözlərin ifadəsində vurğunun müxtəlif növlərindən istifadə etməyi zəruri edir. Sehrili nağıllar şağirdlərin səs, oxu dinamikasını dəyişir, intonasiyanı səciyyələndirir və s.

## Oxu dərslərində nağıllar üzrə işin təşkili

Oxu dərslərinin təşkili və nağılların tədrisi fəal təlimlə sıx bağlıdır. Odur ki, fəal təlimlə qurulmuş dərsin mərhələlərini nəzərdən keçirmək yaxşı olardı:

I.Motivasiya. Problemin qoyulması
II.Tədqiqatın aparılması
III.Məlumat mübadiləsi
IV.Məlumatın müzakirəsi
V.Ümumiləşdirmə və nəticələrin çıxarılması
VI.Yaradıcı tətbiqetmə(ev tapşırığı)
VII.Qiymətləndirmə.

İndi isə fəal/interaktiv təlimlə "Yalançı çoban" nagılının tədrisinə həsr olunmuş dərs nümunəsinə diqqət yetirək.

**"Yalançı çoban" (2 saat)-1-ci saat**

| Gözlənilən şagird nailiyyətləri | Məzmun standartı |
|---|---|
| Mətni düzgün və şüurlu oxuyur. | 2.2.4 |
| Mətndəki əsas fikrə münasibətini bildirir. | 1.2.3 |

| İş forması | Üsullar | Resurslar | İnteqrasiya |
|---|---|---|---|
| böyük qrupda iş | beyin həmləsi, müzakirə, suallar | Şəkillər, iş vərəqləri, flamaster, marker, qələm, pozan və s. | H-b.:3.2.1 |

**Motivasiya.** Yalanın və yalançılığın nəticəsi nə ola bilər? (dostu olmaz, heç kəs ona inanmaz, sözünü sayan, dinləyən olmaz, hörməti olmaz)

**Dərsliklə iş:** Mətn (15, 174-175) abzas-abzas oxunur.

I abzas:

Ucqar dağ kəndlərinin birində bir çoban yaşayırdı. O, hər səhər kənd camaatının qoyun-quzusunu yığıb otarmağa aparar, bütün gününü qoyunlarla keçirərdi.

M:-Çoban harada yaşayırdı?

-O, nə işlə məşğul olurdu?

II abzas:

Bir gün çoban həmişəki kimi sürünü otarırdı. O, çox darıxırdı. Ətrafda kəlmə kəsməyə bir adam yox, qoyunların da dili yox idi ki, onlarla söhbət etsin. Axırda çoban qərara gəldi ki, kənd camaatı ilə zarafat etsin. O, kəndin yaxınlığındakı təpənin üstünə çıxıb vargücü ilə qışqırdı:

-Ay camaat, köməyə gəlin. Sürüyə canavar girib.

M:- Bir gün çoban nə qərara gəldi? Çobanın kəndliləri aldatmağının səbəbi nə idi?

III abzas:

Kəndlilər onun səsini eşitdilər. Kimisi əlinə yaba, kimisi balta alıb otlağa tərəf qaçdı. Çoban çomağını əlinə alıb "Aldatdım, aldatdım" – deyə-deyə oynamağa başladı.

M: - Kəndlilər nə etdilər?

- Çoban onlara nə dedi?

IV abzas:

Adamlar başlarını bulayıb narazı halda kəndə qayıtdılar. Aradan bir neçə gün keçdi. Bir gün axşamüstü yenə təpənin başından çobanın səsi gəldi:

-Ay aman, imdad! Canavar qoyunu apardı!

M:-Bir neçə gün sonra nə hadisə baş verdi?

V abzas:

Adamlar yenə də əllərinə keçəni götürüb təpənin o tayına qaçdılar. Çoban yenə də gülə-gülə onları lağa qoydu.

M: - Kəndlilər nə etdilər?

- Çobanın cavabı necə oldu?
- Çobanın zarafatı kəndlilərin xoşuna gəldimi?

VI abzas:

Bir müddət də keçdi. Günlərin bir günü çoban qoyunları otardığı yerdə meşədən üç canavar çıxıb sürüyə hücum etdi. Başladılar əllərinə keçən qoyunu parçalamağa. Çoban gördü ki, canavarlarla bacarmayacaq, kəndə tərəf qaçıb qışqırmağa başladı:

- Ay camaat, qoymayın! Sürüyə canavar daraşıb!

M: - Bir müddətdən sonra nə hadisə baş verdi?

- Çoban nə etdi? O, yenə də zarafat edirdi?

VII abzas:

Həyət-bacada öz işləri ilə məşğul olan kənd adamları başlarını qaldırıb səs gələn tərəfə baxdılar. Ancaq heç kim yerindən tərpənmədi. Onlar artıq çobana inanmırdılar. Beləcə, canavarlar sürünün axırına çıxdılar.

M: - Kəndlilər köməyə gəldilərmi?

- Niyə kəndlilər çobana kömək etmədilər? Onlar çobana niyə inanmadılar?
- Çobanın yalan danışmağının nəticəsi nə oldu?

**Nəticə**: Yalan danışan adama heç kəs inanmaz.

**Ev tapşırığı**: Mətndə cəm halında işlənən sözləri seçib yazın.

**Qiymətləndirmə**: Müzakirə və təhlilə əsasən aparılır.

**“Yalançı çoban” (2 saat)-2-ci saat**

| Gözlənilən şagird nailiyyətləri | Məzmun standartı |
|---|---|
| Verilmiş atalar sözlərindən mətnin məzmununa uyğun olanı seçməklə əsas fikrə öz münasibətini bildirir. | 2.1.1 |
| Oxuduğu mətnin məzmununu real həyatda gördükləri ilə əlaqələndirib danışır. | 1.2.1 |

| İş forması | Üsullar | Resurslar | İinteqrasiya |
|---|---|---|---|
| Kiçik qruplar | əqli hücum, müzakirə, debat | Şəkillər, iş vərəqləri, flamaster, marker, qələm, pozan və s. | H-b.: 3.2.1 |

**Motivasiya.** Cümlədə buraxılmış söz hansıdır?

Yardımçı sualı: Yalanınızın üstü açılanda hansı hisslər keçirirsiniz?

**Tədqiqat sualı:** Yalan danışmaq nə üçün yaxşı deyil?

**Tədqiqatın aparılması:** Qruplarla iş.

**I qrup.** "Yalançı çoban" nağılının məzmununu ifadə edən atalar sözü hansıdır? Seçiminizi izah edin.

1. Yalan ayaq tutar, yeriməz.
2. Yalançını evinə qədər qovarlar.
3. Yalançının evi yandı, heç kəs ona inanmadı.

**II qrup.** Əgər çoban kəndlilərlə belə zarafat etməsəydi, yalan danışmasaydı, nağılın sonu necə olardı?

**III qrup.** Yalan danışmaq nələrə səbəb ola bilər?

**IV qrup.** Siz evdə ehtiyatsızlıq edib qabı sındırsaydınız, nə edərdiniz?

Nəzərə alın ki, otaqda sizdən və hələ danışmayan 1 yaşlı qardaşınızdan başqa heç kəs olmayıb.

a) Ananıza qabı qardaşınızın sındırdığını deyərdiniz. O, bunu inkar edə bilmir. Balaca olduğu üçün ana onu tənbeh etmir. Beləliklə, siz də cəzadan canınızı qurtarırsınız, qardaşınıza da heç nə olmur.

b) Günahınızı boynunuza alırsınız. Ana diqqətsizliyə görə sizi danlayır, cəzalandırır.

Seçiminizi əsaslandırın.

**Məlumat mübadiləsi və müzakirəsi.** Qruplar öz işlərini təqdim edirlər. Qruplar bir-birinin işinə münasibət bildirirlər.

**Nəticə:** Şirin yalandan acı həqiqət yaxşıdır. Hər işdə, hər sözdə, hər yerdə düz olmaq lazımdır.

**Ev tapşırığı:** Dərslik, tap.3-4(s. 175).

**Qiymətləndirmə:** Təqdimata əsasən aparılır.

## Ədəbiyyat


1. Azərbaycan nağılları: 5 cilddə. V cild/Xalq variantı əsasında çapa hazırlayanlar A.Nəbiyev, O.Hüseynli. Bakı: Turan evi, 2006, 272 s.
2. Афанасьев А.Н. Древо жизни. Москва: Современник, 1982, 464 с.
3. Эфендиева А.А. Азербайджанские народные сказки, опубликованные на русском языке в XIX – начале XX веков (вопросы собирания, перевода и издания): Диссертация на соискание ученой степени кандидата филологических наук. Баку, 1997, 160 с.
4. Эфендиев П.Ш. История азербайджанской фольклористики: Автореферат на соискание ученой степени доктора филологических наук. Баку, 1973, 118 с.
5. İsmayılov R., Abdullayeva S., Orucova G., Cəfərova D. Azərbaycan dili. (1-ci sinif üçün dərslk). Bakı: Altun Kitab, 2012, 160s.
6. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. Azərbaycan dili (2-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2009, 208 s.
7. İsmayılov R., Orucova G., Cəfərova D., Xəlilov Z. Azərbaycan dili (3-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2010, 207 s.
8. İsmayılov R., Abdullayeva S., Orucova G., Qasımova X. Azərbaycan dili. (4-cü sinif üçün dərslk). Bakı: Altun Kitab, 2015, 223 s.
9. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.
10. Мелетинский Е.М. Герой волшебной сказки. Москва: Издательство восточной литературы, 1958, 263 с.

11. Nəbiyev A.M. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı: Elm, 2006, 648 s.
12. Nəbiyev A.M. Sehrdən yaranan qüdrət. // Azərbaycan nağılları: 5 cilddə. II cild. Bakı: Turan, 2001, 320 s., s.3-9
13. Nəbiyeva Ş.Ana dili tədrisi metodikasının aktual problemləri. Bakı, 2010
14. Пропп В.Я. Исторические корни волшебной сказки. Ленинград: Издательство ЛГУ, 1986, 365 с.
15. Ümumtəhsil Məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, 2008, 476 s.
16. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)// Kurikulum, 2010, №3, s. 16-130
17. http://anl.az/down/meqale/palitra/2014/iyul/382472.htm

## Seirlərin tədrisi metodikası

Hər bir şeir parçasının öz xüsusiyyətləri vardır. Onları nəsrdən fərqləndirən cəhət ahəngdarlıqdır. Bu anlayışa ölçü (vəzn), qafiyə, misradaxili bölgü daxildir. Onlar müəyyən ahəngin yaranmasında mühüm rol oynayırlar. Müəllim oxu zamanı hər bir şeir parçasının forma xüsusiyyətlərinə diqqət yetirməli, dərsliklərə daxil edilmiş şeirlərin növlərinə, onlardakı hecaların sayına, misraların bölgülərinə, qafiyələnmə formalarına praktik olaraq bələd olmalı, onları düzgün, ifadəli oxumağı öyrənməlidir.

"Azərbaycan dili" dərsliklərində 7-lik, 8-lik, 5-lik və 14-lük şer formalarına rast gəlmək olur. Buna görə də müəllim bayatı, qoşma, gəraylı kimi şeir formalarının bütün xüsusiyyətlərini gözəl bilməlidir. Misradaxili bölümlərin, qafiyələrin misra sonu fasilələrin düzgün edilməsi vacib şərtlərdəndir. Misrasonu fasilələr adətən bir bərabərdə olmalıdır. Oxu zamanı qafiyələr aydın tələffüz edilməlidir. Qafiyələrin, rədiflərin şagirdlər tərəfindən düzgün oxunması şeiri şeir kimi səsləndirir. Şagirdləri düzgün, ifadəli oxuya alışdırmaq üçün bəzi şeirlərin ilk bəndlərini lövhədə yazıb, qafiyələri xətlə fərqləndirməklə

yazı-oxu nümunəsi verdikdən sonra ardını kitabdan oxutmaq lazımdır. Şeiri oxuyarkən qəliblənmiş formadan uzaqlaşıb ifadəli oxuya yer verilməlidir.

Şagirdlərin hafizəsini möhkəmləndirmək, nitqini inkişaf etdirmək, dünyagörüşünü genişləndirmək, estetik zövqünü tərbiyə etmək baxımından şeirlər müstəsna rola malikdir. Şeirin ölçüləri, heca, vəzn ritm və s. ucadan, ifadəli oxu prosesində daha aydın, dəqiq qavranılır.

Ey Vətən, ana Vətən!
Heyranam sənə Vətən!
Dupduru göllərin var,
Yamyaşıl çöllərin var.

(Ə. Cəmil. Vətən. II sinif, s. 22).

Y a x u d:

Qayada bir şəkil var,
Yallı gedir adamlar.
Nələr düşür gör yada:
Ən çətin zamanda da
İnsan gülüb-oynamış,
Canda müsiqi eşqi
Qayıq-qayıq qaynamış.

(X.Rza Ulutürk. "Yallı rəqsi" rəqsi. III sinif, səh.192).

Y a x u d:

Qalsan belə susuz, ac
Yavan çörəyə möhtac
Ağız açma namərdə!
Ürəyində dərd yaşa:

Sən insansan! Əyilmə!
Yoxsul yaşa, mərd yaşa!

X.Rza Ulutürk, "Əyilmə"

Şeir oxumağın sirlərini şagirdlərə başa salmaq üçün müəllim ifadəli oxu nümunəsi verməlidir. Bu prosesi yalnız yamsılama kimi başa düşmək səhv olardı. Müəllim öz nümunəsi ilə şagirdləri özü kimi oxumağa deyil, oxu prosesində fasiləni,

sürəti, məntiqi vurğunu, intonasiyanı gözləməyə dəvət edir. Bunun üçün isə müəllimin özü şeiri ifadəli oxumağa ciddi hazırlaşmalı, onun əsas ideyasını tonunu, sürətini, ritmini müəyyənləşdirməli və məşq etməlidir. Əgər müəllim çətinlik çəkirsə, söz ustalarının, aktyorların ifasında şerilərin oxunma qaydasını şagirdlərə çatdırmalıdır. Şagirdlərdə şeirin oxusuna şüurlu münasibət yaranarsa, onlar düzgün oxumağa alışarlar. Şagirdlər şeirin məzmununa uyğun sözlə "şəkil çəkməyi" bacarmalıdırlar. Şeirlərin oxusunda bütöv oxudan, həmçinin şeiri bənd-bənd paylayıb oxutmaqdan da istifadə etmək mümkündür.

**Ədəbiyyat**


1.Abdullayev N. Ədəbi tələffüz təliminin metodikası. Bakı, Maarif, 1986, 160 s.

2.Əsgərov M. Bədii qiraət. Bakı: APİ, 1973, 77 s.

3.Həşimov Ə. Müdriklik çeşməsi//Azərbaycan məktəbi, 1994, № 1-4

4.Hacıyev A. Orta məktəbdə lirik şeirlərin tədrisi. Bakı, Maarif, 1982, 84 s.

5.Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 404 s.

6.Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.

7.Капацинская Е.В. Определение выразительности и способы ее усиления // Проблемы экспрессивной стилистики. - Ростов н / Д, 1987

8.Мальцев В.А. Введение в лингвистическую поетику. Минск , 1974

9.Rəfili M. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı, APİ nəşriyyatı, 1958

10. Rəhimov A.N. İbtidai siniflərdə ifadəli oxunun təşkili. Bakı,1982, 125 s.

11. Tağıyev B. Oxu təlimi. Bakı:ADPU, 315 s.

12. Yusifov F. İfadəli oxu.Bakı: ADPU, 2006,111s

13. Пропп В.Я. Фольклор и действительность. Москва: Главная редакция восточной литера- туры, 1976

## Təmsillərin tədrisi metodikası

Təmsil uşaqları çox maraqlandıran janrlardan biridir. Təmsillər nəzm və nəsr şəklində yazılan kiçik həcmli hekayələrdir. Təmsillərdə təsvir olunan hadisə və əhvalatlarda, əsasən, heyvan, quş və bitkilər iştirak edirlər. Onları yazıçı insan kimi canlandırır, danışdırır, kimə isə rəğbət bəsləyir, kimi isə ifşa edir. Hiyləgər və acgözləri tənqid atəşinə tutur, igidləri düşmənlərə qarşı mübarizəyə çağırır. Epik növün ibtidai formalarından biri olan təmsil hələ qədim yunan ədəbiyyatında (Romada Fadr, Yunanıstanda Ezop (e.ə.VI-V əsrlər) mövcud idi. Hindistanda təmsillər toplusu "Pançatantra"(III əsr) məlumdur. Yeni dövrün ən məşhur təmsil yazanlarından biri fransız şairi Jan Lafonten (XVII əsr) olmuşdur. Rusiyada təmsil janrının kulminasiyası İ.A.Krılovun yaradıcılığı hesab olunur.

Azərbaycan ədəbiyyatında təmsilin ilk nümunələrinə N.Gəncəvinin "Sirlər xəzinəsi" əsərində rast gəlinir. A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, Abbas Səhhət, Abdulla Şaiq kimi şairlərimizin təmsilləri məşhurdur.

Təmsillər məzmununa görə iki yerə bölünür:

**1.** Alleqorik əsərlər.

**2.** Təmsillər.

**1.** Alleqorik əsərlər - fikir və əhvalatlar konkret olaraq bir əşya tərəfindən söylənilir.

**2.** Təmsillərdə - fikir və əhvalatlar “oxşama, bənzətmə, əvəzetmə” və s. kimi təsvirlə verilir. Təmsillər satirik, gülüş və nəsihətamiz məzmunda yazılır.

Təmsillərin əsasında alleqoriya durur. Təmsil yazanlar heyvan, quş, həşərat, bitki və başqa əşyaların obrazlarında insanların tipik mənfi xasiyyətlərinə(yalançılıq, oğurluq, acgözlük, qorxaqlıq və s.) gülür, öyüd-nəsihət verirlər. Bütün bunlar müəllimdən aktyorluq məharəti tələb edir.

Epik növə daxil olan bu əsərlərin öz quruluş xüsusiyyətləri vardır. Burada insanlara məxsus keyfiyyətlər cansız varlıqlar üzərinə köçürülür. Adətən, nəzmlə yazılır və üç hissədən ibarət olur. Giriş, əsas hadisə, nəticə. Təmsillər öyüd, nəsihət xarakterli olur və tərbiyəvi, hikmətli fikirlər əsas hadisələrdən ya əvvəl, ya da sonra verilir. Deməli, oxu prosesində onun bu keyfiyyətinə diqqət yetirilməli, səhnələşdirmə ünsüründən istifadə etməklə ifadəli oxunu həyata keçirmək lazımdır.

Təmsillərin dili sadə, zəngin və rəngarəngdir. Təmsillərin oxu xüsusiyyətlərinə nəzər salsaq, onun oxusu kiçik bir pyesin oxusunu xatırladır. Oxu zamanı təmsilin dili üzərində iş aparmaq lazımdır. Məsələn, A.Səhhətin "Ayı və şir" təmsilində tülkünün hiyləgərliyindən söz aşılır.

Əlbir olub bir ayı bir şir ilə,
Ovladılar dovşanı tədbir ilə.
Olmadılar razı onu bölməyə,
Çıxdı iş axır ölüb öldürməyə,
Çeynədilər, dişlədilər, diddilər,
Bir-birini al qana qərq etdilər.
Özlərini taqətdən saldılar,
Hər biri bir səmtə düşüb qaldılar.
Tülkü uzaqdan görüb bu haləti,
Bildi ki, yox heç birinin taqəti.
Gəldi götürdü ovu, etdi fərar,
Həsrət ilə baxdı dalınca onlar.

Şagirdlər tülkünün nə qədər hiyləgər olduğunu yəqin edirlər. Məlumdur ki, ayının və şirin taqəti olsaydı tülkü qorxudan o ətrafa getməzdi. Əks təqdirdə tülkü ayı və şirin əlinə keçsə idi onu parçalayardılar. Lakin ayı və şirin taqətdən düşdüyünü görən tülkü ovu götürüb qaçır.

Təmsil üçün xarakterik cəhət odur ki, müəllifin özü təmsilin axırında nəticə verir. Məsələn, Seyid Əzim Şirvaninin "Qarğa və tülkü" təmsilində yaltaq deyil, yaltağa inanan mühakimə edilir. Şagirdlərdə gülünc vəziyyətə düşən qarğaya qarşı təəssüf hissi yaranır.

Olmasaydı cahanda sarsaqlar,
Ac qalardı, yəqin ki, yaltaqlar.

Alleqoriya və təmsillər janr, məzmun və ideya baxımından tərbiyəvi məqsəd daşıyır. Buna görə də I-IV siniflərdə alleqorik əsərlərin və təmsillərin paralel öyrədilməsi məqsədə müvafiq sayılır.

Təmsillərin oxu xüsusiyyətlərinə və intonasiyaya düzgün əməl olunması şagirdlərin nitq və təfəkkürünün inkişafında mühüm rol oynayır. Təmsillərdə işlənən ifadələrin “gizli” mənaları və izahı, bu mənaların verilmə tərzi kiçik məktəblilərin nitq bacarıqlarının inkişafında öz əksini tapır.

Təmsillərin tədrisinə dair dərs nümunəsi(II sinif ).

**Standart:**1.1.2.Dinlədiyi fikirlə bağlı münasibətini əsaslandırır.

2.2.1.Müvafiq mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur.

2.2.2. Bədii mətnləri janrlara görə(şeir, hekayə, təmsil, nağıl) fərqləndirir.

2.2.4. Mətndəki əsas fikrə münasibətini bildirir

**Mövzu:** “Əqrəb və qurbağa”

**Təlim nəticəsi:**1“Əqrəb və qurbağa” mətni ilə bağlı münasibətini əsaslandırır.

2. “Əqrəb və qurbağa” təmsilini müəyyən olunmuş tələblərə uyğun düzgün oxuyur.

3. “Əqrəb və qurbağa” təmsilini janrlara görə(şeir, hekayə, təmsil, nağıl) fərqləndirir.

4. Təmsildəki əsas fikrə münasibətini bildirir.

**İnteqrasiya: H-b.:** 2.1.2; 3.1.2; X-d.:2.2.2.

**İs üsulu:** anlayışın çıxarılması, beyin həmləsi, müzakirə, debat

**İş forması:** böyük və kiçik qruplarla iş

**Resurslar:** vatman, şəkillər, slayd, rəngli flamasterlər, qayçı, yapışqan.

**Dərsin gedişi**

**Motivasiya. Problemin qoyuluşu.**

Lövhədən anlayışın çıxarılması üsulunda hazırlanmış vatman

asılır, bundan əlavə şəkillər tədim olunur (ağac əkən və budağı sındıran oğlan, kitab oxuyan və kitabı cıran məktəbli, saçlarını darayan və saçları daranmamış qız).
Müəllim suallarla şagirdlərə müraciət edir.
-Şəkildə gördükləriniz haqqında nə deyə bilərsiniz? (fərziyyələr dinlənilir).




-Sual işarəsinin arxasında hansı söz gizlənib?(adət, vərdiş).
-Niyə yaxşı və pis adlandırırıq?(xeyirli və ziyanlı olmasına görə).
-Yaxşı adətlər hansılardır?(...)
-Pis adətlər hansılardır?(...)

**Tədqiqat sualı: Adətlər haqqında nə bilirsiniz?**

**Tədqiqatın aparılması:** Əvvəlcə, böyük qrupla iş aparılır. “Əqrəb və qurbağa” təmsili (“Azərbaycan dili”, II sinif, s.125) şagirdlər tərəfindən hissə-hissə oxunur. Müəllim oxunun düzgünlüyünə fikir verir, nöqsanları düzəldir. Əsərin janrı haqqında müsahibə aparır. Sonra fəsillərə uyğun bölgü aparmaqla qruplar yaradılır. Hər qrupa iş vərəqi təqdim edilir və vaxt elan olunur (məsələn, qrup işiərinin yerinə yetirilməsinə 10 dəqiqə vaxt

verilir).

**İş vərəqi 1**

1.Təmsili oxuyun. Kimin haqlı olduğunu müəyyənləşdirin və fikirlərinizi əsaslandırın.

2. Təmsilin məzmununa uyğun atalar sözü tapın.

**İş vərəqi 2**

1.“Dost dosta tən gərək, tən olmasa gen gərək” atalar sözünün bu təmsilə uyğunluğu varmı? Fikrinizi əsaslandırın.

2. Təmsili daha nə cür qurmaq olar? Öz mətninizi söyləyin.

**İş vərəqi 3**

1.Adət sözünü hansı sözlə əvəz etmək olar? Yaxşı və pis bildiyiniz adətlərdən danışın.

Xalqımıza xas olan adətlərdən danışın və münasibət bildirin: hansı yaxşıdır, hansı pis (xonça bəzəmək, tonqal qalamaq).

**İş vərəqi 4**

1.Əqrəb sözünü iki mənada işlədin. Əqrəb və qurbağa haqqında bildiklərinizi danışın.

2. Təmsildəki hadisələrə münasibət bildirin.

**Məlumat mübadiləsi:** Qruplar öz işlərini təqdim edirlər.

**Məlumatın müzakirəsi:** Qruplar bir-birinin işinə münasibət bildirirlər.

**Ümumiləşdirmə və nəticə:** “Əqrəb və qurbağa” təmsilində yaxşılıqa qarşı pislik edən insanların xarakteri açılır. Belə ki, yaxşı və pis adətlər vardır. Yaxşı adətlər xeyirxahlıq doğurur. Pislik ziyan dətirir, odur ki, pis adətlərdən uzaqlaşmaq lazımdır.

**Yaradıcı tətbiqetm (və ya ev tapşırığı):** Adətlər haqqında danışın.

**Qiymətləndirmə:** Meyar cədvəli əsasında aparılır.

| meyarlar / qruplar | I Qrup | II Qrup | III Qrup | VI Qrup |
|---|---|---|---|---|
| Münasibətini əsaslandırır. | + | – | + | + |
| Düzgün oxuyur. | – | + | + | + |
| Təmsili fərqləndirir. | + | + | + | + |
| Əsas fikrə münasibətini bildirir. | + | + | + | + |

**Ədəbiyyat**


1. Azərbaycan xalq yaradıcılığının inkişafı. Bakı: Bilik, 1981
2. Nizami və xalq əfsanələri. Gənclik, Bakı,1983,128 s.
3. Azərbaycanın mifoloji mətnləri, Elm, Bakı, 1988, (toplayanlar Sədnik Paşayev, Maqbet Əhmədov, Arif Rəhimov, Arif Acalov), 180 s.
4. Qaraxanlı Künə Dəmirin lətifələri, Gəncə: Pirsultan, 2002, 51 s.
5. Molla Nəsrəddin varislərinin lətifələri, Gəncə: GDU, 2011, 120 s..
6. Azərbaycan türklərinin xalq rəvayətləri. Bakı: Azərnəşr. 2011. 630 s.
7. Aşıq Nabat. Bakı: Azərnəşr, 2012, 70 s.
8. Azərbaycan ağız ədəbiyyatında təmsil. Bakı: Azərnəşr, 2012


## Atalar sözlərinin tədrisi

Azərbaycan şifahi xalq ədəbiyyatının spesifik janrlarından biri atalar sözləridir. Atalar sözləri xalq tərəfindən yaradılan bitkin ifadələrdir. Atalar sözləri folklorun formaca kiçik, məzmunca dərin janrıdır. Az sözlə dərin mənalar ifadə etmək, xalqın həyat təcrübəsini, müşahidələrini yığcam, səlis ifadə etmək onun başlıca cəhətləridir.

Kiçik formalı xalq yaradıcılığı nümunələri olan atalar sözü dilin obrazlı vasitələrinə daxildir. Fikri yığcam şəkildə ifadə edib, parlaq obrazlar yaratdığından atalar sözü ədəbi dilə canlılıq verməyə kömək edir. Əsrlərdən bəri insan həyatının müxtəlif sahələrinə aid atalar sözləri yaranmışdır. Xalq atalar sözü vasitəsi ilə həyata baxışlarını, öz əxlaqi-tərbiyəvi fikirlərini ifadə edir. Atalar sözlərinin bəzilərində əməyin insan üçün faydası, bəzilərində birlik ifadə olunur. Əməyə, peşəyə məhəbbət tərbiyə etmək baxımından bəzi atalar sözlərinə diqqət edək: "Əmək xoşbəxtliyin açarıdır", "Əmək həyatın ziynətidir", "İş adamın cövhəridir", "İşləməyən dişləməz", "İşləyən dəmir pas tutmaz" və s. atalar sözləri əmək haqqındadır.

Atalar sözləri mövzu etibarı ilə çox zəngindir. "Tək əldən səs çıxmaz", "El gücü, sel gücü", atalar sözlərində isə birlik ifadə olunur. Vətən məhəbbəti, qəhrəmanlıq və s. mövzularla də bağlı atalar sözləri çoxdur. Belə atalar sözlərində doğma yurd, vətənin müqəddəsliyi ifadə olunur.

Atalar sözlərinin şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsində imkanları genişdir. Belə ki, uşaqları ayrı-ayrı hadisələrin xüsusiyyətləri ilə tanış edir, biliklərini daha da dərinləşdirir, hissini, təxəyyülünü, təsəvvürünü inkişaf etdirir, söz ehtiyatını zənginləşdirir, adama az sözlə geniş fikir söyləməyi öyrədir, uşaqların nitqini canlı xalq dilinə yaxınlaşdırır. Professor Ə.Qarabağlı yazır ki, xalqın hikmətli ifadələrini, mənalı, fəlsəfi ümumiləşdirmələrini xülasə şəklində istifadə edən həyati həqiqətlər, yəni atalar sözü əvəzsiz mənəvi xəzinədir. Buna görə də atalar sözü ana dili məşğələsinin maraqlı keçməsinə təsir göstərir.

İbtidai sinif "Azərbaycan dili" dərsliklərində mətnlərin məzmununun dərk olunmasında atalar sözlərindən istifadə edilməsi həm tapşırıqların rəngarəngliyini təmin edir, həm də nitq bacarıqlarının inkişafına təkan verir. Məsələn, "Xəstə" mətninin məzmununa uyğun atalar sözlərinin seçilməsi şagirdlərin təfəkkürünü, nitqini inkişaf etdirir:"Tənbəl tədbirli olar"; "Tənbələ dedilər, dur qapını ört, dedi, külək örtər"; " Yalan ayaq

tutar yerimәz", "Ortada yeyir, qıraqda gәzir"; "Yalançının şahidi yanında olar"(I sinif, "Azәrbaycan dili" dәrsliyi, 2012, s.146). Bu zaman uşaqların diqqәti atalar sözlәrindә fikrin yığcamlığına vә mәcazi mәnasına yönәldilmәlidir.

Atalar sözlәri şagirdlәrin şifahi nitqini xalq dilinin, canlı tәbii tәlәffüz vә ifadә xüsusiyyәtlәri ilә silahlandırır, nitqi daha kәsәrli, daha tutarlı edir. Atalar sözlәri şagirdlәri pis xüsusiyyәtlәrdәn uzaq olmağa, düzgün, xeyirxah, әmәksevәr, vәtәnpәrvәr şәxsiyyәt kimi yetişmәyә sәslәyir.

Mәsәlәn, "Yaşıl fincan" mәtni ilә әlaqәdar verilmiş "Mәtnin mәzmununa uyğun atalar sözlәrini seç" çalışmasında aşağıdakı atalar sözlәrindәn istifadә olunmuşdur:

- Yalan üz qaraldar.
- Yalançının şahidi yanında olar.
- Yalanın ömrü az olar.
- Yalançı özünün düşmәnidir.
- Yalan cücәrәr, amma bitmәz (IIsinif, "Azәrbaycan dili" dәrsliyi, 2009 s.43).

Qrammatik anlayışların tәdrisindә dә atalar sözlәrindәn istifadә edilmәsi hәm mәnәvi sәrvәtimizә mәhәbbәt hissinin aşılanmasına, hәm şagirdlәrin lüğәtinin zәnginlәşmәsinә, hәm dә nitqin emosional, ifadәli olmasına xidmәt edir. Mәsәlәn, "Hansı atalar sözündә әksmәnalı sözlәr var?" çalışmasına nәzәr salaq:

A) Gözәllik ondur, doqquzu dondur.

B) Yerin nuru günәşdir, insanın nuru-elm.

C) Hәr gecәnin bir gündüzü var.

"Hansı atalar sözündә әksmәnalı sözlәrin yeri sәhv düşüb?"

A) Gecәnin xeyrindәn gündüzün şәri yaxşıdır.

B) Düz oturaq. әyri danışaq.

C) Ağ gün ağardar, qara gün qaraldar (III sinif, "Azәrbaycan dili" dәrsliyi, 2012 s. 68).

Mәtnin mәzmununa uyğun atalar sözlәrindәn istifadә mәzmunun emosionallığını, tәsir gücünü artırır. Atalar sözlәri

real varlıq, təlimlə həyat arasında vəhdət yaratmağa imkan verir. Atalar sözlərindən əsərlə bağlı istifadə etdikdə əsərin məzmununun tam açılmasına, ayrı-ayrı personajların xarakterinin başa düşülməsinə, onlar arasındakı münasibətlərin meydana çıxmasına, hər birinin əhval-ruhiyyəsinin öyrənilməsinə, ədalətli və ədalətsiz hərəkətlərinin qiymətləndirilməsinə, şagirdlərin düşünmələrinə, təfəkkürlərinin, nitqlərinin inkişafına təkan verir.

Ən adi sözlərdən düzəldilmiş, lakin çox dərin məna ifadə edən, zəmanənin fırtınaları qarşısında sinə gərən atalar sözlərinə ibtidai siniflərdə geniş meydan verilməlidir. Burada hər söz dar lüğəti məna deyil, geniş məcazi məna alır. Atalar sözlərinin düzgün, yerində deyilməsi nitqin təsir qabiliyyətini artırır.

IV sinif "Azərbaycan dili" dərsliyində (s.170) "Alma ağacı" mətninə dair çalışmanın tələbinə görə şagirdlər mətnin məzmununa uyğun olmayan atalar sözünü tapmalıdırlar:

- Bağ salan barın yeyər.
- Lovğalığın sonu xəcalətdir.
- Bilməmək eyib deyil, bilməyib soruşmamaq eyibdir.

Bu tipli tapşırıqlar əsərdə qəhrəmanın münasibətini aydınlaşdırmağa kömək göstərir. Müvafiq atalar sözlərindən istifadə şagirdlərin təşəbbüskarlıq və yaradıcılıq qabiliyyətlərini, müstəqil fikir söyləmək, fakt və hadisələrə obyektiv münasibət bəsləmək, düzgün qiymət vermək bacarıqlarını formalaşdırır. "Bala məhəbbəti güclü olar", "Bala baldan şirindir", "Ana bala üçün canını oda yaxar" kimi atalar sözlərində ana məhəbbətinin ülviliyi əks olunursa, "Yoldaş yoldaşa tən gərək, tən olmasa gen gərək", "Nə tökərsən aşına, o da çıxar qaşığına", "Özün istəmədiyini başqasına rəva bilmə" və s. atalar sözlərində tarixlərin sınağından çıxmış yoldaşlığa dair fikirlər şagirdlərə bir mesaj olaraq ünvanlanır.

"Bir əldə iki qarpız tutmaq olmaz", "Tamahkarlıq böyük ayıbdır", "Artıq tamah baş yarar", "Çox istəyən azdan da olar " və s. atalar sözlərində tamahkarlıq pislənir. Bədii nağıletmə bacarığına yiyələnən və atalar sözlərini yerli-yerində işlədən şagird

düşünülmüş, şirin, mənalı, məntiqi danışmağı, xəyala dalmağı və nəcib arzularla yaşamağı öyrədir.

## Ədəbiyyat


1. Əfəndiyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992
2. Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası. Bakı, 1993
3. Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı, 1968
4. Nəbiyev A. Nəğmələr, inanclar, alqışlar. Bakı: Yazıçı, 1986
5. Rəsulova S. Ədəbiyyat dərslərində ifadəli oxu. Bakı, 2012
6. http://www.azerbaijans.com/content_114_az.html


## Tapmacaların tədrisi metodikası

Bədii söz nümunələrindən biri də tapmacalardır. Tapmacalar da nağıllar, atalar sözləri kimi xalq tərəfindən yaradılır. Tapmacalar yığcam və dərin mənalı olduğu üçün tez sevilir və əzbərlənir. Tapmacalar kiçik yaşlı məktəblilərin təfəkkürünün və nitqinin inkişafına  güclü təkan verən onları düşünməyə, fakt və hadisələri  tutuşdurmağa, fərqli və oxşar cəhətləri  müəyyənləşdirməyə təhrik edən mühüm vasitələrdən biridir. Xalqın yaratdığı bu nümunələrdə əlamətlərinə  görə müəyyən bir şeyin tapılması qarşıya məqsəd qoyulur.

Tapmacalar şagirdlərin Azərbaycan dilinin fonetik səs sisteminə yiyələnməsi, lüğət ehtiyatının zənginləşdirilməsi, düzgün tələffüz qaydalarının mənimsənilməsi. oxu və nitq bacarıqlarının formalaşdırılması üçün geniş imkanlara malik bir qaynaqdır. Bu qaynaqdan bəhrələnmək müəllimlərin bacarıq və səriştəsindən çox asılıdır. İbtidai siniflərdə tapmacaların öyrənilməsi şagirdlərdə əşyaların əlaməti, keyfiyyəti, forma və məz-

munu haqqında dolğun təsəvvürlərin yaranmasına imkan verməklə, onların nitqinin obrazlılığını, ifadəliliyini təmin edir. Tapmacalar şagirdlərin zehni inkişafına, iti düşünmə qabiliyyətlərinə zəmin yaradır, onlar tapmacalardakı gizli fikri açmaq üçün müvafiq əşyanın əlaməti, forması və məzmununu araşdırmağa başlayırlar.

Tapmacaların seçilməsində həm dərsin məqsədi, həm də şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Belə ki, I-IV sinif dərsliklərində verilən tapmacalar həm oxu, həm də dil dərslərində nəzərdə tutulan materialların tələblərinə uyğun olmalıdır. I-II siniflərdə imkan daxilində əyanilikdən istifadə olunmalıdır. Şagirdlər əşyanın əlamətlərini sadalamağı, onlar haqqında fikir yürütməyi məhz əyanilik şəraitində daha yaxşı həyata keçirirlər. III-IV siniflərdə isə mücərrədliyə üstünlük verilir.

Meyvə, tərəvəz, giləmeyvə şəkillərinin birlikdə təqdim olunması hər birinə dair kifayət qədər tapmacalar tapmağa imkan verir. Təcrübəli müəllimlər şagirdlərin özlərinə tapmacalar düzəltdirir, bu zaman şagirdlər fikri əməliyyatlar aparır, əşyaların əlamətlərini nəzərdən keçirir, onları ifadə etmək üçün müvafiq ifadələr tapırlar. Məsələn: Rəngi sarıdır, özü dadlıdır (heyva).

Qırmızı dənələri var.
Həm şirin, həm də turş olar (nar).
Özü ala, yeri tala,
Para-para, qəlbi qara. (lalə)

Həyətdə dağdır,
Pambıqdan ağdır,
Evə gələr,
Suya dönər. (qar)

Oxu və nitq inkişafına xidmət edən tapmacaları müəllim əvvəlcədən seçib hazırlamalıdır. Tapmacaların seçilməsində aşağıdakı cəhətlər gözlənilməlidir:

- Tapmacanın məzmunu aydın, konkret və qısa olmalıdır.
- Tapmacada dilin sadəliyini və axıcılığını gözləmək lazımdır.

- Tapmacanın məzmunu əşyanın əlamətini, xüsusiyyətlərini aydınlaşdırmalıdır.
- Tapmacada işlənən söz və ifadələr uşaqlar üçün aydın olmalıdır.
- Tapmacadakı fikirlər uşaqlar üçün anlaşıla biləcək səviyyədə olmalıdır.
- Müəllim tapmacanın məzmununun dərk olunmasına ciddi fikir verməlidir.

Bəzən şagird hətta ona tanış olan əşya haqqındakı tapmacaların cavabını da tapmaqda çətinlik çəkir. Tapmacaların tapılması üçün əşyanın müəyyən nişanələri üstüörtülü şəkildə verilir. Həmin nişanələr şagirdi fikirləşməyə, onun nəyə aid olduğunu axtarıb tapmağa, düşünməyə vadar edir. Belə hallarda müəllim tapmacanın cavabını deməyə tələsməməlidir. Şagirdə bir az da fikirləşmək üçün vaxt vermək, tapmacadakı obyektə oxşar əşyaları xatırlatmaq, əşyanın digər əlamətlərini təsvir etmək lazımdır. Şagirdlərə ən çox onların mühiti ilə bağlı tapmacalar vermək məsləhətdir. Təcrübə göstərir ki, kənd yerlərində ən çox heyvanlar, quşlar haqqında, şəhərdə isə texnikaya aid tapmacalara üstünlük verilir. Təbiət, təbiət hadisələri, meyvə, tərəvəz, çiçəklər, güllər haqqında tapmacaların söylənməsi üzrə həm kənd, həm də şəhər məktəbində eyni tərzdə iş gedir. Bir sıra tapmacalar insanlar, məişət əşyaları,bitkilər, heyvanlar, meyvələr haqqinda məlumat verən təlim materialı rolunu oynayır.

Məsələn: Balaca quyu,
İçində suyu,
Ağcadan ağdı,
Sarıdan sarı (Yumurta).

Bizim evdə bir kişi var,
Ağzında iki dişi var (Qayçı).

Anaxanım atlandı,
Qol-qanadı qatlandı (Kələm).

Yatanda yumru yatar,
Ətini dərmana satar,
Kim istəsə onu tutmağa
Tikanları əlinə batar (Kirpi).

Yazda yığar yeməyini,
Çox sevir öz əməyini,
Qışda yeyər baharadək,
Nədir adı, tapın görək? (Qarışqa).

Bu tapmacaların sözlərində müxtəlif əlamətlər deyilir. Tapmacaların bəzilərində müxtəlif əşyaya aid biliklər təhlil-tərkib şəkilində verilir, şagird onun cavabını tapmaq üçün diqqətlə fikirləşməli olur ki, bu da onun hafizəsini, yaradıcı təfəkkürünü və daxili nitqini inkişaf etdirir. O, gördüyü əşyaları tutuşdurur, tapmacalardakı nişanələri müqayisə edir və nəhayət əşyanı tapır. "Unutmamalıyıq ki, kim çox müqayisə edirsə, o da yaxşı öyrənir"(Y.A.Komenski); "Və yaxşı təlim ... üçün müqayisə etməyi bacarmaq lazımdır" (A.Disterveq).

Nəzərdə tutulan əşyalar arasında oxşar cəhətlər müəyyənləşdirilir. Hər bir əşyaya aid olan əlamətlərin köməyi ilə başqa bir əşyanın tapılması nəzərdə tutulur. "Altı bulaq içərlər, üstü zəmi biçərlər" tapmacasında qoyunun qırxılması ilə zəminin biçilməsi, südünün sağılması ilə bulaqın qarşılaşdırılması maraqla qarşılanır.

Şagirdlərin təsəvvürlərinin genişlənməsində, təfəkkürün inkişafında tapmacaların böyük əhəmiyyəti vardır. Tapmacalar zehni qabiliyyətin inkişafına kömək edir. Tapmacalar qısa yığcam və ritmli olur. Onlar hadisə və əşyanın əlamətlərini bədii surətdə əks etdirir. Məsələn:

Uçub gələr səhər-səhər,
Bizə yazdan verər xəbər. (Qaranquş)

Tapmacalar şagirdlərin müşahidəçiliyini artırır, ətraf şeylər haqqında təsəvvürlərini zənginləşdirir ki, bunların idraki əhəmiyyəti vardır. Tapmacaların bəzisi elə maraqlı məsələlər üzərində qurulur ki, bunları tapmaq üçün dərin düşüncə, iti hafizə tələb olunur. Məsələn:

Tap-tapmaca,
Gül yapmaca,
Deşiklədim,
Atdım saca. (Fəsəli)
Alçaq damdan qar yağar. (Ələk)

Belə unudulmaqda olan tapmacaları söyləmək keçmiş irsimizə, babalarımızın dediklərinə, milli dilimizə, onun söz xəzinəsinə olan hörmətdir. Biz heç vaxt unutmamalıyıq ki, babalarımızın keçmiş deyim-duyumları bugünkü məktəblilər üçün örnəkdir, xəzinədir.

Tapmacalar kiçikyaşlı məktəbliləri düşünməyə və şəxsi təcrübələrini əks etdirməyə yönəldir. Bəzən onlar maraqlı tapmacalar düşünür və deyirlər. Bütün tapmacalar aid olduqları varlıqların, cisim və hadisələrin müəyyən əlamətlərini özündə əks etdirir. Həmin əlamətlərə görə əşyanın adını tapmaq şagirdi fikirləşməyə, cisim və hadisələri nəzərdən keçirməyə, onların əlamət və xüsusiyyətlərini araşdırmağa, gördüklərini təsəvvüründə canlandırıb tapmacada deyilənlərlə müqayisə aparmağa və izah etməyə təhrik edir. Oxu materialları ilə bağlı iş apararkən tapmacaların didaktik imkanlarından istifadə hər bir müəllimin diqqət mərkəzində olmalıdır.

### Ədəbiyyat

1. Əfəndiyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992
2. Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası. Bakı, 1993
3. Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı, 1968
4. Nəbiyev A. Nəğmələr, inanclar, alqışlar. Bakı: Yazıçı, 1986
5. Rəsulova S. Ədəbiyyat dərslərində ifadəli oxu. Bakı, 2012
6. http://www.azerbaijans.com/content_114_az.html
7. http://www.oyren.org/2012/08/22/tapmacalar/

## Məlumatlandırıcı mətnlərin oxusu

Məlumatlandırıcı mətnin "süjeti" spesifikdir: burada müəllif oxucunu həqiqət axtarışı prosesinə cəlb edir. Oxucu müəllifin ardınca bütün yolu qət edib gözlənilən nəticəyə gəlməlidir. Bu cür mətnin kompozisiyası elmi tədqiqat mərhələlərinin ardıcıllığını əks etdirir:

- **giriş hissəsi-**(poblemin (sualın) dərk edilməsi və məqsədin müəyyənləşdirilməsi);
- **əsas hissə-(**problemin həlli yollarının axtarışı, mümkün variantların nəzərdən keçirilməsi və fərziyyələrin irəli sürülməsi);
- **nəticə-(**cavabın alınması və onun yoxlanması).

Məlumatlandırıcı mətn oxuyarkən aşağıdakı ardıcıllığa əməl edilir:

✓ Başlıq və birinci abzası oxuyun və qərar verin: bu mətni oxumaq üçün sizin kifayət qədər məlumatınız varmı? Əgər sizə əlavə hazırlıq lazımdırsa, başqa mənbəyə müraciət edin.

✓ Əsas ideyaları nəzərdən keçirin,başlıq və yarımsərlövhələri təhlil edin. Mühüm fərziyyələri qeyd edin, şəkil, sxem və diaqramları öyrənin.

✓ Terminləri müəyyənləşdirin. Əgər oxu zamanı naməlum sözlərə rast gəlirsinizsə, lüğətə baxın.

✓ Dərketmənizi yoxlayın. Ara-sıra dayanıb özünüzdən soruşun: "Mən nə anladım?" Bunu artıq bildiklərinizlə əlaqələndirin.

✓ Əgər ideyanı anlamamışsınızsa, mətni yenidən oxuyun. Mürəkkəb fikirləri öz sözlərinizlə söyləyin.

✓ Axıradək oxuyun. Oxuduqca ideyalar aydınlaşa bilər. Oxuyub qurtardıqdan sonra mətni yenidən nəzərdən keçirin, anlamadığınız ideyaları bir də oxuyun

✓ Oxu zamanı qeydlər aparın. Vacib fikirlərin altından xətt çəkin, konspekt hazırlayın, nəticələri yazın. Bütün bunlar fikrinizi material ətrafında cəmləməyə kömək edəcək.

## Publisistik mətnlərin oxusu

Publisistika (latınca “publicus” sözündən olub “ictimai” deməkdir)-cəmiyyət həyatının bu günkü aktual problemlərinə və hadisələrinə həsr olunmuş mətn növüdür. İbtidai siniflərdə şagirdlərin yaş və anlaq səviyyəsinə uyğun olaraq belə mətnlərin oxusunun təşkili onların dünyagörüşünün formalaşması və müxtəlif xarakterli mətnlərin oxunması baxımından səmərəlidir. Bu mətnlər ictimai-siyasi ədəbiyyatda, dövri mətbuatda (qəzetlər, jurnallar), radio və televiziya verilişlərində, sənədli filmlərdə, afişa və bukletlərdə istifadə olunur.

Kütləvi informasiya vasitələrində istifadə olunan publisistik mətnlər informasiya mənbəyi kimi bir neçə rol oynayırlar:

a) bu mətnlərin müəllifləri daha geniş oxucu, dinləyici və tamaşaçı kütləsini cəmiyyət üçün məna ifadə edən problemlə tanış etmək məqsədi güdürlər;

b) bu mətnlər söylənilənlərə qarşı müəyyən münasibət yaradır və müəyyən davranışın vacibliyini vurğulayır;

c) kommunikativ funksiya daşıyır.

Publisistikada işıqlandırılan hadisələrin seçimi onların sosial əhəmiyyətinə və ictimai marağa görə aparılır: dövlət rəhbərlərinin görüşləri, yeni qanunların qəbulu, teatr premyeraları, idman yenilikləri və s. haqqında hər yaşa uyğun olaraq məlumatların verilməsi sivil vətəndaşların yetişməsi üçün əhəmiyyətlidir.

Publisistik mətnlərlə tanışlıq şagirdlərdə fakt və ya problem haqqında bədii, obrazlı təsəvvür yaratmaqla, bədii-publisistik janrda yazılmış mətnlər (oçerk,esse, felyeton, pamflet) haqqında ilkin biliklər aşılayır.

## Elmi - kütləvi mətnlərin oxusu

I-IV siniflərin “Azərbaycan dili” dərsliklərinə daxil edilən materialları xarakterinə görə iki yerə bölmək olar:

1. Elmi - kütləvi mətnlər

2. Bədii mətnlər

Dərsliklərin tərtibi zamanı bəzi dövrlərdə elmi - kütləvi, bəzi vaxtlarda isə bədii mətnlərə üstünlük verilmişdir. Böyük pedaqoq K.D.Uşinskinin "Vətən dili" kitabı ancaq elmi - kütləvi mətnlərdən ibarət olmuşdur.

I-IV siniflərin dərsliklərində hekayə-oçerk üslubunda yazılmış elmi - kütləvi materiallar verilmişdir ki, buraya təbiət və coğrafiyaya, tarixə aid mətnlər daxildir.

Belə materialların verilməsində başlıca məqsəd şagirdləri ətraf aləmlə tanış etmək, əşyalar, hadisələr barədə bilik verməkdir.

Təbiətşünaslığa aid materiallar, əsasən, fəsli prinsip üzrə verilir. Bu prinsipə əsasən şagirdlər payız, qış, yaz, və yayda təbiətdə, insanların həyatında baş verən dəyişikliklər, təbiət hadisələrinin dəyişməsinin insanların, bitkilərin, heyvanların, quşların həyatına təsiri, qarşılıqlı əlaqəsinin qanunauyğunluqları haqqında məlumat alırlar.

İctima-tarixi materiallar tarixi günlərdə (18 oktyabr, 17 noyabr, 31 dekabr, 20 yanvar, 8, 20-21 mart, 28 may) öyrənilir. Bu həmin materialların oxusunu həyatla əlaqələndirməyə imkan verir.

Elmi-kütləvi materialların öyrədilməsi bir tərəfdən şagirdlərin oxu vərdişinin inkişafına kömək edir, digər tərəfdən təbiətə və tarixə aid praktik biliklər verir.

Elmi-kütləvi mətnlərin oxusu şagirdlərə təbiətin insan həyatındakı rolunun dərk edilməsi, qidalanmaq, nəfəs almaq, təbiət və insan, bunların qarşılıqlı əlaqəsi, insanların təbiəti qorumasının zəruri olduğunu tərbiyə edir.

Təbiətə aid mətnlərin oxusu heyvanlar, bitkilər aləmi, mövsümi hadisələr, iqlim dəyişməsi ilə şagirdləri tanış edir.

Coğrafi materialların oxusu şagirdləri ölkəmizin sərvətləri: nefti, şəhərləri, sərhəddi, çayları, dağları ilə tanış edir.

Tarixi materiallar Vətənimizin keçmişi, xalq qəhrəmanları, şəhidlər və onların qəddar və ikiüzlü işğalçılara qarşı mübarizəsi haqqında bilik verir.

Belə mətnlər ilk cümlədən başlayaraq hissə-hissə oxunub izah olunur, uşaqlarda Koroğlu, Babək, Cavanşir, Qaçaq Nəbi kimi qəhrəmanlara və həmçının Qarabağ döyüşlərində şəhid olmuş igidlərimizə qarşı məhəbbət yaradılır.

Elmi-kütləvi mətnlər mütləq həyatla əlaqələndirilməlidir. Bunun üçün təbiətə, istehsalata, muzeylərə ekskursiyalar təşkil olunmalı, təbiətdə baş verən hadisələrin-qarın yağması, tufan, ağacların tumurcuqlaması, çiçək açması üzərində müşahidə aparmaq, ölkəmizin həyatına dair kinofilmlərə baxmaq, qəhrəmanlar və iş adamları ilə görüşlər keçirmək faydalıdır.

Elmi-kütləvi mətnlərdə sözlər ancaq həqiqi mənada işlənir və elmi terminlərə geniş yer verilir.

Elmi-kütləvi mətnlərin oxusu zamanı oxunmuşların təkrarı, biliyi sistemləşdirmək və ümumiləşdirmək məqsədi ilə müqayisə üsulundan istifadəyə geniş imkanlar vardır.

Elmi-kütləvi mətnlərin xarakteri - bilik verməsi, yeni anlayış yaratması, ekskursiya, müşahidə, əşya dərsləri ilə bağlı olması daha çox ümumiləşdirmə tələb edir.

Müşahidə, ekskursiya, əşya dərsləri gəzintilərə aid digər mövzular oxu dərsliyində verilən başqa mövzularla əlaqəli tədris olunur. Bu mövzular təlim-tərbiyə məqsədi daşıyır. Həm də bunlar oxu vərdişlərinin inkişafına və rabitəli nitqə xidmət edir. Müşahidə dərsləri təkcə təbiəti öyrənmək yox, həm də xalqın tarixi, əməksevər insanların işi ilə əlaqələndirilir. Ekskursiya dərsləri ən çox coğrafi materiallara aid olur, əşya və hadisələr, təbii şəraitdə müşahidə olunur. Ekskursiya planlı şəkildə aparılır. Əvvəlcə, hazırlıq işləri görülür, giriş müsahibəsi və məlumatların verilməsi nəzərdə tutulur. Ekskursiya zamanı əşya dərslərinə aid materiallar da toplamaq olar.

**Elmi –kütləvi mətnlərin oxusu.** "Azərbaycan dili" fənni öz təbiəti etibarilə inteqrativ fənndir. Şagirdlər I sinifdən etibarən elmi-kütləvi (elmi idraki, əməli) xarakterli materiallar oxumağa başladıqlarından hər bir mətnlə istər-istəməz bir neçə elm sahəsinin qovuşması ilə qarşılaşırlar. İndi I-II sinif şagirdləri günəş, su, hava, torpaq, bitkilər aləmi, canlılar, insan, xalqımızın

yaşayış tərzi, azadlıq, müstəqillik uğrunda mübarizəsi, elm-texnika yenilikləri, kosmos və s. haqqında oxumalı olurlar.

Elmi-kütləvi mətnlərdə şagirdlər üçün yeni material şərh olunur. Ona görə də bədii materialların tədrisi prosesində olduğu kimi elmi-idraki mətni bütöv oxuyub, məzmunun dərk ediləcəyinə ümid bəsləmək olmaz. Bu, məzmunun səthi mənimsənilməsi ilə nəticələnir. Belə mətnlər hissə-hissə oxunmalı, hər hissə dərindən təhlil edilib, başa düşüldükdən sonra digər hissənin oxunub təhlil edilməsinə keçmək lazımdır.

Elmi-kütləvi mətnlərin bir qisminin məzmununun başa düşülməsi üçün əyani və praktik hazırlıq tələb edilir. Mətnin oxunmasına bir iki-gün qalmış şagirdləri müvafiq obyektlərə ekskursiyaya aparmaq, haqqında söhbət gedəcək əşyaları əldə etmək tələb olunur. III-IV siniflərdə fənlərarası əlaqədən istifadə etmək fəal nəticə verir. Cəmiyyət hadisələri və tarixi məlumatlarla bağlı mətnlər (III-IV siniflərdə) əyani vəsait, fərdi müsahibələr, gəzinti, kinofilmə, sərgiyə baxış, Böyük Vətən Müharibəsi veteranları, Milli Qəhrəmanlarla görüşlərin təşkilini tələb edir.

Mövzu: Makedoniyalı İsgəndər ("Azərbaycan dili", III sinif, s. 124-125)

| **Təlim məqsədləri** | **Məzmun standartı** |
|---|---|
| Tarixi şəxsiyyət haqqında bioqrafik mətni oxuyaraq, nə? harada? nə vaxt? necə? və kim? suallarına cavab axtarır. | 2.2.1 |
| Mətnin abzaslarına başlıq verir və sual qoyur. | 2.2.3 |

**İnteqrasiya**- A-d.: 1.2.1; H-b.: 1.3.2.
**İş forması**: böyük qruplarla iş
**İş üsulu**: əqli hücum, müzakirə, suallar, ziqzaq
**Resurslar**: şəkil, iş vərəqləri, qələm, karandaş, pozan və s.

## Dərsin gedişi

**Motivasiya**. Müəllim: - Sərkərdə kimdir? Hansı sərkərdələri tanıyırsınız? (Keçilən mövzulardan şagirdlərin Əmir Teymur və Şah İsmayıl haqqında məlumatları var). Dünyanın ən məşhur sərkədələrindən biri də Makedoniyalı İsgəndər olub. Bu gün biz onunla bağlı bir mətn oxuyacağıq.

**Oxu**. ("Ziqzaq", "sual müsabiqəsi"). Mətn bitkin hissələrə bölünərək, əvvəlcə, "Ziqzaq" üsulu ilə oxunur ( MMV, s.28).

**I hissə**: Balaca İsgəndərin tərbiyəsi (1-ci iki abzas)

**II hissə**: Təkəbbürlü şahzadə (3-cü abzas)

**III hissə**: İsgəndərin Bukefalı ram etməsi

**IV hissə**: İsgəndər və Dara

Sonda qrupların nümayəndələri mətni öz sözləri ilə sinfə danışırlar və bu dəfə "sual müsabiqəsi" metodu tətbiq olunur, tapşırıqlar yerinə yetirilir.

Bundan sonra şagirdlərin diqqətini İsgəndərin nitqində söz oyununa yönəltmək lazımdır:

Parmenion dedi:

- Mən İsgəndər olsaydım, razılaşardım.

İsgəndər dedi:

- Mən də razılaşardım, əgər İsgəndər olmasaydım.

Və ya:

- Mən İranın hamısını yarısına dəyişmək fikrində deyiləm.

Şagirdlərdən sonuncu ifadənin mənasını soruşmaq lazımdır.

**Qiymətləndirmə.** Qiymətləndirmə zamanı təkəbbürlü, şöhrətpərəst, məyus olmaq, fəth etmək, hörmətlə yanaşmaq, ələ keçirmək və s. söz və ifadələrin mənalarının açılması, habelə bir çox sözlərin ədəbi tələffüzünün gözlənilməsi nəzərə alınır (mətndə belə sözlərin sayı 40-a yaxındır).

## Oxu materiallarının tematikası

"Azərbaycan dili" dərsliyində verilmiş mətn və mövzular vasitəsilə ibtidai təlim kursunun qarşıya qoyduğu məqsəd və

vəzifələr yerinə yetirilir. Şagirdlərin dünyagörüşləri formalaşdırılır. Onlar bir şəxsiyyət kimi tərbiyə edilir, həyata hazırlanırlar. Bu mətnlər pedaqoji-psixoloji təsir altında estetik hisslər doğurur, yaradıcı təfəkkürün fəaliyyətini canlandırır, bədii zövq yaradır, Azərbaycan dili və onun ədəbiyyatına məhəbbət hissi oyadır, şagirdlərin qazandıqları bilikləri həyatla əlaqələndirir, təcrübi işlərdə tətbiq edirlər.

Oxu prosesində şagirdlər mövzudakı təlim-tərbiyəedici, vəzifələrin qarşılıqlı əlaqəsini duyur, milli-mənəvi mədəni sərvətləri qazanırlar. Onlar aldıqları bilikləri ümumiləşdirib gələcək üçün nəticə çıxarır, dostluq, yoldaşlıq, düzgünlük, qorxmazlıq, əməkdaşlıq, vətənpərvərlik, əməksevərlik, insanlara hörmət etmək və s. tərbiyəvi dəyərlərin təsiri altına düşürlər. Belə vəzifələrin yerinə yetirilməsində oxu üzrə tematik mövzular öz xarakterinə görə dörd yerə bölünür.

**I. Müşahidə dərsləri. II. Ekskursiya dərsləri.**
**III. Əşya dərsləri. IV.Ümumiləşdirici dərslər**

## Müşahidə dərslərinin təşkili metodikası

Müşahidə dərsləri şagirdlərin mühakimə qabiliyyətinə, nitq mədəniyyətinə, davranış və rəftar tərzinə zəmin yaradır, həmçinin yeni biliklərə yollar açır. Şagirdlər sinifdən-sinifə keçdikcə mütaliə etməyə maraq göstərir, ətraf aləmə öz münasibətlərini bildirməyi bacarırlar.

Şagirdlərdə yaranmış müşahidəçilik əşyada (obyektdə) lazım olan əlamətləri seçməyi öyrədir. Bu seçim isə əşyanın (obyektin) təhlilinə, müqayisəsinə dair fikir yaradır. Şagird diqqətini obyektə və ona aid anlayışlara yönəldir.

Müşahidə dərsləri vasitəsilə verilən biliklər və bacarıqlar hər zaman məzmun standartları ilə ölçülür, müəllim qarşıya qoyduğu təlim nəticəsi ilə müəyyənləşdirilir.

Müşahidə dərsləri şagirdlər üçün maraqlı olur. Çünki şagird düşündüyü bir şeyi canlı şəkildə görür və gördüyü bu əlamət və keyfiyyətlərə daha çox diqqətli olur. Bu məqsədlə şagird

müşahidə dərslərində iki məsələ ilə qarşılaşır.

Birinci halda - şagird qazandığı biliyi obyektlə canlı şəkildə əlaqələndirir və möhkəmləndirir. İkinci halda - şagirddə müşahidəçilik qabiliyyəti inkişaf edir. Əşyanın əlamət və keyfiyyəti haqqında müstəqil düşünür, gördüyü hər hansı bir şey haqqında fikir söyləməyə səy göstərir.

Müşahidə dərslərini aşağıdakı kimi təşkil etmək olar:

- obyektdə olan əşyaları sadalayın;
- obyektin oxşar və fərqli cəhətlərini aydınlaşdırın;
- fakt və hadisələrin canlı müşahidəçisi olun;
- müşahidə zamanı əşya dərsləri üçün material toplayın və s.

Müşahidə dərsləri şagirdlərin əqli inkişafına, estetik tərbiyəsinə müsbət təsir göstərir, yeni bilik və bacarıqlar aşılayır. Müşahidə dərsləri qısa və uzun müddətli aparılır.

**Uzunmüddətli müşahidə dərsləri** - qarın və ya yağışın yağması, buzun suda əriməsi, ağaclarda tumurcuqların əmələ gəlməsi, yarpaqların açılması, bitkilərin boy atması, heyvanların xarici görünüşündəki dəyişkənlik və s. nəzərdə tutulur.

**Qısamüddətli müşahidə dərsləri**-müəyyən plan və sistemlə aparılır. Mövzunun məqsədi və vəzifəsi aydınlaşır, veriləcək suallar əvvəlcədən hazırlanır. Müşahidə dərsləri iki mühitdə aparılır: 1)təbii şəraitdə aparılan müşahidə dərsləri; 2)süni şəkildə (model, maket, müqəvva üzrə) aparılan müşahidə dərsləri.

Hər iki dərs məşğələsinə tədris ilinin ilk günündən planı hazırlanır, onlara tədris vaxtı ayrılır. Müşahidə zamanı şagird əşya və hadisələrin oxşar və fərqli cəhətlərini araşdırır. Lazım gəldikdə bunları ümumiləşdirir və tutuşdurur. Bıı baxımdan oxu təliminə aid müşahidə dərslərini aşağıdakı kimi təşkil etmək olar.

1. Müşahidə dərsləri üçün obyekt hazırlamaq və orada müşahidə olunan əşya və hadisələri seçmək.
2. Şagirdləri oxunan mətnə uyğun müşahidəyə hazırlamaq.

3. Müşahidə zamanı verilən bilik və anlayışları müəyyənləşdirmək.

4. Müşahidə haqqında (yazı işi, material toplamaq) məlumat vermək.

5. Müşahidə müddətində toplanan materiallardan tədris zamanı istifadə etmək.

6. Müşahidə dərslərini yekunlaşdırmaq və onu həyatla əlaqələndirmək və s.

I siniflərdə müşahidə dərsləri bilavasitə müəllimin rəhbərliyi altında aparılır. Sadəcə olaraq müəllim əşya və təbiət haqqında məlumat verir, obyekt və canlılarla rəftar qaydasını tərbiyə edir.

II siniflərdə şagirdlər obyektdə gördüklərini müstəqil müqayisə edirlər, onu başqa əşyalarla tutuşdurur və yekun bir nəticəyə gəlirlər.

III siniflərdə müşahidə dərsləri "Azərbaycan dili"(oxu mətnləri) və "Həyat bilgisi" fənni ilə əlaqələnir. Əvvəlki bilik və bacarıqlar dərinləşir, şagirdlərin diqqəti yeni biliklərə yönəldilir.

Müşahidə dərsləri şagirdlərin pedaqoji təfəkkürünü və nitq inkişafını nəzərdə tutur. Bu məqsədlə I-IV siniflərdə müşahidə dərslərinin müntəzəm və planlı şəkildə aparılması nəzərdə tutulur, şagirdlərin müşahidəçilik və yaradıcı, təfəkkürünə zəmin yaradılır.

Qavrayış müşahidə dərsləri üçün səmərəli müqayisə deməkdir. Müqayisə isə şagird müşahidəçiliyini tərbiyə edir, obyekti, əşyaların fərqli və oxşar cəhətlərini üzə çıxarır, təfəkkürünü inkişaf etdirir. Şagirdin lüğət ehtiyatını zənginləşdirir, nitqini, oxu bacarıq və vərdişlərini formalaşdırır. O, təbiət gözəlliyinə vurğun olur, onu müşahidə etməyi öyrənir.

Əşyaların müşahidəsi, şagird fəaliyyətində onun əlamət və keyfiyyətlərini aşkara çıxarır, fənlərarası əlaqələrin yaranması təsir göstərir. Müşahidə dərslərini aşağıdakı kimi təşkil etmək olar:

- müşahidə dərslərinə hazırlıq (obyektin, əşyanın adı və

digər əşyalardan fərqli cəhətləri və s.);

- müşahidənin aparılmasının təlim məqsədi və vəzifəsi haqqında şagirdlərə məlumat vermək, müşahidə zamanı nəyi öyrənməli və ya nə etməli;
- şagirdlər obyektin hansı sahəsini müşahidə edəcəklər;
- şagirdləri müstəqil müşahidəçiliyə yönəltmək;
- müşahidə üçün planın tərtibi;
- fənlərarası (riyaziyyat, təsviri sənət, əmək tərbiyəsi) əlaqələrdən istifadə;
- müşahidə dərslərində fərdi, qrup və kollektiv tapşırıqların müəyyənləşdirilməsi;
- müşahidə zamanı materialların toplanması;
- müşahidə zamanı aparılan qeydləri dinləmək, ümumiləşdirmək və yekunlaşdırmaq.

Müşahidə dərslərinin yekunlaşması ona görə zəruri hesab edilir ki, şagird öz müşahidəsi əsasında yekun nəticə çıxarır və fikrini müstəqil söyləyir. Müşahidə dərslərinin yekunlaşmasını bir neçə variantda aparmaq olar. Məsələn: əşya, hadisə və faktlar üzrə çalışma və yazılı işlər: didaktik oyunlar, atalar sözü və tapmacaların vasitəsi ilə şifahi söhbət, obyektə aid şəkil çəkmək, kolleksiya, maket, modelin hazırlanması və s. Müşahidə dərsləri şagirdlərin məsuliyyət hissini gücləndirir, onlarda müşahidəçilik bacarığını inkişaf etdirir.

## Ekskursiya dərslərinin təşkili metodikası

**Ekskursiya dərsləri** tarixə, təbiətə və ekologiyaya aid olan oxu mətnlərinin daha emosional qavranılmasında mühüm əhəmiyyət kəsb edir.

Ekskursiya dərsləri zamanı fakt və hadisələr, məkan və zaman daxilində müşahidə edilir, təbiət və tarixi mövzuların öyrənilməsində əvəzsiz rol oynayır, fənlərarası əlaqələr yaradır, şagirdlər sinifdə öyrəndiklərini və əldə etdik bilikləri müşahidələr vasitəsi ilə möhkəmləndirir, ümumiləşdirir və yekunlaşdırırlar. Şagirdin yaradıcılıq qabiliyyəti və müstəqilliyi inkişaf

edir. Bu isə şagirdin dünyagörüşünə, qabiliyyətinə, eyni zamanda təbiəti şüurlu surətdə dərk etməsinə, estetik tərbiyəsinə zəmin yaradır.

Məlumdur ki, ekskursiya dərsləri çox hallarda müşahidə əsasında həyata keçirilir. Müşahidə müəllim rəhbərliyi altında aparılır. Buna görə də qabaqcıl müəllim mövzu ətrafında söhbət aparanda müəyyən sistemi gözləyir, şagirdlərə məlumatları pillə-pillə verir, fakt və hadisələrə qarşı şagirddə marağı gücləndirir və onların dərk edilməsinə səy göstərir. Müəllim ekskursiya dərslərini kollektiv və ya qrup şəklində təşkil etməlidir,

**Kollektiv şəkildə** aparılan ekskursiya dərslərinin şagirdlərin tərbiyəsinə böyük təsiri vardır. İlk növbədə şagird kollektivçilik ruhunda tərbiyə olunur. Sonra isə şagirdin kollektiv işdə özünü necə aparma xüsusiyyəti öyrənilir. O, təbiətdən estetik tərbiyə alır, əşya və hadisələrə qarşı münasibət bildirir, təbiət haqqında sadə anlayış qazanır, anlayışlara elmi şəkildə yanaşır və s.

**Qrup şəklində** təşkil olunan ekskursiya dərslərində şagirdlər qruplara bölünür, hər bir qrupa ayrı-ayrı tapşırıqlar verilir. Məsələn: I qrupa təbiət materialları toplamaq, toplanan materialları əyani vəsait kimi hazırlamaq, II qrupa müşahidə olunan obyektə qoyulan suallara cavab hazırlamaq, III qrupa bitkilərə qulluq etmək, şəkil çəkmək, herbari və ya kolleksiya hazırlamaq, şifahi sorğuya müstəqil hazırlaşmaq və s. işlərin görülməsi tapşırılır.

Ekskursiya dərsləri müxtəlif obyektlərdə (tarixi abidələrdə, muzeylərdə, fermalarda, qoruqlarda təbiət qoynunda və s.) təşkil olunur. Dərslər rəngarəng keçirilir. Şagird özünü müstəqil hesab edir, onlar müstəqil olduğu üçün dərsə marağı çoxalır. Bunun nəticəsidir ki, şagirdlər obyekti çox asanlıqla müşahidə edir, öyrəndikləri fakt və hadisələr haqqında konkret və dolğun məlumatlar toplaya bilirlər. Ekskursiya dərsləri üç formada təşkil olunur:

1. Giriş ekskursiya dərsləri
2. Ümumiləşdirici ekskursiya dərsləri

3. Yekunlaşdırıcı ekskursiya dərsləri

**Giriş ekskursiya** dərsləri müvafiq oxu mətnləri əsasında aparılır. Müəllim əvvəlcədən mövzu haqqında şagirdlərə məlumat verir, obyektdə fakt və hadisələrin necə müşahidəsi haqqında xəbərdarlıq edir. Məsələn, şəhidlərə dair mətnlərin oxusundan əvvəl və ya conra şagirdlərin "Şəhidlər xiyabanı"na aparılması məqsədəuyğundur.

**Ümumiləşdirici ekskursiya** dərsləri müəyyən tədris bölməsi üzrə aparılır. Belə dərslər ən çox praktik (kolleksiya, maket, model) şəkildə təşkil olunur. Praktik şəkildə aparılan məşğələlərdə şagirdlərin müşahidə bacarıqları formalaşır.

**Yekunlaşdırıcı ekskursiya** dərsləri müxtəlif yollarla həyata keçirilir. Məsələn, müşahidə, müstəqil iş, sorğu, yazı işləri, kinofilmlərə baxış, qlobus və xəritə, şəkil, sxemlər və s. işlər nəzərdə tutulur.

Məktəb müşahidələri göstərir ki, müəllimlər yekunlaşdırıcı ekskursiya dərslərində ən çox sorğuya yer verirlər. Belə ki, şifahi sorğuda işlənən suallar həm şagirdlərin diqqətini obyektdə gördüklərinə yönəldir, həm onlara qaranlıq qalan məqamlar aydınlaşdırılır, həm də şagirdlər sualların cavabını öz cümlələri ilə verirlər.

İbtidai siniflərdə ekskursiya dərslərini göstərilən obyektlər üzrə təşkil etmək olar: memarlıq abidələri, tarixi muzeylər, tarixi yerlər, təbiət, təsərrufat və sənaye oyektləri və s.

Ekskursiya mövzularında xəritə və qlobuslardan istifadə edilməsi də mümkündür. Şagirdlərə hadisənin baş verdiyi yer haqqında aydın məlumat verilir. Coğrafi adların (dəniz, çöl, düzənlik, dağ, təpə və s.) yeri öyrənilir və göstərilir.

Folklor nümunələri və bədii əsərlərin məzmununa görə ekskursiya təşkil etmək zəruri hesab edilir. Çünki şagirdlər oxuduqları əsər əsasında əldə etdikləri bilikləri möhkəmləndirir, onu ümumiləşdirib, nəticə çıxarırlar. İkinci bir tərəfdən şagirdlər obyekti canlı görür və onlar hadisələrin gedişini ardıcıl danışmağı bacarırlar. Bu məzmunda ekskursiya dərslərinə əvvəlcədən ciddi hazırlıq aparılır.

Ekskursiya zamanı toplanan materiallar əsasında sərgilərin təşkili şagirdlər üçün xüsusi tərbiyəvi əhəmiyyət kəsb edir. Şagirdlərdə təbiətə sevgi, məhəbbət oyadır, onlarda vətənpərvərlik hisslərini formalaşdırır, ekoloji tərbiyənin aşılamasına zəmin yaradır. Belə sərgi şagirdləri təsəvvür və sadə anlayışlara istinad etməyə, həyatda emosional şərait yaradılmasına, oxunun şüurluğunu təmin etməsinə geniş imkanlar açır. Həmçinin diyarşünaslıq prinsipinin tələblərinə əməl edilir.

Ekskursiya dərsləri aşağıdakı mərhələlərlə aparılır.

- Müəllimin ekskursiya dərslərinə hazırlıq işi.
- Şagirdlərin ekskursiya dərslərinə hazırlaşması.
- Ekskursiya dərslərinin keçirilməsi.
- Ekskursiya dərslərinin yekunlaşdırılması.

Müəllim ekskursiya dərslərinə hazırlıq mərhələsində mövzunun məqsəd və vəzifəsini müəyyənləşdirir, onun keçirilmə vaxtını təyin edir. Dərs müddətində görüləcək işlər, obyekti hansı sahədən müşahidə etmək, tarixi məlumatlarla tanışlıq və işlər əvvəlcədən planlaşdırılır. Sonra müəllim şagirdlərə obyekt haqqında şifahi məlumat verir, ekskursiyanın məqsəd və vəzifəsi ətrafında söhbət aparır.

Ekskursiya haqqında şagirdlərdə aydın təsəvvür yaradılır. Obyektdə şagirdlərin davranışına uyğun olan tapşırıqlar verilir. Obyektə getmək və qayıtmaq marşrutu müəyyən edilir.

Şagirdlərin ekskursiya dərslərinə hazırlaşması haqqında müəllim onlarla geniş söhbət aparır. Müşahidə zamanı yeni fikir söyləməyi, hər şeyi aydın və konkret dərk etməyi tapşırır.

Ekskursiya dərslərinin keçirilməsi əvvəlcədən müəyyən edilmiş qayda üzrə aparılır. Dərs zamanı şagirdi maraqlandıran suallara  cavab verilir.

Ekskursiya dərslərinin yekunlaşması əsasən müşahidə yolu ilə aparılır. Müşahidə zamanı sualların cavabları, müşahidələrin nəticələri, mövzunun məzmunu ilə əlaqədar kitablarda, qəzetlərdə gedən məqalələrlə müqayisə etmək məqsədəuyğundur. Yekun dərslərdə maraqlı fakt və məlumatları yekunlaşdırmaq, şəkil çəkmək, şagirdin fikir və arzusu üzrə yazı işi aparmaq, təsviri

xarakterdə söhbət etmək, əyani vəsaitlər hazırlamaq və s. kimi işlər də görülməlidir.

Müşahidələr göstərir ki, yekun dərslərin digər dərslərdən müəyyən qədər üstünlük dərəcəsi vardır. Belə ki, bu dərslərdə şagirdlərin bilik və bacarıqları aşkarlanır, bilikləri yoxlanılır, mövzunun məqsədi və vəzifələri asanlıqla aydınlaşır, onlar asan yolla dərsi mənimsəyirlər.

## Əşya dərslərinin təşkili metodikası

İbtidai siniflərdə əşya dərslərinin tədris əhəmiyyəti ondan ibarətdir ki, şagird əşyanı görür və onun üzərində müşahidə apara bilir. Şagirdlər əşyanın digər əşya ilə oxşar cəhətlərini müqayisə edir, onları tutuşdurur, ümumiləşdirir, konkret olaraq bir nəticəyə gəlirlər.

Əşya dərslərində şagirdlərə əşyanın əlaməti və keyfiyyəti, xarakteri, rəngi, hərəkəti haqqında məlumat verilir. Həmçinin əşyaya aid olan atalar sözü, tapmacalardan istifadə dərsin daha maraqlı olmasını təmin edir. Əşya dərsləri sinifdə təşkil olunduğu üçün sinifdə nümayiş olunan əşyanın ən kiçik elementləri də təhlil edilir. Təhlil olunan elementlər üzrə esse yazıların aparılması dərsin səmərəliliyini artırır. Əşya dərslərinin təşkilinə aid aşağıdakı işlər nəzərdə tutulur:

a) əşyanın oxşar və fərqli cəhətlərinin müqayisə edilməsi;

b) əşya dərsləri zamanı şagirdlərin nitq inkişafına zəmin yaradılması;

c) əşyanın təsviri haqqında fikir söyləyəndə onun əlamətlərinin ardıcıllığının
gözlənilməsi;

ç) ekskursiya zamanı əldə edilən biliklərin əşya dərsləri ilə əlaqələndirilməsi;

d) əşyanı müşahidə və təhlil etdikdə, bilikləri ümumiləşdirmək və sistemləşdirmək nəzərdə tutulur;

e) şagirdlərin biliklərinin təkmilləşdirilməsi və möhkəmləndirilməsi;

ə) əşya dərslərində istifadə olunan əşyanın rəngi, forması, hərəkəti və s. kimi əlamətlər üzrə çalışmaların verilməsi;

f) əşya dərslərində kinofilm, diafilmlərdən istifadə edilməsi və s.

Əşya dərsləri oxu üzrə təbiətə aid mətnlərin tədrisi ərəfəsində təşkil edilir. Şagirdlər təbiətdə heyvan, quş və bitkilərin fauna və flora üçün səciyyəvi olan növlərini öyrənirlər. Əşya dərsləri üzrə aparılan söhbətlərdə məntiqilik və  ardıcıllıq gözlənilməlidir, əks halda şagird əşya dərslərindən bir nəticə çıxara bilməz.

Müəllim əşya dərslərinə pedaqoji tələblər baxımında düzgün yanaşarsa, şagird əşyada olan mühüm əlamətləri seçə bilir, onlardakı oxşar və fərqli cəhətləri ümumiləşdirib nəticə çıxarır.

Məsələn, müəllim sinifdə heyvan (keçi, pişik) şəkillərini nümayiş etdirir. Heyvanların və quşların əlamətləri haqqında söhbət aparır, sonra sinfə belə bir sualla müraciət edir:

-O hansı heyvandır ki, bığı var, saqqalı yoxdur? O hansı heyvandır ki, saqqalı var bığı yoxdur?

Şagirdlər bu sualdan sonra heyvanlar üzərində müşahidə aparır, onların xarici əlamətlərini nəzərdən keçirirlər. Bu dolaşıq fikri aydınlaşdırmağa çalışırlar. Məlum olur ki, keçinin saqqalı var, bığı yoxdur, pişiyin bığı var, saqqalı yoxdur. Şagirdlər heyvanların xarici əlamətlərini müqayisə edir, fikirlərini ümumiləşdirirlər. Əşya dərsləri vasitəsilə şagirdlər obyekti yaradıcı şəkildə öyrənir, onların əsas elementlərinə diqqət yetirirlər. Bu baxımdan əşya dərsləri oxu mətnləri ilə əlaqədar olaraq tədris olunur. Məsələn, bitki, quş və heyvanlara aid olan mövzuların tədrisində müəllimlər ən çox əşyalardan istifadə edirlər. Əşya dərslərini aşağıdakı kimi təşkil etmək olar:

- Bitki, quş və heyvanların xarici əlamətləri. Onların həyat tərzi, rəngləri, boyu və s. haqqında söhbət.
- Canlıların qidalanması və özlərini qoruması.
- Əşyaya aid paylama materiallarına dair suallara cavab verilməsi.
- Əşya dərslərinin şəkil, sxem, cədvəl üzrə təşkili .

Əşya dərsləri şagirdlərin bilik səviyyələrinə uyğun təşkil olunur. Şagirdlərin diqqətini əşyanın əsas əlamətlərinə yönəltmək üçün sullardan istifadə olunur. Əşya dərsləri şagirdləri həyatı düzgün dərk etməyə yönəldir. Olara təbiəti sevməyi və hər zaman müşahidə etməyi öyrədir.

**Ümumiləşdirici dərslərin təşkili metodikası**

Ümumiləşdirici dərslərin təşkilində məqsəd dərslikdəki iri mövzular üzrə şagirdlərin sinifdə, sinifdənxaric məşğələlərdə sərbəst vaxtlarda əldə etdikləri təəssüratı, bilik, bacarıq və vərdişləri ümumiləşdirmək, sistemə salmaqdır. Oxu dərslikləri fəsli-tematik prinsip əsasında tərtib edildiyindən ümumiləşdirici dərslərin yerini və məzmununu müəyyənləşdirmək asandır. Belə ki, hər bir tədris vahidinin  başlanğıcı və sonu məlumdur. Hər hansı mövzu fəslə, tarixi günün qeyd edildiyi, vaxta müvafiq gəlir. Tədris vahidinin sonunda verilən sual və tapşırıqlar ümumiləşdirmə aparmağa xidmət edir. Bu sual və tapşırıqların tədris vahidini əhatə etməsinə baxmayaraq, ümumiləşdirici dərsi onlarla məhdudlaşdırmaq olmaz.

Ümumiləşdirici dərslər oxu dərslərində verilmiş mövzularla əlaqədar olaraq şagirdlərin əldə etdikləri bilikləri sistemə salır və möhkəmləndirilir. Əşya və hadisənin əlaməti, keyfiyyəti haqqında konkret faktlar öyrənməklə yeni biliklər qazanılır. Əldə edilən nəticələr, fakt və hadisələr şagirdin təfəkkür fəaliyyətinin məhsuluna çevrilir.

Ümumiləşdirici dərslər interaktiv metodlardan istifadə olunmasını tələb edir. Dərsdə təlim innovasiyalarının (yeniliklərinin) tətbiqi şagirdlərin əlavə məlumatlarla biliyini, bacarığını, dünyagörüşünü genişləndirir. Bundan əlavə mətnin oxunması, diafilmlərə, fotoalbomlara, illüstrasiyalara, şəkillərə baxılması, qrammofon valları və maqnitofon lentlərinin dinlənilməsi, şəkillərin çəkilməsi, qeydlərin aparılması, lüğət üzrə işlər, müvafiq atalara sözləri və tapmacaların toplanması və s. işlər görmək mümkündür. **Ümumiləşdirici dərsləri yeni bilik və bacarıq-**

**ların verilməsi, biliklərin yoxlanması və hesaba alınması dərsi kimi də dəyərləndirmək olar.**

İbtidai siniflərdə ümumiləşdirici dərslərdə tədris vahidinə daxil olan hər bir mövzunun şərhi üçün vaxt ayrılır, fakt və hadisələrin təhlilinə yer verilir. Bəzən dərsdə elə hallar olur ki, şagirdlər bəzi anlayışları dərk etmirlər, bu anlayışları düzgün dərk etmək üçün ümumiləşdirici dərslərdən istifadə edilir. Ümumiləşdirici dərslərdə konkret olan fakt və hadisələri öyrətmək, öyrənmək nəzərdə tutulur. Ona görə də ümumiləşdirici dərsləri təkrar kimi düşünmək olmaz, bu dərsin özünəməxsus prinsipi, metod və priyomları vardır. Hər bir ümumiləşdirici dərsin məzmunundan asılı olaraq, qarşıya aydın və dəqiq təlim məqsədləri qoyulur. Bu məqsədləri həyata keçirmək üçün müxtəlif növlü çalışma və məşğələlərdən istifadə edilir. Məsələn, mətnin məzmununu nağıl etmək, seçmə oxu aparmaq, hadisə və faktlara aid şəkil çəkmək, hadisə və əşyalar üzərində təsəvvürləri canlandırmaq, diafilm, kinofilmlərə baxmaq, əyani vasitələrdən (şifahi danışmaq yazılı iş aparmaq), cədvəl və sxemlərdən istifadə etmək və s. İbtidai siniflərdə ümumiləşdirici dərslər ən çox müşahidə əsasında təşkil olunur.

Şagirdlər mətnin məzmununa uyğun atalar sözü, tapmacalar, bayatılardan misallar söyləyir, yaxud əvvəlcədən mətnə aid esse hazırlayırlar. Bu yolla sinifdə şagirdlərin yaradıcılıq fəaliyyəti artır. Mətni öyrəndikləri digər mövzularla əlaqələndirməyə başlayırlar.

Məsələn: Ekologiyanın qorunmasında məktəblilərin gücləri çatan əməkdə iştirakından danışmaları böyük maraq doğurur. Onlar ağacların dibini belləyib, qışa necə hazırlıq gördüklərini nəql edirlər. Onların payıza dair yazdıqları esselərdən nümunələr oxuynub təhlil edilir. Çəkdikləri şəkillər müzakirə olunur, herbarilər üzərində müşahidələr aparılır. Payızla əlaqədar tapmacalar, viktorinalar şagirdləri düşündürür, onların yaradıcı fəallığını artırır.

III sinifdə "Tarixi şəxsiyyətlər" tematikası üzrə şagirdlər öyrəndikləri "Müdrik rəhbər", "Atatürk niyə ağladı?", "Şah

İsmayıl", "Hacı Zeynalabdin" və bu kimi başqa mətnlərdən alınan bilikləri sistemə salmaq üçün ümumiləşdirmə aparılır.

Mövzular məzmununa görə qrıplaşdırılır, suallarla sinfə müraciət olunur:

1. Müdrik rəhbər kimdir? Müdrik rəhbər haqqında daha nə deyə bilərsiniz?

2. Atatürk kimdir? O, uşaqları nə üçün sevirdi?

3. İlk Azərbaycan dövlətinin qurucusu kimdir? Gilan hakimi balaca İsmayılı niyə gizlədirdi?

4. Hacı Zeynalabdinin xeyirxahlığına dair nə bilirsiniz? O, üzüyü niyə balığın ağzına atdı? və s.

Suallar üzrə müsahibə qurtardıqdan sonra müəllim Azərbaycanın tarixi şəxsiyyətləri haqqında şagirdlərə bir daha məlumat verir.

II-IV siniflərdə "Şah İsmayıl", "Qılınc həmin qılıncdır", "Əmir Teymur", "Hacı Zeynalabdin", "Bahalı xalça", "Makedoniyalı İsgəndər", "Zəmzəm suyu", "Qaraca qız və Ağca xanım", "Lalə və Məryəm" kimi güc-qüvvət, mətanət, əzmkarlıq, sərkərdəlik bacarığı, xeyirxahlıq, səxavətlilik, cəsarət, mərdanəlik, paklıq, saflıq, müqəddəslik, fədakarlıq kimi müqəddəs hissləri bədii şəkildə təcəssüm etdirən mətnlərin ümumiləşdirilməsi müasir həyatla əlaqələndirilməlidir.

Müəllim tarixi dövrləri təhlil etdikdən sonra müasir dövrdə vətənin azadlığı uğrunda canlarından keçən vətən şəhidlərindən, onların igidliklərindən söhbət açır.

Ümumiləşdirici dərslərdə iş vərəqlərindən istifadə məqsədəuyğundur. Belə iş vərəqləri şagirdlərin, müşahidəetmə bacarığının, təfəkkürünün, nitq mədəniyyətinin inkişafında mühüm rol oynayır. Ümumləşdirici dərslərin hər bir sinif üçün öz tələbləri vardır. I siniflərdə anlayış yə təsəvvürlər üzrə sadəcə olaraq iş aparmaq, dərsdə əyani vəsaitdən istifadə etmək, mövzu üzrə oxunu təşkil etmək, müəllimin təklifi ilə müsahibəyə hazırlaşmaq, paylama materiallarından istifadə etmək və s.

II siniflərdə şagirdlər əldə etdikləri bilikləri dərinləşdirir. Onlar suallara ətraflı münasibət bildirir, öyrəndiyi və eşitdiyi

tarixi məlumatlar haqqında söhbət aparır, mətindəki epizodları təsvir edirlər və s.

III sinifdə I-II siniflərdə görülən işlər dərinləşdirilir. Hadisə və faktları müqayisəetmə, qruplaşdırma, tutuşdurma, sxem və cədvəllərdən istifadəetmə şagirdləri təbiətin fəsillərə görə dəyişməsini izləmək, hava təqvimi üzrə işləmək, insan əməyinə hörmət etmək, sinifdənxaric oxunu yada salmaq və s. bacarıqlara alışdırır.

IV siniflərdə I-III siniflərdəki işləri davam etdirməklə yanaşı, suallar düşündürücü və istiqamətverici qoyulur, mövzu müxtəlif fənlərlə əlaqələndirilir.

Ümumiləşdirici dərslər bədii əsərlər üzrə də təşkil edilir. Ümumiləşdirici dərslərdə istifadə edilən bədii əsərlər şagirdlərdə bədii yaradıcılığa həvəs oyadır, hadisələrə obrazlı münasibət bəsləməyi öyrədir, müşahidə qabiliyyəti aşılayır, emosional duyğular və s. hisslər yaradır.

- Ümumiləşdirici dərslərdə inteqrasiya imkanları daha güclü olur. Belə ki, şagirdlər öyrəndikləri yeni sözlərin mənasını anlamağa çalışarkən müxtəlif fənlər haqqında məlumatlar əldə edirlər (məsələn, xarici dil, informatika, riyaziyyat, müsiqi və s.).
- Yaxınmənalı və əksmənalı, alınma sözləri fəqləndirərkən digər fənlərə aid sadə termin və adlara müraciət etməli olurlar.
- Müxtəlif bədii mətnləri oxuyarkən bədii ədəbiyyatla inteqrasiyaya müraciət edirlər.
- Hərflərin element və konfiqurasiyasını öyrənərkən daha çox riyaziyyatın inteqrasiyasına müraciət edirlər.
- Maraqlarına uyğun mətn və şeir nümunələri öyrənərkən müxtəlif fənlərin inteqrasiyası dərsin şagirdlər tərəfindən daha uzun müddət yadda saxlanılmasına səbəb olur.
- Əməli yazılardan istifadə zamanı təsviri incəsənət, informatika fənlərinin inteqrasiyasına müraciət edirlər.

- ➢ Ad, əlamət və hərəkət bildirən sözləri fərqləndirərkən təbiətdə, ətraf aləmdə gördüklərinə əsaslanmaqla şagirdlər daha çox həyat bilgisi fənninə müraciət edirlər.

Qeyd etmək lazımdır ki, inteqrasiya ümumiləşdirici dərslərdə şagirdlərin təlim fəaliyyətinin yüksəldilməsində mühüm rol oynayır. İnteqrasiya şagirdlərə yalnız biliklər və fənlər arasında olan əlaqələri aşkarlamağa imkan vermir, həm də onları gələcək həyata hazırlayır, onlarda bir sıra dəyərli xarakter xüsusiyyətlərin meydana gəlməsinə səbəb olur.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IV siniflər). Bakı, 2012
2. Balıyev H.B. Ana dilinin tədrisi metodikası. Bakı: 3 №li Sənaye Liseyi, 1997, 102 s.
3. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 404 s.
4. Həsənov M., Cəfərova N., Bəhmənova C. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Bakı:Elm və təhsil, 2014, 70 s.
5. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.
6. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı, Nurlan, 2003, 408 s.
7. Tağıyev B. Oxu təlimi. Bakı:ADPU, 315 s.

# VIII FƏSİL

# SİNİFDƏNXARİC OXUNUN TƏŞKİLİ METODİKASI

## Sinifdənxaric oxunun məqsəd və vəzifələri

**Əsas istiqamətlər:**
**Sinifdənxaric oxunun məqsəd və vəzifələri**
**Şagirdlərin mütaliə marağının inkişaf etdirilməsi**
**Sinifdənxaric oxunun ümumi-pedaqoji məsələləri**
**Sinifdənxaric oxu üçün materialların seçilməsi**
**Sinifdənxaric oxunun təşkili metodikası**
**Sinifdənxaric oxunun yeri və kitabla ünsiyyət mədəniyyəti**

Şagirdlərdə Azərbaycan dilinə məhəbbət hissini qüvvətləndirməkdə, dilimizin sirləri və bədii sözün ecazkar qüvvəsi ilə onları daha yaxından tanış etməkdə sinifdənxaric işlərin yüksək elmi-metodik səviyyədə təşkili zəruridir.

Müasir dövrdə məktəb islahatı təlim-tərbiyə işinə də yeni mövqelərdən yanaşmağı tələb edir. Bu gün şagirdlərin fəallıq və müstəqilliyinin gücləndirilməsi, onların idrak fəaliyyətinin səmərəli təşkili böyük əhəmiyyət kəsb edir. Şagirdlərə bilik həyatla əlaqələndirilərək verilməli, əqli və zehni fəaliyyətləri inkişaf etdirilməlidir.

İnformasiyalar axınının təsəvvürəgəlməz dərəcədə artdığı indiki dövrdə gənc nəslin təlim-tərbiyə sahəsindəki tələbatını sinifdə yalnız "Azərbaycan dili" dərslərinin keçirilməsi ilə ödəmək mümkün deyil. Ona görə də sinifdənxaric məşğələlərdə ibtidai sinif şagirdlərinə yaş və bilik səviyyəsinə uyğun bədii (nağıl, hekayə, şeir və s.) və elmi-kütləvi (tarix, coğrafiya, informatika və s.) əsərlər, qəzet və jurnal məqalələri oxunub müzakirə edilməlidir.

Sinifdənxaric oxunun təşkili üzrə aparılan işlər ibtidai siniflərdə oxu təliminin mühüm sahələrindəndir. Bu işin səmərəli təşkili isə şagirdlərin intellektual və emosional inkişafına, həmçinin müxtəlif fənlər üzrə biliklərin dərindən və şüurlu

mənimsənilməsinə güclü təsir göstərir. Sinifdənxaric oxunun məqsədi I—IV sinif şagirdlərinin oxu və yazı vərdişlərinin təkmilləşdirilməsini təmin etməklə, təbiət və ictimai həyat haqqında onların dərsliklərdən aldıqları bilikləri genişləndirmək, təfəkkürünü bədii obrazlarla zənginləşdirmək, nitqini, fantaziyasını inkişaf etdirmək, vətənə, xalqa, ana dilinə, elmə və s. məhəbbət hissləri tərbiyə etmək, humanist hisslər aşılamaq, onlarda kitabla müstəqil işləməyə həvəs yaratmaqdır. Sinifdənxaric oxunun qarşısında aşağıdakı vəzifələr durur:

- ❖ şagirdlərdə uşaq ədəbiyyatına maraq və məhəbbət hisslərinin tərbiyəsi;
- ❖ şagirdlərin oxu vərdişlərinin təkmilləşdirilməsi;
- ❖ oxunan materialın məzmunundan tərbiyəvi ideyanın çıxarılması;
- ❖ vətən, onun qüdrəti, xalqın qəhrəman keçmişi, bugünü və gələcəyi, doğma təbiətimizin zənginliyi və s. əlaqədar şagirdlərin təsəvvürlərinin zənginləşdirilməsi;
- ❖ şagirdlərə ana dilinin dərindən mənimsədilməsi, onun gözəlliyinin, dərk etdirilməsi, estetik zövqün inkişafı, nitq və təfəkkürlərinin inkişaf etdirilməsi.

Sinif oxusu prosesində şagirdlərin əldə etdikləri məlumatlar sinifdənxaric oxunun köməyi ilə dolğunlaşır, tamamlanır. Sinifdənxaric oxu üzrə vərdişlər kiçiksaylı məktəblilərdə tədricən yaranır. Onlar bir neçə il ərzində pillə-pillə bu vərdişlərə yiyələnir, müstəqil oxu üçün ədəbiyyatın növləri ilə tanış olur, arzu və marağına müvafiq ədəbiyyat seçməyi öyrənirlər.

Sinifdənxaric mütaliə uşaqlarda yüksək insanı hisslərin, əxlaqi keyfiyyətlərin tərbiyə olunmasını təmin edir. Bir çox hallarda müəllimin rəhbərliyi, istiqaməti olmadan da, mütaliənin təsiri ilə şagirdlərdə özünü tərbiyələndirmə üzrə iş təmin edilir.

Sinifdənxaric oxuya savad təlimi dövründən başlamaq lazım gəlir. Savad təlimi dövründə başlanan bu işin xarakteri, həcmi, məzmunu ildən-ilə dəyişməklə məktəbi başa vurana-

dək davam edir. İstər sinif oxusu, istərsə də sinifdənxaric oxu uşaqlarda bilik mənbəyi olan kitaba məhəbbət tərbiyə edir.

I sinifdə şagirdlər əsasən savad təlimini başa vurduqlarından, oxu texnikasına yiyələndikdən sonra müstəqil mütaliəyə başlayırlar.

II sinifdə sinifdənxaric oxu məşğələlərinə oxu dərslərinin hesabına həftədə bir saat ayrılır. Həmin dövrdə şagirdlər müstəqil mütaliə üzrə müəyyən vərdişlərə yiyələndiklərindən III—IV siniflərdə bu işə iki həftədə bir saatın verilməsi nəzərdə tutulur.

Sinifdənxaric oxu müəllim, kitabxanaçı və valideynin məsləhəti və köməyi ilə getməlidir. Müəllim hər bir şagirdin mütaliə marağının dairəsini, oxu texnikasına yiyələnmə səviyyəsini, ümumi inkişafını nəzərə alaraq müvafiq əsərin oxunmasını tövsiyə etməlidir. Məsələn, yalnız nağıllara uyan, qəhrəmanın faciəsi ilə qurtaran təsirli hekayələr oxumağa adət etmiş uşağın yüngül xarakterli əsərlər, komik səhnələr oxuması onların həyatındakı boşluğu doldurur. Müəllim çalışmalıdır ki, şagird yalnız bədii əsər deyil, elmi-kütləvi əsər də oxumağa vərdiş etsin. Bu işin təmin olunmasına məktəb kitabxanaçısı da cəlb olunmalıdır.

Kitabxanada kartotekalardan əlavə şəkilli siyahı, yeni kitablar lövhəsi də olmalıdır. Şəkilli siyahıda hər bir kitab haqqında qısa annotasiya verilməlidir.

Kitabxanada ədəbi səhərciklərin, kitab sərgilərinin, viktorinaların, görüşlərin təşkili çox vacibdir. Bütün bunların köməyi ilə şagird kitabı yalnız şəkillərə görə deyil, şüurlu seçir. Kitabın seçilməsində uşağa müəllim, həmçinin kitabxanaçı istiqamət verə bilər.

Kiçikyaşlı məktəblilər bir müddət şüurlu oxumağı bacarmır, kitabın şəkillərinə baxmaqla, onu vərəqləməklə kifayətlənirlər. Bəzən kitabın ən maraqlı yerlərini oxuyur, məzmunu ilə tanış olduqdan sonra kitabxanaya qaytarırlar.

Şagird müstəqil seçdiyi kitabı qaytararkən kitabxanaçı səmimi dialoq şəraitində uşağın onu oxuyub-oxumamasını,

məzmununu necə başa düşdüyünü, nə kimi tərbiyəvi nəticə çıxardığını müəyyən edə bilər.

Sinifdənxaric oxunun üçüncü forması onun evdə təşkilidir. Müəllim hər bir şagirdin evdə kitabxanasının təşkilinə nail olmalıdır. Ev kitabxanasının yaradılması və evdə uşaqların müstəqil mütaliəsinin təşkili ilə əlaqədar valideynlərə məsləhət verilməlidir.

## Şagirdlərin mütaliə marağının inkişaf etdirilməsi

İbtidai siniflərdə şagirdlərin mütaliə marağının inkişaf etdirməsi mühüm əhəmiyyət kəsb edir. Kitabxanada kitab biblioqrafiyası ilə işləmək bacarığı, kitabları kitab rəfinə düzmək qaydalarının öyrənilməsi, kitabları biblioqrafiya ilə seçmək, il boyu oxunan kitabların siyahısını tərtib etmək, müstəqil mütaliə marağı üçün dəftərin tərtibi, oxunmuş əsərlərin annotasiyası, ədəbi-bədii disputlar, məktəbli konfranslarında oxunmuş əsərlər üzrə fikir söyləmək, sinifdənxaric oxunulmuş əsərləri oxu dərsliyində olan mövzularla əlaqələndirmək və s. bura daxildir.

Azərbaycan, türk dünyası, xarici ölkələrin klassik və müasir uşaq yazıçılarının əsərlərinin məzmununun təhlili, əsərlərin ideya-məzmunu ilə tanışlıq zamanı uşaqda yaranan emosiya və Azərbaycan dilinə görə onun uyğunluğunu, folklor nümunələrinin təlim-tərbiyə baxımından təhlili, əsərdəki fantastik fikirlərin təhlili, uşaqların ədəbi nümunələrə qarşı münasibəti və s. cəhətlərin formalaşması mütaliə zamanı baş verir.

Şagirdlərin müstəqil mütaliə maraqlarının inkişafına birinci siniflərdə ilboyu həftədə iki saat vaxt nəzərdə tutulur. II-IV siniflərdə ilboyıı həftədə bir saat vaxt ayrılır.

İbtidai siniflərdə oxu dərsləri ona görə geniş və dərin surətdə təşkil edilir ki, oxu mətnləri şagirdlərin ümumi mədəni səviyyəsini yüksəldir, ikin elmi biliklərin mənimsənilməsunə zəmin yaradır. Bu zaman şagirdlərin lüğət ehtiyatı zənginləşir, rabitəli nitqləri inkişaf edir. Oxu təlimi ibtidai siniflərdə müəyyən sistemlə aparılır və ədəbiyyat kursunın üzvi hissəsi kimi

təşkil olunur. I sinifdə şagirdlər oxu bacarıqlarına yiyələnirlər. Bu bacarıqlar II-IV siniflərdə oxu vərdişlərinə çevrilir. Oxu təlimində sözləri şüurlu, düzgün və ucadan oxumaq, oxu zamanı cümlələrdə intonasiyanı və fasiləni gözləmək, mətn oxusunda vurğudan düzgün istifadə etmək, müəllimin suallarına məzmunlu cavab verməyə, səy göstərmək, şəkil və təbiət təsvirlərini xarakterizə edən söz və ifadələri seçmək, ekskursiya və müşahidə mövzularını oxu materialları ilə əlaqələndirmək, rabitəli nitqi inkişaf etdirmək və s. məsələlər həyata keçirilir. Şagirdlərin şifahi nitq bacarıqlarının inkişaf etdirilməsində və rabitəli nitqinin formalaşmasında müntəzəm və sistemli təşkil olunan oxu dərslərinin rolu böyükdür.

Şagirdlər ədəbiyyatın nəzəri məlumatlarından - şeir, hekayə, təmsil, nağıl, tapmaca, atalar sözləri, laylalar, oxşamalar, saymacalar, halovalar və düzgüləri məzmununa görə bir-birindən fərqləndirməyi öyrənirlər.

Birinci sinifdə şagirdlərin müstəqil mütaliəsində kitaba maraq yaratmaq məqsədi başlıca amil kimi nəzərdə tutulur.

Sinifdənxaric **o**xu təlimi şagirdlərdə kitaba maraq oyatmaq, onu sevmək, kitabla rəftar etmək, kitabları seçmək qaydalarını öyrənmək, sinifdə maraqlı, sadə, süjetli şəkillərdən ibarət olan kiçik həcmli bədii kitablardan guşə yaratmaq, həmin kitabları oxumaq, müzakirə etmək məqsədi daşıyır. Oxunmuş əsərlərin məzmunu təlim-tərbiyəvi əhəmiyyət daşımalı və bu əsərlərin həcmi 2-3 səhifədən ibarət olmalıdır. Belə mövzular şagirdlərin diqqətini çəkməli, ən çox fantastik qəhrəmanlar, şən və əyləncəli hekayələr olmalıdır. Şagirdlərlə il ərzində ən azı 30-40 bədii əsər üzərində bu məzmunda iş aparılmalı və onlar yadda qalan epizodları şifahi olaraq danışmağı bacarmalıdırlar.

**II sinifdə** - şagirdlərin I sinifdə qazanılmış bilikləri dərinləşdirilməklə yanaşı, aşağıdakı işlər əlavə olunur; müstəqil oxu texnikasına yiyələnməyə sahib olmaq, şüurlu, düzgün və surətli oxu vərdişlərini formalaşdırmaq, mövzunun məzmununa aid (müəllimlə birlikdə) plan tərtib etmək, oxunmuş mətni müfəssəl və yığcam danışmağı öyrənmək, söz və ifadələrin cümlələrdə

tutduğu yerini izah etmək, sinif qarşısında danışmağı öyrənmək, əməli yazılar yazmaq bacarığı yaradılır.

Ədəbiyyatın nəzəri məlumatlarından: - I sinifdə öyrədilən nəzəri məlumatları dərinləşdirməklə bərabər folklor nümunələrinin (nağıl, atalar sözü, tapmaca, bayatılar və s.), bədii əsərlərin (hekayə, şeir, təmsil) məzmımu haqqında ilkin sadə məlumatlar verilir.

**II sinifdə** şagirdlərin müstəqil mütaliə marağına (sinifdənxaric oxuya) həftədə bir saat tədris vaxtı verilir. II sinifdə mütaliə marağı üzrə aparılan işlər nisbətən mürəkkəbləşir. Mütaliəyə maraq əsasən oxu tematikasına müvafiq olaraq təşkil olunur. Bu dərslərdə şagirdlərin əsərdəki surətləri qiymətləndirmək, şifahi, bədii danışığa nail olmaq bacarığının yaradılması istiqamətində aparılan işlər mühüm əhəmiyyət kəsb edir. Şagirdlər il ərzində tanış olduğu bədii əsərlərə və folklor nümunələrinə annotasiya yazmağı, əsərdəki surətləri təsvir edən şəkillər çəkməyi öyrənirlər. Sinifdənxaric oxu dərslərində qəzet və jurnal materiallardan istifadə müsbət nəticə verir. Mütaliə marağının əsas məqsədi şagirdlərin qazanılmış bilik və bacarıq vərdişlərini möhkəmlətmək, mövzu üzərində müstəqil işlərini təşkil etməkdir. Kitabxanada kitablarla işləmək kartotekadan və kataloqdan istifadə etmək bacarığının yaradılması da diqqət mərkəzində olan məsələlərdəndir.

**III sinifdə** - I-II siniflərdə qazanılmış biliklər təkmilləşir. Rəvan oxu, izahlı oxu, ifadəli oxu vərdişlərinin (danışdığın kimi oxu, obrazlı oxu, oxu texnikasını gözləməklə oxu və s.) formalaşdırılması, əsərin məzmunu əsasında xalqın tarixi və cəmiyyətin inkişafı haqqında söhbətlərin aparılması şagirdlərin ətraf aləm haqqında təsəvvür və anlayışlarını daha da genişləndirir, dərinləşdirir. Şagirdlərə yazıçıların həyat və yaradıcılığı haqqında məlumat verilir, onlarla oxunan əsərə dair dialoji və monoloji danışıqlar təşkil olunur. III sinif şagirdləri əsərdəki obrazların davranışını qiymətləndirmək bacarığına yiyələnir və seriya, süjetli şəkillər üzrə, müşahidələr əsasında kiçik həcmli hekayələr yazırlar.

Şagirdlərin ədəbiyyatın nəzəri məsələlərinə aid I-II siniflərdə qazandıqları bilikləri dərinləşir, onlar əməli (elmi-kütləvi) əsərlərin məzmunu ilə bədii əsərlərin məzmununda olan oxşar və fərqli cəhətləri izah etməyi bacarırlar.

Bu sinifdə oxu tematikasına müvafiq olaraq, təbiət və cəmiyyətin həyatını təsvir edən bədii əsərlərlə əlaqəli folklor nümunələri oxunur. Elmi-kütləvi əsərlərin oxunuşu üzrə iş aparılır. Şagirdlər kitab seriyaları və biblioqrafik işlərlə tanış olur, Azərbaycan, türk dünyası və dünya yazıçılarının əsərlərini oxuyur, əsərin məzmununa qiymət verirlər.

**IV sinifdə** I-III siniflərdə qazanılmış biliklər təkmilləşdirilir. IV sinifdə oxu təlimi həm dərs, həm də həyatı dərk etmək vasitəsi kimi mühüm rol oynayır. Bu baxımdan dərslikdəki mövzular qruplaşdırılır:

I. Folklor nümunələri (nağıl, atalar sözü, tapmaca, bayatı, laylalar, yanıltmaclar və s.) əxlaqi-tərbiyəvi cəhətdən şagirdlərin diqqətinə çatdırılır. Həmçinin müəllif əsərləri və dünya xalqlarının folklorundan nümunələr oxunur.

II. Xalqın tarixini əks etdirən materiallar verilir.

III. Təbiətin gözəlliyini təsvir edən əsərlər oxunur.

IV. Oxu dərslərində verilən mövzular iki istiqamətdə qruplaşdırılır: a)təlim-tərbiyəvi əsərlər; b)ədəbi bilikləri dərinləşdirən əsərlər.

IV sinifdə mətnlərin oxusu zamanı əsərin məzmunu və ideyası təhlil olunmalı, sual və tapşırıqlar üzərində iş getməli, tərbiyəvi xarakterli iş aparmaqla yanaşı, şagirdlərın maraq dairəsi nəzərə alınmalıdır. Şagirdlərin təfəkkürünü inkişaf etdirmək, onların təbiət və cəmiyyət haqqında təsəvvürlərini genişləndirmək, yaradıcı sənətkarların həyat və yaradıcılığı haqqında kurikulum tələblərinə uyğun məlumat vermək zəruridir. Mətnin məzmununda oxşar və fərqli cəhətləri müqayisə etmək, əsər haqqında müstəqil fikir söyləmək, bədii biliklərə zəmin yaratmaq və s. vacibdir.

Ədəbiyyatın nəzəri məsələləri haqqında biliklər Ivsiniflərdə bir qədər də dərinləşir. Hekayə, şeir və təmsillərin məz-

munundakı fərqli cəhətlər nəzərə alınır. Bədii əsərlərin növləri haqqında bilik səviyyəsinə müvafiq olaraq, folklor və lirik nümunələr təhlil edilir. Əldə edilmiş biliklər praktik yolla ümumiləşdirilir.

İbtidai siniflərdə şagirdlərin intellektual inkişafı üçün əsas vasitələrdən biri oxu mətnləridir, çünki şagird oxu materialları vasitəsi ilə tarixi fakt və hadisələri öyrənir, təbiət və cəmiyyətin inkişafı haqqında biliklərə sahib olurlar.

Şagirdlərin biliklərinin həcmi genişləndikcə, onlarda intellektual yaradıcılıq və təşəbbüskarlıq hissi artır, vətənpərvərlik tərbiyəsi, məsuliyyət hissi güclənir. İbtidai siniflərdə vətənpərvərlik tərbiyəsinə aid mövzular I sinif "Azərbaycan dili" dərsliyindən başlanır, IV sinif dərsliyində də davam edir. Bu siniflərdə vətənpərvərlik tərbiyəsi sinifdən-sinfə dərinləşir, genişlənir, gələcək üçün özül yaranır.

Məlumdur ki, ibtidai sinif "Azərbaycan dili"dərsliklərində mətnin məzmununa uyğun şəkillər çəkilir. Bu şəkillər şagirdlərin oxuduqları əsərdəki əşya və hadisələr haqqında məlumatlar əldə edə bilməsinə, əşya və hadisə haqqında müşahidələrini söyləməsinə şərait yaradır. Belə müşahidələr ilk növbədə şagird təfəkkürünü gücləndirir, rabitəli nitqini inkişaf etdirir.

## Sinifdənxaric oxunun ümumpedaqoji məsələləri

Müasir dərsin tələblərini yerinə yetirmək, şagirdləri dərin biliklə silahlandırmaq üçün onları daim düşündürmək və axtarışa sövq etmək lazımdır. Şagirdlərin qazandıqları biliklərin sistemə salınmasında və dərinləşdirilməsində sinifdənxaric oxunun rolu böyükdür. Sinifdənxaric oxu müntəzəm və düzgün təşkil olunduqda şagirdlər aldıqları biliklərin nəyə gərək olduğunu, onların praktik iş və həyat üçün vacibliyini dərk edirlər. Sinifdənxaric oxu zamanı müəyyən pedaqoji tələblər gözlənilməlidir:

- Sinifdənxaric oxu üçün materiallar seçilərkən şagirdlərin yaş və bilik səviyyəsinin nəzərə alınması.

- ➢ Sinifdənxaric oxunun müntəzəm, mütəşəkkil və sistemlə aparılması.
- ➢ Sinifdənxaric oxunun qiraət dərslərində əldə edilən biliklərlə əlaqələndirilməsi.
- ➢ Şagirdlərə təqdim olunan materialların həyatımızın, məişətimizin müxtəlif sahələrini əhatə etməsi.
- ➢ Şagirdlərə verilən sual və tapşırıqların əsərin əsas məğzini üzə çıxarmağa xidmət etməsi.
- ➢ İl boyu şagirdlərə tövsiyə olunan əsərlərin rəngarəngliyinin təmin olunması.
- ➢ Tövsiyə olunan əsərdə yazıçının məqsədinin, əsərin məzmununun müəyyənləşdirilməsi və tərbiyəvi ideyanın çıxarılması.
- ➢ Əsərin məzmununun müasir həyatla, şagirdlərin müşahidələri və şəxsi təcrübələri ilə əlaqələndirilməsi.
- ➢ Əsərin müzakirəsində şagirdlərin yaradıcı fəallığının, fantaziyasının, rabitəli nitqinin tədricən inkişaf etdirilməsi.
- ➢ Əsərin məzmununa şagirdlərdə emosinal münasibət bildirmək bacarıqlarının aşılanması və s[1].

Sinifdənxaric oxu ilə əlaqədar müəllimlərimizi həmişə belə bir məsələ düşündürür: görəsən, bir sinifdənxaric oxu dərsi üçün hər dəfə neçə əsərin müzakirəsini tapşırmaq faydalı olardı? Əlbəttə, bu məsələ müəllimdən bir qədər dərindən fikirləşmək, götür-qoy etmək tələb edir. Müəllim şagirdlərin bu sahədəki təcrübəsini və ümumi inkişafını, onlara tövsiyə etdiyi əsərin həcmini diqqət mərkəzində saxlamalıdır.

Əgər müəllimin məqsədi tutaq ki, IV sinifdə sinifdənxaric oxu məşğələsində müəyyən bir kitabın müzakirəsini keçirməkdirsə, o zaman sinfə yalnız bir kitab verə bilər. Yaxud III-IV siniflərdə I və II yarımilin sonunda sinifdənxaric oxu materiallarının xatırlanmasına həsr olunmuş toplanış keçiriləcəksə, bu zaman müəllim şagirdlərə 8-10 kitabın təkrar

---

[1] Bax: Sinifdənxaric oxunun səmərəli təşkili. Metodik tövsiyə, Bakı, 1988, səh. 4.

oxusunu tövsiyə edə bilər. Qalan bütün hallarda sinifdənxaric oxu üçün şagirdlərə 2-3 kitabın oxusu tapşırılmalıdır. Həmin kitabları əvvəlcədən müəllim özü oxumalı, onların məzmunu, ideyası ilə əlaqədar sual və tapşırıqlar hazırlamalıdır. Müzakirə prosesində hər dəfə şagirdlərin diqqətini tərbiyəvi nəticənin çıxarılmasına yönəltməlidir. Əvvəlcədən sinfə verilən sual və tapşırıqlar şagirdlərin oxuya məsuliyyətini artırır, hər kəs sual və tapşırıqlara müstəqil cavablar axtarır, araşdırır, obrazların fəaliyyətini qiymətləndirir, yazıçının məqsədini başa düşür. Həmçinin bu sual və tapşırıqlar şagirdlərin bilik səviyyəsini müəllimə diktə edir.

Sinifdənxaric oxu məşğələləri beş mərhələdə aparıla bilər. Giriş müsahibəsi: əsərin müəyyən hissəsinií ucadan (I sinifdə yalnız müəllim, II-IV siniflərdə müəllim və bir-iki şagird tərəfindən) oxunması (və ya nağıl olunması); əsərin müzakirəsi; müzakirənin yekunlaşdırılması; növbəti sinifdənxaric oxu üçün tövsiyələrin verilməsi.

Birincidə müəllim şagirdlərin əvvəlki məşğələdə tövsiyə edilən əsərləri nə dərəcədə oxumasını müəyyənləşdirir. Sinifdə danışmaq, fikir söyləmək üçün canlı situasiya yaradır. İkincidə əsərin məzmunu və ideyası, başlıca obrazlar şagirdlərə xatırladılır. Üçüncü də əsərin məzmunu və ideyasını şagirdlərin nə dərəcədə mənimsədikləri aşkara çıxarılır.

Oxucuların hər biri məzmuna, obrazların hərəkətinə şəxsi münasibətini bildirir. Müəyyən hissələri əzbər deyir və oxuyur. Sinifdə müxtəlif fikirlər, mülahizələr irəli sürülür. Əsərlərin məzmunu ayrı-ayrılıqda təhlil olunur. Dördüncüdə məzmun ümumiləşdirilir. Şagirdlərin dərslikdən oxuduqları materialların məzmunu ilə uşaqların müşahidələri, şəxsi təcrübələri əlaqələndirilir. Tərbiyəvi nəticə çıxarılır. Nəhayət, beşincidə şagirdlərə tövsiyə edilən əsərlərin müəllifləri haqqında məlumat verilir, kitabdakı illüstrasiyalara baxılır, onların bəzi maraqlı hissələri oxunur.

Təcrübə göstərir ki, sinifdənxaric oxu üzrə iş iki istiqamətdə aparılmalıdır:

1) Azərbaycan dili üzrə məzmun standartlarına və dərslikdəki materiallara uyğun əsərlərin oxusu;

2) şagirdlərin yaş və bilik səviyyəsinə uyğun olmaqla arzularına görə əsərlərin müstəqil oxusu.

Birinci qrupa aid olan əsərlərin oxusu adından məlum olduğu kimi məcburidir. Bu materialların oxusu ilə şagirdlərin aldıqları biliklər daha da zənginləşir və inkişaf edir.

İkinci qrupa aid olan materialların oxusu şagirdlərin əksəriyyətinin istəyindən asılıdır. Təcrübə göstərir ki, bu zaman şagirdlər kitab seçməkdə çətinlik çəkirlər. Onların bir qrupu kitabı cildinə, şəkillərinə, yoldaşlarının və yaşlıların sözünə görə seçirlər. Ona görə də müəllim kitabxanaçı ilə yaxından əlaqə saxlamalı, hər sinif üçün şagirdlərə tövsiyə olunacaq əsərlərin siyahısını təqdim etməlidir.

Şagirdlər bu materiallar əsasında dərslikdə olmayan məlumatları alırlar. Bunlar da öz növbəsində onların dərslikdən əldə etdikləri bilikləri zənginləşdirir, dərinləşdirir və sistemə salmağa kömək göstərir.

Sinifdənxaric oxunun səmərəli təşkilində hazırlıq məsələsinə ciddi fikir verilməlidir. Hazırlıq dedikdə planın tərtibi və ədəbiyyatın seçilməsi məsələləri nəzərdə tutulmalıdır. Təcrübə göstərir ki, ideya-bədii keyfiyyəti yüksək, uşaq dilində yazılmış, sadə, canlı, məzmunlu və macəralarla dolu olan uşaq bədii əsərlərin tərbiyəvi təsiri şagirdlərin mənəvi aləminin zənginləşməsinə daha çox qida verir.

I-III sinif şagirdləri uşaqların həyatından, əyləncəli, gülməli macəralardan bəhs edən hekayələri çox sevirlər.

III-IV sinif şagirdləri isə bir qədər ciddi, hətta müharibədən bəhs olunan əsərlərə meyl edirlər. Bu zaman şagirdlərə təqdim olunan əsərlərin yığcam və bədii cəhətdən ideyasının konkretliyinə, uşaq ruhuna yaxınlığına, əsərdə xeyir və şər qüvvələrə qarşı müəllifin münasibətinin meydana çıxarılmasına çalışılmalıdır.

Bununla belə şagirdlərə tövsiyə olunan sinifdənxaric oxu materialları maraqlı süjet üzərində qurulmaqla ideya-siyasi cəhətdən yetkin olmalı, şagirdləri düşündürməli, onlara

təsir göstərməli, ən başlıcası qəhrəmanlığı, mübarizliyi, əsl həqiqətləri özündə əks etdirməlidir.

Sinifdənxaric oxu üçün bədii əsərlər seçilərkən müəllim onların janr xüsusiyyətlərini (nağıl, hekayə, şeir), onlarda ifadə olunan fikrin dərinliyini, uşaqların onlardan nə dərəcədə düzgün nəticə çıxara bilmələrini diqqət mərkəzində saxlamalıdır. Məsələn, I-II sinif şagirdləri nağıllar əsasında yazılmış bədii əsərləri aludəliklə oxuyurlar.

Təcrübə göstərir ki, ibtidai sinif şagirdlərinin diqqəti çox zaman bədii əsərdəki parlaq obrazlara yönəlir, onların fəaliyyətlərini yadlarında saxlayırlar. Kiçik, epizodik obrazlar onların diqqətindən yayınır, bəzən də bütövlükdə əsərin məzmun və ideyası kölgə altına düşür. Belə hallarda şagirdlər məzmun və ideyanı kifayət dərəcədə mənimsəmir, onlardan tərbiyəvi nəticə çıxara bilmirlər. Belə olduqda müəllim əsərin məzmunu ilə əlaqədar sinfə suallar verməli, şagirdlərin diqqətini əsas ideyanın “tutulmasına” yönəltməlidir.

II-IV siniflərdə sinifdənxaric oxu üçün əsərlərin siyahısı tədris ilinin əvvəlində böyük kağıza yazılaraq, sinfin görkəmli yerindən asılmalı, siyahının aşağısında isə iri şriftlərlə “Bu kitablarda maraqlı hadisələrdən bəhs olunur. Bunları oxuyun” cümlələri qeyd olunmalıdır.

Şagirdlərin mütaliəyə marağını artırmaq üçün müəllim onların (şagirdlərin) ad və familiyaları yazılmış cibciklər kassası hazırlasın. Həmin kassanı sinifdənxaric oxu materialları siyahısının yanından assın. Şagirdlər hər dəfə oxuduqları əsərlərin adını, müəllifin ad və familiyasını kartoçkaya yazıb, özünə məxsus cibciyə qoysun. Bu kassanınköməyi ilə müəllim hər bir şagirdin hansı əsəri oxuması haqqında xəbərdar olur, onların bu sahədəki işinə düzgün istiqamət verir.

Müəllim ibtidai və yuxarı sinif şagirdlərinin köməyi ilə “Sinif kitabxanası” fondu təşkil etməlidir. Həm sinif, həm də məktəb kitabxanasında kataloqların hazırlanmasında II-IV sinif şagirdlərinin də iştirakı təmin olunmalıdır. Bu kataloqları isə üç cürə tərtib etmək mümkündür: a) marağa görə, te-

matik (ictimai-siyasi, təbiət hadisələri, tarix və s.) prinsip əsasında; b) ayrı-ayrı müəlliflərin əsərləri üzrə; c) janr (nağıl, hekayə, şeir, təmsil və s.) üzrə. Bunların tərtibində başlıca yeri əyanilik tutmalıdır. Şagirdlər tədricən formadan məzmuna (şəkillərdən, cilddən kitabın məzmununa) doğru istiqamətlənirlər.

I-IV siniflərdə sinifdənxaric oxuya iki həftədə bir saat ayrılır. I sinifdə sinifdənxaric oxu məşğələlərində əsərləri müəllim oxuyur. Onların məzmunu ilə əlaqədar müsahibə aparır, suallar verir, tərbiyəvi ideyanı müəyyənləşdirir. II-IV siniflərdə isə işin xarakteri əsaslı şəkildə dəyişir.

Bu siniflərdə tədris ilinin əvvəllərində ilk məşğələlər yay tətilində oxuduqları əsərlərin müzakirəsinə və yekunlaşdırılmasına həsr olunmalıdır. Bu prosesdə üç məsələyə diqqət yetirilməlidir:

- şagirdlərin yay tətilində oxuduqları kitablar haqqında müsahibə keçirmək;
- şagirdlərin hansı əsərləri oxuduqlarını və mütaliə dəftərində onların məzmunu ilə əlaqədar apardıqları qeydləri öyrənmək;
- sonrakı məşğələlər üçün tövsiyə ediləcək əsərlər haqqında söhbət aparmaq.

Sinifdənxaric oxu məşğələlərini müəllim həm sinifdə, həm də kitabxanada apara bilər.

III-IV siniflərdə həm I və həm də II tədris ilinin sonunda sinfdənxaric oxunun keçirilməsinə həsr olunmuş toplanışların keçirilməsi də faydalıdır. Belə toplanışlar şagirdlərin yarımil ərzində oxuduqları əsərlərmin məzmun və ideyasını, obrazların fəaliyyətini, onlardan çıxarılan tərbiyəvi nəticənin nə dərəcədə yada salınmasını müəllimə yoxlamağa imkan verir. Təcrübə göstərir ki, belə toplanışları ədəbi didaktik oyunlar vasitəsi ilə aparmaq şagirdləri daha çox maraqlandırır, onlarda oyunda fəal iştirak etmək, çox cavab vermək həvəsi oyadır. Ona görə də toplanış keçiriləcəyi vaxtı, toplanışda ədəbi oyunların xarakteri, təkrar oxunacaq 8-10 əsərin adı ən

azı bir həftə əvvəl şagirdlərə çatdırılmalıdır. Qarşıya qoyulmuş məqsəddən asılı olaraq, “Yadındamı? ”, “Öyrənirik”, “Tamamla”, “Əsərin müəllifi kimdir?” və s. kimi bədii-ədəbi didaktik oyunlardan istifadə etmək mümkündür.

Tutaq ki, müəllim toplanışda “Yadındamı” ədəbi-bədii oyunundan istifadə etməlidir. Bunun üçün o, II sinifdə tədris ilinin sonunda təşkil olunmuş toplanışda sinifdənxaric oxu üçün təkrar tövsiyə edilən əsərlərdən müəyyən parçalar oxuyur. Sonra həmin parçanın hansı əsərdən götürüldüyünü soruşur. Şagirdlər fikirləşib tapırlar. Yaxud “Tamamla” ədəbi-bədii didaktik oyunu ilə əlaqədar müəllim hər hansı əsərdən müəyyən hissəni oxuyur (və ya danışır). Gözlənilmədən oxunu mətnin yarısında saxlayır və şagirdlərdən tələb edir ki, həmin hekayəni davam etdirərək tamamlasınlar. Ola bilər ki, şagirdlərdən həmin əsərin adı, onun müəllifi əsərdəki obrazların təsviri xəbər alınsın. Belə oxu şagirdləri fikri axtarışlara dəvət edir. Onları dərindən düşünmək axtarışlara əsasən cavab vermək vəzifəsi ilə qarşılaşdırır. İşin sonunda şagirdlər cədvəldəki qrafaları doldurub müəllimə qaytarırlar.

| Əsərin müəllifi | Əsərin adı | Əsas surətlər | Əsərdə nədən danışılır |
|---|---|---|---|
| | | | |

Müəllim cavabları nəzərdən keçirir, qrafaların hamısını düzgün dolduran şagird qalib hesab olunur. Sinifdənxaric oxunun təşkilinə həsr olunmuş belə tapşırıqlar şagirdlərin mütaliə marağını artırmaqla onların təfəkkürünün müstəqilliyinə də güclü kömək göstərir.

## Sinifdənxaric oxu üçün materialların seçilməsi

Hər bir sinifdə sinifdənxaric oxu dərsləri planlaşdırılarkən və təşkil edilərkən vəziyyət nəzərə alınmalıdır. Müəllim şagirdlərin ümumi hazırlığını, sinifdənxaric oxu vərdişlərinə

yiyələnmə səviyyəsini, məktəb və uşaq kitabxanaları ilə necə əlaqə saxlamalarını, evdə kitabxananın olub-olmamasını, valideynlərin mədəni səviyyəsini, təlimin həmin mərhələsində təlim və tərbiyə vəzifələrini, həmçinin digər məsələləri öyrənməlidir.

Sinifdənxaric oxu üçün material seçilərkən aşağıdakı şərtlərə əməl edilməlidir:

❖ Sinifdənxaric oxu üçün əsasən bədii əsərlərə üstünlük verilməlidir.

❖ Kiçikaşlı məktəblilərə təqdim olunan hər bir əsər onların təfəkkürünə və hisslərinə təsir göstərməlidir. Əsl vətəndaş tərbiyə etmək üçün həm ciddi, həm kamil, həm şən, həm qəmgin mətnlər seçilməlidir.

❖ Əsər seçərkən müxtəlif janrlar: həm nağıl, həm təmsil, həm hekayə, həm də şerilərin təqdim olunması nəzərdə tutulmalıdır.

❖ I sinifdən həm Azərbaycan, həm də xarici ölkə xalqları ədəbiyyatının nümunələri əhatə edilməlidir.

❖ Sinifdənxaric oxu üçün seçilmiş mətnin həcmi çox böyük olmamalıdır. I sinifdə 120—150 sözdən ibarət mətnlə başlanan bu iş IV sinifdə 150 səhifəyədək kitabın oxusu ilə başa çatır.

❖ Ədəbi parçalar şagirdlərin marağına, bilik səviyyəsinə, ətraf aləmlə tanışlığına uyğun olmalıdır.

❖ Seçilmiş əsər dilinə, quruluşuna və bədii tərtibatına görə şagirdlərin hazırlığına uyğun olmalıdır.

❖ Sinifdənxaric oxu üzrə iş ardıcıl, arasıkəsilmədən, hər gün uşağı məşğul etməlidir.

❖ Sinifdənxaric oxu məşğələləri mövzuya, materialın xarakterinə (bədii, elmi-kütləvi) görə rəngarəng olmalıdır.

❖ Sinifdənxaric oxu üzrə tədbirlər (dərslər, səhərciklər, görüşlər, viktorinalar, müsabiqələr, sərgilər və s.) növbələşdirilməlidir.

❖ Hər bir dərs, məşğələ pillə-pillə şagirdləri müstəqil mütaliəyə doğru aparmalıdır[1].

Sinifdənxaric oxu dərsləri şagirdlərin müstəqil oxusuna rəhbərliyin başlıca formasıdır. Sinifdənxaric oxu dərslərinin quruluşu ümumi didaktik qanunauyğunluqlara müvafiq gəlir. Məşğələnin məqsədindən, məzmunundan asılı olaraq qurulan belə dərslərdə formalizmdən qaçmağa, rəngarəng forma, vasitə və metod seçməyə geniş imkanlar açılır. Dərslərin strukturu və məzmunundakı rəngarənglik həm də siniflə bağlı olur. Ayrı-ayrı siniflərdə dərsin təşkilinin bəzi cəhətlərini nəzərdən keçirək.

I sinifdə dərs ilinin birinci yarısında sinifdənxaric məşğələlər, adətən, dörd hissədən ibarət olur.

I. Giriş. Müəllim şagirdlərlə oxunacaq əsərin məzmunu, ondakı başlıca bədii obrazlar haqqında aydın təsəvvür yaratmaq məqsədilə 2-3 dəqiqəlik söhbət aparır, lazım gəlsə, əyani vəsait (şəkil, əşya) göstərir.

Giriş müsahibəsində şagirdləri dialoqa qoşmaq onları maraqlandırır və fəallaşdırır.

2. Planlaşdırılmış ədəbi əsər müəllim tərəfindən ucadan ifadəli oxunur.

Mətndə mənası izah edilməli sözlər olduqda izahlı oxudan sonra bir də oxumaq olar. Bu mərhələyə 4-6 dəqiqə vaxt ayırmaq mümkündür. Bəzən bu məqsədlə maqnitafon lentindən (fonoxrestomatiyadan) də istifadə edilə bilər.

3. Müəllimin rəhbərliyi ilə uşaqların oxunmuş kitaba (əsərin yerləşdiyi kitaba) baxmaları (2-3 dəqiqə).

Kitabla ilk görüş, tanışlıq şagirdlərin əhvali-ruhiyyəsini qaldırır, ondakı xeyirxah hisslər uşaqları özünə bağlayır.

4. Oxunmuş əsər üzrə müsahibə. Müsahibə əsərin dilinə, sözə həssaslığa yönəldən suallar üzərində qurulmalıdır. Müsahibə prosesində suallar elə qoyulmalıdır ki, uşaqları maraqlandırsın və onları müsahibədə iştirak etməyə sual ver-

---

[1] Bax: Kərimov Y.Ş. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı, 2003, s.264-267

məyə, müəllim və yoldaşları ilə fikir mübadiləsi aparmağa yönəltsin (6-8 dəqiqə).

Dərsin bu mərhələsi şagirdləri müstəqil mütaliəyə, oxumağa, düşünməyə, onun haqqında müəyyən rəyə gəlməyə, öz mühakiməsini sübut etməyə hazırlamaqda mühüm rol oynayır.

Beləliklə, dərs cəmi 15-20 dəqiqə davam edir. Dərsin qalan hissəsində isə savad təlimi üzrə iş gedir.

Müəllim çalışmalıdır ki, şagirdlər yaddaşa və təxəyyülə əsasən oxunmuş əsər üzrə şifahi sözlərlə "şəkil çəkməyi" öyrənsinlər. Altıyaşlılar nağıllara şifahi şəkil çəkməyin öhdəsindən asanlıqla gəlirlər. Belə bir vərdişin yaranmasına illüstrasiyaları seriya şəkillərlə verilmiş nağıllardan başlamaq lazımdır. Şifahi, şəkillərlə belə iş şagirdlərin yaradıcı təxəyyülünün inkişafında mühüm rol oynayır.

Altıyaşlıların sinifdə oxunmuş əsərin məzmununu evdə valideynlərinə, qohumlarına nağıl etmələri, müəllimin məsləhəti ilə evdə kitab oxusunun təşkili vacibdir.

II sinifdə dərs ilinin ikinci yarısından şagirdlərə II sinifdə keçilən böyük mövzu ilə əlaqədar 2-3 əsərin oxunması tapşırılır. Şagirdlər müstəqil oxuduqdan sonra həftədə bir dərs onun yekunlaşdırılmasına həsr edilir.

II sinifdə sinifdənxaric oxu üzrə dərsin təşkili:

- Giriş:(3-5 dəqiqə) Müəllim şagirdlərin tapşırılmış əsərləri oxuyub-oxumadıqlarını öyrənir. Yaxşı olar ki, şagirdlərin valideynlərdən, ətraf aləmdən, radio və televiziya verilişlərindən və ya oxuduqları ilə əlaqədar öyrəndiyi məlumatlar soruşulsun.
- Seçilmiş bədii əsərin ucadan oxunması (5-7 dəqiqə). Məqsəd şagirdlərin oxucu dünyagörüşünün genişləndirilməsi və onlarda qarşıdakı müstəqil oxuya marağın artırılmasıdır.
- Oxunmuş kitablara kollektiv baxılması, əsərə aid müsahibə (5-6 dəqiqə).
- Şagirdlərin qarşıdakı oxuya "özünühazırlama" qaydası kimi yeni kitablara müstəqil baxmaları (2-3 dəqiqə).

○ Göstərilmiş bədii əsərin şagirdlər tərəfindən müstəqil, səssiz oxunması (10-12 dəqiqə).

Dərsin maraqlı keçməsi müəllimin hazırlığından asılıdır. Sualların qoyuluşu, nağıletmənin müxtəlmif növlərindən istifadə, şagirdlərin, düşünməyə yönəldilmələri, dərsə oyun, yarış elementlərinin, musiqi nümunələrinin gətirilməsi və bu rəngarəng çalışmaların növbələşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Dərsin sonrakı mərhələsində müəllim şagirdlərin diqqətini yeni mövzuya yönəldir, onları həvəsləndirir. Şagirdlər öyrənirlər ki, sinifdəki siyahıda göstərilən əsərlərlə yanaşı, başqa əsərlərdəki mətnlərdən, uşaq qəzeti və jurnallarından da istifadə etmək mümkündür.

## Sinifdənxaric oxunun təşkili metodikası

I sinifdə oxu vərdişləri hələ yenicə aşılandığından kitab ilə iş müəllim tərəfindən ucadan oxu şəklində aparılır. Müəllimin ucadan oxusu kiçik yaşlı uşaqların fərdi xüsusiyyətlərini, meyl və maraqlarını öyrənməkdə, qiraətə həvəs oyatmaqda, oxunmuş materialın necə qavrandığını müəyyənləşdirməkdə onlara kömək göstərir.

Dərs ilinin birinci yarısında sinifdənxaric qiraət üçün dərs saatı ayrılmadığından müəllim bu işi savad təlimi dərsinin 20-25 dəqiqəsində aparmalıdır. Dərsin birinci hissəsində 20-25 dəqiqə ərzində şagirdlərin "Azərbaycan dili" kitabından oxuyacaqları mətnin qiraətinə diqqət yetirilir. Dərsin ikinci hissəsində isə sinifdənxaric oxunmuş əcərə aid müsahibə, illüstrsiyalara baxmaq, mətnə aid şəkil çəkmək, dinlədikləri mətni hissə-hissə və ya bütöv nəql etmək və s. kimi iş növləri nəzərdə tutulur. Dərs aşağıdakı mərhələlər üzrə keçirilir: 1. Giriş müsahibəsi; 2. Müəllim tərəfindən ucadan qiraət; 3. Yekunlaşdırıcı müsahibə[1].

---

[1] Бах: Советловскайа Í.Í. Внеклассное чтение в 1 классе.М.,1973,с. 17–27

Dərs bədii əsərə aid müəllimin giriş müsahibəsi ilə başlanır. Bu müsahibədə məqsəd az vaxt sərf etməklə şagirdlərin hafizəsində dinləyəcəkləri əsər haqqında təsəvvür yaratmaqdır.

Giriş müsahibəsindən sonra seçilmiş nağıl, hekayə, şeir müəllim tərəfindən ucadan oxunur, müəllimin oxusu ifadəli olmaqla, şagirdlərin hisslərinə təsir etməlidir. Ona görə də müəllim nəzərdə tutduğu mətni evdə oxuyub ifadə qaydalarını, intonasiyasını, fasiləni, məntiqi vurğunu dəqiqləşdirməlidir.

Yekunlaşdırıcı müsahibə müəllimin ucadan qiraətindən sonra oxunmuş əsərin müzakirəsini keçirmək məqsədilə aparılır.

Sinifdənxaric qiraətin məzmununu təşkil edən janrlardan uşaqların ən çox sevdikləri nağıllardır. Müəllim fantastik, alleqorik və realist nağılların qiraətini nəzərdə tutmalıdır. I sinifdə alleqorik nağıllara, II-III siniflərdə alleqorik və realist nağıllara üstünlük verilməlidir.

Şagirdləri sinifdənxaric oxunun dərsinə hazırlamaq işinə müəllimin fərdi rəhbərliyi müsahibə formasında olur. Müsahibə şagird evdə əsəri oxumuşdurmu? Əsərin məzmununa aid suallara cavab verməyə hazırdırmı? və s. suallardan ibarət verilir.

Dərs aşağıdakı qaydada təşkil olunur:

1. Giriş müsahibəsi- mövzuya şagirdlərdə maraq oyatmaq məqsədilə keçirilir. Müəllim bütün şagirdlərin tövsiyə edilmiş kitabın məzmunu ilə tanış olub olmadıqları ilə maraqlanır. Şagirdlərin hamısı tərəfindən əsərin oxunduğuna əmin olduqdan sonra dərsin ikinci mərhələsinə keçilir.

2. Həftə ərzində oxunmuş kitab haqqında müsahibə. Oxunmuş əsər haqqında müsahibə zamanı müəllim şagirdlərə oxuduqları əsərə aid suallar verir:

a) əsərin müəllifi kimdir?

b) onun daha hansı kitablarını oxumuşsunuz?

c) müəllif haqqında nə bilirsiniz? (və s.).

3. Diafilmin nümayiş etdirilməsi. Bu mərhələdə şagirdlərin həftə ərzində oxuduqları, sinifdə dinlədikləri əsərin məzmununa yaxın bir diafilm nümayiş etdirilir. Müzakirə olunacaq əsərin məzmununa yaxın diafilmi, plastinkanı, lent yazısını müəllim əvvəlcədən seçib hazırlamalıdır.

4. Şagirdlərin oxuduqları, dinlədikləri əsərin və diafilmin müqayisəli təhlil. Bu mərhələdə müəllim şagirdlər tərəfindən əsərin ideyası və məzmununu necə başa düşdüklərini, şagirdlərin əsərin obrazlarına münasibətini, qiraət zamanı əsərin mühüm hissələrinə diqqət yetirə bildiklərini, surətlərin dilinə fikir verdiklərini, mətndən hansı parçaları xatırladıqlarını müəyyənləşdirir.

5. Növbəti məşğələ üçün evə tapşırığın verilməsi. Müəllim müsahibə vasitəsilə şagirdlərin qavrama dərəcəsini müəyyənləşdirir və onlara tapşırıq verir.

Sinif qiraəti ilə əlaqədar olaraq sinifdənxaric qiraət zamanı mütaliə olunan kitabların düzgün hesaba alınmasının əhəmiyyəti böyükdür.

Şagirdlər oxuduqları kitab haqqında təəssüratı ayrıca dəftərə qeyd etməlidirlər. Belə qeydiyyatın aparılması şagirdə müstəqil mülahizə yürütməyi öyrədir, nitqinin inkişaf etməsinə xidmət edir. Digər tərəfdən, oxunmuş əsər şagirdlərin hafizəsində möhkəmlənir.

Şagirdlərə kitab ilə işləməyin aşağıdakı formalarını öyrətmək faydalıdır:

- oxunmuş əsər haqqında sadə qeydlər etmək;
- kitab haqqında geniş qeydlər etmək;
- kitabın qısa məzmunu;
- əsərin məzmunundan daha maraqlı hissələri tapmaq;
- kitab haqqında şagirdlərin ümumi təəssüratı.

Dərsin axırıncı hissəsi evə tapşırığın verilməsidir. Ev tapşırığının izahı üçün 5-10 dəqiqə vaxt ayrılır. Dərsin bu hissəsinə xüsusi hazırlıq lazımdır. Kitab haqqında məlumat ver-

mək və onu təbliğ etmək lazımdır ki, uşaq onu oxumağa meyl və həvəs göstərsin.

Elmi-kütləvi mətnlərin sinifdənxaric oxusu. Elmi-kütləvi mətnlərdə təbiət hadisələri, tarix, coğrafi məlumatlar təsvir olunur. Bədii əsərlərdən fərqli olaraq elmi-kütləvi əsərlərdə dəqiq anlayışlar, məntiqi ümumiləşdirmələrin nəticələri çatdırılır. I-II siniflərdə şagirdlər elmi-kütləvi mətnin oxusundan əvvəl müəllifin təsvirini verdiyi hadisəni aydın təsəvvür etməli, bu hadisəyə öz münasibətlərini müəyyənləşdirməli, keçirdiyi hissləri dəqiqləşdirməlidirlər.

III-IV siniflərdə uşaqların daha çox nağıllara meyl etmələrinə baxmayaraq onları elmi-kütləvi ədəbiyyatı oxumağa alışdırmaq vacibdir.

Şagirdlərin sinifdənxaric oxusu onların təbiətşünaslıq üzrə biliklərinə də güclü təsir göstərir.

Elmi-kütləvi xarakterli hekayələrin oxunması üzrə iş şagirdləri elmi-kütləvi mətnləri oxumağa hazırlayır. Onlar III sinifdə bu sahədə ilkin vərdişlərə yiyələnir və IV sinifdə könüllü surətdə müstəqil elmi-kütləvi əsərlər oxuyurlar.

## Sinifdənxaric oxunun yeri və kitabla ünsiyyət mədəniyyəti

Sinifdənxaric oxunun məqsədi uşaqlarda kitabla müstəqil mütaliəyə maraq oyatmaq, oxumaq üçün kitabxanadan müstəqil kitab seçmək, onu oxumaq bacarığı yaratmaq, onları kiçikyaşlı məktəblilərin oxu dairəsinə daxil olan ən yaxşı uşaq ədəbiyyatı nümunələri ilə tanış etməkdir. Sinifdənxaric oxu sinif oxusu ilə sıx əlaqədardır. Bundan asılı olaraq sinifdənxaric oxu iki istiqamətdə təşkil olunur. Birinci istiqamət şagirdlərin sinifdə oxuduqları bu və ya digər bölmə üzrə biliklərini genişləndirmək, dərinləşdirmək məqsədini güdür. Bu məqsədlə xüsusi dərslər (sinifdənxaric oxunun yekunlaşdırılmasına həsr olunmuş məşğələlər) təşkil edilir.

Sinifdənxaric oxunun ikinci istiqaməti isə şagirdlərin müstəqil mütaliəsidir. Bu iş də müəllimin və kitabxanaçının rəhbərliyi və məsləhəti ilə təşkil olunur.

İbtidai sinif şagirdlərinə kitabla davranmaq üzrə ən zəruri qaydalar haqqında məlumatlar da verilməlidir. Bunun üçün kitabın hazırlanması, ona sərf olunan xərc, həyatda onun böyük əhəmiyyəti və s. məsələlər şagirdlərə çatdırılmalıdır. Onlara başa salınmalıdır ki, hər bir insan kitaba borcludur.

Kiçikyaşlı məktəblilərə kitabla rəftaretmə qaydaları da öyrədilməlidir. Uşaqlar kitabı qızmar günəşdən, rütubətdən, çirklənmədən, tozdan qorumalıdırlar. Yaxşı olar ki, müəllim onlara belə bir yaddaş versin: 1. Kitabı hara gəldi atma, cırma, ona ləkə salma. 2. Kitabı qatlama. 3. Kitabın içinə qələm, dəftər və başqa əşyalar qoyma. 4. Kitabın səhifələrini qatlama, əlfəcindən istifadə et. 5. Kitabın səhifələrində qeydlər aparma. 6. Kitabı oxumağa başlamazdan əvvəl əllərini yu. 7. Yemək stolunun üstündə kitab oxuma. 8.Oxuyub qurtardıqdan sonra kitabı yerinə qoy. 9. Kitabın cildinə kağız çək və s.

1. Kitab yaxşı saxlansa, onu yüzlərlə adam oxuyar, zəngin biliklərə yiyələnərlər. Ona görə də kitabı qorumaq lazımdır[1]

Bununla belə ibtidai sinif şagirdlərinə bir sıra gigiyenik məsləhətlər də verilməlidir. Onlara izah edilməlidir ki, kitabı oxuyarkən düz oturmaq, üstünə əyilməmək, kitabla göz arasındakı 15-20 sm məsafəni gözləmək, işığın sol tərəfdən düşməsini təmin etmək, yorulanadək oxumamaq lazımdır. Əks təqdirdə həm şagirdlərin materialın məzmununu mənimsəməsi işi çətinləşər, həm də onların sağlamlığına mənfi təsir göstərmiş olar.

Bu qaydaların gözlənməsi şagirdlərin sağlamlığını mühafizə etməklə yanaşı, onların təfəkkür fəaliyyətinin məhsuldar olmasına da kömək göstərir.

---

[1] Bax.:Y.Ş. Kərimov. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, s.266

## Ədəbiyyat

2. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IV siniflər). Bakı, 2012

3. Balıyev H. Àna dilinin tədrisi metodikası. Bakı, 1997

4. Həmzəyev M.Ə. Kiçik məktəbyaşlı uşaqların psixoloji xüsusiyyətləri. Bakı: Maarif, 1968, 67 s.

5. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 404s.

6. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.

7. Qədirov Ə.D. Uşaqlarda idrak proseslərinin inkişafı (anadan olandan 12 yaşadək). Bakı: Maarif, 1969, 98 s.

8. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı, Nurlan, 2003, 408 s.

9. Sinifdənxaric oxunun səmərəli təşkili (metodik tövsiyə). Bakı, 1988

10. Sinifdənxaric ümumiləşdirici dərslərin təşkili //İbtidai məktəb və məktəbəqədər tərbiyə. 1989, №3, s.21

11. Sinifdənxaric oxu //İbti. məktəb və məktəbəqəd tərbiyə. 1983, №4, s.36

12. Elmi-kütləvi mətnlərin sinifdənxaric oxusu //İbtidai məktəb və məktəbəqədər tərbiyə. 1986, №1, s.11

13. Sinifdənxaric qiraətin təşkili təcrübəsindən //İbtidai məktəb və məktəbəqədər tərbiyə. 1970, №1, s.69

# X FƏSİL

# OXU DƏRSLƏRİNDƏ NİTQ VƏRDİŞLƏRİNİN İNKİŞAFI VƏ LÜĞƏT ÜZRƏ İŞ

## İbtidai siniflərdə mövzu üzrə nağıletmə

İbtidai siniflərdə mətn üzrə nağıletmənin dörd növü var:

1. **Sadə şəkildə (öyrəndiyi kimi) nağıletmə**
2. **Sual cümlələri ilə nağıletmə**
3. **Nəqli cümlələrlə nağıletmə**
4. **Qarışıq şəkildə nağıletmə**

Mətn üzrə nəqletməyə nələr daxildir? Şagird:

- mətndəki hadisələri ardıcıl şəkildə danışır;
- mövzudakı hadisələrin inkişaf mahiyyətini açır;
- mətndəki insani davranış və hərəkətləri qiymətləndirir;
- fakt və hadisələri seçməyi bacarır;
- mətni yığcam danışır;
- mətnin məzmununu birinci və üçüncü şəxslərin dilindən danışır;
- mətndə xoşuna gələn hissələri danışır;
- mətnə aid verilmiş suallara cavab tapır;
- mətnin məzmununa uyğun mətn qurub danışır və s.

İbtidai siniflərdə mətn üzrə müstəqil işlərin təşkilinə də ciddi fikir verilməlidir. Bura daxildir: mətnə aid plan tutmaq, mətni plan əsasında danışmaq, mətndə iştirak edən şəxslərin hərəkətlərini qiymətləndirmək, mətnə aid illüstrativ şəkillərin çəkilməsi, şəkil əsasında yeni hekayə tərtib etmək, əşya və hadisələr haqqında müstəqil fikir söyləmək, mətndəki hadisəni həyati müşahidələrlə əlaqələndirmək, mətndəki yaxınmənalı, çoxmənalı, əksmənalı, məcazi mənalı sözlərin seçilməsi, mövzunun janr baxımından(hekayə, şer, təmsil, folklor nümunələri) müəyyənləşdirilməsi və s.

Oxu üzrə bacarıqların formalaşması üzrə işin nəticələri şagirdlərin şifahi nitqində öz əksini tapır. Oxu vərdişlərinin

inkişafı və nitqlə bağlı irəliləyişlər şagirdlərin oxunan mətnin məzmununun yığcam, geniş, yaradıcı nağıl etməsində, şeir və nəsr parçalarının, monoloqların əzbər söylənməsində, əsərlərin səhnələşdirilməsində tapır. Bundan başqa müşahidələr əsasında nağıletmə, şəkillər üzrə nağıletmə, ekran əsərlərinə dair nağıletmə növləri də şagirdlərin şifahi nitq vərdişlərini inkişaf etdirir

## Ədəbiyyat


1.Abdullayev A.S. İbtidai məktəbdə Azərbaycan dilinin tədrisinin metodikası. Bakı: Maarif, 1962, 165 s.

2.Balıyev H.B. Ana dilinin tədrisi metodikası. Bakı: 3 №li Sənaye Lis., 1997, 102 s.

3.Həsənli B, Abdullazadə N. İfadəli oxu. Bakı: Müəllim, 304 s.

4.Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 404 s.

5.Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.

6.Orucova G., Qaragözova N., İsmayılov R., Xəlilov Z. Azərbancan dili (2-ci sinif). Müəllim üçün metodik vəsait. Bakı: Altun Kitab, 2009, 224 s.

7. Рыбникова М.А. Очерки по методике литературного чтения. М.: Просвещение, 1963

8.Tağıyev B. Oxu təlimi. Bakı:ADPU, 315 s.

9.Yusifov F. İfadəli oxu.Bakı: ADPU, 2006,111s


## Oxu materiallarının tədrisində bədii təsvir vasitələri üzrə aparılan işlər

**İfadəli oxu.** İbtidai siniflərdə oxu mətnlərinin tədrisi prosesində şagirdlərin öz fikrini rabitəli şəkildə ifadə etmə bacarığı ilə kifayətlənmək olmaz. Eyni zamanda əsərin məzmunu dedikdə yalnız rabitəli fikir nəzərdə tutulmamalıdır. Çünki mətn rabitəli nağıl edilə bilər, lakin qarşı tərəfdə heç bir hiss doğurmaz, onu

həyəcanlandırmaz. Deməli, nağıletmədə rabitəliliklə yanaşı, ekspressivlik də olmalıdır.

**Ekspressivlik** latınca "ifadə etmək", "yüksək ifadəlilik", "ifadənin gücü" deməkdir. Dilçilik lüğətində isə ekspressivlik danışanın nitqin adresatına, yaxud məzmununa münasibətinin subyektiv ifadə vasitəsi kimi kommunikativ aktda çıxış etmək qabiliyyətini təmin edən dil vahidlərinin semantik-üslubi əlamətlərinin cəmidir. K.A.Dolininin fikrincə isə ekspressivlik dil işarəsinin elə bir xassəsidir ki, buna görə o, mexaniki qəbul edilir, adresatın təsəvvürünə və ya onun emosional sferasına birbaşa təsir göstərir. A.İ.Yefimov ekspressivlik dedikdə məcazın növlərini nəzərdə tutur. V.V.Vinoqradova görə isə ekspressivlik özündə nitqin təsir qüvvəsini artıran emosionallıq və obrazlılığı birləşdirir. Ekspressivlik dedikdə nitqi ifadəli, təsirli edən vasitələr başa düşülür. Ekspressivlik nitqi daha qabarıq, daha təsirli etmək məqsədilə dildə mövcud olan fonetik, leksik, morfoloji və sintaktik vasitələrdən istifadə etməklə söylənilən fikrin təsir qüvvəsinin artırılmasına və bu fikrin dinləyiciyə təsir göstərməsinə xidmət edir.

**Emosionallıq** (emosional fransız sözü olub hiss-həyəcan deməkdir) isə hiss-həyacan bildirmək üçün istifadə olunur. Bu xüsusiyyətə malik olan sözlər insanın məhz hisslərini ifadə edən nitq vahidləridir. Belə vahidlər (nidalar) müstəqil mənaya malik olmur və cümlədə digər sözlərə qoşularaq ekspressivlik yaradır. Prof.Y.Kərimov qeyd edir ki, dilimizdə elə sözlər var ki, məsələn, anacan, əzizim, körpəciyəz və s. leksik mənalarında emosional çalarlıq özünü göstərir.

Əlbəttə, dilimizin emosionallıq imkanlarını nidalarla məhdudlaşdırmaq olmaz. Çünki emosiya insanın real aləmdə, onu əhatə edən mühitdə baş verən hadisələrə olan münasibəti nəticəsində keçirdiyi hiss və həyəcandan yaranır və onun ifadə vasitələri müxtəlifdir.Emosionallıq danışanın nitq obyektinə münasibətini, hisslərini əks etdirən sözlər vasitəsilə yaranır.

Ekspressivliyi yaradan, başqa sözlə desək, nitqi təsirli edən vasitələrdən biri obrazlılıqdır. Danışanın öz nitqində nitqə

verilən düzgünlük, aydınlıq, dədiqlik, rabitəlilik və s. tələblərlə yanaşı, obrazlılığı da gözləməsi nitq inkişafı üzrə aparılan işlərdə başlıca məqsədlərdən biri olmalıdır.

V.V.Vinoqradov hesab edir ki, obrazlılıq hər şeydən əvvəl, sözün məcazi mənalarda işlənməsinin müxtəlif növlərinin, söz və ifadələrin məcazi mənalarının, müxtəlif yaranma vasitələrinin məcmusudur. T.Əfəndiyeva yazır ki, söz məcazi məna kəsb etdikdə, obrazlılıq kimi keyfiyyətə sahiblənir və fikrin təsirli, mənalı ifadəsinə xidmət edir. Obrazlı sözləri işlətməkdə əsas məqsəd ekspressiv obraz yaratmaq və bununla da ifadə olunan fikrin ifadəliliyini gücləndirmək, onun dinləyiciyə təsir gücünü artırmaqdır. V.Qumboldt və A.A.Potebne linqvistik və psixolinvistik tədqiqatlarında obrazlılığı leksik-semantik kateqoriya kimi "sözün daxili forması "anlayışına daxil edirlər. Sözün daxili forması fikrin məzmununun şüurla əlaqəsidir.

**Obrazlılıq** üzrə iş mətnin oxusu və məzmununun təhlili zamanı aparılır. Əsərdəki obrazlı ifadələrin aydınlaşdırılması və emosional qavranması eyni zamanda mətnin şüurlu mənimsənilməsini təmin edir. Obrazlı ifadələr, bədii təsvir vasitələri üzərində müntəzəm təşkil edilən işlər şagirdlərdə əsəri oxuyarkən oradakı əhval-ruhiyyəyə uyğun həyacanlanmağı, baş verən hadisələri təxəyyülündə canlandırmağı, obrazlı təsəvvür bacarığı formalaşdırır. Ümumiyyətlə, kiçikyaşlı məktəblilərin obrazlı nitq inkişafı üzrə iş dedikdə bədii mətnlərdə obrazlı ifadə və ya sözləri seçmək, onların mənasını izah etmək, cümlədə işlətmək və nəhayət, öz nitqində istifadə etmək bacarığı nəzərdə tutulur.

Obrazlılıq nitqin təsir gücünü artırır və belə nitqə yiyələnmək çox mürəkkəb prosesdir. Bunun üçün şagird hər bir sözün mahiyyətinə varmağı bacarmalı, hər bir ifadənin arxasında dayanan mənanı dərk etməlidir. Çünki obrazlı nitqə yiyələnmə dedikdə heç də şagirdin dərsliklərdəki şablon ifadələri əzərbələməsi nəzərdə tutulmur. Obrazlı nitq insanın daxili aləminin səsidir, onun xəyallar dünyasının dili ilə danışmasıdır. İnsanın gördüyü, eşitdiyi, duyduğu hər şeyin onda yaratdığı təəssüratların, hisslərin olduğu kimi ifadəsidir. Oxu mətninin obrazlılığı

üzrə iş apararkən hər bir müəllim çalışmalıdır ki, şagirdlər obrazlı ifadələri şifahi və yazılı nitqində istifadə edə bilsin, hadisə və əşyaları təsvir edərkən müvafiq bənzətmə, bədii təyin, obrazlı ifadə tapmağı bacarsınlar və onların nitqi aydın, ahəngdar, emosional şəkil alsın. Şagirdlərdə obrazlı danışmaq, fikrini obrazlı ifadə etmək bacarığı formalaşdırmaq üçün müəllim dərsin bütün mərhələlərində bu işi diqqət mərkəzində saxlamalıdır. Obrazlı nitq inkişafı üzrə işin ilkin mərhələsi sözün mənası üzərində aparılan işlər olmalıdır.

Oxu mətnləri sözlərlə ifadə olunur. Söz vasitəsilə əsərə xas olan bütün əlamət və keyfiyyətləri ifadə etmək mümkündür. Əsəri(mətni)xarakterizə edən əlamətləri iki qrupa bölmək olar: gözlə görülməsi mümkün olan (konkret) və xəyali, yəni görülməsi mümkün olmayan əlamətlər (abstrakt). Məhz bu baxımdan da linqvistikada sözün iki mənası – həqiqi və məcazi mənası göstərilir. Sözün həqiqi mənası konkret surətdə əşya, hadisə, proses və s. bildirirsə, məcazi məna əşyanın əlamətlərinin tutuşdurulmasına əsaslanır. Məcazi mənada işlənən söz və ifadə əşyanın əlamətlərini digərinə ötürür və ona tətbiq edir (bənzədir). Məcazlarda söz əsas mənasını itirir və ikinci – məcazi mənada işlənir. Nominativ məna məcazların yaranması üçün əsasdır. Qeyd edək ki, məcazlarsız bizim nitqimiz çox kasıb olardı. Məhz eyni sözün əsas mənadan əlavə başqa mənalarda işlənməsi dilimizi və nitqimizi zənginləşdirir. Lakin dilimizdə olan bütün məcazlar eyni təsir gücünə malik deyil. Belə ki, elə məcazlar var ki, məişət leksikasına daxil olduğundan emosional-ekspressiv təsir gücünü itirmişdir. Məsələn, günəş batdı, çayın qolu, suyun üzü və s. nümunələr göstərmək olar. Dilimizdə emosional-ekspressiv təsir gücünü itirməyən, bənzətmə, köçürmə, müqayisə və s. yollarla yaranan, təsvir olunan obyektin insan təxəyyülündə canlanmasına imkan verən məcazlar da var ki, bunlar bədii təsvir vasitələri adlanır.

A.Abdullayev obrazlı nitqə tərif verərək yazmışdır: ”Obrazlı nitq elə nitqə deyilir ki, o, təkcə aydın olması ilə deyil, eyni

zamanda, təxəyyülü canlandıra bilməsi, onda əyani təsəvvürlər yarada bilməsi ilə də fərqlənən bir nitq olsun".

Əsərin(mətnin) qeyd olunan keyfiyyətlərə görə fərqlənməsi əsərdə məcazlardan – bədii təsvir vasitələrindən istifadə ilə mümkündür, lakin qeyd etmək lazımdır ki, mətndə obrazlılıq yaradan vasitələri məcazlar sistemi ilə məhdudlaşdırmaq olmaz. Çünki dilimizdə obrazlılığın yaranmasına xidmət edən fonetik, leksik və qrammatik vasitələr də var.

**Məcazlar** sistemi ədəbiyyat nəzəriyyəsində trop adlanır. Trop–bədii və stilistik anlayış olub sözlərin məcazi mənada işlənərək nitqi ifadəlilik və əyanilik baxımdan daha da gücləndirmək üçün istifadə olunur. İbtidai sinif şagirdlərinin obrazlı nitqinin inkişafına nail olmaq üçün bütün bədii təsvir vasitələrinin üzərində iş aparmaq bu işi çətinləşdirə bilər. Əlbəttə, onu da nəzərə almaq lazımdır ki, şagirdlər yuxarı siniflərdə tropun bütün növləri haqqında ətraflı məlumat alacaqlar. Buna görə də metodist-alimlər- A.Rəhimov, Y.Kərimov, M.R.Lvov və başqaları daha çox praktik şəkildə bəzi məcazlar üzərində işin aparılmasını məsləhət bilirlər. Prof A.Rəhimov ibtidai siniflərdə metafora, metonimiya, sinekdoxa, təşbeh, epitet və perifraz üzərində praktik şəkildə işlərin aparılmasının mümkünlüyünü qeyd edir. M.R.Lvov da ibtidai siniflərdə tropun əsas növləri olan- təşbeh, epitet, metafora və perifraz üzərində işin praktik şəkildə aparılmasını məsləhət görür.

**Epitet** məcazın ən sadə və tez anlaşılan növüdür. O, sözə bədiilik, əlvanlıq, emosionallıq və cazibədarlıq verir. Epitet latın sözü olub mənası əlavə deməkdir. A.Rəhmiov bu haqda yazır: "Epitetlərin gücü və onların yaratdığı təsirin emosional çalarlığı özünü harada və necə işlənməsində tapır. Yerində işlənməyən, hədəfə düzgün və sərrast tuşlanmayan epitet çox zaman sönük təsir bağışlayır. Onlarda müəllifin əşyalara olan münasibəti göstərilsə də, o qədər də hiss, həyəcan ifadə edilmir". Nitqi obrazlı qurmaq üçün elə təyinedici sözlər seçilməlidir ki, onlar nitqə yeni rəng versin, ona ahəngdarlıq gətirsin. Məsələn, Buludlar al-qızıl qana boyandı ...; Günəşli, işıqlı bir baharı sev!;

Yaxasında qızıl şəfəqli düymə; El başçılarının əzəmətli səsi gurladı. və s. Göstərilən nümunələrdə əzəmətli, qızıl şəfəqli, günəşli, işıqlı və al-qızıl sözləri epitet olub nitqə xüsusi çalarlıq gətirir.

Müşahidələr göstərir ki, uşaq məktəbə gələnədək onda əşyanın necəliyi haqqında müəyyən təsəvvürü olur. Əlifba təliminə hazırlıq dövründən başlayaraq isə bu istiqamətdə daha sistemli iş aparılır. Belə ki, şəkil üzərində işləyərkən təsvir olunmuş obyektin adını deməklə yanaşı, eyni zamanda onun necə olması- rəngi, forması, ölçüsü, dadı, keyfiyyəti və s. də qeyd olunur. II sinifdə şagirdlər əlamət bildirən sözləri öyrənir və nəhayət, III sinifdən etibarən sifət termin kimi daxil edilir və onun haqqında daha geniş informasiya verilir. Bu mövzuda müxtəlif xarakterli çalışmalar üzərində iş aparılır ki, bu da şagirdlərdə obyektləri hərtərəfli təsviretmə qabiliyyətini inkişaf etdirir. Araşdırmalar göstərir ki, epitetlər üzərində işin sifətin tədrisi ilə əlaqələndirilməsi həm şüurluluğun təmin olnması, həm də şagirdlərin epitetin cümlədə və ümumiyyətlə, nitqdə rolunu və əhəmiyyətini dərk etməsi baxımından olduqca faydalıdır. Bu məqsədlə müxtəlif iş formalarından istifadə olunmalıdır.

Təcrübə göstərir ki, III-IV siniflərdə şagirdlərin **təşbeh** haqqındakı biliklərini möhkəmləndirmək məqsədilə həm yazılı, həm də şifahi çalışmalardan da istifadə etmək olar. Bura mətndən təşbehlərin seçilməsi, mətnin və ya cümlənin təşbehlər yaratmaqla genişləndirilməsi, təşbehlərin komponentlərinin müəyyən edilməsi və s. aid etmək olar. Dərsliklərdəki təşbehlərin seçərkən və ya müəyyənləşdirərkən üç şeyin mövcud olması şərti şagirdlərə izah olunmalıdır: a) nə müqayisə edilir; b)nə ilə müqayisə edilir; c) nəyə əsasən müqayisə edilir. Bu üç şərti şüurlu şəkildə dərk edən şagird bənzətmə əsasında yaranan obrazlı ifadələri seçməkdə, hətta özü bu cür ifadələr yaratmaqda çətinlik çəkməyəcəkdir. Şübhəsiz ki, bu istiqamətdə sistemli və müntəzəm işlər aparılarsa. Bənzətmələr üzərində iş bir tərəfdən şagirdin dünyagörüşünün inkişafına təkan verirsə, digər tərəfdən şagirdlər tərəfindən bənzətmələrin yaradılması yüksək hazırlıq

tələb edir. Çalışmaq lazımdır ki, təşbehlərin üzərində iş apararkən burada müqayisə olunan obyektlər əyaniləşdirilsin ki, mənimsəmənin şüurluluğu təmin edilsin.

Şagirdlərin bu sahədəki biliklərini möhkəmləndirmək və təkmilləşdirmək məqsədilə aşağıdakı iş formalarından istifadə edirlər:

a) bənzəyənə əsasən bənzədiləni təsəvvürdə canlandırmaq və onun nəyə necə oxşadılmasını aydınlaşdırmaq;

b) bənzədilənə əsasən bənzəyəni təsəvvürdə canlandırmaq və onun nə dərəcədə oxşadıldığını müəyyənləşdirmək və söyləmək;

c) iki əşya, hadisə arasında müstəqil müqayisə aparmaq və onların ümumi əlamətlərindən ən qüvvətlilərini müəyyən etmək.

**Metafora.** Məcazın mürəkkəb növlərindən biri metaforadır. Onu istixarə, ixtisar edilmiş müqayisə, gizli müqayisə də adlandırırlar. Burada bir əşya və ya hadisəyə aid olan səciyyəvi cizgilər (əlamətlər) digərinə köçürülür. Bir predmetin adının, əlamətinin, hərəkətinin başqası üzərinə köçürülməsi üçün həmin obyektə xas olan əlamətlərdən birisi bəzən də bir neçəsi əsas olur. Məsələn, tülkü heyvan adıdır. Bu heyvana xas olan hiyləgərlik, biclik kimi xüsusiyyətlər onun adının həm şifahi, həm də yazılı ədəbiyyat nümunələrində metafora kimi işlənməsinə səbəb olmuşdur. Müəlliflər öz əsərlərində bu xüsusiyyətlərin daşıyıcısı olan insanları tülkü adlandırmaqla metafora yaradır.

Metafora oxşarlıq əsasında yaranır. T. Əfəndiyeva metaforanın yaranması yollarını aşağıdakı kimi təsnif etmişdir:

- Zahiri cəhətdən oxşarlıq əsasında. Məsələn, qabın boğazı, ayaqqabının burnu və s.
- Daxili əlamətlərinə görə oxşarlıq əsasında. Məsələn, tülkü, dovşan və s.
- Canlılara, xüsusilə də insanlara aid hərəkətlərin əşyalar üzərinə köçürülməsi əsasında. Məsələn, gün doğur , təbiət gülür və s.

A.Abdullayev və A.Rəhimov isə təsnifatı aşağıdakı kimi vermişdir: a) forma; b) rəng; c) səs; ç) keyfiyyət.

**Metaforalar** isə yalnız əsəri bəzəməklə, onun təsirliliyini qüvvətləndirməklə, insanda bədii-estetik hisslər yaratmaqla qalmır, həm də mücərrəd məfhumları təfəkkürdə əyaniləşdirir, dərindən və məntiqi düşünmək bacarığının inkişafına səbəb olur. Ona görə də ibtidai siniflərdə oxu mətnlərinin tədrisində metaforalara xüsusi diqqət yetirilməli, sözaltı mənası müxtəlif xarakterli çalışmalar vasitəsilə şagirdlərə çatdırılmalıdır. Oxu materialında metafora üzərində işlərin aparılması şagirdlərin təfəkkürünün inkişafına müsbət təsir göstərir. Belə ki, şagird metaforik ifadələri dərk etməklə müxtəlif əşya və hadisələr arasındakı qarşılıqlı əlaqələri görə bilir. Nəticədə şagirdlərin təxəyyülündə qəhrəmanın bütöv obrazı canlanır. Bu obraz isə təfəkkürdə fikir oyadır, onları mahiyyətə varma, təhlil-tərkib aparma vəzifəsi ilə qarşılaşdırır.

**Metonimiya.** Metonimiya formal cəhətdən metaforaya bənzəsə də, onlar arasında müəyyən fərqlər vardır. Belə ki, metaforalar bir əşya və hadisəyə aid olan xarakter cizgilərin (əlamətlərin) digərinə köçürülməsi ilə yaranırsa, metonimiya bir söz və anlayışın sıx əlaqədə oduğu başqa söz və anlayışla əvəz olunmasıdır. Məsələn: Bağçalar gül açır, yenə yaz gəlir; Səsimizdən hər tərəf tez yuxudan ayılsın.; Meşəyə vəlvələ düşdü və s. Metonimiyanın növləri müxtəlifdir. Müşahidələr göstərir ki, ibtidai siniflərin dərslikərində olan mətnlərdə metonimiyanın ən çox iki növündən istifadə olunmuşdur.

- ✓ əşyanın bir neçə əlamətindən yalnız birini göstərənlər.
- ✓ şəxslərin və əşyaların adı əvəzinə onların xarakter əlamətlərini bildirənlər. Məsələn, <u>Div</u> nərildəyirdi., Ey<u> dələduz</u>, bura necə girmisən?! və s.

Bədii mətnlərin tədrisində metonimiyaların mənasını açmaqla kifayətlənmək olmaz. Eyni zamanda onlardan nə üçün istifadə etməsinin səbəbi də aydınlaşdırılmalıdır. Belə olduqda şagird sözü, onun mənasını hazır şəkildə qavramır, müxtəlif məkan və məqamlarda qazandığı funksiyanı şüurlu mənimsəyir,

yeri gəldikcə ondan düzgün və dəqiq istifadə etmək bacarığına yiyələnirlər. Bu isə dilə sərbəst və yaradıcı şəkildə yiyələnmək, təsvir olunan məzmun və ideyanı dərindən başa düşmək, dərk etmək deməkdir.

Bədii təsvir vasitələri üzərində işin təşkili oxu materiallarının şüurlu mənimsənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Oxunmuş mətnin məzmun və ideyasının dərindən mənimsənilməsi, eyni zamanda mətindəki hər bir söz və ifadənin şagird nitqində özünə yer tapması şüurlu oxunun nəticəsində reallaşa bilər. Şüurlu mənimsənilmənin təmin olunması üçün isə şagird oxuduğu materialda hər bir söz və ifadənin mənasını dərindən dərk etməlidir. Bunun üçün müəllimin üzərinə böyük vəzifələr düşür. Belə ki, müəllim hər dərsdə oxu materiallarının dili üzərində iş təşkil etməlidir. Mətn üzərində iş apararkən – mətnin məzmunu, quruluşu, müəllifin əsas ideyası, bu ideyanı ifadə etmək üçün istifadə etdiyi bədii təsvir və ifadə vasitələri izahı istiqamətində işlər daim diqqət mərkəzində saxanılmalıdır. Çünki dilimizdəki sözlər kontekstdən asılı olaraq həm məcazi, həm də həqiqi mənada işlənə bilir. Bu da şagirdlərin həmin bədii parçanı dərk etməsini və şüurlu mənimsəməsini çətinləşdirir. Ona görə də obrazlı ifadələr, məcazi məna daşıyan sözlər oxu prosesində izah edilməlidir. Çünki belə sözlərin mətndən xaric izahı mümkün deyildir.

## Ədəbiyyat


1.Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IV siniflər). Bakı, 2012

2.Борисова Л.Г. Обучение школьников культуре чтения.М., 2004

3.Bədii materiallar əsasında dilin təsvir vasitələri üzərində iş. Bakı: Maarif, 1991

4. Cabbarov X. Bədii ədəbiyyatda obrazlılıq. Bakı: Yazıçı, 1986

5.Həsənli B, Abdullazadə N. İfadəli oxu. Bakı: Müəllim, 304 s.
6. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.
7.Rəfili M. Ədəbiyyat nəzəriyyəsinə giriş. APİ nəşriyyatı Bakı 1958.səh.131- 171
8.Rəhimov A.N. İbtidai siniflərdə oxu təlimi. Bakı: Maarif, 1998, s.34-51
9.Цоллер В.Н. Экспрессивная лексика: семантика и прагматика// Филологические науки. - 1996. - № 6, с. 62-71
10. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)// Kurikulum, 2010, №3, s. 116-130
11. Виноградов В.В. Лексические вопросы перевода художественной прозы. Москва. МГУ, 1978. с.67.
12. http://anl.az/down/meqale/palitra/2014/iyul/382472.htt

## Oxu dərslərində lüğət üzrə işin yeri və spesifik xüsusiyyətləri

Oxu məşğələləri şagirdlərin lüğət ehtiyatlarını zəngi-nləşdirmək baxımından çox mühüm və zəruri bir mənbədir. Oxu dərslərində lüğət üzrə iş əsasən yeni sözlərin izahı, həmin sözlərin şagirdlərin fəal lüğət ehtiyatına daxil edilməsi, nitqin sinonimlər, omonimlər, çoxmənalı sözlər, antonimlər, obrazlı söz və ifadələr hesabına zənginləşdirilməsi şəklində aparılmalıdır. Müşahidələr göstərir ki, bəzi müəlliflər oxu dərslərində lüğət üzrə işi bir neçə çətin sözün izahı kimi başa düşür. Yəni oxunan mətnin içərisindəki bir neçə çətin sözü izah etməklə lüğət üzrə işi bitmiş hesab edirlər. Bunun əksinə olaraq, bir sıra müəllimlər də oxunan mətndə nə qədər söz varsa, hamısını izah etməyə çalışırlar. Beləliklə, bütöv dərs sözlərin izahına həsr edilmiş olur və mətnin məzmununun üzərində iş aparmağa vaxt qalmır.

Bəs necə olmalıdır? Hansı sözlər izah edilməlidir və necə izah edilməlidir? İzahı zəruri sayılan sözü necə seçmək

lazımdır? Oxu dərslərində lüğət üzrə işi düzgün təşkil etmək üçün müəllim nələri nəzəri almalıdır?

Bütün bu suallar ətrafında tədqiqat aparan və ya aparmağa səy göstərən alim-metodistlərin fikrincə, müəllim oxu dərslərində lüğət üzrə iş apararkən aşağıdakı məsələləri nəzərə almalıdır:

1. İzah ediləcək sözün mətnin məzmunu və ideyası ilə bağlılıq dərəcəsi.
2. İzah ediləcək sözün xarakteri, çətinlik dərəcəsi.
3. İzah ediləcək sözün izahı yolları. Hansı sözü hansı vasitə ilə izah etməyin məqsədəuyğunluğu.
4. İzah ediləcək sözün şagirdin təfəkkürünün inkişafına təsir dərəcəsi.
5. İzah ediləcək sözün qrammatika və orfoqrafiyanı mənimsəməyə kömək göstərmək dərəcəsi.
6. İzah ediləcək sözün şagirdin passiv, yoxsa fəal lüğətinə daxil edilməsi məsələsi.

Dərs prosesində sözün izah olunması vaxtını da əvvəlcədən müəyyənləşdirmək lazımdır. Sözlər xarakterindən, mətndəki mövqeindən və şagirdə tanış olub-olmaması vəziyyətindən asılı olaraq giriş müsahibəsi zamanı, mətn oxunarkən və mətn oxunulduqdan sonra izah edilə bilər.

Bilavasitə mətnin məzmunu ilə sıx bağlı olan, onun anlaşılmasını çətinləşdirən sözlər giriş müsahibəsi zamanı, izahı kontekstlə bağlı olan sözlər oxu prosesində, mənası kontekstdən xaric, asanlıqla izah edilə bilən sözlər isə, adətən, ya oxuya qədər, ya da oxudan sonra izah edilməlidir.

Təcrübəli müəllimlər bəzən çətin sözlərin seçilməsini və izahını şagirdlərin öhdələrinə buraxırlar. Bu, bir tərəfdən faydalı deyildir, çünki şagird bəzən zəruri sözü seçə bilmir və ya dəqiq izah edə bilmir. Digər tərəfdən bu faydalıdır, çünki şagird səssiz oxu prosesində çətin söz və ifadələri seçib izah edərkən onlarda müşahidəçilik, sözə diqqətli münasibət tərbiyə olunur.

Oxu dərslərində şagirdlərin lüğət ehtiyatını sinonimlər və antonimlər hesabına zənginləşdirməyə ciddi diqqət və

əhəmiyyət verilməlidir. Nitqin zənginliyi, dəqiqliyi müxtəlif sinonimlərdən məqamında istifadə etməkdən də asılıdır.

Şagirdin söz ehtiyatında sinonimlər nə qədər çox olarsa, o, sözlərin məna çalarlıqlarını bir-birindən o qədər asan fərqləndirə bilər və beləliklə də, fikirlərini, hisslərini daha dəqiq ifadə edə bilər.

Məsələn, V.Əhmədin "Qələm" şeirində şagirdlərin diqqəti aşağıdakı parçaya cəlb edilir.

Yenə də “kotan” əkib,
O, dəftəri “dağladı”.
Yağlıca iki alıb
Acığından ağladı.

Bu şeirdəki “kotan”, “dağladı”, “acığından” sözlərinin mənasının izahı maraq doğurur.

T.Mütəllibovun “Dilarə”şeirindəki bir parçada verilir:

Biri dedi: -Nə gözəldir,
Nə qəşəngdir bu görkəmin,
Ağappaqsan, “Qar qız” olsun
Qoy bu gündən adın sənin.

Bu şeirdəki gözəl, qəşəng sözləri sinonimdir. Şagirdlər bu sözlər arasındakı incə məna fərqlərinə də fikir verir və şairin yeknəsəklikdən qaçmaq üçün sözdən necə istifadə etməsini görürlər.

Şagirdlər sinonimlər sırasını seçmək və ondan daha müvafiq olanını ayırmaqla öyrənirlər ki, sinonimlərdən istifadə etmək, fikri daha aydın verməklə, qəhrəmanın xarakterini dəqiq təsvir etməkdə müəllifə böyük kömək göstərir. Bu isə əsərin ideyasının və məzmununun dərindən başa düşülməsini təmin edir. Oxu dərslərində antonimlər üzərində iş aparmaq da çox faydalıdır. Şagirdlərin bir-birinə zidd olan sözləri tapmaları, onların məna ziddiyyətini öyrənmələri, şagirdlərin lüğət ehtiyatını zənginləşdirir. Məsələn: şagirdlərin diqqəti aşağıdakı mətnlərə cəlb olunur:

Az danış, çox iş gör

Yaxud:

Seyr edirəm Abşeronun
Səhərini, axşamını.

Bu parçalarda az-çox, səhər-axşam, sözləri antonimlərdir. Müəllim bu sözlərin antonim olmasını aydınlaşdırmaqla, onların bədii əhəmiyyətini də şagirdlərə izah etməlidir.

Lüğət üzrə işin mühüm sahələrindən biri də nitqin obrazlılığı üzərində işdir. Adətən, mətn oxunub çətin söz və ifadələr izah edildikdən sonra mətn hissə-hissə oxunarkən şagirdlərin diqqəti mətndə olan obrazlı ifadələrə cəlb edilir. Bu zaman şagirdlər müəyyən bir bədii lövhənin şair və yazıçı tərəfindən hansı obrazlı ifadələrin köməyi ilə yaradıldığının şahidi olurlar.

Şagirdlərin diqqəti "Üçrəngli bayraq" şeirindəki obrazlı ifadələrə cəlb edilir (obrazlı ifadələrin altından xətt çəkilmişdir).

Bu üçrəngli bayrağım
Gözümün işığıdır.
Azadlıq yağışndan
Doğan göy qurşağıdır.

Obrazlı ifadələr üzərində iş apararkən çalışmaq lazımdır ki, şagirdlər bir tərəfdən obrazlı ifadələrin əsərin bədii qüvvəsini artıran vasitə olduğunu anlasınlar, digər tərəfdən də bu iş əsərin məzmununu, ideyasını dərindən, şüurlu dərk etmək vasitəsinə çevrilsin.

Oxu dərslərində leksik işin müxtəlif növlərindən də istifadə etmək məsləhət görülür. Onlardan ən vaciblərini göstərək:

1. Sözlərin çoxmənalılığını izah edin.
2. Hər hansı bir fikri daha dəqiq ifadə etmək üçün bir sözü başqa sözlə əvəz edin: sular odlanıb yanır-sular alışıb yanır və s.
3. Mətndən sinonimləri (terminsiz) və ya antonimləri (terminsiz) seçin, onlara öz bildiklərinizi əlavə edin: sovqat-pay-hədiyyə-peşkəş; əkildi (vay quşlarım əkildi) - aradan çıxdı-uçub getdi və s.

4. Mətndə məcazın müxtəlif növlərini seçin, onları başqa müvafiq məcazlarla əvəz edin.

5. Yeni sözlər üçün lüğətçə düzəldin və həmin lüğətçədən yeri gəldikcə istifadə edin.

6. Verilmiş cümlələrdə nöqtələrin əvəzinə eyni sözü müxtəlif mənalarda işlədin. Məsələn, kök sözünə aid: Ağacın … yerdə olur. Dünən bazardan bir ... qoyun aldıq. Həyətimizdə çuğundur, turp və … əkmişik və s.

7. Çoxmənalı sözlərə sinonimlər tapın: dağın başı, dağın kəlləsi, dağın zirvəsi…, işi düzəldi-işi baş tutdu-işi əmələ gəldi və s.

8. Çoxmənalı sözlərə antonimlər tapın: yüngül təbiətli-ağır təbiətli; əzablı günlər-səfalı günlər; çətin iş-asan iş və s.

9. Söz birləşməsinin bir sözlə əvəz edilməsi. Məsələn: taqətdən düşmək-yorulmaq; başa düşmək-anlamaq; yola düşmək-getmək; üz döndərmək-küsmək və s.

10. Verilmiş sözlərin hansı əlamətlərinə görə çoxmənalı söz, antonim və ya sinonim olmasına müəyyənləşdirin.

11. Öyrənilmiş əsərdə (mətndə) iştirak edən müsbət və mənfi surətlərə aid antonim və sinonimləri seçin.

Təcrübə göstərir ki, ifadə və inşalara hazırlıq prosesində də lüğət üzrə iş böyük əhəmiyyət kəsb edir. İfadə və inşaya hazırlıq mərhələsində aparılan leksik iş ifadə və inşanın daha dolğun, məzmunlu yazılmasına imkan yaradır.

Şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək uzunmüddətli, müxtəlif növlü, zəruri və faydalı işdir.Şagirdin təhsil aldığı bütün illərdə, bütün dərslərdə və dərsdənkənar məşğələlərdə lüğət ehtiyatını zənginləşdirmək üzərində iş aparılması zəruridir.

## Ədəbiyyat


1. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2003
2. Balıyev H. Ana dilinin tədrisi metodikası. Bakı, 1997

3. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. Azərbaycan dili (2-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2009

4. İsmayılov R.,Orucova G.,Cəfərova D.,Xəlilov Z. Azərbaycan dili (3-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2010

5. İsmayılov R., Abdullayeva S., Cəfərova D., Qasımova X. Azərbaycan dili (4-cü sinif üçün dərslik). Bakı: Altun Kitab, 2010

6. Kərimov Y.Ana dilinin tədrisi metodikası. Bakı, 2005

7. Kərimov Y. İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları. Bakı, 1978

8. Orta məktəbdə Azərbaycan dilinin tədrisi. I hissə. Bakı: Maarif, 1976

9. Rəhimov A.Ana dilinin tədrisi metodikası. Bakı, 2003

10. Uşinski K.D. Seçilmiş əsərləri. Bakı, 1953

11. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008

## TEZAURUS

**Təlimin məzmunu-**şəxsiyyətin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmusudur.

**Təlim nəticəsi-**müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutlan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.

**Məzmun xətti-**fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmununun zəruri hissəsidir.

**Məzmun standartı-**dövlətin təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbdir.

**Qiymətləndirmə standartı-**təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.

**Təlim strategiyası-**təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur.

**Kurikulum-**təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir.

**Dərslik-**dövlət təhsil standartları əsasında hazırlanmış kurikulumlara uyğun olan, şagirdlərdə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişlərinin aşılanmasına, demokratik dünyagörüşünün formalaşmasına imkan yaradan, onları düşünməyə sövq edən, məntiqi təfəkürü inkişaf etdirən, tətbiqi xarakter daşıyan, inteqrativ xüsusiyyətə malik əsas dərs vəsaitidir.

**İnteqrasiya-**müəyyən təhsil sistemi çərcivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişaf və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmağı və onları sistemləşdirməyi tələb edən didaktik prinsipdir. Dünyanın təhsil təcrübəsində şaquli və üfüqi olmaqla onun iki növündən istifadə edilir.

**Milli kurikulum-**ölkə miqyasında təhsilin hər bir pilləsindəki fəaliyyətlərin həyata keçirilməsinə imkan yaradan və onları istiqamətləndirən konseptual sənəddir.

**Fənn kurikulumu-**fənn üzrə fəaliyyətləri istiqamətləndirən konseptual sənəddir.

**Pedaqoji innovasiya-**təhsil müəssisələrində, pedaqoji nəzəriyyələrdə, müəllim və şagirdlərin fəaliyyətlərində, təlim-tərbiyənin məzmununda, forma, üsul və vasitələrində, idarəetmədə, məqsəd və nəticələrdə, ümumən, pedaqoji sistemdə baş verən yeniliklərdir. Onlar müəyyən dövr ərzində sabit qalaraq ənənəvi qaydada davam etdirilir, həmin dövrün səciyyəvi pedaqoji hadisəsinə cevrilir.

**Nəticəyönümlülük-**yeni kurikulumların hazırlanmasında nəzərə alınmış əsas prinsiplərindən biridir. Bu pirinsipin tələbinə görə müəyyən olunmuş bacarıqlardan ibarət zəruri məzmun nəticələr formasında verilir.

**Taksonomiya-**yanan sözdür (taxus-qayda ilə yerləşmə+qanun deməkdir), təlim məqsədlərinin şəbəkəli və ya sistemli təsnifatıdır. Elmi termin kimi ilk dəfə botanika və zoologiyada əmələ gəlmiş, heyvanların və bitki orqanizmilərinin qruplara görə bölgüsü anlamında işlənmişdir. 30-cu illərdə psixologiyada istifadə olunmağa başlanmışdır.

**Şəxsiyyətyönümlülük**–Milli Kurrikulumun hazırlanması zamanı nəzərə alınmış didaktik prinsiplərdən biridir. Onun tələbinə görə, kurikulumların tərkibində olan təlim standartları, strategiyaları və qiymətləndirmə mexanizmləri şagird şəxsiyyətində idraki, hissi və psixomotor bacarıqlar əsasında yaranan keyfiyyətlərin formalaşmasına yönəlir. Çox vaxt bu keyfiyyətlər kompetensiyalar (səriştələr, qabiliyyətlər), dəyərlər və ya mədəniyyətlər terminləri ilə ifadə edilir. Şəxsiyyətyönümlü təhsilin keyfiyyət göstəricisi sadəcə bilik və ya bacarıqlar deyil, milli səviyyədə müəyyən olunmuş ümumi nəticələrə uyğun səviyyənin (kompetensiya, keyfiyyət və ya mədəniyyət göstəricilərinə uyğun səviyyənin) əldə edilməsidir.

**Təhsildə qiymətləndirmə sistemi-**beynəlxalq milli və məktəb səviyyələrində aparılan qiymətləndirməni əhatə edir. Orada zəruri məzmunun (qiymətləndirmə standartlarının), vasitələrin (test, sual və s.), formaların, üsulların müəyyənləşdirlməsini və onların reallaşdırılmasına aid prosedurları özündə birləşdirir.

**Fəal (interaktiv) təlim-**şagirdlərin idrak fəallığına əsaslanır, təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitinin yaradılmasını tələb edir.

**İdrak fəaliyyəti-**idrak prosesində həyata keçirilən fəaliyyətdir. Psixoloqların fikrincə, idrak fəaliyyətində bilmək, anlamaq, tətbiq etmək, sintez etmək və dəyərləndirmək əsas mərhələlər hesab olunur. Müasir təhsil konsepsiyasına görə, şagirdin təlim fəaliyyətinin psixopedaqoji əsasını məhz həmin parametrlər təşkil edir. Ona görə də "hafizə məktəbi"ndən fərqli olaraq "təfəkkür məktəbi"ndə təlim stanadartları hazırlanarkən onlar əsas götürülür.

## MÜNDƏRİCAT

**ÖN SÖZ................................................................................3**
**I FƏSİL. AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI ELM KİMİ**
Azərbaycan dilinin tədrisi metodikası elminin obyekt, predmet, məqsəd və vəzifələri .................................6
Azərbaycan dilinin tədrisi metodikasının inkişaf qanunauyğunluqları............................................................11
Azərbaycan dilinin tədrisi metodikasının tədqiqat metodları ............................................................................15
Azərbaycan dilinin tədrisi metodikasının başqa elmlərlə əlaqəsi ...............................................................19
**II FƏSİL. ANA DİLİNİN TƏDRİSİ TARİXİNƏ DAİR**
Azərbaycan dilinin tədrisi metodikası elminin keçdiyi inkişaf yolu..........................................................24
Azərbaycan dilinin tədrisi metodikasının keçdiyi inkişaf yolu (XIX əsr)...............................................................24
Görkəmli maarifçilərin Azərbaycan dilinin tədrisi metodikasının inkişafında rolu.............................................35
Proqram, dərslik və dərs vəsaitlərinin tərtibi haqqında..................................................................................39
XX əsrin I və II yarısında Azərbaycan dilinin tədrisi metodikasının inkişaf tarixi..................................................47
Azərbaycan dilinin tədrisi metodikası elminin müasir vəziyyəti. Milli Kurikulum, yeni kurikulum.......................61
Kurikulum anlayışının məzmunu, xarakterik xüsusiyyətləri, məqsəd və vəzifələri………………………..63
**III FƏSİL. AZƏRBAYCAN DİLİ İBTİDAİ SİNİFLƏRDƏ ƏSAS TƏLİM FƏNNİ KİMİ**
Azərbaycan dilinin tədrisi metodikasının ümumi məsələləri ..................................................................................71
Azərbaycan dili ibtidai siniflərdə təlim fənlərinin əsasıdır ......................................................................................77
Azərbaycan dilinin təlim və tərbiyəvi əhəmiyyəti ...............81

Azərbaycan dili kurikulumu, əhəmiyyəti, məqsəd və vəzifələri ....... 85
Məzmun xətləri ....... 89
İbtidai təhsil pilləsində məzmun xətləri üzrə təlim nəticələri ....... 90
Məzmun standartı və növləri ....... 93
İbtidai siniflərdə fəndaxili və fənlərarası inteqrasiyanın məzmunu ....... 94
**IV FƏSİL. FƏAL TƏLİMİN NƏZƏRİ MƏSƏLƏLƏRİ**
Fəal (interaktiv) təlimin əsas xüsusiyyətləri ....... 106
Fəal təlimin mexanizmləri ....... 109
Fəal dərsin quruluşu. Fəal dərsin ənənəvi dərslə oxşar və fərqli cəhətləri ....... 110
Fəal dərsdə interaktiv iş formalarından istifadə ....... 114
Qrupun qiymətləndirilməsi ....... 115
Fəal dərsin planlaşdirilması ....... 115
Məktəbdaxili qiymətləndirmə ....... 116
Dərslik komplektinin əhəmiyyəti ....... 121
Müasir fənn kurikulumlarında təlim strategiyaları ....... 124
Təlim fəaliyyətinin planlaşdırılması ....... 126
Fəal/interaktiv təlimin üsul və texnikaları ....... 128
Fəal və interaktiv təlim metodlarının səciyyəsi ....... 129
Azərbaycan dili dərslərində fəal/ interaktiv təlim metodlarından istifadə ....... 136
İnteraktiv metodların tətbiqində motivasiyanın yaradılması və iş formaları ....... 162
**V FƏSIL. SAVAD TƏLİMİNİN METODİKASI**
Savad təliminin məqsəd və vəzifələri ....... 173
Savad təliminin üsulları ....... 176
I sinifdə Azərbaycan dili üzrə məzmun və planlaşdırma ....... 182
Savad təliminin sistemi. Savad təliminə hazırlıq dövrü ....... 196
Savad təlimi dövründə səslərin öyrədilməsi prinsipləri ....... 202

Savad təlimi dövrü ............................................................ 204
Savad təlimindən sonrakı dövr............................................ 214
Savad təlimi dövründə nitq inkişafı ..................................... 220
Ədəbi tələffüz qaydalarının öyrənilməsi üzrə
aparılan işlər .............................................................. 221
Lüğət ehtiyatının zənginləşdirilməsi üzrə
aparılan işlər .............................................................. 221
Məntiqi çalışmalar üzrə aparılan işlər .................................. 223
Cümlə qurmaq üzrə aparılan işlər ....................................... 224
Savad təlimi dövrü üçün didaktik oyunlar ............................ 225
Oxu və yazı prosesinin psixoloji çətinlikləri ........................ 226
Savad təlimi dövründə istifadə olunan vəsaitlər ................... 230
Müəllimin savad təlimi məşğələlərinə hazırlaşması ............ 234
**VI FƏSİL. YAZI TƏLİMİ**
Yazı təliminin metodikası. Yazı məzmun xətti..................... 237
İbtidai təhsil pilləsində yazı məzmun xətti üzrə təlim
nəticələri ....................................................................... 238
Yazılı çalışmaların növləri və aparılması metodikası ........... 246
Üzündənköçürmə yazılar .................................................... 247
İmlalar ........................................................................... 248
**VII FƏSIL. OXU TƏLİMİNİN METODİKASI**
Oxu təliminin ümumi məsələləri ......................................... 251
Oxu təliminin məqsəd və vəzifələri ..................................... 252
Oxu təliminin əhəmiyyəti və başlıca istiqamətləri................ 257
Oxu təliminin digər elmlərlə əlaqəsi.................................... 260
Oxu təliminin metodikası.................................................... 267
Strategiyalı oxu ............................................................... 275
Oxuya verilən başlıca tələblər. Oxu vərdişlərinin
inkişafı .......................................................................... 276
Oxunun növləri (modelləri) ................................................ 287
Oxu təlimində iki yanaşma ................................................. 295
Oxu prosesində baş verən nöqsanlar.................................... 298
**VIII FƏSİL. MÜXTƏLİF JANRDAN OLAN ƏSƏRLƏRİN TƏDRISI METODİKASI**
Müxtəlif janrdan olan əsərlərin oxusunun

xüsusiyyətləri ........................................................................303
Hekayələrin tədrisi metodikası ..........................................307
Nağılların tədrisi metodikası...............................................312
Oxu dərslərində nağıllar üzrə işin təşkili ............................316
Seirlərin tədrisi metodikası ................................................321
Təmsillərin tədrisi metodikası.............................................324
Atalar sözlərinin tədrisi metodikası ....................................329
Tapmacaların tədrisi metodikası ........................................333
Məlumatlandırıcı mətnlərin oxusu.......................................338
Publisistik mətnlərin oxusu.................................................339
Elmi - kütləvi mətnlərin oxusu ...........................................339
Oxu materiallarının tematikası............................................343
Müşahidə dərslərinin təşkili metodikası ..............................344
Ekskursiya dərslərinin təşkili metodikası ............................347
Əşya dərslərinin təşkili metodikası......................................351
Ümumiləşdirici dərslərin təşkili metodikası ........................353
**IX FƏSİL. SİNİFDƏNXARİC OXUNUN TƏŞKİLİ METODİKASI**
Sinifdənxaric oxunun məqsəd və vəzifələri......................358
Şagirdlərin mütaliə marağını inkişaf etdirməsi ................361
Sinifdənxaric oxunun ümumpedaqoji məsələləri ............365
Sinifdənxaric oxu üçün materialların seçilməsi................371
Sinifdənxaric oxunun təşkili metodikası..........................375
Sinifdənxaric oxunun yeri və kitabla ünsiyyət mədəniyyəti.......................................................................378
**X FƏSİL. OXU DƏRSLƏRİNDƏ NİTQ VƏRDİŞLƏRİNİN İNKİŞAFI VƏ LÜĞƏT ÜZRƏ İŞ**
İbtidai siniflərdə mövzu üzrə nağıletmə .............................381
Oxu materiallarının tədrisində bədii təsvir vasitələri üzrə aparılan işlər............................................................382
Oxu dərslərində lüğət üzrə işin yeri və spesifik xüsusiyyətləri ........................................................................391
**TEZAURUS**.......................................................................397

# NABAT CƏFƏROVA

# İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI

***Dərslik***

***(I hissə)***

***Nəşriyyatın direktoru:*** ***Hüseyn Hacıyev***
***Texniki redaktor:*** ***Gülbəniz Məmmədova***
***Korrektor:*** ***Sevinc Mamoyeva***
***Dizayn:*** ***Müşfiq Hacıyev***
***Cildçi:*** ***Azad Həmzəyev***
***Montaşçı:*** ***Elmira İsmayılova***

***Çapa imzalanmış 07.11.2016-ci il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 25,5***
***Sifariş 465, sayı 200***

***ADPU-nun mətbəəsi***
***Bakı, Ü.Hajıbəyli küçəsi, 68***
***Tel: (+912) 493-74-10***
***E.mail. Poliqrafiya@mail.ru***